Nizami Xudiyev

# XAÇMAZ

# XAÇMAZ:
## GÖRÜŞLƏR, DÜŞÜNCƏLƏR...

**SEÇİLMİŞ ƏSƏRLƏRİ**

**XI cild**

«Elm və təhsil»
Bakı – 2014

***XAÇMAZ***

*Elmi redaktor:* Yaqub Mahmudov
*AMEA-nın müxbir üzvü,*
*tarix üzrə elmlər doktoru, professor*

*Rəyçi:* Kamal Abdullayev
*AMEA-nın həqiqi üzvü,*
*filologiya üzrə elmlər doktoru, professor*

**Xudiyev N.M. Xaçmaz.**
**Bakı, "Elm və təhsil", 2014.**

Kitabda Azərbaycan rayonları içərisində xüsusi yeri olan, Azərbaycanın "Şimal qapısı" adlandırılan Xaçmazın tarixi keçmişinə nəzər salınır, əhalisinin etnik tərkibi, şəhərsalma mədəniyyəti, iqtisadiyyatı, arxeoloji material-larına aid mənbələr tədqiq olunur. Xaçmazda bu gün aparılan misilsiz quruculuq işlərinin inkişafından danışılır.

"Heydər Əliyev və Xaçmaz", "İlham Əliyev və Xaçmaz" bölmələrində isə Ulu öndərimizin və möhtərəm Prezidentimizin Xaçmaza uğurlu səfərlərindən söhbət açılır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$\frac{4602000000}{N098 - 2014}$ **qrifli nəşr**

© **"Təhsil", EİM, 2010**
© **"Elm və təhsil", 2014**



***Xaçmaz rayonu Azərbaycanın ən gözəl guşələrindən biridir. Burada təbiət də gözəldir, torpaq da münbitdir və bunların hamısından əhəmiyyətli odur ki, buranın adamları da qəhrəmandır, fədakardırlar.***

***Heydər Əliyev***

***Biz Xaçmaz rayonunun timsalında bu gün Azərbaycanda apardığımız siyasətin nəticələrini görürük.***

***İlham Əliyev***




***Azərbaycanın dilbər guşələrindən olan, qədim tarixə malik Xaçmaz respublikamızın şimal bölgəsində yerləşən sərhəd rayonlarından biridir. 1930-cu ildə rayon kimi təşkil olunub. Rayonun 156 min nəfər əhalisi, 1046 kvadrat kilometr ərazisi, 2 şəhəri, 12 qəsəbəsi, 136 kəndi, 28 inzibati ərazi vahidliyi, 70 bələdiyyəsi var. Xaçmaz rayonu Quba, Qusar, Dəvəçi rayonları, Rusiya Federasiyası və Xəzər dənizi ilə həmsərhəddir. Rayonda azərbaycanlılarla yanaşı 22 xalq və etnik qrupdan olan millətlərin nümayəndələri yaşayırlar. Xaçmaz rayonu respublikamızda inkişaf etmiş iqtisadiyyatı, kənd təsərrüfatı, sənayesi, əsrarəngiz Yalama–Nabran istirahət zonası və Şollar suyu ilə məşhurdur.***



**BİR NEÇƏ SÖZ**

*Bu gün Azərbaycan xalqı öz tarixinin ən məsul dövrünü yaşayır, dövlət müstəqilliyini möhkəmləndirmək, onu dönməz, əbədi etmək üçün səylə çalışır, ərazi bütövlüyünün bərpası yolunda məqsədyönlü tədbirlər həyata keçirir, gələcək xoş güzəranını təmin etmək məqsədilə misli görünməmiş nailiyyətlər əldə edir.*

*Ülvi hisslərlə yaşayan hər birimiz arzu edirik ki, doğma ocağımızda daim işıq yansın, firavan yaşayaq, balalarımızın gələcəyi xoşbəxt olsun, ata-analarımız ahıl yaşlarında layiqli ömür sürsünlər. Bu həm də o deməkdir ki, dövlətimiz möhkəmlənsin, qloballaşan dünyaya daha yaxından inteqrasiya edərək tərəqqinin önündə getsin, insan hüquqları, qanunçuluq ali məqsədə çevrilsin, azad söz, azad insan, demokratiya gündən-günə inkişaf etsin, çiçəklənsin. Vətənini, xalqını sevən hər bir kəs bu yüksək amallar uğrunda daim mübarizə aparmalı, öz imkanları daxilində əlindən gələni əsirgəməməlidir.*

*Elmi və ictimai sahədə fəaliyyət göstərən bir insan kimi məni də bu ali hisslər, duyğular daim çalışmağa, mübarizə aparmağa səsləmişdir. Uzun illər Ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi altında çalışmış, fəaliyyət göstərmiş, necə yaşamağı, xalqa necə xidmət etməyi öyrənmişəm...*

*Fəaliyyətim dövründə bir sıra ictimai və dövlət vəzifələrində çalışmış, vətənimizin və xalqımızın xoşbəxt gələcəyi naminə bütün biliyimi, bacarığımı sərf etmişəm. Bu gün də mənə göstərilən yüksək etimadı doğrultmağa çalışıram.*

*Bunlarla yanaşı böyük fərəh duyuram ki, qədirbilən xalqımız uzun illərdir ki, məni şərəfli bir ada - millət vəkili adına layiq görmüşdür. Artıq üçüncü dəfədir ki, deputat seçilmişəm. 1995-ci və 2000-ci illərdə namizədliyim Naxçıvan Muxtar Respublikasının Şərur-Babak seçki dairəsindən verilmişdi. Bunu Ulu öndərimiz, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyev məsləhət görmüşdü. Hər iki seçkidə mən yüksək nəticələrlə deputat seçilmişdim.*

*2005-ci ildə Milli Məclisə üçüncü çağırış deputat seçkiləri zamanı da naxçıvanlılar həmin dairədən mənim deputat seçilməyimi arzulayırdılar. Lakin seçkilər öncəsi YAP-dan bildirdilər ki, bu dəfə namizədliyimin Naxçıvandan deyil, başqa bir bölgədən verilməsi nəzərdə tutulub. Bunu onunla əsaslandırdılar ki, kifayət qədər tanınmış bir adam olduğuma görə namizədliyimi Azərbaycanın istənilən bölgəsindən verib əhalinin dəstəyini qazana bilərəm.*

*Ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev cənablarının tövsiyəsi, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin məsləhəti ilə namizədliyimin 56 saylı Xaçmaz kənd seçki dairəsindən verilməsi qərarlaşdırıldı. Möhtərəm Prezidentimiz və Yeni Azərbaycan Partiyası tərəfindən mənə göstərilən bu böyük etimad fərəh hissimi bir qədər də artırdı.*

*Demokratik, olduqca şəffaf keçirilən növbəti parlament seçkisində seçiləcəyim dairədən deputat mandatına 19 namizəd var idi. Bəli, böyük bir imtahan qarşısında qalmışdım. Lakin Heydər Əliyev məktəbini keçmiş bir insan kimi qələbənin yeganə mənbəyini xalqla bir yerdə olmaqda, onların düşüncələri ilə, gündəlik qayğıları ilə yaşamaqda görürdüm. Seçiləcəyim seçki dairəsinin bir şəhər, iki qəsəbə və 103 kəndinin demək olar ki, hamısında oldum. İndi həmin günləri xatırladıqca ürəyim dağa dönür. Seçicilərimin mənə göstərdiyi qayğını, diqqəti, qonaqpərvərliyi heç vaxt unutmuram.*

*Çoxsaylı görüşlər, toy və yas məclislərindəki iştirakım, oradakı səmimi, açıq söhbətlər mənə yerlərdəki vəziyyəti, problemləri, camaatın dərd-sərini öyrənməyə daha çox imkan verdi. Kəndbəkənd gəzdikcə, ziyalılarla, ağsaqqallarla, yerli camaatla görüşdükcə məndə bu bölgəyə, insanlara sevgi, məhəbbət daha da artdı. Səmimi deyim ki, Xaçmaz mənə doğma Şahbuzumu, təbiəti, meşələri isə Batabatı xatırlatdı. Məndə bir daha əminlik yarandı ki, doğma Azərbaycanımızın hər bölgəsi hər birimizə əzizdir. Xaçmazda mən özümü bəzi deputatlığa namizədlərin dediyi kimi "yad" yox, doğmadan da doğma hiss edirdim.*

*Görüşlər zamanı bir ağbirçəyin üzərlik yandırmasını, digərinin məni müqəddəs "Qurani-Kərim"in altından keçirməsini xoş xatirə kimi xatırlayıram. Bəlkə də bu dualar məni gələcəkdə gözlənilən təhlükələrdən qorudu.*



*Ən çox xatırlanan və heç vaxt unudulmayan isə görüşlərdən yorğun Bakıya qayıdarkən keçirdiyim ağır avtomobil qəzasından sonra xaçmazlıların mənə bəslədikləri doğma münasibət oldu. Saysız-hesabsız zənglər, teleqramlar, görüşlər, insanların baş verən hadisədən təəssüf hissi keçirmələri, narahatçılıqları mənim tezliklə normal həyata qayıtmağımda həlledici rol oynadı.*

*2005-ci il 6 noyabr tarixini isə həyatımın ən unudulmaz günlərindən biri kimi daim xatırlayıram. Xəstəxanada həyat uğrunda mübarizə apardığım saatlarda əziz, doğma xaçmazlılar məni çox yüksək nəticə ilə özlərinə millət vəkili seçdilər.*

*Əziz xaçmazlılar! Həyatım boyu sizə minnətdaram, borcluyam və mübaliğəsiz deyirəm ki, sizin səsləriniz məni təkcə deputat etmədi, eyni zamanda tezliklə qaynar həyata qaytardı.*

*Bölgənin Prezidentimizi sevən, dövlətçiliyimizi qoruyan, Ulu öndərimiz Heydər Əliyevin ideyalarını dönmədən həyata keçirən qəhrəman, qonaqpərvər, zəhmətsevər insanlarının çiyin-çiyinə çalışmaları, respublikamızın "Şimal qapısını" çiçəklənən bir diyara çevirmələri məni bu bölgənin tarixi, təbiəti, insanları barədə kitab yazmağa ruhlandırdı.*

*Hər bir tikilən bina, ucaldılan abidə, yazılan kitab tarixin yaşadılması üçündür. Çalışdım ki, bu kitabda Xaçmazın hələ tam öyrənilməmiş tarixini, bu gününü, gözəlliklərini, Ulu öndərimizin təbirincə desək, "bunlardan ən qiymətlisini - insanlarını" yazıb-yaşadım, xoşbəxt günlərini, gələcək inkişafını oxuculara çatdırım.*

*Xaçmaz haqqında çox yazılıb, yazılır və yazılacaq. Qoy mənim bu kitabım da doğma Xaçmaza və xaçmazlılara kiçik töhfəm olsun.*

**Müəllif**

## XAÇMAZIN TARİXİNƏ BİR NƏZƏR

Coğrafi baxımdan Xaçmaz rayonunun yerləşdiyi ərazi uca Qafqaz dağları ilə Xəzər dənizinin arasında olan dar keçiddədir. Bura əsasən düzənlikdən ibarət olmaqla, Samur-Dəvəçi ovalığına aiddir. İqlim baxımından yayı quraq, mülayim-isti, qışı isə mülayim-soyuq olmaqla, yağıntılı keçir. Bol sulu çayları, münbit torpağı, meyvəli meşələri, bağları Xaçmaz rayonunun ərazisində ta qədimdən insanların yaşamasını mümkün etmişdir.

Xaçmazın qədim tarixinin şanlı səhifələri zaman-zaman öyrənildikcə və bu səhifələr "dil açdıqca" məmləkətimizin qəhrəmanlıq tarixi gözlərimiz önündə canlanır və hər birimiz qürur hissi keçiririk.

Qədim tarixi İpək yolunun üstündə yerləşən, şərqdən qərbə, şimaldan cənuba karvanların axın-axın keçdiyi, səyyahların dolaşdığı, bir çox elmi və tarixi mənbələrdə adı Müşkür mahalı kimi çəkilən bu torpaq müasir Xaçmazın əhatə etdiyi ərazidir.

Xaçmaz rayonu Azərbaycanın şimal bölgəsindəki qədim tarixə malik olan yurd yerlərimizdəndir. Bu bölgədən tapılmış maddi mədəniyyət nümunələri, tarixi memarlıq abidələri, bu gün tarix-diyarşünaslıq muzeyində nümayiş etdirilən paleontoloji daş nümunələr ibtidai insanların bu ərazidə yaşadığını sübut edən amillərdəndir. Rayonun Tel kəndindən cilalanmış daş baltaların, Sərkərtəpə kurqanından daş və sümükdən hazırlanmış əmək alətlərinin, Çanaxır kurqanından isə toxuculuq və əyiricilik dəzgahının hissələrinin tapılması bu ərazidə ta qədimdən insanların



müxtəlif əmək və sənət sahələri ilə məşğul olduğunu təsdiq edir.

Tarixçi alimlərin araşdırmalarına görə qədim dövrlərdən keçən əsrin əvvəllərinə qədər İrandan, Gürcüstandan, Arran və digər bölgələrdən Azərbaycana gətirilən bütün ticarət, alış-veriş malları, hərbi yüklər Şamaxıdan keçərək Dərbənd və Niyazabadın limanlarına daşınmış, oradan da quru və su yolları ilə Dağıstana, Rusiyaya və başqa ölkələrə göndərilmişdir. Bu yol xalq arasında "Şirvan yolu" kimi tanınırdı. İlk orta əsrlərin ərəb müəlliflərinin təsvir etdikləri bu yoldan təxminin iki min il istifadə edildiyi göstərilir.

Xaçmazın bir çox yurd və yaşayış yerlərinin, tarixi abidələrinin aşkara çıxarılması üçün arxeoloqlar tərəfindən arxeoloji qazıntılar, tarixçilər tərəfindən elmi axtarışlar, araşdırmalar aparılmış, 5 min il yaşı olan Sərkərtəpənin, 6-7 yüz il yaşı olan məşhur Niyazabadın qaranlıq səhifələrinə işıq salınmış, elmə və geniş ictimaiyyətə maraqlı məlumatlar çatdırılmışdır.

Azərbaycan tarixinin müxtəlif qaynaqlarını, yəni arxeoloji və yazılı abidələrini araşdırdıqca, mənbələrini öyrəndikcə məlum olur ki, Xaçmaz bölgəsinin tarixi Eneolit dövründən başlayır. Tarixi inkişafın son tunc və ilk dəmir dövründə iri tayfa ittifaqları yaranmışdır ki, bu ittifaqlara nüfuzlu tayfa başçıları rəhbərlik edirdi. Bu dövrdə və sonralar tayfa başçıları və onların ailə üzvləri üçün nəhəng kurqanlar ucaldılırdı.

Kür-Araz mədəniyyətinə aid ilk tunc və ilk dəmir dövrünü əhatə edən kurqanların Xaçmaz rayonunda qeydə alınması dediklərimizi bir daha təsdiq edir. Böyük Qafqaz sıra dağlarından Dərbənd keçidi vasitəsilə Xəzər dənizinin qərb sahili boyunca ərazilərdə köçəri tayfaların və yadelli

işğalçıların qoymuş olduqları qəbir abidələr də Xaçmazın ulu keçmişindən xəbər verir. (Bax: Şəkil 1. 2. Qədim qəbiristanlıqdakı qəbir daşları. Xudat şəhəri, Şollar kəndi.)

Miladdan əvvəl VI əsrə qədər Albaniyanın Xəzər sahilindəki ərazilərində – Dərbənddən Beşbarmaq dağınadək əvvəllər massagetlər yerləşmiş, sonralar hunların yaratdığı Mazqut və ya Masqut adlı dövlət fəaliyyət göstərmişdir. Erkən orta əsrlərdə Şimali Azərbaycan əhalisinin bir qismi massaget (maskut) adlandırılırdı. Ayrı-ayrı vaxtlarda Dərbənd keçidi (alban qapıları) vasitəsilə Ön Asiyaya doğru türk tayfalarının axınları içərisində müxtəlif tayfalar: kimmer, skit, sak, massaget və hun adı altında birləşərək Qafqazda, eləcə də Xaçmaz bölgəsində mənşəcə özlərinə qohum olan digər türk tayfaları ilə qaynayıb qarışmışdılar. Azərbaycan ərazisində Xaçmaz adlı digər yaşayış məskənlərinin olması bu fikri elmi cəhətdən daha inandırıcı edir. Düşünmək olar ki, Xaçmaz toponimi eyni adlı tayfanın adı ilə bağlıdır. Son dövrlərdə bəzi tədqiqatçıların əsərlərində Xaçmaz toponiminin yaradılması massaget mənşəli "xəz" və "mas" sözlərinin birləşməsindən və ya alban tayfalarından biri olan "heçmetak", "xeçmetak" tayfalarının adından ibarət olması qeyd olunur.

Bu zonanın tarixi keçmişini öyrənmək məqsədilə 1975-1980-ci illərdə professor Cabbar Xəlilovun rəhbərliyi altında arxeoloji ekspedisiya 150-yə yaxın arxeoloji abidə qeydə almış və kəşfiyyat xarakterli işlər aparmışdır.

Xaçmaz ərazisində yerləşən tarixi abidələrə misal olaraq Sərkərtəpə, Dəyirmantəpə, Çanaxır, Qalağan, Xaspoladaba kurqanlarını, Xudat, İdrisoba, Bostançı, Nərəcan, Üçgün, Həsənqala, Çiləgir, Çağacuq və s. qədim ta-



rixə malik olan yaşayış yerlərini, daş kitabə və sənduqələri göstərmək olar.

Xacmaz Rayon Mədəniyyət və Turizm şöbəsinin məlumatına görə, Xaçmaz rayonunun ərazisində 62 tarixi memarlıq abidəsi qeydə alınmışdır ki, bunlardan 2-si (Sərkərtəpə yaşayış yeri (e. ə. III minillik) və Çanaxır təpələri) dünya əhəmiyyətli, digərləri isə dövlət əhəmiyyətli abidələrdir:

*1. Təpəyatağı yaşayış yeri – ilk tunc dövrü – Xudat şəhəri*

*2. Molla Burhan yaşayış yeri – ilk tunc dövrü, orta əsrlər – Molla Burhan kəndi*

*3. Yaşayış yeri – ilk tunc dövrü, orta əsrlər – Həsənqala kəndinin şimal-şərq tərəfində*

*4. Çobantəpə kurqanı – ilk tunc dövrü – Xaçmaz-Xudat yolunun sol tərəfində*

*5. Filtr – I yaşayış yeri – ilk tunc dövrü, ilk orta əsrlər – Şollar suyu filtrasiya məntəqəsinin yanında*

*6. Sərkərtəpə yaşayış yeri –ilk tunc dövrü – Xaçmaz rayonu Sərkərli kəndi*

*7. Kurqan – tunc dövrü – Köhnə Xudat kəndi*

*8. Kurqan – tunc dövrü – Qalağan kəndi*

*9. Kurqanlar – tunc dövrü – Qaracik kəndi*

*10. Padartəpə yaşayış yeri – tunc dövrü – Müqtədir kəndi*

*11. Sərkərtəpə yaşayış yeri və kurqan – b. e. ə. III-II minilliklər – Sərkərli kəndi*

*12. Şəhərgah yaşayış yeri – ilk dəmir dövrü – Tel kəndinin yaxınlığı*

*13.Kurqan – ilk dəmir dövrü – Sərkərli kəndindən 200 m şərqdə*

*14.Kurqan – ilk dəmir dövrü – Padar kəndindən 500 m cənub-şərqdə*

*15.Piritəpə kurqanı – ilk dəmir dövrü – Həsənqala kəndindən 1,5 km qərbdə*

*16.Kurqan – ilk dəmir dövrü – Çinartala kəndindən 5 km şimalda*

*17.Canaxır təpələri – antik dövr, orta əsrlər – Xaçmaz rayonu Çanaxır kəndi*

*18.Dəyirmantəpə və Şiştəpə – antik dövr – Qımılqışlaq kəndi*

*19.Yaşayış yeri – antik dövr – Xudat-Qusar yolu. Samur-Abşeron kanalının sol tərəfi*

*20. Yaşayış yeri və nekropol – ilk orta əsrlər – Çanaxır kəndindən 500 m şimalda*

*21. Qızlartəpə yaşayış yeri – ilk orta əsrlər – Bostançı kəndindən şimal-şərqdə*
*22.Filtr – II yaşayış yeri – ilk orta əsrlər – Şollar suyunun filtrasiya məntəqəsi*
*23.Həcmi təpələri – orta əsrlər – Aşağı Zeyid kəndindən 2 km qərbdə*
*24. Yaşayış yeri – orta əsrlər – Qalağan kəndindən şimal-qərbdə*
*25. Qəbiristanlıq – orta əsrlər – Vələmir kəndi*
*26. Qəbiristanlıq – orta əsrlər – Şıxlar kəndi*
*27.Mollaxana yaşayış yeri – orta əsrlər – Xanlıqoba kəndinin yaxınlığında*
*28. Kurqan – orta əsrlər – Hülövlü kəndi*
*29.Yaşayış yeri – orta əsrlər – Tel kəndi*
*30. Yaşayış yeri – orta əsrlər – Aşağı Zeyid kəndi*
*31. I və II Dəyirmantəpə yaşayış yeri – orta əsrlər – Maşıoba kəndindən 500 m qərbdə*
*32. Maşıtəpə yaşayış yeri – orta əsrlər – Maşıoba kəndindən qərbdə*
*33.Çiləgir yaşayış yeri – V-XIII əsrlər – Çinartala kəndi*
*34.Müqtədirtəpə yaşayış yeri – IX-XIII əsrlər – Müqtədir kəndi*
*35. Şəhərgah yaşayış yeri – XIV-XVII əsrlər – Çinartala kəndinin yaxınlığında*
*36. Sənduqə – ərəb yazısı ilə – XIV əsr – Çaxçaxlı kəndi*
*37. Sənduqə – ərəb yazısı ilə - XIV əsr - Çaxçaxlı kəndi*
*38. Sənduqə – ərəb yazısı ilə – XIV əsr – Çaxçaxlı kəndi*
*39. Sənduqə – ərəb yazısı ilə – XIV əsr – Çaxçaxlı kəndi*
*40. Sənduqə – ərəb yazısı ilə – XIV əsr – Çaxçaxlı kəndi*
*41. Sənduqə – ərəb yazısı ilə – XIV əsr – Çaxçaxlı kəndi*
*42. Ərəb yazısı ilə sütun - XV əsr – Qımılqışlaq kəndi*
*43. Ərəb yazısı ilə sütun - XV əsr – Qımılqışlaq kəndi*
*44.Şeyx Yusif türbəsi – XV əsr – Şıxlar kəndi*
*45.Məscid – XVI əsr – Şıxlar kəndi*
*46. Qəbiristanlıq – XVI əsr – Qalağan kəndi*
*47. Ərəb yazıları ilə sütun – XVII əsr – Şıxlar kəndi*
*48.Dəmiryol vağzalı – XIX əsr – Yalama stansiyası*
*49. Dəmiryol vağzalı – XIX əsr – Qusarçay stansiyası*
*50. Dəmiryol vağzalı – XIX əsr – Çarxı stansiyası*
*51. Dəmiryol vağzalı – XIX əsr – Ləcət stansiyası*
*52.Dəmiryol vağzalı – XIX əsr – Xaçmaz şəhəri*
*53. Suvarma qülləsi – XIX əsr – Xaçmaz şəhəri*
*54.Kilsə - XIX əsr – Köhnə Xaçmaz kəndi*
*55. Altıguşəli türbəsi – XIX əsr – Şıxlar kəndi*
*56. Tağlı körpü -- XIX əsr – Çağacuq çayının üzərində*



*57. Tağlı körpü -- XIX əsr – Qaraçayın üzərində*
*58. Məscid – XIX əsr - Moruqoba kəndi*
*59. Dəmiryolçular klubu – 1925-ci il – Xaçmaz şəhəri*
*60. Məscid – XX əsr – Qalağan kəndi*
*61.Məscid – Qaraqurtlu kəndi*
*62. Su kəməri – 1908-ci il – Şollar qəsəbəsi*

Qeyd edim ki, rayon ərazisində hələ də qeydiyyata düşməyən, araşdırmalarını, tədqiqatlarını gözləyən çoxsaylı tarixi məskənlər qalmaqdadır. Bu abidələr, məskənlər tarixi keçmişimizi, xalqımızın qəhrəmanlıq salnaməsini qoruyub saxlamaqdadır.

Rayon ərazisini kəndbəkənd gəzdikcə abidələrlə rastlaşır, onların bizə hələ çox şey "demək" istədiklərinin şahidi olurdum. Tarixçi alimlərimiz, arxeoloq və etnoqraflarımız şərəfli vəzifəni yerinə yetirərək abidələri tədqiq etməli, onların sirlərini açmağa müvəffəq olmalı, gələcəyimiz naminə tariximizi dəqiq öyrənməlidirlər.

İndi isə mövcud tarixi qaynaqlara, faktlara, gördüklərimizə, eşitdiklərimizə əsasən Quba-Xaçmaz bölgəsinin, xüsusilə Xaçmaz rayonunun tarixinə bir nəzər salaq.

Bölgənin tarixi haqqında ilk məlumatlar Azərbaycan tarixinin Eneolit dövrünə təsadüf edir. "Son illər Eneolit abidələri Qobustan, Quba-Xaçmaz və Şəki-Zaqatala zonalarında da qeydə alınmışdır" .[1]

Eneolit dövrü e.ə. VI minillikdən başlayaraq e.ə. IV minilliyə qədər olan dövrü əhatə edir. Bu dövrün əsas xüsusiyyəti istehsalat təsərrüfatının formalaşması və sürətli inkişafı idi. Məişətdə daş məmulatları ilə yanaşı, metaldan da istifadə olunmağa başlanmışdı. Eneolit dövrü yaşayış məskənlərindən tapılmış müxtəlif mis əşyalar (biz, iynə, bıçaq və s.) bunu sübut edir. Bundan başqa bu dövr-

---

[1] Azərbaycan tarixi. Bakı. "Azərnəşr". 1994, səh.28

də qazma tipli evlər çiy kərpicdən olmaqla, dairəvi və ya düzbucaqlı planda tikilirdi.

Eneolit dövründə əhali əkinçilik, maldarlıq, ev sənətkarlığının müxtəlif sahələri ilə (dulusçuluq, daş və sümükişləmə, toxuculuq və s.) məşğul olurdu. Əkinçiliklə məşğul olan əhali taxıl ehtiyatını iri həcmli saxsı küplərdə saxlayırdı. Xaçmazın tarixi abidələri içərisindən tapılmış daş, sümük və mis əşyalar, taxıl tökmək üçün küplər, toxuculuq dəzgahının hissələri Eneolit dövründə əhalinin bu ərazilərdə yaşamasından xəbər verir. (Bax: Şəkil 3.4.5. Xaçmazın tarixi abidələrindən tapılmış nümunələr.)

Eneolitin son mərhələsində ölülərin gil küplərdə dəfn olunması mərasimi də yayılmışdı. Xaçmazda bu cür gil küplərə Şollar, Nərəcan kəndləri ərazilərində rast gəlmək olar. Təəssüf ki, Nərəcan kəndi ərazisində vaxtı ilə tapılmış böyük tarixi əhəmiyyətə malik küp qəbirləri qorunub saxlanılmamışdır. Belə küplər təsərrüfat küplərindən onunla fərqlənirdi ki, oturacağı şiş formalı olub, ağız hissəsində tutacaq və ya qulp qoyulurdu. Ağzı isə qapaq və ya daş lövhə ilə örtülürdü. Küpün aşağı hissəsində çox hallarda deşik olurdu Bu da insanların dini təsəvvürləri ilə bağlı olub çox güman ki, ruha inamın mövcudluğu ilə əlaqədar idi.

Xudat ərazisindəki Şollar kəndində yerli əhali təsərrüfat işləri apararkən gil küp qəbir aşkar etmişdir. Qədim küp qəbrin içərisindən sümük qalıqları, misdən üzük, saxsı qablar və s. tapılmışdır. Küpün qalıqları Xudat şəhər 3 saylı məktəbdə, digər nümunələr isə Xaçmaz tarixdiyarşünaslıq muzeyində saxlanılır.

**Xaçmazda Kür-Araz mədəniyyətinin izləri.** Kür-Araz mədəniyyəti (ilk tunc dövrü) Azərbaycanda e.ə. IV minilliyin ikinci yarısından III minilliyin sonuna qədərki dövrü əhatə edir.



Xaçmaz rayonu ərazisindəki Sərkərtəpənin Azərbaycanın Kür-Araz mədəniyyəti dövrünün yaşayış məskənləri içərisində özünəməxsus yeri var. Sərkərtəpə arxeoloji tapıntıları, sayagəlməz maddi mədəniyyət nümunələri, məişət əşyaları, dərin qatlardan üzə çıxarılmış yaşayış tikililəri ilə məşhurdur. Sərkərtəpə yaşayış yeri abidəsi vaxtı ilə "Sərkər qışlağı" adlanmışdır. Sərkərtəpənin üzərindəki 1000 kvadratmetrlik sahə arxeoloqlar tərəfindən qazılmış, beş metrdən artıq mədəni təbəqə, erkən və orta tunc dövrlərinə aid altı tikinti qatı aşkar edilmişdir. Abidənin üst qatı Azərbaycana ərəblərin basqınları dövrünə (VIII əsr) təsadüf edir, monqol-tatar işğalları zamanı isə bu qatı təşkil edən ərazilər əhali tərəfindən tərk edilmişdir. İri çay daşlarından hörülmüş dördkünc bina qalığına, çoxlu sayda təsərrüfat və təndir quyularına, təsərrüfat quyularına məhz bu qatda rast gəlinmişdir. (Bax: Şəkil 6. Qədim dövrə aid yaşayış yeri.)

Dünya əhəmiyyətli tarixi yaşayış məskəni olan Sərkərtəpədən çoxsaylı məişət və təsərrüfat qabları, toxuculuq məqsədilə istifadə olunan müxtəlif sümük alətlər də tapılmışdır. Zərif naxışlarla bəzədilmiş sümük əşyalar, qolbağılar və s. tapıntılar əhalinin yüksək bədii-estetik zövqündən, bütövlükdə isə inkişaf etmiş mədəniyyətindən xəbər verir.

Tarixi abidədə aparılmış arxeoloji qazıntılar zamanı iri və xırdabuynuzlu heyvanların sümüklərinə rast gəlinmiş, kiçik sümüklərdən hazırlanmış iynə, qıyıq, biz, qaşov, ox ucluqları, asma bəzək əşyaları nümunələri toplanmışdır. Alt təbəqədən isə xeyli metal və tunc əşyalar (muncuq,

nizə, bıçaq, xəncər tiyəsi, balta, ox ucluqları) tapılmışdır. Ən alt təbəqədə aşkar edilmiş binalar və onlara bitişik inşa olunmuş təsərrüfat tikililəri müəyyən dəst təşkil edir. Yaşayış və təsərrüfat tikililəri ilə yanaşı, ibadət üçün xüsusi binalar da mövcud olmuşdur. Çiy kərpicdən tikilmiş dairəvi quruluşlu böyük ibadət evi səliqəli hörülmüş, əhənglə ağardılmışdır. Tikililərin divarları (bir metr hündürlükdə) bu gün də qalmaqdadır. Yan-yana yerləşən evlər dar arakəsmə və cığırlarla ayrılır. Gildən hazırlanmış və oddan qızarmış ocaq yerləri, tapılan əşyalar arasında əkinçilik alətlərinin çoxluq təşkil etməsi, bundan başqa qədim oturaq əkinçi tayfalarına məxsus gil insan və heyvan fiqurları (terrakotalar) maraq doğurur.

Sərkərtəpədə yanıq qalıqları, qalın kül qatının olması eramızdan əvvəl II minillikdə burada güclü yanğın olduğunu göstərir. Bu zaman sakinlər hər şeyi atıb oranı tərk etmişlər.

Xaçmaz rayonu ərazisində ilk tunc dövrünə (erkən tunc dövrü) aid çoxsaylı tarixi abidələr, yaşayış yerləri, kurqanlar vardır. Xudat şəhəri yaxınlığındakı Təpəyatağı yaşayış yeri, Molla Bürhan kəndindəki Molla Bürhan yaşayış yeri, Həsənqala kəndinin şimal-şərqindəki yaşayış yeri, Xaçmaz-Xudat yolunun sol tərəfində Çobantəpə kurqanı, Xudat şəhərinin Şollar suyu filtrasiya məntəqəsinin yanındakı Filtr-I yaşayış yeri bu abidələrdəndir.

Azərbaycan Sovet Ensiklopediyasında oxuyuruq: "Təpəyatağı - Azərb. SSR Xaçmaz rayonunda (Xudat şəhəri ərazisində - müəllif) ilk tunc dövrünə aid (e.ə.III minillik) yaşayış yeri. Hündürlüyü 3-4 m olan uzunsov təpədə yerləşir. Mədəni təbəqənin qalınlığı 3 m-dir. Təsərrüfat və məişətə aid tikili qalıqları, ocaq yerləri, təsərrüfat quyuları, qara və açıq çəhrayı rəngli gil qablar (kasa, çölmək, təsərrüfat küpləri, tava qalıqları və s.), dən daşları, həvəngdəstələr, bülöv daşları, sümük bizlər, heyvan sümükləri və s. aşkar edilmişdir. Əhali əkinçilik və maldarlıqla məşğul olmuşdur. Təpəyatağı Şimal-Şərqi Azərbaycanda Kür-Araz mədəniyyətinin xarakterik arxeoloji abidələrindən biridir". [1] (Bax: Şəkil 7. Xudat şəhəri. Təpəyatağı yaşayış məskəni (III-I minilliklər).)

Xudat şəhəri ərazisində yerləşən Təpəyatağı yaşayış yeri hal-hazırda baxımsızlıqdan tarixi abidəliyini itirmək üzrədir. Yerli əhali ərazinin torpağından tikinti məqsədilə istifadə edir. Təbii ki, qədim tarixi məskənlərimizdən olan Təpəyatağı yaşayış yerini qorumaq üçün təcili tədbirlər görülməlidir. (Bax: Şəkil 8. Təpəyatağı yaşayış məskəninin indiki vəziyyəti.)

Xaçmaz rayonu ərazisində tunc dövrünə aid edilən və adları tarixi abidələr siyahısına daxil olunan qədim yurd yerləri də vardır ki, bunlar hələ tam tədqiq edilməmişdir. Köhnə Xudat kəndindəki Kurqan (şəkil 9), Qalağan kəndindəki Kurqan, Sərkərli kəndindəki Sərkərtəpə yaşayış yeri və Kurqan, Qaracik kəndindəki Kurqanlar, Müqtədir qəsəbəsindəki Padartəpə yaşayış yeri e.ə. II minilliklə e.ə. XIV əsrlər dövründə rayon ərazisində baş verən hadisələrin "canlı" şahidləridir. (Bax: Şəkil 9. KöhnəXudat kəndində kurqan.)

İlk Dəmir dövrünün mövcud olduğu e.ə. XI–VIII əsrlərdə Azərbaycan ərazisində təsərrüfatın bütün sahələri, xüsusilə sənətkarlıq sürətlə inkişaf etmiş, ictimai quruluşda əsaslı dəyişiklik yaranmışdır. Tədricən ibtidai icma

[1] Bax: Azərbaycan Sovet Ensiklopediyası. IX cild, Bakı,1986, səh. 253

quruluşunun əsasları dağılmış, sinifli cəmiyyət formalaşmışdır.

Həmin dövrün tarixi abidələrinə Xaçmaz rayonu ərazisində də rast gəlmək olar. Tel kəndi yaxınlığında Şəhərgah yaşayış yeri, Sərkərli kəndindən 200 metr şərqdə Kurqan, Padar kəndindən 500 metr cənub-şərqdə Kurqan, Həsənqala kəndindən 1,5 kilometr qərbdə Piritəpə kurqanı, Çinartala kəndindən 5 kilometr şimalda Kurqan həmin dövrlərdə bu ərazidə həyatın mövcudluğundan xəbər verir.

Bu dövrdə əkinçiliyin sürətli inkişafı istifadə edilən alətlərin təkmilləşməsindən, tuncdan və daha sonra dəmirdən hazırlanmasından, torpağın şumlanmasında qoşqu qüvvələrindən geniş istifadədən ibarət idi. Taxıl ehtiyatı iri həcmli küplərdə saxlanırdı.

1970-ci illərin sonunda Ləcət dəmir yolu stansiyasının yaxınlığında şum zamanı tapılmış küp diqqəti cəlb edir. Hündürlüyü bir metr yarımdan, diametri isə yuxarıdan bir metrə bərabər olan təsərrüfat əhəmiyyətli küpün qabaq örtüyünü kotan zədələyərək sındırmışdır. Üst tərəfdən küp qabarıq oval şəkilli və ilanvari dalğalı yapmalarla bəzədilmişdir. Maraqlısı odur ki, içərisində "Həyat ağacının" təsviri verilmişdir. Hal-hazırda bu eksponat da Xaçmaz tarix-diyarşünaslıq muzeyində saxlanılır.

Xaçmaz tarix-diyarşünaslıq muzeyində nümayiş etdirilən digər irihəcmli küp 1982-ci ildə Çanaxır sakini Azay Osmanov tərəfindən təmənnasız olaraq muzeyə hədiyyə edilmişdir. Hündürlüyü bir metrə qədər olan bu küp min illərdən artıq yaşı olmasına baxmayaraq, tapıldıqdan sonra da təsərrüfatda işlənmə qabiliyyətini itirməmişdir. Küpdə uzun müddət taxıl saxlanılmışdır.



Qazıntılar zamanı irihəcmli küplərlə yanaşı, ərzaq, süd məhsullarını saxlamaq və emal etmək üçün qablar (cam, xeyrə, çölmək, nehrə və s.), çoxlu sayda dulusçuluq məmulatları da aşkar edilmişdir. Saxsı qabların səthi həndəsi, nəbati naxışlarla, məişəti əks etdirən süjetlərlə bəzədilmişdir. (Bax: Şəkil 10,11. Qazıntılar nəticəsində tapılmış dulusçuluq məmulatları.)

**Xaçmaz rayonunun ərazisi Albaniya dövlətinin tarixi inkişafı dövründə.** Müasir Şimali Azərbaycanın ərazisi Albaniyanın tərkibinə daxil idi. Albanlar, yaxud bu ad altında çıxış edən etnoslar Şimali Azərbaycanın qədim əhalisi sayılırdı. "Əsrlər boyu bu ərazilərdə məskunlaşan Dağıstan və irandilli etnik qruplar alban türkləri ilə qohumlaşır, kirvələşir, qaynayıb-qarışır, xarici və daxili təxribat olmayan zaman isə bu ərazinin bütövlüyünü birgə qoruyurdular".[1]

E.ə.VII əsrin əvvəllərində kimmer, skit və sakların Azərbaycanda məskunlaşması onların gələcək Albaniya ərazisində xırda dövlət təşkilatlarının formalaşmasına təkan verdi. Ərazisi dağlıq və aran hissələrdən ibarət olduğundan Albaniyada əhali əvvəllər olduğu kimi, əkinçilik və maldarlıqla məşğul olurdu. Təsərrüfat həyatında bağçılıq və üzümçülük də mühüm yer tuturdu. Tarixi qaynaqlara əsaslansaq, deyə bilərik ki, bu ərazilərdə əhali bol məhsul götürərdi. Hətta məhsulun bir hissəsi yığılmamış qalardı.

Burada Xəzər dənizi və çay sahillərində yaşayan əhali əsasən balıqçılıqla məşğul olurdu. Balığı adətən torla, dağ çaylarında isə çayın istiqamətini dəyişməklə suyun axarını azaldır və əllə tuturdular.

[1] Bax: Azərbaycan tarixi. Bakı. "Azərnəşr". 1994, səh.150

Albanlar əsasən oturaq həyat sürürdü. Mal-qara, qoyun-quzu yay aylarında yamyaşıl dağ yamaclarında otlayır, qışda isə qışlağa enirdi. Qışlaq adətən yaylağın yaxınlığındakı iqlimcə mülayım ərazilərdə, dənizə yaxın yerlərdə yerləşirdi. Xaçmaz rayonu ərazisindəki qədim kənd adlarının – Susayqışlaq, Qımılqışlaq, Mürsəliqışlaq, Mehrəliqışlaq, Qədimalıqışlaq, Alıcqışlaq, Suxtaqalaqışlaq və s. olması bu fikri təsdiqləyir.

Albaniya cənubdan şimala, şərqdən qərbə gedən ticarət yolları üzərində yerləşirdi. O dövrdə bir neçə ticarət yolu mövcud idi. Bunlardan biri Xəzər dənizi sahili boyu ölkənin daxili ticarətinə xidmət edirdi.

Eramızın əvvəllərində Albaniya ərazisinə, o cümlədən Müşkür (Xaçmaz) və Şabran torpaqlarına çoxlu xarici basqınlar baş verirdi. Hücüm edən xalqlardan biri barsilərin olduğu ehtimal edilir. Tarixi mənbələr onların 215-216-cı illərdə, həmçinin, IV əsrin 30-cu illərində Dərbənd keçidindən keçib Albaniyaya hücum etdiyini və Qarqar çayı hövzəsində məğlub edildiklərini göstərir.

Şimal bölgəsi əhalisi üçün öz hücumları ilə böyük təhlükə yaradan xalqlardan biri də xəzərlər olmuşdur.

Tarixi məlumatlarda göstərilir ki, xarici basqınların, hücumların qarşısını almaq məqsədilə "Alban qapıları" adlanan üç sədd tikilmiş və bu sədlər ərazilərin qorunmasında mühüm rol oynamışdır. Bu qapılar Dərbəndlə dəniz sahilindəki Giləzi kəndi arasında Qafqaz dağlarının Xəzər dənizinə yaxın hissələrində tikilmişdir. Heç də təsadüfi deyildir ki, tarixi mənbələrdə "Çola-Dəryal" (Qafqaz qapıları) Dərbənd keçidi, "Xəzər qapıları" adlandırılmışdır. (Bax: Şəkil 12. Xəzərsahili sədlərin yerləşmə xəritəsi.)



Qapılardan ən möhtəşəmi, şimal sərhədində birinci olanı Dərbənd səddidir. Xəzər dənizindən başlayaraq dağların yamaclarına qədər uzanan bu sədd indi də qalmaqdadır. Səddin üzərində "Narın-qala" adlanan qala vardır. Hazırda qala Dağıstan Respublikasının ərazisində yerləşir.

İkinci nəhəng sədd Gilgilçay səddidir. Siyəzən şəhərinin yaxınlığında tikilmiş otuz kilometrlik sədd dənizdən başlayaraq dağların dərinliyinədək uzanırdı. Bu sədd geniş və möhkəm qoruyucu qabiliyyətə malik "Çıraq-qala" adlanan qala ilə yekunlaşırdı.

Üçüncü sədd indiki Zarat qəsəbəsi yaxınlığında yerləşməklə dənizdən Beşbarmaq dağınadək uzanırdı, Cora səddi adlanırdı. Çox təəssüf ki, Gilgilçay və Cora sədlərinin düzənlikdə yerləşən hissələri yerli əhali tərəfindən sökülüb, tikinti məqsədilə istifadə edilmişdir.

Xaçmaz rayonunda arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş Mehrəliqışlaq və Canaxır kəndləri yaxınlığında olan Canaxır təpələri tarixi baxımdan diqqəti cəlb edən və haqqında danışdığımız dövrə aid edilən qədim yaşayış yerlərindəndir. Çanaxır təpələri Ağçayın sahilində arxeoloji tədqiqatlar nəticəsində müəyyənləşdirilib. Təsərrüfat işləri ilə bağlı olaraq mühəndis qurğularının inşası və şum zamanı islamdan qabaqkı sivilizasiyanın tapılmış nümunələri bu ərazidə qalın torpaq laylarının altında böyük tarixi məlumatların yatdığından, əldə edilmiş tunc, dəmir və saxsıdan düzəldilmiş əmək alətləri, silahlar və bəzək əşyaları isə burada tarixin müxtəlif dövrlərində sənətkarlığın bir çox sahələrinin yüksək inkişafından xəbər verir. 1970-ci illərin sonunda Kurqanın ətəyində suvarma üçün kanal çəkilən zaman arxın divarının uçulmasına fikir verən yerli məktəblilər burada qadın skletinin qalıqlarını tapmışdılar. Onun üzərində sırğalar, qollarında

nazik ölçülü qolbağılar, digər tunc asma bəzəklər aşkar etmişdilər. Bundan başqa buradan tuncdan dairəvi formalı, üstü şarvari formalı müxtəlif ölçülü bəzək əşyaları, at əsləhəsinin qalıqları və pərçimlər də tapılmışdır. Bundan əlavə kişi qəbirindən tapılmış romb formalı tuncdan düzəldilərək üstü rəngli mina ilə naxışlanmış amulet (zənciri dağılmış şəkildə) arxeoloqlar tərəfindən son tunc dövrünə aid edilmişdir. Torpağın altından tapılmış abidələrdə ölünün dəfni zamanı ayaq və baş tərəfi müxtəlif ölçülü və təyinatlı saxsı qablara (küpə, cam, dopu, bardaqlar, qaraçıraqlar), hətta ikikameralı çıraqlara, dəmir silah və alətlərə, tunc və misdən hazırlanmış hamar, naxışlı, burma formalı qolbağıya, bəzək əşyalarına rast gəlinir. Müxtəlif rəngli daşlardan, sədəf və sümükdən hazırlanmış boyunbağılar da aşkar edilib. Bu arxeoloji tapıntıların bir hissəsi Xaçmaz tarix-diyarşünaslıq muzeyində mühafizə olunur və nümayiş etdirilir.

Çanaxır təpələrinə yaxın olan Hülövlü kəndi ərazisində, Çağacuq çayının sahilində tapılan minalı (boyalı) və şirsiz qab nümunələrinin naxışlarının forması, hazırlanma texnologiyası, nəhayət, dulusçuların vurmuş olduğu şəxsi möhür (əksər hallarda qabın oturacaq hissəsində gül şəklində olur) xüsusi maraq doğurur. Bədnəzərdən qorunmaq üçün və bəzək əşyası kimi işlədilən kauri-qarnıyarığın (balıqqulağı) buradan tapılması isə ta qədimdən Hind okeanı sahillərinə qədər mövcud olan ticarət-iqtisadi əlaqələrin mövcudluğunu təsdiq edir. Çağacuqda tapılan küplərin içərisində isə un saxlanması əhalinin lap qədimlərdən taxılçılıqla məşğul olduğunu göstərir. Tapılan sürtkəc, dən və ding daşları isə bu ərazidə əhalinin həm də əkinçilik məşğuliyyətini bir daha təsdiq edir.



Çanaxır təpələri güman ki, müdafiə əhəmiyyətli istehkamlar rolunu da oynamışdır. Bu ərazidə kollektiv qəbirlərin olması, rast gəlinən sümüklərdə – kəllədə kəsici-deşici alətlərlə vurulan zərbələr nəticəsində mövcud olan zədə, yanğının izləri olan kömürlənmiş təbəqə burada qızğın döyüşlərin getdiyini göstərən bariz tarixi nümunələrdir.

IV yüzillikdə Samur çayı, Şabran və Xəzər dənizi arasındakı ərazidə müstəqil Maskut (bəzi mənbələrdə isə Məstəq) hökmdarlığı yaranıb. Xaçmazla qonşu Quba, Qusar bölgələrinin əraziləri də bu hökmdarlığın tərkibində olub. Bu dövlət sonralar Müşkür adlanıb. Maskut hökmdarlığının mərkəzi Çola şəhəri idi. Tarixi xəritələrdə şəhər Samur çayının mənsəbinin yaxınlığında göstərilir. Bəzi tarixçilər Çola şəhərinin toponim yozumunu Çul-Çol adlı oğuzlardan ibarət qədim türkdilli soyun bu ərazilərə gəlib məskunlaşması, bölgənin iqtisadi-mədəni və hərbi həyatında fəal rol oynaması ilə bağlayırlar. Çola şəhəri Qafqaz Albaniyasının dini mərkəzi olub. Bu baxımdan digər köçəri tayfaların mütəmadi basqınları, təcavüzləri nəticəsində ərazi uzun müddət döyüş meydanlarına çevrilib.

"Eramızdan əvvəl I əsrdə Böyük Hun imperiyası dağıldıqdan sonra Albaniyaya gələn köçəri tayfalar içərisində Strabonun qeyd etdiyi kimi, işlərində doğru, düzgün, yalançı olmayan, döyüşkən xalq hesab olunan massagetlər mühüm rol oynamışlar. Bir qrup tədqiqatçılar onların əsasən məskunlaşdıqları Samur və Gilgilçay arasındakı ərazinin tarixi mənbələrdə Mazkut, Məzkət, Müşkür adlandığını göstərirlər".[1]

---

[1] Abbasova F. Şabran. Bakı. "Elm", 2002, səh.15

Müşkür toponimi Xaçmaz rayonunun tarixində mühüm yer tutur. Müşkür Ağçayla Samur çayı arasındakı əraziyə deyilmişdir. Orta əsrlərdə Şirvanşahlar dövlətinə daxil olan bu ərazidə daha sonralar Quba xanlığı yaranmışdır. XVIII əsrdə Azərbaycanda olmuş alman səyyahı Adam Oleari Müşkür haqqında xoş xatirələrini bildirmişdir. O qeyd etmişdir ki, Müşkür Şirvan vilayətinin bir hissəsidir. Buranın torpaqları çox münbitdir, məhsuldardır. Hər tərəf yamyaşıl meşədir. Meşələrdə çoxlu meyvə ağacları vardır. Müşkür mahalı öz taxılı ilə nəinki bütün qəzanı, hətta Dərbənd və Bakı əyalətlərini təmin edirdi.

**Xaçmaz Şirvanşahlar dövlətinin tərkibində.** Azərbaycan Sovet Ensiklopediyasında yazılıb ki, Şirvanşahlar dövləti VI əsrin birinci yarısında Şabrançay və Gilgilçay arasında Sasanilər tərəfindən yaradılmışdır.[1] Orta əsrlərdə Şirvan ərazisində eyniadlı şəhər də olmuşdur. Şirvanşahlar dövləti, Şirvan şəhəri haqqında erkən orta əsrlərdən başlayaraq məlumatlar verilir. Balazuri (ərəb müəllifi) qeyd edir ki, Şərqi Zaqafqaziyada Şirvan adı sasanilərin vaxtında adlandırılıb. İbn Xordabad yazır ki, Sasani şahı Ərdəşirin hakimiyyəti zamanı (224-241) Şirvanşah titulu müəyyənləşdirilmişdir. Tarixi mənbələrdən aydın olur ki, sasanilər Albaniyanı Mərzəbanlar oturan 11 vilayətə bölmüşdülər. Bəzkan (ərəb müəllifi) bunlardan Dərbənd, Çola, Tavaspark (Tabasaran), Şirvan, Xursan və başqalarının adını çəkir.

Artıq X əsrdə Dərbənddən başlayaraq cənuba tərəf olan Xəzər torpaqları – əvvəlki bütün Massaget vilayəti Şirvan torpaqlarına birləşdirilmişdir. O dövrü əks etdirən tarixi ədəbiyyatlardan məlum olur ki, Şirvanın tərkibinə

[1] Azərbaycan Sovet Ensiklopediyası. X cild. Bakı.1987, səh, 542.



aşağıdakı şəhər və vilayətlər daxil idi: Şirvan, Xırsan (Xursan), Dərbənd, Tavaspar, Xaçmatek, Xeneok, Xepuki, İsmax, Bakan, Maskut. Bu göstərilən toponimika üzrə Şirvan torpaqları qədim Albaniya coğrafi bölgüsünə uyğun gəlir. Sonralar Şirvan X əsrdə xeyli genişlənərək şimali-qərbdən Şəkini, cənubdan Muğan düzünü, şimaldan Dərbəndə qədər olan böyük əraziləri əhatə edirdi. Ərəb müəllifləri Şabranın Şirvanın ən qədim şəhərlərindən biri olduğunu qeyd etmişlər. Şəhərin qalıqları indi Dəvəçi rayonunun Şahnəzərli kəndinin ərazisindədir. Bu ərazi tarixin bütün dövrlərində şimal çöllərinin cənub ölkələri ilə əlaqəsi üçün körpü rolunu oynamışdır. Min illər ərzində insanlar Dərbənd keçidi və Xəzər dənizinin qərb sahillərindən keçərək şimaldan cənuba, cənubdan şimala hərəkət etmişlər. Bu yoldan həm hərbi yürüşlər, həm də dinc məqsədlər üçün istifadə olunmuşdur. Eramızdan əvvəl II minilliyin axırları, I minilliyin əvvəllərində şimaldan köç edərək indiki İran ərazisində məskunlaşan ari tayfaları da bu yoldan istifadə etmişlər. Eramızdan əvvəl VII əsrdə skif tayfaları bu yolla Asiyaya gəlmiş və Azərbaycan ərazisində qısamüddətli padşahlıq yaratmışlar. Sonralar garmat-alan tayfaları, hunlar, xəzərlər də bu keçiddən keçərək cənuba bir çox yürüşlər etmişlər. Eramızdan əvvəl II əsrdə fəaliyyətə başlayan "Böyük İpək yolu" adı ilə tanınan dünya ticarət yolları sisteminin çox işlək qollarından biri də məhz bu ərazidən keçmişdir.

Orta əsr mənbələrinin məlumatına görə Şirvan əyaləti Azərbaycanın gözəl iqlimi, zəngin sərvəti, əlverişli coğrafi-strateji mövqeyi ilə seçilən bölgələrindən biri idi. Onun ərazisi qədimdən əkinçilik və maldarlıq üçün əlverişli olmuşdur. Şimal ölkələrinə gedən ticarət yolunun üzərində yerləşdiyindən şimal ölkələri ilə cənub ölkələri

arasında vasitə təşkil edirdi. Bu ərazi hərbi-strateji cəhətdən də əhəmiyyətli idi.

Ərəb mənbələrində IX-X əsrlərdə Şirvanın şəhərləri və digər yerləri haqqında məlumat bəsitdir. Onların yazdıqlarına əsasən Qafqazın şərq hissəsində öz məmləkəti olan 11 "dağ şahı" mövcud idi. Onların sırasında Qəbələ, Şirvan, Məsqət, Şəbəran, Ləkz, Bab Firuz Qubad və başqaları da var idi.[1] Burada göstərilən Şəbəran hal-hazırda Dəvəçi rayonundakı Şahnəzərli kəndinin yaxınlığındakı qazıntı nəticəsində aşkara çıxarılmış Şabran, Məsqət isə Xaçmaz rayonu ərazisindəki hal-hazırda Müşkür adlanan kənd ərazisində yerləşmiş, tamamilə məhv edilmiş şəhər idi.

Məsqət şəhəri Samur çayının yaxınlığında, onun sağ sahilində olub, hələ Sasanilər vaxtından məlum idi. "Hədud əl-aləm"də verilən məlumata görə Məsqətdən islam ölkələrinə çoxlu qul gətirilirdi... XI əsrin ikinci yarısında Məsqət şəhəri Yəzidiyyə və Bakı kimi türklərin dağıdıcı hücumlarına məruz qalaraq viran edilmişdi.[2]

Burada yaşamaq təhlükəli olsa da, iqtisadi cəhətdən əlverişli idi. Ona görə də insanlar xaricilərin qarətçi yürüşlərinə baxmayaraq, bu ərazidə - Quba-Xaçmaz bölgəsində çox qədimdən məskunlaşmışdılar. Orta əsrlər dövrü tarixi mənbələrində adı tez-tez çəkilən Şabran şəhəri də Azərbaycanın bu bölgəsində yerləşmişdir. Şəhərin xarabalıqları geniş ərazini əhatə edir. Şabranın tarixi və onun xarabalıqları bir çox tədqiqatçıların diqqətini cəlb etmişdir. Abbasqulu ağa Bakıxanov, XVII əsr türk coğrafiyaşünas səyyahı Ö.Çələbi əsərlərində və xatirələrində

[1] В.В. Бартольд. Ширваншах. Соч.,т.II.ч.I. Москва.1965 стр. 875
[2] Aşurbəyli S. Şirvanşahlar dövləti. "Azərnəşr". Bakı. 1997 səh.119



Şabrana geniş yer vermişlər. Onlar Xəzər dənizinin qərb sahilindən keçən ticarət-karvan yolları üzərində yerləşən, təbii-coğrafi mövqeyi əlverişli olan Şabran şəhərinin beşinci iqlim qurşağında yerləşdiyini, Təbrizdən sonra havasına və suyuna görə ikinci yeri tutduğunu, son dərəcə təravətli, axar-baxarlı, gözəl çeşməli və meyvəli olduğunu göstərmişlər. Abbasqulu ağa Bakıxanov buranın əhalinin əksəriyyəti tərəfindən "Gülüstani-İrəm" ("Cənnət bağı") adlandırıldığını qeyd edir.[1]

Şabran şəhərinin coğrafi mövqeyi, ictimai-siyasi, iqtisadi həyatı haqqında orta əsr coğrafiyaşünas səyyahları, tarixçi salnaməçilər qiymətli məlumatlar vermişlər. Onların məlumatlarının çoxu arxeoloji materiallarla təsdiq edilmişdir. Şabranda aşkar olunan sikkə nümunələri, epiqrafik məlumatlar əks olunmuş şüşə və dulus məmulatları, həmçinin digər yazılı tarixi mənbələr, toponimik tədqiqatlar Bakı-Xaçmaz magistral yolunun 139-cu kilometrliyində yerləşmiş bu yaşayış yerinin həqiqətən Azərbaycanın orta əsr Şabran şəhəri olduğunu təsdiqlədi. Şabran qazıntıları haqqında sensasiyalı xəbərlər tez bir zamanda geniş ictimaiyyətin diqqətini cəlb etdi. Ümummilli lider Heydər Əliyev o zaman Şabranda olmuş və şəhər qazıntıları ilə maraqlanmışdı.

Respublikamızın, o cümlədən Quba-Xaçmaz bölgəsinin tarixinin mühüm səhifəsi olan Şabran şəhərinin salınma tarixinin, əhalisinin etnik tərkibinin, ictimai-siyasi, iqtisadi, mədəni həyatının inkişafının, tənəzzül səbəblərinin öyrənilməsi müasir Azərbaycan tarixi və arxeologiya elminin qarşısında duran mühüm vəzifələrdən biridir.

[1] Bakıxanov A.A. Gülüstani-İrəm. Bakı. 1951, səh.22.

**Azərbaycanın ərəblər tərəfindən işğalı dövründə Xaçmaz bölgəsində ictimai-siyasi vəziyyət.** Xilafət qoşunları İranın Rey və Qəzvin şəhərlərini işğal etdikdən sonra 639-cu ildə sərkərdə Hüzeyfənin başçılığı ilə Azərbaycana daxil oldular və burada güclü müqavimətlə rastlaşdılar. Şiddətli döyüşlərə baxmayaraq, ərəblər qalib gəldilər. Döyüşlər bir neçə il çəkdi. Düşmən 642-ci ildə çətinliklə Muğanı işğal edərək əhali ilə müqavilə bağladı. Bu müqaviləyə əsasən azərbaycanlılar ərəblərə tabe olmalı, vergi verməli idilər. Ərəblər isə yerli əhalinin dini etiqadına toxunmamağı, adət və məişətlərinə qarışmamağı öhdələrinə götürdülər. Yerli əhalidən ərəb ordusunda könüllü xidmətə daxil olanlardan həmin ilin vergisi tutulmurdu. Müqavilənin tələblərinə əməl edənlərin şəxsiyyəti, əmlakı, dini, adət-ənənəsi, əmin-amanlığı qorunurdu. Ərəb qoşunları Xəzər dənizinin qərb sahilləri ilə şimala doğru irəliləyərək həmin il Dərbəndə yetişdilər. A.Bakıxanov ərəb müəlliflərinə əsaslanaraq yazırdı ki, "ərəblər Şirvana çatınca hökmdar Şəhriyar aman istədi və sülh etdi, bu şərtlə ki, xərac və cizyə verməsin və bu vergilər, türkləri və sair müxtəlif din sahiblərini dəf etmək üçün saxlanacaq qoşuna sərf edilsin... Xəlifə Ömər ibn Xəttab bu şərtlə razılaşdı".[1]

Xəlifə Ömər Dərbənd yaxınlığındakı sərhəd qoşunlarına Əbdürrəhman ibn Rəbiəni sərkərdə təyin etdi. Bu qoşunlara xəzərlərə qarşı döyüşmək tapşırığı verildi. Dərbənd yaxınlığında və Şimali Azərbaycanda ərəb qoşunları ilə şimaldan basqın edən müxtəlif qoşunlar arasında çoxsaylı döyüşlər olmuşdu. Həmin döyüşlərin şahidləri kimi Xaçmaz rayonunun ərazisində, meşələrdə, düzənliklərdə

[1] Bax: Azərbaycan tarixi. Bakı. "Azərnəşr". 1994, səh.242



rast gəlinən, ərəb əlifbası ilə qəbirüstü yazıları olan çoxlu qəbir daşlarına rast gəlmək olur. Dərbənd yaxınlığındakı "Qırxlar" piri həmin illərin yadigarı kimi qalmaqdadır. Deyilənlərə görə, orada döyüşdə həlak olmuş 40 ərəb sərkərdəsi basdırılmışdır.

Ərəblər böyük iqtisadi və strateji əhəmiyyəti olan Azərbaycanda öz hakimiyyətlərini möhkəmləndirməkdə islam dinindən çoxkəsərli vasitə kimi istifadə edirdilər. Məlumdur ki, həmin dövrdə Azərbaycanda əsas din atəşpərəstlik idi. Albaniyada həm xristianlıq, həm də bütpərəstlik mövcud idi. Xilafətin Azərbaycanı işğal etməsi əhalinin böyük əksəriyyətinin islam dinini qəbul etməsinə səbəb oldu. Əhalinin müxtəlif təbəqələrinin yeni dinə münasibəti də müxtəlif idi. Hakim təbəqə islam dininin etnik-əxlaqi-tərbiyəvi əhəmiyyətini düzgün başa düşdüyü və öz əmlakını, mövqeyini əlində saxlamaq məqsədilə tacirlər və sənətkarlar xilafətin ticarətə və sənətə rəğbətini görərək, əhalinin yoxsul təbəqəsi isə canlarını ağır dini vergi olan cizyədən qurtarmaq üçün islam dinini qəbul etdilər. İslam dinini qəbul edənlər nəinki cizyədən azad edilirdi, hətta onlara əlavə imtiyazlar verilirdi, yardım göstərilirdi. Ərəblər işğal etdikləri digər ölkələrdə olduğu kimi, Azərbaycanda da mövcud olan idarə qaydalarını qoruyub saxladılar. Əsarətə aldıqları geniş əraziləri idarə etmək məqsədilə əmirlik (canişinlik) sistemi yaratdılar. Xaçmaz bölgəsinin daxil olduğu ərazilər dördüncü əmirliyə daxil idi.

Xilafət dövründə vergilərin nizama salınmsı və toplanması ilə əlaqədar Azərbaycanda sərhədlər və əhalinin sayı müəyyənləşdirildi. Azərbaycanın şimal sərhədi Dərbənd, cənub sərhədi Həmədanla qurtarırdı.

İşğalçı dövlət kimi Xilafət Azərbaycanda bir neçə cür vergi tətbiq edirdi. Yerlərdə iki adda vergi: xərac və cizyə yığılırdı. Müsəlmanlar cizyədən azad idi. Bundan əlavə xərac vergisinin yığılmasında qayda yaratmaq məqsədilə xəlifə Hişamın göstərişi ilə 725-ci ildə Azərbaycanda əhali, mal-qara, torpaq siyahıya alındı. Bir sıra yeni – sənət məmulatı, kəbin kağızı və s. adda vergilər tətbiq olundu. Bu ağır vergilər bütün əhalini - həm yoxsulları, həm də orta və iri feodalları müflis vəziyyətinə saldı. Əhali arasında xeyli narazılıqlar əmələ gətirdi. Zaman-zaman bu narazılıqlar qanlı çarpışmalara, qarşıdurmalara gətirib çıxardı. Əhalinin mənfəətləndiyi bütün sahələrdən yığılan xüms (daşına bilən əmlakdan beşdə biri), mal-qaradan, əkin və meyvədən, qızıl və gümüşdən zəkat (sədəqə) müflis əhalini bir az da müflisləşdirdi.

Azərbaycanın ərəblər tərəfindən işğalı təsərrüfatın, sənətkarlığın, şəhərlərin, kəndlərin inkişafını ləngitsə də, ticarətin qarşısını ala bilmədi. Qonşu ölkələrlə ticarət əlaqələri genişləndi. Tacirlər nəinki qonşu ölkələrə, hətta Avropa, dünya ölkələrinə ayaq açdı. Daxili və dünya ticarət yollarının qovşağında yerləşən Dərbənd, Şəbəran (Şabran), Beyləqan, Bərdə, Ərdəbil və başqa Azərbaycan şəhərlərinin rolu, əhəmiyyəti xeyli artdı. Dərbənd və Şabran şəhərlərinin arasında yerləşən Xaçmaz ərazilərindən bazarlara kətan parça, zəfəran, qiymətli boya maddəsi (marena), xalça, qurudulmuş meyvələr, qurudulmuş balıq ixrac edilirdi. Dərbənd bazarı şimaldan Xəzər dənizi vasitəsilə mal gətirən tacirlərin yığnaq yeri idi. Tacirlər bu əlaqələrdən xeyli mənfəət əldə edirdilər. Şəhərlərdə müxtəlif sənət sahələri: dəmirçilik, dulusçuluq, dərzilik, misgərlik, toxuculuq, xarratlıq, bənnalıq, çəkməçilik və s. kimi sahələr sürətlə inkişaf etməkdə idi.



Xilafət daxilindəki iğtişaşlar, xaricdəki azadlıq hərəkatları müstəqil dövlətlərin istiqlaliyyətlərinin bərpa olunmasına gətirib çıxardı. IX əsrin 60-cı illərində Heysəm ibn Xalid özünü Şirvanın müstəqil hakimi elan etdi. Beləliklə, Şirvanın istiqlaliyyəti bərpa olundu. Mənbələrin məlumatına əsasən Məzyədilər sülaləsinin hakimiyyəti illərində Şirvanşahların sərhədləri cənubda Kür çayı, şimalda Dərbənd və Samur çayı, qərbdə Göyşay və Şəki, şərqdə isə Xəzər dənizi ilə məhdudlaşırdı. Şirvanşahlar dövlətinin yaradıcısı Heysəm ibn Xalid Şirvanın birinci rəsmi məliki Yezid ibn Məzyədin nəvələrindən idi. Ona görə də sülalə Məzyədilər (861-1008) adlanırdı.

Sasani padşahı Xosrov I Ənuşiravan hakimiyyəti dövründə Xəzər sahili torpaqları vassal feodallıqlara bölüb, bunlara sülalə ilə idarə olunan şah titulu vermişdi. Şimaldan basqın edən türk tayfa birləşmələrinin qarşısını almaq məqsədilə Sasani padşahları bu vassal şahlıqların möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdilər. Ərəb tacirləri belə şahlıqlardan Tabasaran şah, Xursan şah, Vardan şah, Vaxrazan şah və Şirvan şahlığının adlarını çəkirlər. Sasani sülaləsindən olan adamlar bu vilayətlərə şah təyin edilirdilər. IX əsrdə yaşamış Əl Balazuri yazır ki, ayrı-ayrı vilayətlərə hökmdarları Xosrov Ənuşiravan özü seçib, təyin edirdi. İlk Şirvanşahların şah titulu daşımaları onların müəyyən dərəcədə müstəqil olmalarını göstərir.

Ərəb işğalının əvvəllərində Şirvanşahlar hakimiyyətdə saxlanılmış, hətta dövlət idarə üsulları da dəyişdirilməmişdi. VII-VIII əsrlərdə ərəblər şimaldan Şirvana tərəf basqın edən sabirlər, xəzərlər və başqa türk tayfaları ilə şiddətli müharibələr aparmalı olurdular. 732-ci ildə Xəlifə Haşim Mərvan ibn Mühəmmədi Arrana və Şirvana hakim

təyin etdi. O, xəzərlərin üzərinə hücuma keçdi. Xəzər xaqanı islam dinini qəbul edəndən sonra Mərvan əsir düşmüş 40 min xəzəri Samurla Şabran arasında yerləşdirdi. Sonra Xəzər dənizinin sahilində yerləşən Şirvan hakiminin möhkəmləndirilmiş qalası Xursana hərəkət etdi. Mərvanın hakimiyyətə tabe olmağa məcbur olan qala hakimi tələsik düzənliyə enərək onu qarşıladı. O zaman Şirvanşah Xursanı tutmuşdu və Xursanda otururdu.

Tarixi mənbələrdən göründüyü kimi, Azərbaycanın şimal sərhədlərində yaşayan əhali tarixin qədim dövrlərindən başlayaraq ardıcıl şəkildə xarici təcavüzlərin, onlara qarşı aparılan uzunmüddətli müharibələrin ağrı-acısını, əziyyətlərini daha çox çəkiblər. Aramsız müharibələr, talançı basqınlar nəticəsində bu bölgənin əhalisinin bütün sahələrdə həyatına sağalmaz yaralar vurulub. Tarixi mədəniyyət abidələri dağıdılıb, tarixin izləri məhv edilib.

**Ruslar Azərbaycanda. Həmin dövrdə bölgədə vəziyyət.** Orta əsr mənbələri X əsrin əvvəllərində rusların (bu rusların Kiyev rus dövləti ilə əlaqəsi yox idi. Bu ad altında digər etnoslar, əsasən bulqarlar çıxış edirdilər) Azərbaycana istilaçı yürüşləri barədə məlumat verirlər. XI əsrin 30-40-cı illərində Xəzərsahili əyalətlərə, xüsusilə Dərbəndə, Bakıya, Şirvana və Beyləqana rusların hücumları genişləndi. Düşmənə qarşı mübarizədə on minlərlə adam həlak oldu, əhali qarət edildi. Vəziyyəti mürəkkəbləşdirən səbəblərdən biri də şimaldakı tayfaların basqınları idi. Ölkədə, o cümlədən də Şimal-şərqi Azərbaycanda əmin-amanlığın pozulması təsərrüfatın inkişafını da ləngidirdi.

Ruslar əvvəllər 15-20 gəmidən ibarət kiçik dəstələrlə Azərbaycana ticarət məqsədilə gəldikləri halda, X əsrdə gəlişlərinin məqsədi dəyişdi. İndi yüzlərlə gəmi ilə səfərə



çıxanların niyyəti qarətçilik və istilaçılıq idi. 914-cü ildə 500 gəmidə Azərbaycanın Xəzər sahillərinə 50 mindən artıq rus gəldi. Azərbaycana gəlmiş ruslar qeyri-slavyan tayfaları idi. Onları bulqar-türk tayfalarına mənsub edirlər. Rusların bu hərbi təcavüzünədək Xəzərdə ancaq ticarət gəmiləri üzürdü. Ona görə də dənizdən hərbi təhlükənin baş verəcəyini gözləməyən yerli əhali, xüsusilə də Niyazabad liman şəhərinin sakinləri və ətraf kəndlərdə yaşayanlar düşmənin dənizdən qəfil hücumu qarşısında çətin vəziyyətə düşdülər. Şirvanşah Əli ibn Heysəm təkcə quruda deyil, düşmənlə dənizdə də döyüşdü. Dəniz döyüşlərində təcrübəsi olan və daha çox qüvvəyə malik ruslar qalib gəldilər. Minlərlə adam öldürüldü və dənizdə batırıldı. Yerli əhali ilə döyüşlərdəki itkilər, xəstəliklər, xəzərlərin, alanların, xarəzmlərin vurduqları zərbələr rusların Xəzər sahillərinə hücumlarını dayandıra bilmirdi. Onlar müəyyən fasilədən sonra bu əfsanəvi diyarın zəngin sərvətini ələ keçirmək üçün daha böyük qüvvə ilə hücuma keçdilər. 30 illik fasilədən sonra yenidən hücuma keçən ruslar bu dəfə Şirvana və Xəzər sahillərinə deyil, Arranın mərkəzi Bərdəyə gəldilər. 944-cü il avqustun 24-də Bərdəni mühasirəyə aldılar. O dövrün silahları olan nizə, qalxan, qılınc, xəncər, əmud və s. ilə silahlanmış çoxminli rus drujinaları döyüşdə qalib gələrək şəhəri tuta bildilər. Əhalini incitməyə və qarət etməyə başladılar. Rusların özbaşınalıqları Azərbaycanın əksər ərazilərində, xüsusilə də şimal-şərq bölgələrində, Xəzərsahili vilayətlərdə də əhalinin böyük narazılığına səbəb oldu. Əhali ruslara qarşı mübarizəni dayandırmadı. Xalqın möhkəm iradəsi düşmənin ümidlərini sarsıtdı.[1]

[1] Azərbaycan tarixi. I cild. Bakı. "Azərnəşr". 1994. səh. 280.

**IX-XI əsrlərdə bölgənin kənd təsərrüfatı və ictimai münasibətlər.** Ərəb əsarətinə son qoyulduğu və Şirvanşahlar dövlətinin yarandığı dövrdə şimal bölgəsində kənd təsərrüfatının, sənətkarlığın, ticarətin vəziyyəti haqqında mənbələrdə az-çox məlumata təsadüf olunur. Bölgənin əlverişli iqlimi və təbii imkanları kənd təsərrüfatının yaxşı inkişafına zəmin yaratmışdı. Azərbaycanın digər bölgələrində olduğu kimi burada da süni suvarmaya ehtiyac olduğundan IX-XI əsrlərdə müharibələr, xüsusilə də şimaldan köçəri tayfaların aramsız basqınları nəticəsində sıradan çıxanları bərpa edilir, yeni-yeni kanal və su arxları çəkilirdi. Bu, quru iqlim şəraitində daha çox məhsul götürməyə imkan yaradırdı.

Əkinçilik məhsullarından buğda, arpa, darı, vələmir, lobya və s. daha geniş yayılmışdı. Əhalinin istehlak tələbini ödəməklə yanaşı, bu məhsullar Azərbaycanın digər bölgələrinə, o cümlədən Rusiya və İran ərazilərinə də ixrac olunurdu.  Bölgədə kənd təsərrüfatının yaxşı inkişaf etmiş sahələrindən biri də meyvəçilik idi. Orta əsr müəllifləri etiraf edirlər ki, Müşkür-Şabran və Tip mahallarında yetişən ləziz meyvələrə (gilas, zoğal, şaftalı, ərik, əncir, alça, üzüm) dünyanın çox ölkələrində təsadüf edilmir. Azərbaycandan, xüsusilə də Quba-Xaçmaz bölgəsindən dünya bazarlarına çıxarılan ticarət malları içərisində meyvə qurusuna da böyük təlabat var idi. Burada kənd təsərrüfatının mühüm sahələrindən biri maldarlıq idi. Yaşıl meşələrin, bol sulu çayların, otu bol düzənliklərin, qışlaqların olması  saysız-hesabsız iri və xırdabuynuzlu mal-qara, at, qatır saxlamağa imkan verirdi. Mənbələrin birində Şirvanşah Fəriburzun ilxısında dörd min baş təkcə madyan olduğu qeyd edilirdi. O dövrdə bölgədə arıçılıq və



balıqçılıq da geniş inkişaf etmişdi. Xüsusilə Xəzərsahili ərazilərdə əhali daha çox balıqçılıqla məşğul olurdu.

Həmin dövrdə Azərbaycanda feodal münasibətlərinin inkişafı və kifayət qədər möhkəmlənməsi sayəsində cəmiyyətin əsas sinifləri olan feodalların və kəndlilərin formalaşması sabitləşdi. Azərbaycanın bütün şimal bölgəsi və Xəzərsahili ərazilərinin də daxil olduğu Şirvanşah dövlətini təşkil edən sülalələrin və onlara yaxın olanların min hektarlarla torpaq sahəsi və iri malikanələri vardı. Burada feodal ierarxiyası nərdivanının orta pilləsində iri feodalların dehranlar və azatlar deyilən vassalları dayanırdı. Bölgədəki məhsuldar və münbit torpaqlar onların mülkiyyətində idi.

Cəmiyyətin ən böyük sinfi olan kəndlilər iki hissədən ibarət idi: birincisi, uluc adlanan asılı kəndlilər, ikincisi, azad kəndlilər. Uluclar əksəriyyət təşkil edirdilər. Məlumdur ki, kəndlilər dövlətə və feodallara məxsus olan torpaqlarda çalışırdılar. Həmin dövrün məlumatlarından aydın olur ki, torpaq üzərində əvvəlki mülkiyyət münasibətləri davam etməkdə idi. Torpaqların dövlətə məxsus olan hissəsi divani adlanırdı. Həmin torpaqlardan əldə edilən gəlir xəzinəyə daxil olurdu. Hökmdara və onun sülaləsinə mənsub torpaqlara isə əmlakı xasse deyilirdi. Ölkədə iri feodalların və onların vassalarının əlində olan torpaqlar mülk (əmlak) adlanırdı. Xilafət dövründə belə mülk sahiblərinə məlik deyirdilər. Mülk sahibləri dövlətə xərac deyilən vergi verirdilər. Torpaq üzərində geniş yayılmış mülkiyyət formalarından biri iqta idi. İqta onun sahibinə dövlətə göstərdiyi xidmətə görə verilirdi. Ona görə də bu mülkiyyət irsi xarakter daşımırdı.

Bəhs etdiyimiz dövrdə Müşkür-Xaçmaz bölgəsində torpaq üzərində mülkiyyət formalarından biri də "vəqf"

adlanırdı. Bu cür torpaqlar məscidlərə, müqəddəs yerlərə, ruhani idarələrinə, xeyriyyə cəmiyyətlərinə məxsus idi. Onun gəlirlərindən həmin məqsədlər üçün istifadə edilirdi. Bu, orta əsrlərdə geniş yayılmış, nüfuzlu və toxunulmaz mülkiyyət hesab olunurdu.

O dövrdə mülkiyyət formalarından biri də icma idi. Kənd icmasının özünün torpağı yox idi. Onların istifadə etdiyi torpağın sahibi dövlət idi. Dövlət həmin torpağı becərmək üçün kənd icmasının istifadəsinə verirdi. Kəndlilər torpağı hər il öz aralarında bölüşdürür, becərir və xərac adlanan vergini bir yerə toplayıb dövlətə təhvil verirdilər. İcma təsərrüfatı dövlət üçün əlverişli olduğundan XIX əsrin əvvəllərinə qədər davam etmişdir.

Orta əsrlərdə bütöv Azərbaycan ərazisində olduğu kimi, Xaçmaz bölgəsində də kəndlilərin ödəməli olduğu çoxsaylı mükəlləfiyyətlər və vergilər içərisində ən ağır xərac adlanan torpaq vergisi idi. Xəracın məbləği və toplanması qaydası müxtəlif dövrlərdə müxtəlif şəkildə olmuşdur. Bu vergi kəndlilər üçün ağır yük idi. XI əsrin 60-cı illərinin əvvəllərində Dərbənddə feodal zülmünə qarşı baş vermiş xalq kütlələrinin çıxışları bununla əlaqədar idi.

O dövrdə sənətkarlıq sahəsində ixtisaslaşmanın sürətlənməsi, peşələrin çoxalması, yerli sənətkarlar tərəfindən müxtəlif çeşiddə və formada məmulatların istehsalı iri şəhərlərdə böyük bazarların yaranmasına səbəb olurdu. Belə bazarlar Şabran, Quba, Niyazabad və Dərbənd şəhərlərində də fəaliyyət göstərirdi. Dünya ticarət yollarının qovşağında yerləşən şəhərlərin bazarlarına təkcə ölkənin daxilindən deyil, xarici ölkələrdən də yüzlərlə tacir gəlirdi. Qazıntılar zamanı bölgə ərazisindən müxtəlif pul nümunələrinin tapılması həmin dövrlərdə daxili bazarlarda həqiqətən də xariclə intensiv ticarət əlaqələrinin olmasını sübut edir.



**Azərbaycanda səlcuq türklərinin hakimiyyəti və bu dövrdə Xaçmaz bölgəsinin həyatı.** XI əsrin ortalarında Azərbaycan ərazisində üç müstəqil dövlət mövcud idi: Şirvanşahlar, Şəddadilər və Rəvvadilər dövlətləri. Onların arasında sabit siyasi və iqtisadi əlaqə yox idi. Əksinə onlar bir-birləri ilə çəkişirdilər. Feodal ara müharibələri ölkənin inkişafını ləngitməklə yanaşı, onun xaricdən olan hücumlara qarşı ümumi müdafiə qüvvəsini də zəiflədirdi. Bu, həmin dövrdə əslində feodal pərakəndəliyinin nəticəsi idi.

Belə bir tarixi şəraitdə Orta və Yaxın Şərqdə böyük Səlcuqilər imperiyası yarandı. Orta Asiya, İran, İraq, Suriya, Misir, Kiçik Asiya, Ön Qafqaz xalqları ilə birlikdə Azərbaycan da Səlcuqilərin hakimiyyəti altına keçdi. Azərbaycandakı feodal dövlətlər və onları idarə edən sülalələr tədricən öz istiqlaliyyətlərini və hakimiyyətlərini itirdilər.

Şərqi lərzəyə salan səlcuqların rəhbəri oğuzların qınıq tayfasına mənsub cəsur və cəngavər bir şəxs olan Səlcuq idi. Tarixi mənbələrdə qeyd edilir ki, oğuzlar 22-24 türk tayfasını birləşdirirdi. Oğuzların başçısı Oğuz xaqan hesab edilirdi. Fəzlullah Rəşidəddin "Oğuznamə" əsərində Oğuz xaqanın əfsanəvi igidliyini belə təsvir edir: "Vardığımız hər ölkə bizdən nə əmr edilmişsə, yerinə yetirdi. Keçdiyimiz yerlərdə olmadığımız bir ölkə, boyun əyməyən və itaət yolunu tutmayan bir hökmdar qoymadıq qala. Qəti bilməlisiniz ki, mənim ordum siz düşündüyünüzdən daha böyükdür. Əgər su və odla bizim yolumuzu kəsə biləcəyinizi düşünürsünüzsə, bilməlisiniz ki, biz gələ-gələ çox dənizlər keçmişik. Beləliklə, sizin çaylarınız və sularınız mənim əsgərlərimin qarşısında heç nədir. Onlar atları sala,

qamçını avara döndərər, bir sal düzəldərək asanlıqla sulardan keçib ölkənizi alt-üst edərlər”.[1] Əsərdə həmçinin Oğuz xaqanın Şirvana, Arrana və Muğana gəlməsi, əhali ilə rəftarı haqqında da məlumat verilir.

XI əsrin əvvəllərində oğuzların bir hissəsi Səlcuqun varislərinin başçılığı ilə Xorasan tərəfdən Yaxın Şərq ölkələrinə, digər hissəsi Xəzərin şimalından - indiki Quba-Xaçmaz rayonlarının ərazisindən keçməklə Şərqi Avropaya və Balkan yarımadasına yayıldı. Azərbaycana gəlmiş səlcuqlar yerli türklərlə eyni dil yaxınlığına malik idilər. Tarixi həqiqətdir ki, Azərbaycanın ən qədim və ilk sakinləri türk tayfaları idi. Geniş ərazidə yaşayan türklər vaxtaşırı yerdəyişməyə məruz qalırdılar. Əsrlər bir-birini əvəz etdikcə Azərbaycana türk tayfalarının yeni-yeni dəstələri gəlirdi. Sasanilərin hakimiyyəti dövründə Dərbənd keçidi ilə türk tayfalarının Azərbaycana güclü axını başlandı. Sasani hökmdarlarının Albaniya ərazisində tikdirdikləri daş divarlar, sədlər, qalalar da onların qarşısını dayandıra bilmədi. Onlar burada soykökləri ilə birləşir, qaynayıb-qarışır və məskunlaşırdılar.[2]

“119 il fəaliyyət göstərən Səlcuqilər dövləti xalqların hərbi-siyasi, sosial-iqtisadi və mədəni inkişafına güclü təsir göstərdi. Məsələn, hərbi-siyasi sahədə: hərbi-siyasi birliyin təşəkkülü və yeni-yeni ərazilərin ələ keçirilməsi; iqtisadi sahədə: təsərrüfatın canlanması, sənətkarlığın, ticarətin inkişafı, şəhərlərin tərəqqisi; ictimai münasibətlər sahəsində: feodal və kəndli siniflərinin formalaşması və daha da təkmilləşməsi, onların arasındakı sinfi ziddiyyət-

[1] Rəşidəddin F. Oğuznamə. Bakı. “Azərnəşr”. 1992, səh.28
[2] Azərbaycan tarixi. I cild. Bakı. “ Azərnəşr”. 1994 , səh.289



lərin daha da kəskinləşməsi, feodal rentasında pul sisteminə marağın artması, torpaq münasibətlərində kəndlilərin daha çox asılı vəziyyətə salınması, onların yerinə yetirdikləri mükəlləfiyyətlərin və vergilərin çoxalması, yerli əhalinin iqtisadi və siyasi mövqeyinin möhkəmlənməsi; mənəvi sahədə: türk dilinin ictimai həyatda geniş intişar tapması, onun əhatə və təsir dairəsinin genişlənməsi, folklorun, ədəbiyyat və incəsənətin, elmin inkişafı və s. ilə xarakterizə edilir”.[1]

İllər ötdükcə Səlcuqilər imperiyasının daxilində onun tənəzzülünə səbəb olan hallar baş verirdi. Onlardan biri bu imperiyaya tabe olan xalqların istiqlaliyyət uğrunda mübarizəsi idi. Səlcuqların əsarəti dövründə Azərbaycanda, o cümlədən Dərbənd-Müşkür-Şabran bölgəsində hərbi, ictimai münasibətlər baxımından xeyli hadisələr baş verirdi. Belə ki, Sultan Məlikşahın ölümündən sonra Səlcuq sülalə üzvləri arasında hakimiyyət uğrunda mübarizənin kəskinləşməsi dövləti taqətdən saldı. Belə siyasi vəziyyətdə Səlcuqilərin işğalınadək müstəqil olan dövlətlərin daxilində istiqlaliyyət uğrunda hərəkatlar güclənirdi. O cümlədən uzun illər işğalçı dövlətlərin tərkibinə daxil olmasına baxmayaraq, daxili istiqlaliyyətini saxlamış Şirvanşahlar dövlətində də azadlıq meyilləri güclü idi.

Səlcuq imperiyasının süqutu, Şirvan feodal dövlətinin yenidən yüksəlişi dövründə Gürcüstanla münasibətlər daha da gərginləşdi. Gürcü çarı IV David Şirvana bir neçə dəfə qarətçi yürüş təşkil etdi. 1123-cü ilin yayında Gülüstan qalasını tutdu və xeyli qənimət ələ keçirdi. 1124-cü ilin aprelində və avqustunda dalbadal hücumlar təşkil edərək Şabranı, Buğurt qalasını, Şamaxını və Şirvanın bir

[1] Azərbaycan tarixi. I cild. Bakı. “Azərnəşr”. 1994, səh. 292-293

sıra ərazilərini işğal edərək orada öz hərbi dəstələrini yerləşdirdi. Şirvanı Gürcüstanın vassalına çevirdi. Lakin 1125-ci ilin yanvarında çar IV Davidin ölümü onun Şirvan haqqındakı işğal planlarını yarımçıq qoydu. Onun varisi I Demetrenin 30 illik hakimiyyəti dövründə Gürcüstanla Şirvan arasında müharibələr dayandı, qohumluq və mehriban qonşuluq əlaqələri sabitləşdi. Şirvanda əmin-amanlıq yarandı. III Mənuçöhr bu əlverişli tarixi şəraitdən istifadə edərək çar IV Davidin hücumları zamanı dağılmış şəhər və qalaları bərpa etdirdi. Bakının qala divarlarını tikdirdi, Kürün üzərində yeni körpü saldırdı. Geniş abadlıq işləri aparmaqla yanaşı, qoşun çəkib Gürcüstandakı qıpçaqları əzişdirdi. Onun 40 illik hakimiyyətinin son 36 ili ərzində Şirvan torpağına yadelli işğalçı ayağı dəymədi. Daxildəki müharibələr və çəkişmələr dayandı. Təsərrüfat canlandı, mədəniyyət çiçəkləndi, məhsuldar qüvvələr inkişaf etdi. Lakin onun ölümündən sonra 1160-cı ildə oğlanları arasında hakimiyyət uğrunda gedən mübarizə dövləti zəiflətdi. Mübarizədə qardaşlarına qalib gələn Axsitan hakimiyyəti ələ keçirdi və əsrin sonralarına qədər ona sahib oldu. Gürcü hakimi III Georginin bacısı qızı ilə evlənən Axsitan ona ata kimi hörmət bəsləyirdi. “Xəzərlər, peçeneqlər və digər tayfalar Dərbəndə, Şəbrana, Müşkürə və Şirvanın Kür çayı sahillərinə yürüşlər edəndə Şirvanşah Axsitan gürcü çarının köməkliyi ilə onları dəf edirdi”.[1]

Şirvan hakimi Axsitanın hakimiyyəti dövründə Azərbaycan Atabəylər dövlətilə xoş münasibətlər saxlayırdı. Atabəy Məhəmməd Cahan Pəhləvanın ölümündən sonra hakimiyyətə qardaşı Qızıl Arslan yiyələndi. Məhəmməd Cahan Pəhləvanın dul qadınları və oğlanlarının Atabəy

[1] Azərbaycan tarixi. Bakı. “Azərnəşr”. 1994, səh. 297



Qızıl Arslana qarşı mübarizəsi zamanı Axsitan Azərbaycan torpaqlarını ələ keçirmək qərarına gəldi. Bu məqsədlə oraya qoşun yeritdi. Lakin Şirvanşah ağır məğlubiyyətə uğradı. Onun qoşunları Bakıya çəkildi. Qızıl Arslan Şabran-Müşkür bölgəsi də daxil olmaqla Dərbəndə qədər olan torpaqları tutdu. Bütün bunlara baxmayaraq, Axsitanın şahlığı dövründə yuxarıda qeyd olunan bir-iki hərbi toqquşmanı nəzərə almasaq, ölkədə ümumən sakitlik oldu. Axsitan da atası kimi əmin-amanlığı və abadlığı sevirdi. Xarici siyasət sahəsində ağıllı və ehtiyatlı hərəkət edirdi. Müxtəlif vaxtlarda İraq-səlcuq sultanlarının, gürcü çarlarının və Azərbaycan Atabəylərinin vassalı olmasına baxmayaraq, hər vasitə ilə Şirvanın daxili müstəqilliyini qoruyub saxlayırdı. O, Abşeronda, Bakıda, Şamaxıda, Şabranda və Şirvan torpağının digər sahələrində müdafiə qalaları, gözəl saraylar, məscidlər, mədəniyyət abidələri tikdirdi. Alimlər, filosoflar, şairlər himayə etdi. Dənizdə hərbi donanmanı, quruda ordunu xeyli gücləndirdi. Təsadüfi deyildir ki, həmin dövrlərə aid edilən bir çox abidələr indi də qalmaqdadır. Canaxır kəndindən 500 metr şimalda yerləşən “Yaşayış yeri və nekropol”, Bostançı kəndindən şimal-şərqdə yerləşən “Qızlar təpə” yaşayış yeri, Şollar suyu filtrasiya məntəqəsindəki “Filtr-I” və “Filtr-II” yaşayış yerləri tariximizin həmin dövrlərinin yadigarlarıdır.

Bostançı kəndindəki tarixi abidələr haqqında danışmaqla həmin dövrlərə qiyabi səyahət edək. Buradakı orta əsrlərə aid olan bir neçə abidə öz əvvəlki görkəmini demək olar ki, saxlamışdır. Arxeoloqlar tərəfindən aparılan qazıntı işləri zamanı aşkara çıxarılan gümüş və mis pullar, qədim əmək alətləri və s. əşyalar hazırda Azərbaycan Tarix muzeyindədir. Kənddən bir qədər aralıda, meşələr qoynunda kəsik konusvari şəkildə bir təpə var. Adına

"Qızlar təpəsi" deyilir. İlk baxışdan təpənin süni surətdə yaradıldığı nəzərə çarpır. Onun hündürlüyü 20-25 metr, sahəsi isə 500 kvadratmetrdir. Belə güman edirlər ki, kənd əhalisi bu təpədən köçəri tayfalara və basqınlara qarşı mübarizə aparmaq üçün bir istehkam kimi istifadə etmişdir.

"Qızlar təpəsi" Bostançı kəndinin füsünkar yerlərindəndir. Təpənin üstü yazda yaşıl ota, rəngarəng əlvan çiçəklərə bürünür. Ətrafı isə qocaman palıd ağacları ilə əhatə olunmuşdur. Güllü bulaq, Qoşa bulaq, Əbil bulaq və s. bulaqlar təpənin ətrafında qaynayır. Yaxınlığındakı dərədən kiçik bir çay axır. Dərədən bir az kənarda "Yeddi bacı" adlanan yerdə qəbirlər var. Hər qəbirin üzərində ərəb əlifbası ilə yazılı böyük daş qoyulub. Daşlardan biri indi Xaçmaz tarix-diyarşünaslıq muzeyində saxlanılır. "Yeddi bacı" haqqında xalq arasında çoxlu rəvayətlər mövcuddur.

XIII əsrin 20-ci illərindən etibarən Ön Qafqaza monqol hücumlarının başlanması ictimai və siyasi münasibətlərdə ciddi dəyişikliklərə səbəb oldu. Nəticədə digər dövlətlərlə yanaşı, Şirvanşahlar dövləti də daxili istiqlaliyyətini itirdi. Öz işğalçılıq yürüşləri ilə ad qazanmış Çingiz xan mövcud olan vəziyyətdən istifadə edərək 1206-1227-ci illərdə bir sıra ölkələri işğal etdi. Xarəzm şahı Məhəmməd və oğlu Cəlaləddin İrana qaçdılar. Xorasan və İraqi Əcəmi tutan monqollar 1220-ci ildə ilk dəfə Azərbaycana yürüş etdilər. Monqol sərkərdələri Cəbə və Subutay Zəncan, Ərdəbil, Sarab və başqa şəhərləri talan edib Təbrizə yaxınlaşdılar. Eldəniz Özbək monqollarla sazişə girdi; böyük xərac alan monqol sərkərdələri qışlamaq üçün Muğana yollandılar və buradan Gürcüstana basqın etdilər. Sonra yenidən Azərbaycana döndülər və Şirvana soxuldular. Lakin monqollar



tezliklə Azərbaycanı tərk etməli oldular. 1222-ci ildə Dərbənddən keçərək şimal istiqamətində geri qayıtmağı qərar verdilər. Onlar gizli yollarla Dərbənddən şimala keçirək, Monqolustana qayıtdılar. Monqolların ilk yürüşü kəşfiyyat məqsədi güdürdü və gələcək istilalar üçün zəmin yaratdı.

1223-cü ildə qıpçaq dəstələri Şimali Qafqaz çöllərindən Dərbəndə gəldilər və Azərbaycanda yaranmış vəziyyətdən istifadə edərək buraya soxuldular. Lakin qıpçaqların törətdikləri qırğınlar, talanlar Azərbaycan, Gürcüstan və Dağıstan əhalisinin onlarla mübarizə aparmasına səbəb oldu. Nəticədə qıpçaq dəstələri məğlubiyyətə uğradılar. Bir neçə il sonra Cormoqonun başçılığı ilə monqol qoşunları Rey və Həmədan şəhərlərini zəbt etdikdən sonra ikinci dəfə Azərbaycana soxuldular. Bir sıra şəhərlərdə, xüsusilə Marağada onlar ciddi müqavimətlə rastlaşdılar. 1239-cu ildə Dərbənd şəhərinin zəbti ilə bütün Azərbaycan monqollar tərəfindən istila olundu. Monqollar ilk yürüşlərdə işğalçılıq məqsədi güdsələr də, ikinci yürüşdə əsas məqsəd Azərbaycanda möhkəmlənməkdən ibarət idi. Odur ki, onlar qələbə əldə etdikdən sonra Monqolustana qayıtmadılar və yeni ərazilərdə möhkəmləndilər. 1239-1256-cı illərdə Azərbaycan və Ön Qafqaz ərazisi Ali Monqol xaqanlığının təyin etdiyi canişinlər tərəfindən idarə olunurdu.

**Xaçmaz Hülakular dövlətinin tərkibində.** Ali Monqol xaqanlığı tərəfindən müstəqil fəaliyyət göstərən iri feodal malikanələrinə qarşı mübarizəyə göndərilmiş monqol şahzadəsi Hülaku xan (1258-1265-ci illər) 1256-cı ildə Azərbaycanı, 1258-ci ildə Bağdadı istila etdi və 500 ildən artıq hökm sürən Abbasilər xilafəti süquta uğradı. Beləliklə, Hülakular (Elxanilər) dövləti yarandı. Azərbaycan bu dövlətin siyasi-inzibati mərkəzinə çevrildi, Təbriz döv-

lətin paytaxtı oldu. Bütün Azərbaycan kimi, şimal əraziləri də köçəri monqol feodallarının hakimiyyəti altına düşdü. Şahzadə Yuşumut Muğan, Şirvan və Dərbəndin hakimi təyin olundu. Azərbaycanın əksər ərazilərində, xüsusilə, onun şimal hissəsində monqolların güclü hərbi hissələri məskən saldı. Hülaku xan oturaq əhalinin istismarı və yerli feodalların sıxışdırılması nəticəsində tezliklə iqtisadi cəhətdən qüvvətlənmiş və mərkəzləşdirilmiş dövlət təşkil edə bildi. Hülaku xandan sonra Abaqa xan (1265-1282-ci illər), Əhməd xan (1282-1284-cü illər), Arqun xan (1284-1291-ci illər) bu dövləti idarə etdilər. 1295-ci ildə Hülakulər səltənətinə Qazan xan (1295-1304) sahib çıxdı.

Hülakular dövləti Azərbaycan ərazisi uğrunda digər monqol dövləti - Cuci nəslindən olan qızıl ordalılarla (şimalda) müharibələr aparır və bu da ölkənin vəziyyətini sarsıdırdı. Azərbaycanı işğal etməyə can atan Qızıl Orda xanları dəfələrlə (1263, 1265, 1288, 1290-cı illərdə) cənuba yürüş etmiş və ölkədə dağıntı törədərək geri qayıtmışdılar. Yerli feodallarla əlaqənin möhkəmləndirilməsi istiqamətlərində siyasət həyata keçirən Qazan xana qarşı kəskin mübarizə, ixtişaşlar, üsyanlar baş verdi, sui-qəsdlər təşkil olundu. Bu cür hadisələr ölkəmizin şimalında, xüsusilə Şabran-Müşkür-Tip mahalları ərazisində daha geniş vüsət aldı. Lakin Qazan xan yerli feodallara arxalanaraq baş vermiş bütün ixtişaşları yatıra bildi, mərkəzi dövləti möhkəmləndirdi. 1318-ci ildə ölkə ikitərəfli xarici hücumlara məruz qaldı: Misir qoşunları cənubdan, Qızıl Orda qüvvələri isə şimaldan hücuma keçdilər. Şirvan ərazisi şimal hücumundan çox ziyan çəkdi. Azərbaycanda 1338-ci ildən başlayaraq 1357-ci ilədək Çobani feodal qrupunun ağalığı, 1357-ci ildən başlayaraq fasilələrlə



1410-cu ilədək Cəlairilərin hakimiyyəti dövründə olmazın müsibətlər yaşandı.

Orta Asiyada Teymur imperiyasının yaranması və onun qonşu ölkələrə hücumları, eləcə də Qızıl Orda xanı Toxtamışın Azərbaycanı işğal etmək niyyətilə göstərdiyi cəhdlər ölkənin vəziyyətini daha da gərginləşdirdi. Xarici həmlələr nəticəsində Azərbaycanın əsas ərazisi Cəlairilərin nüfuz dairəsindən çıxdı, müxtəlif zamanlarda Teymurun canişinlərinin, bir sıra yerli feodalların və Qaraqoyunluların tabeçiliyində oldu.

Cəlairilər dövlətinin zəifləməsi, sultan Əhmədin Təbrizdə olmaması və Teymurun baş vermiş hadisələrlə əlaqədar Sultaniyyədən Səmərqəndə qayıtması nəticəsində yaranmış əlverişli vəziyyətdən istifadə edən Qızıl Orda xanı Toxtamış 1385-ci ildə 90 minlik ordu ilə Dərbənddən Şirvana soxuldu. Oradan Təbrizə, Marağaya, Mərəndə, Naxçıvana, Qarabağa hücumlar etdi. Yolüstü bütün yaşayış məntəqələri, xüsusilə iri şəhərlər qarət olundu. Əhaliyə dəhşətli işgəncələr verildi. Qarabağdan Qızıl Ordaya qayıdan Toxtamış Azərbaycandan çoxlu qənimət və 200 min əsir apardı. Toxtamışın Azərbaycanda törətdiyi dəhşətlər nəticəsində ölkə xarabazara çevrildi.

Azərbaycan 1386-cı ildə Teymurun hücumlarına məruz qaldı. 1395-ci ilə kimi Teymur əksər Azərbaycan ərazilərini işğal etdi və şimal bölgəsinə - Dərbəndə gəldi. Buradan Qızıl Ordaya hücum etdi. Əlincə qalası istisna olmaqla bütün Azərbaycan Teymurilərin ixtiyarında idi. Teymur özü Hindistan səfərində olarkən, Azərbaycanın və eləcə də Ön Qafqazın bir çox yerli feodalları öz müstəqilliyi uğrunda mübarizə apararaq Teymurilərə itaət etməkdən boyun qaçırdılar. Azərbaycanda və Ön Qafqazda baş vermiş hadisələrdən xəbər tutan Teymur Hin-

distan səfərindən qayıtdıqdan sonra 1399-cu ilin sentyabrında tarixdə «yeddiillik müharibə» adlanan yürüşə çıxdı. Azərbaycana gəldi və Qarabağda məskən saldı. Azərbaycanın və Ön Qafqazın bir sıra vilayət hakimləri, o cümlədən Şəki hakimi Seyid Əhməd, Şirvanşah İbrahimin vasitəçiliyi ilə Teymurun hüzuruna getdilər və onunla ittifaq bağladılar. Teymur 1405-ci ildə öldü. Bu dövrdə Azərbaycan Miranşahın oğlu Mirzə Ömər tərəfindən idarə olunurdu, Şirvan isə Şeyx İbrahimin hakimiyyəti altında idi. Şirvan hakimi I İbrahimin uzaqgörən siyasəti nəticəsində Şirvanşah dövləti nisbi də olsa, öz möstəqilliyini qoruyub saxlaya bildi.

Monqol əsarəti dövründə Azərbaycanda yerlilərə və köçərilərə məxsus dövlət quruluşlarının qovuşması nəticəsində yeni, təkmilləşmiş dövlət quruluşu və idarə sistemi yarandı. Təsərrüfat idarəsi "Divan sistemi" üzrə təşkil edilmişdi. Dini İşlər İdarəsinə ölkənin baş qazısı cavabdeh idi. Bütün ərazi vilayətlərə bölünmüşdü. Vilayət hakimlərinin vəzifəsinə mərkəzi hökumətin mənafeyini müdafiə etmək, göştərişlərini yerinə yetirmək, sərhədləri qorumaq, təsərrüfatı idarə etmək, xalq hərəkatını və sinfi mübarizəni boğmaq daxil idi.

Monqol istilalarınadək Azərbaycanın əhalisi əsasən türk tayfalarından təşəkkül tapmışdı. Hülaku xanın yürüşləri dövründə Azərbaycana 20-dən artıq monqol-türk tayfaları gəldi. Onların tərkibində türk tayfaları üstünlük təşkil edirdi. Bu tayfaların Azərbaycanda məskunlaşması, yerli əhali ilə qaynayıb-qarışması əhalinin etnik tərkibinə təsir etdi və türkdilli əhalinin sayının daha da artmasına səbəb oldu.

Azərbaycanın istilası zamanı monqollar bütpərəstliyin yayılması və möhkəmlənməsi üçün müxtəlif tədbirlər gö-



rürdülər. Bütün bunlara baxmayaraq, öz mənafelərinə uyğun gəldikdə monqollar həm islam, həm də xristianlığa arxalanırdılar. Bütpərəstliyin yayılması naminə islama qarşı ciddi mübarizə aparılırdı. Bu dini siyasətin nəticəsində ölkədə ziddiyyətlər artdı, daxili və xarici vəziyyət gərginləşdi. Məhz bu baxımdan hakimiyyətə gələn Qazan xan (1295-1304-cü illər) bütpərəstlikdən imtina edərək islamı qəbul etdi. Qazan xanın dini islahatı nəticəsində Azərbaycanda islam dininin mövqeyi möhkəmləndi, onu qəbul etməyənlər ölkədən çıxarıldı.

Monqol istilasının nəticəsində (Qazan xanın hakimiyyəti dövrünədək) Azərbaycanın iqtisadiyyatına və mədəniyyətinə ağır zərbələr vuruldu. Kənd təsərrüfatı, sənətkarlıq inkişafdan qaldı, məhv edildi. Kəndlilər və sənətkarlar ya əsir alınır, ya da qul kimi hərbi sahələrdə istifadə olunurdu. Bütün bunların ucbatından dirçəliş üçün görülən müxtəlif tədbirlər heç bir nəticə vermirdi. Yalnız Qazan xanın zamanında aparılan islahatlar səmərə verməyə başladı. Xalq kütlələrinin vəziyyəti nisbətən yüngülləşdi, ölkə iqtisadiyyatında canlanma başlandı.

Azərbaycan mədəniyyətinə vurulan zərbələrə baxmayaraq, həmin dövrdə incəsənət, elm, ədəbiyyat sahəsində inkişaf davam etdi. Azərbaycan Şərqin ən mühüm mədəni mərkəzlərindən biri olaraq qalmaqda idi. Azərbaycan dili ərəb və fars dilləri ilə yanaşı, dövlət dili səviyyəsi kəsb etdi. Bütün dövlət sənədləri bu üç dildə aparılırdı. Həmin dillərdə sənət əsərləri yaradıldı, müxtəlif şəhərlərdə möhtəşəm memarlıq abidələri ucaldıldı. Azərbaycan memarları və ustaları bütün Şərqdə şöhrət qazandılar.

Xaçmaz rayonunun ərazisində həmin keşməkeşli dövrlərin canlı şahidləri olan yaşayış məskənlərindən Müqtədir qəsəbəsində aşkara çıxarılmış Müqtədirtəpə yaşayış yeri

və Çinartala kəndi yaxınlığındakı Çiləgir yaşayış yerini göstərmək olar. Bu tarixi yaşayış məskənlərindən dövrünə uyğun tikililər, əşyalar, avadanlıqlar tapılmış və tədqiq edilmişdir. Ancaq burada da bir məqamı xüsusi qeyd etmək istərdim ki, aşkara çıxarılmış əksər tarixi abidələr zəif mühafizə edilir, onlara diqqət yox dərəcəsindədir. Bu istiqamətdə təbii ki, ciddi tədbirlər görülməlidir ki, məhv olmaq təhlükəsi qarşısındakı tarixi yerlər, abidələr qorunsun.

**Xaçmaz bölgəsi Azərbaycanda Səfəvilərin hakimiyyəti dövründə.** XIV əsrin ikinci, XV əsrin birinci yarısında feodal pərakəndəliyi ölkənin ayrı-ayrı hissələri arasında təsərrüfat əlaqələrinin möhkəmlənməsinə mane olur, məhsuldar qüvvələrin inkişafını ləngidirdi. Baş verən feodal müharibələri, feodal hakimlərin özbaşınalığının artması kənd təsərrüfatı və sənətkarlığın tənəzzülünə səbəb olur, şəhər və kənd əməkçilərinin vəziyyətini ağırlaşdırırdı. Belə bir vəziyyət ticarətin inkişafını ləngidir, tez-tez mal daşıyan karvanlara basqınlar edilir, yadellilərə qarşı mübarizədə xalqın birliyinin yaranmasına mane olurdu. Odur ki, Azərbaycanı siyasi cəhətdən birləşdirmək zərurəti meydana çıxmışdı. Bu birləşmə Azərbaycan əhalisinin geniş təbəqələrinin mənafeyinə uyğun gəlirdi. Xüsusilə də Xaçmaz bölgəsi əhalisinin. Ardı-arası kəsilməyən müharibələr, basqınlar bölgənin həyatını dözülməz həddə çatdırmışdı. Yalnız vahid bir dövlət hakimiyyəti yaratmaqla feodal pərakəndəliyini aradan qaldırıb Azərbaycanın müstəqilliyini qorumaq olardı. Səfəvilər kütlələri öz tərəflərinə çəkmək üçün ədalətli qaydalar vəd etdilər. Onlara inanan xalq kütlələri Səfəvilərin hakimiyyət uğrunda mübarizəsinə rəğbət bəsləyirdilər. Səfəvi dövləti yarandığı dövrdə Şirvan ərazisinin, xüsusilə də Azərbaycanın şimal bölgəsinin, Xəzərsahili ərazilərin tabe edilib əldə saxlanmasına böyük əhəmiyyət verilirdi. Qızılbaşlar İsmayıl başda olmaqla Şirvanşahlar dövlətinə (o dövrdə yuxarıda qeyd etdiyimiz ərazilər məhz Şirvanşahlar dövlətinin tərkibinə daxil idi) hücum edəndə Şamaxı tutulur, Bakı, Şabran, Niyazabad, Müşkür təslim olur. Şah İsmayıl Şirvanı işğal etdikdən sonra Şirvanşahların hakimiyyətini tanıyır. Buna baxmayaraq, o, Şirvanda möhkəmlənə bilməmişdi. Şirvanın əyanları içərisində də müstəqillik meyli güclü idi. Onlar Osmanlıların gəlməsini gözləyərək, müstəqillik üçün məqam axtarırdılar.

I Şah İsmayıl Şirvanı tamamilə işğal etmək üçün bir neçə dəfə cəhd etmişdi. Çünki Şirvanşahlar Səfəvilərə tabe olmaqdan tez-tez boyun qaçırırdılar. Lakin 1517-ci ildə Səfəvilərin növbəti yürüşü zamanı Şirvanşahlar məcburiyyət qarşısında qalaraq tabe oldular və müxtəlif qohumluq əlaqələri yaradaraq Səfəvilər dövlətinin tərkibinə qatıldılar.

Səfəvilər dövründə Azərbaycanın şimal bölgəsi, xüsusilə də Xaçmaz ərazisi bir sıra hərbi əməliyyatların mərkəzi meydanına çevrildi. Xüsusilə də Səfəvi-Osmanlı müharibələri bu bölgənin tapdaq altında qalmasına, talan olunmasına səbəb oldu. 1578-ci ildə Osmanlı qoşununun Ön Qafqaza yürüşü zamanı Sultan II Murad (1574-1595) Türkiyənin vassalı Krım xanı II Məhəmməd Gəraydan da tatarların bu yürüşdə iştirakını tələb etdi. Sultanın təsiri altında qızılbaşlar əleyhinə kürd qiyamı və Şirvandakı üsyan bu zəncirin həlqəsi idi. Türk ordusunun baş komandanı Mustafa Lələ paşa 100 minlik qoşunla Gürcüstan və Azərbaycan ərazilərinə yürüşə başladı. Krım xanı Məhəmməd Gəray 100 minlik qoşunla hərbi qənimət əldə etmək üçün Baxçasaraya və Şimali Qafqazdan Şirvana

doğru irəlilədi. Oktyabrın 23-də tatar qoşunu Şamaxıya çatdı və buradan Şirvanın müxtəlif rayonlarına dəstələr göndərib Şimali Azərbaycanı qarət etdi. Osmanlı qoşunlarının Şirvana daxil olması ilə tatarlar Azərbaycanı tərk etdilər. Burada Osmanlı hərbi-inzibati idarə üsulu yaradıldı. Şirvan iki bəylərbəyliyə bölündü: Şamaxı və Dərbənd. Osman paşa buraya hakim təyin olundu. Bu zaman qızılbaş Həmzə Mirzə 30 minlik qoşunla əks hücuma keçib, Şirvanı türklərdən azad etməyi qərara aldı. Onlar Şamaxı qalasında Osman paşanı mühasirəyə aldılar və birləşmiş Şirvan qoşununu darmadağın etdilər. Osman paşa Şamaxını tərk edərək Dərbəndə qaçdı. Qızılbaş qoşunu onu Şabrana qədər təqib etdisə də, Dərbəndi ala bilmədi. Daha sonra Əmir xan Türkmən də qoşunu ilə Xaçmazda toplaşan şirvanlılara və dağıstanlılara doğru irəlilədi. Lakin bu yürüş də uğursuz oldu. Çünki Xaçmaza yürüşə görə qızılbaş Əmir xanla Şəhrux arasında ziddiyyət başladı. Bu ziddiyyət Səfəvi hakimiyyətini zəiflətdi.

Bütün bunlara baxmayaraq, 1583-cü ildə İmamqulu xan yenidən Şirvana yürüş edir, Şamaxını ələ keçirir və bu zaman Yaqub bəyin Niyazabada qoşun topladığını eşidir. Türklərlə şiddətli döyüş olur. Türk qoşunları darmadağın edilir, Yaqub bəy öldürülür. Qızılbaşlar onları Dərbəndə qədər təqib edirlər. Samur çayının yaxınlığındakı Baştəpə adlı yerdə köməyə gələn Osman paşa ilə döyüşürlər. Bir neçə gün davam edən və tarixdə "məşəl savaşı" adlanan vuruşda türklər üstünlük qazanaraq, qızılbaşları məğlub edirlər.

XVI əsrdə Azərbaycanda Səfəvilərin hakimiyyəti dövründə əkinçiliyin, sənətkarlığın, ticarətin inkişafı üçün müəyyən şərait yarandı. Əhalinin əksəriyyəti əkinçilik, maldarlıq, bağçılıq, bostançılıqla məşğul olurdu. Şah



xəzinəsinin doldurulması məqsədilə tətbiq edilən vergi sistemi kasıb təbəqəni çox çətin vəziyyətə salmışdı. Onlar 50-yə qədər vergi verməli idilər. Şəhərlərdə əhali əsasən sənətkarlıqla məşğul olurdu. Azərbaycan ərazilərində uzun zaman davam edən Səfəvi-Osmanlı müharibələri nəhayət ki, 1590-cı ildə sülh müqaviləsinin bağlanması ilə bitdi. Bu sülh müqaviləsi sabitlik yaratdısa da, Azərbaycanı iki hissəyə böldü. Xaçmaz bölgəsinin daxil olduğu Şimali Azərbaycan Osmanlı hakimiyyəti altına düşdü. Osmanlılar Azərbaycanda yeni inzibati bölgü apardılar. "Türk mənbələrinə görə, Şirvanın tərkibinə 14, Dərbəndin tərkibinə 7 sancaq daxil idi. Lahıc, Ağdaş, Qəbələ, Salyan, Şəki, Bakı, Qaraulus, Osmanlı, Xudat, Mahmudabad, Ərəş və s. Şirvan; Şabran, Axtı, Quba, Müskür, Kurə, Çıraq və s. isə Dərbənd vilayətinə daxil idi".[1]

Tezliklə türklər Xəzər dənizi sahilinə çıxaraq, donanma yaratmağa başladılar. Bu iş əsasən xarici basqınların, rusların donanmasının Azərbaycana yürüşlərinin qarşısını almaq məqsədi güdürdü. Osmanlılar rusların və ingilislərin ticarət məqsədilə yan aldıqları Niyazabad şəhərində gəmilər inşa etməyə başladılar.

XIV-XVI əsrlər ərzində Azərbaycanın şimali-şərqində yerləşən Xaçmaz bölgəsində baş verən hadisələri izlədikdə məlum olur ki, ərazi daim talanların, basqınların, yürüşlərin, acı müharibələrin mərkəzində olmuş, lakin iqtisadi-coğrafi baxımdan öz əhəmiyyətini qoruyub saxlamışdır. Azərbaycanın şimal qapısı olmaqla dar məkanda yerləşməsi, Xəzərin qərb sahilındəki liman şəhəri kimi məşhur olan Niyazabadın mövcudluğu, Şirvanın ən məşhur ticarət mərkəzlərindən olan Şabran şəhərinin bölgədə

[1] Azərbaycan tarixi. Bakı, "Azərnəşr". 1994, səh. 465

yerləşməsi, əsas ticarət yollarının ərazidən keçməsi, münbit təbiəti, mülayim iqlimi Xaçmaz bölgəsini daim cəlbedici etmişdir.

Təsadüfi deyil ki, həmin dövrlərə aid edilən, dövlət əhəmiyyətli çoxsaylı tarixi abidələr bu bölgənin çox şərəfli, maraqlı keçmişindən xəbər verir. Şıxlar kəndindəki Şeyx Yusif türbəsi və məscid, Qaraqurtlu kəndindəki məscid, Tel kəndindəki yaşayış yeri, Aşağı Zeyd kəndindəki yaşayış yeri, həmin kənddən 2 kilometr qərbdə Həcmi təpələri, Qalağan kəndinin şimal-qərbində yerləşən yaşayış yeri, Vələmir və Şıxlar kəndlərindəki qədim qəbiristanlıqlar, Xanlıqoba kəndinin yaxınlığındakı Mollaxana yaşayış yeri, Çinartala kəndi yaxınlığındakı Şəhərgah yaşayış yeri, Maşıoba kəndindən 500 metr qərbdə I və II Dəyirmantəpə yaşayış yeri, həmin kəndin qərbində yerləşən Maşıtəpə yaşayış yeri, Çaxçaxlı kəndindən tapılmış ərəb yazısı olan 6 ədəd sənduqə, Qımılqışlaq skəndindən tapılan ərəb yazılı 2 ədəd sütun həmin dövr tarixinin salnamələri, inciləridir. Bu tarixi abidələr haqqındakı qısa məlumatlar geniş oxucu kütləsi üçün maraqlı olardı.

Ötən əsrin 80-ci illərində Xaçmaz rayonunun Çiləgir kəndində tapılmış mis pul dəfinəsi də öz zənginliyi ilə diqqəti cəlb edir. X-XIII əsrlərə aid olan sikkələrin üzərindəki yazıların bəzilərini oxucuların diqqətinə çatdırırıq: "Şirvanşah Fəribuzz ben Salar", "Şirvanşah əbu Nasir Yəzid Əhməd ibn Mühəmməd", "Şirvanşah Salar ibn Yəzid" (1049-1063), "Atabəylər", "Monqol Abaqa xan tərəfindən zərb olunmuş pul", monqol dövrünə aid çəkisi 5 qram, diametri 18-20 mm, üzərində xan sözü yazılmış və s.

* * *



Xaçmaz rayonunun tarixi abidələri içərisində orta əsrlərin işığından süzülüb gələn bir məşhur yurd yerimiz də var – qədim Niyazabad. Niyazabad Xəzər dənizinin qərb sahilində Şirvan ərazisində yerləşir. Adı XIV-XV əsrlərin mənbələrində çəkilir. Burada qədim bir şəhərin xarabalıqları mövcud imiş. Şəhərin əsasını erkən orta əsrlərdə Sasani şahlarından I Yəzdəgirdin (399-421-ci illər) qoyması ehtimal olunur. Şəhər XIII əsrdə monqollar, sonra şimaldan basqın edən köçərilər tərəfindən dağıdılmışdır. Xəzər sahilində yerləşməsi onu bir liman şəhəri kimi sonralar yenidən canlandırmışdır. XVII əsrdə Niyazabadda olmuş türk səyyahı Övliya Çələbi yazmışdır ki, şəhərdə 40 məhəllə, 40 kiçik məscid, iri came məscidi, çoxlu hamam və böyük bazar var idi. Orada Azərbaycan ustalarının hazırladıqları nəfis məmulatlar - xam ipək, ipək parçalar, xalçalar, Şərq və Qərb ölkələrindən gətirilmiş müxtəlif mallar satılırdı. Şəhərdə üzümlüklər və bağ-bağatla əhatələnmiş altı min ev olubmuş. Həmçinin mənbələrdə Niyazabadda "Əfşar baba türbəsi" deyilən ziyarətgahın da olduğu qeyd edilmişdir. Rəvayətə görə Əfşar baba süfi şeyxlərindən olan Əhməd Yasəvinin nəslindən imiş.

Mühüm karvan və ticarət yolu ayrıcında yerləşən Niyazabadın Azərbaycanın və xüsusən Şirvanın iqtisadi-ticarət həyatında önəmli rolu olmuşdur. Rusiya, İngiltərə, Şotlandiya və Almaniyadan gələn tacirlər, diplomat və səyyahlar buradan keçib gedirdilər. Niyazabad limanında Həştərxan, Orta Asiya, İran gəmiləri lövbər salırdı. 1623-cü ildə moskvalı tacir Kotov, ingilis diplomatı Antoni Çenkinson (XVI əsr), şotland həkimi Entermoni Bel (XVII əsr), Rusiya dövlət səfiri knyaz M.Baryatinski

Niyazabadda olmuşlar. Sonralar şəhərin adı təhrif olunaraq Niazad, daha sonralar isə Nizova kimi işlənmişdir.

XVIII əsrdə Şirvan bəylərbəyliyinə tabe olan Niyazabad I Pyotrun Xəzər sahillərinə və İrana yürüşü zamanı Rusiyanın əlinə keçərək rus tacirlərinin əsas alver məntəqəsinə çevrilmişdir. Elə həmin əsrin ikinci yarısında Niyazabad Quba xanlığının ərazisinə keçmişdir. Xanlığın iqtisadi ticarət əlaqələrində Niyazabad liman şəhərinin mühüm rolu olub. Həmin dövrdə daha çox Rusiya ilə ticarət bu liman şəhəri vasitəsilə aparılıb. Sonralar Xəzərin qərb sahilində bir sıra liman şəhərləri Rusiya ilə fəal ticarət apardıqlarından Niyazabadın rolu zəifləməyə başlayıb. Niyazabadın bir tarixi abidə kimi hələ açılmayan səhifələrinin elmi axtarışlara böyük ehtiyacı vardır.

Azərbaycan Sovet Ensiklopediyasının "Niyazabad" adlı bölməsində yazılıb: "Niyazabad – Azərbaycanda orta əsr (təqribən XIV-XIX əsr) şəhəri. İndiki Xaçmaz rayonunun Nizovaya kəndi ərazisində idi. Sonralar Quba xanlığının əsas liman şəhərinə çevrilən Niyazabad iqtisadi-ticarət əlaqələrinin genişlənməsində əhəmiyyətli rol oynayırdı. Həştərxandan gəmilərlə gətirilən mallar Niyazabadda boşaldılır, sonra isə karvan vasitəsilə Şamaxı və digər şəhərlərə aparılırdı. Sonralar Xəzərin səviyyəsinin aşağı düşməsi və feodal çəkişmələri Niyazabadın tənəzzülünə və tərk edilməsinə səbəb oldu".[1]

Orta əsrlərdə Azərbaycana qonaq gəlmiş əcnəbi səyyahlar, xüsusilə də avropalılar Niyazabad haqqında öz təəssüratlarını qələmə almışlar. 1636-cı ilin payızında Niyazabadda olmuş məşhur alman filosofu və coğrafiyaşünası Adam Oleari Avropaya qayıtdıqdan sonra səyahəti

[1] Azərbaycan Sovet Ensiklopediyası. VII cild. Bakı. 1983, səh. 250



zamanı gördüklərini yazıb kitab halında çap etdirmişdir. Adam Olearinin həmin kitabı rus dilinə tərcümə edilərək 1906-cı ildə Sankt-Peterburqda *«Opisanie puteşestviya v Moskvu i çerez Moskvu v Persiyu i obratno»* adı ilə nəşr edilmişdir. Həmin kitabda Niyazabad haqqında da bir sıra dəyərli fikirlər var:

"...Dənizin bizi sahilə atdığı yer Müşkür adlanırdı: bura Şirvan və əski Midiya adlanan əyalətin vilayətidir. Bu əyalət Xəzər dənizi sahili boyunca Dərbənddən Gilana qədər uzanaraq 200 kənddən ibarətdir və Dərbənd sultanının hakimiyyəti altındadır. Bu ölkənin hər yeri görünüşcə çox xoşagələndir, çünki ağaclar və biçənəklər hələ də yamyaşıldır: buranın torpağı münbit və bərəkətlidir. Bütün vilayət düyü, buğda, arpa və habelə yaxşı meyvə və tərəvəzlə boldur. Bütün kəndli evləri içəridən olduqca səliqəlidir və otaqların yerinə xalçalar döşənmişdir. Niyazabadda bizi evlərdə yerləşdirmişdilər və ilk vaxtlar hər birimizə öz ev sahibindən bolluca yemək verilirdi. Ancaq biz çox olduğumuzdan və burada bir neçə həftə qalacağımızdan, həmçinin onların bizə yemək verməsi haqqında əmrin verilməməsi ucbatından bizi sonradan səfirin binası yanında çadırda yerləşdirib, öz hesabımıza xörək verməyə başladılar".[1]

1669-1671-ci illərdə Dağıstanda əsir alınıb 2 il qul kimi işləməyə məcbur olan holland səyyahı və dənizçisi Yan Streys Razin üsyanından əvvəl Volqaboyunda yaşayan kazakların Azərbaycanın liman şəhərlərinə - Niyazabad, Şabran, Bakı, Astaraya talançı yürüşləri barədə müfəssəl məlumat verib.

[1] Олеари А. Описание путешествия в Москву и через Москву в Пэрсию и обратно. Санкт-Петербург. 1906. стр.47

* * *

Xaçmaz rayonunun ərazisində XV-XVI əsrlərə aid olan Şıxlar kəndindəki məscid və Şeyx Yusif türbəsi təkrarsız memarlıq abidəsi kimi diqqəti cəlb edir. Burada görkəmli Azərbaycan filosofu və alimi Mövlanə Şeyx Yusifin məzarı yerləşir. Təəssüf ki, Şeyx Yusifin məzarı üzərindəki yazılı daş kitabə dövrümüzədək qalmamışdır. Türbədə Şeyx Yusifdən başqa onun oğlu Məhəmməd Əmin, dörd müridi və həyat yoldaşı dəfn olunmuşdur. Şeyx Yusifin oğlu Məhəmməd Əminin məzarı üzərində hicri 860-cı il (miladi 1455-1456) tarixi qeyd olunmuşdur.

* * *

Qaraqurtlu kəndində yerləşən XIV əsrə aid olan məscid öz orijinallığı ilə diqqəti cəlb edir. Bu məscid ibadətgah olmaqla yanaşı, həm də məktəb-mədrəsə kimi fəaliyyət göstərmişdir. Çünki buradakı otaqlar çoxsaylı xırda hücrələrdən ibarətdir.

* * *

Bakı Dövlət Universitetinin "Müşkür" arxeoloji və etnoqrafik ekspedisiyası (rəhbəri tarix elimləri namizədi F.Dostiyev) 1991-ci ildə Xaçmaz rayonunun Seyidli və Salman bulağı orta əsr yaşayış yerlərində qazıntılar aparmış və xeyli əhəmiyyətli tapıntılar aşkar etmişdir.[1]

[1] Azərbaycan maddi mədəniyyət tarixinə dair 1991-ci il çöl tədqiqatlarının yekunları. BDU-nin nəşriyyatı, 1992.



Seyidli kənd məktəbinin direktoru İ.Əskərov və məktəbin tarix müəllimi F.Seyidov da həmin ekspedisiyada yaxından iştirak etmişlər. Onların məlumatına görə Seyidlidən VIII-XII əsrlərə aid zəngin maddi mədəniyyət nümunələri, təndir və ocaqlar, şirli və şirsiz saxsı qablar, metal və şüşə məmulatları, sümük və daş alətlər, şüşə, metal və sümükdən hazırlanmış müxtəlif növ bəzək əşyaları aşkar edilmişdir. Kənd sakinlərinin məişətində yüksək bədii zövqlə bəzədilmiş müxtəlif növ polixrom şirli qabların üstünlük təşkil etməsi orta əsrlərdə Azərbaycan əhalisinin mədəni həyat səviyyəsinin yüksək olduğunu göstərən tutarlı dəlillərdəndir. Abidədən tapılmış şüşə qab nümunələrinin qalıqları orta əsrlərdə Azərbaycanda şüşə məmulatının yalnız şəhər əhalisinin məişəti üçün səciyyəvi olması barədə əsassız fikirləri təkzib edir.

Digər abidə Xaçmaz rayonundakı Sahillər kəndinin cənub-şərqində, Salman bulağının yaxınlığında yerləşir. Buradan aşkar olunmuş istehsal və məişət ocaqları, müxtəlif quruluşlu təndirlər, taxıl və məişət quyuları, şirli və şirsiz qablar, şüşə və metal bilərziklər, muncuqlar, düyümlər son orta əsr kəndinin təsərrüfat və ev məişəti mənzərəsinin bərpasına kömək edir. Əldə olunan materiallar o zaman əkinçilikdə dənli bitkilərin becərilməsinə, maldarlıq təsərrüfatında qaramalın saxlanmasına daha çox diqqət verildiyini göstərir. Arxeoloji tapıntılar o dövrdə kənd sakinlərinin balıqçılıq və ovçuluqla da məşğul olduğunu göstərir.

Ekspedisiya zamanı xalq yaşayış evlərinin tipləri - qazma, kümə, yarımqazma (dam ev) və yerüstü evlər (möhrə, kərpic, tapan, çovustan, alaçıq və s.), onların inşaat materialları və tikinti texnikası, məişət və memarlıq ünsürləri, ənənəvi qızdırılma və işıqlandırma sistemləri haqqında ət-

raflı etnoqrafik material əldə olunmuşdur. Həmin abidələrin yenidən ətraflı öyrənilməsinə ehtiyac var. Çünki həm yaşayış məskənlərinin, həm də təsərrüfat sahələrinin dağıdılmasına səbəb olmuş, uzun illər davam etmiş müharibələr daşı daş üstündə qoymamışdır. Tarixi abidələr, yaşayış məskənləri, şəhərlər qalın torpaq qatının altında qalmışdır.

XVII əsrin ortalarında Azərbaycan Səfəvi-Osmanlı müharibələrinin acı nəticələrini yavaş-yavaş aradan qaldırmağa başladı. Dağıdılmış şəhərlər, yaşayış məskənləri bərpa edilir, şəhərlərdə sənətkarlıq, ticarət, mədəniyyət və incəsənət, kəndlərdə kənd təsərrüfatının müxtəlif sahələri əvvəlki mövqelərinə qayıdır, inkişaf edirdi. Müharibələr nəticəsində nisbətən az zərər çəkmiş bölgələrin şəhər və kəndləri daha böyük sürətlə qaydaya salınırdı. Təbii ki, Səfəvi-Osmanlı müharibələrindən Azərbaycanın şimalında yerləşən şəhər və kəndlər daha çox ziyan çəkdiyi, yerlə-yeksan olduğu, bütün təsərrüfat sahələrinə sağalmaz yaralar vurulduğu üçün onların inkişafından danışmaq əbəsdir. Qanlı müharibələr meydanından kənarda qalmış Quba istisna olmaqla, bəzi şimal bölgəsinin şəhərləri - Qəbələ, Şəbran, Ərəş, Niyazabad XVII əsrdə tam tənəzzülə uğradı, inkişafdan qaldı.

Tarixi mənbələr bu dövrün maraqlı cəhəti kimi Azərbaycan-Rusiya arasındakı münasibətlərin, ticarət əlaqələrinin, qarşılıqlı səfərlərin genişləndiyini qeyd edirlər.

**Azərbaycan-Rusiya münasibətlərinin bölgəyə təsiri.** Səfəvi dövləti ilə Rusiya arasında olan münasibətlər siyasi marağa və qarşılıqlı iqtisadi əlaqələrə əsaslanırdı. Bu əlaqələrdə Xaçmaz bölgəsinin mühüm rolu vardı. Azərbaycan bu dövrdə böyük Səfəvi imperiyasında Rusiya ilə həmsərhəd olan yeganə dövlət idi. Tacirlər Səfəvilərin



şimal sərhədində yerləşən Dərbənddən keçməklə quru yolu ilə, Xəzər dənizi vasitəsilə isə su yolu ilə Azərbaycana gəlir, ticarət əlaqələri yaradırdılar. Eyni zamanda qarşılıqlı olaraq nümayəndə heyətləri, səfirlər dövlətlərarası münasibətlərdə iştirak edirdilər. Bu dövrdə İsfahan sarayı tərəfindən təyin edilmiş Şirvan bəylərbəyi bütün hallarda Rusiya ilə sülh əlaqələri yaratmağa və hər hansı gərginlikdən qaçmağa çalışırdı.

O dövrdə Azərbaycan-Rusiya ticarət münasibətləri bir sıra çətinliklərlə qarşılaşırdı. Ticarət karvanları üzərinə nəzarətdən kənar qalmış, soyğunçu kazak dəstələrinin hücum etməsi böyük maneələr yaradırdı. Tarixçilər bu basqınların mütəmadi olmasının ticarət əlaqələrinə böyük zərbə vurduğunu qeyd edirlər. Şübhəsiz yerli əhali, xüsusilə də ölkəmizin şimal bölgəsinin əhalisi bu basqınlardan hədsiz zərər çəkirdi.

Nəhayət, 1650-ci ildə Xəzərdə kazaklara qarşı qəti tədbir görmək məqsədilə Səfəvi hakimi II Abbas Moskvaya xüsusi səfir göndərdi. Çünki kazakların Azərbaycana və Xəzərsahili ərazilərə basqınları daha təhlükəli vəziyyət alırdı. Bu vaxt Donda üsyançı kazak başçılarından olan Stepan Razin Ön Qafqaz üçün daha təhlükəli idi. Stepan Razin 1667-ci ilin mayında Volqa çayı vasitəsilə Xəzər dənizinə çıxdı, Azərbaycanın Xəzərsahili vilayətlərinə hücum etdi. Ataman Sergey Krivoyun başçılığı altında fəaliyyət göstərən digər kazak dəstəsi ilə birləşərək 40 qayıqlı 2000 nəfərlə Dərbəndə çıxdı. Niyazabad və Şabran şəhərlərini amansızcasına qarət etdi. Daha sonra Azərbaycanın digər şəhərləri - Bakı, Mardov, Gilan, Rəşt, Xəzərsahili kəndlər basqınlara məruz qaldı. Yalnız Rusiya və Səfəvilərin gördükləri ciddi tədbirlər nəticəsində qarətçi dəstələr zərərsizləşdirildi və ticarət

karvanlarının qorunması məqsədilə təsirli tədbirlər görüldü.

1671-ci il iyunun 6-da Stepan Razinə elan edilmiş ölüm hökmündə deyilirdi: "Sən canisən… Xəzər dənizinə gələrək Azərbaycan əhalisini talan etdin, tacirlərin mallarını əllərindən aldın, onları öldürdün. Həmçinin sən Azərbaycanın bir neçə şəhərini dağıtdın, iki ölkə arasına böyük qırğın toxumu səpdin".[1]

XVIII əsrin əvvəlləri iqtisadi və siyasi çəhətdən Səfəvi dövləti üçün çox ağır başladı. Xəzinə boşalmış, Şah Sultan Hüseyn dövləti xilas etmək məqsədilə son imkanlara əl atmalı olmuşdu. Bəylərbəyilər və iri feodallar müstəqilliyə can ataraq şaha tabe olmaqdan boyun qaçırırdılar. Bu dövrdə Azərbaycanda xalq kütlələrinin vəziyyəti xüsusilə ağır idi. Bu səbəbdən istismarın güclənməsi geniş xalq kütlələrinin şiddətli müqavimətinə səbəb oldu. Belə bir şəraitdə Azərbaycanda sinfi mübarizənin gərginləşməsi ilə bərabər şah hökumətinə qarşı azadlıq mübarizəsi genişlənirdi. Cənubi, şimal-şərqi Azərbaycanda, habelə Cənubi Dağıstanda da İran zülmünə qarşı ciddi çıxışlar oldu. Odur ki, XVIII əsrin birinci yarısı Azərbaycan tarixində Türkiyə və İran zülmünə qarşı aparılan mübarizə dövrü kimi əlamətdardır. Şirvan həmin dövrdə bu mübarizənin mərkəzinə çevrilmişdi. Üsyançıların ilk cəhdləri uğursuz olsa da, Müşkür mahalının Dədəli kəndindən olan Hacı Davud xalq hərəkatına dini istiqamət verərək üsyançıları öz ətrafında birləşdirdi. Hacı Davudun rəhbərliyi altında üsyançılar Dərbənd, Şabran və Xudat üzərinə hücum etdilər.

**Xəzərsahili vilayətlərin Rusiya tərəfindən zəbt edilməsi.** Hacı Davud Qazıqumuxlu Surxay xanın köməyilə 1721-ci ilin avqustun 10-da Şamaxıya hücum etdi. Onlar qısamüddətli müqavimətdən sonra şəhər əhalisinin köməyilə Şamaxını ələ keçirdilər. Bu vaxt Şamaxıda bir çox xarici tacirlərlə yanaşı, rus tacirlərinə də böyük ziyan dəydi. Şirvan üsyanı zamanı rus tacirlərinin zərər çəkməsindən istifadə edən I Pyotr Xəzərsahili əyalətləri ələ keçirmək məqsədilə yürüşə hazırlaşdı. Lakin imperator I Pyotr işğalçı yürüşü rus tacirlərinin intiqamını almaq pərdəsi altında gizlədərək Hacı Davud və Surxay xana qarşı yürüşə başladı. Bu isə bilavasitə Şirvan üsyançılarına qarşı hərbi yürüş demək idi. Şirvan üsyanının başçısı Hacı Davud kömək üçün o zaman Rusiya ilə rəqabət aparan Türkiyə dövlətinə müraciət etdi. Türkiyə sultanı Hacı Davudun müraciətini tərəddüdsüz qəbul etdi. Yenə də Azərbaycanın şimal-şərqində böyük dövlətlərin maraqları toqquşdu. Həmin dövrdə İsveç üzərində qələbə qazanmış Rusiyanın nüfuzu xeyli artmışdı. Təbii ki, Rusiya Türkiyənin Qafqazda və Xəzər sahillərində möhkəmlənmiş cəhdlərinin qarşısını almaq məqsədilə Azərbaycanın şimali-şərqinə, Xəzəryanı ərazilərinə hücum planını qəbul etdi.

1722-ci il iyulun 18-də I Pyotr böyük bir ordu və 274 gəmi ilə Həştərxandan yürüşə başladı. Rus qoşunları iki istiqamətdə – quru və dəniz yolu ilə hərəkət edirdilər. I Pyotrun Azərbaycan dilində "Manifest" nəşr edərək Şirvana və Xəzərsahili vilayətlərə göndərməsi çar qoşunlarının yürüşünün əsl səbəbini ört-basdır etmək idi. Bu Azərbaycan dilində nəşr edilmiş ilk dövlət sənədi idi. "Manifest"də I Pyotr yazırdı ki, onun məqsədi bu yerlərdə əmin-amanlıq yaratmaqdan və rus tacirlərini qarət edən qiyamçıları cəzalandırmaqdan ibarətdir.

1722-ci il avqustun 23-də piyada qoşunlar Dərbəndə yaxınlaşdılar. Şəhərin naibi İmamqulu bəy qalanın açar-

[1] Azərbaycan tarixi. I cild. Bakı, "Azərnəşr". 1994, səh. 494

larını, həmçinin "Dərbəndnamə" adlı mühüm tarixi əsərin əlyazmasını (XVI əsr) təntənəli şəraitdə rus çarına təqdim etdi. Azərbaycanın bir çox şəhərlərindən, yerlərdən I Pyotrun bəyanatına cavab məktubları alındı. Yerli əyanlar məktublarda imperatorun Azərbaycana gəlməsinə etiraz etmədiklərini bildirirdilər. 1723-cü il sentyabrın 12-dək Dərbənd, Bakı, Gilan, Mazandaran, Astarabad və şəhərlərin yerləşdiyi ətraf ərazilər zorla Rusiyaya birləşdirildi. O cümlədən, Xaçmazın yerləşdiyi şimal-şərqi Azərbaycan Rusiya tabeçiliyinə keçdi və Salyanın tutulması ilə Xəzərsahili vilayətlərin zorla Rusiyaya birləşdirilməsinin birinci mərhələsi başa çatdı.

Rus qoşunlarının Dərbənd, Bakı və Salyanda, rus donanmasının isə Xəzər dənizində olması Qafqazdakı hərbi-siyasi vəziyyətə qüvvətli təsir göstərirdi. Bununla Rusiya Dərbənd keçidi və Xəzərin mühüm limanlarına nəzarət etməyə imkan tapdı.

Xəzərsahili vilayətləri ələ keçirməklə I Pyotr buranı manufaktura sənayesinin xammal bazasına çevirmək məqsədi güdürdü. Bu yerlərin təbii sərvətlərindən istifadə etmək barədə o xüsusi qərar qəbul etmişdi. İpəkçiliyi, pambıqçılığı, qoyunçuluğu, bağçılığı, şərabçılığı inkişaf etdirmək üçün tədbirlər görülürdü. Rusiyaya birləşdirildikdən sonra Xəzərsahili vilayətlərdə ticarət dövriyyəsi də artmışdı.

Türkiyə-Rusiya münasibətlərinin gərginləşməsi, Türkiyənin vaxtilə İran hakimiyyəti altında olan ərazidə möhkəmlənməsi və Xəzər sahillərinə yaxınlaşması Rusiyanın mənafeyini təhlükə altına alırdı. Buna görə də Rusiya həmin vilayətlərdə öz mövqeyini möhkəmləndirmək üçün mühüm hərbi-diplomatik tədbirlər gördü. Xəzərsahili vilayətlərə yeni qüvvələr, Dərbənd, Niyazabad və Bakıya



isə hərbi ləvazimat göndərildi, bu şəhərlərdə istehkamlar tikilməyə başlandı.

XVIII əsrin I rübündə Azərbaycanın bütünlüklə Rusiyaya qatılması baş tutmasa da, onun Qafqaz xalqları ilə, xüsusilə də Quba-Xaçmaz bölgəsinin əhalisi ilə iqtisadi və siyasi əlaqələrinin gələcək inkişafı üçün təməl yarandı. Lakin Rusiya I Pyotrun ölümündən sonra (yanvar, 1725-ci il) Xəzərsahili vilayətləri əlində saxlaya bilmirdi. Bu ərazidə yerləşən qoşunu saxlamaq üçün xeyli vəsait tələb olunurdu. Ona görə də Rusiya Xəzərsahili vilayətləri tərk edərək, bu əraziləri 1735-ci il martın 10-da bağlanmış müqavilə əsasında İranın tərkibinə keçirdi. Bu vəziyyət Xəzərsahili vilayətlərin, o cümlədən Quba-Xaçmaz bölgəsinin əhalisinin Rusiya ilə ticarət əlaqəsinin davam etdirilməsinə mane olmadı. Vilayətlərin yenidən feodal zülmünə düçar olması məhsuldar qüvvələrin dağılmasına, iqtisadi və mədəni həyatın geriləməsinə səbəb oldu. Bu dövrdə İran zülmünə qarşı etiraz çıxışları Azərbaycanı bürüdü. Belə bir tarixi şəraitdə üsyanların əksəriyyətinin kortəbiiliyi, aydın məqsədin olmaması onlara müvəffəqiyyət gətirməsə də, həmin üsyanların böyük tarixi əhəmiyyəti var idi. Azərbaycanda xalq azadlıq hərəkatının genişlənməsi üçün əlverişli şərait yaranırdı. Aramsız ara müharibələri nəticəsində gərgin iqtisadi vəziyyət, sinfi mübarizə nəticə etibarilə Nadir şahın dövlətinin süqutuna səbəb oldu. Şahın ölümü isə şahlığın əhatə etdiyi ərazilərdə özbaşınalığa, ayrı-ayrı əyalətlərdə müstəqillik uğrunda mübarizənin qızışmasına gətirib çıxardı.

Bu baxımdan XVIII əsrin II yarısı Azərbaycan tarixinin mühüm dövrlərindən biri kimi qiymətləndirilməlidir. Feodal pərakəndəliyinin hökm sürdüyü Azərbaycanda vahid iqtisadi və siyasi mərkəz yox idi. Ayrı-ayrı xan, sultan,

məlik və bəylər öz müstəqilliyini qorumağa çalışır və məhdud feodal mənafeyini güdərək xanlıqları birləşdirərək vahid bir dövlət yaratmaq siyasətini yürüdənlərə qarşı çıxış edirdilər. Nəticədə müxtəlif şəhərlərin ətrafında müstəqil və yarımmüstəqil feodal dövlətləri – xanlıqlar meydana gəlirdi. Abşeron yarımadasında Bakı xanlığı, Azərbaycanın şimal-şərqində, Xaçmaz bölgəsinin daxil olduğu ərazilərdə, Xəzərin qərb sahilində Quba və Dərbənd xanlıqları yarandı.

**Xaçmaz Quba xanlığının tərkibində.** Xanlıqlar dövrü Azərbaycan tarixinin ən çətin, mürəkkəb, həm də şərəfli dövrlərindən olmaqla Azərbaycan dövlətçilik tarixində özünəməxsus səhifə təşkil edir. Buna görə də Azərbaycan xanlıqlarının tarixinin, o cümlədən "Xaçmaz Quba xanlığının tərkibində" bölməsinin öyrənilməsi çox mühüm əhəmiyyət kəsb edir.

O dövrdə Azərbaycanda mövcud olmuş xanlıqlar arasında öz hərbi-iqtisadi qüdrətinə, idarəetmədəki mütəşəkkilliyinə və siyasi roluna görə Quba xanlığı özünəməxsus yer tutur. Quba xanlığının qüdrətlənməsi və qorunmasında isə digər əyalətlərlə yanaşı müasir Xaçmaz inzibati rayonuna daxil olan, o dövrdə Quba xanlığının tərkibindəki qədim yaşayış məntəqələrinin, kəndlərinin əhalisinin xidmətləri əvəzsizdir.

"Quba xanlığı yarımmüstəqil inzibati vahid – ölkə kimi hələ XVII yüzilliyin son rübündə mövcud olmuşdur. O zamanlar Salyan və Gülhan da bu əraziyə daxil idi". [1]

Quba xanları böyük hüquqlara malik idilər. Birinci Quba xanı Hüseyn xan olmuşdur. O, 1689-cu ildə vəfat

[1]. Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı. 1987. səh.14



etmişdir. XVII yüzilliyin axırlarına yaxın Hüseyn xanın oğlu Əhməd xan hakimiyyətə gəlmişdir. Lakin hakimiyyətdə çox qalmayan Əhməd xan düşmənlərinin fitvası ilə nökərlərindən biri tərəfindən öldürülmüşdür. XVIII əsrin birinci onilliyində Əhməd xanı hakimiyyətdə azyaşlı oğlu Sultan Əhməd xan əvəz etmişdir.

Çoxsaylı tarixi ədəbiyyatda Quba xanlığının iqamətgahının, yəni ilkin mərkəzinin Xaçmaz rayonu ərazisində yerləşən Xudat olması göstərilir. XVIII əsrin rus müəllifi M.Çulkova görə Xudat xeyli əhaliyə malik şəhər olmuşdur. Digər məlumatlara görə isə Xudat qəsəbə idi və orada birinci Quba xanı Hüseyn tərəfindən qala tikilmişdir. Abbasqulu ağa Bakıxanov yazır ki, "üsyan qaldıraraq Şirvanda İran ağalığını ləğv etmiş Hacı Davud Xudatı zəbt etmiş və bu zaman qaynatası Hacı Qəribin və qardaşı oğlu Nəzirin təhriki ilə Sultan Əhməd xan öz yaxın adamları ilə birlikdə öldürülmüşdür".[1]

1722-ci ildə rus qoşunlarının Xəzərsahili əyalətlərə yürüşü zamanı Quba xanlığının ilk növbədə dənizə yaxın hissəsi, o cümlədən Xudat ruslar tərəfindən işğal edilmişdir. Dağlıq və dağətəyi ərazilər isə bir müddət hələ Hacı Davudun hakimiyyəti altında qalmışdır. Yəqin ki, məhz buna görə tərəfdarları dağlarda gizlədilən azyaşlı Hüseynəli xanı rusların nəzarəti altında olan Xudata gətirmiş, Rusiyanın himayəsinə keçmək yolu ilə xanlığı bərpa etmək istəmişlər.[2]

1726-cı ilin sonu 1727-ci ilin əvvəllərində Quba xanlığı Rusiyanın tərkibinə daxil olmuş və 1711-ci ildə öl-

[1] Bakıxanov A. «Gülüstani-İrəm». Bakı, 1991, səh. 122

[2] Yenə orada.

dürülmüş Sultan Əhməd xanın kiçik yaşlı oğlu Hüseynəli Quba xanı elan edilmişdir.

Xanlığın mərkəzi Xudat çoğrafi baxımdan açıq, çətin müdafiə olunan ərazidə yerləşdiyi üçün mərkəzin Qubaya köçürülməsi zərurəti yaranırdı. Mərkəzin köçürülməsi müxtəlif mənbələrdə ayrı-ayrı səbəblərlə əlaqələndirilmişdir.

Abbasqulu ağa Bakıxanovun yazdığına görə xan iqamətgahının Xudatdan Qubaya köçürülməsi 1748-ci ildə baş verib. İvan Petruşevski isə xanlıq mərkəzinin Xudatdan Qubaya 1735-ci ildə köçürüldüyünü yazır.

Tarixi məlumatlara görə XVIII əsrin ortalarında Quba xanlığı 2600 həyəti olan 100 kənddən ibarət idi. Müasir Xaçmaz inzibati rayonunun ərazisinə daxil olan və o dövrdə mövcud olmuş bütün yaşayış məntəqələri Quba xanlığı yaranandan süqut edənədək bu xanlığın tərkibində olmuşdur. Məhz bu bölgə xanlığın sosial-iqtisadi və hərbi həyatında mühüm rol oynamışdır.

Quba xanlığı Azərbaycanın digər xanlıqları ilə müqayisədə hərbi və siyasi cəhətdən seçilirdi. Viranedici yürüşlər, feodal ara mübarizələri Azərbaycanın digər bölgələrinə nisbətən Qubaya az zərər vermişdi. Çünki Hüseynəli xan və digər hakimlər xanlığın qarət olunmasının qarşısını almaq və öz hakimiyyətlərini qorumaq üçün bir sıra tədbirlər görmüşdülər. Quba xanlığı ərazisində olan möhkəm, əlçatmaz qalalarda əhali lazım gəldiyi təqdirdə sığınacaq tapa bilirdi. Hündür hasarla və xəndəklə əhatə olunmuş "Şəhərcə" qalası, Beşbarmaq dağında inşa olunmuş qədim Çıraqqala bu məqsədlər üçün çox əlverişli idi. Çıraqqalada qayanın üstündə Fətəli xan ev tikdirmiş, sonra isə dağın ətəyində çoxlu evlər salınmışdı. Əsrin sonlarında burada 800 ailə sığına bilirdi. Çıraqqala gizli



yeraltı kanallar vasitəsilə su ilə təchiz edilmişdi, 12 qülləsi var idi. Qalaya çətin keçilən cığırla qalxmaq olurdu. Bu yol dağın ətəyindən çətin sıldırım daşlarla əyri, dolanbac şəkildə döngələrlə keçirdi. Qala dağ tərəfdən köhnə qüllələr və yenidən divar boyu tikilmiş qüllələrlə müdafiə olunur, dağətəyi tərəfdən isə dik daş qayalar və uçurumla qorunurdu. Xanlığın bütün ərazisində gözətçi postları qoyulmuşdu.

1758-ci ildə Hüseynəli xan vəfat etdi və 22 yaşlı Fətəli Quba xanı oldu. Fətəli xan bacarıqlı sərkərdə və mahir diplomat idi. Yeritdiyi uzaqgörən siyasət nəticəsində az bir zamanda demək olar ki, bütün Azərbaycanda nüfuz qazanmışdı. Fətəli xan xanlığın şimal sərhədlərini daha da möhkəmləndirmək məqsədilə böyük strateji əhəmiyyəti olan Dərbənd xanlığını tutmaq qərarına gəldi. Abbasqulu ağa Bakıxanov yazırdı ki, 1759-cu ildə Məhəmməd Hüseyn xanın qardaşı Tahir bəyin təhqiramiz hərəkətlərindən qəzəblənən dərbəndlilər gizlicə Fətəli xanın yanına gedərək, ondan kömək dilədilər və Fətəli xan qoşunla gələrək qısa müddətli mühasirədən sonra Dərbəndi tutdu. Hakimiyyətdən məhrum olmuş Məhəmməd xan Bakıya köçdü. [1]

Dərbənddə özünə xeyli tərəfdar qazanan Fətəli xan əvvəlcə Dərbənd xanının Samur çayından cənubdakı mülklərini: Müşkür, Niyazabad, Şabran, Rustov və Beşbarmağı zəbt etdi. Sonra Ulus mahalını ələ keçirdi.

Qüdrətini gündən-günə artıran Quba xanlığı tezliklə digər xanlıqların ərazilərini də özünə birləşdirməyə başladı. Quba qoşunları Salyan xanlığına basqın etdilər. Quba xanları Həsənabad, Rüdbar, Səfixan, Salyan limanı kimi mühüm iqtisadi əhəmiyyətli məntəqələrə yiyələndilər.

[1] Bakıxanov A.. " Gülüstani-İrəm". Bakı. 1991, səh.158

Xanlığın ərazisinin rus qoşunlarının 1796-cı ildə Azərbaycana yürüşü zamanı Qafqaz qrenader alayının zabiti Fyodr Simonoviç tərəfindən Qara dəniz qrenader taborunun mayoru Serebrovunköməkliyi ilə təsviri tərtib olunmuşdur. Həmin təsvirdə deyildiyinə görə 1796-cı ildə, eləcə də mövcudluğunun əksər dövrlərində Quba xanlığının əhatə etdiyi ərazi 8 mahala bölünürdü: Quba, Rustov, Müşkür, Şabran, Sədan, Bərmək, Xınalıq, Buduq. Rus qoşunlarının 1796-cı ildə Azərbaycana hərbi yürüşləri zamanı tərtib olunmuş jurnalda qeyd olunurdu ki, Samur, Qusar və Qudyal çayları boyunca kəndlərdə yaşayan əhali bu torpağın köklü sakinləri olub, türk adlanan dildə danışıb. Müşkür, Bərmək və Sədan mahallarında yaşayan əhali isə tat dilində danışırdı. Buduqlular və xınalıqlar isə ləzgi dilinə yaxın dildə danışırdılar.[1]

Aktuallığını nəzərə alaraq müasir Xaçmaz inzibati rayonunun bəhs etdiyimiz dövrdə mövcud olmuş yaşayış məntəqələrinin hansı mahalların tərkibində olduğunu oxucuların nəzərinə çatdırırıq:

## Müşkür mahalı üzrə (o dövrdəki kənd adları ilə)

Almas-yanlı – Almas-yanlı kəndində 228 ruba yararlı torpaq sahəsi vardı. Əhali ancaq taxılçılıqla məşğul olurdu, 4 təsərrüfat var idi.

Tel – 350 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq, ipəkçilik və xalçaçılıqla məşğul olurdu, 28 təsərrüfat var idi.

Qasımkənd – 130 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçiliklə məşğul olurdu, 12 təsərrüfat var idi.

Nabran – 300 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq, maldarlıq və ipəkçiliklə məşğul olurdu, 12 təsərrüfat var idi.

[1] Bax: Mustafazadə T. Quba xanlığı. Bakı . "Elm". 2005, səh.17-18



Çaxçaxlı – 500 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq, maldarlıq və ipəkçiliklə məşğul olurdu, 16 təsərrüfat var idi.

Şollar – 260 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçiliklə məşğul olurdu, 13 təsərrüfat var idi.

Köhnə Xaçmaz – 450 rubalıq torpaq sahəsi vardı. Əhalisi taxılçılıq, maldarlıq və ipəkçiliklə məşğul olurdu, 6 təsərrüfat var idi.

Bostançı – 600 ruba torpaq sahəsi vardı. Əhalisinin əsas məşğuliyyəti taxılçılıq, maldarlıq və ipəkçilik idi, 33 təsərrüfat var idi.

Vələmir – 650 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq, maldarlıq və ipəkçiliklə məşğul olurdu, 7 təsərrüfat var idi.

Təzə Baraxum – 540 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçiliklə məşğul olurdu, 11 təsərrüfat var idi.

Baraxum – 640 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçilikilə məşğul olurdu, 17 təsərrüfat var idi.

Dədəli – 850 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçilikilə məşğul olurdu, 16 təsərrüfat var idi.

Nərəcan – 950 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçilikilə məşğul olurdu, 59 təsərrüfat var idi.

Mürşüdoba – 500 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçilikilə məşğul olurdu, 13 təsərrüfat var idi.

Şıxçobanlı – 600 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçilikilə məşğul olurdu, 4 təsərrüfat var idi.

Qaracalı – 900 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçilikilə məşğul olurdu, 16 təsərrüfat var idi.

Əzizli – 570 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçilikilə məşğul olurdu, 3 təsərrüfat var idi.

Gəncəli – 910 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçilikilə məşğul olurdu, 18 təsərrüfat var idi.

Bəbəli – 380 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçilikilə məşğul olurdu, 8 təsərrüfat var idi.

Naburlu – 360 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçilikilə məşğul olurdu, 24 təsərrüfat var idi.

Bəbəşli – 340 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçilikilə məşğul olurdu, 8 təsərrüfat var idi.

Mirzə Əli qışlağı - 380 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçilikilə məşğul olurdu, 7 təsərrüfat var idi.

Külülən - 290 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçilikilə məşğul olurdu, 13 təsərrüfat var idi.

Qaraqutlu - 550 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçilikilə məşğul olurdu, 21 təsərrüfat var idi.

Qaraçı - 66 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq, maldarlıq və ipəkçilikilə məşğul olurdu, 12 təsərrüfat var idi.

Ustançaylı - 154 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçilikilə məşğul olurdu, 9 təsərrüfat var idi.

Loman - 260 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçilikilə məşğul olurdu, 10 təsərrüfat var idi.

Şərur qışlağı - 400 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq və ipəkçilikilə məşğul olurdu, 11 təsərrüfat var idi.

Ləzgidili - 110 ruba torpaq sahəsi vardı. Əhalisi taxılçılıq, maldarlıq və ipəkçilikilə məşğul olurdu, 1 təsərrüfat var idi.

Padar, Armudlu padar, Xaçmaz, Səfər Qışlağı, Xaspolad qışlağı, Talış Məhəmməd oba, Dərvişəli, Mehdi qışlağı, Mirzə Abdal qışlağı, Hacı Əlibəy qışlağı, Qasım qışlağı, Hacı Qayıb qışlağı, Molla Borqanlı, Şıxlar, Güdağlı, Diyə, Həbibkənd, Qıraqlı, Araz qışlağı, Hacı Hüseyn qışlağı, Mürşüd qala, Dələkkənd kəndləri də Müşkür mahalına daxil olan yaşayış məntəqələri idi. Bütövlükdə mahal üzrə kəndlərin sayı 51, təsərrüfatların sayı 664, kişi və oğlanların sayı (hərbi baxımdan) 1952, torpaq sahəsi 22979 ruba təşkil edirdi. Əhalinin əsas məşğuliyyətində taxılçılıq, maldarlıq, ipəkçilik, xalçaçılıq və balıqçılıq üstünlük təşkil edirdi.

### Tip mahalı üzrə

Mirzə Məhəmməd kənd, Küsnət qışlaq, Əlibəy qışlaq, Ağbil, Xudat, Tahir qışlaq, Bədirqala, Həsənqala, Xucqışlaq, Çartana, Alpan, Gərəy, Susay, Hüsnətbala, Qımıl, Üçgün, Küpçal, Qəçrəş, İspik, Mühüc, Təkər Şıxı, Yenikənd, Tüləkəran, Soxtəkəli, Tülər, Alıj, Yermək, Köhnə İqrıq, Amsar, Qazmalar, Nügədi, Rirvahi, Rəsul qışlağı, İqrıq, Qacar, Arzuman qışlağı, Zizik kəndləri olmaqla cəmi 37 yaşayış məntəqəsindən ibarət olmuşdur. Təsərrüfatların sayı 1588, kişi və oğlanların sayı 5349, torpaq sahəsi 41270 ruba təşkil edirdi.[1]

[1] Mustafazadə T. Quba xanlığı. Bakı. "Elm", 2005, səh. 24-30



**Bölgənin təsərrüfat həyatı.** Quba xanlığının ərazisinin böyük hissəsi əkinçilik üçün yararlı və münbit idi. Xəzər dənizi boyunca uzanan düzənlik ərazidə əhali əsasən əkinçiliklə, maldarlıqla məşğul olurdu. Aydındır ki, bölgənin təbii-coğrafi və iqlim şəraiti burada tarixən kənd təsərrüfatının inkişaf etdirilməsi üçün əlverişli şərait yaratmışdı. Bu ərazidə Qusarçay, Qudyalçay, Qaraçay, Alpançay, Ağçay və Vəlvələçayın dərələri yerləşirdi. Xanlıq ərazisinin dənizkənarı sahəsini Müşkür və Şabran düzləri əhatə edirdi. Dənizkənarı və düzənlik zolaqda qış yumşaq, yay isti və nisbətən quru keçirdi. Kənd təsərrüfatında əkinçilik və maldarlıqla bərabər quşçuluq və arıçılıq da müəyyən yer tuturdu.

Təsərrüfat həyatında kişilər əmək alətlərinin hazırlanması ilə, sənətkarlıqla, qadınlar isə xalça, palaz, xurcun, corab toxumaqla, paltar tikməklə məşğul idi. Yaz gələn kimi isə kəndli ailəsi bütövlüklə kənd təsərrüfatı işlərinə cəlb olunurdu. Kəndlərdə toxuculuq geniş yayılmışdı. Demək olar ki, hər bir ailədə bəsit əyirici və toxucu dəzgah var idi. Yunu daraqla darayır, cəhrə ilə əyirirdilər. Əyiricilik və toxuculuqla qadınlar məşğul olurdular.

Şah zülmünün ləğv edilib xanlıqların yaranması Azərbaycanda sənətkarlığın və ticarətin inkişafına da şərait yaratmışdı. Qeyd edim ki, tarixi mənbələr, o cümlədən arxeoloji qazıntılar nəticəsində tapılmış nümunələr sübut edir ki, qədim Xaçmaz ərazisində sənətkarlıq və ticarət əhalinin başlıca məşğuliyyətlərindən olub. Lakin bu sahə Quba xanlığı dövründə daha da təkmilləşmişdir.

Quba xanlığında sənətkarlıq yüksək inkişaf etmişdi. Ən çox da toxuculuq sahəsi. Xanlıq ərazisində, xüsusilə Müşkür və Tip mahalarında qoyunçuluğun inkişaf etməsi

toxuculuğun inkişafı üçün əlverişli şərait yaradırdı. Toxuculuq istehsalında qadın əməyindən istifadə olunması kütləvi səciyyə daşıyırdı. Qadınlar bütün sərbəst vaxtlarında yun, pambıq, ipək əyirir, sonra isə parça toxuyurdular.

Dəmirçilik sənəti də geniş yayılmış sənətlərdən biri idi. Dəmirçilər başlıca olaraq kotan və dəmir gavahınlı xış, müxtəlif bellər, zəncirlər, balta, oraq, dəryaz, dırmıq və s. hazırlayırdılar. Dəmirçilərin digər bir qrupu məişət əşyaları – dəmir tavalar, saclar, manqallar, sacayağı, qayçı, qıfıl, maşa, ərsin və s. istehsal edirdilər. Başqa qrup dəmirçilər isə müxtəlif sənətkarlar üçün əmək alətləri – çəkic, zindan, müxtəlif mişarlar, kərkilər və digər kəsici alətlər hazırlayırdılar.[1]

Tarixi tədqiqatlar nəticəsində müəyyənləşdirilmişdir ki, tikinti sənəti Xaçmaz ərazisində əhalinin qədimlərdən başlıca məşğuliyyətlərindən biri olub. XVIII əsrin əvvəllərindən başlayaraq bölgədə müdafiə səciyyəli bir sıra tikinti işləri aparılıb. Səyyahların verdiyi məlumata görə Quba və Xudat qalalarının eni 2 metrə, hündürlüyü 6,5-8,5 metrə çatırdı.

Azərbaycanda zərgərlik sənətinin ən çox yayıldığı bölgələrdən biri də Quba-Xaçmaz bölgəsi idi.

Quba-Xaçmaz bölgəsinin mühüm təsərrüfat sahələrindən biri də balıqçılıq idi. Balıqçılıq xüsusilə Xəzərsahili ərazilərdə, o cümlədən Niyazabad liman şəhərində inkişaf etmişdi. Niyazabadda nərə balığı, ağ balıq, şamay balığı, kütüm və s. zəngin idi.[2]

---

[1] Бутков. П. Г. История, география и етнография Дагестана. Москва. 1958. стр. 286.
[2] Чулков М. Д. Историческое описание Российской коммерсии. Т II, kn.2. 1785, стр. 553.



Quba, Şabran və Müşkür ilə Bakı arasında sıx ticarət əlaqəsi vardı. Bütünlükdə bölgədə Quba və Dərbənd kimi sənətkarlıq və ticarət mərkəzlərinin olması ətraf yaşayış məntəqələrinin sosial-iqtisadi həyatına müsbət təsir göstərirdi. Ətraf kəndlərin sakinləri bu şəhərlərə gələrək öz məhsullarını satır və lazımi mallar alırdılar. Bölgənin xarici ticarət əlaqələrində isə Niyazabad liman şəhərinin müstəsna xidmətləri vardı. Bu liman vasitəsilə İran, Türkiyə, Rusiya ilə ticarət edilirdi. Bölgədən kənara qaramal, davar, taxıl, xam ipək, mis, boyaq, ağ və qara mahud, xalça və kətan və s. çıxarılır, Rusiyadan mahud, qənd, dəmir, İrandan isə şal, başmaq, düyü gətirilirdi.

Böyük İpək yolunun Quba-Xaçmaz bölgəsindən keçməsi də xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət təsirini göstərib. Böyük İpək yolu Orta Asiyadan Xəzərin cənubu ilə Təbrizə, oradan Trabzona gedirdi. Sonra Şah Abbas yolu Hələb şəhərinə tərəf yönəltmişdi. Təbrizdən Qafqaza tərəf gələn İpək yolunun şimal qolu Xudafərin körpüsündən keçməklə Gəncəyə və Şamaxıya tərəf ayrılırdı. İpək yolunun bu qolu Şirvan yolu adını daşıyan Hacıqabul, Şamaxı, Hilimli, Altıağac, Güneyqışlaq, Yanıqələz, Xəndəklər kəndindən Gilgilçaya enirdi. Gilgilçaydan Əliçapan yolu ilə Qərəh kəndinə gəlirdi. Burada Bakı, Beşbarmaq, Eynibulaq istiqamətində gələn yol böyük Şirvan yoluna qovuşurdu. Mıxlı Çinardan enən Şirvan yolu Leyli Məcnun vadisində iki qola ayrılırdı. Birinci, əsas yol Orta Əmirxanlı kəndindən keçib, Düzbilici, İzmara, Əhmədbulaq, Kilvar, Zeyvə, Səbətlər, Təngəaltı, Rustov, Nügədi, Quba, Qaleyixudat, Hil, Yasab, Piral, Həzrə kəndlərindən, Samur üzərində olan Zuxul körpüsundən keçən Məhərrəmkənd, Çalağan, Dərbənd yoludur. İkinci qol Leyli Məcnun vadisindən Cabarlı vadisinə,

ordan Daşlı yoxuş, Qurudərə, Taxtalar, Gəndob, Şabran körpüsü, Xaxollar (Günəşli), Daşlıyataq, Şöhbətli, Müşkür, Niyazabad elçi yolu adlandırılan yoldur. Böyük Şirvan yolundan daha bir qol Orta Əmirxanlı, Dəllər, Xəlifələr və oradan Xursan qalaya gələn yoldur. Səfəvilər şahlığı dövründə yolun meşələr olmayan yerlərində bütün bulaqların başında Gəncə çinarları əkilmişdi. Şabran şəhərinə yaxın məsafədə olan Gəndobdakı qoşa çinar, Ərəblər kəndindən aşağıdakı, Şabran körpüsünə yaxın olan çinar yolculara yolun istiqamətini göstərirdi. Qeyd edək ki, ingilis diplomatı Antoni Çenkinson Niyazabaddan Şamaxıya, alman səyyahı Adam Oleari Dərbənddən Şamaxıya, fransız yazıçısı Aleksandr Düma Dərbənddən Bakıya bu yolla gəlmişlər.

**Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı dövrlərində bölgədə vəziyyət.** 1804-1813 və 1826-1828-ci illər rus-İran müharibələri nəticəsində imzalanmış Gülüstan və Türkmənçay müqavilələrinə əsasən Azərbaycan iki hissəyə parçalandı. Şimal torpaqları Rusiya imperiyası tərəfindən işğal edildi. 1806-cı ildə Quba xanı Şeyxəli xanın inadlı müqavimətinə baxmayaraq, bu ərazi zəbt olundu və 1810-cu ildə xanlıq ləğv edildi. Çar Rusiyası Azərbaycanda komentdant üsul-idarəsi həyata keçirdi. Quba əyalətini idarə edən komendant, polkovnik Gimbutun vaxtında Quba əyalətinin aran hissəsində rəiyyətlərdən toplanan verginin həcmi xüsusilə böyük idi. Müstəmləkə zülmü dözülməz idi. Həmin dövrdə bu zülmə qarşı bir çox üsyanlar baş vermişdi. Bu üsyanlardan ən böyüyü 1837-ci ildə Quba əyalətində olmuşdu. Üsyanda Xaçmaz əhalisi də fəal iştirak etmişdi. Belə ki, üsyan ərəfəsində əyalətin komendantı Gimbut əhalini müntəzəm şəkildə özü üçün işləməyə məcbur edirdi. Məcburiyyət qarşısında qalan



kəndlilər şikayət ərizələri ilə müraciət etsələr də, heç bir kömək olmurdu. Mahal naibləri də kəndliləri amansız istismar edirdi. Məsələn, Məmmədxan Bostançılı elə Bostançı kəndinin əhalisinin torpağını və əmlakını zorla onların əlindən almışdı. Ciddi mübarizə aparmalarına baxmayaraq, Quba üsyanı digər üsyanlar kimi 1837-ci ildə amansızcasına yatırılmışdı.

XIX əsrin birinci yarısından başlayaraq və sonrakı dövrlərdə rus çarizmi hakimiyyətlərini möhkəmləndirmək, sosial dayaq yaratmaq məqsədilə Rusiyanın iç quberniyasından təriqətçi slavyan mənşəli əhalini bu əraziyə köçürmüşdü. Xaçmazın ərazisində rus-slavyan mənşəli yer adlarının olması bunu sübut edir. Məsələn; Alekseyevka, Krasnı Xutor, Nizovaya (Niyazabad), Pavlovka (Müşkür), Aleksandrovka (Gödəkli), Borispol (Sərkərli) və s. kəndlər bu qəbildəndir. Müstəqilliyimiz bərpa olunandan sonra həmin kəndlərin tarixi adları özlərinə qaytarılmışdır.

XIX əsrin ortalarında müstəmləkə zülmünə qarşı olan narazılıqlar rus çarizmini qoxudaraq təcili islahatlar aparmağa məcbur etdi. 1840-cı ildə komendant idarə üsulu ləğv edildi, quberniyalar və onların nəzdində qəzalar yaradıldı. Xaçmazın daxil olduğu ərazilər mərkəz Şamaxı olmaqla Kaspi vilayətinin Quba qəzasına aid edilirdi. 1844-cü ildə yenicə tətbiq edilmiş islahatlar mənfi nəticə verdiyinə görə bütün Qafqaz əyalətləri bir inzibati idarədə - Qafqaz canişinliyində birləşdirildi. Azərbaycanın şimali-şərqində Dərbənd quberniyası, daha sonra Bakı quberniyası yaradıldı. Quba qəza kimi bu quberniyanın tərkibində idi. 1852-ci ildə Azərbaycanda yeni vergi sistemi tətbiq edilməyə başladı. Aparılan islahatlar əhalinin əksər hissəsini ağır vəziyyətdə saxlasa da, ölkənin sosial-iqtisadi inkişafına təkan verdi.

XIX əsrin ikinci yarısında Rusiyada kapitalizmin inkişafı Cənubi Qafqazın təbii sərvətlərinə olan ehtiyacı daha da artırdı. Nəticədə yeni nəqliyyat vasitələrinə tələbat yarandı. 1883-cü ildə Bakı-Tiflis dəmir yolu, 1900-cü ildə isə Port-Petrovsk-Dərbənd-Biləcəri dəmir yolu xətti (Vladiqafqaz) istifadəyə verildi. Həmin illərdə Yalama, Ləcət, Xudat, Qusarçay, Xaçmaz, Çarxı dəmir yolu stansiyaları tikildi. Xaçmaz dəmir yolu stansiyasının tikintisi 1898-ci ildə başa çatdı. Stansiyanın əlahiddə rabitəsi, su kəməri sistemi, çörək bişirmə sexi, məktəbi, poliklinikası, yaşayış binaları, ticarət şəbəkəsi və digər həyat əhəmiyyətli sahələri yaradıldı və bu gün də fəaliyyətdədir.

XIX əsrin sonunda Xaçmaz stansiyasından Rusiya bazarlarına dəyəri 300 min rubldan (qızılla) artıq olan Quba və Şirvan çeşnili 15 mindən çox xalça məmulatı ixrac edilmişdir. Rusiyadan isə Azərbaycana əsasən kənd təsərrüfatı alətləri, müxtəlif texniki avadanlıqlar, ticarət malları gətirilirdi. Azərbaycanın Rusiya bazarlarına birbaşa çıxış əldə etməsi, dəmir yolunun çəkilişi nəinki Xaçmazın, bütün şimal bölgəsinin gələcək iqtisadi inkişafına mühüm təkan verdi. 1911-ci ildə Quba və Xaçmazı Bakı ilə birləşdirən telefon xətti də istifadəyə verildi.

**XX əsrin əvvəllərində Xaçmaz bölgəsində vəziyyət.** XIX əsrin sonu XX əsrin əvvəllərində Bakı şəhərinin sürətli böyüməsi, neft sənayesinin inkişafı şəhərdə suya olan tələbatı artırdı. Odur ki, mütərəqqi fikirli mesenat Hacı Zeynalabdin Tağıyevin və Bakı Şəhər Dumasının təşəbbüsü və vəsaiti ilə Bakı şəhərinə Xaçmazın ərazisindəki Şollar bulağından su çəkilməsi qərara alındı. 1916-cı ilin axırlarında Şollar-Bakı su kəməri hazır oldu. 1917-ci ilin yanvarında bu iş sona çatdırıldı.



XX əsrin əvvəllərində I Dünya müharibəsində iştirak edən çar Rusiyasının zəifləyərək süquta uğraması Cənubi Qafqaz xalqlarının istiqlal mübarizəsinin güclənməsinə səbəb oldu. Azərbaycanda olduqca gərgin keçən tarixi dövrdə “Böyük Ermənistan” yaratmaq iddiasında olan erməni daşnaklar xarici qüvvələr tərəfindən dəstəklənərək Azərbaycan xalqına qarşı soyqırım siyasəti həyata keçirdilər və bu hadisələr Quba-Xaçmaz zonasından da yan keçmədi. 1918-ci ildə Bakıda ermənilər tərəfindən törədilən mart soyqırımından sonra Amazaspın quldur-cəllad dəstəsi Şaumyan tərəfindən cəza məqsədi ilə Qubaya göndərildi. Üzvlərinin sayı təqribən 2 min nəfər olan cəza dəstəsi adlanan bu quldur yığnağı heç bir siyasi məqsədə xidmət etmirdi. Amazasp və onun dəstəsi bölgədə müsəlmanlara məxsus çoxlu sayda məscidlər yandırdılar. Bu quldur dəstəsi Quba qəzasında 122 kəndi yandırıb, dağıdıb, əhaliyə 58 milyon 121 min 59 manatlıq ziyan vurub. Bu hadisələr zamanı Xaçmaz əhalisi də böyük tələfat verib və xeyli zərər çəkmişdir. Daşnak dəstələrinin qarşısına ilk çıxanlar Xaçmazın Şıxlar kəndinin bəyləri olmuşdur. Onlar Xaçmazın kəndlərindən vətənpərvər, igid oğulları ətraflarına yığaraq düşmənə ciddi müqavimət göstərmişlər. Ermənilər Qarabağlı, İlxıçı kəndlərinə keçərək evləri, mal-qara tövlələrini yandırıb heyvanları və təsərrüfatları məhv etmişlər. Ətrafdakı Qarabağlı, Cığatay, İlxıçı, Ərəb və s. kəndlərin əhalisi Ərəb və Qarğalıq kəndləri yaxınlığındakı Sarıqamışlıq deyilən yerdə səngər qurub özlərini müdafiə edib düşmənə tələfat veriblər.

Yergüc kənd sakini İslam Qürbətovun tanıdığı Həbib kişi söyləyirmiş ki, ermənilər bir qrup dinc əhalini Xaçmaz dəmir yol vağzalının gözləmə salonuna yığaraq orada amansızcasına güllələyib qətlə yetirmişlər. Vağzalın qar-

şısında insan qanından gölməçə yaranıbmış. Həbib kişi də öz arabası ilə beş-beş, on-on meyitləri daşıyaraq indiki kolxoz bazarının yaxınlığındakı köhnə qəbiristanlıqda dəfn edibmiş. Sonralar - 60-cı illərdə bu faciəni xalqa və yerli əhaliyə unutdurmaq üçün qəbirləri çıxarıb başqa yerə köçürüblər. Hazırda isə Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayevin təşəbbüsü və rəhbərliyi ilə həmin məzarlığın yerində torpaqlarımızın müdafiəsi uğrunda canından keçmiş 200-dən artıq şəhidin ölməz xatirəsini əbədiləşdirən "Şəhidlər xiyabanı" abidə kompleksi ucaldılmışdır.

Türk xalqının qardaşlıq yardımına əsasən (Batum, 4 iyun 1918-ci il müqaviləsi) İslam ordusunun Quba qəzasına gəlməsi Xaçmazın düşmənlərdən tam təmizlənməsinə gətirib çıxarmışdır. Qəhrəman türk qardaşlarımızın igidliklərindən Xaçmazda indi də danışılır, əziz xatirələri yad edilir.

Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış, dövlətçilik tariximizdə özünəməxsus yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin yaşadığı dövrdə Xaçmaz dövlətimizin şimalında yerləşən ərazi kimi böyük strateji əhəmiyyətə malik olmuşdur. Xarici işğalçı qüvvələrə qarşı mübarizədə Xaçmaz əhalisi də qəhrəmanlıq göstərmişdir. Azərbaycanın istiqlaliyyətini heç vəchlə tanımaq istəməyən sovet Rusiyasının XI qırmızı ordusunun Dağıstana daxil olması Azərbaycan Xalq Cümhuriyyəti üçün şimaldan real təhlükə yaratdı. Eyni zamanda Qarabağda daşnak qiyamı və Azərbaycan ordusunun ermənilərlə döyüşə cəlb edilməsi Dağıstan sərhədində 3 minə yaxın qüvvənin qalması ilə nəticələndi. Bu da öz növbəsində XI qırmızı ordunun Azərbaycana müdaxiləsi üçün əlverişli şərait yaratdı. Aprelin 25-dən 26-na keçən gecə Levandovskinin başçılığı altında sovet ordusu Samur üzərindəki Qırmızı körpünü keçdi. Yalama stansiyasındakı iki saatlıq döyüşdə qüvvələr qeyri-bərabər olduğu üçün Azərbaycan ordusu məğlub oldu. Aprelin 27-də hərbi nazir Səməd bəy Mehmandarov Qərb cəbhəsinə vurduğu teleqramda bildirirdi: "Bolşeviklər Yalama stansiyasına hücum edib Xudatı tutmuşlar. Vəziyyət böhranlıdır. Əmr edirəm: bu gün hər birində 500 tüfəngdən az olmayaraq, Qazaxdan 1 batalyonu, Gəncədən 1 batalyonu Qızılburuna gətirin".[1]

Xudat və Xaçmaz stansiyaları arasında 4 zirehli qatarla düşmənə qarşı döyüşə girən Knyaz Kipanidzenin komandanlıq etdiyi Azərbaycan döyüşçüləri mətanətlə müqavimət göstərmiş, qüvvələrin qeyri-bərabər olduğundan, hücumu dayandırmaq məqsədi ilə dəmir yol körpüsünü yandıraraq geri çəkilmişlər. Aprelin 27-i axşam saat 10-da Nasoslu (indiki H.Z.Tağıyev qəsəbəsi) stansiyası, yarım saat sonra Xırdalan stansiyası zəbt edilmişdir. Burada zirehli qatarlar arasında təkrar döyüşlər baş vermişdir. Gecə yarısı Anadoluya getmək bəhanəsi ilə Biləcəri stansiyasına çatmış XI qırmızı ordu Bakıya daxil olmuş, bununla da Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinə son qoyulmuşdur.

**Xaçmaz bölgəsinin inkişafının sovet dövrü.** Müstəqilliyi əlindən alınan xalqımız üçün ağrılı-acılı, keşməkeşli bir dövr başlandı. Çox qısa zaman kəsiyində olsa da, gerçək müstəqilliyin nə olduğunu görmüş və dərk etmiş xalqın narazılığından qorxan və işğalçılıq siyasətini pərdələməyə çalışan bolşeviklər ilk vaxtlar Azərbaycanı müstəqil sovet respublikası kimi elan etsələr də, əsasən rus və ermənilərdən ibarət olan Az.K(b)P və Bakı Partiya

[1] "Xaçmaz 75" jurnalı. 2005, səh. 22

Təşkilatı ictimai-siyasi həyatda aparıcı rol oynayaraq Azərbaycanda müstəmləkə siyasətini həyata keçirirdi. Azərbaycanda tətbiq edilən iqtisadi siyasət, sənayeləşdirmə və kənd təsərrüfatının kollektivləşdirilməsi əhali üçün məhrumiyyətlərə və fəlakətlərə səbəb oldu. Yüzlərlə xaçmazlı "xalq düşməni" və "qolçomaq" damğası altında repressiyalara məruz qalaraq sürgün və həbs edilmişdir. O zaman əsasən ziyalılar, nüfuzlu din xadimləri də müxtəlif böhtanlarla həbs olunmuşdur.

1929-cu ilin martında Zaqafqaziya Ölkə Komitəsi Azərbaycan Xalq Komissarları Sovetinin 1928-ci ilin oktyabr tarixli müşavirəsinin qəzaların ləğvi və yeni inzibati vahidlərin yaradılması haqqında təklifinə tərəfdar çıxaraq 3 dərəcəli bölgü: “okruq-rayon-kənd” bölgüsünü təklif etdi. Bu məsələ 1-9 aprel 1929-cu il VI Ümumazərbaycan Sovetlər qurultayında müzakirə edildi. Beləliklə, 1929-cu ilin I yarısında 13 qəza ləğv olundu, dairələrin sayı azaldılıb 108-dən 59-a endirildi. 1930-cu il iyulun 23-də SSRİ MİK və XKS-nin "Okruqların ləğv edilməsi haqqında" qərarı ilə həmin il Azərbaycanda mahallar ləğv edildi. Onların əvəzinə 63 inzibati rayon, o cümlədən Xaçmaz rayonu təşkil olundu. Az.K(b)P və Az.MİK-nin 8 avqust 1930-cu il tarixli qərarı ilə Xaçmaz rayonu yaradıldı.

Xaçmazın iqtisadiyyatı əsasən 3 istiqamətdə inkişaf edirdi: konserv sənayesi, balıqçılıq təsərrüfatı və meyvətərəvəzçilik. 1930-cu illərdə (ikinci beşillikdə - 1932-37-ci illər) Xaçmaz konserv zavodu istifadəyə verilmişdir. Balıqçılığın yüksək inkişaf etməsi Xaçmazda emal sənayesini yaratmağı zəruri edirdi. Həmin illərdə Xudat şəhərində Buz zavodu, Balıq zavodu tikilib istifadəyə verilmişdir.



1938-ci ildə rayon mərkəzi olan Xaçmaza şəhər statusu verilmişdir.

Təsərrüfatı canlandırmaq məqsədi ilə müharibə ərəfəsində, 1939-cu ildə bel və külünglə qazılan Samur-Abşeron kanalının tikintisində Xaçmaz əhalisi də böyük əmək sərf etmişdir.

İkinci Dünya müharibəsinə (1939-45-ci illər) sürüklənmiş SSRİ-nin başının üstünü almış müharibə buludları başqa xalqlar ilə birlikdə azərbaycanlıları da faşizmə qarşı mübarizəyə səslədi. Səfərbər edilmiş 640 min nəfərdən artıq Azərbaycan vətəndaşlarından 400 minə qədəri cəbhədən geri dönmədi. Vətən uğrunda gedən müharibəyə Xaçmazdan 8930 nəfər səfərbər edilmişdi ki, onlardan 2496 nəfəri həlak olmuş, 360 nəfəri isə itkin düşmüşdü. Təkcə Xaçmaz şəhərindən 332 nəfərin ailəsi "qara kağız" almışdı.

Müharibənin ilk günlərində faşistlərə sinə gərmiş Xaçmaz döyüşçülərindən Əbil Qədirov, Qaraxan Qaraxanov, Mürsəl Baloğlanov, Yusif Davudov, Mustafa Ağayev, Həmid Məmmədov və başqalarının adlarını çəkmək olar. Ümumən 43 nəfər xaçmazlı ilk gündən döyüşlərdə iştirak etmişdir.

Əfsanəvi Moskva uğrunda döyüşlərdə Əlifxanov Əlifxan, Məhəmmədov Qeybulla, Tahirov Məmmədmusa, serjant Qurbanov Abdul və başqaları vuruşmuşlar. Həmin döyüşlərdə 124 nəfər xaçmazlı həlak olmuşdur.

Stalinqrad döyüşlərində Qədirov Qədir iştirak etmişdir. Xudatlı serjant Cəfərov Cəfər Stalinqrad cəbhəsində kəşfiyyat zamanı döyüş tapşırığını yerinə yetirərkən həlak olmuş, ölümündən sonra “Qırmızı bayraq” ordeninə layiq görülmüşdür. Kiyev uğrunda Balayev Məhəmməd xüsusilə fərqlənmişdir. Leninqrad döyüşlərində Nərəcan kəndindən

olub polk komandirliyinədək yüksələn Babayev Şahbaba və Əliyev İsgəndər qəhrəmancasına həlak olmuşlar.

General mayor rütbəsinədək yüksəlmiş Mahmud Əbilov göstərdiyi şücaətlərə görə 7 dəfə Ali Baş Komandanın təşəkkürünə, 5 dəfə "Qırmızı bayraq" ordeninə, II dərəcəli "Suvorov" ordeninə və "Lenin" ordeninə layiq görülmüş, 1949-53-cü illərdə 216-cı Azərbaycan diviziyasının komandiri olmuşdur.

Abdullayev Nemət döyüş yolunu Karel-fin cəbhəsindən başlayaraq Leninqrad-Pribaltikanın azadlığı uğrunda batalyon komandiri kimi iştirak edərək I dərəcəli Böyük Vətən müharibəsi, "Qırmızı Ulduz" və "Aleksandr Nevski" ordenləri ilə təltif olunmuşdur. Nəsrullayev İzzətulla və həyat yoldaşı Frida Çexoslovakiyada partizan hərəkatında iştirak etmişlər. Şərqi Avropa xalqlarını faşizm taunundan xilas edən döyüşçülərimiz canı, qanı bahasına bu vəzifəni yerinə yetirmişlər. Abdulrzayev Mehdibəy Latviya, baş serjant Abdullayev Könür-Xalıqzadə Macarıstan, kiçik serjant Abdullayev İsmayıl Şərqi Prussiya, baş serjant Qulamov Vəli Berlin uğrunda döyüşlərdə həlak olublar. Xudat şəhərindən olan İsa İsayev Berlin uğrunda döyüşlərdə qəhrəmancasına döyüşərək həlak olmuşdur. Hal-hazırda Atlansberq şəhərində texniki-peşə məktəbi onun adını daşıyır. Rota komandiri kapitan Gülümbala Rəsulovun şərəfli döyüş yolu Berlinədək davam etmişdir. "Şöhrət" ordeninin hər üç dərəcəsinə (I-II-III) layiq görülmüş 30 azərbaycanlıdan biri xaçmazlı Aslanov Aslan olmuşdur. (Bu təltif Sovet İttifaqı Qəhrəmanı statusuna bərabər tutulur). Qasımov Qasım, Səfixanov Nurulla, Fyodor Qonçarov "Şöhrət" ordeninin iki dərəcəsinə layiq görülmüşdür. Əfsanəvi döyüş yolu keçmiş və qələbə bayrağını Berlinə sancmış azərbaycanlılardan ibarət 416-cı



Taqanroq atıcı diviziyasının 1054-cü polkunda vuruşmuş, hal-hazırda istefada olan polkovnik-leytenant Məmməd Məmmədov gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində bu gün də səmərəli iş aparır. Xaçmaz "Döyüş şöhrəti" muzeyinin yaradılmasında onun xidmətləri əvəzsizdir.

Xaçmazlıların igidliklərinə dair bu kimi faktlar saysız-hesabsızdır. Müharibənin ilk günlərindən arxa cəbhədə olan ana-bacılarımız ön cəbhəyə bacardıqları köməyi əsirgəməmişlər. Kolxozçu Allahverdiyeva Dövlət Müdafiə Fonduna bir qızıl və bir gümüş üzük, bir neçə gümüş qaşıq vermişdir. Bağırova gümüş kəmərini və samovarı, üç kolxozun əhalisi isə 11 qızıl üzük, 3 qızıl və 3 gümüş qolbağı, gümüş tənbəki qutusu, 12 gümüş kəmər, 17.500 manatlıq istiqraz, 12 iribuynuzlu heyvan, 30 samovar, 290 kq. əlvan metal vermişlər. Sonralar xaçmazlılar Müdafiə Fonduna 79 qızıl üzük, 5.690 gümüş üzük, 77.100 manat nəğd pul, 20.500 manatlıq istiqraz, 54 ton taxıl, 79 ton tərəvəz, 400 baş qaramal, 3880 kq. mis vermişlər. "Şəfəq" kolxozunun sədri Nurəddinov Sədrəddin Nurəddin oğlu tank hazırlanması üçün böyük vəsait vermişdir. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı altında birləşən xalqımızın polad dözümü nəticəsində faşizm öz yuvasında məhv edildi.

Qədirbilən xaçmazlılar Böyük Vətən müharibəsində qəhrəmancasına həlak olmuş həmvətənlərinin xatirəsini əbədiləşdirmək məqsədilə abidə kompleksi ucaltmışlar.

* * *

Tarix boyu zaman-zaman mənfur qonşularımız olan ermənilərin təzyiqlərinə məruz qalan Azərbaycan xalqı ötən əsrin 80-ci illərində yenidən xoşagəlməz faciələrlə

rastlaşdı. 1985-ci ildə sovet dövlətinin rəhbərliyinə gəlmiş ermənilərin əlaltısı bədnam M.Qorbaçovun dəstəyilə xain qonşularımız yenidən Azərbaycana qarşı ərazi iddiaları irəli sürdülər. 1988-ci ildən başlanan Qarabağ müharibəsi dövründə Yuxarı Qarabağda yaşayış məntəqələri və bu əraziyə daxil olmayan yeddi rayon (692 yaşayış məntəqəsi) erməni ordusu tərəfindən işğal edildi.

Xaçmazlılar erməni işğalçılarına qarşı döyüşlərdə böyük qəhrəmanlıq göstərmişlər. Bu göyüşlərdə 200-dən artıq xaçmazlı igid şəhid olmuş, 267 nəfər yaralanmış, 153 nəfər əlil olmuş, 28 nəfər itkin düşmüşdür.

Eyni zamanda Ermənistanda zəlzələdən zərər çəkənlərə yardım apararkən ermənilər tərəfindən vurulan Azərbaycan təyyarəsində həlak olan 70-dən çox azərbaycanlının 15-i xaçmazlı olmuşdur. Xaçmazlıların döyüş qəhrəmanlıqları haqqında respublika və yerli mətbuatda, eləcə də 1995-ci ildə çapdan çıxmış “Xaçmaz zəfər gözləyir” kitabında yazılmışdır. Bu kitabda adı çəkilən “Rembo” təxəllüsü almış Zülfüqar Arzumanov çox döyüşdə iştirak edərək, onlarla ermənini məhv etmiş və son döyüşdə həlak olmuşdur. Təkcə Ağdamın Salahlı kəndi uğrunda döyüşlərdə 20-dən çox minanı zərərsizləşdirən Ümid Behbudov sonuncu minaya əl uzadanda düşmən gülləsinə tuş gəlmişdir. Xudatlı Kərim Məhərrəmov son nəfəsdə də silahı əlindən buraxmamış, bir neçə erməni quldurunu məhv etmişdir. Kinorejissor Ənvər Əbluc onun haqqında “Ağ atlı oğlan” filmini çəkmişdir.

Torpaqlarımızın müdafiə edilməsində göstərdikləri xüsusi xidmətlərə, şəxsi igidlik və şücaətə görə Şair Ramaldanov, sıravi Əlibaba Zəkəryayev yüksək mükafata – “Azərbaycan bayrağı” ordeninə, Mehman Babayev «İgidliyə görə» medalına layiq görülmüşlər. Xaçmazlı döyüşçülərdən baş kəşfiyyatçı Zeynəddin Novruzov 1993-cü ilin oktyabr günlərində erməni mayorunu, baş leytenantını və praporşikini girov götürəndə hamı onun məharətinə heyran qalıb. O, bir neçə gündən sonra döyüşdə yaralanır. 1994-cü il fevralın 20-də yenidən döyüşlərə atılıb və üç gündən sonra 3 erməni quldurunu güllələyərək UAZ maşınını, sonra isə BMP-2 hərbi maşınını ələ keçirib.



Qeyd etmək lazımdır ki, Nağıoba kəndindən olan Z.Novruzov Qarabağ döyüşlərində 4 dəfə yaralanmışdır. Müdafiə Nazirliyinin rəsmi məlumatına görə Beyləqan istiqamətində gedən qanlı döyüşlərdə milli ordumuz tərəfindən məhv edilən düşmən tanklarından birini də Sahib Hacılar oğlu Mahmudov vurmuşdur.

1995-ci il martın 16-dan 17-nə keçən gecə dövlət çevrilişi cəhdinin qarşısının alınmasında fərqlənmiş hərbi qulluqçular sırasında xaçmazlı Şahbazov Yavər Əlibala oğlu da olmuşdur. Yavər Şahbazov qiyamçıların atəş nöqtəsini susdurmaq üçün bir neçə yoldaşı ilə irəli atılmış, döyüşdə cəsurluq nümunəsi göstərərək həlak olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli Fərmanı ilə Yavər Əlibala oğlu Şahbazov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Xaçmazın qəhrəmanlıq səhifələri haqqında çox danışmaq olar. Onun qısaca nəzərdən keçirdiyimiz tarixini izlədikcə görürük ki, şərəfli tarix yaşamış bu diyar bütün dövrlərdə daim inkişaf etmiş, özünəlayiq tarixini yaratmışdır.

Xaçmaz rayonu XX əsrin 30-cu illərindən başlayaraq Azərbaycanın şimal-şərqində sərhəd bölgəsində yerləşməklə, qonşu Quba, Qusar, Dəvəçi, Siyəzən rayonlarının qədirbilən, zəhmətsevər, qəhrəman insanları ilə birlikdə vətən tarixinə qəhrəmanlıq səhifələri yazmışlar.

Xaçmaz rayonunun yaxın fəaliyyəti ərzində onun statusunda bir neçə dəfə dəyişikliklər olmuşdur.

* * *

1943-cu il avqustun 8-də Xaçmaz rayonunun tərkibində ikinci böyük şəhər olan Xudat mərkəz olmaqla Xudat rayonu təşkil olundu.

1959-cu ilin dekabrın 4-də Xudat rayonu ləğv edilərək Qusar rayonunun tərkibinə verildi.

1930-cu il avqustun 8-də təşkil olunmuş Xaçmaz rayonu Azərbaycan SSR Nazirlər Sovetinin 17 yanvar 1963-cü il 21 nömrəli qərarına uyğun olaraq ləğv edildi və Quba rayonunun tərkibinə verildi.

1965-ci il yanvarın 16-da Azərbaycan SSR Nazirlər Sovetinin 35 nömrəli qərarı ilə Xaçmaz rayonu yenidən bərpa edilir və Xudat rayonu da ona birləşdirilir. Hal-hazırda Xaçmaz rayonunun ərazisi 1046 km2, əhalisi 156 min nəfərdir. Əhalinin ümumi sayının 48,4 faizini kişilər, 51,6 faizini qadınlar, milli tərkib etibarı ilə 69,1 faizini azərbaycanlılar, 18,2 faizini ləzgilər, 6,1 faizini tatlar, 1 faizini ruslar, 2,1 faizini digər millətlər təşkil edir. Ümumiyyətlə, Xaçmaz rayonunda 22-dən çox millət və xalqın nümayəndələri vahid ailədə mehriban şəraitdə yaşayırlar. Rayon ərazisində 3093 nəfər qaçqın və məcburi köçkün məskunlaşmışdır.

Xaçmaz rayonu fəaliyyət göstərdiyi illər ərzində Azərbaycanımızın şimalında daim inkişaf edən, yeniləşən iqtisadiyyata malik subyekt kimi mövqeyini möhkəmlətmişdir. Xüsusilə Ulu öndərimiz Heydər Əliyevin hakimiyyəti dövründə Xaçmaz və xaçmazlılar tarixlərinə qızıl hərflərlə yazılacaq uğurlar qazandılar.



(Bu barədə ətraflı məlumat kitabın Xudat şəhərinə həsr olunmuş hissəsində verilmişdir).

Xaçmaz rayonu daim ümummilli liderimiz Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Ulu öndərimiz 3 dəfə (1981, 1983 və 1998-ci illərdə) Xaçmaz rayonunda olmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyev Ulu öndərimizin ideyalarının həyata keçirilməsi, ümumilikdə Azərbaycanın inkişafı naminə, regionların tarazlı inkişafını təmin etmək məqsədilə dəfələrlə Xaçmaz rayonuna səfər etmişdir.

* * *

Xaçmazın tarixinə nəzər salarkən Xudatın tarixindən danışmamaq olmaz.

Xudat Xaçmazın qədim yurd yerlərindən biridir. Onun haqqında xüsusilə geniş danışmağa dəyər. Belə ki, Xudat Azərbaycanın şimal-şərqində, Rusiya Federasiyası ilə sərhəddə yerləşən ən böyük yaşayış məntəqələrindəndir. Nəqliyyət yolları, digər kommunikasiya xətləri məhz Xudat ərazisindən keçir. Onun qədim tarixi vardır.

Xəzər dənizi ilə Qafqaz dağları arasındakı ensiz coğrafi mövqedə yerləşən Xudat ta qədimdən baş vermiş bir çox hadisələrin şahididir. Xudatın tarixi tunc dövrünə (e.ə.III minillik) təsadüf edir. Xudat yaxınlığında Təpə yatağı adlanan əhəmiyyətli tarixi abidə vardır.

Tarixi keçmişə malik olan Xudat daim hücumların, yürüşlərin şahidi olmuş, bilavasitə tarixi hadisələrin mərkəzinə çevrilmişdir. Həqiqətən də tarixə nəzər salsaq görərik ki, əsrlər boyu ərəblər, alanlar, sərirlilər, səlcuqlar, monqollar, Xarəzm şahı Cəlaləddin, Qızıl Orda xanları, Krım tatarları, ruslar Azərbaycana şimaldan yürüş edərək,

torpaqlarımızı işğal etmişlər. Xudat ərazisindən keçən bu yürüşlər zamanı həlak olmuş döyüşçülərin qəbiristanlıqları, kurqanları indi də qalmaqdadır.

Xudat ətrafında çoxlu sayda tarixi əhəmiyyət daşıyan, torpaq altında öz sirrini saxlayan ərazi və təpələr vardır. Bu cəhətdən Şollar kəndindəki təpə xüsusi maraq doğurur. Təpənin üzərində ocaq yerləri, ətrafında çoxlu miqdarda saxsı qırıqları, metal pul və s. aşkar edilmiş, torpaq altında mədəni qat vardır. Bölgə ziyarətgahlar ilə məşhurdur. Onların çoxluğu sanki bu yerlərin müqəddəsliyinə işarədir.

XVII-XVIII əsrlərdə Xudat bölgədə mühüm əhəmiyyət kəsb etmişdir. XVIII əsrin ortalarında Azərbaycanda yaranmış müstəqil feodal dövlətlərindən biri olan Quba xanlığının ilkin mərkəzi Xudat olmuşdur.

Əsasən maaflardan (maaf ərəbcə kənar edilmiş, azad mənasını daşıyır) ibarət olan Xudat əhalisi hələ XVII əsrdən bir çox vergilərdən azad edilmişdi. Maaflar xanlıqlar dövründə siyasi həyatda mühüm rol oynayırdılar. Maaflar xanın hərbi dəstələrində xidmət edir, xanlığın sərhəd rayonlarını basqınlardan qoruyurdular. İctimai zümrə kimi bəylərdən aşağıda dururdular. Bəzi tədqiqatçılar müxtəlif mənbələrdə Xudatın Quba xanlığının ilkin mərkəzi olmasına şübhə ilə yanaşsalar da, məlumdur ki, ən doğru şahid tarixin özüdür. Tofiq Mustafazadənin "Quba xanlığı" kitabında Quba xanlarının şəcərəsi təsvir edilmişdir. Şəcərədən görünür ki, Quba xanı Sultan Əhməd xan 1711-ci ildə həlak olmuş və Xudat kəndində dəfn olunmuşdur. Sonrakı Quba xanı Hüseynəli xan 1758-ci ildə vəfat etmiş və Xudat kəndində dəfn edilmişdir.[1]

[1] T.Mustafazadə. Quba xanlığı. Bakı. 2005, səh. 230





Quba xanlığının şəcərəsi.

A.A.Bakıxanova görə 1748-ci ildə Quba xanlığının mərkəzi Xudatdan Qubaya köçürülmüşdür. Quba xanlığı Fətəli xanın dövründə daha böyük əhəmiyyətə malik olmuşdur. Xudat baxmayaraq ki, mərkəz rolunu itirmişdi, bölgədə əhəmiyyətini hələ də qoruyub saxlayırdı. 1774-cü ildə Hacı Davud Qazıqumuxlu Surxay xanın başçılığı ilə Dağıstan feodalları Xudatı tutdular. Xudat tədricən mövqeyini itirməyə başladı. Hücumlardan dağıdılmış Xudatdan əhali də əfraf ərazilərə, hətta dağlara çəkilərək yenidən yaşayış məskənləri salmışlar. Təsadüfi deyildir ki, Quba, Qusar və Xaçmaz rayonlarında bir neçə kənd var ki, Qəley Xudat, Köhnə Xudat, Köhnə Xudat Qazmaları, Kənd Xudat adları ilə adlanmışlar.

1837-ci ildə Quba əyaləti kəndlilərinin feodal və müstəmləkə zülmünə qarşı üsyanı olmuşdur. "Quba üsyanı"[1] adı ilə məşhur olan üsyana kəndli Yarəli başçılıq edirdi. Üsyançı dəstələr avqustun 22-də Xudat məntəqəsini tutdular. Üsyan surətlə yayıldı. Üsyanın başçılarından biri də Xuluq kəndxudası Hacı Məmməd idi. XIX əsrdə Azərbaycanda müstəmləkə əsarətinə qarşı mübarizə tarixində bu üsyanın böyük əhəmiyyəti olmuşdur.

XIX əsrin sonu XX əsrin əvvəllərində Xudatda yenidən həyat canlanır. Bakı şəhərini içməli su ilə təchiz etmək üçün işlərə başlanılır. Hələ XIX əsrin 90-cı illərində ingilis mühəndisi V.V.Lindley Quba qəzasının Xudat kəndi yaxınlığındakı Şollar adlı yerdə güclü su mənbəyi aşkar etdi. Lakin su kəmərinin çəkilişinə yalnız 1904-cü ilin fevralında başlanır. 1905-1907-ci illər inqilabı dövründə iş dayandırılır. 1909-cu il mayın 5-də su kəmərinin layihəsi təsdiq edilir. Onun müəllifi V.V.Lindley tikintinin

[1] Azərbaycan Sovet Ensiklopediyası. III cild. Bakı. 1979, səh. 253



baş mühəndisi təyin olunur. Tikinti xərclərini ödəmək üçün 27 mln. manat məbləğində 5%-li iki şəhər istiqrazı buraxılmışdı. Tikinti işlərinə isə yalnız 1911-ci ilin fevralında başlandı. 1917-ci ilin yanvarında su kəməri istifadəyə verildi. Bu, o dövrdə Rusiyada ən uzun su kəməri olub, layihə gücü sutkada 3 mln. vedrə idi. Kəmərin çəkilişi ilə əlaqədar 1903-cü ilin oktyabrın 22-də Bakıda əhalinin bir günlük siyahıya alınması keçirilmişdi.[1]

Su mənbəyinə şübhəli yanaşanlara məşhur mesenatımız H.Z.Tağıyevin tutarlı cavabı maraqlıdır: "Şahdağ öz qarı və buzlaqları ilə əbədi olduğu kimi, Şollar çeşməsinin suyu da əbədidir".

Hal-hazırda da Bakı şəhərinə çox təmiz Şollar suyu gəlməkdədir.

Fəxrimiz Hacı Zeynalabdin Tağıyev Xudat bölgəsinə xüsusi diqqət yetirirdi. O, Yeni Həyat qəsəbəsində torpaq icarəyə götürərək orada üzümlüklər saldırmış, şərabçılıq sexi yaratmışdı.[2]

Xudat ərazisində Xəzər sahillərindən tutulan balığı yığıb-yığışdırmaq mümkün deyildi. Rusiyadan bu məqsədlə mövsüm zamanı köməyə 300-500 nəfər işçi dəvət olunurdu. Balığı daşımaq üçün Xudatdan dəniz sahilinə xüsusi dəmir yolu çəkilmişdi. Xudatda buz zavodu, balıq zavodu, konserv zavodu tikilmişdi.

XX əsrin əvvəllərində Xudat Azərbaycan Xalq Cümhuriyyətinin şimal sərhədində sərhədyanı məntəqə kimi böyük rol oynamışdır. Bolşeviklərin XI qırmızı ordusu

[1] Azərbaycan Sovet Ensiklopediyası. X cild. Bakı. 1987, səh. 557
[2] M.D.Ибрагимов. Предпринимателность Г.З.Тагиева. Баку. 1990, стр. 79

Azərbaycanı işğal edərkən Azərbaycan ordusu Xudat ərazisində fədakarlıqla düşmənə müqavimət göstərmişdir.

XX əsrdə Xudat Sovet İttifaqının əsas tərəvəzçilik, meyvəçilik bazası kimi əhəmiyyətini yüksəltmişdi. Xudat ərazisini əhatə edən keçmiş "Çkalov" adına sovxoz Zaqafqaziyanın ən böyük sovxozlarından biri idi. Sovxozun ərazisi çox böyük sahəni əhatə etdiyi üçün təsərrüfatı idarə etmək məqsədilə 9 şöbə yaradılmışdı. Mübaliğəsiz demək olar ki, hər şöbənin təsərrüfatı bir kolxozun sahəsinə bərabər idi. Sutka ərzində Xudat şəhərindən Moskva və SSRİ-nin digər şəhərlərinə 15-20 vaqon tərəvəz göndərilirdi.

"Çkalov" sovxozunun uğurları nəinki Azərbaycanda, eyni zamanda Sovetlər Birliyində də qiymətləndirilirdi. Həmin illərdə xalq təsərrüfatının müxtəlif sahələrində qazanılan uğurların nümayişi məqsədilə Moskva şəhərində "Xalq Təsərrüfatı Nailiyyətləri sərgiləri" keçirilirdi və "Çkalov" sovxozu da həmin sərgilərdə fəal iştirak edirdi.

Hal-hazırda sovxozun bir çox şöbələri kəndlərə çevrilmiş və onlar müxtəlif adlarla adlandırılmışdır. Xudat şəhəri inzibati ərazi vahidinə daxil olan II, III, IV və VI şöbələrin adları hələ də yazıldığı kimi saxlanmışdır. Yaxşı olardı ki, tezliklə həmin şöbələrə layiqli adlar veriləydi.

Xudatda yerləşən "Çkalov" və digər sovxozlarda kənd təsərrüfatının bütün sahələri yaradılmışdı. Taxılçılıq, heyvandarlıq, üzümçülük, tərəvəzçilik, meyvəçilik, bostançılıq, arıçılıq, balıqçılıq və baramaçılıq geniş inkişaf etmişdi. Burada artıq unudulmuş baramaçılığı xüsusi qeyd edərdim. Yaşlıların dediklərinə görə ərazidə çoxlu sayda tut bağları salınmış və baramaçılığın inkişafı üçün ondan



istifadə olunurdu. Lakin hansı səbəblərdənsə çox gəlir gətirən bu sahə bu gün tamamilə unudulmuşdur.

Sovxozlarda arıçılıq təsərrüfatları fəaliyyət göstərirdi. Həmin sahəyə də diqqətin azalması arıçılığın inkişafına mane oldu. Lakin şəxsi təsərrüfatlarda indi də arıçılıq müvəffəqiyyətlə davam etdirilir.

Xudat yaxınlığında böyük donuzçuluq kompleksi var idi. Həmin kompleksdə 3000-dən artıq heyvan saxlanırdı.

Xəzərin Xudat sahilləri Yalama, Nabran zonası sanatoriya, kurort obyektlərinin, istirahət və turizm müəssisələrinin yaranması üçün hər cür şəraitə malikdir. Təsadüfi deyildir ki, Sovet İttifaqı dövründə bu zona Ümumittifaq əhəmiyyətli istirahət zonası kimi tanınmışdır.

Xudat şəhəri 1943-cü ilin oktyabrın 8-də təşkil olunaraq, 1959-cu ilin 4 dekabrınadək fəaliyyət göstərmiş Xudat rayonunun mərkəzi olmuşdur.

Hal-hazırda Xudat şəhəri rayonun II böyük şəhəri kimi inkişaf etməkdədir. Şəhərdə Ulu öndərimiz Heydər Əliyevin xatirəsinə muzey istifadəyə verilmiş, rəhbərin büstü qoyulmuş, adına geniş park salınmışdır.

Xudat şəhəri tikilir, abadlaşır, əvvəlki mövqeyini, şöhrətini qaytarmaqdadır.

## XAÇMAZ BU GÜN

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008-ci illər) və "Azərbaycan regionlarının 2009-2013-cü illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı" xaçmazlılar tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanmışdır.

Dövlət Proqramlarının qəbulundan bu günədək Xaçmaz rayonunun tarixində bir sıra yaddaqalan hadisələr olmuşdur. 2005-ci ildə Xaçmaz şəhərində Heydər Əliyev parkı salınmış, bu parkda Ulu öndərin əzəmətli abidəsi ucaldılmış, Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən muzey yaradılmışdır. Eyni zamanda Xudat şəhərində də Heydər Əliyev muzeyi yardılmış və Ulu öndərin büstü ucaldılmışdır.

Xaçmaz və Xudat şəhərlərinin mərkəzi küçə və meydanlarının işıqlandırılması üçün 400-dən artıq müasir elektrik dirəkləri quraşdırılmış, küçə və səkilər yenidən qurulmuş, 40 min kvadrat metr əraziyə asvalt, 32 min kvadrat metr əraziyə üzlük plitə döşənmişdir. Bu işlər bu gün də davam etdirilir.

Uşaq Gənclər Şahmat məktəbi üçün yeni bina tikilib 2005-ci ilin may ayında istifadəyə verilmişdir. Xudat şəhər musiqi məktəbinin binası müasir üslubda yenidən qurulmuş, yeni avadanlıq və musiqi alətləri ilə təchiz edilmişdir. Uşaq Gənclər İdman məktəbi üçün də yeni bina istifadəyə verilmiş, Turizm-İnformasiya Mərkəzi yaradılmışdır.



80 il tarixi olan Xaçmaz dəmiryolçular mədəniyyət evinin binası və ətraf ərazisi yenidən qurulmuş, müasir tələblərə cavab verən "N-KAY-M" özəl tibb klinikası istifadəyə verilmişdir. Xaçmaz şəhərinin mərkəzində əyləncə istirahət kompleksinin tikintisinə başlanmışdır. Şəhərin girişində Azərbaycanın əfsanəvi xalq qəhrəmanı Koroğlunun əzəmətli abidəsi ucaldılmışdır.

Xaçmaz şəhərində İqtisadi İnkişaf Nazirliyinin ekspertiza laboratoriyası üçün inzibati binanın tikintisi başa çatdırılmışdır. Dövlət Proqramına uyğun olaraq Qarabağ əlilləri üçün 2 mərtəbəli 16 mənzilli yaşayış binası tikilib istifadəyə verilmişdir.

Zəngin tərəvəzçilik ənənələri olan rayonun iqtisadiyyatında "Qafqaz" konserv zavodunun özünəməxsus rolu var. Möhtərəm Prezidentimiz İlham Əliyevin respublikanın Baş naziri olarkən - 2003-cü ilin sentyabrında açılışını etdiyi bu emal müəssisəsində 300-dək xaçmazlı işlə təmin olunmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyev 2005-ci il iyulun 26-da regionlara səfərləri çərçivəsində Xaçmaz rayonuna gəlmişdir. Dövlətimizin başçısını minlərlə xaçmazlı səmimi və mehribanlıqla qarşılamışdır. Respublika Prezidenti İlham Əliyev Ulu öndər Heydər Əliyevin Xaçmazda ucaldılmış abidəsini və xatirə muzeyini ziyarət etmiş, rayonda görülmüş abadlıq və yaşıllaşdırma işlərini yüksək qiymətləndirmişdir.

Möhtərəm Prezidentimizin Xaçmaz rayonuna səfəri çərçivəsində respublikamızın birinci xanımı, Heydər

Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Xaçmazda da öz təşəbbüsü və Heydər Əliyev Fondunun vəsaiti hesabına inşa edilən məktəblərə baş çəkmiş, işlərin gedişi ilə yaxından tanış olmuşdur.

Respublika Prezidenti İlham Əliyevin 3 avqust 2005-ci il tarixli sərəncamından ruhlanan xaçmazlılar daha gərgin işləmiş, bir sıra nailiyyətlər qazanmışlar. Sərəncama əsasən ayrılmış vəsait hesabına Xaçmaz şəhərində yeni, müasir tipli işıqlandırma sistemi, piyada səkiləri olan küçə salınmışdır.

Bu sərəncama əsasən 2005-ci ildə Xaçmazın inzibati rayon kimi yaradılmasının 75 illik yubileyi böyük təntənə ilə qeyd edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına əsasən rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup xaçmazlı müxtəlif ali dövlət mükafatları ilə təltif olunmuşdur:

**"Əməkdar müəllim" fəxri adına layiq görülənlər:**

*1.Babayeva Tamara - Şimali kənd məktəbinin direktoru,*
*2.Hacızadə Murad - Xudat şəhər musiqi məktəbinin direktoru,*
*3.Babayev Nəriman - Xaçmaz Uşaq, idman və gənclər məktəbinin direktoru,*
*4.Əlifxanova Gülər - Xaçmaz şəhər 6 saylı orta məktəbin müəllimi,*
*5.Abdullayev Ənvər - Xaşmaz şəhər 1 saylı orta məktəbin müəllimi,*
*6.Məmmədov Ələddin - Əbilyataq kənd məktəbinin direktoru,*
*7.Qədirov Ağaverdi - Həsənqala kənd orta məktəbinin direktoru.*

**"Tərəqqi" medalına layiq görülənlər:**

*1.Kərimov Rafiq - Heydər Əliyev parkının direktoru,*
*2.Məmmədova Həqiqət - Dİ və İXİ Həmkarlar İttifaqqının Xaçmaz Rayon Komitəsinin sədri,*
*3.Maqsudov Fikrət - tikinti işçisi,*
*4.Musayev Ağaqulu - fermer,*
*5.Hacımirzəyev Vəlirza - Xaçmaz şəhər bələdiyyəsinin sədri,*



*6.Hüseynov Yaşar - Rİi başçısının Çarxı İƏV-də nümayəndəsi,*
*7.Sərdarov Vaqif - Yalama bələdiyyəsinin sədri ,*
*8.Turabova Vahidə - Rİi başçısının Qalağan İƏV-də nümayəndəsi,*
*9.Vəliyev Vəlibəy - rayonun baş memarı,*
*10.Zöhrabov Elçin - Xudat şəhər 5 saylı məktəbin direktoru,*
*11.Ağakişiyeva Gülnisə - Xaçmaz şəhər 8 saylı məktəbin müəllimi.*

**"Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülənlər:**

*Ağayev Nazim - Xaçmaz Rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri.*

**"Əməkdar mühəndis" fəxri adına layiq görülənlər:**

*Rəsulov Mustafa - Xaçmaz rayonu EŞ İİ- nin rəisi.*

**"Əməkdar həkim" fəxri adına layiq görülənlər:**

*Şahverdiyev Bəhram - Xaçmaz Rayon Mərkəzi xəstəxanasının baş həkimi.*

**"Əməkdar jurnalist" fəxri adına** layiq görülənlər:

*Teyyubov İsmət - " Xaçmaz " qəzetinin müxbiri.*

2005-ci ildə respublikamızın ictimai-siyasi həyatında ən mühüm hadisələrdən biri 6 noyabr tarixində Azərbaycan Respublikası Milli Məclisinə keçirilmiş seçkilər olmuşdur. Həmin seçki son dərəcə şəffaf, demokratik şəraitdə keçmişdir.

2006-cı ilin may ayının 10-da Ulu öndərimizin doğum günündə Xaçmazın qədimlik rəmzinə çevrilmiş "Qoşa qapı" abidəsi tikilmiş və qonşu Dağıstan Respublikasının Xaçmazla qardaşlaşmış Dərbənd rayonunun nümayəndə heyətinin iştirakı ilə açılmışdır. Xaçmazlı şəhidlərin xatirəsini əbədiləşdirən "Şəhidlər xiyabanı" kompleksi yaradılmış, rayon tarix-diyarşünaslıq muzeyi əsaslı təmir edilmiş, Azərbaycanın korifey mədəniyyət və incəsənət

xadimlərini bir araya gətirən Şəxsiyyətlər muzeyi, bölgənin qədim el sənəti olan xalçaçılığın zəngin ənənələrini yaşadan Xalça muzeyi yaradılmış, YAP Xaçmaz Rayon Təşkilatı üçün ikimərtəbəli yeni inzibati bina tikilib istifadəyə verilmiş, Xaçmaz şəhər dəmiryol vağzalının meydanı əsaslı surətdə yenidən qurulmuş, burada şair və sərkərdə Şah İsmayıl Xətainin abidəsi ucaldılmışdır. Xaçmaz Şəhər Mərkəzi kitabxanası əsaslı təmir edilmiş, rayonda abadlıq və yaşıllaşdırma işlərinə xüsusi diqqət yetirilmişdir. Təkcə 2006-cı il ərzində Xaçmaz və Xudat şəhərinin küçələrinə 110 min kvadrat metr asfalt döşənmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2006-cı il 7 dekabr tarixində növbəti dəfə Xaçmaz rayonunda səfərdə olmuşdur. Heydər Əliyev siyasi kursuna daim sadiqlik nümayiş etdirən xaçmazlılar ölkə Prezidentini çox böyük hərarət və sevinclə qarşılamış, hörmət və ehtiramlarını əməli işlərilə çatdırmağa çalışmışlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Xaçmaza bu dəfəki səfər proqramı çox zəngin olmuşdur. Ölkə başçısı ilk öncə Ümummilli liderimiz Heydər Əliyevin Xaçmaz şəhərindəki abidəsini ziyarət etmiş, şimal bölgəsini elektrik enerjisi ilə təmin etmək üçün qısa bir müddətdə tikilib istifadəyə verilmiş 87 meqavatt gücündə Modul tipli elektrik stansiyasının açılış mərasimində iştirak etmiş, “Qoşa qapı” abidəsinə, tarixdiyarşünaslıq muzeyinə, Şəxsiyyətlər muzeyinə, Şah İsmayıl Xətainin abidəsinə tamaşa etmiş, Mədəniyyət və istirahət parkı ilə tanış olmuş, Xalça muzeyinin və YAP Xaçmaz Rayon Təşkilatının inzibati binasının açılışında iştirak etmiş, rayon fəalları ilə görüş keçirmişdir. Daha sonra möhtərəm Prezidentimiz Xudat şəhərində Heydər Əlirza oğlu Əliyevin büstünü ziyarət etmiş, Heydər Əliyev



muzeyinin Xudat sfilialında olmuş, Xudat sərhəd dəstəsi üçün inşa edilmiş şəhərciyin açılışında iştirak etmiş, Nabran istirahət zonasında bir neçə turizm-istirahət mərkəzi ilə tanış olmuşdur. Prezident Xaçmazda görülən işləri yüksək qiymətləndirərək, bu işləri daha geniş miqyasda davam etdirmək üçün rayona əlavə olaraq 1 milyon manat vəsait ayırmışdır.

2007-ci il bütovlükdə Azərbaycan, eləcə də Xaçmaz rayonu üçün də çox uğurlu il olmuşdur. Dövlət başçısının fərman və sərəncamlarını, ölkədaxili həyata keçirdiyi siyasi xətti əldə rəhbər tutan xaçmazlılar ictimai-siyasi sabitliyi qorumaq, iqtisadi inkişafı sürətləndirmək, qanunların icrasını təmin etmək üçün məqsədyönlü tədbirlər həyata keçirmişlər.

Respublika Prezidenti İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)” və proqrama edilmiş əlavələrin qəbulundan keçən dövr ərzində rayonda 11059 iş yeri açılmışdır ki, onlardan 5631-i daimi iş yerləridir. Təkcə 2008-ci il ərzində 742 yeni iş yerləri açılmışdır.

Rayon üzrə 2007-ci ildə ümumi məhsul buraxılışı (ÜMB) 2006-cı illə müqayisədə 124% artaraq 178 milyon 160 min manat, sənaye istehsalı 2,7 dəfə artaraq 35 milyon 679 min manat, əsas kapitala yönəldilən vəsaitlər 8 milyon 587 min manat təşkil etmiş, kənd təsərrüfatının ümumi məhsulu 111% artmış, adambaşına düşən pul gəlirləri 123% artaraq 2006-cı ildəki 90 manatdan 138 manata yüksəldilmişdir.

Rayonun elektirik enerjisi və qazla təminatı sahəsində xeyli müsbət işlər görülmüşdür. Bu gün rayonun kəndlərinə təbii qazın verilişi bərpa olunur.

2007-ci ildə bütövlükdə respublikamızda olduğu kimi, Xaçmaz rayonunda da Ümummilli liderimiz Heydər Əliyevin qurub yaratdığı və möhtərəm Prezidentimiz cənab İlham Əliyevin daha da inkişaf etdirdiyi sabitlik və iqtisadi inkişaf nəticəsində tikinti, abadlıq və quruculuq işləri daha geniş vüsət almışdır.

Xaçmaz Rayon Mədəniyyət Evi əsaslı şəkildə yenidən qurulmuş, ona Ulu öndərimizin adı verilmişdir.

Rayon Mədənıyyət və İstirahət Parkı daha da genişləndirilmiş, burada Azərbaycan və Dağıstan xalqlarının əsrlərdən bəri davam edən dostluğunu tərənnüm edən "Dostluq abidəsi" və böyük alim, dövlət xadimi Əziz Əliyevin büstü ucaldılmışdır. Hər iki abidənin açılışında Dağıstan Respublikasının yüksək vəzifəli şəxslərindən ibarət nümayəndə heyəti iştirak etmişdir.

Ötən əsrin 50-ci illərində inşa edilmiş və müasir dövrün tələblərinə cavab verməyən Xaçmaz şəhər məsçidi sökülərək yerində anoloqu olmayan, dini ayinlərin keçirilməsi üçün hər cür şəraiti olan yeni məsçid binası tikilmişdir.

Heydər Əliyev parkının qarşısında yeni fəvvarə, şəhərin mərkəzində mozaika ilə 4 ədəd arxitektura elementli gümbəzlər tikilmiş, şəhərin bir neçə yerində tağlı qapılar inşa edilmişdir. Rayon Maliyyə İdarəsi üçün ən müasir tələblərə cavab verən yeni inzibati bina tikilib istifadəyə verilmişdir.

Bir müddət fəaliyyəti dayandırılmış, bölgə üçün böyük əhəmiyyət daşıyan regional televiziya ötən il işini bərpa etmiş və ən müasir texnika ilə təchiz olunmuşdur.

Xaçmaz və Xudat şəhərlərində 55 və 56 saylı seçki dairələri üçün ikimərtəbəli yeni inzibati binalar tikilmişdir. "Şəhidlər xiyabanı" və Şəxsiyyətlər muzeyində



tamamlama içləri aparılmış, Qarabağ əlilləri üçün 24 mənzilli yaşayış binası tikilib istifadəyə verilmişdir.

Rayon tikinti meydançasını xatırladır. "Regionların inkişafı ümumilikdə Azərbaycanımızın inkişafıdır" şüarı ilə çalışan xaçmazlılar rayonun müxtəlif kənd və qəsəbələrində tikir, qurur, yaradırlar. 2007-ci il ərzində 29.208 kvadrat metr ümumi yaşayış sahəsi olan 280 fərdi yaşayış evi tikilmişdir. Bu gün Xaçmaz şəhərində hündürmərtəbəli yaşayış kompleksinin tikintisi aparılır.

2008-ci ildə də rayonun bütün sahələrindəki dinamik inkişaf qorunub saxlanmış, il özünün əlamətdar hadisələrilə zəngin olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin 85 illik yubileyi böyük təntənə ilə qeyd edilmiş, misilsiz xidmətlərilə Azərbaycan xalqının qəlbində əbədi bir abidə ucaltmış bu fenomen şəxsiyyətin nurlu xatirəsini bir daha əbədiləşdirmək məqsədilə rayonun Rusiya Federasiyası ilə sərhədində yerləşən Yalama yaşayış məntəqəsində 1,2 hektar sahədə Heydər Əliyev parkı salınmış, parkın mərkəzində 250 kvadrat metr sahədə xüsusi layihə əsasında Heydər Əliyev muzeyi inşa olunmuşdur. Muzeyin qarşısında qranit postament üzərində Ümummilli liderimizin büstü ucaldılmışdır.

2008-ci il xaçmazlılar üçün daha bir tarixi günlə əlamətdar olmuşdur. Sentyabr ayının 27-də ölkə Prezidenti İlham Əliyev növbəti dəfə rayona səfər etmişdir.*

15 oktyabr 2008-ci il tarixi rayon üçün daha sevindirici olmuşdur. Həmin gün 84352 seçicidən 67189 nəfəri, yəni 79 %-i seçkidə iştirak etmiş və bunlardan 55019 nəfəri,

* Bax: Səfər haqqında ətraflı məlumat kitabın "İlham Əliyev və Xaçmaz" bölməsində verilmişdir.

yəni 83, 1%-i möhtərəm Prezidentimiz cənab İlham Əliyevin namizədliyini dəstəkləmişdir. Bu qələbə dahi şəxsiyyət Heydər Əliyev siyasətinin növbəti qələbəsi, Prezident İlham Əliyevin fədakar əməyinin, Azərbaycanın davamlı və sürətli inkişafı naminə gördüyü qlobal işlərin daha bir təntənəsi idi.

Bu inkişafın və təntənənin sübutudur ki, Xaçmaz rayonunun ərazisində ümumilikdə ölkə üçün böyük əhəmiyyəti olan ifrastruktur layihələri həyata keçirilir. Məsələn, 2006-cı ildə burada Finlandiyanın "Wartsila" şirkətinin istehsal etdiyi 87 Mvt gücündə modul elektrik stansiyası istifadəyə verilmiş, hazırda 330 kilovoltluq yardımçı stansiya tikilir və bu obyektlər bütün şimal regionunun elektrik enerjisi ilə fasiləsiz təchiz edilməsinə imkan yaradacaq. Bakı-Samur avtomagistralının rayon ərazisindən keçən hissəsində tikinti işləri tam sürətlə gedir. Bütünlükdə Bakı-Samur magistralının uzunluğu 198 kilometr, layihənin ümumi dəyəri 300 milyon dollardan artıqdır.

Xaçmaz rayonu daha bir mühüm layihənin - Samur-Abşeron su kanalının tikintisinə cəlb olunmuşdur. Layihənin smeta dəyəri 1 milyard dollardır. Burada 67 kilometrlik Xanarx kanalının tikintisi başa çatmışdır və o, ölkənin dörd şimal rayonunda 62 min hektar sahənin suvarma sistemini yaxşılaşdıracaqdır.

Dünyada baş verən iqtisadiyyat və maliyyə sahəsindəki böhrana baxmayaraq, Azərbaycan iqtisadiyyatı irəliyə doğru inkişafını davam etdirir. Bu inkişaf 2009-cu ildə Xaçmazda da özünü göstərməkdədir. Belə ki, həyata keçirilən tədbirlər nəticəsində rayonda 2009-cu ilin I yarısında 852 iş yeri açılmışdır. 6 ay ərzində rayon üzrə ümumi məhsul buraxılışı (ÜMB) 2008-ci ilin müvafiq



dövri ilə müqayisədə 3,5% artaraq 80,1 milyon manata, kənd təsərrüfatında ümumi məhsul istehsalı 1,5% artaraq 21 milyon manata çatmışdır.

Göründüyü kimi, rayonda bütün sahələrdə yüksəliş, inkişaf göz qabağındadır.

**Xaçmaz sənaye-aqrar rayonudur.** Xaçmaz respublikamızın şimal bölgəsində ən böyük kənd təsərrüfatı rayonudur. Ulu öndərimiz Heydər Əliyevin və dövlət başçısı İlham Əliyevin Xaçmaz rayonuna diqqət və qayğısının nəticəsidir ki, rayon nəinki bölgədə, hətta respublikanın aqrar sahədə seçilən rayonlarından birinə çevrilməkdədir.

Xaçmaz rayonunun iqtisadiyyatının əsasını tərəvəzçilik, meyvəçilik, taxılçılıq, üzümçülük, heyvandarlıq, balıqçılıq və konserv sənayesi təşkil edir.

Xaçmazda kənd təsərrüfatının sürətli inkişafı ilə əlaqədar xammalın elə yerindəcə emalına həmişə böyük ehtiyac duyulurdu. Odur ki, XX əsrin 40-cı illərində Xaçmaz konserv kombinatının inşasına başlanmış və 1940-cı ildə tikilərək istifadəyə verilmişdir. Burada istehsal olunan məhsulun xeyli hissəsi ittifaqın müxtəlif yerlərinə göndərilirdi.

Rayonun təsərrüfatlarının su ilə təmin edilməsi məqsədilə 1939-1940-cı illərdə Samur-Abşeron su kanalının birinci növbəsi tikilib istifadəyə verilmişdir. Həmin illərdən başlayaraq rayon getdikcə ittifaqın meyvə-tərəvəz bazasına çevrilmişdir.

Böyük Vətən müharibəsi illərində Xaçmaz konserv kombinatında 215 milyon şərti banka konserv istehsal olunmuşdur ki, onun da böyük hissəsi cəbhələrə yola salınmışdır.

Müharibədən sonrakı illərdə zəhmətkeşlərin gərgin əməyi nəticəsində rayonun aqrar sahədə inkişafı daha böyük vüsət almışdır. Xüsusilə 1969-cu il iyulun 14-də keçirilən Azərbaycan KP MK-nın plenumunda Ulu öndər Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsi bütün respublikada olduğu kimi Xaçmaz rayonunda da dönüş mərhələsinin başlanğıcı olmuşdur.

1970-82-ci illərdə Heydər Əliyevin diqqət və qayğısı nəticəsində Xaçmaz rayonu kənd təsərrüfatı məhsulları istehsalı sahəsində yüksək nailiyyətlər əldə etmişdir. Bu illər ərzində tərəvəz istehsalı 121%, ət istehsalı 140%, süd istehsalı 2,3 dəfə , yumurta istehsalı 152% artmışdır.

1970-1980-ci illərdə Xaçmaz rayonunda ildə 150 min ton meyvə-tərəvəz emal edən Xudat konserv zavodu, Xaçmaz eksperimental konserv zavodu, 2 ilkin üzüm emalı zavodu, süfrə üzümü saxlamaq üçün 500 tonluq, meyvə saxlamaq üçün 1500 tonluq soyuducular, buzxana-sallaqxana, çörək kombinatı, qida məhsulları kombinatı, yem istehsalı zavodu tikilərək istifadəyə verilmişdir.

Beləliklə, Xaçmaz rayonu aqrar-sənaye rayonundan sənaye-aqrar rayonuna çevrilmişdir.

Məlum faktdır ki, 1985-1993-cü illər ərzində bütün respublikada iqtisadiyyatın inkişafında bir tənəzzül dövrü oldu. Getdikcə geriləmələr, təsərrüfatların dağıdılması, müəyyən təsərrüfat sahələrinin yox edilməsi prosesi baş verdi. Təbii ki, bu proseslər Xaçmazdan da yan keçmədi.

Azərbaycanın bu ağır günündə görkəmli şəxsiyyət Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ölkədə baş verən dağıntının, xaosun, tənəzzülün qarşısını aldı. Bütün sahələrdə çox böyük uğurlu islahatlar aparıldı.

1995-1996-cı illərdə "Aqrar islahatların əsasları", "Sovxoz və kolxozların islahatı", "Torpaq islahatı", "Torpaq bazarı" haqqında qanunların, digər normativ hüquqi aktların qəbulu aqrar-sənaye kompleksində köklü dəyişikliklər aparmaq üçün imkan yaratdı.



Xaçmaz rayonunda aqrar islahatların həyata keçirilməsi nəticəsində qısa müddət ərzində 40,1 min hektar əkin sahəsi 89505 nəfərə torpaq payı kimi verildi, sovxozların 79,6 milyard manat dəyərində əmlakı payçılara bölüşdürüldü. İslahat nəticəsində 415 ədəd yük avtomobili, 497 ədəd traktor, 110 taxılyığan və 51 yemyığan kombayn və digər mülkiyyət özəlləşdirildi.

Xaçmaz rayonunun bir neçə təsərrüfatı istisna olmaqla digərlərində aqrar islahatlar demək olar ki, başa çatmışdır.

Son illər keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalı xeyli artmışdır.

Xaçmazda fəaliyyət göstərən Regional Aqroserviz və Təchizat bazası vasitəsi ilə təkcə 2007-ci ildə 60 ədəd müxtəlif markalı traktor, 11 ədəd taxılsəpən, 8 ədəd taxılyığan kombayn, 7 ədəd otbiçən, 19 ədəd çiləyici, 14 ədəd presləyən, 50 ədəd ekskovator, 320 ton superfosfat, 800 ton azot gübrəsi gətirilmiş və lizinq yolu ilə rayon əhalisinə 6 ekskovator, 7 otbiçən və 5 çiləyici satılmışdır.

Respublika Prezidenti İlham Əliyevin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 23 yanvar 2007-ci il tarixli sərancamına əsasən rayon üzrə yanacaq və motor yağlarının alınması məqsədilə 2008-ci ildə 13763 torpaq mülkiyyətçisinə 36497 hektar əkin sahəsi üçün hər hektara 40 manat hesabı ilə 1 milyon 459 min 874 manat, eləcə də buğda istehsalına maddi marağın artırılmasına görə 7959 torpaq mülkiyyətçisinə 22263 hektar buğda sahəsi üçün 890532 manat məbləğində yardım verilmişdir. Bunun nəticəsidir ki, rayonda 2009-cu ilin məhsulu üçün ötən ilə nisbətən 7 min hektar artıq taxıl

əkilmiş, 1043 hektar yeni meyvə bağı salınmış, ümumilikdə 8500 hektar əkin sahəsi artırılmışdır.

2008-ci ildə rayonda 151731 ton və ya əvvəlki illə müqayisədə 1981 ton çox tərəvəz, 17150 ton kartof, 67491 ton meyvə, 5239 ton üzüm istehsal olunmuşdur. Heyvandarlıq sahəsində də il uğurlu keçmişdir. İlin sonuna mal-qaranın sayı artaraq 58095 başa çatmış, xırda buynuzlu mal-qaranın sayı 110653 baş təşkil etmişdir.

Xaçmaz rayonu bu gün Bakının Nərimanov rayonunda təşkil olunmuş satış yarmarkalarında paytaxt sakinlərini ucuz, keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin edir. Bazara 620 ton tərəvəz, 850 ton meyvə və 93 ton konserv məhsulları çıxarılmışdır.

Xaçmazda kənd təsərrüfatı məhsullarının emalı məqsədilə böyük və kiçik istehsal müəssisələri yaradılmışdır. Bunlardan ən irisi Qafqaz konserv zavodudur. 2008-ci il ərzində əhalidən 28000 ton tərəvəz, meyvə və giləmeyvə məhsulu qəbul edilmiş, 17 milyon şərti banka məhsul istehsal olunmuşdur. "Xaçmaz-şərab" ATSC tərəfindən əhalidən 3620 ton üzüm, "Xaçmaz-Eksperimental məhsulu qəbul edilərək emal olunmuşdur.

Rayonda dörd dövlət kənd təsərrüfatı müəssisəsi fəaliyyət göstərir. Əsasən toxumçuluq, zonal təcrübəçilik, damazlıq heyvandarlıqla məşğul olan təsərrüfatların işində 2008-ci ildə müəyyən dönüş yaranmışdır.

Rayonun sənaye müəssisələrində 2008-ci ildə 38.800 min manatlıq sənaye məhsulu istehsal olunmuşdur. Bu 2007-ci illə müqayisədə 8% çoxdur. İstehsal olunmuş məhsulun 33,9%-i emal sənayesinin, 63,8 %-i elektrik enerjisi, qaz və su təchizatı sektorunun payına düşür. Sənaye məhsulu istehsalının 57%-i qeyri-dövlət sektoruna məxsusdur.



2006-cı ilə nisbətən qeyri-dövlət sektorunda məhsul istehsalının həcmi 32%, dövlət sektorunda 11 dəfə artmışdır.

2008-ci ildə rayon üzrə ümumi məhsul buraxılışı (ÜMB) 2007-ci illə müqayisədə 51% artaraq 269,2 milyon manata, sənaye məhsulu istehsalı 8% artaraq 38,8 milyon manata, əsas kapitala yönəldilən vəsaitlər 29,9 milyon manat təşkil etmiş, kənd təsərrüfatının ümumi məhsulu 51% artaraq 129,7 milyon manata, adambaşına düşən pul gəlirləri 21% artaraq 1384 manata çatmışdır. Rayon üzrə parakəndə əmtəə dövriyyəsi 133,9 milyon manat, əhaliyə göstərilən pullu xidmətlərin həcmi 24 milyon manat təşkil etmişdir.

Rayon iqtisadiyyatının inkişaf tempi 2009-cu ildə qorunub saxlanmışdır. İlin I yarısında əsas kapitala yönələn investisiyalar 7,4% artaraq 13 milyon manata, adambaşına düşən pul gəlirləri 2% artaraq 796 manata çatmışdır. Parakəndə əmtəə dövriyyəsi 21,2%, əhaliyə göstərilən pullu xidmətlərin həcmi 11,5% artmışdır. 6 ay ərzində 11,9 min kvadrat metr mənzil sahəsi tikilmişdir.

Kənd təsərrüfatının müxtəlif sahələri də 2009-cu ilin I yarısında keçən ilin müvafiq dövri ilə müqayisədə dinamik inkişaf etmişdir. İlin ilk 6 ayı ərzində 3882 ton ət, 17464 ton süd, 9,5 milyon ədəd yumurta, 191,8 ton yun istehsal olunmuşdur. Proqnoza görə 2009-cu ildə ötən illə müqayisədə 18000 ton artıq taxıl yığımı gözlənilir.

Xaçmaz sənaye və aqrar sahədə yüksələn templə inkişaf edir və yaxın gələcəkdə şimal bölgəsinin iqtisadi cəhətdən ən inkişaf etmiş rayonlarından birinə çevriləcəkdir.

**Xaçmaz rayonunda təhsilin inkişafı.** 1930-cu ildən müstəqil rayon kimi fəaliyyət göstərən Xaçmazda hazırda 22-dən çox millətin və xalqın nümayəndələri yaşayır.

Keçən əsrin əvvəllərində Xaçmazın ərazisində dini məktəblər, xüsusilə də xristian dininə aid kilsələr, o cümlədən Köhnə Xaçmaz, Gödəkli, Borispol (indiki Sərkərli kəndi), Maqsudkənd kəndində müsəlman dini mədrəsəsi fəaliyyət göstərmişdir.

Xaçmaz və eləcə də sonradan təşkil olunmuş Xudat rayonunda, keçən əsrin 1930-1940-cı illəri ərzində Xaçmaz və Xudat şəhər, Yalama, Ləcət, Müqtədir qəsəbə, Qusarçay, Çarxı, Bostançı, Hülövlü, İlxıçı kəndlərində yeddiillik məktəb binaları tikilmiş və məktəblər fəaliyyət göstərmişdir. Çarxı, Yalama və Ləcət məktəblərinin binaları istisna olmaqla (yeni binalar tikilib) qalan binalardan indi də istifadə edilir.

İkinci Dünya müharibəsindən sonra hər iki rayonun ərazisində yeni məktəblər, əsasən də ibtidai məktəblər açılmışdır. 1952-ci ildə üç orta məktəb – Xaçmaz şəhər (indiki 3 saylı məktəb), Xaçmaz dəmir yolu (indiki 7 saylı) və Xudat şəhər (indiki 2 saylı) orta məktəbləri Çarxı, Yalama, Nabran, Müqtədir qəsəbə yeddiillik məktəbləri fəaliyyət göstərirdi.

1958-59-cu illərdə Xaçmaz və Xudat rayonları birləşərək vahid rayon təşkil etmişlər. Sonrakı illərdə rayonda geniş tədris şəbəkəsi yaradılmışdır.

Xaçmaz rayonu hazırda respublikanın ən geniş təhsil şəbəkəsinə malik rayonlarından birinə çevrilmişdir. Burada təhsilin inkişafında xidməti olan adamlardan Şahmurad Rəsulov, Qaçay Məmmədov, Nöhbala Yarəliyev, Şövkət Dəmirov, Əhmədbəy Səmədov, Sərdar Rəhmanov, Şövkət Tacıbov, Böyükağa Musayev, Asəf Yasinov, Həqiqət Məmmədova müxtəlif illərdə rayon təhsil şöbəsinə rəhbərlik etmişlər. Respublikanın əməkdar müəllimləri Rəşid Rəşidov və Əmin Novruzbəyov, Lenin ordenli Baxan Osmanov və onlarla digərlərinin əziz xatirəsi bu gün də rayon əhalisi tərəfindən hörmətlə yad edilir.



Keçən əsrin 60-cı illərinə kimi rayon məktəblərində işləyən müəllimlərin böyük əksəriyyəti orta ixtisas və natamam ali təhsilli idi. Hazırda rayon məktəblərində çalışan 2600-dən çox müəllimin 80-85%-i ali təhsillidir.

Rayonda məktəb tipli layihə üzrə tikilmiş ilk məktəb binası 1960-cı ildə istifadəyə verilmiş Xaçmaz şəhər 1 saylı orta məktəbin binasıdır.

Hazırda rayonda 120 ümumtəhsil məktəbi, 26 məktəbəqədər, 6 məktəbdənkənar müəssisə, 1 peşə litseyi və 1 peşə məktəbi fəaliyyət göstərir.

Ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdə Xaçmaz şəhər 2 saylı, 6 saylı, Xudat şəhər 2 saylı, Yalama, Ləcət, Çarxı, Qusarçay, Həsənqala, Yergüc, Qımılqışlaq və Hacəlibəy kənd orta məktəb binaları, Xaçmaz şəhər peşə litseyinin binası, 5 məktəbəqədər uşaq tərbiyə müəssisəsinin binası tikilib istifadəyə verilmişdir. Həmin illərdə məktəb şəbəkəsi daha da genişləndirilmiş və təkmilləşdirilmişdir. Orta və əsas məktəblərin sayı xeyli artmışdır.

Bu illərdə rayonda günüuzadılmış məktəblər təşkil edilmiş, şagirdlərin miniklə daşınması üçün sovxozlara 22 avtobus verilmiş, şagirdlərə tibbi və iaşə xidməti təşkil edilmişdir.

Həmin illərdə onlarla rayon məzunu ölkənin nüfuzlu ali məktəblərinə göndərilmişdir. O illər demək olar ki, rayonda təhsilin çiçəkləndiyi illər idi.

Təhsillərini başa vuran xaçmazlı ali məktəb məzunları gələcək həyatlarını keçmiş sovetlər ölkəsinin müxtəlif şəhərlərində, Azərbaycanın şəhər və kəndlərində, müstəqil

Azərbaycanın dövlət quruculuğunda, inkişafında uğurla davam etdirirlər.

AXC və Müsavat hakimiyyəti illərində bütün respublikada olduğu kimi, Xaçmazda da təhsil sahəsində durğunluq, geriləmələr baş verdi.

1993-cü ilin şanlı 15 iyun günü ilə başlanan qurtuluş təhsil müəssisələrini, təhsil sistemini dağılmaqdan, müəllimləri ümidsizlikdən qurtardı. Ulu öndərimiz Heydər Əliyevin Azərbaycan dövlətinə rəhbərlik etməsi bütün sahələrdə olduğu kimi təhsil sahəsindəki özbaşınalığa, xaosa son qoydu.

Xaçmaz rayonunda son illərdə 27 yeni məktəb binası tikilib istifadəyə verilmişdir ki, bunlardan 13-ü son iki ildə tikilmişdir. Bu məktəblərdən 4-ü Heydər Əliyev Fondunun vəsaiti hesabına tikilib. Müşkür və Sayad kənd orta məktəbinin, Maqsudkənd və Qadaşoba kənd məktəblərinin şagird, müəllim və valideynləri Mehriban xanım Əliyevaya təhsilə göstərdiyi diqqət və qayğıya görə dərin minnətdarlıq edirlər.

Əsası Ümummilli lider tərəfindən qoyulmuş təhsilə qayğı ənənəsi möhtərəm Prezident İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilir. 2005-ci ilin iyul ayında rayona gəlmiş möhtərəm Prezident rayonun sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə sərəncam imzalamışdır. Həmin sərəncama uyğun olaraq dövlət vəsaiti hesabına Xaçmaz şəhərində 2 və Xudat şəhərində 1 yeni orta məktəb binası tikilib istifadəyə verilmişdir.

Təhsilin maddi-texniki bazasının gücləndirilməsi sahəsində işlər uğurla davam etdirilir. Hal-hazırda Bostanşı kəndində Dövlət Proqramı çərçivəsində 220 yerlik, Nərəcan kəndində 450 yerlik yeni məktəb binası, Xaçmaz şəhərində iki mərtəbəli şahmat məktəbi tikilib istifadəyə



verilmiş, qəza vəziyyətində olan Köhnə Xaçmaz kənd orta məktəbinin tikintisi nəzərdə tutulmuşdur. Ölkə rəhbərinin diqqət və qayğısı sayəsində növbəti 5 ildə rayonda daha 22 yeni məktəb binasının, 300 əlavə sinif otağının, 10 idman zalının tikilib istifadəyə verilməsi, məktəblərin istilik sistemlərinin əsaslı təmiri nəzərdə tutulmuşdur.

Hazırda rayonda məktəblərin kompüterləşdirilməsi prosesi gedir. Rayon məktəblərində 900-ə yaxın kompüter quraşdırılmış, müvafiq kompüter sinifləri təşkil edilmişdir. Məktəblərin maddi təminatı ildən-ilə yaxşılaşır.

Bütün respublikada olduğu kimi, Xaçmaz rayonunda da I-XI sinif şagirdlərinin pulsuz dərsliklər təmin edilməsi başa çatdırılmış, məktəb kitabxanalarının bədii ədəbiyyatla təminatı xeyli yaxşılaşmışdır. Bu məqsədlə 18 adda 1449 ədəd uşaq ensiklopediyası, 419 adda 43328 ədəd bədii ədəbiyyat alınıb məktəb kitabxanalarına verilmişdir.

Məktəblərin ixtisaslı müəllimlərlə təminatında xeyli irəliləyiş əldə edilmişdir. Burada da rayon mərkəzindən uzaqda yerləşən məktəblərdə işləyən müəllimlərə güzəştlərin verilməsi xüsusi rol oynamışdır.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2008-ci ildə Xaçmaz şəhər 3 saylı orta məktəbinin müəlliməsi A.Cəfərovaya "Respublikanın Əməkdar müəllimi" fəxri adı verilmiş, Xaçmaz şəhər 8 saylı orta məktəbinin müəlliməsi R.Hüseynova "Tərəqqi" medalı ilə təltif edilmişdir. "İlin ən yaxşı müəllimi" müsabiqəsində iştirak edən 9 müəllimdən 2 nəfəri müsabiqənin qalibi olmuşdur.

Xaçmaz rayonunun pedaqoji kollektivləri ictimai-siyasi həyatda da fəal iştirak etmiş, ölkə rəhbərliyinin daxili və xarici siyasətini dəstəkləmişlər. 1995-ci ildən sonra respublikada keçirilən prezident, parlament və bələdiyyə seçkilərində təhsil işçilərinin fəal iştirakı bunu

deməyə əsas verir. Hazırda rayon müəllimlərinin böyük əksəriyyəti, yəni 1500 nəfərdən çoxu Yeni Azərbaycan Partiyasının üzvüdür.

Xaçmazın təhsil işçiləri daim öz ziyalı mövqeyi ilə seçilmişlər. Mən Milli Məclisə seçkilər zamanı məktəblərdə keçirilən görüşlərdə müəllimlərin dövlətçiliyimizin, müstəqilliyimizin inkişafı üçün böyük həvəslə, səylə çalışdıqlarının şahidi olmuşam. Bütün Xaçmaz müəllimlərinə fədakar, şərəfli əməklərində uğurlar diləyirəm.

**Xaçmaz səhiyyəsi inkişafda.** Respublikamızda əhalinin sağlamlığı naminə tibbi xidmətin səviyyəsini və keyfiyyətini yüksəltmək üçün dövlətimizin qayğısı, diqqəti gündən-günə artır. Xüsusilə, 2008-ci ilin 1 fevralından etibarən dövlət tibb müəssisələrində pulsuz xidmətə keçilməsi dövlətin əhalinin sağlamlığına göstərdiyi qayğının bariz nümunəsidir. Bu isə hər bir vətəndaşın, aztəminatlı insanların müayinə və müalicəsinə şərait yaratmaq deməkdir.

Son illər Xaçmaz Mərkəzi Rayon xəstəxanasında aparılan təmir, yenidənqurma işləri və buranın müasir tələblərə cavab verən yüksək keyfiyyətli tibbi avadanlıqlarla təchiz olunması rayonda səhiyyə sahəsində böyük işlərin görülməsindən xəbər verir.

Hazırda Mərkəzi Rayon Xəstəxanası və onun 11 şöbəsi, eləcə də stasionar şöbəsi olan Vərəm dispanseri, Dəri-zöhrəvi dispanseri, Təcili yardım stansiyası, poliklinika və uşaq məsləhətxanası, Ailə planlaşdırma və diaqnostika mərkəzləri, Xudat Şəhər Xəstəxanası, 22 həkim ambulatoriyası və 46 feldşer-mama məntəqəsi əhaliyə xidmət göstərir. Rayon səhiyyə sistemində çalışan 1310 nəfərdən 185-i həkim, 666 nəfəri orta tibb işçisidir.



2008-ci il ərzində cərrahı fəallıq 33,9% təşkil etmiş, xəstəxana üzrə 2699 doğum qeydə alınmış, 1 yaşadək uşaq ölümü 2007-ci ildə 10, 2008-ci ildə 3 nəfər olmuş, ana ölümü qeydə alınmamışdır. Uşaqlar arasında müxtəlif xəstəliklərə qarşı profilaktik tədbirlər həyata keçirilmişdir.

2008-ci ildə rayonun səhiyyə müəssisələrinin maddi-texniki bazası xeyli gücləndirilmiş, bir sıra təmir-tikinti və abadlıq işləri aparılmışdır.

İl ərzində Respublika Səhiyyə Nazirliyi tərəfindən rayona əlavə olaraq 1 ədəd Ambulans təcili yardım avtomobili verilmiş, 1 ədəd rentgen aparatı, 3 ədəd elektrokardioqramma aparatı, 3 ədəd funksional çarpayı, 1 ədəd narkoz aparatı, 1 ədəd kardiomonitor, süni tənəffüs aparatı və müxtəlif laboratoriya avadanlıqları, bərk və yumşaq inventarlar alınmışdır. Xəstəxanada şəkərli diabet xəstələr üçün hər bir şərait vardır və 60 adda dərman stasionar xəstələrə pulsuz verilir. Psixotropik, onkoloji və imtiyazlı xəstələr bütün dərmanlarla təmin olunurlar.

Kənd tibb müəssisələrinin qızdırılması üçün 150 ədəd soba və ağ neft yanacağı ayrılmışdır.

2008-ci il ərzində xəstəxananın uşaq şöbəsi təmir edilmiş, Nabran, Qalağan kəndlərində, Müqtədir qəsəbəsində hər biri 10 otaqdan ibarət həkim ambulatoriyaları tikilib istifadəyə verilmişdir. 11 feldşer-mama məntəqəsi yeni tikilmiş, daha 3 məntəqə üçün isə binalar tikilir.

Rayonda dövlət tibb müəssisələri ilə yanaşı özəl tibb müəssisələri də yaradılmaqdadır. Açılışı ölkə Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən beynəlxalq standartlara cavab verən "N-KAY-N klinik" MMC-nin yeni üç mərtəbəli korpusu tikilmiş, şəhərin mərkəzində 9

min kvadrat metr sahədə yeni sağlamlıq, istirahət və ticarət mərkəzinin tikintisi sürətlə davam edir.

Yaşayış məntəqələrinin içməli su təchizatının yaxşılaşdırılması, çirkab suların və tullantıların zərərsizləşdirilməsi istiqamətində aparılan məqsədyönlü tədbirlər ətraf mühitin sağlamlaşdırılmasına müsbət təsir göstərir. Əhalinin sağlamlığının qorunması istiqamətində Rayon Gigiyena və Epidemiologiya Mərkəzi kompleks tədbirlər həyata keçirir.

Dünya Səhiyyə Təşkilatının Baş direktoru Marqaret Çan Bakıda səfərdə olarkən Prezident İlham Əliyevlə görüşündə demişdir: "Səhiyyə sistemində başladığınız islahatlar, bu sahədə irəli sürdüyünüz təşəbbüslər, Neft Fondunun vəsaitlərindən səhiyyənin məqsədləri üçün istifadə olunması, icbari tibbi sığorta sisteminin tətbiqi ilə bağlı planlarınız çox təqdirəlayiqdir. Sizin Azərbaycan xalqının rifahına yönəlmiş xidmətləriniz, habelə xanım Mehriban Əliyevanın bu sahədəki fəaliyyəti onu deməyə əsas verir ki, Azərbaycan xalqının gələcəyi etibarlı əllərdədir". [1]

Xaçmazın səhiyyə işçiləri əhalinin sağlamlığının qorunması üçün səylə çalışırlar. Ölkə rəhbərliyi tərəfindən onların əməyi yüksək qiymətləndirilir. Xaçmaz Rayon Mərkəzi Xəstəxanasının baş həkimi, bacarıqlı səhiyyə işçisi Bəhram Şahverdiyev əməkdar həkim adına layiq görülmüşdür. Rayonda əhali səhiyyənin inkişafından razıdır və əmindirlər ki, onların sağlamlığı, həyatları etibarlı əllərdədir.

**Xaçmaz rabitəsinin inkişafı.** Ümummilli lider Heydər Əliyevin müstəqilliyimizin, dövlətçiliyimizin möhkəmləndirilməsi yolunda yeritdiyi siyasətin əsas istiqamətlərindən biri də ölkəmizdə rabitənin dinamik yüksəlişi, onun əhalinin artan tələbatına cavab verən səviyyədə qurulması olmuşdur. "Müstəqil respublikanın müstəqil rabitəsi olmalıdır" deyən Ulu öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə rabitəmiz əsl inkişaf yolu keçmişdir. İndiki mərhələdə də möhtərəm Prezidentimiz İlham Əliyevin qayğısı, uzaqgörən siyasəti nəticəsində rabitə sisteminin inkişafına dair mühüm qərarlar qəbul edilmiş və bu sahədə ciddi dönüş əmələ gəlmişdir. Həmin dönüş, irəliləyiş özünü Xaçmaz rabitəsinin inkişafında da göstərmişdir. Bu gün tərəqqi və yüksəlişin operativ mənbəyi olan rabitə texnologiyalarının sürətlə inkişaf etdirilməsi sahəsində mühüm nailiyyətlər qazanılmış, keçmiş sovetlər dönəmindən qalmış primitiv rabitə vasitələri və üsullarından qurtularaq yeniləşmiş və beynəlxalq standartlara cavab verən modern texnologiyalara sahib olunmuşdur.

Xaçmaz Rayon Avtomat Telefon Stansiyası (ATS) müasir standartlara cavab verən yeni elektron stansiya ilə əvəz olunmuş, ATS-in abunə tutumu 1500 nömrə artırılmışdır. Bununla da Xaçmaz şəhər əhalisinin telefon rabitəsinə olan tələbatı tam ödənilmişdir. 2008-ci ildə Xaçmaz şəhərində tutumu 1000 nömrə olan simsiz SDMA elektron ATS-i quraşdırılaraq istifadəyə verilmişdir. Bunun nətiçəsində rayonun ən ucqar kəndlərinin və yaşayış məntəqələrinin telefon rabitəsi, internet xidməti ilə təmin olunmaq imkanı əldə edilmişdir.

Xaçmazın Armudpadar və Ləcət kəndlərinin hər biri tutumu 256 nömrə olan Avropa standatlarına cavab verən Elektron ATS-lərlə (EATS) təmin olunmuşdur. Eyni zamanda Qalağan, Hacılar, İlxıçı, Xanlıqoba, Keyməræz,

[1] "Xaçmaz" qəzeti. 9 may 2008-ci il

Mollaburhanlı, Pərdiqıran, Moruqoba, Tağaroba, Əhmədoba, Hacıməmmədoba, Səlimoba, Ukuroba, Maqsudkənd, Hacıabdurrəhimoba, Düztahir, Fərzəlioba, Nağıoba və s. kəndlərinin hər birində peyk rabitəsi vasitəsilə 4 ədəd telefon çəkilib istifadəyə verilmişdir.

Xaçmazda yeni rabitə və informasiya texnologiyalarının ənənə şəklini almış internet istifadəçilərinin sayı bir il ərzində 3 dəfədən çox artaraq 4000 nəfərə çatmışdır. Qovşaqda 2 ədəd yüksək surətli ADSL internet avadanlıqları quraşdırılmış, 30 internet klub açılaraq əlavə 60 yeni iş yeri yaradılmışdır.

Rayon ərazisində turizmin inkişafı ilə əlaqədar rabitə sahəsində əlavə xidmətlərin həm səviyyəsi, həm də həcmi xeyli artırılmış, 20 min manatlıq rabitə xidmətləri göstərilmişdir. Aparılan ardıcıl tədbirlərin nəticəsində qovsağın abunəçilərinin sayı son 3 ildə iki dəfə artaraq 7200-dən 12848-ə çatmışdır. Bütün kənd ATS-ləri dizel generatorları və yanacaqla təmin olunmuşdur.

2008-ci ilin birinci rübündə Mollaburhanlı kəndində peyk rabitəsi vasitəsilə 32 nömrəlik mini ATS quraşdırılıb istifadəyə verilmiş, kənd telefon şəbəkəsinin tikintisi başa çatdırılmışdır. Xudat və Nabranda hər biri 1000 nömrəlik CDMA tipli simsiz telefon stansiyası tikilib istifadəyə verilmişdir. 260 abonent yeni telefonla təmin olunmuş, 27 km-lik rabitə xətləri cari təmir olunaraq 2 km uzunluğunda yeni rabitə xətti çəkilmişdir.

Xudat şəhərində əlavə 2 ədəd bankomat, Niyazabad kəndində 128 nömrə tutumlu EATS quraşdırılaraq istifadəyə verilmişdir. Kənd Xudat yaşayış məntəqəsində ATS binası təmir olunmuş, Seyidli kəndində 128 nömrəlik yeni elektron ATS-in quraşdırılması yaxın vaxtda həyata



keçiriləcəkdir. Həmin avadanlıq Türkiyənin Karel şirkətindən alınacaqdır.

Qovşaqda lokal rabitənin inkişafı ilə əlaqədar şəhərlərarası və beynəlxalq rabitənin inkişafına da böyük diqqət yetirilir. Rayonun bütün kənd ATS-ləri birbaşa avtomatik şəhərlərarası və beynəlxalq rabitəyə qoşulmuş və bu məqsədlə şəhərlərarası kanalların sayı 180-dan 2000-ə çatdırılmışdır.

Rayon əhalisinə poçt xidmətləri göstərən Xaçmaz Poçtamtı da son illər xeyli uğurlara nail olmuşdur. Poçtamtın 27 şöbəsində müraciət edənlərə 24 adda xidmət göstərilir. Buraya kommunal xidmətlərin haqqının ödənişi, məktub, teleqram, bağlamaların göndərilməsi, təqaüdçülərin təqaüdlərinin evlərə çatdırılması və s. daxildir. Poçtamt 2008-ci ilin planını 113% yerinə yetirmişdir. Xaçmazın ayrı-ayrı kəndlərində xidmətin keyfiyyətini yüksəltmək, operativliyi təmin etmək məqsədilə yeni poçt binaları inşa edilir.

Xaçmaz rabitəçiləri əhaliyə göstərilən xidmətin keyfiyyətini yüksəltmək üçün səylə çalışırlar.

**Xaçmaz gözəlliklər diyarıdır.** Sıx meşələr, yamyaşıl çəmənliklər, bol sulu çaylar, sərin bulaqlar, təmiz hava, günəşli günlərin çoxluğu, zəngin flora və fauna, 9 iqlim qurşağına malik gözəl təbiət, habelə yüzlərlə məbəd, qala, tarixi abidələr və s. daim xarici turistləri Azərbaycana cəlb etmişdir.

Doğma Azərbaycanın fauna və florasına görə seçilən, turizm baxımından potensialı geniş olan bölgələrindən biri də Xaçmazdır. Dənizi, dağı, çayları, sərin bulaqları, səfalı meşələri, münbit torpağı və bunların hamısından qiymətlisi səmimi, qonaqpərvər insanları olan Xaçmazı mübaliğəsiz dünya standartlarına cavab verən turizm bölgəsi adlandırmaq olar. Son 7-8 ildə özəl şirkətlərin səyləri sa-

yəsində Xaçmazda əsl turizm bumu müşahidə olunur. Rayonda mehmanxanalar, pansionatlar, motellər tikilir, təkcə Azərbaycan vətəndaşları üçün deyil, həm də MDB, Avropa, Amerika və Asiya ölkələrindən gələn qonaqlar üçün nəzərdə tutulmuş müvafiq infrastruktur yaradılır.

2005-ci ilin iyul ayının 26-da Azərbaycan Prezidenti İlham Əliyev Xaçmazda olarkən Regional Turizm İnformasiya Mərkəzinin açılış mərasimində iştirak etmişdir. Mərkəzin əsas məqsədi regionda daxili turizmi inkişaf etdirmək, yerli və xarici turistləri bölgəyə cəlb etməkdir. Onun fəaliyyəti nəticəsində ölkəmizin bu regionunun turizm potensialı haqqında bütün məlumatları dünyanın hər yerinə çatdırmaq mümkün olacaqdır. Son illərdə 30-a qədər belə mərkəz yaradılmışdır. İndi Xaçmaz rayonunda yataq yerləri təmin olunmaqla eyni vaxtda 6 mindən artıq turisti qəbul etmək imkanı vardır.

Mərkəzdə yaradılmış xüsusi sayt vasitəsilə dünyanın hər bir yerindən insanlar Xaçmazın istənilən istirahət mərkəzində özlərinə əvvəlcədən yer sifariş verə və kirayə edə bilərlər.

Hazırda rayonda çoxlu sayda kiçik ailə pansionatları və 10-dan artıq iri turizm obyekti fəaliyyət göstərir. Rayon mərkəzində yerləşən "Elit" mehmanxanası, "Palma", "Atlant", "Malibu", "Green Vill", "Çoban bulağı", "Şahdağ", "Dostluq", "Xəzər", "Nabran" və s. sayı 100-ə yaxın müasir istirahət zonaları onların yalnız bir qismidir. Yaxın vaxtlarda çoxsaylı turistlər üçün nəzərdə tutulan ən müasir mehmanxana kompleksinin tikintisi nəzərdə tutulur.

Fəaliyyətimlə əlaqədar dünyanın bir çox ölkələrində olmuşam, ən müasir inkişaf etmiş istirahət zonalarını gəzmişəm. Lakin səmimi deyərdim ki, Xəzərin Yalama, Nab-



ran sahilləri kimi yerləri az görmüşəm.Xacmazın yüksək səviyyəli turizm mərkəzi olması bu reallıqlardan doğur.

"Yer xəzinə, su qızıldır" demişlər müdrik atalarımız. Xacmaz şirin sular diyarıdır. Su həyatdır, Su dirilikdir, Bütün varlıqların ilk yaradıcısı sudur. Alimlərin söylədiklərinə görə Yalamadan Niyazabadadək olan ərazidə yerin dərinliyində sirin bol sulu göl vardır. Həmin gölün suyu bitib tükənmir. Bütün çaylar, bulaqlar mənbələrini uca Qafqaz dağlarının qarlı, buzlu zirvələrindən aldıqları üçün suları daimidir.

Rayonun Xudat ərazisindəki su mənbələrinin suyu xüsusi tərkibilə seçilir. Təmizliyi yüksək olduğu üçün bir çox adlı-sanlı firmalar Xudat meşələrindən çıxan ekoloji təmiz sudan istifadə edirlər. Eyni zamanda həmin suyu qablaşdıraraq satışını təşkil edirlər. Təsadüfi deyildir ki, ötən əsrin əvvəllərində Bakı şəhərinin suya olan tələbatını ödəmək məqsədilə dahi mesenat Hacı Zeynalabdin Tağıyev Xudatın Şollar qəsəbəsindən Bakıya şirin su xəttinin çəkilişinə nail olmuşdur.

Eyni zamanda tərkibinə görə seçilən bol sulu Samur çayının suyu da Samur-Abşeron kanalının köməyi ilə Bakıya çatdırılır.Bu kanal Dağıstan sərhədindən başlayaraq Ceyranbatan su anbarınadək uzanır. Uzunluğu 182 kilometrdir.Samur-Dəvəçi adlanan birinci hissə 109 kilometr olmaqla 1939-1941-ci illərdə əl ilə qazılmışdır,73 kilometr uzunluğunda ikinci hissə isə 1951-1955-ci illərdə çəkilmişdir. Sukeçirmə qabiliyyəti hər saniyədə 85 kubmetrdir.[1]

Xudatın fəxri olan özəl "Şollar" firması Xudat suyundan istifadə edərək nəinki Azərbaycanda, hətta xaricdə

[1] Həsənov X.N. Təbiət haqqında düşüncələr. Bakı. "Azərnəşr". 1992, səh. 35

məşhur olan "Xudat suyu", "Xudat duşesi", "Şollar suyu" adlı çox keyfiyyətli sərinləşdirici içkilər istehsal edir. Firmanın təsisçisi Adil Cəbrayılov Xaçmazın bacarıqlı sahibkarlarındandır.

Xaçmaz rayonunun ən iri çayları Samur, Qusarçay, Vəlvələçay, Qudyalçaydır. Bu çaylar rayonun təbiətində, iqtisadiyyatında mühüm rol oynayırlar. Rayon ərazisində çoxlu sayda sərin bulaqlar, göllər, mineral su mənbələri vardır. Möcüzədir ki, dəniz sahilinin bir neçə metrliyində şirin sulu bulaqlar vardır.

Ərazinin unikallığı ondadır ki, Xaçmaz və Xudat şəhərləri ərazisində, Qusarçay, Müqtədir yaşayış məntəqələrində və başqa yerlərdə minerallarla zəngin olan termal sular çıxır. Həmin mənbələrin yaxınlığında istirahət ocaqları yaradılmaqdadır.

Xəzər dənizi zonanın təbii zənginliyində əhəmiyyətli yer tutur. Xəzər qumlu sahilli, canlı aləmlə zəngin olan dənizdir. Onun canlı aləmi balıqlardan, su quşlarından, suitidən, onurğasız heyvanlardan, su bitkilərindən ibarətdir. Xəzər dənizinin faunası 1332 növdən ibarətdir.[1]

Balıqların 111 növü Xəzər dənizində yaşayır. Burada kilkə və siyənək kimi balıqlar həmişə dənizdə, nərə, uzunburun, kələmo, şamayı, çəki, külmə, xəşəm, naxa, ilanbalığı, çapaq, xəzər qızılbalığı, ağ qızılbalıq, kütüm və s. balıqlar isə həm dənizdə, həm də çaylarda yaşayırlar. Xəzərdəki balıqların əksəriyyəti Azərbaycana aid olan sularda, çaylarda məskunlaşmışdır.[2]

---

[1] Qasımov Ə. Xəzərin canlı aləmi və onun qorunması. Bakı. "Azərnəşr". 1979, səh.13

[2] Yenə orada. səh. 43



Suiti Xəzərdə yaşayan yeganə məməli heyvandır. Sayı getdikcə azalmaqdadır. Xəzərdə su bitkiləri də yaxşı inkişaf edir. Burada flora 574 növ və yarımnövdən ibarətdir. Ali bitkilərdən dənizotu, suçiçəyi, rupiyya geniş yayılmışdır.

Xəzər dənizi mühüm su yolları qovşağıdır. Burada Həştərxan, Bakı, Mahaçqala, Türkmənbaşı, Aktau, Ənzəli və sair limanlar yerləşir. 5 Xəzəryanı dövlətin liman şəhərləri vasitəsilə həm yükləri daşımaq olar, həm də bundan turistlər istifadə edər.

Nəzərə alsaq ki, Xəzər dənizi Volqa çayı və Rostov-Don kanalı vasitəsilə Baltik, Azov, Qara və Aralıq dənizlərinə çıxış əldə edir, onun dünya əhəmiyyətli gəmi nəqliyyatına malik olmasının sübuta ehtiyacı yoxdur. Hal-hazırda Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin gəmiləri dünyanın bütün limanlarına daxil olurlar. Bu əlverişli şərait bölgədə turizmin intensiv inkişafı üçün böyük imkanlar yaradır.

Azərbaycan təbiətinin ən qiymətli neməti torpaqdır - ana torpaq. Xalq şairi S. Vurğunun dediyi kimi, "Qara torpaq bir anadır, insanlara, bir ana". Bu sözlərdə nə qədər dərin məna, hikmət vardır. Rəngarəng ətirli çiçəklər, dadlı meyvə bağları, durnagözlü bulaqlar torpağın məhsuludur, torpaq onların anasıdır. Haqlı olaraq söylənilir ki, torpaq təbiətin güzgüsüdür. Torpaq bəşəriyyətin varlığında həlledici rol oynayan başlıca sərvətdir.

Xaçmaz rayonunun yerləşdiyi Quba-Xaçmaz düzənliyində subasar çəmən-meşə(tuqay), allüvial-çəmən, bataqlıq, şoran, şorakət torpaqlar, qumluqlar yayılmışdır.

Xaçmaz torpağının münbitliyinin sübutudur ki, doğma Şuşamızın zəngin, münbit torpaqlarında bitən "Xarı bülbül" ta qədimdən Xudat-Nabran meşələrini bəzəməkdədir.

Meşələr təbiətin ən gözəl, rəngarəng, cazibədar libasıdır. Bu libasın insanlara bəxş etdiyi nemətlərdən biri də estetik əhəmiyyəti, zövq, həzz, gözəllik mənbəyi olmasıdır. Təbiəti duyan, dərk edən insan həmişə meşəni zövq, həzz mənbəyi sanmışdır. Xaçmazın meşələri, məhz belə bir mənbə olduğu üçün daim sevilir, insanlar ora can atır, təbiətdən zövq almaq üçün meşələri özlərinə məskən seçirlər.

Yay günlərinin bol günəşli olması Tanrının bizə bəxş etdiyi ən gözəl nemətlərdəndir. Min hektar yer səthi ən güclü müasir elektrik stansiyasının bir gündə istehsal etdiyi enerjidən çox günəş enerjisi alır. Bu qədər enerjinin az bir hissəsi fotosintez prosesinə sərf olunur. Xəzərin Yalama-Nabran sahilləri, bütövlükdə Xaçmaz rayonu günəşli günlərin sayı və insanın sağlamlığında mühüm rol oynayan infraqırmızı şüaların bolluğu ilə seçilir.

Xaçmaz rayonunun özünəməxsus xüsusiyyətlərindən biri də orada daim küləkli hava şəraitinin olmasıdır. Bir tərəfdə Qafqaz dağları, digər tərəfdə Xəzər dənizi ərazidə daim axşam və gündüz saatlarında briz küləklərinin əmələ gəlməsinə səbəb olur. Deməli, burada yaşayanlar həm dağ, həm də dəniz havası ilə tənəffüs edirlər.

Xəzər dənizinin sahilində yerləşməsi Xaçmazda havanın il boyu isti və mülayim keçməsinə səbəb olur ki, bu da turistləri bölgəyə təkcə yayda deyil, il boyu cəlb edən amillərdəndir.

Maraqlıdır ki, yerli əhali erkən yaz günlərində Xaçmazın isti havasından uzaqlaşmaq və ya müvəqqəti də olsa, artıq keçmiş olan qarlı qışa "qayıtmaq" istədikdə 20-30 kilometr məsafə qət edərək dağlar qoynunda yerləşən qarlı Qubaya, Qusara üz tuturlar.



Turizm Xaçmaz rayonunun ikinci mühüm inkişaf istiqamətidir. "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulan, dövlət səviyyəsində həyata keçirilən bu istiqamət uğurla inkişaf etdirilir. Bu sahədə ən önəmli rol oynayan avtomobil yolları yenidən qurulur, infrastruktur yaradılır.

Son illərdə rayonda çoxlu sayda böyük və kiçik istirahət zonaları istifadəyə verilib. Hazırda yeni iri rekreasiya obyektləri tikilir.

Təbii ki, turuzmin dünya standartları səviyyəsində təşkilində kadrların mövcudluğu əsas şərtlərdəndir. Bu məqsədlə yeni yaradılmış Azərbaycan Turizm İnstitutu çox önəmli bir funksiyanı yerinə yetirir. İnstitutda turizm sahəsində çalışacaq milli kadrları hazırlamaq üçün bütün imkanlar yaradılmışdır. Tələbələrin təcrübə mübadiləsi məqsədilə xarici ölkələrə göndərilməsi həyata keçırilir, xarici mütəxəssislər Azərbaycana dəvət olunurlar.

Turizmin inkişaf etdiyi ölkələrin təcrübəsi, xüsusilə ərazi və əhalisi Azərbaycanla təxminən eyni olan və turizmin inkişafına görə dünyada ikinci yerdə duran Avstriyanın bu sahədəki uğurları öyrənilir.

Tez-tez Azərbaycana gələn mütəxəssislərin fikirlərinə görə bölgələrdəki restoranlar, bədii sənətkarlıq nümunələri, təhlükəsizlik, mədəniyyət, qədim ənənələr, gözəl landşaft və ovçuluq, meyvə bağlarında salınmış kəndlər turizmin inkişafında xüsusi rol oynaya bilər.

Bölgələrdə, ümumilikdə Azərbaycanda turizmin inkişafını həyata keçirən Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi turistlərə xidmətin yüksəldilməsi məqsədilə bütün mehmanxanaları, şəxsi evləri lisenziyalaşdırmaq fikrindədir. Bu turistlərə daha keyfiyyətli xidmət göstərilməsinə, əhalinin də turizmin inkişafına töh-

fə verməlarinə, maddi rifah hallarının yüksəldilməsinə səbəb olacaq.[1]

Çox sevindirici haldır ki, Ümummilli lider Heydər Əliyevin 85 illik yubileyi münasibətilə keçirilən tədbirlər çərçivəsində Nabran qəsəbəsində - Xəzər sahilində dünya standartlarına cavab verən ilk beşulduzlu istirahət mərkəzi açılmışdır. "Oriental Hotel" beynəlxalq hotellər şəbəkəsinə daxil olan "Caspian Sea Resort" istirahət mərkəzində tikilən altı korpusun hər birinə Azərbaycandakı şəhərlərdən birinin adı verilmişdir. Kompleks ümumilikdə gündə 116 qonaq qəbul edə bilər. 24 otel otağı, habelə 2 prezident – lyuks nömrəsi beşulduzlu otel standartlarına uyğun avadanlıqlarla təchiz edilmişdir. Mehmanxanada hovuzu olan sağlamlıq mərkəzi, bir neçə bar, restoran, konfrans zalı var. Gün ərzində 60 nəfərlik heyət dincələnlərə yüksək səviyyəli xidmət göstərəcək.

Kompleksin rəhbərliyi dəniz gəzintiləri üçün qayıqlar almaq, tennis kortu və digər obyektlər tikmək niyyətindədir.

Bölgələrdəki quruculuq işlərinin vüsəti, ümumilikdə bütün respublikada həyata keçirilən tədbirlər yaxın zamanlarda Azərbaycanın da dünyanın ən inkişaf edən ölkələrdən birinə çevriləcəyinə, turizmin inkişafı baxımından qabaqcıl yerlərdən birini tutacağına əminlik yaradır.

**Xaçmaz dostluq diyarıdır.** "Xaçmazın da öyünməyə, qürrələnməyə haqqı var: gözünü bu torpaqda açan 22 millətin və xalqın övladı iftixarla, məhəbbətlə Xaçmaza "Ana yurd" deyir."[2]

[1] Bax: "Palitra" qəzeti. 7 may 2008-ci il. səh.10
[2] " Xaçmaz-75 " jurnalı. səh. 1



Azərbaycanda müxtəlif xalqların, millətlərin nümayəndələri yaşayırlar. Bu da Azərbaycanın milli sərvətidir. Ulu öndərimiz Heydər Əliyevin təbirincə desək: "Biz Azərbaycan deyəndə onun sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bütün bunlarla yanaşı, respublikanın ən başlıca sərvətlərindən biri, bəlkə də başlıca sərvəti qədimlərdən bu torpaqlarda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olar."[1]

Bəli,respublikamızın çoxmillətli bir diyar olması onun zənginliyi deməkdir. Xalqımız mənən zəngin xalqdır.

"Azərbaycan Respublikası dilindən, dinindən, etnik və sosial mənşəyindən asılı olmayaraq, Azərbaycan dövlətinə və onun qanunlarına tabe olan, ölkəmizdə və onun hüdudlarından kənarda yaşayan bütün Azərbaycan vətəndaşlarını Azərbaycan xalqı, Azərbaycanı isə onların ümumi, bölünməz vətəni, doğma yurdu hesab edir. Müstəqil respublikamız Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin, adət-ənənələrinin, milli-əxlaqi mentalitetinin, dilinin, dininin qorunmasını, hamı üçün ümumi vətən hesab olunan və xalqımızın dövlətçilik hisslərini, dövlət rəmzlərini yaşadan vahid Azərbaycan dövləti ilə bağlayır. Azərbaycan dövləti xalqımızın, milli varlığımızın, birliyimizin, dinc və firavan həyatımızın təmin edilməsinin, hər kəsin hüquq və azadlıqlarının qorunmasının yeganə, etibarlı vasitəsidi."[2]

[1] "Bakı" qəzeti. 7 oktyabr 1993-cü il
[2] Xudiyev N.M. YAP- dünənin, bu günün, sabahın partiyasıdır. Bakı. "Nurlar", 2007, səh.100

Azərbaycanın bir ölkə kimi unikallığı ondadır ki, dini, adət-ənənəsi, vərdişləri başqa-başqa olan millətlərin, etnik qrupların, azsaylı xalqların nümayəndələri burada çox mehriban yaşayır, vətənimizin inkişafı üçün lazım olan işləri layiqincə görürlər. Bu gün azərbaycanlılar burada yaşayan azsaylı ləzgilərin, talışların, tatların, kürdlərin, avarların, udin və ingiloyların, rus və yahudilərin, Axıska türklərinin, Şahdağ etnik qrupu xalqlarının, bir sözlə, bu ərazidə məskunlaşan bütün xalqların və millətlərin hamısının dilinin, dininin, etnik psixologiyasının, maddi və mənəvi mədəniyyətlərinin, adət-ənənələrinin qorunub saxlanmasında öz köməklərini əsirgəmirlər.

Deməli, həmişə olduğu kimi bu gün də Azərbaycanda sayına görə azlıq təşkil edən etnoslar çoxluq təşkil edən azərbaycanlılar tərəfindən himayə edilir, bu isə əslində xalqın böyüklüyünü göstərir.

"Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətlərinin inkişafı üçün dövlət yardımı haqqında 1992-ci il 16 sentyabr tarixli Prezident fərmanı da bu sahədə atılan mühüm addımlardan biridir".[1]

Fərmanda azsaylı xalqların dillərində tədris vəsaitlərinin, bədii ədəbiyyatın nəşr olunması, radio və televiziyada xüsusi proqramların hazırlanması nəzərdə tutulmuşdur. Zaman göstərdi ki, həyata keçirilməsi planlaşdırılan bütün tədbirlər müvəffəqiyyətlə yerinə yetirilir. Təsadüfi deyil ki, qaçqınlıq həyatına düçar olan bir çox xalqların nümayəndələri Azərbaycana pənah gətirmişlər. 1959-cu ildə Stalin repressiyasından əzab çəkən və 1988-

[1] "Xalq qəzeti". 20 sentyabr 1992-ci il



ci ildə yenidən qaçqınlıq həyatını bir daha dadan mesxeti türkləri Azərbaycanı öz doğma vətənləri sanmışlar. Çeçen müharibəsi zamanı əzab çəkən müxtəlif xalqların nümayəndələri də Azərbaycanı özlərinə ikinci vətən seçdilər.

Bugünkü müstəqil Azərbaycan Respublikasında bütün xalqlar dininə, mənşəyinə, dilinə görə deyil, bir torpağın, bir ölkənin vətəndaşları, övladları olmaları prinsiplərinə görə qiymətləndirilir. Ulu öndərimiz Heydər Əliyev azsaylı xalqların nümayəndələri ilə görüşlərində dəfələrlə dönə-dönə xatırlamışdır ki, "Mən sizlərlə görüşlərimi milli azlıqların nümayəndələri ilə görüş adlandırmaq istəməzdim. Bu, Azərbaycanın, Azərbaycan xalqının nümayəndələri ilə görüşdür".[1]

Xaçmazın ərazisi Böyük İpək yolunun üzərində yerləşdiyinə, Azərbaycanın "Şimal qapısı" kimi tanındığına görə daim şimaldan və cənubdan olan hücumlara məruz qalmışdır. Bu isə əhalinin etnik tərkibinin və dini mənsubiyyətinin müxtəlifliyinə səbəb olmuşdur.

"Müxtəlif dövrlərdə türkdilli, farsdilli, İber-Qafqaz dil qrupuna məxsus xalqların Azərbaycana gəlməsi, həmçinin slavyan, ərəb, səlcuq, monqolların hücumları bölgənin siyasi, iqtisadi, mədəni həyatına böyük təsir etmişdir".[2]

Təbii ki, müharibələr zamanı qalib tərəf hakimiyyətini möhkəmlətmək məqsədilə ərazilərindən müxtəlif xalqları Azərbaycanda yerləşdirmiş və digər tərəfdən ərazinin strateji mövqeyi, barlı-bərəkətli olması ayrı-ayrı xalqların ərazilərə gəlişinə, məskunlaşmasına səbəb olmuşdur.

Sara Aşurbəyli "Şirvanşahlar dövləti" adlı tədqiqat əsərində Şirvanda kürd məskənlərinin olduğunu,

[1] "Bakı" qəzeti. 7 oktyabr 1993-cü il.
[2] Fatma Abbasova . "Sabran". Bakı. "Elm". 2002, səh.155

müxtəlif mənbələrin toponimikasının öyrənilməsi isə köçəri türklərin hələ erkən orta əsrlərdə bu ərazilərə gəldiklərini göstərir.[1]

"Mənbələrdən məlum olur ki, Şirvanda Qafqaz, İran və türk mənşəli qədim əhali ilə yanaşı, VI-IX əsrlərdə və sonralar ərəblər də yaşamışlar.

Şirvanın toponimikasının təhlili bizi aşağıdakı nəticələrə gətirib çıxarır.

Qədim zamanlarda Şirvan ərazisində (Xaçmaz bölgəsi bu əraziyə daxildir - müəllif) buranın toponimikasında iz qoyan müxtəlif tayfalar məskən salmışlar.

Mənbələr və toponomik məlumatlar göstərir ki, Qafqaz, irandilli və türkdilli tayfalardan ibarət yerli əhali eramızın əvvəllərindən etibarən köçəri türklərlə intensiv surətdə qaynayıb-qarışmışdır. Türk tayfalarının burada dərin kök salması Azərbaycan xalqının etnogenezində mühüm komponentlərdən biri olmuşdur.

Azərbaycanda məskunlaşmış ərəb tayfaları yerli əhali ilə qaynayıb-qarışmış, dilləri aradan çıxmış, onun izləri yalnız toponomikada və məhəlli leksikada qalmışdır. Bu ərəb istilasınadək Azərbaycanda türk və iran ünsürlərinin davamlı və sabit olduğunu göstərir".[2]

Xaçmaz ərazisində 22-dən artıq millətin, etnik qrupun, azsaylı xalqların nümayəndələri yaşayırlar. Əhalinin əksəriyyətini təşkil edən azərbaycanlılarla yanaşı, türk, rus, ukraynalı, ləzgi, tat, kurd, yəhudi, tatar, talış, avar, udin, gürcü, qrız, lak, osetin, acar, malakan, türkmən, belarus, özbək, çeçen, fars, qazax, tabasaran, polyak, moldavan və digər millətlərin nümayəndələri əsasən öz dillərini, adət-

[1] Sara Asurbəyli. Şirvanşahlar dövləti. Bakı. "Azərnəşr". 1997, səh. 25
[2] Yenə orada, səh.29



ənənələrini, mədəniyyətlərini qoruyub saxlamaqla yanaşı, əhatəsində yaşadıqları digər xalqların da adət-ənənələrinə hörmətlə yanaşmış, qaynayıb-qarışmış, qız alıb, oğul evləndirmiş, mehriban ailə kimi formalaşmışlar.

Maraqlı tədqiqat əsəri olan Qəmərşah Cavadovun "Azərbaycanın azsaylı xalqları və milli azlıqları" kitabında bölgədə ayrı-ayrı azsaylı xalqların, milli azlıqların məskunlaşmasından, mədəniyyətindən dili və dinindən geniş məlumat verilir.

Təbiidir ki, hansı xalqın, etnik qrupun, milli azlıqların aborigen və ya gəlmə olmasından, tarixin hansı məqamlarında haradan köçürülməsindən asılı olmayaraq, hansı dilə, dinə etiqad etməsinə fərq qoyulmadan, hansı adət-ənənələrə sadiq qalmasından asılı olmayaraq, hamı Tanrı dediyimiz, sitayiş etdiyimiz ulu, müqəddəs varlığın övladlarıdır. Hamı eyni torpaqda yaşayır, eyni havanı udur, uca dağlardan süzülüb gələn durna bulaqların suyunu içir. Odur ki, tarix boyu məskunlaşmış insanlar, səmimi, dostluq, mehriban qonşuluq şəraitində yaşayıb-yaradır, qaynayıb-qarışırlar.

Seçki kampaniyası zamanı Xaçmaz rayonunda gəzdiyim kəndlərin milli tərkibi ilə maraqlandıqca sevinməyə bilmirdim. Müxtəlif millətlərin nümayəndələri burada elə qaynayıb-qarışıblar ki, kimin hansı millətin nümayəndəsi olub-olmamasına fərq qoyulmur.

Gəzdiyim, tanış olduğum kəndlərdə gördüm ki, milli tərkibin müxtəlifliyi bölgənin xarakterik xüsusiyyətlərindəndir: Yeni Həyat qəsəbəsində əhali əsasən azərbaycanlılar, türklər, ləzgilər və digər millətlər, Maqsudkənddə azərbaycanlılar, ləzgilər və digər millətlər, Şollar kəndində azərbaycanlılar, ləzgilər, digər qarışıq millətlər, Şıxlar kəndində azərbaycanlılar, tatlar, ləzgilər, Tikanoba

kəndində azərbaycanlılar, qrızlılar, tatlar, Pərdiqıran kəndində azərbaycanlılar, ləzgilər, Şərifoba kəndində qrız və tatlar, Vələmir kəndində azərbaycanlılar və ləzgilər, Sabiroba kəndində azərbaycanlılar, tatlar və ləzgilər, Niyazabadda azərbaycanlılar, tatlar, ləzgilər, qrızlılar, Alekseyevkada azərbaycanlılar, ləzgilər və ruslar, Qadaşoba kəndində azərbaycanlılar və ləzgilər, Çiləgirdə azərbaycanlılar, ləzgilər və tatlar, Sibirobada azərbaycanlılar, qrızlar və tatlardan ibarətdir. Bütün kəndlərin əhalisi vahid Azərbaycanın vətəndaşı olmaqla, doğma diyarı Azərbaycan üçün əlindən gələni əsirgəmirlər.

Diqqəti cəlb edən bir maraqlı faktı da qeyd etmək istərdim ki, rayonlar arasında Xaçmaz şəhidlərinin sayına görə öncül yerlərdən birini tutur. Kəndlərdə şəhidlərin sayı onu göstərir ki, lazım gələrsə oğullar vətən uğrunda canından da keçməyə hazırdır. Müqtədir qəsəbəsi 6, Alekseyevka kəndi 3, Ləcət kəndi 5, Niyazabad inzibati ərazi vahidlyi 10, Maqsudkənd 2, Yalama 1, Çiləgir kəndi 1 və digər kəndlərin əhalisi də xeyli şəhid verərək xalqa, vətənə olan sədaqətlərini bir daha nümayiş etdirmişlər.

Qədim dostluğun, mehribanlığın nəticəsidir ki, hal-hazırda fəaliyyət göstərən "Xaçmaz" rayon qəzeti uzun illər "Dostluq" adını daşımışdır. Qəzetin 10 sentyabr 1981-ci il tarixli nömrəsində Asiya, Afrika və Latın Amerikasının 38 ölkəsindən gəlmiş qonaqların Xacmaza – dostluq diyarına gəlişindən söhbət açılır. Sülh, dostluq, həmrəylik görüşü iştirakçılarından efiopiyalı Hayle Selassiye İxdeqo deyir: *"Arzumuz sülh, dostluq, həmrəylikdir. Xaçmazda səmimi qarşılandığımıza görə təşəkkürümüzü bildiririk".*

Nikaraqualı Benita Povelanın fikirləri də maraqlıdır: *"Eşidəndə ki, biz kənd təsərrüfatı rayonuna gedəsiyik,*



*mən bu görüşə əvvəlcədən hazırlıq gördüm və həmin görüşdən şox şey gözləyirdim. Fikrimdə yanılmamışam. Rayonunuz haqqında söhbət mənə xoş təsir bağışladı".*

*"Mən ukraynalı olsam da, Azərbaycanı öz doğma vətənim hesab edirəm. Zirvədən-zirvəyə ucalan böyük yüksəliş yolları ilə inamla addımlayan, dostluğun qədrini bilən və onu əzizləyən gözəl xalqımızla fəxr edirəm"* - deyən Xaçmaz şəhərində müəllimə işləyən Svetlana Moxovanın fikirləri Xacmazın bir daha dostluq diyarı olmasına əyani misaldır.

Xaçmaz 3 saylı məktəbinin müəllimi Valentina Liskonovanın dediklərindən: *"Xaçmaz dostluq diyarıdır. Bu torpaq özünün bol nemətləri, əməksevər insanları ilə təkcə respublikamızda deyil, ölkəmizin hüdudlarından kənarda da yaxşı tanınmışdır".*

* * *

Dağıstan Respublikası Milli Siyasət, İnformasiya və Xarici Əlaqələr naziri Məhəmməd Saleh Qusayev "Xalqlar dostluğu" qazetinə verdiyi müsahibəsində demişdir:

*"... Mən bir neçə dəfə qardaş Azərbaycanda olmuşam, Bakıda nümayəndə heyətimiz hörmətli Prezident Heydər Əliyevlə görüşmüşdür. Bu xalq fəxr edə bilər ki, onun H. Əliyev kimi dahi oğlu var. Bu müdrik insan xalqlar dostluğunun böyük carçısıdır. Xalqlar dostluğu həyatımızın gözəl nemətidir. Biz daim bu neməti qoruyuruq. Uzun illərdir ki, Xaçmaz və Dərbənd rayonları arasında dostluq əlaqələri davam edir. Artıq bu dostluq gözəl bir ənənə şəklini almışdır. Dost məsləhəti, dost təklifi gözəl səmərə verir.*

*Azərbaycan və Dağıstan xalqlarının dostluğu və qardaşlığı əbədidir. Qoy nəsillərimiz bizim gözəl ənənələrimizlə fəxr etsinlər".*[1]

* * *

*"Dostluq həyatımızın ən gözəl mənəvi sərvətidir. Azərbaycan və Dağıstan xalqları arasındakı böyük tarixi dostluq getdikcə gözəl bəhrələr verir. Mən həmişə öz cıxışlarımda demişəm: qardaş Azərbaycan, gözəl Dağıstan ən böyük dostluğa bir nümunədir.*

*Azərbaycan və Dağıstan xalqları arasında dostluq telləri get-gedə daha da möhkəmlənir. Biz tez-tez görüşürük. Bizim nümayəndə heyəti vaxtaşırı olaraq dostluq etdiyimiz Xaçmaz rayonunun əməkçiləri ilə görüşür. Sizin də nümayəndə heyətiniz tez-tez bizim qonağımız olur. Dost məsləhəti, gözəl səmərəli təkliflər həmişə gözəl fayda verir."* Bu fikirlər Dağıstan Respublikası Dövlət Şurasının üzvü, xaçmazlıların böyük dostu Səid Camaloviç Qurbanova məxsusdur.

Azərbaycan-Dağıstan dostluğunun möhkəmliyinin, əbədiliyinin nəticəsidir ki, 1998-ci ilin prezident seçkilərində Ulu öndərimizin Xaçmaza səfəri zamanı dağıstanlı qonaqlarımız da Heydər Əliyevi dəstəkləmək üçün görüşə gəlmişdilər.

Artıq uzun illərin ənənəsidir ki, hər il may ayının 10-da Ulu öndərimiz H.Əliyevin ad günündə dağıstanlı qonaqlar Xaçmaz rayonuna dostluq görüşünə gəlirlər.

"Dərbənd" qəzetinin baş redaktoru, istedadlı şair Təhmiraz İmanov dostcasına ürək sözlərini belə ifadə edir:

[1] "Xalqlar dostluğu" qəzeti . 11 noyabr 2002-ci il



*"Xaçmaz şəhərində mayın 10-da,*
*Yenə də görüşdük qardaşlar kimi,*
*Uzun XX əsrin sonunda,*
*Əl-ələ vermişdik sirdaşlar kimi.*
*Qardaşlıq görüşü, dostluq görüsü,*
*Bir gün yox, il boyu uzanacaqdır.*
*Tarixin sinəsi, tarixin döşü,*
*Əbədi bir şöhrət qazanacaqdır."*[1]

Bu mehriban qonşuluq, dostluq münasibətlərindən söz açdıqca Dağıstan ziyalılarının, dövlət və siyasət xadimlərinin "Açıq məktub"unu xatırlayıram: *"Öz düşüncə və əməllərinə görə İlham Əliyev XXI əsrin adamıdır. Yəqin ki, nə Azərbaycanda, nə də Dağıstanda bu insanın şəxsiyyətini müəyyənləşdirən amilləri nəzərə almayan insana rast gəlmək olmaz. Təmiz gen, müasir savad, beş xarici dildə danışmaq bacarığı, demokratik təfəkkür, bazar iqtisadiyyatına dair dərin dünyagörüşü və nəhayət, yüksək işgüzarlıq. Azərbaycanın sosial və iqtisadi cəhətdən inkişafı uğrunda mübarizə üçün İlham Əliyev dünya səviyyəli iqtisadçı və siyasətçi kimi formalaşmışdır.*

*...İlham Əliyev Dağıstanı, Dağıstan xalqını dərin məhəbbətlə sevir. Elə bu məhəbbəti də onda son dərəcə yüksək intellektə sahib olan anası Zərifə xanım oyatmışdır. Böyük Vətən müharibəsinin ağır illərində bütün dağıstanlıların sevimlisi olan Zərifə xanımın atası Əziz Əliyev Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi isləyərkən Dağıstanda yaşayan xalqların deportasiyasının qarşısını almışdır.*

[1] "Xalqlar dostluğu" qəzeti. 05.01.2001-ci il

*Biz istəyirik sizin seçdiyiniz şəxs İlham Əliyev olsun. Siz Yeni Azərbaycan Partiyasına səs verməklə yeni nəsil azərbaycanlılarının gənc siyasətçisi İlham Heydər oğlu Əliyevə səs vermis olursunuz.*

*Hörmətlə :*

*Dağıstan həmvətənlərinin Ümumdünya Assosiasiyasının vitse-prezidenti, Xaricdə Yaşayan Həmvətənlərlə Əlaqə üzrə Dağıstan Assosiasiyasının prezidenti, Dağıstan Pedaqoji Universitetinin birinci prorektoru, Rusiya Sosial Elmlər Akademiyasının həqiqi üzvü Abdulla Maqamedov, Dağıstanın Teatr Xadimləri İttifaqının sədri, Rusiya Federasiyasının xalq artisti Ayqum Ayqumov, Vətən Assosiasiyasının İcra Komitəsinin üzvləri – Rusiya və Dağıstanın elm xadimi Əbdülhəmid Əliyev, iqtisad elmləri doktoru, professor, akademik Həmid Bucayev, filologiya elmləri doktoru, professor İsa Abdullayev, "Daqestanskoe zarubeje" qəzetinin redaktoru Natiq Cəfərov, professor Cəlal Məmmədzadə. Mahaçqala. 25oktyabr 2000-ci il".*[1]

Azərbaycan - Dağıstan dostluğunun təcəssümü kimi Xaçmaz şəhərinin mərkəzində "Xaçmaz-Dərbənd dostluğu" abidəsi ucaldılmışdır. Abidə önündə Azərbaycan xalqının böyük oğlu Əziz Əliyevin büstü qoyulmuş, onun həyat və fəaliyyətini əks etdirən muzey yaradılmışdır.

Əmək veteranı Güləhməd Xəlilov böyük fəxrlə deyir: *"Sevinirəm ki, mənə Əziz Əliyevlə görüşmək nəsib olmuşdur. Hələ Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi olarkən bizimlə görüşmüş və xeyli kömək etmişdir.*

[1] " İlham Əliyev böyük siyasətdə: reallıqlar və perspektivlər". Bakı. "Qanun". 1999, səh. 125-128.



*Əziz Əliyevin Xaçmaz şəhərinin mərkəzində "Xaçmaz-Dərbənd dostluğu" abidəsinin qarşısında büstü qoyulmuşdur, onun xatirəsinə muzey açılmışdır. Bu, Azərbaycan -Dağıstan dostluğuna layiqli bir töhfədir".* [1]

2006-cı ilin sentyabr ayının 16-ı Xaçmazda bayram idi. Bakıda keçirilən I Beynəlxalq Rus Kitabı Festivalı Xaçmazda da davam etdirildi. Festivalda 13 ölkədən ədiblər iştirak edirdi. Onlar Xaçmazla tanış olub, yaxın elin dostları kimi bərəkətli Xaçmaz torpağında inkişafdan, xalqlar dostluğuna verilən diqqətdən məmnun olduqlarını bildirdilər.

Ulu öndərimiz Heydər Əliyevin 85 illik yubileyi ilə əlaqədar Yalama kəndində Heydər Əliyevin park və muzeyinin açılışında dağıstanlı dostlar da iştirak etmişdir. Dağıstan Respublikasının yüksək vəzifəli şəxslərindən ibarət nümayəndə heyəti azərbaycanlı həmkarları ilə birlikdə Ulu öndərimizin əziz xatirəsini yad etmiş, çıxışlarında xalqlar dostluğunun tərənnümünü qiymətləndirmiş bu dostluğun möhkəmliyinə sadiq qalacaqlarına söz vermişlər.

Xaçmazda dostluq münasibətləri qədirbilən xaçmazlılar tərəfindən daim qorunur, inkişaf etdirilir. Düzdür, bədxahlar, məkrli hisslərin sahibləri zaman-zaman dostluğun pozulmasına cəhd göstərsələr də, artıq anlayırlar ki, bu dostluğu pozmaq qeyri-mümkündür. Xaçmaz dostluq diyarıdır, həmişə də öz qonaqpərvərliyini qoruyub saxlayacaq.

**Xaçmazda tarixi irsin qoruyucuları.** Ulu öndər Heydər Əliyevin uzaqgörənliklə qədim tarixə malik Azərbaycanın keçmişini və bu gününü yaşatmağın vacibliyi

[1] "Xaçmaz" qəzeti, 23 yanvar 2008-ci il

naminə muzeylərin yaradılması təsəbbüsü zaman-zaman özünü doğrultdu. Muzeylər adi mədəniyyət müəssisəsi deyil, xalqın, millətin, yurdun, torpağın tarixini yaşadan, onun "tərcümeyi-halı"nı əks etdirən mənəviyyat ocaqlarıdır. Heydər Əliyev deyirdi: "Müstəqilliyimizi möhkəmləndirmək üçün xalqımızın, millətimizin qədim tarixini, keçdiyi yolu elmi surətdə tədqiq edib, əsərlər, illüstrativ materiallar, kinolentlər yaratmaq, bunu həm öz xalqımıza, həm də bütün dünya xalqlarına göstərmək lazımdır".

Hələ XX əsrin 60-cı illərinin sonu 70-ci illərinin əvvəllərində Azərbaycanda nəhəng quruculuq işləri gedərkən siyasi və mədəni həyatda da böyük əhəmiyyəti olan bir sıra memarlıq abidələri tikilib istifadəyə verilmiş, görkəmli insanların əzəmətli heykəlləri ucaldılmış, tarixi şəxsiyyətlərin muzeyləri açılmışdır. Bütün rayonlarda H.Əliyevin göstərişi ilə tarix-diyarşünaslıq muzeyləri yaradılmışdır. İtib-batmaqda olan tarix və mədəniyyət abidələri, qiymətli eksponatlar bu muzeylərə toplanaraq dövlət mühafizəsinə götürülmüşdür.

Hər bir rayonun, bölgənin qədim tarixini, müasir dövrünü, bu gününü və gələcəyini əks etdirən mədəni-maarif müəssisəsi kimi muzeylərin rolu çox böyükdür. O cəhətdən muzeylərin əhəmiyyətini yüksək qiymətləndirən, xalqının, vətəninin keçmişinə, bu gününə hörmət bəsləyən xaçmazlılar rayonda muzey şəbəkəsi yaratmışlar desək yanılmarıq: Heydər Əliyev muzeyi və onun Xudat şəhərində, Yalama kəndində filialları, Tarix-diyarşünaslıq muzeyi, Xalça muzeyi, Şəxsiyyətlər muzeyi, Döyüş şöhrəti muzeyi, Əziz Əliyev muzeyi, Zərifə Əliyeva muzeyi, Nəriman Nərimanov muzeyi, Şəhidlər xiyabanı və s.



Xaçmazda Tarix-diyarşunaslıq muzeyi 1981-ci il sentyabrın 27-də Ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə açılmışdır. Açılış zamanı H. Əliyev minlərlə xaçmazlı qarşısında çıxış etmişdir. Həmin çıxışda Xaçmaz və xaçmazlıların ünvanına xoş sözlər söylənmişdir. Daha sonra H.Əliyev muzeyin eksponatları ilə taniş olmuş, görülmüş işlərə yüksək qiymət vermişdir.

Bu gün Xaçmaz Tarix-diyarşünaslıq muzeyi böyümüş, eksponatlarla zənginləşmişdir. Muzeyin artıq iki filialı fəaliyyət göstərir. Onlardan biri Alekseyevka kənd milli yaradıcılıq muzeyi, ikincisi isə Döyüş şöhrəti muzeyidir. Filiallarla birlikdə muzeyin 10.000-dən artıq eksponatı var. Muzeyin əsas binasının sahəsi 632 kvadrat metrdir. Həyətdə açıq səma altında da eksponatlar nümayiş etdirilir. Burada iri həcmli qəbir abidələri, sənduqələr, dəyirman daşları, arabalar, kənd təsərrüfatı alətləri və s. toplanmışdır. Muzeyin fondunda olan eksponatlar vaxtaşırı numayiş etdirilir.

Muzeydə 20 nəfər çalışır. Muzeyin yaradılmasında və inkişafında uzun müddət ona rəhbərlik etmiş İzzət İzzətovun əvəzsiz xidməti vardır.

Muzey daim dövlət qayğısında olmuşdur. Respublika mədəniyyət nazirinin 07.09.05-ci il tarixli 323 saylı "Xaçmaz tarix-diyarşünaslıq muzeyi haqqında" əmrinə əsasən muzey əsaslı təmir olunmuş, eksponatlarla zənginləşdirilmiş, müasir tələblərə cavab verən səviyyəyə çatdırılmışdır.

Xaçmazda əhali, xüsusilə də məktəblilər, gənclər arasında hərbi-vətənpərvərlik tərbiyəsinin aşılanmasında, onların yurda, vətənə sevgi ruhunda böyüdülməsində muzeyin rolu əvəzsizdir.

Ulu öndərimizin ideyalarının layiqli davamçısı, respublika Prezidenti İlham Əliyev muzeylərin həyatımızda oynadığı rolu yüksək qiymətləndirir, daim onların yaşamasına, inkişaf etməsinə qayğı ilə yanaşır. Rayonda fəaliyyət göstərən Heydər Əliyev muzeyi və Xudat şəhərindəki, Yalama kəndindəki filialı dahi rəhbərin ideyalarının yaşamasında, öyrənilib təbliğ edilməsində mühüm rol oynayır. Muzeylərdə dahi rəhbərə həsr olunmuş kitablar, mədəniyyətimizə, dilimizə və digər sahələrə göstərdiyi diqqət və qayğını əks etdirən materiallar vardır.

Xaçmaz şəhərində Heydər Əliyev parkında müasir tələblərə uyğun yaradılmış, 2005-ci ilin may ayının 10-da istifadəyə verilmiş Heydər Əliyev muzeyində və Xudat şəhərindəki filialında olarkən Prezident İlham Əliyev ekspozisiyaya baxmış, xatirə kitabına ürək sözlərini yazmışdır.

Muzeylər arasında unikallığı ilə seçilən, tariximizin, mədəniyyətimizin yaşamasında mühüm rol oynayan Xalça muzeyinin Xaçmazda yaradılması maddi-mənəvi irsimizə verilən xüsusi diqqətin nəticəsidir.

Azərbaycan Prezidenti İlham Əliyev Xaçmazda olarkən Xalça muzeyinin rəmzi açılış lentini kəsmişdir. 150 kvadrat metr sahəsi olan bu muzeydə müxtəlif çeşnili xalçalar nümayiş etdirilir. Bu muzeyin yaradılması xalçaçılığın təbliğinə, sənətin inkişafına mühüm təkan vermişdir.

Respublikada analoqu olmayan, açıq səma altında yaradılmış Şəxsiyyətlər muzeyinin Xaçmazda xüsusi yeri var. Burada salınmış parkda Azərbaycan ədəbiyyatı və incəsənətinin inkişafında böyük xidmətləri olan 22 görkəmli şəxsiyyətin büstləri, dahi Nizami Gəncəvinin



heykəli ucaldılmışdır. Parkda müasir fəvvarələr quraşdırılmış, oturacaqlar qoyulmuşdur. Prezident İlham Əliyev Xaçmazda olarkən bu muzeydə də olmuş, yeni muzeyin zövqlə layihələndirilməsini xüsusi vurğulamışdır.

Azərbaycan xalqının görkəmli şəxsiyyətlərindən olan Nəriman Nərimanovun həyatı, fəaliyyəti, ədəbi irsinin öyrənilməsi və təbliğində mühüm rol oynayan Nəriman Nərimanov muzeyi 1981-ci ildən Xudat şəhər 2 saylı orta məktəbində fəaliyyət göstərir. Muzeyin yaradıcısı, rəhbəri məktəbin müəllimi Nəzakət Kərimovadır. Muzey üç otaqda yerləşir. Orada eksponatlar xüsusi zövq və səliqə ilə yerləşdirilmişdir. Müxtəlif sənədlər, fotoşəkillər və nadir əşyalardan ibarət muzeyin cəlbediciliyi ondadır ki, burada gürcüstanlı qonaqların muzeyə bağışladığı mərmər lövhə, tanınmış tədqiqatçı alimlərin N.Nərimanova həsr etdikləri əsərlərin nüsxələri, doğulduğu evin, Metex qalasının, kino-teatr binasının maketləri, Böyük Vətən müharibəsində qəhrəmancasına həlak olmuş oğlu Nəcəf Nərimanovun xatirəsini əks etdirən əşyalar, sənədlər nümayiş etdirilir. Məktəbin həyətində N.Nərimanovun qranit büstü ucaldılıb.

Xaçmaz şəhərində "Xaçmaz-Dərbənd dostluğu" abidəsinin önündə xalqımızın böyük oğlu Əziz Əliyevin büstü qoyulmuşdur, onun həyat və fəaliyyəti ilə tanış olmaq məqsədilə burada muzey yaradılmışdır. Muzeyin açılışında Dərbənd rayon adminstrasiyasının rəhbəri Q.Qurbanov iştirak etmiş, eksponatlarla tanış olmuş, xatirə kitabına ürək sözlərini yazmışdır.

Görkəmli oftolmoloq alim, akademik, gözəl insan Zərifə xanım Əliyevanın adını daşıyan 8 saylı məktəbdə alimin həyat və yaradıcılığını əks etdirən muzey yara-

dılmışdır. Burada hər şey zövqlə tərtib edilmiş, Zərifə xanım Əliyevanın xidmətləri nümayiş etdirilmişdir.

Muzeylər xalqın yaddaşı, mənəviyyatımızın qoruyucularıdır. Onlara daim diqqət göstərmək, inkişaf etdirmək lazımdır. Bu baxımdan Xaçmaz rayonunda aparılan çoxsahəli işlər təqdirəlayiqdir.

**Kitabxana xalqın, millətin bilik mənbəyidir.** Ulu öndərimiz Heydər Əliyev kitabı insanın həyat və fəaliyyətinin əsas vasitəsi kimi qiymətləndirərək deyirdi: “Hər birimiz ancaq kitab vasitəsi ilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir.”[1]

Ta qədimdən ən zəngin kitabxanaya malik olan dövlət, hökmdar, şəhər varlı hesab edilərdi. Elm, zəka, tarix, düşüncə, mənəviyyat mənbəyi olan kitab çox güclü bir qüvvəyə malikdir. Hələ uşaq ikən bizə öyrədərdilər ki, ən yaxşı dost kitabdır. Kitab bilik mənbəyidir, onu sevin, qoruyun.

Hər bir yazılmış kitab xalqın, millətin tarixi,bilik mənliyidir Təsadüfi deyildir ki, tarix boyu milləti, xalqı məhv etmək üçün ilk öncə onun kitabxanalarını, yazılı mənbələrini məhv etmişlər.

Azərbaycan xalqı xoşbəxtdir ki, onun tarixinin ən qədim dövrlərini əks etdirən bir çox əlyazmalar, kitablar bu günə qədər qorunub saxlanmışdır. Düzdür acı həqiqətdir ki, bəzi çox qiymətli əsərlər, əlyazmalar, kitabların müəyyən hissəsi xarici fondlarda saxlanılır. Tarixin ayrı-ayrı mərhələlərində siyasi motivlərə görə bir

---
[1] Bax: “Respublika” qəzeti. 8 aprel 2008-ci il.



sıra əsərlər isə məhv edilmişdir. Lakin xalqın böyüklüyü ondadır ki, mövcud olanı qoruyub saxlaya bilsin. Bu baxımdan da Azərbaycanda kitabxana işinə xüsusi diqqət yetirilir. Əsasən Ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi dövründə kitabxanaların qorunub saxlanmasına, inkişafına çox böyük qayğı göstərilmişdir.

Dövlətin kitabxana işi sahəsində apardığı islahatlar nəticəsində kitabxanaların sayı artmış, onların maddi-texniki bazası möhkəmlənmiş, binaları təmir edilmiş, kitab fondları əsaslı şəkildə inkişaf etdirilmiş, oxuculara xidmət sistemi tamamilə yenidən qurulmuş, yüksək ixtisaslı kadrlarla təmin edilmiş və nəhayət, XX əsrin 70-ci illərində kitabxanaların mərkəzləşdirilməsi başa çatdırılmışdır. O dövrdə yüksək ixtisaslı kitabxanaçı kadrlar Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) kitabxanaçılıq - informasiya fakültəsində hazırlanırdı. Həmin illərdə fakültəyə qəbul planı iki dəfə artırılmışdı. Qəbul zamanı Azərbaycanın ucqar kənd rayonlarında yaşayan gənclərə xüsusi güzəştlər edilirdi. O dövrdə kənd yerlərində 1192 yeni kitabxana açılmış, onların fonduna 7 milyon 800 min nüsxə kitab daxil olmuşdu.

XX əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərində kitabxana işinə ayrılan büdcə yarıbayarı azaldılmış, kitabxanalara kitab almaq məqsədilə ayrılan vəsait dayandırılmışdı.Kitabxana binalarının alınması, özəlləşməsi həyata keçirilirdi.

Dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıdışı kitabxanaların qorunması və inkişafına səbəb oldu. 1996-cı ildə Prezidentin tövsiyəsinə əsasən Azər-baycan Respublikası Nazirlər Kabineti “Kitabxana işi haqqında” Qərar qəbul etdi. Bu qərarda kitabxana şəbəkələrinin qo-

runub saxlanması və əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılması qarşıya bir vəzifə kimi qoyulmuşdu.

Müstəqillik illərində Azərbaycanda çoxlu sayda kitabxanalar yaradıldı. O çümlədən Azərbaycan Respublikası Milli Məclisinin kitabxanası buna misal ola bilər. Parlament kitabxanası statusuna malik olan bu kitabxana Milli Məclis Aparatında deputatlara informasiya təminatının yaradılmasında mühüm rol oynayır.

Bu gün kitabxana şiyasəti müdrik Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə latın qrafikasına keçidlə əlaqədar Prezident sərəncamına əsasən çoxlu sayda qiymətli kitablar çap olunmuş, kitabxana fondlarına daxil edilmişdir. Çox sevindirici haldır ki, bu kitabların əksəriyyəti məktəb kitabxanalarına təmənnasız bağışlanmışdır.

Prezidentin "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" 20 aprel 2007-ci il tarixli sərəncamı bir daha sübut edir ki, İlham Əliyev Ulu öndər Htydər Əliyevin bütün sahələrdə olduğu kimi, kitabxana işi sahəsində də apardığı siyasətinin layiqli davamçısıdır.

Dövlətin kitabxanalara verdiyi qiymət Xaçmaz kitabxana sisteminin qurulması və inkişafında da özünü göstərir. Xaçmaz rayon kitabxanası 1934-cü il dekabr ayının 31-də yaradılıb. Kitabxananın tərkibində 97 kənd, 5 şəhər kitabxanası fəaliyyət göstərir ki, onlardan 2-si uşaq kitabxanasıdır. Rayon üzrə vahid kitab fondu 687.130 nüsxə təşkil etmişdir ki, bunlardan 97.834 nüsxəsi latın qrafikalı ədəbiyyatdır.

Xaçmaz mərkəzləşdirilmiş kitabxana sistemində (MKS) 132 nəfər çalışır. Sistemin əsas kitabxanası – Mərkəzi rayon kitabxanası Şəxsiyyətlər muzeyi ərazisin-



də yerləşməklə əsaslı təmir edilib, rayon əhalisinin informasiya xidmətində mühüm rol oynayır.

Rayonda kitabxana şəbəkəsi genişdir. Bu kitabxanaların bəziləri uyğunlaşdırılmış binalarda yerləşir, oxucusu azdır. Bu məqsədlə vahid kitabxana sistemi yaratmaq qərarlaşdırılmış, standartlara cavab verən yeni kitabxanaların tikilməsinə vəsait ayrılmışdır. Elektron kitabxananın yaradılması oxucular üçün maraqlı olacaqdır. Onlar lazım olan məlumatı kompüter vasitəsilə axtarıb tapacaqlar. Elektron kitabxana tam formalaşdıqdan sonra bütün kənd kitabxanalarında kompüter avadanlığı quraşdırılaraq MKS-də vahid şəbəkəyə qoşulacaqdır.

Mərkəzi rayon kitabxanasında ABŞ səfirliyinin təşəbbüsü ilə regional kitabxana məlumat mərkəzi fəaliyyət göstərir. Mərkəzin əsas məqsədi regional kitabxanaların fəaliyyətini genişləndirmək və kitabxanaları ictimai mərkəzə çevirməkdir. Proqram çərçivəsində 2 layihə həyata keçirilir I. Regional kitabxanaların inkişafı. II. Kitabxanalarda informasiya mərkəzlərinin yaradılması. Mərkəzdə ay ərzində 5 təlim keçirilir və bu xidmətdən 1000-dən artıq adam istifadə edir.

Xudat şəhərində MKS-in tərkibində iki kitabxana – Nizami adına kitabxana və uşaq kitabxanası fəaliyyət göstərir. Kitabxana fondu zəngindir. Oxucular kitabxanadan həvəslə istifadə edir və onlara göstərilən xidmətdən razıdırlar.Kitabxana binası əsaslı təmir olunmuşdur.

MKS-də aparılan bütün işlər dövlətin, birbaşa Rayon İcra Hakimiyyəti Aparatının rəhbərliyi ilə həyata keçirilir. Deməli, kitabxanalar yaşayır, inkişaf edir. Xalqın qiymətli tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsi qorunur. Kitabxanalar cəmiyyətimizin intellektu-

al-mənəvi potensialının artırılmasında əvəzsiz rol oynayır.

"Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daim hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir"- deyən Ulu öndərimizin tövsiyələrini xaçmazlılar sözdə deyil, əməli işlərində qiymətləndirirlər.

**"Xaçmaz" qəzeti rayonun güzgüsüdür.** Mətbuat həyatımızın aynası, onun ayrılmaz hissəsidir. Əsası xalqımızın böyük maarifpərvər oğlu Həsən bəy Zərdabi tərəfindən qoyulmuş Azərbaycan milli mətbuatı demokratik ənənələrə, ideya məfkurəsinə sadiq qalaraq, azad söz məkanında özünə layiq yer tutmuşdur. Azad, demokratik Azərbaycan idealı barədə ictimai rəyin formalaşmasında, ölkədə və ayrı-ayrı bölgələrdə gedən nəhəng quruculuq işlərinin, islahatların aydın təsəvvürünü yaratmaqda, insanları sözün qüdrətilə səfərbər etmək sahəsində fəal iş aparan mətbuat işçiləri yaradıcı imkanlarını genişləndirir, müstəqil Azərbaycanın daha firavan günləri naminə yüksək professionallıq göstərirlər. "*Jurnalist əməyi qeyri-adi əməkdir. Böyük səy, zəhmət, cəsurluq, hünər, fədakarlıq, öz peşəsinə vurğunluq tələb edən əməkdir"*. Bunu Ulu öndərimiz Heydər Əliyev demişdir.

Xaçmaz rayonunu "Xaçmaz" qəzeti olmadan təsəvvür etmək mümkün deyil. Sevindirici haldır ki, rayon qəzeti artıq 75 illik yubileyini qeyd etmisdir. Bu tarix kifayət qədər sanballı yaşdır. Nəsillər ötüb keçmiş, qəzet onilliklərin salnaməsini səhifələrində həkk etmiş, insanlarla, cəmiyyətlə sevincli, ağrılı-acılı illəri birgə yaşamış, həyat



hadisələrini o dövrlərin ideoloji tələbləri və prizması baxımından əks etdirmişdir.

75 yaşını qeyd etmiş qəzetin keçdiyi tarixi yolu işıqlandırmaq, keçilmiş səhifələri vərəqləmək çox maraqlı olardı.

Yerli qəzet XX əsrin 30-cu illərinin əvvəllərində çətin və məhrumiyyətli illərini yaşamış, insanların qəlbinə yol tapa-tapa, öz sözünü cəsarətlə deyə-deyə, gəlib bu günümüzə - ixtiyar yaşına çatmışdır.

Azərbaycan K(b)P və Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 8 avqust 1930-cu il tarixli qərarı ilə Xaçmaz rayonu təşkil olunduqdan sonra 1932-ci il mayın 5-də partiya və sovet orqanı kimi "Qırmızı Xaçmaz" adlı qəzet təsis edilmişdi. Qəzet əvvəllər Azərbaycan və rus dillərində nəşr olunurdu. Onun məsul redaktoru Abdulla Abdullayev idi .

Təbii ki, ilk nəşrə başlayan qəzet başlanğıcda xeyli çətinliklərlə üzləşdi. İlk nömrə hazırlandı və çap olunmaq üçün Bakıya göndərildi. "İnternasional" mətbəəsində iş çox olduğundan qəzet bir həftə gec nəşr olundu. Sonrakı nömrələr isə Qubada çap olunurdu. Birillik fəaliyyətindən sonra qəzetin öz mətbəəsi yaradıldı. 1932-ci ildən 1938-ci il iyulun 31-dək "Qırmızı Xaçmaz" qəzetinin 305 nömrəsi çapdan çıxmışdı. Daha sonra qəzet 1938-ci il avqustun 5-dən "Döyüş postunda" adı ilə Azərbaycan və rus dillərində nəşrini davam etdirib. 1948-ci il yanvarın 1-dən "Döyüş yolunda" adı ilə, 1954-cü il yanvarın 4-dən isə 2 səhifəlik "Tərəvəzçi" adı ilə nəşr olunub.

Xaçmaz rayonu N.Xuruşşovun volyuntarizminin qurbanı kimi Azərbaycan SSR Nazirlər Sovetinin 17 yanvar 1963-cü il tarixli qərarına uyğun olaraq ləğv edilib, Quba rayonunun tərkibinə qatıldıqdan sonra qəzetin fəaliyyəti

müvəqqəti dayandırıldı. 1965-ci ilin 16 yanvar tarixində Xaçmaz rayonu yenidən bərpa edildi, elə həmin il iyulun 21-dən rayon qəzeti "Dostluq" adı ilə nəşrə başladı. Yusif Yusifzadə, Bahadur Musayev, Nizam Qasımov, Camal Budaqov, Nuhbala Yarəliyev, Sədulla Şahverdiyev, Fikrət Orucov, İlham Cəfərov bu qəzetlərin redaktorları olmuşlar.

"Dostluq" qəzeti əvvəl Quba mətbəəsindən gətirilmiş köhnə çap maşınında nəşr olunurdu. 70-80-ci illərdə redaksiya və mətbəənin maddi-texniki bazası möhkəmləndirilmiş, jurnalist və texniki kadr potensialının səviyyəsi yüksəldilmişdir.

"Dostluq" qəzeti Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmiş, Azərbaycan Jurnalistlər Birliyinin keçirdiyi baxış müsabiqələrdə dəfələrlə qalib kimi müxtəlif mükafatlara layiq görülmüşdür. "Dostluq" qəzeti 2002-ci ilə kimi çox səmərəli fəaliyyət göstərmiş, adına layiq işi ilə xalqlar arasında dostluq münasibətlərinin inkişafında mühüm rol oynamışdır. Artıq 2002-ci ilin yanvarından qəzet "Xaçmaz" adı ilə fəaliyyətini davam etdirir. İndiyədək "Xaçmaz"ın 6050-dən çox sayı çapdan çıxmışdır. Bunun 3368 sayı "Qızıl qələm" mükafatı laureatı Fikrət Orucovun redaktorluğu ilə işıq üzü görmüşdür. Fikrət müəllim bölgədə yeganə redaktordur ki, qəzetə 28 il fasiləsiz rəhbərlik etmişdir.

XX əsrin 70-80-ci və sonrakı illərində "Dostluq" qəzetinin böyük tirajla həftədə üç dəfə işıq üzü görməsi və əlavə bülletenlərin çap olunması üçün gecəligündüzlü gərgin iş gedirdi. Təsadüfi deyildir ki, "Dostluq" qəzetinin yetirmələrindən "Qızıl qələm" mükafatı laureatı, əməkdar mədəniyyət işçisi və əməkdar jurnalist,



SSRİ Jurnalistlər İttifaqının, Azərbaycan Yazıçılar Birliyinin üzvləri olmuşdur. Bir nəfər Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinədək yüksəlmişdir.

Bu yüksək adlara layiq görülmüş jurnalistlərdən Zeynəddin Məmmədkərimov, Murad Qudyalçaylı, Sədrəddin İzzətov, İbrahim İbrahimov, Mütəllim Abbasov uzun illər qəzetdə səmərəli fəaliyyət göstərmişlər. Qəzetin keçmiş əməkdaşları "Qızıl qələm" mükafatı laureatı Azər TAc-ın baş redaktoru Teymur Xaspoladov, Vaqif Mikayılov, Rza Məlikov və başqalarının əməyi də qeyd olunmalıdır.

Xaçmaz Rayon İcra Hakimiyyəti Aparatının və jurnalist kollektivinin təsisçisi olduğu "Xaçmaz" qəzeti rayonun ictimai-siyasi, iqtisadi və mədəni həyatının ən müxtəlif sahələrinin işıqlandırılması üçün yaradıcılıq imkanlarından daha geniş istifadə etmişdir. Rayonun səsi və aynası olan "Xaçmaz" qəzeti azad söz məkanında və demokratik mühitdə özünəməxsus yer tutmuş, formatı genişlənmiş, poliqrafik keyfiyyəti xeyli yaxşılaşmışdır.

"Xaçmaz" qəzeti əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş uzaqgörən siyasətin layiqli davamçısı hörmətli Prezidentimiz İlham Əliyev cənablarının həyata keçirdiyi dinamik və uğurlu işləri, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının gözəl bəhrələrini, yenidənqurma, tikinti-abadlıq tədbirlərinin geniş mənzərəsini və digər yenilikləri öz səhifələrində geniş işıqlandırır.

Sevindirici haldır ki, qəzetin hər sayında rayonun ictimai-siyasi həyatına, görülən və görüləcək işlərə geniş yer verilir, Xaçmaz Rayon İcra Hakimiyyətinin fəaliyyəti oxuculara çatdırılır, reallıqlar, həqiqətlər, nöqsanlar haqqında söz açılır.

Hal-hazırda qəzetə bacarığı, peşəkarlığı ilə həmkarları arasında tanınan jurnalist İsmət Teyyubov rəhbərlik edir. Baş redaktor İsmət Teyyubov 40 ildən çoxdur ki, qəzetdə işləyir. O, 2005-ci ildə "Əməkdar jurnalist" fəxri adına layiq görülmüşdür. Müxbirlər Zinyət Haqverdiyeva, Gülxar Rəhimli, Rəna Ağayeva da qəzetin işıq üzü görməsi üçün səylərini əsirgəmirlər.

Jurnalist zəmanəsinin görən gözü, vuran qəlbi, haqq sözünün carçısıdır. Bəli, artıq 75 illik yubileyini qeyd etmiş, prinsipial yolu olan "Xaçmaz" xalqlar dostluğunun tərənnümünü, dövlətçiliyimizin təməl prinsiplərinin təbliğini, ölkədə və rayonda gedən nəhəng quruculuq işlərini başlıca mövzu kimi səhifələrində işıqlandırır.

Qəzetin əsas təsisçisi Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev yubiley münasibətilə "Xaçmaz" qəzetini, onun yaradıcı kollektivini təbrik edərək demişdir: "Söz yox ki, "Xaçmaz" qəzeti bundan sonra da həqiqi və obyektiv fikirlə yaradıcılıq imkanlarını genişləndirərək, müstəqil Azərbaycanımızın daha firavan günləri naminə yüksək professionallıqla fəaliyyət göstərəcəkdir".

75 il rayonla birgə addım-addım irəliləyən, daim inkişafda olan "Xaçmaz" sevilə-sevilə izlənilirı. Bütün xaçmazlılar ondan xoş sabahlarımız naminə yeni-yeni müjdələr gözləyirlər.

**Xaçmaz ədəbi mühiti.** Xaçmazda ədəbi mühitin formalaşması keçən əsrin 60-cı illərinə təsadüf edir. Həmin illərdə rayonun mətbu orqanı olan "Dostluq" qəzetində jurnalist-şair Murad Qudyalçaylı (Arzumanov) məsul katib vəzifəsində çalışır, bədii yaradıcılıqla məşğul olurdu. M.Qudyalçaylının altı şeir kitabı işıq üzü görmüşdür. Məhz onun təşəbbüsü ilə "Dostluq" qəzetinin nəzdində



"Ulduzlar" adlı ədəbi məclis təşkil edilmişdi. Rayonun bədii yaradıcılıqla məşğul olan istedadlı insanlarını öz ətrafına toplayan bu məclis ayda bir dəfə keçirilirdi. Hər məşğələdə ədəbi məclis üzvlərinin yeni-yeni yazıları oxunur, müzakirə və təhlil olunurdu. Nailiyyətlər, uğurlar təqdir edilir, nöqsanlar isə göstərilirdi. Bəyənilən yazılar vaxtaşırı qəzetdə dərc olunurdu. Həmin illərdə poeziya sahəsində Zeynəddin Məmmədkərimovun (Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureatı), Gülümbala Nəsirlinin, Nəcimə Babayevanın, Rəhman Yusifoğlunun, Buxsay Muradın, Camal Pirkəndlinin, Fərrux Museyibin, Hümmət Abulovun, nəsr sahəsində Əsgər Axundovun, İbrahim İbrahimovun, Həqiqət Əliyevanın, mənsur şeir sahəsində Fərzalı Ziyanurun adlarını fəxrlə çəkə bilərik.

Həmin illərin bədii yazılarından bir nümunə:

### SİZ
### *(Mənsur şeir)*

*Yanımdan bir qız keçdi. Baxdım. Xatırlatdı mənə gəncliyimi, səni!.. Yerişi səninkiydi, ancaq... sən deyildin.*

*Dayanacağa çatıb dayandı o qız. Duruşu səninkiydi, ancaq ... sən deyildin.*

*İntizar dolu baxışlarını yola dikdi o. Baxışlar səninkiydi, ancaq ... sən deyildin.*

*Avtobus göründü, nəhayət. Düşənlərin içindən bir qadın irəli çıxdı. Gözləri izdihamın içindən kimi isə aradı. Baxdım. Nə yerişi səninkiydi, nə duruşu, nə baxışı. Ancaq bu sən idin, sən. "Ana" deyib boynuna sarılan bayaqkı qız isə sənin qızınmış.*

**Fərzalı Ziyanur**

Onu da qeyd edim ki, yuxarıda adı çəkilən yazarlardan Gülümbala Nəsirlinin, Nəcimə Babayevanın, Fərzalı Ziyanurun, Camal Pirkəndlinin hazırda bir və ya bir neçə kitabı işıq üzü görmüşdür.

XX əsrin 70-ci illərinin sonu 80-ci illərinin əvvəllərində "Ulduzlar" ədəbi məclisinin tərkibi bir qədər yeniləşdi. Öz maraqlı bədii yazıları ilə seçilən, fərqlənən üzvlər meydana çıxdılar. Bunlardan Çimnaz Fərmanqızını, Rasim Məmmədəliyevi, Məmməd Qədiri, Şahnəzər Ələsgərovu, Telman Təravətin adlarını çəkmək olar.

1997-ci ildə şair Murad Qudyalçaylının vəfatı ilə əlaqədar "Ulduzlar" ədəbi məclisinin fəaliyyəti müvəqqəti olaraq dayandırıldı.

2000-ci ilin əvvəllərində fəaliyyəti dayandırılmış rayon qəzeti yeni adla - "Xaçmaz" adı ilə nəşrə başladı. "Xaçmaz" qəzetinə baş redaktor təyin olunmuş İlham Cəfərov yenidən "Ulduzlar" ədəbi məclisinin fəaliyyətini bərpa etmək qərarına gəldi və buna nail oldu. "Ulduzlar" ədəbi məclisinin yeni sədri Fərzalı Ziyanur (Həsənov) oldu. Bundan sonra ədəbi məclis öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Təcrübəli yazarlar məclisin məşğələlərində iştirak etməklə gənc yazarlara öz köməklərini əsirgəmirdilər. Belə yazarlara misal olaraq Qərib Aşkarini, Əlyar Ələsgəri, Müzəffər Sakiti, Surxay Şahini və başqalarını göstərmək olar. Gündən-günə inkişaf edən istedadlı yazarlardan Sabir Nemətov, Səyyad Sərraf, Pənah Elqəm, Məzahir Xaçmazlı, İbrahim Ağçaylı, Mövlan Şahid, Əli Bayramlı, Davud Qurban, Musa Vahid, Mehrəli Quliyev və başqalarını göstərmək olar.

Bir sözlə, Xaçmaz ədəbi mühitinin inkişafında mühüm rol oynayan "Ulduzlar" ədəbi məclisi bu gün də yaşayır, fəaliyyət göstərir və inkişaf edir. İnanıram ki, vaxt gələcək Xaçmazdakı "Ulduzlar" ədəbi məclisinin üzvləri içərisindən Azərbaycan ədəbiyyatında öz dəstixətti olan istedadlı şair və yazıçılar yetişəcəkdir.



Bədii yazılardan nümunələr:

## MƏNİM GÖZƏL XAÇMAZIM

*Bu gün bambaşqadır hüsnün, görkəmin,*
*Ey doğma Xaçmazım, sən necə şənsən.*
*Qoynunda boy atan çinarlar kimi,*
*Günbəgün, ilbəil gözəlləşənsən!*
*Bir xoş yüksəlişdir*
*sənin hər anın,*
*Fərəh içindədir bu gün hər yanın.*
*Xaçmaz, gözəl Xaçmaz,*
*səndədir ilk bahar,*
*səndədir ilk yaz!*
*Ucalmısan necə,*
*artmısan necə!*
*Xoş xəbər eşidib sahillərindən,*
*Xəzər də nəğməylə ləpələnibdir.*
*Bu gün bir zirvəyə çatmısan ki, sən,*
*Üstünə ulduzlar səpələnibdir.*

**Murad Qudyalçaylı.**
*Dekabr, 1974-cü i.*

## MƏNİM NƏYİM VAR Kİ...

*Mənim nəyim var ki,*
*Şeirdən başqa.*
*Əlimdən heç nə gəlmir,*
*Xeyirdən başqa.*

*Yox elə bir qüvvə,*
*Məni cəlb edə.*
*Ana təbiəti,*
*Xeyirdən başqa.*
*Mənim nəyim var ki,*
*Oğru apara.*
*Mənim nəyim var ki,*
*Çənim qorxusun.*
*İstəyir aparıb,*
*Açıb oxusun.*
*Mənim nəyim var ki,*
*Şeirdən başqa...*

**Telman Təravət**

## SAHİBSİZ QƏBİRLƏR

*... Sahibsiz qəbirlər qırılmış inam,*
*Sahibsiz qəbirlər ümidsiz xəstə.*
*Sahibsiz qəbirlər qəlbdə qalan kam,*
*Sahibsiz qəbirlər gözü yol üstə...*

**Sabir Nemətov**

## OĞUL VAR

*Oğul var şir, pələng... fil balasıdır,*
*Qızıldan tacı var, tacidarı var...*
*Fəqət el içində oğul sanılmaz.*
*Oğul var başlara hörülmüş çələng,*
*Hünərdir, zirvədir, el qalasıdır.*
*Həqiqət günəşdir, nağıl sanılmaz.*
*Oğul var dağ çapar, qaldırar daşı,*



*Səsini faş etməz - səsi anılmaz.*
*Oğul var qranit, ildırım daşı,*
*Nə qədər doğrasan, yonsan yonulmaz.*
*Oğul var xalqının pərvanəsidir,*
*İncisi, yaqutu, ləl danəsidir...*
*Oxucum, mən sənə oğul deyirəm,*
*Demə kitablardan nağıl deyirəm.*
*Oğul var ocaqdı, yanar, yandırar,*
*Oğul var yurdunu qanadlandırar.*

**Qərib Aşkari**

# HEYDƏR ƏLİYEV VƏ XAÇMAZ

İnsanlar var ki, bir müddət ağızlarda dolaşan nəğmələrə bənzəyirlər, az sonra bu nəğmə unudulur. Dahilərin adı isə hər zaman dillərdə olur. O da dahiydi. Və bütün dövrlərin dahisi olaraq qalacaq...

Ulu öndərimiz Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçildikdən sonra respublikada aparılan islahatlar, genişmiqyaslı quruculuq işləri nəticəsində Azərbaycan geridə qalmış aqrar-sənaye respublikasından SSRİ məkanında hər il ön sıralarda gedən sənaye-aqrar respublikasına çevrildi. Bir sıra sənaye müəssisələri, elm, təhsil, səhiyyə və mədəniyyət obyektləri açıldı, xalqın rifah halı yüksəldi. Bütün sahələrdə qayğı və tələbkarlıq artırıldı.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illər ərzində regionların sosial-iqtisadi inkişafına xüsusi diqqət və qayğı göstərir, tez-tez rayonlara səfərlər edir, əhalinin yaşayış səviyyəsi ilə şəxsən özü tanış olurdu. Çox maraqlıdır ki, ölkə rəhbəri respublika üçün xüsusi əhəmiyyət kəsb edən bölgələrə bir neçə dəfə səfər etmişdi.

Ulu öndərimiz Azərbaycanın "Şimal qapısı" sayılan Xaçmazda üç dəfə olmuşdu. Bu səfərlər xaçmazlılara böyük sevinc, el-obaya ruzi-bərəkət gətirmişdi.



Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin Xaçmaz rayonuna ilk səfəri 1981-ci il sentyabr ayının 27-də olmuşdu. Həmin görüşü, həyəcanlı anları ağsaqqal Əhməd Rüstəmov belə xatırlayır: *"İnsanın həyatında elə anlar olur ki, bu an bütün ömrü boyu unutmur, xatırladıqca fərəh, sevinc, qürur hissi keçirir. Belə bir an mənim həyatımda 26 il bundan əvvəl olmuşdur. Həmin gü Heydər Əliyev cənabları ilk dəfə rayonumuza qonaq gəlmişdi. O vaxtlar belə bir ənənə var idi ki, respublikanın rəhbəri hansı rayona getsəydi onun şərəfinə mütləq bir sosial-mədəniyyət və ya sənaye obyekti açılırdı. Bu da əziz rəhbərdən həmin rayona hədiyyə qalırdı. Çox yaxşıdır ki, bu ənənə bu gün də respublikamızın həyatında yaşamaqdadır. Xaçmaz tarix-diyarşünaslıq muzeyi də məh bu cür xoşbəxt taleli obyektlərdəndir. Mənim üçün böyük sevincli an idi ki, muzey eksponatları haqqında rəhbərimizə məlumat verməki mənə tapşırılmışdı. Çox həyəcanlı idim.*

*Sentyabrın 27-də səhər tezdən muzeyin yerləşdiyi N.Nərimanov küçəsi insan dənizindən təlatümə gəlmişdi. Ulu öndərimiz burada çox gözəl çıxış etdi, xaçmazlıların ünvanına tərifli sözlər söylədi. Çıxışlar qurtardıqdan sonra Heydər Əliyev qırmızı lenti kəsib muzeyə daxil oldu və şən əhval-ruhiyyə ilə: "Hə buyur, kişi"- deyərək foyeyə göz gəzdirdi. Mən məlumat verməyə başladım. O, hər eksponata, hər detala çox diqqətlə baxır, yeri gəldikcə mənə suallar verirdi.*

*Haşiyə olaraq deyim ki, Ulu öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi ilk dövrlərdə özünəməxsus uzaqgörənliklə başa düşürdü ki, haçansa imperiyanın*

*əsarət zəncirləri qırılacaq, azadlıq, müstəqillik əldə edən xalqların həyatında muzeylər böyük rol oynayacaqdır. Çünki muzeylər adi bir mədəniyyət obyekti deyil, xalqın, yurdun, torpağın tarixidir, tərcümeyi-halıdır, mənəvi pasportlarıdır. Muzeyə baxış çox yaxşı keçdi".*

Respublikanın rəhbəri muzeyin açılışından sonra adamlara qoşularaq piyada Xaçmaz konserv kombinatına getmiş, oranın işi ilə tanış olmuşdu. O vaxtlar həmin kombinat və Ulu öndərimiz Heydər Əliyevin tikdirdiyi Xudat konserv zavodu Zaqafqaziyanın ən iri sənaye obyektlərindən sayılırdı. Səfər zamanı Heydər Əliyev Xudat konserv zavodunun əməkçiləri ilə də görüşmüşdü. Minədək işçinin çalışdığı zavod kollektivi dahi rəhbəri səmimi, qonaqpərvərliklə, əmək qələbələri ilə qarşılamışdı.

Heydər Əliyev hər zaman bütün sahələri diqqətdə saxlayırdı. Xaçmazda olduğu zaman o, Xudat şəhərinə gələrək təməli 1909-1917-ci illərdə qoyulmuş Şollar - Bakı su kəmərinin içməli su ehtiyatları ilə maraqlanmışdı. Daha sonra Yalama-Nabran zonasında kurort tikintisinin planlaşdırılması və təbiəti mühafizənin təşkili ilə, bu kurort zonasının inkişafı üçün Azərbaycan Dövlət Layihə İnstitutu tərəfindən hazırlanmış planın və texniki iqtisadi əsaslandırmaların sxemi ilə tanış olmuş, burada sanatoriya-kurort şəbəkəsinin genişləndirilməsi, ümumittifaq əhəmiyyətli istirahət ocaqlarının yaradılması üçün lazımi göstərişlərini vermişdi.

Heydər Əliyev Nabran istirahət zonasındakı "Xəzər" və "Dostluq" turist bazalarında olmuş, burada dincələn turistlərin istirahəti, onlara göstərilən xidmətlə də maraqlanmışdı. Həmin illərdəki bu səfərləri xatırladıqca bu dahi insanın uzaqgörənliyinin bir daha şahidi olursan.



Respublikanın rəhbəri görüşlərini davam etdirərkən Müqtədir qəsəbəsindəki "Partiyanın 18-ci konfransı" adına sovxoza gəlmiş, əmək qabaqcılları ilə görüşüb söhbət etmiş, onların plan və öhdəliklərinin yerinə yetirilməsi ilə maraqlanmışdı. Bütün səfərlərində olduğu kimi, bu dəfə də Heydər Əliyev şimal bölgəsinin Xaçmaz, Quba, Qusar, Dəvəçi Rayon Partiya Komitələrinin birinci katibləri ilə görüş keçirmiş, bölgənin mövcud vəziyyətini, gələcək inkişaf perspektivlərini müzakirə etmişdi.

1982-ci ilin dekabr ayında Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək vəzifəyə təyin olunduqdan sonra da Heydər Əliyev doğma Azərbaycanı unutmamış, onun inkişafı, çiçəklənməsi, əhalinin rifah halının daha da yüksəldilməsi üçün səylə çalışmışdır.

Ən böyük arzularından biri olan Yalama-Nabranın ümumittifaq əhəmiyyətli kurort zonasına çevrilməsini gerçəkləşdirmək məqsədilə Heydər Əliyev SSRİ Nazirlər Sovetinin və Ümumittifaq Həmkarlar İttifaqları Şurasının "Xəzər dənizinin qərb sahillərində ümumittifaq əhəmiyyətli kurort zonası yaratmaq haqqında" qərarını qəbul etdirmişdir. Qərara əsasən Yalama-Nabranda sanatoriya-kurort obyektlərinin, istirahət və turizm müəssisələrinin kompleks inkişafı, sağlamlıq ocaqları şəbəkəsinin yaradılması nəzərdə tutulmuşdu.

Heydər Əliyev 18 sentyabr 1983-cü ildə Sovet İttifaqının yüksək vəzifəli şəxslərilə Xaçmaz rayonuna ikinci dəfə təşrif buyurmuş, "Xəzər" turist bazasında olmuş,

Yalama-Nabran zonasında kurort tikintisinin baş planını müzakirə etmişdir. İlk səfərindən keçən iki il ərzində bu nadir diyarda xeyli işlərin görüldüyünü vurğulayan Heydər Əliyev görüləcək nəhəng quruculuq işlərinin hələ qarşıda olduğunu söyləmişdir.

Ulu öndər Heydər Əliyev Xaşmaza ikinci səfəri zamanı rayonun 1 saylı meyvəçilik sovxozunun tarla düşərgəsində kənd zəhmətkeşləri ilə görüşüb söhbət etmiş, onların işi, maddi vəziyyəti ilə maraqlanmışdı. Rayonun Çkalov adına savxozunda olarkən yenicə tikilib istifadəyə verilmiş 200 başlıq heyvandarlıq fermasında olmuş, ferma işçilərinin əməyini yüksək qiymətləndirmişdi. Bu tarixi görüşü əmək və Böyük Vətən müharibəsi veteranı Həmid Məmmədov belə xatırlayır: *"Biz eşidəndə ki, SSRİ kimi dövlətin başçılarından biri, titanik savada malik, nəhəng siyasətçi, xalqımızın fəxri Heydər Əliyev bizimlə görüşə gəlir, bərk həyəcan keçirirdik. Mənim qəlbim fərəh hissi ilə döyünürdü, çünki o dövrdə Azərbaycan KP-nin XXVIII qurultayının nümayəndəsi kimi Heydər Əliyev ilə görüşmüşdüm. Həyəcanlı an gəlib çatdı. Heydər Əliyev və onu müşayiət edən şəxslər bizimlə görüşə gəldilər. Ulu öndərimiz ilk anlardan bizimlə elə mehribancasına söhbətə başladı ki, əvvəlki həyəcanımızdan əsər-əlamət qalmadı. Qayğıkeş rəhbər hər birimizin həyat şəraiti, problemləri ilə tanış oldu, lazimi göstərişlərini verdi. Hələ indi də mən o tarixi görüşü xatırlayır, qürur hissi keçirirəm".*

Ulu Tanrının rizası və Azərbaycan xalqının iradəsilə Heydər Əliyev ikinci dəfə hakimiyyətə - müstəqil Azərbaycanın rəhbərliyinə qayıtdı və bu qayıdış gələcəyimiz üçün geniş üfüqlər açdı. O illərin ağır, gərgin prosesləri bütün respublikada, o cümlədən Xaçmazda da tədricən həll edilməyə başladı. Ölkəmiz öz gələcək uğurlu, xoş günlərinə doğru inamla, addım-addım irəlilədi. Bu təbiidur, çünki dövlətin başında həyatını, bütün ömrünü doğma Azərbaycanına, xalqına həsr etmiş Heydər Əliyev dayanmışdı.

Ümummilli liderimiz Heydər Əliyevin Xaçmaza üçüncü səfəri müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi 1998-ci ilın oktyabr ayının 3-də olmuşdu. Prezident seçkiləri ərəfəsindəki səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti ilə birlikdə, Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev də xaçmazlılar qonaqı gəlmişdi.

Xaçmaza səfəri zamanı Heydər Əliyev Quba-Xaçmaz bölgəsinin seçiciləri ilə görüşmüş, onların qayğıları ilə maraqlanmış, qarşıda görüləcək işlərdən, yaşayış səviyyəsinin yüksəldilməsi məqsədilə həyata keçiriləcək tədbirlər haqqında danışmışdı. O, regionun meyvəçilik və tərəvəzçiliklə məşğul olmasını, yeni iş yerlərinin açılmasının vacibliyini nəzərə alaraq Xaçmaz rayonunda "Qafqaz" konserv zavodunun tikilməsi ideyasını irəli sürmüşdü.

Hal-hazırda Ulu öndərimizin arzusu gerçəkləşib. Böyük potensiala, yüksək texnologiyaya malik "Qafqaz" Konserv zavodunun 2003-cü ilin sentyabr ayının 12-də Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev tərəfindən rəsmi açılışı olmuşdur. Bu gün zavod fəaliyyət

göstərir və rayonda işsizlik pobleminin həllində böyük rol oynayır.

Sevindirici haldır ki, Xaçmaz üçün həmin tarixi gündə Prezidentimizlə görüşə tarixən dostluq telləri ilə baglı olduğumuz dağıstanlılar da gəlmişdilər.

Ulu öndərimiz möhtəşəm proqram xarakterlı nitqini özünəməxsus nikbinliklə, bitirmişdi:

"Əmin ola bilərsiniz ki, indiyə qədər olduğu kimi, bundan sonra da mən sizin etimadınızı doğruldacağam, ömrümün son dəqiqəsinə qədər Azərbaycan xalqına, müstəqil Azərbaycana - sizə sədaqətlə xidmət edəcəyəm.

Eşq olsun xızılılara, eşq olsun siyəzənlilərə, eşq olsun xaçmazlılara, eşq olsun dağıstanlılara, eşq olsun qəhrəman Azərbaycan xalqına! Yaşasın müstəqil, demokratik, qüdrətli Azərbaycan! Azərbaycan! Azərbaycan!" [1]

Dahi rəhbərin çıxışı gurultulu alqışlarla, sevinclə, xoş gələcəyə boyük inam hissilə qarşılanmışdı.

Ulu öndərimiz Heydər Əliyev fəaliyyəti dövründə həmişə Xaçmazı diqqətində saxlamış, qayğısını əsirgəməmişdi. Qədirbilən xaçmazlılar Vətənin ağır günündə də, sevincində də daim sevimli rəhbərləri ilə birlikdə olmuşlar.

Ölkəmiz üçün ağır günlərdə - 1994-cü il 4 oktyabr gecəsində də, 1995-ci ilin mart hadisələrində də Prezidentin ölkə əhalisinə, xalqa müraciətini eşidən yüzlərlə xaçmazlı Bakıya axışdı. "El gücü sel gücüdür" deyirlər. Qəhrəman xalqımızın birliyi, Azərbaycan xalqının Heydər Əliyev kimi qəhrəman sərkərdəsinin güclü iradəsi

[1] "Xalq qəzeti". 4 oktyabr 1998-ci il



nəticəsində xain əməllərin qarşısı alındı, dövlət çevrilişi baş tutmadı.

Heydər Əliyev gücünü, qüvvətini xalqdan alırdı. Təsadüfi deyildir ki, "Xalq -Heydər, Heydər -xalq birliyi sarsılmazdır" deyilir.

HEYDƏR ƏLİYEV adı Azərbaycan xalqının qəlbində möhtəşəm abidə kimi daim ucalacaqdır.

"Dünyada Heydər Əliyev qədər xalqına yaxın, onun bütün milli xüsusiyyətlərini bilən, inkişafı üçün bütün güc və bacarığını sərf edən, öz xalqı ilə qürrələnən az siyasətçi tapmaq olar. Azərbaycanın siyasi, ictimai, mədəni-sosial həyatının elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyev qüdrəti, Heydər Əliyev qayğısı, Heydər Əliyev yanğısı hiss edilməsin".[1]

Bu gün dahi şəxsiyyət Heydər Əliyev aramızda yoxdursa da, onun ideyaları, arzuları yaşayır, çiçəklənir. Yeri gəlmişkən, bir məqamı da xüsusi qeyd etmək istəyirəm. 2004-cü ilin may ayından fəaliyyətə başlayan Heydər Əliyey Fondunun əsas məqsədlərindən biri Ulu öndər tərəfindən yaradılmış azərbaycançılıq fəlsəfəsini, azərbaycançılıq ideyasını təbliğ etmək və gələcək nəsillərə çatdırmaqdır. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın təşkilatçılıq məharəti sayəsində həyata keçirilən humanitar proqramlar indi nəinki ölkəmizdə, bütün dünyada alqışlanır. Azərbaycan təhsilinə, Azərbaycan musiqisinə, Azərbaycan mədəniyyətinə, muğamlarına, milli-mənəvi dəyər-

[1] "Milli Məclis" jurnalı. № 1. 2007-ci il

lərimizə diqqət və qayğının nəticəsidir ki, qısa müddətdə fondun hesabına bütün respublikada, o cümlədən Xaçmaz rayonunda çoxlu sayda məktəb binaları, mədəniyyət ocaqları inşa edilmiş, müxtəlif layihələr həyata keçirilmişdir. "Yeniləsən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində Xaçmazda son illərdə 4 məktəb binası tikilərək, avadanlıqla təchiz edilmiş və uşaqlarımıza hədiyyə olunmuşdur.

Qədirbilən xacmazlılar Ulu öndər Heydər Əliyevin ideyalarına, onun irəli sürdüyü siyasi kursa daim sadiq qalmış və bu gün də onu sevə-sevə yad edirlər.

Xaçmazlılar Ulu öndər Heydər Əliyev haqqında öz ürək sözlərini belə ifadə edirlər:

*"Xaçmaz rayonunun hər yerində, hər bir guşəsində Ulu rəhbərin izi görünür. 3 dəfə rayonumuz da səfər də gələn tarixi şəxsiyyət Xaçmaz və xaçmazlılar haqqında yüksək fikirdə olmuşdur. Fədakar və qəhrəman xaçmazlılar Ulu öndər Heydər Əliyev şəxsiyyəti ilə həmişə fəxr edirlər. Rayonumuzda aparılan tikinti - quruculuq işləri, hər bir sahədə nail olduğumuz inkişaf Heydər Əliyevin adı ilə bağlıdır. Hər bir addımda bu ümumbəşəıı insanın varlığını hiss edirik".*

Nazim Ağayev

YAP-ın Xaçmaz Rayon Təşkilatının sədri

*"O dahilər xoşbəxt sayıla bilər ki, öz zəhmətlərinin bəhrəsini görə bilir və həyata keçirdiyi işlərin müqabilində xalqının əbədi minnətdarlığını qazanırlar. Ulu öndərimiz Heydər Əliyev məhz belə liderlərdəndir. O, həyatının mənası saydığı müstəqil Azərbaycan dövlətini*



*qoruyub yaşatdı, vətəni üçün gördüyü işlərlə xalqının qəlbində özünə möhtəşəm bir abidə ucaltdı".*

Böyükağa Qurbanov

Birinci çağırış Azərbaycan Respublikası

Milli Məclisinin deputatı

*"Heydər Əliyev xalqının görən gözü, vuran əli, döyünən qəlbi, ən önəmlisi düşünən beyni idi. Torpağını canından çox sevirdi. Onun bütovlüyü, düşmən tapdağından azad olması ən böyük arzusu idi. Hakimiyyətə böyük qayıdışından sonra öncə cəbhəyə, səngərə getməsi, əsgərlərə mənəvi dayaq olması, onlara qayğı ilə yanaşması neçə-neçə kəndimizin azad olmasına gətirib çıxardı..."*

Şöhrət Dadaşzadə

Qarabağ müharibəsi veteranı

*"ıiyasət dahisi idi Heydər Əliyev. Öz silahdaşları onun möhkəm yaddaşı, gözəl nitqi qarşısında aciz idilər. Fenomen idi bu böyük insan. Saatlarla eyni vəziyyətdə ayaq üstdə dayanıb məruzə edir, faktları təhlil edir, yorulmağın nə olduğunu hiss etmirdi. Heydər Əliyev zəkası, Heydər Əliyev dühası xalqı bir çox bəlalardan qurtardı. Xalqa müraciət edən ölkə başçısı - milyonların sevimlisi gecənin zülmətini yardı. 1994-cü il 4 oktyabr gecəsində xalqın sevgisi bir daha göstərdi ki, xalq böyük və dahi oğlu Heydər Əliyevi sevir. Rayonumuzdan Bakıya axışan yüzlərlə insan xalq oğlunu – Heydər Əliyevi yekdilliklə dəstəklədi. 1995-ci ilin mart hadisələrində də xalqın səsi özünü göstərdi. Bax, bu idi xalq istəyi".*

Ələskər Babayev

Xacmaz şəhər 6 saylı orta məktəbin direktoru

*"O müdrik insanın ideyaları həyata keçdikcə, nailiyyətlər qazanıldıqca Heydər Əliyev şəxsiyyətinin dahiliyinin bir daha şahidi olursan. Ulu öndərin əbədiyaşarlığı onun əməllərinin, ideyalarının yaşamasında, gerçəkləşməsindədir".*

Bəhrəm Şahverdiyev

Əməkdar həkim

*"Bu gün haqlı olaraq, Ulu öndərimiz bütün dünyada Azərbaycanın və azərbaycançılığın simvolu kimi tanınır... Heydər Əliyevin qəlbində böyük bir məhəbbət var idi. Xalqa, vətənə məhəbbət, insanlara məhəbbət, təbiətə məhəbbət! Eyni zamanda o, böyük şəxsiyyət olmaqla bərabər, böyük vətəndaş idi. Heydər Əliyev özü üçün yox, xalqı, vətəni üçün yaşamışdır".*

Mədinə Nurməmmədova

Xaçmaz Rayon Yəhsil Şöbəsinin müdiri

*"Ulu öndərimiz Heydər Əliyevin adını daşıyan park, orada dahi rəhbərə qoyulmuş əzəmətli abidə xalqımızın qəhrəman oğluna dərin ehtiramının təcəssümüdür. Hər bir şəhəri, qəsəbəsi, kəndi Ulu öndərə əziz, doğma olan Xaçmazın hər bir insanı hər gün, həmişə rəhbərimizin ideyalarına sadiq qalmış və qalacaqdır".*

Novruz Həsənov

Xudat şəhər sakini, sahibkar

*"Bizi Ümummilli lider Heydər Əliyevin yaşam günlərindən qısa zaman kəsiyi ayırır. Hər bir başı qarlı*



*uca dağın əzəməti ondan uzaqlaşdıqca daha möhtəşəm görünür. Ulu öndərimiz əbədi dünyaya qovuşsa da, onun böyüklüyü daha aydın hiss olunur. İllər ötsə də, Heydər Əliyev bizə daha yaxın olur, daha çox o dahi insana ehtiyacımız və sevgimiz artır".*

İsmət Teyyubov

"Xaçmaz" rayon qəzetinin müxbiri.

Səmimiliyi, sadiqliyi ilə seçilən xaçmazlılar Ulu öndərimizə sevgi, ehtiram əlaməti olaraq, onun irsini, ideyalarını daim yaşatmaq, öyrənmək və inkişaf etdirmək üçün Xaçmaz şəhərində Heydər Əliyev muzeyi və Xudat şəhərində, Yalama kəndində muzeyin filiallarını yaratmışlar. Xacmaz şəhərində muzey şəhərin gözəl guşələrindən biri olan Heydər Əliyev parkının ərazisində yerləşir. Muzey 10 may 2005-ci ildə açılmışdır. Böyük zövqlə yaradılmış Heydər Əliyev muzeyi və parkda Ulu öndərimizə qoyulmuş abidə gələcək nəsillərə təkrarolunmaz hədiyyə olmaqla, arxitekturasına, milli koloritliyinə və əzəmətinə görə bənzərsizdir.

Xaçmaz şəhərinin mədəniyyət evi son dərəcə nəfis, müasir, milli ənənələrimiz nəzərə alınmaqla təmir edilmiş və Ulu öndərimizə ehtiramın əlaməti olaraq "Heydər Əliyev adına mədəniyyət evi" adlandırılmışdır.

Bu gün Heydər Əliyev siyasətinin layiqli davamçısı, respublikamıza uğurla rəhbərlik edən, bizi daha möhtəşəm bir gələcəyə aparan möhtərəm Prezidentimiz İlham Əliyev böyük öndərimizin başladığı işləri müdriklik, qətiyyət və əzmkarlıqla davam etdirir.

Xaçmaz rayonuna səfərlərinin birində cənab İlham Əliyev Heydər Əliyev muzeyini ziyarət edərək xatirə kitabında öz ürək sözlərini belə ifadə etmişdir: *"Heydər Əliyev muzeyinin ekspozisiyası ilə tanış oldum. Muzeydə Heydər Əliyevin həyat və fəaliyyəti fotoşəkillərdə və başqa eksponatlarda əks olunur. Xalqımızın Ümummilli lideri Heydər Əliyevin tarixi irsinin öyrənilməsi və tədqiqi gələcək nəsillərin tərbiyə olunmasında mühüm əhəmiyyət kəsb edir. Xalqa sədaqətlə xidmət etmək, onun qayğıları ilə yaşamaq, Azərbaycan dövlət müstəqilliyini möhkəmləndirmək Heydər Əliyev fəaliyyətinin əsas prioritetləri idi .*

*Bu gün bu siyasət Azərbaycanda davam etdirilir və bundan sonra əbədi yaşayacaq.*

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Xazmaz şəhəri 26.07.2005-ci il".

Bəli, xalqımızın böyük lideri, əvəzolunmaz şəxsiyyət, nəhəng siyasətçi Heydər Əlirza oğlu Əliyevin müasiri olmaq səadəti mənə də nəsib olub. Ağlım kəsəndən onun nümunəsi məni ahanruba kimi özünə çəkib. Bu qüdrətli insanın ömür yolundan çox təsirlənmişəm. Onun ağlı, müdrikliyi, uzaqgörənliyi, fəaliyyəti, bütövlükdə həyatı hər kəs üçün nümunədir. Bu nümunədən görüb götürməliyik, hər birimiz onun ibrətamiz həyat yolundan öyrənməliyik.

Dostluğu, səmimiliyi, sadiqliyi ilə seçilən xaçmazlılar dahi rəhbərin irsini, ideyalarını yaşatmaq, inkişaf etdir-



mək məqsədilə rayonda sayca üçüncü olan Heydər Əliyev muzeyi yaratmışlar.

Ulu öndərimiz Heydər Əliyevin 85 illik yubileyi ərəfəsində rayonun Yalama kəndində 1,2 hektar ərazidə yaraşıqlı park salınmış və muzey inşa olunmuşdur.

2008-ci ilin mayın 10-da qardaşlaşmış Azərbaycan-Dağıstan dostluğunun tərənnümünə dönmüş dostluq görüşü zamanı dahi şəxsiyyət Heydər Əliyevin büstü, muzey və adını daşıyan parkın təntənəli açılışı olmuşdur Görüşdə Azərbaycan və Dağıstan Respublikalarının rəhbər işçiləri iştirak etmiş, Ulu öndərimiz haqqında xatirələrindən, onun xidmətlərindən, gələcəyimiz üçün gördüyü işlərdən ürək dolusu danışmışlar.

Dahi rəhbərin özü olmasa da, ideyaları, arzuları, qurduğu dövlət yaşayır, çiçəklənir, dünya ölkələri arasında adına layiq olduğu yerini tutur.

Ulu öndərimizin 2003-cü ilin oktyabr ayının 1-də dahiyanə söylədiyi sözləri bizlər daim qəlbimizdə yaşatmalı, fəaliyyət proqramı kimi qəbul etməliyik: "Müstəqil dövlətimiz bu gün dünya ölkələrinin ən qabaqcıl təcrübələrindən və dəyərlərindən bəhrələnərək inkişaf edir. Ölkəmiz beynəlxalq aləmdə öz layiqli yerini tutub. İndi dünyanın, regionun və bizi əhatə edən xarici aləmin əsas strateji və qlobal məsələləri bizim rəyimiz, mənafelərimiz nəzərə alınmadan həll edilmir. Azərbaycanın iqtisadi həyatı yenidən qurulur, yüksək dinamizmlə dirçəlir və inkişaf edir. Dövlətimiz getdikcə öz müdafiə qabiliyyətini artırır, hərbi cəhətdən güclənir.

Bu illərdə xalqımız və dövlətimiz üçün taleyüklü əhəmiyyət kəsb edən məsələləri həll edə bilmişik. İlk

növbədə dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyə nail olmuş, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin təməlini qoymuşuq. İkincisi, hər bir dövlətin, onun yaşamasının qayəsini təşkil edən ölkə iqtisadiyyatını yenidən qurmuşuq, inkişaf yoluna çıxarmışıq. Üçüncüsü, Azərbaycan xalqının istək və arzularının ifadəsi olan, özünün bütün müvafiq təsisatlarına malik güclü, demokratik dövlətimizi qura bilmişik, onun müstəqilliyinin dönməzliyini təmin etmişik. Yalnız milli birliyə, ictimai-siyasi sabitliyə malik, iqtisadiyyatı dinamik inkişaf edən, güclü dövlət təsisatları olan, demokratik və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil dövlətlə hər şeyi, o cümlədən ərazi bütövlüyünü və digər məsələləri həll etmək olar. Əminəm ki, bu məhz belə olacaq .

Mən öz mənalı həyatımın 60 ilini xalqımın bu gününü və sabahı ilə yaşamışam. Bunun son 10 ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib. Lakin mənim tamamlanmamış çox perspektivli planlarım var. Son vaxtlar səhhətimdə yaranan bəzi problemlər mənə imkan vermir ki, bütün bu başladığım, nəticələrini aydın gördüyüm işləri tamamlayım. Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir”.[1]

[1] “Xalq qəzeti”. 3 oktyabr 2003-cü il



Bəli, bu gün müstəqil Azərbaycana cavan, enerjili, intellektual, vətənpərvər, ən əsası isə Heydər Əliyev kimi fenomen və dahi bir şəxsiyyətin ocağının istisində böyümüş və onun siyasi kusunu keçmiş bir şəxsin – İlham Əliyevin rəhbərlik etməsi xalqımızın öz tarixinin ən şərəfli dövrlərindən birini yaşamasından xəbər verir.

# İLHAM ƏLİYEV VƏ XAÇMAZ

Heydər Əliyev xalqımız üçün son dərəcə misilsiz, müqayisəyəgəlməz dərəcədə böyük işlər görən tarixi şəxsiyyətdir. Onun Azərbaycana bəxş etdiyi ən qiymətli, ən əvəzolunmaz xidmətlərdən, yadigarlardan biri də İlham Əliyevdir. O, müasir Azərbaycan gəncliyinin, yeni Azərbaycan dünyasının ümidlərini, arzu və istəklərini, daha böyük, daha xoşbəxt perspektivlərini təmsil edir. Onun istiqlalçı, islahatçı təfəkkürü, sarsılmaz milli mövqeyi Heydər Əliyev kursu, platforması ətrafında birləşir.

Bəli, Ulu öndərin qurucusu olduğu müstəqil Azərbaycanın taleyi indi çox etibarlı əllərdədir. Ümummilli liderin uğurlu neft strategiyası, habelə İpək yolu, sahibkarlıq, qeyri-neft sektorunun, regionların sürətli inkişaf məsələləri - bütün bunlar Prezident İlham Əliyevin apardığı işlərin mahiyyətində, sosial-iqtisadi nəticələrində davam etdirilir.

Dövlətimizin başçısı cənab İlham Əliyevin prezident seçkiləri öncəsi verdiyi vədlər bu gün öz əksini görülən işlərdə tapır. "Mən istəyirəm Azərbaycanda yoxsul olmasın, işsiz olmasın ... Hamı yaxşı yaşasın!"- bu, möhtərəm Prezidentimiz İlham Əliyevin ən böyük devizidir. Bu deviz dövlətçiliyimizin qorunması, müstəqilliyimizin möhkəmləndirilməsi işinə, ölkəmizin tərəqqisinə, insanların rifah halının yüksəlməsinə xidmət edir. Son illər sosial-iqtisadi məsələlərlə bağlı qəbul olunmuş Dövlət Proqramları, həyata keçirilmiş tədbirlər ölkəmizdə yoxsulluq səviyyəsinin aşağı düşməsində mühüm rol oynayır.



Xalqa arxalanmaq, xalqa, doğma Azərbaycana xidmət etmək - bu, İlham Əliyevin həyat və fəaliyyətinin əsas özəyini təşkil edir. Onun çox genişmiqyaslı, əhatəli fəaliyyəti bütöv Azərbaycana və azərbaycançılığa xidmətin bariz nümunəsidir, örnəyidir. Azərbaycana, doğma xalqının dünəninə, bu gününə, sabahına sədaqət onun qəlbində, qanında, genindədir. Xalqımız buna görə onu yüksək qiymətləndirir, ona etibar edir, ümid bəsləyir.

Hələ 13 fevral 2004-cü ildə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı"nın təsdiq edilməsi barədə fərman imzalayan dövlət başçısı respublikanın bütün regionlarının tarazlı və davamlı inkişafını təmin etmişdir. Bu fərman, ilk növbədə, regionların qeyri-proporsional inkişafının qarşısının alınması baxımından əhəmiyyətlidir.

Fərman əsasında Azərbaycan hökuməti yerlərdə kənd təsərrüfatının, qeyri-neft sektorunun inkişafına yardım göstərmiş, o cümlədən çoxlu sayda emal müəs-sisələrinin yaradılmasının, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını və bütün bunların fonunda yeni iş yerlərinin açılmasını təmin etmişdir. Fermer təsərrüfatlarının inkişafı, fermerlərə uzunmüddətli kreditlərin verilməsi kimi zəruri məsələlər də diqqətdən kənarda qalmamışdır. Dövlət Proqramı regionların inkişafına xidmət etməklə yanaşı, həm də yerlərdə infrastrukturun yeniləşməsini, nəqliyyat-kommunikasiyaların bərpasını, habelə el-

mi-texniki tərəqqini, mədəni yüksəlişi, müasir informasiya texnologiyalarının tətbiqini sürətləndirmişdir.

2008-ci ilin 11 fevralında ölkə Prezidenti İlham Əliyevin iştirakı ilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördillik yekunlarına həsr olunmuş konfrans keçirilmiş və görülmüş işlər analiz edilərək, qarşıdakı mühüm fəaliyyət proqramı, strategiya müəyyənəşdirilmişdir. Konfransda dörd ildə görülən işləri, nailiyyətləri cənab Prezident yüksək qiymətləndirmişdir. Prezident qeyd etmişdir ki, bu proqramın ilkin konturları hələ 2003-cü ildə prezident seçkiləri ərəfəsində təqdim edilmişdir. Son dörd il ərzində Azərbaycan iqtisadiyyatının hərtərəfli inkişafı üçün Dövlət Proqramı çox yüksək rol oynamışdır. Azərbaycan iqtisadiyyatı ümumilikdə çox yüksək sürətlə inkişaf etmişdir. Dörd il ərzində iqtisadiyyat 96% artmışır, ümumi daxili məhsul 2 dəfə yüksəlmişdir. Azərbaycan iqtisadiyyatının inkişafı, əlbəttə ki, xalqın rifah halının yaxşılaşmasına gətirib çıxarır və sosial məsələlər diqqət mərkəzində olur. Azərbaycanda valyuta ehtiyatları artır. Bu gün valyuta ehtiyatlarımızın həcmi 7,3 milyard dollar səviyyəsindədir. 2008-ci ildə bu məbləğin iki dəfə artması gözlənilir. Dörd il ərzində Azərbaycanın büdcəsi on dəfə artmışdır. Bu da yəqin ki, analoqu olmayan bir göstəricidir. Respublikamızın icmal büdcəsi bu il 12 milyard dollar təşkil edir. İstisna olunmur ki, müəyyən mərhələdə büdcəyə yeni əlavələr edilə bilsin.[1]

[1] "Xalq qəzeti". 15 fevral 2008-ci il



2003-cü ildə Prezident bəyan etmişdi ki, Azərbaycanda yoxsulluğun, işsizliyin aradan qaldırılması üçün beş il ərzində altı yüz min yeni iş yerləri açılmalıdır. Artıq 650 min yeni iş yerləri açılmışdır ki, onlardan 480 mini daimi iş yerləridir. Yeni iş yerlərinin açılması isə yerli istehsalın gücləndirilməsi deməkdir. Yeni iş yerlərinin yaradılması regionlarda, bölgələrdə yoxsulluğun azalmasına gətirib çıxarmışdır. Son dörd il ərzində Azərbaycanda yoxsulluq səviyyəsi 49 %-dən 16%-ə düşmüşdür.

Aparılan təhlil göstərir ki, Dövlət Proqramında təsbit olunan bütün maddələrin 98%-i icra olunmuşdur. Prezident elan etmişdir ki, bu inkişafı hərtərəfli və çoxşaxəli etmək üçün mütləq və mütləq regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı davam etdirilməlidir. Azərbaycan xalqını narahat edən bütün məsələlər 2009-2013-cü illərdə yeni qəbul olunacaq Dövlət Proqramı çərçivəsində həll olunmalıdır.

"Azərbaycanın gücü bölgələrin gücündədir" - deyən cənab Prezident çalışdığı ilk günlərdən vahid Azərbaycan ideyası uğrunda mübarizə aparmış, bütün Azərbaycanı yüksək dərəcədə inkişaf etmiş bir dövlətə çevirməyi qarşısına məqsəd qoymuşdur.

Respublikanın hər bölgəsinin sosial-iqtisadi inkişafına şəxsən nəzarət edən Prezident İlham Əliyev tez-tez bölgələrə səfərlər edir, işlərin gedişi ilə tanış olur, əhali ilə görüşür, gələcəyə istiqamətlənmiş göstərişlərini verir.

Təsadüfi deyildir ki, cənab Prezident respublikanın yüksək inkişaf tempi ilə irəliləyən Xaçmaz rayonuna da dəfələrlə səfər etmişdir. Möhtərəm Prezidentimizin

rayona ilk səfəri 1998-ci ilin 3 oktyabrında olmuşdur. Həmin gün Ulu öndərimiz Heydər Əliyev prezident seçkiləri qabağı Xaçmaza səfər edərkən İlham Əliyev də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti kimi xaçmazlıların qonağı olmuşdu. Görüşə toplaşmış çoxsaylı Xızı, Dəvəçi, Siyəzən, Xaçmaz rayonlarından olan əhali və qonşu Dağıstan Respublikasından gəlmiş qonaqlar Ulu öndər Heydər Əliyevi və xalqımızın gələcək lideri İlham Əliyevi böyük alqışlarla qarşıladılar. Rayon mərkəzindəki "Xəzər" kinoteatrı qarşısında on minlərlə adam möhtərəm Prezidentə, onun ideyalarına sadiqliklərini bir daha nümayiş etdirdilər.

Zaman fədakar, sadiq xaçmazlıların Heydər Əliyev ideyalarını, arzularını sözdə deyil, əməldə həyata keçirdiklərini sübuta yetirdi.

İlham Əliyev ikinci dəfə Xaçmaz rayonuna 2000-ci ilin noyabr ayının 3-də Azərbaycan Respublikası Milli Məclisinə seçkilər ərəfəsində gəlmişdi. O, Milli Məclisə deputatlığa namizəd kimi Xaçmaz əhalisi qarşısında öz platformasını elan etmiş, onların problemləri ilə tanış olmuşdu.

İkinci çağırış Milli Məclisə seçkilər dövründə Yeni Azərbaycan Partiyasının proporsional siyahısına rəhbərlik edən cənab İlham Əliyevin qazandığı yüksək nailiyyətlər onun vətəndaşlar arasında ölkəmizin sabahını təmin edəcək alternativsiz lider kimi qəbul olunması həqiqətinin təsdiqinə çevrildi.

Cənab İlham Əliyev 90-cı illərin ortalarından etibarən ARDNŞ-in vitse-prezidenti, eləcə də Milli Olim-



piya Komitəsinin prezidenti kimi geniş fəaliyyəti ilə yanaşı, ölkəmizin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri statusunda da Azərbaycanın milli maraqlarının təmin olunması ilə bağlı mühüm işlər görmüşdür.

"Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" - iqtibası ilə Ulu öndərimiz Heydər Əliyevin 2003-cü ilin prezident seçkiləri ərəfəsində öz namizədliyini İlham Əliyevin xeyrinə geri götürməsindən sonra cənab İlham Əliyevin xalqımızın siyasi iradəsi sayəsində Azərbaycan Respublikasının Prezidenti seçildiyi 2003-cü ilin oktyabr günündən keçən müddət ərzində Azərbaycanın həyatında baş verən ictimai-siyasi proseslərə, qazanılan uğurlara diqqət yetirsək, Ümummilli liderin böyük uzaqgörənliklə söylədiyi bu fikirlərin həyatda nə dərəcədə özünü doğrultduğunun şahidi olarıq. Bu gün Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasət hesabına ölkəmizin əldə etdiyi uğurlar əslində Ulu öndərimizin bir vaxtlar ideallarında yaşatdığı və onların həyata keçirilməsi üçün zəruri əsaslar hazırladığı ülvi arzulardır.

İlham Əliyev Xaçmaz rayonuna üçüncü dəfə Azərbaycan Respublikasının Baş naziri kimi 2003-ci il sentiyabrın 12-də gəlmişdir. Səfər zamanı Ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə rayonda tikilən Azərsun Holding şirkətinin "Qafqaz" konserv zavodunun açılışında iştirak etmiş, xaçmazlılar qarşısında nitq söyləmişdir. Bu çıxışda Baş nazir İlham Əliyev iqtisadiyyata, iqtisadi problemlərə dərindən bələd olduğunu bir daha təsdiq etdi. "Hökumətin məqsədi daxili bazarı yerli məhsullarla tə-

min etməkdir" [1] - deyən, bunun üçün idxal-ixrac proseslərinin xüsusi tənzimlənməsinə ehtiyac olduğunu vurğulayan lham Əliyev Azərbaycan Nazirlər Kabinetinin bu və digər ciddi problemlərinin həlli istiqamətində operativ qərarlar qəbul edəcəyini, praktik nəticələrə nail ola biləcəyini bütün mərasim iştirakçılarının, bütün xalqın diqqətinə çatdırdı. Təxminən yarım saata yaxın bir müddəti əhatə edən böyük bir çıxışda heç bir kağıza, qeydə baxmayan, bütün faktları, rəqəmləri, iqtisadi göstəriciləri hafizəsindən deyən, iqtisadiyyatla bağlı analitik təhlillərində yalnız öz intellektual bazasına arxalanan Baş nazir İlham Əliyev 10 minlərlə insan qarşısında əsl Heydər Əliyev nümunəsi göstərdi. Çoxları həmin mərasimdə fərəhlə deyirdi ki, halal olsun, atasının oğludur.

2003-cü ilin prezident seçkilərində xaçmazlılar yekdilliklə İlham Əliyevə səs verdilər. Prezident İlham Əliyevin dövlət başçısı kimi andiçmə mərasimində söylədiyi: "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" sözləri cəmiyyətimizin hər bir üzvü tərəfindən böyük minnətdarlıqla qarşılandı.

2004-cü ilin 21 iyul tarixi də Xaçmazın tarixinə qızıl hərflərlə yazıldı. Artıq cənab İlham Əliyev Xaçmaza ölkə Prezidenti kimi səfər edirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Heydər Əliyev ideyalarına daim sadiq qalan xaçmazlıların görüşünə gəlmişdi.

Xaçmazda ölkə Prezidenti Xudat Sərhəd Zastavasında olmuş, orada sərhəd xidmətinin rəisi general

[1] "Paritet " qəzeti. 15 sentyabr 2003-cü il



leytenant Elçin Quliyevlə birlikdə sərhədçilərlə görüşmüş, zastavada daha çox fərqlənən əsgər və zabitlərə mükafatlar təqdim etmişdi. Sərhəd zastavasında muzeylə və silah nümunələri ilə tanış olmuşdu. Zastavanın işindən razı qalan Prezident Azərbaycanımızın "Şimal qapısı"nın etibarlı əllərdə olduğunu, bu bölgənin strateji cəhətdən tarixən vətənimiz üçün önəmli əhəmiyyət kəsb etdiyini bir daha qeyd etmişdi.

Regionların iqtisadi inkişafını daim diqqət mərkəzində saxlayan cənab Prezident hələ bir il öncə açılışında iştirak etdiyi "Qafqaz" konserv zavodunda da olmuşdu. Orada sexlərdə quraşdırılmış müasir avadanlıqlarla, istehsal olunan məhsullarla tanış olmuş, əməkçilərlə görüşüb səmimi söhbət etmişdi.

Ölkə iqtisadiyyatının bütün sahələrinin dinamik inkişafını təmin etmək İlham Əliyev strategiyasının əsasını təşkil edir. Təsadüfi deyildir ki, Xaçmazda olarkən ölkə başçısı Xanarx kanalının tikintisi ilə tanış olmuş, bir sıra məsləhət və tövsiyələrini vermişdi. Sonda İlham Əliyev rayonda tikilən Mədəniyyət və istirahət parkının açılışında söylədiyi hərtərəfli nitqində görülmüş işlərdən razı qaldığını, lakin hələ çox işlərin irəlidə olduğunu, xaçmazlılara inandığını, etibar etdiyini bildirmişdi.

Qarşıya qoyulan möhtəşəm quruculuq, yaradıcılıq işlərinin əsasında təbii ki, insan amili durur. Qurub-yaradan da insandır, ondan bəhrələnən də. İnsan amilinə böyük önəm verən möhtərəm Prezidentimiz İlham Əliyev həyata keçiriləcək işlərin əsas icraçısı olan rəhbər kadrların seçilməsinə xüsusi diqqət yetirir.

Regionun srateji mövqeyini, xaçmazlıların təşəbbüskar fəaliyyətlərini nəzərə alaraq 2004-cü ilin oktyabrında ölkə rəhbəri Xaçmazın daha dinamik inkişafını təmin etmək məqsədilə rayona yeni icra başçısı təyin etdi. Ulu öndərimiz Heydər Əliyev məktəbinin yetirməsi, sadiq silahdaşı və onunla çiyin-çiyinə çalışmış, YAP-ın yaradıcılarından biri olan Şəmsəddin Xanbabayev ilk günlərdən əhali ilə qaynayıb-qarışdı, insanların qurub-yaratmaq istəklərini Prezidentimiz tərəfindən qarşıya qoyulmuş məcraya yönəltdi. Qısa müddətdə Xaçmaz ümumilikdə böyük tikinti meydançasına çevrildi. Burada bir məqama xüsusi diqqət yetirmək yerinə düşərdi. Xaçmaz rayonu respublikada elə rayonlardandır ki, ərazisində iki şəhər vardır və rayonun ikinci şəhəri olan Xudat son onilliklər ərzində həmişə diqqətdən kənarda qalmışdı. Lakin Ş.Xanbabayev rayon rəhbəri kimi Xudata və digər yaşayış məntəqələrinin də inkişafına eyni münasibət bəslədi. Bu münasibətin nəticəsidir ki, artıq Xudat da Xaçmazla bərabər inkişaf edir, kücələri abadlaşır, yeni istirahət parkı, Ulu öndərimizin xatirəsinə Heydər Əliyev muzeyi yaradılmışdır.

Ş.Xanbabayevin əməyi sayəsində rayonda tarixi obyektlər təmir edilmiş, yeni-yeni təhsil, səhiyyə ocaqları tikilmiş, müəssisələr istifadəyə verilmiş, yeni iş yerləri yaradılmış, əhalinin sosial rifah halının yaxşılaşması istiqamətində çoxsaylı tədbirlər həyata keçirilmişdir.

Xaçmaz rayonunun dinamik inkişafı, qazanılan uğurların, görülən işlərin bəhrəsidir ki, möhtərəm Prezidentimiz İlham Əliyev sayca beşinci, ölkə rəhbəri kimi ikinci dəfə 2005-ci ilin 26 iyununda Xaçmaza səfər



etmişdir. Azərbaycan Respublikasının bayraqları, Ulu öndərimiz Heydər Əliyevin və Prezident İlham Əliyevin portretləri, transporantlarla bayramsayağı bəzədilmiş Xaçmaz və minlərlə xaçmazlılar möhtərəm Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı ürəkaçıqlığı ilə qarşıladılar. Qısa müddətdə Xaçmazın simasının tanınmaz dərəcədə dəyişməsi cənab Prezidenti çox sevindirdi: "Mən bölgələrə tez-tez gedirəm, vəziyyətlə tanış oluram. Ölkənin nəbzini tuturam. Hiss edirəm ki, ölkəmiz inkişaf edir və bu, hər bir bölgədə özünü göstərir. O cümlədən Xaçmazda da. Mən Xaçmazda dəfələrlə olmuşam. Prezident seçkiləri ərəfəsində, bir il bundan əvvəl də olmuşam və bu gün də buradayam. Burada yeni yaranan obyektlərlə hələ tanış olacağam. Ancaq ilk təəssürat belədir ki, Xaçmaz çox dəyişib, abadlaşıbdır. Küçələr salınıb, binalar bərpa olunub, abadlıq, inkişaf hiss olunur. Deməli, bunu etmək mümkündür, sadəcə istək olmalı, adamın ürəyi yanmalıdır və görülən işlər proqram üzrə getməlidir".[1]

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə Xaçmaz Uşaq Gənclər İdman Məktəbinin yeni binasına getdilər. Mehribanlıqla rəmzi açılışı bildirən lenti kəsdilər, balaca idmançıların nümunəvi çıxışlarına baxdılar, məktəblə tanış oldular. Məktəbdə 635 idmançı uşaqla 30 müəllim-məşqçi məşğul olacaq. Cənab İlham Əliyev bütün fəaliyyətimizin əsasında sağlam, dövlətə sadiq, savadlı gənc nəslin yetişdirilməsinin durduğunu vurğuladı.

[1] "Xalq qəzeti". 27 iyul 2005-ci il

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hörmət və ehtiramla qarşılayan sakinlər rəhbərimizlə görüşüb səmimi söhbət etdilər. Cənab İlham Əliyev onların problemləri ilə maraqlandı, şikayətlərini dinlədi. Sonra Heydər Əliyev adına parka gedərək Ulu öndərin orada ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu, parkda görülmüş işləri yüksək qiymətləndirdi.

Azərbaycan Prezidenti İlham Əliyev parkda Ümummilli lider Heydər Əliyevin xatirəsinə yaradılmış muzeylə də tanış oldu. Muzey müasir tələblərə uyğun olan altı guşədən ibarətdir. Burada Ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, eksponatlar, əsərlər, kitablar nümayiş olunur. Dövlətimizin başçısı muzeyin ayrı-ayrı guşələri ilə tanış oldu, xatirə kitabına ürək sözlərini yazdı.

Muzeydən xatirə olaraq Heydər Əliyev Fonduna muzeyin maketi və rəsm əsəri təqdim edildi. Muzeyin həyətində yerli rəssamların əsərlərindən ibarət sərgi nümayiş etdirilmişdi.

Cənab Prezident İlham Əliyev iqtisadi yüksəlişin mühüm amilllərdən biri olan sahibkarlığın inkişafına da xüsusi qayğı göstərir. Odur ki, Xaşmazda olarkən Rayon Mədəniyyət Evində Quba-Xaçmaz iqtisadi rayonu sahibkarlarının iştirakı ilə biznes forum və kredit yarmarkası keçirilmişdi. Prezident tədbirdə iştirak etdi. Dövlətimizin başçısı əvvəlcə ölkəmizin şimal bölgəsində yerləşən Quba, Qusar, Xaçmaz, Dəvəçi, Siyəzən rayonlarında fəaliyyət göstərən müəssisələrdə, fermer təsərrüfatlarında istehsal olunan xalçalardan, tikinti materialları, ərzaq, un məmulatları, arıçılıq, heyvandarlıq, quşçuluq, taxılçılıq, tərəvəzçilik, meyvəçilik məhsullarından ibarət sərgi ilə tanış oldu.



Biznes forumda qeyd edildi ki, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin rəhbərliyi altında başlanmış iqtisadi islahatların Prezident İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilməsi nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafı daha da sürətlənməkdədir.

Prezident İlham Əliyev tədbirdə geniş nitq söylədi: "Biz növbəti dəfə görüşdük. Mən çox şadam ki, hər dəfə görüşəndə yeni müəssisələrin açılışı, yeni infrastrukturanın yaranması haqqında məlumatlar səslənir. Bir il bundan əvvəl Quba şəhərində kredit yarmarkası keçirmişdik, bu dəfə bunu Xaçmazda etdik.

Dünən Qubada idim, bu gün buradayam, vəziyyətlə tanış oluram. Çox sevinirəm ki, bir il ərzində həm Qubada, həm də Xaçmazda çox böyük dəyişikliklər var. Abadlıq, quruculuq işləri gedir, yeni parklar salınır, binalar tikilir. İnkişaf göz qabağındadır.

Əlbəttə, sahibkarların rolu ildən-ilə artır. Sahibkarlığın inkişafı, özəl sektorun güclənməsi bizim fəaliyyətimizin əsas istiqamətləridir".[1]

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə kredit müqavilələrinin imzalanması mərasimi oldu.

Özəl sektorun, sahibkarlığın inkişafının vacibliyinin siyasətimizin əsasını təşkil etdiyini dəfələrlə qeyd edən ölkə başçısı Xaçmazda yenicə istifadəyə veriləcək "N-KAY-M klinik" özəl tibb klinikasının açılışında, müvəf-

[1] "Xalq qəzeti". 27 iyul 2005-ci il

fəqiyyətlə fəaliyyət göstərən "Qafqaz" konserv zavodunda oldu. Zavodda olarkən Prezident İlham Əliyev dedi: "Bu zavoda artıq üçüncü dəfədir ki, gəlirəm. İlk dəfə 2003-cü ilin sentyabrında açılışda iştirak etdim, keçən il də gəlmişdim. Hər dəfə gələndə görürəm ki, yeni avadanlıq quraşdırılır, yeni sahələr açılır, istehsal olunan malların keyfiyyəti artır, çeşidləri çoxalır. Məhsul həm ölkə daxilində, həm də xarici bazarda satılır. Burada iş şəraiti yaxşıdır. Mənə deyirlər ki, əməkhaqqı yüksəkdir. Bu məni çox sevindirir".[1]

Quba-Xaçmaz iqtisadi rayonu sosial mövqeyi, təbii sərvətləri, iqtisadi potensialı baxımından ölkə iqtisadiyyatında özünəməxsus yer tutur. Burada turizm üçün böyük imkanlar vardır. Odur ki, ölkə rəhbərinin göstərişinə əsasən Xaçmazda Regional Turizm İnformasiya Mərkəzi yaradılmışdır. Cənab Prezident mərkəzin açılışında şəxsən iştirak etmişdir. O qeyd etmişdir ki, ölkəmizdə turizmin inkişafı üçün mühüm layihələrin həyata keçirilməsi, infrastrukturun yaradılması vacibdir. Bunun üçün bizim gözəl təbiətimiz, səfalı yerlərimiz var və bundan səmərəli istifadə olunmalıdır.

Vaxtın azlığına baxmayaraq, olduqca səmərəli, işgüzar keçən səfər zamanı Prezidentin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Xaçmaz rayonunun bir sıra kəndlərinə getmiş, orada inşa olunan məktəblərin tikintisi ilə tanış olmuşdu. Bildirmişdi ki, Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni

[1] Yenə orada.



məktəb" layihəsi üzrə rayonda tikilən üç təhsil ocağını yeni tədris ilində istifadəyə vermək nəzərdə tutulmuşdur.

Prezident İlham Əliyev Xaçmazda keçirdiyi səfəri yüksək qiymətləndirmişdi.

Xaçmazlılar xalqımızın Ümummilli lideri Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirdiyinə və regionların sosial-iqtisadi inkişafına, əhalinin güzəranının yaxşılaşdırılmasına diqqət yetirdiyinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər.

Qeyd etmək istəyirəm ki, ölkə başçısının Azərbaycanın bölgələrinə, xüsusən Xaçmaza səfərləri çox zəngin, səmərəli, işgüzar şəraitdə keçir. Hər səfər zamanı bir və ya iki yeni müəssisə, obyekt açılırdısa, hazırkı görüşlərdə 6, 7 və daha çox yeni salınmış park, küçə, müəssisə, obyekt əhalinin istifadəsinə verilir. Bu fəaliyyətdə məhz xalqa diqqət və qayğı prinsipinin durduğunun şahidi oluruq. Prezident İlham Əliyevin yorulmaz, əzmkar fəaliyyəti, tükənməz səyi, prinsipiallığı xalqın Heydər Əliyev siyasi kursuna inam və etimadını daha da artırır.

"Dövlətimizin siyasəti birmənalıdır - iqtisadi inkişafa nail olmaq və sosial məsələləri həll etmək"[1] - fikrini söyləyən İlham Əliyev bölgələrdə strateji əhəmiyyət daşıyan sənaye obyektlərinin tikintisinə, açılışına, istismarına xususi diqqət yetirir. Bu siyasətin nəticəsidir ki, növbəti dəfə 7 dekabr 2006-cı il tarixində Xaçmaza səfər etmiş Prezident orada bölgənin sürətli inkişafı üçün böyük rol oynayacaq, gücü 87 meqavat olan Xaçmaz Modul tipli elektrik stansiyasının açılışını həyata keçirmişdir.

[1] "Xaçmaz"qəzeti. 23 dekabr 2006-cı il

“Azərbaycanda çox güclü sənayeləşmə prosesi getməlidir, yeni müəssisələr, zavodlar, fabriklər, güclü iqtisadi potensial yaradılmalıdır ki, ölkəmiz hərtərəfli inkişaf etsin. Bunu etmək üçün mütləq və mütləq kifayət qədər elektrik enerjisi olmalıdır. Ona görə ilk növbədə elektrik stansiyalarının tikintisi böyük əhəmiyyət kəsb edir.

Xaçmaz Elektrik Stansiyasının təməlqoyma mərasimi mart ayında keçirilmişdir. Yəni bir ildən az bir müddətdə stansiya işə düşüb və 87 meqavat elektrik enerjisi istehsal edəcəkdir.

Azərbaycanın həm iqtisadi, həm də siyasi çəkisi artır. Bu da bizi, əlbəttə ki, çox sevindirir”.[1]

Dövlətimizin başçısı xaçmazlılar qarşısında çıxışında qeyd etmişdir ki, “Xaçmaz şəhəri də gözəlləşir, abadlaşır. Mən bir neçə dəfə Xaçmazda olmuşam. Prezidentlik dövründə də bir neçə dəfə gəlmişəm. Bu mənim üçün şərəfdir və hər dəfə gələndə burada yeniliklər görürəm. Hələ bu gün səhər buraya gələrkən də gördüm. Sonra yeni yaradılmış müəssisələrə, başqa yerlərə də baş çəkəcəyəm”.[2]

Prezident səfəri çərçivəsində Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, ora gül dəstəsi qoymuş, daha sonra Xaçmazın rəmzinə çevrilmiş “Qoşa qapı” abidəsinə baxmışdır. Milli memarlıq üslubunda ucaldılmış qapının üzərində böyük saat da quraşdırılmışdır. Dövlətimizin başçısı “Qoşa qapı”nın milli üslubda

[1] “Azərbaycan” qəzeti. 8 dekabr 2006-cı il
[2] Yenə orada.



tikilməsindən razılığını bildirmiş, şəhərə xüsusi yaraşıq verdiyini söyləmişdir.

Açılışı Ulu öndərimiz Heydər Əliyev tərəfindən 1981-ci ildə həyata keçirilmiş və təmamilə yenidən qurulmuş, zənginləşmiş rayon tarix-diyarşünaslıq muzeyi ilə tanışlıq Prezident İlham Əliyevdə xoş təəssürat yaratmışdır.

Açıq səma altında yaradılmış, respublikamızda analoqu olmayan Şəxsiyyətlər muzeyi ilə tanış olan cənab Prezident Azərbaycan ədəbiyyat və incəsənətinin inkişafında böyük xidmətlər göstərmiş görkəmli şəxsiyyətlərin büstlərinə, dahi Nizaminin heykəlinə maraqla tamaşa etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev Xaçmaz mədəniyyət və istirahət parkında da olmuşdur. Şəhər sakinlərinin istirahətinə xidmət edən, gözəl şəraiti olan parkda uşaqlar üçün xüsusi güşələr yaradılmış, müxtəlif yelləncəklər, oyuncaqlar quraşdırılmışdır. Süni çaylar, şəlalə və fəvvarələr istirahət güşəsinə xüsusi yaraşıq verir. Parkda coxlu sayda bəzək ağacı əkilmişdir. Parkı gəzən Prezident İlham Əliyev burada yaradılmış şəraiti, səliqə-səhmanı yüksək qiymətləndirmişdir.

Həmin gün Prezident Xaçmazda Xalça muzeyinin açılışını bildirən rəmzi lenti kəsdi. 150 kvadrat metr sahəsi olan bu muzeydə, əsasən müxtəlif çeşnili Quba, Dərbənd, Şirvan xalçaları, xalq sənəti nümunələri nümayiş etdirilirdi. Ekspozisiyada yüzə yaxın xalça və xalça məmulatı vardır. Yerli sakinlər də bu sənət növü ilə bağlı əl işlərini muzeyə təqdim edirlər. Dövlət başçısı muzeyin ekspozisiyası ilə yaxından tanış oldu və ona xatirə olaraq

Xaçmaz rayonuna səfərlərini əks etdirən fotoalbom hədiyyə edildi.

Səfər zamanı ən yaddaqalan görüşlərdən biri Yeni Azərbaycan Partiyasının Xaçmaz Rayon Təşkilatının yeni inzibati binasının açılışı zamanı oldu. Xaçmazda bu partiyanın üzvlərinin sayı 6500 nəfərdən çoxdur. Partiyaya əsasən gənclər meyil göstərirlər. Lakin çox sevindirici haldır ki, yaşlı adamlar da partiyaya üzv olmaq istəyirlər. 85 yaşlı bir qocanın partiyaya keçməsi Yeni Azərbaycan Partiyasının necə böyük bir nüfuza malik olduğunu bir daha nümayiş etdirir. Bəli, cəmiyyətimizin aparıcı partiyası böyüyür, inkişaf edir, ölkəmizin bütün taleyüklü məsələlərinin həllində mühüm rol oynayır.

Yeni Azərbaycan Partiyasının sədri, respublika Prezidenti İlham Əliyev Xaçmazda partiya fəalları ilə görüşü zamanı demişdir: "Yeni Azərbaycan Partiyasının üzvü olmaq böyük məsuliyyətdir. Əlbəttə, insanlar daha da tələbkar olmalı, daha da səmərəli işləməli və bu yüksək adı çox şərəflə daşımalıdırlar. Mən əminəm ki, Xaçmaz Rayon Təşkilatında məhz bu ab-hava, bu ovqat var. Əminəm ki, siz də öz fəaliyyətinizdə, hərə öz yerində bizim ümumi işimizə həmişə dəstək olacaqsınız, fəal olacaqsınız və Azərbaycanın gələcək inkişafı üçün əlinizdən gələni edəcəksiniz".[1]

Partiya sədri, respublika Prezidenti İlham Əliyev YAP-ın Xaçmaz Rayon Təşkilatının işini, Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayevin fəaliyyətini yüksək qiymətləndirdi: "Bu onu göstərir ki, əgər

[1] "Azərbaycan" qəzeti. 8 dekabr 2006-cı il



xoş niyyət, arzu varsa, doğma xalqına sevgi, məhəbbət varsa, istənilən məsələ öz həllini tapa bilər".[1]

Sonra dövlət başçısı İlham Əliyev Xaçmaz rayonuna səfərini davam etdirərək rayonun ikinci böyük şəhəri olan Xudata gəldi. Azərbaycanın şimali-şərqində böyük yaşayış məntəqələrindən birincisi olan Xudatın strateji baxımdan özünəməxsus yeri var. Xudat şəhər ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını böyük hörmət və ehtiramla, hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev əvvəlcə Heydər Əliyev parkında Ümummilli liderin abidəsini ziyarət edərək gül dəstəsi qoydu, Heydər Əliyev muzeyinin Xudat filialı ilə tanış oldu. Muzeydə Ulu öndərə həsr olunmuş kitablar, Ümummilli liderin fəaliyyətini əks etdirən fotolar, materiallar vardır. Prezident ekspozisiyaya baxdı və muzeyin xatirə kitabına ürək sözlərini yazdı.

Xudat Azərbaycanın şimal sərhədində yerləşdiyi üçün şəhərdə çox yüksək hərbi hazırlığa malik sərhəd dəstəsi fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş komandanı İlham Əliyev Xudat şəhərində sərhədçilər üçün tikilmiş yaşayış şəhərciyinin istifadəyə verilməsinə həsr olunmuş mərasimdə iştirak etdi. Dövlət Sərhəd Xidmətinin rəisi, general-leytenant Elçin Quliyev Ali Baş komandana raport verdi. Şəhərciyin həyətində toplaşan sərhədçilər və onların ailə üzvləri Prezidenti alqışlarla salamladılar. Sevindirici haldır ki, bu yaşayış şəhərciyi Ali Baş

[1] "Azərbaycan" qəzeti. 8 dekabr 2006-cı il.

komandan İlham Əliyevin sərəncamına əsasən 2006-cı ildə inşa edilmişdir.

Prezident İlham Əliyev şəhərciklə yaxından tanış oldu, ayrı-ayrı mənzillərə baxdı, yaradılan şəraitlə maraqlandı. Məlumat verdilər ki, respublikada ilk dəfədir ki, belə şəhərcik salinmışdır. Burada iki mərtəbəli binalarda 66 mənzil vardır. Mənzillər Xudat şərhəd dəstəsinin xidmətdə fərqlənən zabitlərinə verilir. Şəhərciyin həyətində sakinlərin və uşaqların istirahəti üçün gözəl şərait yaradılmışdır.

Dövlətimizin başçısının adından hər bir mənzilə rəngli televizor hədiyyə olundu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş komandanı İlham Əliyev sərhədçiləri əlamətdar hadisə münasibəti ilə təbrik edərək dedi: "...Mən çox şadam ki, sərhəd qoşunlarının uğurlu fəaliyyəti Azərbaycanın təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini verir".[1]

Sonra Prezident İlham Əliyev xidməti mənzillərin orderlərini sahiblərinə təqdim etdi. Yeni mənzil alanlar dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

Dövlət başçısı İlham Əliyev Xaçmaz səfərini turizmin inkişafı və istirahət üçün nadir təbiəti olan Nabranda yeni tikilmiş "Malibu", "Palma" və "Atlant" istirahət mərkəzlərini tanışlıqla davam etdirdi. Dövlətimizin başçısına məlumat verildi ki, fəaliyyət göstərən bu istirahət mərkəzlərində dincələnlər üçün hər cür şərait yaradılmışdır. Burada Ulu öndərimiz Heydər Əliyevin

[1] "Azərbaycan " qəzeti . 8 dekabr 2006-cı il



Yalama-Nabran zonasının dünya şöhrətli istirahət ocağına çevrilməsi haqqındakı arzuları, istəkləri reallaşmaqdadır.

Bununla da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xaçmaza növbəti səfəri başa çatdı.

"Xaçmaz rayonunda çox böyük intellektual potensial var, çox gözəl insanlar var. Burada çox fəal, vətənpərvər insanlar yaşayır.

Mən çox şadam ki, biz yenidən görüşürük. Son beş il ərzində bir neçə dəfə rayona gəlmişəm. Hər dəfə yenilikləri görəndə çox sevinirəm. Sizin hamınızı böyük nailiyyətlər münasibətilə ürəkdən təbrik edirəm". Bu dəyərli sözləri ölkə başçısı İlham Əliyev 27 sentyabr 2008-ci ildə Xaçmaza səfəri zamanı söyləmişdi. Xaçmaz həqiqətən də son illərdə Azərbaycanın ən sürətli inkişaf tempinə malik, dinamik inkişafı ilə seçilən rayonlarından biridir. Mən də bu rayondan seçilmiş millət vəkili kimi buna sevinir və qürur duyuram.

Prezident İlham Əliyevin Xaçmaz rayonuna növbəti səfəri zamanı mən də rayonun zəhmətsevər icra başçısı, hörmətli Şəmsəddin müəllimlə birlikdə möhtərəm Prezidentimiz İlham Əliyevi müşayiət edirdim.

Əziz xaçmazlılar möhtərəm Prezident İlham Əliyevə bəslədikləri sevgini, istəyi, ürək sözlərini belə ifadə edirlər:

*Biz xoşbəxtik ona görə ki, Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan Respublikasının vətəndaşıyıq. Biz xoşbəxtik ona görə ki, işıqlı və xoş gələcəyimizin açarı, Azərbaycan dövlətinin sükanı Sizin güclü əllərinizdədir.*

Yaqut Nəsibova

rayon sakini

*Bu gün Xaçmazda böyük quruculuq, abadlıq işləri görülür. Şəhərimizin siması gündən-günə gözəlləşir. Bu inkişaf və tərəqqi böyük Həydər Əliyevin ideyalarının gerçəkləşməsinin, Ulu öndərin siyasi kursunu bacarıqla irəli aparan hörmətli Prezidentimiz İlham Əliyevin uzaq-görən və işıqlı əməllərinin bəhrəsidir.*

Nəcməddin Mərdanov

Xaçmaz Peşə liseyinin direktoru

*Möhtərəm Prezidentimə - İlham Əliyev cənablarına insanların yaxşı yaşaması, onların maddi rifah halının daha da yaxşılaşması naminə qəbul etdiyi bütün qərar və göstərişlərə görə minnətdaram. Biz də öz növbəmizdə üzərimizə düşən vəzifələri ruh yüksəkliyi ilə yerinə yetirir, Prezidentimizin ümidlərini doğrultmağa çalışırıq.*

Aydın Heybətov

Qədmalıqışlaq kənd sakini

*Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, xalqımızın sevimlisi hörmətli Prezidentimiz İlham Əliyev cənabları respublikamızı uğurla tərəqqiyə aparır. Hörmətli Prezidentimiz rayonumuzun inkişafı üçün çox işlər görmüşdür.*

Vəlirza Hacımırzəyev

Xaçmaz bələdiyyəsinin sədri

*Ulu öndərimiz Heydər Əliyevin arzu və ideyalarını yorulmadan, fədakarlıqla yerinə yetirən Prezidentimiz İlham Əliyevin fəaliyyətinin nəticəsidir ki, xalqımız öz*



*tarixinin ən şərəfli dövrlərindən birini yaşayır. Bütün sahələrdə dinamik inkişaf, işgüzarlıq müşahidə edilir. Yorulmadan xalqın gələcəyi, təhlükəsizliyi uğrunda əzmlə mübarizə aparan möhtərəm Prezidentimizə böyük uğurlar diləyirəm.*

Həqiqət Məmmədova

Dİ və İXİ Həmkarlar İttifaqının Xaçmaz Rayon Komitəsinin sədri

Xaçmaz şəhərində keçirilən Rayon İcra Hakimiyyəti başçısının 2008-ci ilin yekunlarına həsr edilmiş yığıncağında rayon ictimaiyyətinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanlanmış müraciəti:

*Zatı aliləri!*

*Möhtərəm cənab Prezident!*

*Müstəqil Azərbaycanın qurucusu və memarı, xalqımızın Ümummilli lideri Heydər Əlirza oğlu Əliyev tərəfindən əsası qoyulmuş, hazırda respublika həyatının bütün sahələrini əhatə edən inkişaf və tərəqqi Sizin rəhbərliyinizlə son dərəcə dinamik, ardıcıl və ugurla davam etdirilir. Ulu öndərimizin işıqlı ideyalarını uğurla həyata keçirməklə Siz Azərbaycanı gözəl bir diyara, inkişaf etmiş bir məmləkətə çevirirsiniz. Bu gün doğma Azərbaycanımızın hər bir güşəsində, hər bir eldə, obada, Ümummilli liderimizin arzuları Sizin səyinizlə reallığa çevrilir.*

*Siz doğma Azərbaycanımızın inkişafı, tərəqqisi və xoşbəxt gələcəyi naminə müqayisəolunmaz işlərinizlə ölkəmizin iqtisadi qüdrətinin artması, dünyanın ən inkişaf etmiş dövlətləri sırasında öz layiqli yerini tutması üçün*

*yorulmadan çalışırsınız. Bu gün hər bir Azərbaycan vətəndaşının öz vətəni, Prezidenti ilə qürur duymağa sözün əsl mənasında haqqı vardır.*

*Möhtərəm cənab Prezident!*

*27 sentyabr 2008-ci il tarixində rayonumuza növbəti səfərinizlə Siz diqqət və qayğınız sayəsində son illər özünün dinamik inkişaf dövrünü yaşayan Xaçmaz rayonunun tarixinə daha bir parlaq səhifə yazdınız. Bu səfər Sizi ürəkdən sevən, hər zaman Sizə dayaq olan, sadə və mehriban davranışınıza qibtə edən xaçmazlıların qəlbində silinməz bir iz qoydu. Rayon ictimaiyyətinin bir qrup nümayəndəsi ilə görüşünüz zamanı Xaçmazda görülən işlərə verdiyiniz yüksək qiymət bizim üçün daha yaxşı işləməyə bir çağırışdır və biz bu çağırışa öz əməli işimizlə cavab verməyə hazırıq.*

*Möhtərəm cənab Prezident!*

*Sizi sevən, Sizə inanan və Sizə güvənən xaçmazlılar adından vətənimiz Azərbaycan naminə gördüyünüz misilsiz işlərə görə Sizə bir daha dərin minnətdarlığımızı bildirir, Sizə uzun ömür, möhkəm can sağlığı, səadət arzulayır, gələcək fəaliyyətinizdə ən böyük uğurlar və qələbələr diləyirik.*

*Sizləri bir daha əmin edirik ki, respublikamızın ictimai-siyasi həyatında həmişə ön sıralarda gedən xaçmazlılar bundan sonra da Sizin uğurla həyata keçirdiyiniz Heydər Əliyev srateji xəttini birmənalı müdafiə edəcək və hər bir çağırışınıza əməli işimizlə cavab verəcəyik.*[1]

[1] "Xaçmaz" qəzeti. 25 dekabr 2007-ci il



Möhtərəm Prezidentimiz İlham Əliyevin uğurlu fəaliyyəti həmişə məni bu qənaətə gətirir: Heydər Əliyev ölməyib! O bizim sıralarımızdadır. Əgər Ulu öndərin böyük ideyaları, amalları bizimlədirsə, deməк, bu belədir. Əgər onun siyasi kursunu ləyaqətlə davam etdirən gənc Prezidentimiz İlham Əliyev bu gün xalqın, millətin ürəyindən xəbər verən işlər görürsə, üstəlik, bütün dünya onu qəbul edirsə, demək, Heydər Əliyev sağdır, öz böyüklüyü, müdrikliyi, dühası və əməlləri ilə onu sevən hər kəsin qəlbində yaşayır! Azərbaycan isə İlhamla, inamla irəliləyir. Bu yolun önündə Heydər Əliyev dühasından nur alan İlham Əliyev gedir. Sözümün bu yerində Ulu öndərimizin İlham Əliyevi xarakterizə edərkən dediyi sözləri xatırlayıram: "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm!"

Biz də ona inanırıq. İnanırıq ki, Azərbaycan tarixində ən möhtəşəm qələbə sözünü möhtərəm Prezidentimiz cənab İlham Əliyev yazacaq. Xalqın böyük inamla, intizarla, səbirsizliklə gözlədiyi qələbə sözünü! Möhtərəm Prezidentimiz, Ali Baş komandan İlham Əliyevin xalqımıza bəxş etdəcəyi Qələbə sevinci, Azərbaycanımızın zəfər tacı olacaq![1]

[1] Bax: "Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi". "Azərbaycan" nəşriyyatı, 2005, səh.756

# XAÇMAZ:
# GÖRÜŞLƏR, DÜŞÜNCƏLƏR...



*Tərtib edənlər:* *NİZAMİ XUDİYEV*
*filologiya üzrə elmlər doktoru, professor*
*Əməkdar elm xadimi*

*RAMİZ MƏMMƏDOV*
*Xaşmaz rayonu Xudat şəhər 1 saylı orta məktəbin müəllimi*

*Elmi redaktoru:* *ZAHİD XƏLİLOV*
*filologiya üzrə elmlər doktoru, professor*

**Xaçmaz: görüşlər, düşüncələr... Bakı, "Elm və təhsil", 2014.**

Kitabda Azərbaycanın dilbər guşələrindən biri olan Xaçmaz və onun qədirbilən, qonaqpərvər insanları ilə bağlı görüşlər, düşüncələr öz əksini tapmışdır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**© "Təhsil", EİM, 2010**
**© "Elm və təhsil", 2014**

## BİR NEÇƏ SÖZ

*Xaçmaz rayonu Azərbaycanın Şimal qapılarından biri olmaqla respublikamızın ictimai-siyasi və iqtisadi həyatında mühüm rol oynayır. Ölkəmizdə ardıcıl surətdə həyata keçirilən geniş və məqsədyönlü islahatlar rayonun simasını köklü surətdə dəyişmiş, əhalinin rifahı yüksəlmiş, sabitlik və əmin-amanlıq şəraitində qayğı, diqqət daha da artırılmışdır.*

*Üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilər zamanı 2005-ci il sentyabr-oktyabr aylarında seçki kampaniyası ilə əlaqədar Xaçmazın 103 yaşayış məntəqəsində seçicilərimlə görüşlər keçirməyi qarşıma məqsəd qoymuşdum. Həm mənə artıq doğmalaşmış Xaçmazın tarixini, mədəniyyətini, coğrafi mövqeyini, təbiətini öyrənmək, həm də seçicilərim olan insanların həyat şəraiti, problemləri, gündəlik qayğıları ilə maraqlanmaq gələcək fəaliyyətimdə mənə çox kömək edə bilərdi.*

*Həmin dövrdə bir neçə məntəqə istisna olmaqla demək olar ki, hamısında əhali ilə görüşdüm. Bu görüşlərdən xoş təəssüratlarla, səmimi hisslərlə ayrılmağımla bərabər, insanların münasibətlərindən mənəvi zövq aldım.*

*Keçirdiyim və artıq tarixə dönmüş həmin görüşlərin təəssüratlarını sizinlə bərabər bir daha yaşamaq məqsədilə müxtəlif məntəqələrdə qədirbilən insanların o zaman videolentə alınmış bəzi çıxışlarını kitaba əlavə etməyi özümə borc bildim.*

*Çoxsaylı görüşlər, toy və yas məclislərindəki iştirakım, oradakı səmimi, açıq söhbətlər mənə yerlərdəki vəziyyəti, problemləri, camaatın dərd-sərini öyrənməyə daha çox*



*imkan verdi. Kəndbəkənd gəzdikcə, ziyalılarla, ağsaqqallarla, yerli camaatla görüşdükcə məndə bu bölgəyə, insanlara sevgi, məhəbbət daha da artdı. Səmimi deyim ki, Xaşmaz mənə doğma Şahbuzumu, təbiəti, meşələri isə Batabatı xatırlatdı. Məndə bir daha əminlik yarandı ki, doğma Azərbaycanımızın hər bölgəsi hər birimizə əzizdir. Xaşmazda mən özümü bəzi deputatlığa namizədlərin dediyi kimi "yad" yox, doğmadan da doğma hiss etdim.*

*Ən çox xatırlanan və heç vaxt unudulmayan isə görüşlərdən yorğun Bakıya qayıdarkən keçirdiyim ağır avtomobil qəzasından sonra xaçmazlıların mənə göstərdikləri doğma münasibət oldu. Saysız-hesabsız zənglər, teleqramlar, görüşlər, insanların baş verən hadisədən təəssüf hissi keçirmələri, narahatçılıqları mənim tezliklə normal həyata qayıtmağımda həlledici rol oynadı.*

*Əziz xaşmazlılar! Həyatım boyu sizə minnətdaram, borcluyam və mübaliğəsiz deyirəm ki, sizin səsləriniz məni təkcə deputat etmədi, eyni zamanda, tezliklə qaynar həyata qaytardı.*

*Keçirdiyim və artıq tarixə dönmüş həmin görüşlərin təəssüratlarını sizinlə bərabər bir daha yaşamaq məqsədilə müxtəlif məntəqələrdə qədirbilən insanların o zaman videolentə alınmış bəzi çıxışlarını sizə təqdim etməyi özümə borc bildim.*

**Nizamı XUDİYEV**
***Millət vəkili***

# GÖRÜŞLƏR

## Xudat şəhəri

**Zahid Xəlil** (filologiya elmləri doktoru, professor): - Sizin bu gün deputatlığa namizəd Nizami Xudiyevlə görüşə gəlməyiniz bu siyasi hadisəyə yüksək qiymət verməyinizlə bağlıdır. Ölkəmizin hər yerində, hətta xarici ölkələrdə də respublikamızda keçiriləcək parlament seçkilərinə böyük maraq var. Bu gün kimi seçməliyik? Bu, çox vacib bir sualdır. Çünki bəzən elə adamlar seçilir ki, onlar o ada layiq olmurlar. Hər kəsin seçmək, səs vermək hüququ var. Kimə səs verəcəyini hər kəs özü müəyyənləşdirməlidir. Biz kimi seçiriksə, kimə səs veririksə, öz taleyimizi seçmiş oluruq.

Biz bu gün sizə Xaçmaz kənd seçki dairəsindən Yeni Azərbaycan Partiyasının namizədi olan filologiya elmləri doktoru, professor Nizami Xudiyevi təqdim edirik. Elə Nizami müəllimin kitabları onun böyük alim olmasından xəbər verir. İstəyirəm yadınıza Nizami Gəncəvinin bir sözünü salam:

*Qüvvət elmdədir, başqa cür heç kəs,*
*Heç kəsə üstünlük eyləyə bilməz.*

Doğrudan da, elmli, bilikli insanlar, alimlər yüksək mədəniyyətə sahib olan adamlar cəmiyyətin ən layiqli üzvləridir.

Siz Nizami Xudiyevin tərcümeyi-halını dinləyin, sonra söhbətimizi davam etdirək. (Nizami Xudiyevin tərcümeyi-halı oxunur.)



Hörmətli seçicilər, tərcümeyi-haldan gördüz ki, Nizami müəllimin nə qədər mükafatları, fəxri adları var. Bu, şübhəsiz ki, 56 yaşlı bir adam üçün həddən artıq çoxdur.

Hörmətli seçicilər! Seçiminizdə yanılmayın. Sizə kömək edəcək, problemlərinizi həll etməyə real imkanı olan namizədə – Nizami Xudiyevə səs verin!

**Kələntər Kələntərli** (şair) : - Bir dəfə jurnalist mənə sual verdi ki, ən çox sevdiyin söz hansıdır. Dedim ki, müəllim. Müəllim bizə savad, elm, bilik verir. Sizin bu bölgədən - Xaçmaz kənd seçki dairəsindən deputatlığa namizəd Nizami Xudiyev də müəllimdir.

Nizami müəllim institutu bitirəndən sonra Elmi Şuranın qərarı ilə «Azərbaycan dilçiliyi» kafedrasında müəllim kimi fəaliyyətə başlayıb, rektorluğa qədər yüksəlib. Nizami müəllim çox böyük alimdir.

Bir xalqı məhv etmək üçün əvvəlcə o xalqın dilini əlindən alırlar. Dil olmasa, xalq yoxdur, xalq olmasa, mədəniyyət yoxdur. Nizami müəllimin dilçilik sahəsindəki uğurları çox yüksəkdir. Yazdığı kitabların çoxu da dilimizlə – Azərbaycan dili ilə bağlıdır. Onlar çox böyük, gərgin zəhmətin hesabına başa gəlib. Ona görə Nizami müəllim fəxr edilməli bir alimdir. Dilçi alimlər arasında çox böyük nüfuzu var.

Nizami müəllim qurub yaradandır. Televiziyaya sədr gələndən sonra oradakı abadlıq hamının gözü qarşısındadır.

Bu gün siz qürur duymalısınız ki, Nizami müəllim sizin dairədən deputatlığa namizəddir. O, 9 ildən artıqdır ki, Azərbaycan dövlətçiliyinə xidmət edən Azərbaycan televiziyasının sədridir.

Hörmətli seçicilər! Mən inanıram ki, siz 6 noyabrda seçki məntəqəsinə gedib ən layiqli namizədə - Nizami Xudiyevə səs verəcəksiniz.

**Yavər Əliyev** (ADPU-nun müəllimi): - Bizim bu gün bura gəlməkdə əsas məqsədimiz Xaçmaz kənd seçki dairəsindən deputatlığa namizəd Nizami Xudiyev haqqında, onun fəaliyyəti haqqında sizə ətraflı məlumat verməkdir.

Mən Nizami müəllimlə 1968-ci ildən tanışam. Özüm Ağdam rayonundanam. Biz dostuq, yoldaşıq. Onu demək istəyirəm ki, Nizami Xudiyev hələ tələbə ikən xeyirxah işlər görürdü. O, institutda Nizami Gəncəvi təqaüdü ilə oxuyurdu. Biz də çalışırdıq ki, onun kimi qabaqcıl olaq, fəal olaq.

Nizami Xudiyev Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Həmkarlar İttifaqı Komitəsinin sədri işlədiyi dövrdə institutun Xankəndində yerləşən filialı Gəncəyə köçürüldü. Bu, Nizami müəllimi çox narahat etdi. O çalışırdı ki, filial Şuşada fəaliyyət göstərsin. Nizami Xudiyevin sədrliyi ilə xüsusi qrup yaradıldı. Biz ora getdik. Nizami Xudiyevin əməyi sayəsində institutun filialı yenidən Gəncədən Şuşaya qaytarılıb fəaliyyətə başladı. Mən orada neçə dəfə özüm Nizami Xudiyevin həyatının təhlükə ilə qarşılaşmasının şahidi oldum. Vertolyot qəzasından onu Allah xilas elədi.

Nizami Xudiyev hara gedirsə, ancaq qurub yaratmaqla məşğuldur. Mən inanıram ki, o, qısa vaxtda sizin problemlərinizin də həllinə kömək edəcək. Ona görə sizi parlament seçkilərində real imkanı, potensial gücü olan namizədə - Nizami Xudiyevə səs verməyə çağırıram.



**Cəmil Bədəlov** (YAP Xaçmaz Rayon Təşkilatının üzvü): - Mən sizi salamlayıram. Bura dünyanın ən qiymətli hədiyyəsini gətirmişəm. Bu sünbüldür. Yadıma 90-cı illərin çətin günləri düşür. Onda vətənimiz əldən gedirdi. Azərbaycan parçalanmaq təhlükəsi qarşısında idi. O vaxt respublikanın tanınmış ziyalıları Naxçıvana – Heydər Əliyevə müraciət etdilər. O günlə bu günü müqayisə etsək, görərik ki, necə böyük işlər görülüb. Nizami müəllim öz tarixi missiyasını yerinə yetirib. Üzü ağ, alnı açıqdır. O, nə qədər müəllimlər, pedaqoqlar yetirib.

Heydər Əliyev Xaçmaz torpağında qardaş qırğınının qarşısını aldı. Bu gün biz bu torpaqda gözəl nemət olan sünbül bitiririk. Həmişə arzu etmişəm ki, Heydər Əliyevi ikinci dəfə hakimiyyətə gətirən adamlara bu sünbüldən verim. İndi onu sizə təqdim edirəm.

Nizami müəllim, biz - Yeni Azərbaycan Partiyasının Xaçmaz Rayon Təşkilatının üzvləri öz namizədimizlə fəxr edirik və bilirik ki, qədirbilən, zəhmətkeş camaatımız hamılıqla sizə səs verəcək.

## Köhnə Xudat kəndi

**Şəfaəddin Hacıyev** (kənd sakini): - Hörmətli seçicilər! Nizami müəllim öz platforması haqqında çox geniş danışdı. Əgər o, çıxış etməsəydi belə, biz onu yaxşı tanıyırıq. Ona görə mən bütün seçiciləri Nizami Xudiyevə səs verməyə çağırıram.

Biz bu yaxınlarda Milli Məclisə deputat seçəcəyik. Seçdiyimiz o deputat isə bizi parlamentdə təmsil edəcək. Bilirik ki, deputatlar dünyanın bir çox ölkələrində olurlar. Respublikamızı təmsil edirlər. Nizami Xudiyev də belə deputatlardandır.

Nizami müəllim görkəmli pedaqoqdur. Özünün dediyi kimi, balalarımız onun yazdığı kitablardan ana dilimizi mükəmməl öyrənirlər. Ona görə də Nizami müəllimə minnətdarıq.

Nizami Xudiyev xeyirxah bir insandır. O, qısa vaxt ərzində Xaçmaz-Xudat camaatı üçün çox böyük işlər görüb. Və biz inanırıq ki, bu işlər gələcəkdə də davam edəcək.

Əziz həmyerlilərim! Mən sizi belə bir xeyirxah insana səs verməyə çağırıram.

**Ağaverdi Qədirov** (Həsənqala kənd orta məktəbinin direktoru): - Hörmətli Nizami müəllim, mən APİ-nin 1977-ci il məzunuyam. Ali məktəbi bitirərkən çəkdirdiyimiz "Məzun"un yuxarı hissəsində 3 nəfərin şəkli var. Rektor Haşım Ağayevin, prorektor Şükür Sadıqovun və İnstitut Həmkarlar Təşkilatının sədri Nizami Xudiyevin. Mən özümü Nizami Xudiyevin və digər adlarını çəkdiyim müəllimlərimin yetirməsi sayıram. Onların mənim üçün sərf etdikləri əməyi doğrultmuşam. 28 illik pedaqoji stajım var. "Qabaqcıl maarif əlaçısı" döş nişanına, "Metodist müəllim" adına layiq görülmüşəm. Buna görə sizə öz təşəkkürümü bildirirəm.

Nizami müəllim, sizə 2000 nəfərlik Həsənqala kəndinin əhalisi adından "xoş gəlmisiz" deyirəm. Mən çox sevinirəm ki, siz bu dairədən deputat olmaq istəyirsiniz. İnanıram ki, xalqım bunun mahiyyətini başa düşəcək və Nizami Xudiyevə səs verəcək.

Xudat zonasında ən böyük kəndlərdən biri Həsənqala kəndidir. Böyük bir əraziyə malikdir. Eyni zamanda da qədim kənddir. tünc dövründən ora yaşayış məskəni olmuşdur. Həsənqala tarixi abidəsi bu gün də var. Bu kəndin



ziyalısı kimi sizi əmin edirəm ki, bizim Həsənqala kəndinin seçiciləri bir nəfər kimi sizə səs verəcəklər.

## Nərəcan kəndi

**Camalağa Musayev** (kənd ağsaqqalı): - Nizami müəllim, çox şadıq ki, bu gün bizim Nərəcan kəndinə gəlmisiz. Çox sevinirik ki, bizim Xaçmaz kənd seçki dairəsindən deputatlığa namizəd məhz sizsiz. Sağ olsun kənd camaatı. Məni ağsaqqal kimi dinləyir, hörmətimi saxlayırlar. Mən də bu gün onlara müraciət edirəm ki, bizə ancaq Nizami Xudiyev lazımdır. Problemlərimizi ancaq və ancaq o, həll edə bilər. Sizə seçkilərdə uğurlar arzulayıram.

**Hacı Hacıyev** (kənd sakini, tələbə yoldaşı): - Nizami müəllim, bura mənim elim, obamdır. Mən bu kənddə doğulmuşam. Bu elin adamı kimi sizə "xoş gəlmisiniz" deyirəm. Atalar deyib ki, işi bacarana tapşır.

Hörmətli kənd sakinləri! Mən Nizami müəllimi 1966-cı ildən tanıyıram. Onun elə o vaxtdan bir məqsədi var idi. Oxumaq, elm adamı olmaq. O, arzusuna nail oldu. Öz əməyinin, biliyinin sayəsində gəlib bu günkü səviyyəyə çatıb. Yazdığı saysız-hesabsız kitablar zehninin, yuxusuz gecələrinin məhsuludur. Nizami müəllim balalarımız üçün dərsliklər yazır. Özü də «Azərbaycan dili» dərslikləri. Onlara dilimizin incəliklərini öyrədir. Buna görə hamımız Nizami müəllimə borcluyuq.

Əziz kənd sakinləri! Mənim həmvətənlərim. Seçimi düz etmək lazımdır. Ağa qara demək olmaz. Nizami müəllim dünyagörmüş insandır. O, həm alimdir, həm ictimai xadimdir, həm siyasət adamıdır - Milli Məclisin üzvüdür.

Ölkəmizi dünyanın hər yerində ləyaqətlə təmsil edir. Biz sevinməliyik ki, belə bir insan deputatlığa namizədliyini məhz bizim bölgədən verib. Bu, Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevin bizim bölgəyə olan qayğısı, diqqətidir ki, bu gün Nizami müəllim burdadır. İllərdən bəri yığılıb qalan qalaq-qalaq problemləri həll etmək üçün, bizə kömək etmək üçün gəlib. Özü də problemləri həll etmək üçün onun real imkanları genişdir.

Nizami müəllimin Milli Məclisdə təmsil olunması üçün ona bizim dəstəyimiz, səsimiz lazımdır. Atalar deyib ki, görünən kəndə nə bələdçi. Nizami müəllim elm adamıdır, professordur, halal zəhmət adamıdır. Mən sizin hamınızı ona səs verməyə çağırıram.

**Rəfiqə İbrahimova** (orta məktəbin dil-ədəbiyyat müəllimi): - Mən Nizami müəllimi Pedaqoji İnstitutdan tanıyıram. İlk dəfə onun müəllimlik fəaliyyəti bizim qrupdan başlayıb. 1970-ci il 60-cı qrup. “Azərbaycan dilinin tarixi qrammatikası” fənnindən bizə dərs deyib. Biz Nizami Xudiyevi bir müəllim kimi çox istəyirdik.Hələ gənc ikən çox istedadlı bir insan idi. İnstitutu bitirəndən sonra da Nizami Xudiyevin fəaliyyətini həmişə izləmişik.Biz ədəbiyyatı sevməyi Nizami müəllimdən öyrənmişik. Bu gün də ondan öyrəndiklərimizi öz şagirdlərimizə öyrədirik.

Hörmətli Nizami müəllim, sizin bu bölgədən namizədliyinizi alqışlayıram və əmin edirəm ki, noyabrın 6-da Xaçmaz kənd seçki dairəsinin seçiciləri sizə səs verəcək və siz bizim deputatımız olacaqsız.



## Pirquluoba kəndi

**İsfəndiyar müəllim**: - Allah-taala yeri, göyü xəlq edəndə 18 min məxluq yaradıb. Onlardan yalnız birinə şüur bəxş edib. O da insana. Yerin, göyün müqəddəratını ona tapşırıb. Biz elə ömür sürməliyik ki, nə vaxtsa etdiyimiz səhvin peşimançılığını çəkməyək.

Azərbaycan sürətlə inkişaf edir. Dünyada ona inam, hörmət o qədər böyükdür ki, iqtisadiyyatına milyonlarla investisiya qoyulur. Respublikamızın iqtisadi, siyasi, hərbi gücü gündən-günə artır. Ancaq bir şeyi yaddan çıxarmaq olmaz ki, xalqın ən böyük sərvəti onun intellektual-mənəvi sərvətidir.

Ulu öndərimiz Azərbaycan xalqına ən böyük nemət olan azadlıq bəxş etmişdir. Heydər Əliyevin ən yaxın silahdaşlarından olan Nizami Xudiyev bu gün yazdığı 67 kitabı ilə Azərbaycan xalqının mənəviyyatına qiyməti heç nə ilə ölçülməyən investisiya qoyub. Təkcə bu kifayətdir ki, biz onu Xaçmaz bölgəsinin səlahiyyətli nümayəndəsi kimi Azərbaycan xalqının gələcəyini həll edən Milli Məclisdə görək.

Dağıstan şairi Rəsul Həmzətov yazır: “Mən cavanlığımda bir gün kənddən rayon mərkəzinə gedirdim. Bir xeyli gedəndən sonra babamla getdiyim cığıra döndüm. O cığırı babamdan başqa heç kim tanımırdı. Bir az getmişdim ki, qarşıma bir ağsaqqal çıxdı. Salam verdim. Salamımı alıb məni saxladı. Soruşdu ki, hardan gəlib, hara gedirsən? Dedim filan kənddən filan kəndə. Kimin oğlusan? Filankəsin. Mənə diqqətlə baxdı və dedi: “Bala, bu sənin babanın cığırıdır. Çalış həyatda öz cığırını tap”.

Əziz həmvətənlərim! Bu gün gözəl insanın, gözəl alimin, yaşadığı 56 ilin ömür salnaməsi ilə xalqına olan

məhəbbətini sübut etmiş bir insanın ömür cığırıdır bu kitablar. Onun gördüyü işlərdir bunlar. Buna görə Nizami müəllimə hörmət, ehtiram hamımızın borcudur.

Bu günlərdə biz böyük bir seçim qarşısındayıq. Əgər səhv addım atsaq, bunu bizə heç kəs bağışlamayacaq. Namizədliyini bizim bölgədən irəli sürmüş 19 nəfərin hər birinə hörmətim var. Amma mən deyərdim ki, Nizami müəllimə səs verək. Niyə? Çünki biz gözəl bir cəmiyyət, bir imarət tikirik. Gözəl bir memarımız ola-ola memarlıqdan xəbəri olmayan adamı niyə seçək? Bu, düz deyil. Bizim quracağımız "evin" memarı Nizami Xudiyevdir.

Nizami müəllim haqqında saatlarla danışmaq olar. Biz çalışmalıyıq ki, vətənimiz azad, xalqımız firavan yaşasın. Bu gün Azərbaycan dövlətinin gözəl rəhbəri var. Onun ən yaxın silahdaşlarından biri professor Nizami Xudiyevdir.

Mən bütün Xaçmaz kənd seçki dairəsinin seçicilərini Nizami Xudiyevə səs verməyə çağırıram.

## Mollabürhan kəndi

**Südabə Bayramova** (müəllimə): - Bütün qonaqlara xoş gəlmisiniz deyirəm. Nizami müəllim, sizi isə ikiqat salamlayıram. Çünki bir vaxtlar mən sizin tələbəniz olmuşam. "Qədim türk abidələrinin dili"ndən, "Orxon-Yenisey abidələrinin dili"ndən dərs demisiz mənə. Eşidəndə ki, siz bizim məktəbə qonaq gələcəksiz, ürəyimdə sizə deməyə o qədər sözüm var idi ki. Dahilərdən biri demişkən:

*Müəllim olsam da onun önündə,*
*Özümü yenə də tələbə sandım.*

Sizin çıxışınıza qulaq asdıqca, özümü yenə də auditoriyada hiss etdim, tələbəlik illərinə qayıtdım. Çox sevindim ki, müəllimlərimdən biri ilə burada - öz yurdumda



görüşdüm. Nizami müəllim, mən sizə uğurlar arzulayıram. Sizdən öyrəndiklərimi mən bu gün öz şagirdlərimə öyrədirəm.

Buranın öz adət-ənənələri var. Ulularдан qalan adət-ənənələr bu gün də qorunub saxlanır. Bu kənddə böyüyə hörmət var. Bu kənddə elmə, maarifə yüksək qiymət verilir. Bu məktəbi bitirən şagirdlərin sorağı çox uzaqlardan gəlir. Bu balaca kənddə ziyalı, oxumuş adam çoxdur. Onlar elmə, alimə qiymət verməyi bacarırlar. Sizə seçkilərdə uğurlar arzulayırıq.

## Mürşüdoba kəndi

**Səfər Mövsümov** (kənd sakini): - Bu gün biz görkəmli alim, əməkdar elm xadimi, professor, Milli Məclisin deputatı Nizami Xudiyevin görüşünə toplaşmışıq. Bütün bu məclis iştirakçıları adından Nizami Xudiyevə "xoş gəlmisiz" deyirik.

Nizami Xudiyev 56 illik ömrünün 35 ilini təhsillə, elmlə, ictimai fəaliyyətlə məşğul olan bir şəxsiyyətdir. Elə bir ev yoxdur ki, Nizami müəllimi orada tanımasınlar. 3-cü sinifdən başlayaraq 11-ci sinfə qədər bütün şagirdlər Azərbaycan dilini onun yazdığı dərsliklərdən öyrənirlər. Ona görə Nizami müəllim həm də uşaqların, gənc nəslin ən yaxın dostudur.

Elə bir məktəb yoxdur ki, orada dil-ədəbiyyat müəllimi olmasın. Nizami müəllim həmin müəllimlərin ya tələbə yoldaşıdır, ya da müəllimidir. Deməli, Nizami müəllim müəllimlər müəllimidir. O, öz fəaliyyəti sayəsində, öz halal zəhməti sayəsində müəllimlikdən rektorluğa qədər yüksəlib. Hazırda Azərbaycan Respublikasının əməkdar elm xadimi, professordur.

Nizami müəllim eyni zamanda, ictimai xadimdir. 10 ildir ki, Milli Məclisin deputatıdır. Həmişə Milli Məclisin iclaslarını izləyirəm. Orada Nizami müəllim hər hansı müzakirə olunan məsələ ilə bağlı çox tutarlı çıxışlar edir. Mən inanıram ki, 56 saylı Xaçmaz kənd seçki dairəsinin seçiciləri Nizami müəllimə etimad göstərib şimal bölgəsindən Milli Məclisə deputat seçsələr, o, xaçmazlıların etimadını doğruldacaq və Milli Məclisdə onları ləyaqətlə təmsil edəcək.

Nizami müəllim xeyirxah insandır. Qısa vaxt ərzində Xudat camaatı üçün çox iş görüb. Əgər möhtərəm Prezidentimiz şimal bölgəsində "Regionların sosial-iqtisadi inkişafı haqqında Dövlət Proqramı"nı həyata keçirmək üçün Nizami müəllimi bura deputatlığa namizəd göndəribsə, deməli, Nizami müəllimin gücünə, ictimai-siyasi xadim kimi fəaliyyətinə bələd olduğu üçün belə edib.

Hörmətli məclis iştirakçıları! Mən hamınızı 6 noyabr 2006-cı ildə keçiriləcək parlament seçkilərində Nizami Xudiyevə səs verməyə çağırıram.

###Ləcət kəndi

**Nazim Ağayev** (Xaçmaz Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri): - Əziz və hörmətliLəcət camaatı! Əziz və hörmətli dostlar, bacı və qardaşlar! Bu gün biz çox qürur hissi ilə öz namizədimizin - Nizami Xudiyevin çıxışına qulaq asdıq. Bir daha hamımız gördük ki, Yeni Azərbaycan Partiyasının, onun sədrinin, İdarə Heyətinin bizim bölgədən irəli sürdüyü namizəd nəyə qadirdir, hansı intellektual səviyyəyə malikdir. Biz fəxr edirik ki, bu bölgədən məhz Nizami Xudiyev kimi xalqımızın layiqli oğlu deputatlığa namizəddir. Mən Xaçmaz camaatını xoş-



bəxt insanlar hesab edirəm. Ona görə ki, Nizami müəllim kimi bir namizəd bu bölgədən deputat seçiləcək. Biz buna əminik. İnanırıq ki, o, bizim problemlərimizi parlament, hökumət səviyyəsində qaldırmağa qadir bir insandır.

Burada Nizami müəllimin kitabları düzülüb. Çoxdur, sayı-hesabı yoxdur. Elə bir kitabı - Zamanın axarı ilə az qala 1000 səhifədir. Özü də elmi kitabdır. Nizami Xudiyevin 67 kitabı var. İndi özünüz fikirləşin ki, bu, nə deməkdir. Hər biri də xalqın dili, taleyi ilə bağlıdır. Nizami müəllim çox böyük alimdir, ictimai-siyasi xadimdir. Ona görə xaçmazlılar öz seçimlərini ediblər. Xaçmaz kənd seçki dairəsinin seçiciləri parlament seçkilərində ona səs verəcəklər.

**M.Hüseynova** (YAP-ın üzvü): - Hörmətli Nizami müəllim, hörmətli qonaqlar. Sizə Yeni Azərbaycan Partiyasının üzvləri adından "xoş gəlmisiniz" deyirəm. Bu gün Ləcət camaatı sizin görüşünüzə toplaşıb. Mən Yeni Azərbaycan Partiyasının üzvü kimi sizin Milli Məclis deputatlığına namizədliyinizi bəyənirəm. Əmin ola bilərsiz ki, Ləcət camaatı sizi dəstəkləyəcək və siz bizim dairənin deputatı olacaqsınız. Nizami Xudiyevin Azərbaycan dövlətinin və dövlətçiliyinin qorunub saxlanmasında, inkişafında çox böyük rolu var.

Hörmətli Nizami müəllim! Siz elm adamısız. Qazandığınız hörmətin də miqyası çox böyükdür. Bir təhsil işçisi kimi sizi əmin edirəm ki, artıq bizim deputatımızsız. Biz Ümummilli liderimiz Heydər Əliyevin siyasətinin davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin sədri olduğu Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş namizədi - Nizami Xudiyevi dəstəkləyirik. Hamılıqla ona səs verəcəyik. Sizə can sağlığı və uğurlar arzulayırıq.

**M.Hacıxanov** (Kənd Veteranlar Şurasının sədri, 83 yaşlı ağsaqqal): - Hörmətli Ləcət camaatı! Nizami müəllimin çıxışından eşitdik ki, o, hələ deputat olmamış bizim üçün nə qədər işlər görüb. Ona görə Nizami Xudiyev bizim deputatımızdır.

83 yaşım var. Prezidentimiz İlham Əliyevi mən daimi prezident sayıram. Çünki onun gördüyü işlər, camaatla görüşləri hamısı göz qabağındadır. Ona görə mən inanıram ki, Azərbaycan yaxın gələcəkdə İlham Əliyevin köməyi sayəsində çox yüksələcək. Nizami Xudiyev də İlham Əliyevin sədri olduğu Yeni Azərbaycan Partiyasının namizədidir. Ona görə də əziz xalqım, seçiminizi edin, yanılmayın. Deputat seçkilərində Nizami Xudiyevə səs verin! Bunu mən bir ağsaqqal kimi, bir müharibə veteranı kimi deyirəm və dediklərimə də inanıram.

## Bostançı kəndi

**Mövlud müəllim** (kənd sakini): - Hörmətli qonaqlar, hörmətli ağsaqqallar! Nizami Xudiyev Ümummilli liderimiz Heydər Əliyevin yetirməsidir. Onun siyasi məktəbini keçmiş bir insandır. Eyni zamanda, Azərbaycan xalqının ən layiqli oğullarındandır. Biz fəxr etməliyik ki, Nizami müəllim bu bölgədən deputatlığa namizəddir. Bu Allah-təalanın bizə göndərdiyi ən böyük töhfədir. Çünki o, bizim bundan sonra daha yaxşı yaşamağımız üçün çox çalışacaq. Mən buna əminəm. Ona görə biz gərək seçimimizdə səhv etməyək. Səhv etsək, gələcək nəsillər bunu bizə bağışlamazlar. Biz ağsaqqallar hər şeyi yaxşı görürük. Ona görə gərək ağa qara deməyək. Demək istəyənlərə də imkan verməyək.



Nizami müəllim, bu gün Bostançı kəndinin ağsaqqalları, bütün sakinləri adından sizə öz minnətdarlığımızı bildirirəm. Sizi əmin edirəm ki, yalnız sizə səs verəcəyik. Müdriklərin belə bir kəlamı var: İnsan yaranmayı ki, təkcə özü yaşasın. O yaranıb ki, həm də yaşatsın». Nizami Xudiyev məhz belə insandır. O, özü yaşaya-yaşaya, yaratmağı, yaşatmağı da bacarır. Mən sizi ona səs verməyə çağırıram.

## Yeni Həyat kəndi

**Əhməd Şadıyev** (kənd ağsaqqalı): - Bu gün bizim üçün əlamətdar gündür. Çünki dilçi alim, Yeni Azərbaycan Partiyasının yaradıcılarından olan, cənab Prezidentin ən yaxın silahdaşlarından biri Nizami Xudiyev kəndimizə seçicilərlə görüşə gəlib.

Hörmətli Nizami müəllim, sizin təbliğata ehtiyacınız yoxdur. Çünki sizin həyat yolunuz, yazdığınız kitablar, rəhbərlik etdiyiniz Azərbaycan televiziyası bizə onu deməyə əsas verir ki, siz Azərbaycanın dövlət müstəqilliyini hər şeydən üstün tutub dövlətimizə və xalqımıza ləyaqətlə xidmət edirsiz. Qısa müddətdə Xudatda gördüyünüz işlər onu göstərir ki, sizin üçün əlçatmayan heç nə yoxdur. Seçkilər yaxınlaşdıqca camaatımız sizi daha çox sevir və inam bəsləyir.

Sizin yazdığınız kitablar Azərbaycan elminə, mənəviyyatına heç nə ilə əvəz olunmayan böyük sərvətdir. Xüsusən, Ulu öndərimiz Heydər Əliyev haqqında yazdığınız kitablar onu göstərir ki, xalqını sevən insan sizin kimi olmalıdır. Siz Heydər Əliyevin anadan olduğu torpağın yetirməsisiz.

Heydər Əliyev Azərbaycan dövlət müstəqilliyinin yaradıcısıdır. Heydər Əliyev biz insanlara qəhrəmanlığı, vətənə məhəbbət hissini miras qoyub. Özündən sonra Azərbaycan xalqının taleyini, dövlətini, dövlətçiliyini İlham Əliyev kimi böyük şəxsiyyətə tapşırıb.

Nizami müəllim, biz artıq seçimimizi etmişik. Sizin bu bölgədən deputat seçilməyiniz bizim üçün qələbə olacaq. Ən azı ona görə ki, bizi Milli Məclisdə Nizami Xudiyev kimi bir şəxsiyyət təmsil edəcək. Sizə parlament seçkilərində uğurlar arzu edirəm.

**Sona Dövlətova** (dil-ədəbiyyat müəllimi): - Hörmətli Nizami müəllim, mən dil-ədəbiyyat müəllimiyəm. Sizin yaradıcılığınızla yaxından tanışam. İndi tərcümeyi-halınızla da tanış oldum. Siz Heydər Əliyev məktəbinin yetirməsisiz, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvüsüz. Biz bu partiyaya, Heydər Əliyev məktəbinə inanırıq.

Mən milliyətcə ləzgiyəm. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişəm. Azərbaycan dilini azərbaycanlılardan heç də pis bilmirəm. Bizim bir vətənimiz var. O da müstəqil Azərbaycan Respublikasıdır. Hamımız o respublikanın vətəndaşlarıyıq.

Nizami müəllim, 6 noyabr parlament seçkilərində sizə səs verəcəyimizə söz veririk.

**Qasım Əzimov** (axska türkü): - Hörmətli Nizami müəllim, mən bu gün öz kəndimin camaatı adından sizə təşəkkürümü bildirirəm. Çox şadam. Deyirlər alim gəlişi elə-obaya xeyir-bərəkət gətirər.

Milliyyətcə axska türküyəm. Biz burada məskunlaşmışıq. Sizinlə müsəlmanın ən müqəddəs ayında – 



orucluq ayında görüşürük. Seçkilərdə ancaq düzlüyə qiymət vermək lazımdır. Mən inanıram ki, belə də olacaq. Həqiqət qalib gələcək və siz bizim deputatımız olacaqsız.

## Maqsudkənd kəndi

**Heybət Əzimov** (müəllim): - Əziz və hörmətli Nizami müəllim. Siz bizim Maqsudkənd kəndinə xoş gəlmisiniz. Camaat, bu gün elə bir insanla görüşürük ki, onun titullarını natiqlər söylədilər. Onları sayıb qurtarmaq olmaz. Nizami Xudiyev Heydər Əliyev məktəbinin yetirməsidir. O, Xaçmaz camaatı üçün çox işlər görəcək.

Nizami müəllim, biz sizin adınızı fəxrlə çəkirik, sizə uğurlar arzulayırıq.

Nizami müəllim görkəmli şəxsiyyətdir, görkəmli alimdir. Bizim məktəbin müəllimlərinin çoxu Pedaqoji İnstitutun tələbələridir. Biz çalışırıq ki, bu kəndin balalarını layiqli şəxsiyyətlər kimi yetişdirək.

Nizami müəllim, biz sizə uğurlar diləyirik. Hər dəfə sizi televizorda görəndə sevinirik. Mən sizi həmişə özümə mayak sayıram. Siz inanın ki, bizim kəndin əhalisi əməksevər, layiqli şəxsə qiymət verməyi bacaran insanlardır. Biz 6 noyabrda hamılıqla sizə səs verəcəyik.

Sizə işlərinizdə uğurlar, ailə səadəti arzulayırıq.

**R.Hüseynov** (kənd sakini): - Bu gün deputatlığa namizədlə görüşə yığışmışıq. Nizami müəllim kəndimizə gəlməklə özündən əvvəlki deputatlara ibrət dərsi verdi. Çox deputatlar seçmişik, amma üzlərini də görməmişik. Bu insan gör nə qədər sadə, qəlbi təmizdir ki, gəlib kənd sakinləri ilə görüşür, onları dinləyir. Nizami müəllim, sizə

bu yolda uğurlar, can sağlığı arzulayıram. Arzu edirəm ki, deputat olandan sonra da vaxt tapıb tez-tez bizimlə görüşə gələsiz. Bütün kənd sakinlərini 6 noyabr parlament seçkilərində Nizami Xudiyevə səs verməyə çağırıram.

**C.Rəcəbov** (gənc kənd sakini): - Nizami müəllim, sizi salamlayıram. Gənclər adından danışmaq üçün mənə söz verildiyinə görə çox sevinirəm. Sizə bir şer həsr etmişəm.

*Bu gün gəlişinlə sevindi kəndim,*
*Kəndimin oğluyam, ilhama gəldim.*
*Hamı tək mənim də sevindi qəlbim,*
*Sizi salamlayım, ey böyük insan,*
*Heydər məktəbinin uğurlu yolu,*
*Uğurla gedirsiz siz də bu yolu.*
*Namuslu xalqımın qeyrətli oğlu,*
*Sizi salamlayım, ey böyük insan!*
*Nizami adındı, özün dahisən,*
*Azəri elminin sanki şahısan.*
*İndi rayonumun namizədisən,*
*Sizi salamlayım, ey böyük insan,*
*Müəllim, ziyalı, yazıb-yaradan.*

Mən bütün gəncləri Nizami Xudiyevə səs verməyə çağırıram.

**H.Ələsgərov** (müəllim): - Mən Nizami müəllimlə tələbəlik vaxtlarında institutun voleybol komandasında çıxış etmişəm. Həmişə aramızda səmimi, xoş münasibət olub. Nizami müəllim heç vaxt ağa qara, qaraya ağ deyən adam olmayıb. Onun öz sözü olub. O, təmiz, halal, dediyi sözün ağası olan bir adamdır.



Əgər siz Nizami müəllimə səs versəz, bu kəndin gələcəyinə səs vermiş olacaqsız. Arzu edirəm ki, Nizami müəllim gələn dəfə bura deputat kimi gəlsin.

### Müqtədir qəsəbəsi

**Zeynət Ələkbərova** (kənd sakini): - Nizami müəllim, sizi Müqtədir camaatı adından salamlayıram. “Xoş gəlmisiz” deyirəm. Nizami müəllim, siz arxayın ola bilərsiz ki, biz hamımız yalnız sizə səs verəcəyik. Siz dünyagörmüş, intellektual səviyyəli bir adamsız. Biz tez-tez sizin Milli Məclisdəki çıxışlarınıza qulaq asırıq. Axı necə ola bilər ki, biz sizə səs verməyək. Elə sizin kitablara nəzər salsaq, bizə hər şey aydın olur. Siz Heydər Əliyevin yetirməsisiz. Biz insanlar həmişə o dahi şəxsiyyətə borcluyuq. Nə yaxşı o yenidən hakimiyyətə qayıdıb xalqı bəladan qurtardı. İndi isə onun yolunu hörmətli Prezidentimiz İlham Əliyev davam etdirir. Biz də ona əməli işlərimizlə kömək etməliyik. Ona görə də builki parlament seçkilərində Yeni Azərbaycan Partiyasının nümayəndəsinə – Nizami Xudiyevə səs verəcəyik. Çünki Nizami müəllim Heydər Əliyev məktəbini keçib, onun əməllərinin layiqli davamçılarından biridir. Biz əgər problemlərimizi həll etmək istəyiriksə, yalnız Nizami Xudiyevə səs verməliyik ki, o da bizim problemlərimizin həllində kömək etsin. Nizami Xudiyev layiqli namizəddir.

Nizami müəllim, sizə parlament seçkilərində uğurlar arzulayıram.

**Nəcmulla Nurullayev** (kənd ağsaqqalı): - Hörmətli Nizami müəllim, Müqtədir camaatı adından sizə uzun ömür, cansağlığı, seçkilərdə uğurlar arzulayıram.

Hörmətli bacılar və qardaşlar! Xatırlayırsızsa, 1981-ci ilin sentyabr ayında Heydər Əliyevlə sizin görüşünüz olmuşdu. O demişdi ki, Xaçmazın Müqtədir qəsəbəsinin torpağı çox münbit, insanları çox mehriban və sədaqətlidir. Bu gün bizim camaat fəxr edir ki, görüşümüzə ziyalı, alim, millət vəkili, professor Nizami Xudiyev gəlib. Siz əmin ola bilərsiz ki, burada müxtəlif millətlər bir ailə kimi mehriban yaşayırlar. Əminliklə, bir ağsaqqal kimi deyirəm ki, onlar hamısı sizə səs verəcəklər.

Nizami müəllim, bizim problemlərimiz çoxdur. Bilirik ki, onları yalnız sizin köməyinizlə həll edə bilərik. Hamımız 6 noyabr parlament seçkilərində sizə səs verəcəyik.

**B.Budaqov (kənd sakini):** - Əziz həmvətənlər! İcazə verin Milli Məclisin üzvü Nizami Xudiyevə görüşümüzə gəldiyi üçün minnətdarlıq edim. Nizami müəllimin tərcümeyi-halını dinlədik. Hər birimizə aydın oldu ki, o, kimdir. Nizami müəllim Azərbaycanın layiqli oğludur. Bu kitablar da onun necə alim olmasından xəbər verir.

Bizim seçəcəyimiz deputat təkcə Xaçmazın yox, bütün Azərbaycanın deputatı olacaq. Nizami müəllimin titullarını sadalamaqla qurtarmaq olmur. Bu qədər titul hər adama verilmir. O bu adlara layiqdir və bu adlar bizə çox şeyi deyir.

Bizi Milli Məclisdə təmsil edəcək deputat problemlərimizi həll etməyi bacarmalıdır. Onu yalnız Nizami Xudiyev edə bilər. Əgər biz ona səs versək, yanılmarıq. Deputatlığı dövründə gördüyü işlər buna əyani sübutdur. Hər kəs burada çıxış edib, xalqa çox söz deyə bilər, çox vədlər verə bilər. Amma əsas işdir, əməldir. O işi də hər kəs görə bilməz.



Nizami Xudiyev Yeni Azərbaycan Partiyasının layiqli nümayəndəsidir. Mən inanıram ki, 6 noyabrda biz öz seçimimizi düzgün edəcəyik və Nizami Xudiyevə səs verəcəyik. O, bizim deputatımız olacaq. Nizami müəllim, sizə təşəkkür edirik.

**C.Əzimov** (kənd sakini, YAP-ın üzvü): - Hörmətli müqtədirlilər! Hörmətli Nizami müəllim! Sizi salamlayırıq. Onu demək istəyirəm ki, bizim bu gün Nizami müəllim kimi deputata böyük ehtiyacımız var, çünki bizlərin problemlərinin açarı Nizami müəllimin əlindədir. Ona görə hamımız 6 noyabrda bir nəfər kimi Nizami Xudiyevə səs verib, onu Xaçmazın deputatı seçəcəyik.

## Qusarçay kəndi

**N.Ağayev** (YAP Xaçmaz Rayon Təşkilatının İdarə Heyətinin üzvü): - Hörmətli Nizami müəllim, hörmətli seçicilər! Bu gün biz ölkəmizin, vətənimizin taleyində ən məsuliyyətli anları yaşayırıq. Hamı bilir ki, noyabrın 6-da növbəti parlament seçkiləri keçirilir və hamımız istəyirik ki, parlamentdə bizi xalqımızın layiqli övladları təmsil etsinlər. Azərbaycan dövlətinin, Azərbaycan xalqının taleyüklü məsələlərini həll edə biləcək insanlar Milli Məclisə seçilsinlər. Bu istiqamətdə də artıq bir neçə vaxtdır təbliğat kampaniyası gedir.

Yeni Azərbaycan Partiyasının bu dairədən nümayəndəsi bizim hamımızın böyük hörmət bəslədiyimiz və sevdiyimiz, yaxından tanıdığımız bir insandır. O, Milli Məclisin deputatı, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri, professor Nizami Xudiyevdir.

Hər bir seçici istəyir ki, onu Milli Məclisdə daha layiqli insan təmsil etsin. Mənə elə gəlir ki, bu dairənin seçicilərinin bəxti gətirib. Və mən inanıram ki, 56 saylı Xaçmaz kənd seçki dairəsinin bütün seçiciləri Nizami müəllimə səs verəcəklər. Çünki o, respublikada sayılıb-seçilən, Azərbaycan xalqını yüksək tribunalarda ləyaqətlə təmsil edən bir insandır. Parlamentə seçiləcək hər bir deputat möhtərəm prezidentimizə, dövlətimizə siyasi dəstək olmalıdır. Xalq da parlamentə elə oğullar seçməlidir ki, prezidentimizin köməyi və onların dəstəyi sayəsində Azərbaycan qısa müddətdə dünya dövlətləri içərisində öz layiqli yerini tutsun.

Mən Nizami müəllimi Heydər Əliyev məktəbinin şagirdi hesab edirəm. Biz Milli Məclisdə onun çox çıxışlarına qulaq asmışıq. O, real, obyektiv, xalqın mənafeyinə xidmət edən çıxışlar edir. Elə ona görə də biz Nizami Xudiyevə səs verməliyik.

Bir məqamı da nəzərinizə çatdırım. Mən də bu dairədən deputatlığa namizədliyimi verə bilərdim. Amma gəlin fikirləşək. Bu xalqı, bu camaatı Milli Məclisdə Nizami Xudiyev kimi təmsil etmək qüdrətimiz varmı? Yox! Çünki o pilləyə qalxmaq üçün həqiqətən dahi adamların ətrafında siyasi məktəb keçmək gərəkdir. Parlament peşəkarlardan ibarət olmalıdır, alimlərdən ibarət olmalıdır. Parlament həqiqətən xalqını, dövlətini sevən insanlardan ibarət olmalıdır. Bütün bu keyfiyyətlər Nizami Xudiyevdə var. O, bizim hər birimizi Milli Məclisdə layiqincə təmsil edəcək. Buna görə də mən Yeni Azərbaycan Partiyası Xaçmaz Rayon Təşkilatının üzvü kimi inanıram ki, bu dairənin seçiciləri Nizami Xudiyevə səs verəcəklər.



**Q.Qədirov** (kənd sakini): - İcazə verin hamınızın adından Nizami müəllimə “xoş gəlmisiz” deyim. Onu salamlayım. Seçki kampaniyasında ona uğurlar arzulayım. Əlbəttə, hər bir insan arzu edir ki, cəmiyyətdə yüksək mövqe tutsun. Amma hər kəs düşünməlidir ki, buna necə nail olmaq olar. Bunun üçün insan xalqına, millətinə layiqincə xidmət etməlidir. Belə insanlardan biri bu gün seçki platforması ilə bizim görüşümüzə gələn Nizami Xudiyevdir. Nizami müəllimin böyük nailiyyətlərinin kiçik bir hissəsi gözümüzün qarşısındadır. Hər birimiz ana vətən, ana torpaq, ana dili sözlərini tez-tez işlədirik. Balalarımıza ana dilini öyrədən dərsliklərimizin müəllifi Nizami Xudiyevdir. Bu, danılmaz faktdır.

Nizami Xudiyev kimdir? Şəxsən o, məni tanımır. Mən isə onu yaxşı tanıyıram. Çünki mətbuatı, televiziyanı izləyərkən onun kim olduğunu görürəm. O, ictimai-siyasi xadimdir, böyük alimdir, türkoloqdur. Bunu tək Azərbaycan yox, bütün dünya qəbul etmişdir. Nizami müəllimin tərcümeyi-halı oxunarkən biz gördük ki, Nizami Xudiyev hansı titulları, fəxri adları qazanıb.

Nizami Xudiyev Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvüdür. Onun üzvü olduğu partiya xalqın rifahı naminə çox işlər görür. Mən bütün Xaçmaz kənd seçki dairəsinin seçicilərini Nizami Xudiyevə səs verməyə çağırıram.

### Yalama kəndi

**Vaqif Sərdarov** (YAP Xaçmaz Rayon Təşkilatının Yalama kəndi üzrə nümayəndəsi): - Bu gün qarşınızda böyük sevinclə çıxış edirəm. Əziz yalamalılar, hörmətli dostlar, bacı və qardaşlar! İcazə verin hamınızın adından

görkəmli alim, Azərbaycanın gələcəyi naminə çox işlər görə bilən hörmətli Nizami Xudiyevə bu gün bizimlə görüşə gəldiyinə görə öz salamlarımı və dərin minnətdarlığımı bildirim. Xoş gəlmisiz.

Nizami müəllim, Ulu öndərimiz, Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan xalqına böyük nemətlər bəxş etmişdir: azadlıq, dövlətçilik. Onun Azərbaycan xalqına verdiyi böyük töhfələrdən biri də bu dövlətə, xalqa xidmət edən Nizami Xudiyev kimi şəxsiyyətlərdir ki, onunla uzun müddət çiyin-çiyinə işləyib. Bu gün də Ulu öndərin ideyalarına sadiq qalaraq elmi-pedaqoji fəaliyyəti, dövlət strukturlarındakı işi ilə Azərbaycanın gələcəyi naminə əlindən gələni əsirgəmir. Nizami müəllimin kitabları, monoqrafiyaları göz qabağındadır. Bunların içərisində "Ana dili" kitabını gördüm.

Ən böyük sərvətlərdən biri də xalqın ana dilidir. Doğrudan da, ana dili xalqın milli sərvətidir. İnsan anasını, vətənini sevdiyi qədər öz ana dilini də sevməlidir. Nizami Xudiyevin təkcə bu sahədə olan tədqiqatları xalqımızın çox böyük sərvətidir.

Biz çalışmalıyıq ki, Milli Məclisdə bizi elə deputat təmsil etsin ki, həqiqətən öz torpağına, xalqına, dövlətinə, dövlətçiliyinə sadiq insan olsun. O insan Azərbaycanı xarici ölkələrdə də ləyaqətlə təmsil edə bilsin. Çünki bu gün iqtisadi, siyasi cəhətdən gündən-günə inkişaf edən Azərbaycan Avropa, dünya ölkələrinə inteqrasiya edir.

Hörmətli Nizami müəllim. Yalama camaatı həmişə Azərbaycan dövlətinə, dövlətçiliyinə, xalqına, Prezidentinin siyasi kursuna sadiqliyi ilə fərqlənən insanlar olub. Mən sizi əmin edə bilərəm ki, Yalama camaatı hamılıqla sizə səs verəcək.



Nizami müəllim siyasi və dövlət xadimi kimi Azərbaycanın, respublikanın şimal bölgəsi olan Xaçmazın, Yalamanın inkişafına kömək edəcək.

Sizə parlament seçkilərində uğurlar arzu edirəm.

**Sultanmurad Əlixanov** ( kənd sakini): - Hörmətli yoldaşlar! Hamı bilir ki, qarşıdan parlament seçkiləri gəlir. Bu seçkilərdə iştirakınız vacibdir. Mən Nizami müəllimi Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri kimi yaxşı tanıyıram. Bu gün o, həm də Xaçmaz kənd seçki dairəsindən deputatlığa namizəddir. Bilirik ki, dövlətin mühüm qərarlarının yerinə yetirilməsində, gənclərin vətənpərvər ruhda böyüməsində Nizami müəllimin böyük əməyi var, qayğısı çoxdur. Müstəqil Azərbaycanın qarşısında mühüm problemlər durur. Bunları yerinə yetirmək üçün bizə layiqli deputat lazımdır. O da Nizami Xudiyevdir. Bilirik ki, bu işin öhdəsindən o, layiqincə gələcək.

**Kələntər Kələntərli** (şair ): - Həyatda elə insanlar olur ki, onlar haqqında danışanda gərək ürəyinin qapısını taybatay açasan, sözə xəsislik etməyəsən. Nizami müəllim elə insanlardandır. Siz onun tərcümeyi-halı ilə tanış olmusuz. Görün nə qədər kitabların müəllifidir. Özü də ana dilimiz haqqında. Dil xalqımızın milli sərvətidir. Dil yoxdursa, o xalq da yoxdur. Dil yoxdursa, o xalqın mədəniyyəti də yoxdur.

Bu gün Azərbaycan radiosunda ləzgi dilində verilişlər verilməsi çox böyük hadisədir. Bu işdə Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri Nizami müəllimin çox böyük köməyi var.

Mən fəxr edirəm ki, burada Nizami Xudiyev haqqında söz deyirəm, sizin qarşınızda çıxış edirəm. O, çox dəyərli bir insandır. Onun haqqında nə qədər danışsan, yenə azdır. Nizami müəllim televiziyaya sədr gələndən sonra ora tamam dəyişdi. Nizami müəllim yüksək mədəniyyətə, yüksək etikaya, yüksək əxlaqa malik bir insandır. O bu bölgənin problemlərini yaxşı bilir. Onları həll etmək üçün real imkanları var. Ona görə siz ona səs versəz, yanılmazsız. Sizə seçkilərdə uğurlar arzulayıram.

**Cəlil Balamətov** (kənd sakini): - Nizami müəllim, sizə, qonaqlara Yalama camaatı adından xoş gəlmisiz deyirəm. Mən Nizami müəllimi tələbə vaxtından, institutda komsomol komitəsinin katibi olan vaxtdan tanıyıram. Nizami müəllim bizim yerlərə çox gəlib, buranın görməli yerlərində çox olub. Nizami Xudiyevi biz həmişə gözəl müəllim, etibarlı dost kimi tanımışıq. O, bizim ağrı-acımızı heç xəbərimiz olmadan hiss edib. Qayğılarını bizdən əsirgəməyib. O cümlədən mənim kimi yüzlərlə tələbənin oxumasında, yüzlərlə elmi mütəxəssislərin hazırlanmasında onun böyük əməyi var. Bu gün bizim üçün fəxrdir ki, Nizami müəllim respublikamızda tanınan bir insandır, televiziyanın sədridir. Tez-tez hökumət və parlament nümayəndə heyətlərinin tərkibində xarici səfərlərdə olur, bizi orada ləyaqətlə təmsil edir. Ona görə mən sizi layiqli yoldaş, gənclərin dostu, himayəçisi olan bir insanın - Nizami Xudiyevin arxasınca getməyə, parlament seçkilərində onu dəstəkləməyə çağırıram.

**Gülməddin Şıxmətov** ( kənd sakini): - Bu gün biz yalamalılar üçün çox əlamətdar bir gündür. Fəxr edirik ki,



gələcək deputatımız bizimlə görüşə gəlib, qayğılarımızla tanış olur.

Respublikamızın əməkdar elm xadimi, professor Nizami Xudiyev 56 saylı Xaçmaz kənd seçki dairəsindən deputatlığa namizəddir. 6 noyabr Azərbaycan tarixinə əlamətdar bir gün kimi daxil olacaq. Biz xalqımızın ən layiqli oğluna - Nizami Mənaf oğlu Xudiyevə səs verəcəyik.

Deputat seçmək çox şərəfli, məsuliyyətli bir işdir. Ona görə doğru, düzgün seçim etməliyik. Nizami müəllimin seçkiqabağı platforması ilə yaxından tanış olanda gördük ki, o, öz nüfuzu sayəsində seçicilərin arzu və istəklərini yerinə yetirməyə qadir olan bir deputat olacaq. Adı XXI əsrin dünya alimləri və ziyalıları kitabına daxil edilmiş görkəmli alim, ziyalı olan Nizami müəllimə 6 noyabrda keçiriləcək parlament seçkilərində uğurlar arzulayıram. Hamınızı ona səs verməyə çağırıram. Ümid edirəm ki, Nizami müəllim Xaçmazın deputatı olacaq və biz də onunla fəxr edəcəyik.

**Ramiz Cavadov** (kənd sakini): - Nizami müəllim, mən sizi qabaqcadan deputat seçilməyiniz münasibəti ilə təbrik edirəm. Burada oturan yoldaşlar Nizami müəllimi həqiqətən qiyabi tanıyırlar. Mənsə onu şəxsən yaxından tanıyan bir adamam. Baxmayaraq ki, uzun müddətdir ayrılmışıq, indi görüşürük. Bu görüş mənim üçün əlamətdardır. İnanıram ki, bundan sonra belə görüşlərimiz çox olacaq. Mən sizi təbrik edirəm və bütün Yalama seçicilərini sizə səs verməyə çağırıram və bu çağırışıma da inanıram.

**Nadir Süleymanov** (YAP Xaçmaz Rayon Təşkilatının sədri): - Hörmətli Yalama camaatı, əziz həmyerlilər! Mən istərdim sizin icazənizlə Yalama və yalamalılar haqqında bir neçə kəlmə söz deyim. Yalama Xaçmazda və ümumiyyətlə, respublikamızda xüsusi yeri olan bir kənddir. Yalama qardaş Dağıstanla qonşudur. Buranın camaatı öz halal zəhməti ilə yaşayan, son tikələrini qonşuları ilə bölüşməyə hazır olan insanlardır. Yalamalılar qədirbilən insanlardır.

Bu gün respublikamız demokratiya şəraitində çox əzmlə irəliləyir, inkişaf edir. Biz YAP-ın üzvləri olaraq istəyirik ki, respublikamızda bütün seçkilər demokratik şəraitdə keçsin. Bu seçkilərə qara yaxmaq istəyənlərin cəhdi puça çıxsın. Biz onu sizin dəstəyinizlə etmək istəyirik və sizə böyük ümidlər bəsləyirik. Biz gələcək parlamentimizi formalaşdırmağa çalışırıq. Yalamalılar da kifayət qədər gözüaçıq insanlardır və istərlər ki, seçdikləri deputat onlara layiq olsun. Hər kəsin ürəyində belə bir sual ola bilər: Nizami Xudiyev bizim üçün nə edəcək? Mən bu suala cavab verməzdən əvvəl onun bu günə kimi artıq sizlər üçün etdiklərini sadalamaq istəyirəm. Nizami Xudiyev yüzlərlə elmi əsərlərin, xalqımıza lazım olan çox sanballı kitabların müəllifidir. Nizami Xudiyev respublikamıza, o cümlədən Xaçmaza ali təhsilli gözəl mütəxəssislər - müəllimlər bəxş edən alimdir, müəllimdir. Ən nəhayət, Nizami Xudiyev Azərbaycanın həyatında mühüm yer tutan, Azərbaycanın siyasi həyatında mühüm rol oynayan Yeni Azərbaycan Partiyasının yaradıcılarından biridir. Elə buna görə də Azərbaycan xalqı Nizami Xudiyevə borclu olmalı, onu dəstəkləməlidir. Əgər Nizami Xudiyev kimi insanlar olmasa idi, YAP yaranmazdı. Məhz Nizami müəllim kimi insanlar Heydər Əliyevi



ikinci dəfə hakimiyyətə gətirməklə Azərbaycan xalqını bəlalardan, parçalanmadan xilas etdilər. Elə buna görə biz Nizami Xudiyevə borcluyuq və ona səs verməliyik.

Yalamada əsasən ləzgilər yaşayırlar. Onlar azərbaycanlılara çox yaxın insanlardır. Biz həmişə bir olmuşuq, bundan sonra da bir olacağıq. Bir olub Azərbaycanın xoş gələcəyini görmək istəyən, Azərbaycan uğrunda şəhidlər verən insanlarıq. Mən əminəm ki, Nizami Xudiyev Azərbaycan üçün, bizim Xaçmaz bölgəsi üçün bundan sonra çox işlər görəcək. Bunun üçün onun həm real, həm də potensial imkanları var. Sizin hamınızı 6 noyabr parlament seçkilərində Nizami Xudiyevə səs verməyə çağırıram.

**Abbasyar Heydərov** (YAP Xaçmaz Rayon Təşkilatının İdarə Heyətinin üzvü): - Bizim Xaçmaz rayonunda iki dairə var. Xaçmaz şəhər və Xaçmaz kənd seçki dairələri. Bizim üçün çox maraqlı idi ki, bu dairələrdən YAP-ın nümayəndəsi kim olacaq. Təbii ki, biz onun seçilməsi uğrunda mübarizə aparan insanlar olacayıq. Mən eşidəndə ki, Xaçmaz kənd seçki dairəsindən YAP tərəfindən deputatlığa namizəd çox hörmətli, hamımızın yaxşı tanıdığı millət vəkili, professor Nizami Xudiyevdir, səmimi deyim ki, qısqanclıq hissi məni boğdu. Mən özüm Xaçmaz şəhərində yaşayıram. İstərdim ki, Nizami Xudiyev namizədliyini Xaçmaz şəhər seçki dairəsindən irəli sürəydi. Ancaq sonra özümdə təskinlik tapdım ki, Nizami müəllim Xaçmaz kənd seçki dairəsindən seçilsə də, bütün Xaçmazın deputatı olacaq. Ona görə sevindim. Yeni Azərbaycan Partiyasının üzvləri bir-birimizi təbrik etdik ki, bizim dairədən də ləyaqətli, çox gözəl, Azərbaycan

üçün, Xaçmaz üçün real işlər görəcək bir insan deputatlığa namizəddir.

Milli Məclis xalqın, dövlətin ən çətin məqamlarında o ağır yükü üzərinə götürməyi bacaran insanların yeridir. Mən Milli Məclisin iclaslarını diqqətlə izləyirəm. O, çox səbirlə, təmkinlə, məntiqli, səlis, obyektiv çıxışlar edir.

Əziz Yalama camaatı! Bizim partiya seçimini edib. Bilirik ki, siz də bu seçimi bəyənib dəstəkləyəcəksiz. Biz Heydər Əliyev məktəbinin şagirdlərinə səs verməliyik. Biz Heydər Əliyev idarəetmə məktəbinin iştirakçılarına səs verməliyik. Təsadüfi adamlara səs verməməliyik. İnanıram ki, yalamalılar seçimlərini düzgün edəcəklər və Yeni Azərbaycan Partiyasının layiqli nümayəndəsi olan Nizami Xudiyevə səs verəcəklər.

## Nabran qəsəbəsi

**B.Əliyev** (qəsəbə sakini, meşə işçisi): - Hörmətli Nabran camaatı! İcazə verin hamınızın adından ictimai-siyasi xadim, millət vəkili Nizami Xudiyevi salamlayım, ona öz dərin minnətdarlığımı bildirim. Nizami müəllim 56 saylı Xaçmaz kənd seçki dairəsindən deputatlığa namizəddir. İnanıram ki, bizim camaat onun şəxsiyyətinə hörmət edib, seçkilərdə hamılıqla ona səs verəcək. Nizami müəllim 10 ildir ki, Naxçıvanın deputatıdır. Bu 10 ildə o, çox işlər görüb. Haralarda olub, hansı çıxışları edib, hansı titulları, adları qazanıb. Bunların hamısı Nizami müəllimin kimliyini sübut edir. Belə bir şəxsin bizim deputatımız olmasına hamımız sevinirik. O, deputat seçilən gün biz bayram edəcəyik.

Nizami Xudiyev dünyaşöhrətli alimdir. Bir sıra xarici ölkələrdə vətənimizi ləyaqətlə təmsil edir. Ona görə



hamınızı Nizami müəllimin ətrafında sıx birləşməyə, onu dəstəkləməyə çağırıram. Nizami Xudiyev həmişə sözünü deyən şəxs olub. Bizə də belə deputat lazımdır.

Nizami müəllim, sizə seçkilərdə uğurlar arzulayırıq.

**Yavər Əliyev** (ADPU-nun müəllimi): - Əziz nabranlılar! Bizim gəlişimizin məqsədi sizə aydındır. Mən Nizami müəllimi tələbəlik vaxtından tanımışam. O, çox çalışqan tələbə idi. Nizami Gəncəvi adına təqaüd alırdı. Hələ tələbə ikən institutun bütün problemlərinin həllində yaxından iştirak edirdi. Tələbə ikən komsomol komitəsinin katibi vəzifəsinə qədər yüksəlmişdi. İnstitutu bitirəndən sonra da Elmi Şuranın qərarı ilə institutda müəllim saxlandı. Nizami müəllimin elmi fəaliyyəti haqqında da danışıldı. 67 kitabı var. Orta məktəblər üçün dərsliklər yazıb. Siyasi monoqrafiyalar yazıb. Bizim institutda Nizami müəllim bütün ictimai vəzifələrdə çalışıb. Komsomol komitəsinin katibi, İnstitut Həmkarlar İttifaqının katibi, birinci prorektor, rektor vəzifələrinə qədər yüksəlib. Sonra da Nizami müəllim dövlət televiziyasına sədr təyin olunub.

Əziz nabranlılar! Bunları deməkdə məqsədim odur ki, 6 noyabr parlament seçkilərində Nizami Xudiyevə səs verəsiz, seçiminizdə yanılmayasız.

**Zahid Xəlil** (ADPU-nun müəllimi, filologiya elmləri doktoru, professor): - Nabranın ictimai-siyasi həyatında əlamətdar hadisənin başlanğıcıdır. Bu gün görüşünüzə sizin dairədən deputatlığa namizəd Nizami Xudiyev gəlib. O, 10 ildir ki, Naxçıvan Muxtar Respublikasının deputatıdır. Sizə onu da deyim ki, Nizami müəllim Naxçıvan camaatı üçün çox böyük işlər görüb. O, sözün həqiqi mə-

nasında deputat olub, sözün həqiqi mənasında xalqla vəhdətdə olub, onların səsini eşidib və lazımi təşkilatlara çatdırıb.

Nizami Xudiyev ziyalı ailəsində böyuyub. Uzun müddət Naxçıvanın müxtəlif rayonlarında katib işləyən, Şərq qapısı qəzetinin redaktoru, Azərbaycanda bir sıra jurnalist kadrların yetişməsində əməyi olan Mənaf Xudiyevin oğludur. Nizami müəllim atasından cəmiyyətə, insanlara xidmət etmək dərsi öyrənib. Onun tərcümeyi-halından da görürsüz ki, bu boyda ictimai-siyasi hadisələrdə fəal iştirak etmək insandan böyük dəyanət tələb edir. Eyni zamanda, Nizami müəllimdə elə bir daxili güc, qüvvət var ki, o, bu monoqrafiyaları yazmaqla bərabər, eyni zamanda, deputatlıq fəaliyyətini də çox yüksək səviyyədə yerinə yetirir. Bu gün Nizami Xudiyevin namizədliyi bu bölgədən - 56 saylı Xaçmaz kənd seçki dairəsindən irəli sürülüb. Mən əminəm ki, Xaçmaz camaatı bu seçkilərdə seçimlərində yanılmayacaqlar.

**Nadir Süleymanov** (Yeni Azərbaycan Partiyası Xaçmaz Rayon Təşkilatının sədri): - Hörmətli nabranlılar! Parlament seçkiləri ərəfəsində yaşayırıq. Bütün siyasi partiyalar, siyasi bloklar öz namizədlərini irəli sürüblər. Bəzi insanlar müstəqil olaraq öz namizədliklərini veriblər. Çox qürur hissi duyuram ki, Yeni Azərbaycan Partiyasının üzvü olaraq bu gün YAP-ın siyahısı ilə namizədliyi irəli sürülmüş çox görkəmli alimimiz, respublikanın sayılıb-seçilən bir insanı haqqında söz deyirəm.

Nabran camaatı gözüaçıq, sabahı haqda düşünməyi bacaran insanlardır. Bu baxımdan sizlərə təklif edirəm ki, namizədlərin siyahısı ilə tanış olasınız. Onda kimin nəyə qadir olduğunu özünüz görəcəksiniz.



Nizami müəllimin çox parlaq həyat və fəaliyyəti bizim xalqımızın gözünün qabağındadır. Nizami Xudiyev o insandır ki, Azərbaycan parçalanma təhlükəsi altında olanda o, Naxçıvana - Heydər Əliyevin yanına gedib gəlirdi. Heç nədən qorxmadan. Əgər Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəlməsəydi, bizlərin vəziyyəti necə olardı?! Hamımız bunu yaxşı bilirik.

Nizami Xudiyev Heydər Əliyev məktəbinin davamçısıdır. O, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvüdür. Azərbaycanın Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədridir. İki dəfə Naxçıvan Muxtar Respublikasından Milli Məclisə deputat seçilib. Siyasi təcrübəsi var.

Hörmətli Nabran camaatı! Mən inanıram ki, siz seçkilərdə düzgün seçim edəcəksiniz.

**Kələntər Kələntərov** ( şair): - Əziz nabranlılar! Mən bu gün bura çox böyük sevinclə gəlmişəm. Gəlişimin məqsədi də bu il keçiriləcək parlament seçkilərində namizədliyi Xaçmaz kənd seçki dairəsindən irəli sürülmüş Nizami Xudiyevi sizlərlə tanış etməkdir.

Bizim hörmətli Nizami müəllim qızıl kimi adamdır. Mən 9 ildir Azərbaycan radiosunda böyük redaktor vəzifəsində çalışıram, bu kişi ilə bir yerdə işləyirəm. Nizami müəllim çox böyük alimdir. Mən APİ-də oxumuşam. Nizami müəllim məndən sonra institutu bitirib müəllim, sonra rektor olub. Sonra da AzTV-yə sədr gəlib. Doğurdan da çox qiymətli bir insandır.

Mən inanıram ki, Nizami Xudiyev bu bölgədən deputat seçiləcək. O, çox insanpərvər, işgüzar adamdır. Nizami müəllim şirkətə gələndən şirkət elə dəyişib ki, adam heyran olur. Deputatlığa namizədə səs verəndə, elə

adama səs vermək lazımdır ki, onun gücü olsun, qüdrəti olsun. Nizami Xudiyev çox cəsarətli insandır. O, həm də çox böyük əsərlərin müəllifidir.

Əziz nabranlılar! Əgər siz Nizami Xudiyevə səs versəz, çox şeyə nail olacaqsız.

### Niyazabad kəndi

**D.Dadaşova** (kənd sakini, müəllim): - Nizami müəllim, sizi Niyazabad kənd sakinləri adından salamlayırıq. Mən sizi yaxşı tanıyıram, tələbəniz olmuşam. Azərbaycan Pedaqoji Universitetində mühazirələrinizi dinləmişəm. Burada sizin tələbələriniz çoxdur. Onlar göstərdiyiniz yolla gedirlər. Vətəni sevmək, onu qorumaq üçün siz bizə çox şey öyrətmisiz. Biz də dərs dediyimiz uşaqları vətənpərvər, xalqını, dilini sevən vətəndaşlar kimi tərbiyə edirik.

Deputat xalqın elçisidir, deputatı xalq seçir. Biz yaxşı bilirik ki, xalqımızın ziyalı sözünə, ziyalı məsləhətinə böyük ehtiyacı var. Bu gün xalq əvvəlki xalq deyil. O, ağı qaradan seçməyi bacarır. Bu gün xalq yaxşı bilir ki, kimə səs verəcək.

Bizim bu torpaq qədim mahaldır. Azərbaycan dövlətçiliyinin əsası da bu torpaqda qoyulub. XII əsrdə Şirvanşahlar dövləti, Təbriz-Atabəylər dövləti, XVI əsrdə Şah İsmayıl dövləti. Bu dövlətlərin içərisində Fətəli xanın başçılıq etdiyi Quba xanlığının da xüsusi yeri var. Buranın camaatı elə tərbiyə olmuşdur ki, dövlətçilik, dövlətçiliyin möhkəmlənməsi, suverenlik bizim hər birimizi düşündürən ən mühüm məsələlərdir.

İstəyin böyüyü, kiçiyi ola bilər. Ən böyük işlər ideologiyadan başlayır. Millətimizin ideologiyası nə qədər



təmiz olsa, millətimiz torpağını, xalqını nə qədər çox sevsə, onda millətin gələcəyi də yaxşı olar.

İnsanın mənəvi qüruru, mənəvi əzmi olmalıdır ki, bütün çətinliklərə sinə gərsin. Bizim müstəqil dövlətimizi daha da möhkəmləndirmək lazımdır. Hər kəs buna çalışmalıdır.

Hörmətli Nizami müəllim! Biz sizi hər gün görürük. Siz dediyiniz kimi, hər axşam ailələrimizin qonağı olursuz. Azərbaycan televiziyasında türk dünyası haqqında olan silsilə verilişlər hamımızın xoşuna gəlir. Gənclərimizdə vətənə məhəbbət hissi oyadır.

Bu torpaq nə qədər qədim olsa da, problemləri çoxdur. Sizin səfərlərinizlə əlaqədar bura diqqət artırılıb. Biz sərhəd bölgəsində yaşayırıq. Bura başqa dövlətlərlə münasibət qurmaq üçün ən əlverişli yerdir. Mən bir müəllim kimi əvvəlcə öz məktəbimizdən danışmaq istəyirəm. Məktəbimiz XIX əsrin 70-80-ci illərində çar Rusiyasının fərmanı ilə yaradılıb. Bu məktəbin 150 yaşı var. Nə o vaxt, nə də sovet dönəmində bizim məktəbin normal binası olmayıb. Bizim məktəb binasına ehtiyacımız var. İnanıram ki, bu məsələnin həllində bizə kömək edəcəksiniz.

Nizami müəllim, mən sizi tanıyan bir insan kimi Niyazabad camaatını sizə səs verməyə çağırıram.

**Məmməd Ağayev** (Qarabağlı kəndinin sakini): - Hörmətli Nizami müəllim! Xoş gəlmisiz. Biz Yeni Azərbaycan Partiyasını aparıcı bir partiya kimi dəstəkləyirik. Qarabağlı camaatı adından sizə öz təşəkkürümü bildirirəm ki, bizi yad edib, görüşümüzə gəlmisiz. Deputatlığa namizədlər arasında bura gələn ilk namizədsiz. Bu vaxta qədər seçilən deputatların heç üzünü görə bilməmişik. Heç

kəs problemlərimizi həll etməyib. Problemlər isə üst-üstə yığılıb qalıb. Biz sizi dəstəkləməyə, səs verməyə hazırıq. Bizim ağrılı problemlərimiz çoxdur. Kəndimizdə tibb məntəqəsi yoxdur, işığımız çox pis vəziyyətdədir. Köməkçi transformator, təmizləyici qurğular lazımdır.

Hörmətli Nizami müəllim! Biz hamımız sizi dəstəkləyirik, 6 noyabr parlament seçkilərində sizə səs verəcəyimizə söz veririk.

**M.Cəfərov** (kənd sakini, Qarabağ müharibəsi veteranı): - Nizami müəllim çıxışında Xaçmazın tarixi, insanları haqqında danışdı. Xaçmaz Azərbaycanın şimal bölgəsindəki rayonlarından biridir. Avropaya açılan geniş qapıdır. Bu bölgənin adamları həmişə öz sözünü deməyi bacaran insanlardır. Belə ki, platformanızda qeyd edirsiz ki, xalqın problemlərini həll etməyə çalışan bir namizədsiz. Buna real imkanınız var. Biz Qarabağ müharibəsi veteranları da hamı kimi sizə inanırıq.

Xaçmaz Qarabağ müharibəsində 200-ə yaxın şəhid verib. Qarabağ veteranlarının sayı isə 1000-dən artıqdır. Biz bu gün dövlətimizə, möhtərəm Prezidentimiz İlham Əliyevə minnətdarıq. Biz həmişə Yeni Azərbaycan Partiyasını dəstəkləmişik, bundan sonra da dəstəkləyəcəyik. Qarabağ veteranlarının əksəriyyəti Yeni Azərbaycan Partiyasının üzvləridir.

Hörmətli Nizami müəllim! Biz parlament seçkilərində sizə səs verəcəyik, sizə dəstək olacayıq.

**Qərib Aşkari** (şair): - Yaxın günlərdə seçim qarşısındayıq. Bizim bölgədən 19 nəfər deputatlığa namizəd var. Amma biz xalqa, vətənə ləyaqətlə xidmət edən adamı seçməliyik. Dünyaşöhrətli alim, professor, Azərbaycan



dilini, Azərbaycan mədəniyyətini, ədəbiyyatını təbliğ edən bir orator əgər bizim kənddən deputatlığa dəstək istəyirsə, mənə elə gəlir ki, bütün Xaçmaz bu dəstəyi alqışlamalıdır.

Mənim dilimi Dədəm Qorqud yaratdı, Mahmud Kaşğari onu “Divani lüğət-it türk” kitabı ilə bütün dünyaya bəyan etdi. Professor Mirzə Kazım bəy onu elə təbliğ etdi ki, artıq türk dilləri içərisində Azərbaycan dilinin dəsti-xətti göründü. XX əsrin əvvəllərində Dəmirçizadə onu yüksək zirvələrə qaldırdı. XX əsrin sonu XXI əsrin əvvəllərində isə Dəmirçizadənin tələbəsi Nizami Xudiyev müəlliminin davamçısı kimi Azərbaycan dilini daha da inkişaf etdirdi. Onlarla elmi məqalələr yazdı. Biz bunu alqışlamalıyıq.

900 ildən üzü bəri bizim məşhur bir kəlamımız var:

*Arzular kamalla yetişər başa,*
*Xalqa hörmət elə, ədəblə yaşa.*
*Kamil bir palançı olsa da insan,*
*Yaxşıdır yarımçıq papaqçılıqdan.*

Bu gün Nizami ədəbi məktəbinin təmsilçisi, özünün məktəbini yaradan Nizami Xudiyev bizim kəndə qonaq gəlib. Qarşınızda onun kitablarıdır, rəflərə yerləşmir. Çoxu da hələ burada yoxdur. Əgər bu 30 illik yaradıcılıqda o, bizim dilimizi, ədəbiyyatımızı qoruyub hifz edibsə, biz bu namizədi alqışlamalıyıq, ona dəstək olmalıyıq.

Nizami müəllim, 10 il bundan əvvəl Naxçıvanda mən sizin şərəfinizə “Heydər bulağı” tikdirdim. Bir sürpriz olaraq deyim ki, Yeni Həyat kəndində də sizin şərəfinizə “Heydər bulağı” tikiləcək. Oktyabrın 27-də Xaçmazın yubileyində bulağın açılışı olacaq.

*Bu nərdtaxta nərdtaxtadır,*
*Hər oğulun taxtı deyil.*
*Bu taxtada qoşa atmaq,*
*Hər oğulun baxtı deyil.*

Bu Nizaminin baxtıdır. Biz bu baxtı alqışlayırıq.

**Rauf Qurbanov** (Niyazabad kənd orta məktəbinin riyaziyyat müəllimi): - Hörmətli Nizami müəllim! Mən sizi məktəbimizin bütün kollektivi adından salamlayıram. Məktəbimiz rayonda sayılıb-seçilən məktəblərdəndir. Məzunlarımız respublikanın müxtəlif ali məktəblərində təhsil alırlar. Nizami müəllim sizin şərəfinizə bir şer söyləmək istəyirəm. Yazdığım bu şer bütün millət vəkillərinə ünvanlanır.

### Millət vəkili

*Yuxudan sübh tezdən oyanıb durar,*
*Hər zaman həvəslə yaradar, qurar,*
*Müxtəlif qayğıyla beynini yorar,*
*Çox erkən ağarar başında teli,*
*Hər an qayğılıdır millət vəkili.*

*İstər alçaq olsun, istərsə uca,*
*İstər cavan olsun, istərsə qoca,*
*Dinləyir insanı nur saça-saça,*
*Baldan da çox şirin görünər dili,*
*Hər an qayğılıdır millət vəkili.*



*Dinləyir həvəslə hamını hər an,*
*Silinər qəlbindən şübhə və güman,*
*Fərqi yoxdur ki, danışır hardan,*
*Xaçmazlı, ya da ki, olsun şəkili,*
*Hər an qayğılıdır millət vəkili.*

*Çevrilsin gülşənə vətən torpağı,*
*Qoy dönsün cənnətə onun qucağı,*
*Tərənnüm eləyir belə övladı,*
*Qoy olsun laləzar obası, eli,*
*Hər an qayğılıdır millət vəkili.*

Nizami müəllim, sizə seçkilərdə uğurlar arzulayırıq. Söz veririk ki, biz hamımız sizə dəstək olacağıq.

### Dədəli kəndi

**Zahid Xəlil** (filologiya elmləri doktoru, professor): - Xoş gördük, hörmətli Dədəli kəndinin sakinləri! Nizami müəllimin bioqrafiyası çox zəngindir. O, fəaliyyətinin kiçik dövründə doğurdan da böyük işlər görüb. Əgər onun bioqrafiyasına nəzər salsaq görərik ki, N.Xudiyev 60-dan artıq monoqrafiyanın müəllifidir. Bu ağlasığası şey deyil. İnsan gərək 90 il yaşaya ki, bu qədər əsər yaza, yarada. Deməli, gör bu insan nə qədər işgüzardır.

Nizami müəllim 10 ildir Naxçıvanın deputatıdır. Naxçıvan şəhərinin camaatı bu dəfə də tələb edirdi ki, Nizami müəllim namizədliyini yenə oradan versin. Niyə? Çünki cadar-cadar olmuş bu torpaqlara Nizami müəllim su gətirirdi. Bu təkcə bir adamın işi deyil, buna dövlət qay-

ğısı da lazımdır. Nizami müəllim bunların hamısını ağlı, savadı, səriştəsi ilə dövlət tərəfindən həll etdi.

Nizami müəllim Xaçmaz torpağını yaxşı tanıyır. Bu torpaqla qohumluğu var; qız verib, qız alıb. Onun real imkanları çoxdur. Belə bir adamdan istifadə etmək lazımdır. Sizin yanınıza bu münasibətlə gəlmişik ki, Nizami müəllimi yaxından tanıyasız. İmkanınız olacaq, götür-qoy edin. Nizami müəllimdən başqa da sizin namizədləriniz var. Onları da dinləyin, görəcəkləri işlərə qulaq asın. Ancaq mən sizə deyirəm ki, Nizami müəllimə səs versəz, yanılmazsız. Sizə uğurlar arzulayıram.

**Abdulla Didarov** (kənd sakini, YAP Xaçmaz Rayon Təşkilatının İdarə Heyətinin üzvü): - Hörmətli seçicilər. Noyabrın 6-da üzərinizə məsuliyyətli bir iş düşür. Deputatlığa namizədlərə səs verməlisiniz. O namizədlərdən biri Nizami Xudiyev bu gün sizlərlə görüşə gəlib. Özü haqqında, görəcəyi işlər haqqında məlumat verəcək. Mən YAP Xaçmaz İdarə Heyətinin üzvü kimi bu kampaniyaya qoşulmuşam. Çünki o, kənardan gələn namizəd deyil. Bizim namizəddir, YAP özü irəli sürüb. Hər bir YAP üzvünün də borcudur ki, öz namizədini müdafiə etsin, dəstəkləsin. Bir şey deyim ki, namizədi o vaxt müdafiə etmək asan olur ki, o namizədin hörməti, nüfuzu olsun. Biz sevinirik ki, Nizami müəllim Xaçmaz rayonundan deputatlığa namizəd irəli sürülüb. Sevinirik ki, Milli Məclisdə millət vəkilimiz Nizami müəllim olacaq.

Bu gün ölkəmizdə yaranan demokratik ab-havanın nəticəsidir ki, bizim seçki dairəsindən 19 nəfər deputatlığa namizəd var. 19 nəfərin tərcümeyi-halı ilə tanış olanda görürük ki, bunların içərisində dövlətimizə, xalqımıza,



prezidentimizə sədaqətli, layiqli bir namizəd var. Biz niyə kənardan namizəd axtarmalıyıq?

Başqa bir məsələyə toxunmaq istəyirəm. Artıq neçə gündür ki, seçki ilə bağlı təbliğat kampaniyası başlayıb. Siz özünüz də Nizami müəllimin çıxışından görürsünüz ki, o, öz opponentləri haqqında heç bir söz demir, onlara hörmətlə yanaşır. Bizim burada qərargahımız var. Ora yığışırıq, qarşımıza məqsəd, vəzifə qoyuruq. Bu vəzifələr gündən-günə reallaşacaq. Arzumuzdur ki, parlamentdə bizi layiqli bir insan təmsil etsin.

Burada iştirak edənlərin hamısı hər gün televiziyaya baxır, Milli Məclisin xronikalarına tamaşa edirlər. Görürük ki, Nizami müəllim orada necə tutarlı çıxışlar edir. Biz qərargahda görüşəndə seçicilər ona müəyyən problemlərini söyləyirlər. Nizami müəllim açıq deyir ki, söz verməyi xoşlamıram. Mənim real imkanım var. O imkandan istifadə edə bilərəm. Mən xeyriyyəçiliyə gəlməmişəm. Ali qanunverici orqana namizədlərdən biriyəm.

Hörmətli seçicilər, bütün bunları nəzərə almaq lazımdır. Bir də Nizami müəllim ona görə Milli Məclisin üzvü olmalıdır ki, mən deyərdim ordakı deputatların bəlkə də bir çoxu Nizami müəllim qədər dövlətinə, prezidentinə sədaqətlə xidmət etməyib. Niyə biz belə bir insanı seçməməliyik? Niyə problemlərimizi onun köməyi ilə yerinə yetirməyə çalışmamalıyıq?

Heydər Əliyevin bizə miras qoyub getdiyi ölkənin çiçəklənməsinə çalışmalıyıq. Prezidentimiz İlham Əliyevi dəstəkləyib Milli Məclisə, dövlətə, ona sadiq olan insanları seçməliyik. Xalqımızın layiqli oğluna səs verməliyik. Nizami müəllim, sizə bu seçkilərdə uğurlar arzulayırıq.

**Ağalar Abuzərov** (Kənd Ağsaqqallar Şurasının sədri): - Hörmətli professor, alim Nizami Xudiyev! Hörmətli Dədəli kəndinin sakinləri! Mən Bostançı kəndinin sakiniyəm. Eyni zamanda, bu sovetlikdə deputat olmuşam. Təqaüdçüyəm, əmək veteranıyam, müəlliməm. Nizami Xudiyev də müəllimdir. Mən onun tərcümeyi-halını oxumuşam. Tanınmış insandır. Onu bir alim kimi bütün dünyada tanıyırlar. YAP tərəfindən deputatlığa namizəd göstərilmiş Nizami Xudiyev hər yerdə Azərbaycan elmini, mədəniyyətini, dilini təbliğ edir. Xüsusilə də XX əsrdə ermənilərin torpaqlarımızın 20 faizini işğal etməsi, qaçqınlar haqqında da kitablar yazıb. Bu haqda hər yerdə çıxış edir. Belə bir insanın Azərbaycanın şimal bölgəsi olan Xaçmazdan deputatlığa namizəd olması ilə mən fəxr edirəm. Halva-halva deməklə ağız şirin olmaz. Onun üçün zəhmət çəkmək lazımdır. Heç kəs yalana uymamalıdır. Gördüklərini inkar etməməlidir. Mən bir ağsaqqal kimi, ziyalı kimi vətənimi, xalqımı sevirəm. Bizim dairədən 19 nəfər deputatlığa namizəd var. Xaçmaza bir deputat lazımdır. O da Nizami Xudiyevdir. Heç bir namizəd burada onun yerini verə bilməz.

**Mehyəddin Mahmudov** (kənd sakini): - Hörmətli Nizami müəllim! Sizi, qonaqları salamlayıram, “xoş gəlmisiz” deyirəm. Dədəli kənd orta məktəbində 270 şagirdin təlim-tərbiyəsi ilə 24 müəllim məşğul olur. Onların 70 faizi Yeni Azərbaycan Partiyasının üzvüdür. Müəllimlərin əksəriyyəti Pedaqoji Universitetin yetirmələridir. Sentyabrın 6-dan deputatlığa namizədlərin təbliğatına start verilib. Bu gün bizim məktəbə Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri, millət vəkili, alim, professor Nizami Xudiyev təşrif buyurub. Heç bir çıxışa qulaq asmadan, təkcə onun tərcümeyi-halını dinləyib Nizami müəllimlə yaxından tanış olmaq olar.



Nizami Xudiyev böyük əməli işləri ilə fərqlənən, siyasi arenada öz sözünü demiş layiqli namizədlərdən biridir. Öz intellekti ilə digər namizədlərdən çox üstündür. Ona görə sizi Nizami müəllimə səs verməyə çağırıram. YAP ideyalarını layiqincə təmsil edən Nizami Xudiyevə səs verin!

**S.Rzayev** (kənd sakini, müəllim): - Nizami müəllimin namizədliyi 56 saylı Xaçmaz kənd seçki dairəsindən verilib. Biz bununla fəxr edirik. Bu dairədən 19 nəfər namizəd var. Hər gün onları televiziya vasitəsi ilə dinləyirik. Hər şeyi də yaxşı görürük. Nizami müəllim bizə lazımdır, biz xaçmazlılara lazımdır. Nizami müəllim deputat seçilsə, mən inanıram ki, Xaçmaz abad olacaq. Burada 2500 müəllim var. Onun 1500-dən çoxu YAP-ın üzvüdür. Biz müəllimlər Nizami Xudiyevi - belə bir xeyirxah insanı dəstəkləyəcəyik. Çünki o, Naxçıvandan da seçilə bilərdi. Amma məhz şimal bölgəsini - Xaçmazı seçib ki, bu yerin problemi çoxdur. Onları həll etməkdə bizə kömək olsun.

## Yeni Sudur kəndi

**Şöhrəddin Qasımov** (kənd sakini): - Hörmətli Nizami müəllim, icazə verin sizi Yeni Sudur kəndində salamlayım, “xoş gəlmisiniz” deyim. Bizim kəndin sakinləri Yeni Azərbaycan Partiyasını, onun rəhbəri möhtərəm Prezidentimiz İlham Əliyevi dəstəkləyir, apardığı daxili və xarici siyasəti bəyənirlər.

Nizami Xudiyev YAP-ın nümayəndəsi kimi 56 saylı Xaçmaz kənd seçki dairəsindən deputatlığa namizəddir. Mən sizi əmin edirəm ki, kəndimizin bütün seçiciləri ona səs verəcəklər.

Nizami müəllim qısa vaxt ərzində Xaçmaz-Xudat bölgəsində çox işlər görüb. İnanırıq ki, bundan sonra da görəcək.

Hörmətli Nizami müəllim, siz artıq bu seçicilərin qəlbinə yol tapmısız. Xalqımız sizi sevir, dəstəkləyir. Əmin ola bilərsiz ki, artıq biz sizi deputat seçmişik. Siz bizim deputatımızsız. Sizə gələcək işlərinizdə uğurlar arzulayıram.

### Şollar qəsəbəsi

**M.Əliyev** (kənd sakini): - Çox hörmətli professor, dünya şöhrətli alim Nizami müəllim. Şollar kəndinə "xoş gəlmisiniz". Sizə qarşıdan gələn parlament seçkilərində uğurlar arzulayıram. Bildiyiniz kimi, 2004-cü ildə "Regionların sosial-iqtisadi inkişafı haqqında Dövlət Proqramı" qəbul edilmişdir. Prezident İlham Əliyev bizim şimal bölgəsində olarkən o proqrama bəzi əlavələr də etmişdir. Bu proqramın həyata keçirilməsində bizə elə bir millət vəkili lazımdır ki, həmin proqramda nəzərdə tutulanlara əməl edilsin və bizim bölgənin sosial-iqtisadi inkişafına yardımçı olsun. Həmin şəxs sizsiz, Nizami müəllim.

Deputat elə bir şəxs olmalıdır ki, o, həmin bölgənin problemlərini görsün və onları Milli Məclis səviyyəsində həll etməyə qadir olsun. Biz o yerə ancaq Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülən Nizami Xudiyevi layiq görürük.



Nizami müəllim hal-hazırda da Milli Məclisin üzvüdür, deputatdır. Amma bizim bölgədən deputatlığa namizəddir. Təbliğatı dövründə, bu qısa vaxt ərzində Nizami müəllim bir sıra problemlərin həll olunmasında bizə kömək edib. Biz onun real imkanlarına inanırıq və parlament seçkilərində ona səs verəcəyimizə söz veririk.

### Moruqoba kəndi

**Dəmirbəy Qəribov** (kənd ağsaqqalı): - Hörmətli Nizami müəllim, Moruqoba kəndinə xoş gəlmisiniz! Kəndin camaatının sizin kimi qonaqlara çox böyük ehtiyacı var. Bizim xalq zəhmətkeş xalqdır, işgüzar xalqdır. Çoxdandır bura heç kəs gəlmir. Sizin kəndimizə gəlişiniz, camaatla səmimi söhbətləriniz deyərdim ki, bizim üçün əsl toy-bayrama çevrildi. Çox sevinirik. Arzu edirik ki, tez-tez gəlib camaatla görüşəsiz. Siz arxayın ola bilərsiz ki, 6 noyabr parlament seçkilərində Moruqoba kəndinin seçiciləri hamılıqla sizə səs verəcəklər.

Nizami müəllim, bizim kəndimiz qədim tarixi olan bir kənddir. Buradakı məscidin yaşı çox böyükdür. Amma kəndimizin problemləri də çoxdur. İnanırıq ki, sizin köməyinizlə onları həll edəcəyik. Nizami müəllim, seçkilərdə sizə uğurlar arzulayırıq.

### Seyidlər kəndi

**Maral müəllimə** (kənd sakini): - Hörmətli Nizami müəllim, sizi Seyidlər kəndində salamlayıram. Mən 1979-cu ildə Azərbaycan Pedaqoji İnstituna qəbul olmuşam. İlk seminar müəllimim Nizami Xudiyev olub. "Türk abidələri"dən dərs deyirdi bizə. Həyacanlı idim. Müəllimimin

gözlərinə baxanda bir az sakitləşdim. Onun savadlı nitqi məni valeh etdi. Biz hamımız onu çox istəyirdik. 1984-cü ildə institutu bitirdik. O, həmişə bizim qəlbimizdə yaşayır. Televizorda görəndə çox sevinirəm. Bu gün də sevinirəm ki, Nizami müəllim bizim torpağın deputatı olacaq. Mən bütün kənd camaatına belə bir sual vermək istəyirəm. Bu vaxta qədər deputatlardan kimsə bizim kəndə, bizim məktəbə gəlib? Xeyr. Ona görə də biz Nizami müəllimi dəstəkləyirik, bizim torpağa "xoş gəlmisiz" deyirik. Söz veririk ki, 6 noyabr parlament seçkilərində hamılıqla ona səs verəcəyik.

## Yataqoba kəndi

**Telman Hüseynov** (kənd sakini): - Hörmətli Nizami müəllim! Bizim kəndimizə xoş gəlmisiniz. Sizi bütün kənd sakinləri adından salamlayıram. Xalqıma sözümü qısa bir şerlə çatdırmaq istəyirəm.

*O adama səs verək ki,*
*O adam dərdimizə.*
*Yanıb, göynəyə bilsin.*
*O adama səs verək ki,*
*O adam səsimizi*
*Ən uca zirvələrdən*
*Car çəkib deyə bilsin.*

O adam xalqımızın layiqli oğlu Nizami Xudiyevdir. Mən sizə seçkilərdə uğurlar arzulayıram.



## Qımılqışlaq kəndi

**Şıxkərim Ramazanov** (kəndin mollası, axundu): - Bismillahir-rəhmanir rəhim! Mərhəmətli Allahın adı ilə. Hörmətli Nizami müəllim, hörmətli qonaqlar, xoş gəlmisiniz. Nizami müəllim, Allah köməyiniz olsun. Mən sözümə Həzrəti-Məhəmmədin kəlamı ilə başlamaq istəyirəm: "Vilayətlərində alimi olmayan insanlar qanadları kəsilmiş quşa bənzər. Çünki o vilayətdə elm yoxdur".

Bu gün bizim kəndə görkəmli alim Nizami Xudiyev qədəm basıb. Onun məni Həcc ziyarətinə göndərmək təşəbbüsü bütün Qımılqışlaq camaatı üçün fəxrdir. Allah nəzərini onun üstündən əksik etməsin.

Nizami müəllim, mən 25 ildir bu kəndə ağsaqqallıq edirəm. Həm də Şeyxin əmri ilə 8 ildir bu məscidin mollasıyam. Hamı - bütün kənd yaxşı bilir ki, mən necə mollayam. Gecə-gündüz bir arzum var idi ki, Həcc ziyarətinə gedim. Buna görə çox sağ olun. Allah sizə də kömək olsun.

Hörmətli Nizami müəllim, bir Allah adamı kimi sizə söz verirəm ki, bütün Qımılqışlaq camaatı yalnız sizə səs verəcək.

**Həmid Beydiyev** (kənd ağsaqqalı): - Hörmətli tədbir iştirakçıları, hörmətli Nizami müəllim! Qımılqışlaq kənd orta məktəbinin müəllimləri, kəndin ağsaqqaları adından sizi salamlayıram. Söz verirəm ki, kəndin seçiciləri bir nəfər kimi sizə səs verəcəklər.

Məktəbimiz rayonda ən qabaqcıl məktəblərdən biridir. Orada 34 nəfər müəllim çalışır. Məktəbə Nazim müəllim rəhbərlik edir. Məktəb Təhsil Nazirliyinin, Rayon Təhsil Şöbəsinin bütün göstərişlərinə əməl edir.

Hörmətli Qımılqışlaq camaatı! Biz Nizami Xudiyevin tərcümeyi-halını dinlədik, çıxışına da qulaq asdıq. Nizami müəllim dünya miqyasında tanınmış alimdir, ziyalıdır, ictimai-siyasi xadimdir. İnanırıq ki, o, bizim üçün çox işlər görəcək. Ona görə də biz 6 noyabr parlament seçkilərində bir nəfər kimi Nizami Xudiyevə səs verəcəyik.

* * *

Hörmətli seçicilərimlə görüşdüyüm hər bir kənddə mənim haqqımda xoş sözlər deyən, mənə etimad göstərən insanlara minnətdarlığımı bildirirəm.

Bütün kəndlərdə seçicilərlə görüşərkən təbii ki, deputatlığa namizəd kimi geniş çıxışlar etmişəm. Lakin həmin çıxışların hamısını kitaba daxil etməyi lüzum bilməzdim. Çıxışlarımdan yalnız birini – Xanoba kəndindəki çıxışımı oxucularımın nəzərinə çatdırmaq istəyirəm:

**Nizami Xudiyev:** - Hörmətli Xanoba kəndinin camaatı, mənim əziz seçicilərim! Mən sizin haqqınızda, kəndiniz haqqında çox yüksək fikirdəyəm. Bilirəm ki, bu kəndin sakinləri dövlətçiliyi sevən, qoruyan insanlardır, sərhəd bölgəsinin ən layiqli əsgərləridir.

Bu gün kəndin ağsaqqalları, ziyalıları, müəllimləri, sayılan-seçilən insanlar mənim görüşümə gəliblər. Bu mənim üçün fəxrdir. Bura sərhəd kəndidir. Burada əsasən ləzgi xalqının nümayəndələri yaşayırlar. Mənim bu xalqa çox böyük hörmətim var.

Mən Heydər Əliyev məktəbinin bir nümayəndəsi, bir əsgəri kimi beynəlmiləlçiliyi çox yüksək qiymətləndirirəm. Biz fitrən beynəlmiləlçiyik. Bu bizim qanımızda, canımızdadır. Qardaş xalqın nümayəndələri bu bölgədə çiyin-çiyinə verib Azərbaycan dövlətçiliyinin çiçəklənməsi uğrunda mübarizə aparırlar.



Siz mənim tərcümeyi-halımdan da bildiz ki, mən Naxçıvan Muxtar Respublikasında anadan olmuşam və iki dəfə 2 saylı Şərur-Babək seçki dairəsindən Milli Məclisə deputat seçilmişəm. İndi də Milli Məclisin deputatıyam. Yeni Azərbaycan Partiyası, onun İdarə Heyəti, möhtərəm Prezidentimiz mənim namizədliyimi bu dəfə bu bölgədən - Xaçmaz kənd seçki dairəsindən irəli sürməyi məsləhət bildi. Mən Naxçıvandan iki dəfə deputat seçilmişəm. Birinci dəfə özümü doğrultduğum üçün Naxçıvan camaatı ikinci dəfə də mənə etimad göstərdi. Təbii ki, üçüncü dəfə də namizədliyimi irəli sürsə idim, yenə seçiləcəkdim. Ancaq YAP mənim namizədliyimi məhz bu bölgədən irəli sürməyə məsləhət bildi. Niyə? Ona görə ki, hər şeydən əvvəl "Regionların sosial-iqtisadi inkişafı haqqında (2004–2008-ci illər üçün) Dövlət Proqramı" qəbul edilib. Həmin proqramda Azərbaycanın şimal bölgəsinə - Siyəzən, Dəvəçi, Quba, Qusar, Xaçmaz rayonlarının sosial-iqtisadi inkişafına çox böyük yer ayrılıb, təxminən 40 faiz. Çünki bu bölgə Azərbaycanın sosial-iqtisadi inkişafında mühüm amildir. Həm də mühüm strateji əhəmiyyət daşıyır. Buradan Rusiyaya, Rusiyadan isə bütün Avropaya pəncərə açılır. Bu sahədə sizin kəndin əməyi daha böyükdür. Çünki siz sərhəd kəndisiz və bütün bunları nəzərə alan Yeni Azərbaycan Partiyası mənim siyasi təcrübəmi, siyasi biliyimi, dünyagörüşümü, iqtidar və hökumət nümayəndəsi olmağımı, YAP-ın yaradıcılarından biri olmağımı, Ümummilli liderimiz Heydər Əliyevin yaxın silahdaşı olmağımı, Prezidentimiz möhtərəm İlham Əliyevin ən yaxın köməkçilərindən biri

olduğumu nəzərə alıb məhz mənim namizədliyimi bu bölgədən irəli sürübdür.

Burada 22 millətin nümayəndələri qardaş kimi yaşayırlar. Bilirsiz ki, vaxtı ilə Azərbaycan çətin vəziyyətə düşmüşdü. O zaman millətlər arasında ayrı-seçkilik salmışdılar. Azərbaycan vətəndaşları özlərində hünər, qeyrət tapıb Naxçıvana - Heydər Əliyevə müraciət etdilər. Bunlar yadınızdadır. Bu gün burada yenə də millətlər qardaş kimi bir-biri ilə mehriban şəraitdə yaşayırlar. Partiya məni bura göndərməklə beynəlmiləlçiliyi daha da artırmağa çalışır.

Siz bilirsiz ki, bu il əvvəlki illərdən fərqlənir. Xaçmaz kənd seçki dairəsindən 19 nəfər deputatlığa namizəd var. Hər namizəd gərək gəlib özü haqqında, görəcəyi işlər haqqında hesabat versin. Mən düşünürəm ki, bizim siyasi mübarizəmiz hörmət və etika şəraitində keçəcək.

Uzun müddət Pedaqoji Universitetdə çalışmışam. Müəllimlikdən başlayıb rektorluğa qədər fəaliyyət göstərmişəm. Burada mənim yetirmələrim çoxdur.

Hörmətli seçicilər, mən sizinlə qiyabi tanışam. 2, 3, 4, 10, 11-ci sinifləri üçün "Azərbaycan dili", rus məktəbinin 10-cu sinfi üçün "Azərbaycan dili" dərsliklərinin müəllifiyəm. Uşaqlarınız o kitabları oxuyurlar. Deməli, mən həm də sizin evlərinizin daimi qonağıyam.

Bilirəm, problemlər çoxdur. Mən sizin üçün əlimdən gələni etməyə hazıram. İnanıram ki, problemlərinizi bilən, onları həll etməyə real imkanı olan adama səs verəcəksiz. Burada ən böyük problem qaz problemidir. Danışıb bu il min kub artırmışıq. 2005-2006-cı ildə burada 6 min abonentə xidmət edən telefon şəbəkəsi əhalinin ixtiyarına veriləcək.

Mən ağsaqqalları, müharibə veteranlarını, şəhid ailələrini çox yüksək qiymətləndirirəm, gənclərə çox böyük



hörmətim var. Ağsaqqallar da onlara düzgün yol göstərməlidirlər.

Mənə etimad göstərsəniz, etimadınızı doğrultmağa çalışacağam. Diqqətinizə görə sağ olun.

□ □ □

Həmin tarixi günlərdən, fərəhli anlardan uzaqlaşdıqca mənim üçün əziz olan, heç vaxt unudulmayan görüşləri xatırlayır və qəlbi təmiz, səmimi insanları yada salır, onlarla qürur duyuram.

# DÜŞÜNCƏLƏR

## GÖZƏL BÖLGƏNİ DAHA DA GÖZƏLLƏŞDİRƏN İNSANLAR

Nizami Xudiyevin deputatlığa namizədliyinin Xaçmaz rayonundan irəli sürülməsini başqaları kimi mən də gözlənilməz hadisə kimi qarşıladım. Axı biz Azərbaycan şəraitində hər hansı bir seçkili orqana iddialı şəxsin namizədliyinin əksər hallarda öz boya-başa çatdığı bölgədən verilməsinə alışmışıq. Nizami müəllim də əvvəlki iki çağırışda parlamentə məhz doğulduğu Naxçıvan torpağından seçilmişdi. Ona görə onunla görüşəndə mən ilk növbədə bu məqamla maraqlandım. Nizami müəllimin cavabı əvvəlcə qısa oldu: "Yeni Azərbaycan Partiyası belə məsləhət bilib". (Nizami Xudiyev Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvüdür). Ancaq sonra sualımı daha ətraflı cavablandırdı: "1995-ci ildə də, 2000-ci ildə də mənim namizədliyim Naxçıvan Muxtar Respublikasının Şərur-Babək dairəsindən verilmişdi. Bunu Ulu öndərimiz, Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyev məsləhət görmüşdü. Hər iki seçkidə mən yüksək göstəricilərlə seçilmişdim. Bu dəfə də mən namizədliyimlə əlaqədar Naxçıvan MR-na müraciət etmişdim. Ancaq bir müddət keçəndən sonra YAP-dan bildirdilər ki, mənim namizədliyim Naxçıvandan deyil, başqa bir bölgədən nəzərdə tutulub. Bunu onunla əsaslandırdılar ki, məni kifayət qədər tanıyırlar. Ona görə də namizədliyimi Azərbaycanın istənilən bölgəsindən verib əhalinin dəstəyini qazana bilərəm.

Namizədliyimi vermək üçün mənə bir neçə rayonu məsləhət bildilər, seçim etməyi mənim öhdəmə buraxdılar. Mən də bir neçə variant üzərində götür-qoy etdikdən sonra 56 saylı Xaçmaz kənd seçki dairəsi üzərində dayandım.

Artıq namizədlərin qeydiyyatı başa çatıb. Bu dairədən deputat seçilmək istəyənlərin sayı 19 nəfərdir. Əksəriyyəti də yerli adamlardır. Kənar bölgədən olan gərək ki, mənəm. Namizədlərin peşə-ixtisas və partiya mənsubiyyəti kifayət qədər müxtəlifdir".

Büruzə vermək istəməsə də, Nizami müəllimin həmişəkindən qayğılı və narahat olduğu hiss olunurdu. Aydın məsələ idi: o, ciddi bir problem qarşısında idi. Namizədliyinin doğma Naxçıvan torpağından deyil, başqa bir bölgədən, hər halda ona Naxçıvan qədər tanış olmayan bir rayondan irəli sürülməsi onu, həqiqətən, ciddi bir imtahanla üzbəüz qoymuşdu.

Reputasiyası, nüfuzu, ad-sanı sınaq qarşısında idi. O, bir ictimai xadim, millət vəkili, ziyalı və alim kimi ölkədə nə qədər tanınmış olsa da, hər halda meydanda 18 nəfər rəqibin olduğu bir şəraitdə daha çox seçici səsi qazanmaq elə də asan məsələ deyildi. Nizami Xudiyev kimi, Milli Məclisin üzvü kimi, görkəmli alim kimi tanınmaq onun şəksiz üstünlükləri olsa da, ancaq indiki durumda bunlar kifayət deyildi. Yerli əhalinin, seçicilərin dəstəyini qazanmaq üçün onlarla fəal, məqsədyönlü iş aparmaq lazım idi. Vəziyyəti gərginləşdirən bir amil də o idi ki, bəzi rəqibləri hələ təbliğat-təşviqat kampaniyası başlanmazdan əvvəl onun barəsində mənfi rəy yaratmaq yönündə iş aparmış, namizədlərin yerli (guya ki, doğma) və gəlmə (guya yad) söhbətini ortaya atmış, seçicilərin müəyyən savadsız qismini öz təsirləri altına salmağa nail olmuşdular. Nizami müəllim bir növ dilemma qarşısında idi: bu seçkidə uğur

onun nüfuzunu daha da möhkəmləndirə, uğursuzluq isə bu nüfuza müəyyən kölgə sala bilərdi.

Söhbət əsnasında Nizami müəllim narahatçılığının mənə də sirayət etdiyini duyub dedi: "Vəziyyət nə qədər ciddi olsa da, ancaq hər hansı bir qorxudan, tərəddüddən, yaxud qətiyyətsizlikdən söhbət gedə bilməz. Mən artıq qərarımı vermişəm: qətiyyətlə mübarizə aparmalıyam. Məsəl var, deyirlər, su ki doldu qaba, oldu içməli. Aydın məsələdir ki, özünə hörmət edən şəxs qoşulduğu mübarizədə uduzmaq istəməz".

Fikrimdə onun dediklərinin məntiqini davam etdirdim: xüsusən də, cəmiyyətdə kifayət qədər tanınan, ictimai rəyin diqqət mərkəzində olan Nizami müəllim kimi adam. Təbii ki, belə halda uğursuzluğun ağrı-acısı daha böyük olar.

Nizami müəllim sözünə yekun vurdu: "İndi yalnız irəliyə baxmaq, müvəffəqiyyət haqqında, uğur qazanmağın yolları barədə düşünmək lazımdır".

Ancaq mən nədənsə hələ özümü onun uğur qazanacağı inamına kökləyə bilmirdim. Çünki hazırkı durumda belə bir inamı stimullaşdıra bilən amillər hələ kifayət qədər üzdə deyildi. Nizami müəllim elə bil mənim fikirlərimi oxuyurmuş kimi, onların səmtini öz düşüncələrinin məcrasına yönəltdi: "Mən belə bir qənaətdəyəm ki, əsl millət vəkili o şəxs ola bilər ki, ölkənin istənilən bölgəsindən seçilə bilsin. Yalnız öz rayonunda tanınıb, onun hüdudlarından kənarda qəbul edilməyən şəxs millət vəkili adını daşıya bilməz. Adından da göründüyü kimi, millət vəkili bütün xalqı, milləti təmsil etməyi bacarmalıdır, yəni bu və ya digər bir bölgənin əhalisinin dəstəyi ilə bərabər, bütövlükdə ölkə əhalisinin də etimadını qazanmalıdır".



## Seçicilərin inam və etimadını qazanmağa yönəlmiş taktika və strategiya

Nizami müəllim məhz belə bir qənaətlə işə başladı. O, ilk əvvəl təbliğat strategiyasını və onun əsasında 2 ay davam edəcək təşviqat işlərinin planını işləyib hazırladı. Görüləsi işlərin, tədbirlərin sayı isə kifayət qədər çox və əhatəli idi. Buna görə tədbirlər planının tərtibi zamanı belə bir prinsipi əsas götürdü: nəzərdə tutulan tədbirlər seçki platforması və strategiyası ilə sıx surətdə uzlaşdırılmalıdır. Eyni zamanda, yerlərdə vəziyyəti, camaatı narahat edən problemləri öyrənib buna uyğun olaraq tədbirlər planında düzəliş və dəyişikliklər aparılmalıdır. Tədbirlər planı, seçki platforması və strategiyasında ölkə miqyaslı məsələlərlə yerli məsələlər sıx şəkildə əlaqələndirilməlidir.

Dairədə kəndlərin, yaşayış məntəqələrinin sayı çox idi. Buna görə Nizami müəllim iki yerdə - Xudatda və Nabranda seçki qərargahı yaratdı. Bütün kəndlərdə, yaşayış məntəqələrində ən azı bir-iki dəfə görüş keçirməyi planlaşdırdı. Qərargahın işinə vəkillərini, yerli ziyalıları, ağsaqqalları, camaatın içində hörməti, nüfuzu olan insanları cəlb etdi.

Şimal bölgəsində, eləcə də Xaçmazda kifayət qədər dostu, tanışı, qohumu, keçmiş tələbə yoldaşları və tələbələri olmasına baxmayaraq, ilk vaxtlar o, hələ Xaçmaza və xaçmazlılara lazımi dərəcədə bələd deyildi. Heç xaçmazlılar da onu istənilən səviyyədə tanımırdılar. Odur ki, Nizami müəllim ilk gündən qarşısına belə bir məqsəd qoydu: Xaçmaz və xaçmazlıların həyat və fəaliyyəti ilə bağlı hər şeyi mümkün qədər incəliklərinə qədər öyrənmək. Bunun üçün ilk növbədə camaatla, əhali ilə, ağsaqqallarla canlı, səmimi ünsiyyət qurmaq, onlarla açıq söh-

bətlərə üstünlük vermək, camaatın dərd-sərini, problemlərini ilk öncə onların öz dilindən eşitmək və mümkün olan əməli işləri yerindəcə görmək.

Nizami müəllim deyirdi ki, yalnız bu yolla camaatın inamını, etimadını, etibarını qazanmaq olar. Mən camaatı problemlərinin həllində onlara yardımçı olacağıma inandırmalıyam. Seçicilərin inamını, etimadını qazanmadan isə halal səs toplayıb qələbə qazanmaq olmaz.

Nizami müəllim ilk gündən əhali ilə, seçicilərlə heç bir kənar vasitələrdən, inzibati resurslardan, icra orqanlarının kömək və dəstəyindən yararlanmadan iş aparmağı qərara aldı. Düşünürdü ki, inzibati resurslardan istifadə zəiflik əlamətidir. Belə “dəstək”dən, “kömək”dən yalnız bacarığı, qabiliyyəti, fəaliyyət imkanları məhdud və zəif olanlar yararlana bilər.

Həqiqətən də əlaqələrin kifayət qədər əhatəli olmasına baxmayaraq, Nizami müəllim əsas diqqət və enerjisini, seçki strategiyası və taktikasını mövcud normaların imkan verdiyi çərçivədə fəal və məqsədyönlü şəkildə qurmağa yönəltmişdi.

Camaatın inamını qazanmaq! Nizami Xudiyevin seçki kampaniyasının əsas şüarı və prinsipi belə idi. Ancaq bunu da özlüyündə qərarlaşdırmışdı ki, adamların inamından, etibarından heç bir vəchlə istifadə etməməli; onların dərd-sərinə həssaslıqla, diqqətlə, qayğı ilə yanaşmalı; yerlərdə bu və ya digər problemi həll etmək üçün real imkanlar olduqda, bunun operativ qaydada, yerindəcə həllinə kömək etməli, ancaq eyni zamanda adamlara reallaşması mümkün olmayan vədlər verməməli.

Bütün bunların çox doğru bir addım olduğu tezliklə özünü göstərdi. Onunla görüşə gələn seçicilərin sayı getdikcə artmağa başladı. Görüşlərdə edilən çıxış, sorğu,



müraciət, ərizə və şikayətlərin sayı günbəgün artdı. Bütün bunlar isə həm də ona inamın, etimadın güclənməsinin ifadəsi idi. Bu da öz növbəsində onun nikbinliyini, qələbəyə inamını möhkəmləndirirdi.

Seçicilərlə açıq, səmimi, canlı ünsiyyət öz səmərəsini verdikcə, o, görüşlərin məzmunluluğu ilə bərabər, intensivliyinə də xüsusi diqqət yetirirdi. Qarşısına belə bir məqsəd qoymuşdu ki, dairəyə daxil olan 103 kəndin (məntəqənin) hamısında seçicilərlə ən azı bir dəfə görüş keçirsin.

Tədbirlər çox vaxt iki mərhələdən ibarət olurdu:

1) kütləvi görüşlər; 2) ağsaqqallar, ziyalılar, hörmətli, nüfuzlu insanlarla nisbətən məhdud dairədə açıq, səmimi, canlı, birbaşa söhbətlər. Belə söhbətlər bəzən dəyirmi stol arxasında, bəzən çay süfrəsində, bəzən açıq havada ayaqüstə, bəzən də gözlənilmədən ekspromt şəkildə keçirilirdi.

Nizami müəllim bəzən toy məclislərində, yas mərasimlərində iştirak edirdi. Bu cür görüşlər, açıq, səmimi söhbətlər yerlərdəki vəziyyəti, problemləri, camaatın dərd-sərini öyrənməyə, dinləməyə daha çox imkan verirdi. Bu görüşlərdə o, həm də adamların qaldırdığı məsələləri, bunların səbəblərini öyrənirdi.

Nizami müəllim görüşlər keçirməklə yanaşı, həm də qərargahda seçiciləri qəbul edirdi. Onlarla məsləhətləşir, problemləri ilə maraqlanırdı. Xüsusilə də ağsaqqalların, ziyalıların, yerli mütəxəssislərin məsləhət, mülahizə, tövsiyə və təkliflərini dinləyir, bunların qeydiyyatını aparır, təhlil edir, araşdırır, həlli mümkün olan bir çox məsələləri yerindəcə operativ şəkildə həll edirdi.

Nizami Xudiyevin seçki təşviqatı zamanı mən bir jurnalist marağı ilə qeydlər aparırdım və düzü, bu mövzuda nə vaxtsa yazı yazacağımı heç ağlıma da gətirmirdim.

Qeydlər bir növ peşə vərdişindən irəli gələn bir məşğuliyyət idi. Ancaq bu qeydlər sonradan mənim əməllicə karıma gəldi. Elə ki, məqalə yazmaq qərarına gəldim, əvvəlcə müşahidə etdiyim, gördüyüm və eşitdiklərimin məndə doğurduğu duyğu, düşüncə və təəssüratları qələmə almaq istədim. Ancaq sonra gördüm ki, təşviqat kampaniyası zamanı adamların mənim qeydlərimdə əksini tapan ayrı-ayrı deyim, rəy, qeyd, mülahizə, tövsiyə və təkliflərini elə onların öz dili ilə versəm, daha maraqlı olar. Belə də etdim. İndi onlardan bəzilərini oxuculara təqdim edirəm.

Xaçmazlılar seçim qarşısındadır: *19 namizəddən hansına üstünlük verməli?!*

**Ramiz Məmmədov** (Xudat şəhər sakini): Biz rayonumuzdan kimlərin namizəd irəli sürüldüyünü diqqətlə izləyirdik. Bir neçə şəxsin namizədliyini soyuqqanlı qarşıladıq. Çox böyük maraqla ölkəmizin aparıcı iqtidar partiyası olan Yeni Azərbaycan Partiyasından kimin namizədliyinin irəli sürüləcəyini gözləyirdik. YAP-ın namizədi açıqlanan zaman ürəyimiz fərəhlə doldu. Bu, hamının yaxşı tanıdığı, Ümummilli liderimiz Heydər Əliyevin yetirməsi, onun ideyalarının layiqli təbliğatçısı, dövlətimizin və dövlətçiliyimizin dayaqlarından biri olan Azərbaycan Dövlət Televiziyası və Radiosuna rəhbərlik edən görkəmli alim Nizami Xudiyev idi. Neçə illərdən bəri gözlədiyimizə çatmışdıq, yəni ürəyimizcə olan bir insanı deputat seçmək imkanı əldə etmişdik.

**Əhməd Əhmədov** (“Yeni Həyat” qəsəbə sakini): - Biləndə ki, YAP Siyasi Şurası bizim dairədən sizin namizədliyinizi irəli sürüb, bu, hamımızın ürəyincə oldu. Nizami müəllim,  sizin təbliğatınıza ehtiyac yoxdur. Çünki



sizin həyat yolunuz, yazdığınız kitablar, millət vəkili və partiya xadimi kimi fəaliyyətiniz bizə deməyə əsas verir ki, siz Azərbaycanın dövlət müstəqilliyini hər şeydən üstün tutur, xalqımıza layiqincə xidmət edirsiniz. Qısa vaxtda burada gördüyünüz işlər də deyilənləri bir daha təsdiq edir. Seçkilər yaxınlaşdıqca camaatımızın sizə rəğbəti, inamı daha da artır. Bizim seçimimiz artıq məlumdur: hamımız sizə səs verəcəyik. İnanırıq ki, bu dairədən məhz siz deputat seçiləcəksiniz. Özü də bu, yalnız sizin qələbəniz olmayacaq, həm də bizim qələbəmiz olacaq.

**Sona Dövlətova** (“Yeni Həyat” qəsəbə sakini): - Mən milliyətcə ləzgiyəm, uşaqlarımıza Azərbaycan dilindən dərs deyirəm. Nizami müəllim, sizin fəaliyyətiniz, yaradıcılığınız, həyat yolunuz bizim hər birimiz üçün, xüsusilə də gənclərimiz üçün gözəl bir örnəkdir. Siz Heydər Əliyev məktəbinin yetirməsisiniz. YAP-ın İdarə Heyətinin üzvüsünüz. Biz bu partiyaya, Heydər Əliyev məktəbinə inanırıq və onun nümayəndəsinə də məmnuniyyətlə səs verəcəyik.

**Vaqif Sərdarov** (Yalama kənd bələdiyyəsinin sədri): - Ulu öndərimiz Heydər Əliyevin xalqımıza bəxş etdiyi sərvətlərin sayı-hesabı yoxdur. Belə sərvətlərdən biri də onun yetişdirdiyi bacarıqlı, peşəkar kadrlardır. Onlardan biri də Nizami Xudiyevdir. Nizami müəllim YAP yarandığı vaxtdan Ulu öndərin başçılığı ilə dövlətçiliyimizin möhkəmlənməsinə sədaqətlə, peşəkarlıqla xidmət edir.

**H.Nəbiyev** (Yalama kənd sakini): - Bizim bölgədən deputatlığa namizədliyi verilən 19 nəfərin hər birinə hörmətim var. Elə namizədliyini verənlərdən 2 nəfər bizim kənddəndir. Amma mən məsləhət görürəm ki,

Nizami müəllimə səs verək. Niyə? Çünki biz gözəl bir cəmiyyət-imarət tikirik. Yaxşı bir memarımız ola-ola memarlıqdan xəbəri olmayan adamı niyə seçək? Bu, düzgün olmaz. Bizim "memarımız" Nizami Xudiyevdir.

**Gülməddin Şixmətov** (Yalama kənd sakini): - Xalqın ən böyük sərvətlərindən biri ana dilidir. İnsan anasını, Vətənini sevdiyi kimi ana dilini də sevməlidir. Nizami Xudiyev yazdığı "Ana dili" dərslikləri ilə bu sərvəti bizə, xüsusilə də balalarımıza sevdirir. Bu, onun doğma Azərbaycanımıza ən böyük xidmətlərindən biridir.

**Ş.Yaraliyev** (Yalama kənd sakini): - Məni ən çox məmnun edən odur ki, Nizami müəllim bizim yerləri, bizim dərd-sərimizi çoxumuzdan yaxşı bilir. O, az vaxtda əvvəlki deputatların 5 ildə gördüklərindən daha çox iş görüb.

**Maya Əhmədova** (Seyidlər kənd sakini): - Mən ADPU-nun məzunuyam. Dil-ədəbiyyat müəlliməsiyəm. Nizami müəllimin tələbəsi olmuşam. Vaxtilə ondan öyrəndiklərimi indi uşaqlara öyrədirəm. Nizami müəllimin indiyəqədərki fəaliyyəti, xidmətləri, yazdığı kitablar bizə tam əsas verir ki, onu deputat seçək. Çox istərdim ki, həmyerlilərim mənim səsimə səs versinlər. Bir də yadlarına salsınlar: indiyədək seçdiyimiz deputatlardan hansı bizim kəndə, bizim məktəbə gəlib? Ancaq mənim aldığım məlumata görə, Nizami müəllim indiyə qədər Xaçmazın əksər kəndlərində camaatla görüşlər keçirib. Onun bu dairədən deputat seçilməsi YAP üçün nə qədər lazımdırsa, ondan da çox bizə lazımdır.



**Nəcmulla Nurullayev** (Müqtədir kənd ağsaqqalı): - Bizim Nizami müəllim kimi şəxsiyyətə böyük ehtiyacımız var, çünki onun seçicilərinə kömək etmək imkanları daha böyük, daha realdır. Biz görürük ki, Nizami müəllim, sadəcə, söz demir, vəd vermir, əməli iş görür. Onun gördüyü işlər dediyimə əyani sübutdur.

**Camalağa Musayev** (Nərəcan kənd ağsaqqalı): - Biz çox şadıq ki, Nizami müəllimin deputatlığa namizədliyi məhz bizim bölgədən irəli sürülüb.Bu, Yeni Azərbaycan Partiyasının, onun sədri cənab İlham Əliyevin bizim bölgəyə xüsusi diqqət və qayğısının ifadəsidir. Biz inanırıq ki, bizim problemlərimizin həllinə məhz Nizami müəllim kimi yüksək qabiliyyət sahibi olan insan kömək göstərə bilər.

**Rəfiqə İbrahimova** (Nərəcan kənd sakini): - Mən Nizami müəllimi 1970-ci ildən - APİ-də tələbə olduğum vaxtdan tanıyıram. O, müəllimlik fəaliyyətinə bizə birinci kursda dərs deməklə başladı. Biz Azərbaycan dilini, ədəbiyyatı sevməyi Nizami müəllimdən öyrənmişik. İndi isə ondan öyrəndiklərimizi şagirdlərimizə tədris edirik. Fəxr edirəm ki, mənim müəllimim bu gün ölkəmizin ən tanınmış adamlarından biridir və deputatlığa namizədliyini də məhz bizim bölgədən verib.

**Dəmirbəy Qədirov** (Ləcət kənd ağsaqqalı): - Nizami müəllim, sizin kəndə gəlişiniz, camaatla səmimi söhbətiniz bizi hədsiz dərəcədə məmnun etdi. Kəndimiz qədim, zəngin tarixi olan bir kənddir. Nailiyyətlərimiz çoxdur. Amma problemlərimiz də az deyil. İnanırıq ki, onları sizin köməkliyinizlə həll edə biləcəyik.

**D.Hacıyev** (Ləcət kənd sakini): - Biz sevinirik ki, xalqımızın Nizami müəllim kimi layiqli oğlunun deputatlığa namizədliyi məhz bizim bölgədən verilib. Buna görə YAP-a, onun sədri cənab İlham Əliyevə dərin təşəkkürümüzü bildiririk.

**M.Hacıxanov** (Ləcət kəndinin 83 yaşlı ağsaqqalı): - Xaçmazlılar görürlər ki, Nizami müəllim hələ deputat olmamış bizim üçün nə qədər işlər görüb. Ona görə biz Nizami Xudiyevi elə indidən öz deputatımız sayırıq.

**Ə.Heybətov** (Maqsudkənd sakini): - Nizami müəllim kəndimizə gəlməsi ilə, bizimlə açıq, səmimi söhbət etməsi ilə, xüsusilə bir çox problemlərimizin həllinə əməli kömək göstərməsi ilə çoxlarına dərs verdi. Axı biz indiyədək çox deputatlar seçmişik, amma bəzilərinin heç üzlərini də görməmişik.

**Qurban Ayatov** (Maqsudkənd sakini): - Mən şəhid atasıyam. Oğlumun büstünün qoyulmasında göstərdiyi köməyə görə Nizami müəllimə dərin minnətdarlığımı bildirirəm.

**Abdulla Didarov** (Xaçmaz RİHB-nin Dədəli İƏV-də nümayəndəsi): - Mən yalnız Dədəli kəndində deyil, ona qonşu olan Bostançı, Sabiroba və Nağıoba kəndlərində də əhalinin Nizami Xudiyevi necə böyük səmimiyyət və qonaqpərvərliklə, duz-çörəklə, ən əziz və doğma adamları kimi qarşıladıqlarının şahidiyəm. Görürəm ki, onun kənd və qəsəbələrdə xüsusi təqdimatına ehtiyac yoxdur. Hamı onu görkəmli ziyalı, alim, fəal ictimai xadim kimi yaxşı tanıyır.



**Bəhlul kişi** (Mürşüdoba kənd sakini): - Nizami müəllim qısa vaxtda camaatımız üçün çox iş görüb. Buna görə biz ona minnətdarıq. Ancaq bizim problemlərimiz də var. Özü də onların həlli təkcə yerli hakimiyyət orqanlarından asılı deyil. Ümidvarıq ki, iqtidar partiyamız, onun rəhbərliyi, eləcə də namizədliyi bizim bölgədən irəli sürülmüş Nizami müəllim bu problemlərin həllində bizə kömək edəcək. Bir halda ki, YAP bizim bölgədən məhz onun deputat seçilməsini məsləhət bilib, deməli, onun gücünə, qabiliyyətinə, səriştəsinə yaxşı bələddir. Təbii ki, bu, həm də bizə göstərilən etimaddır. Biz Nizami müəllimə səs verməklə bu etimadı doğrultmalıyıq.

**N.Daşdəmirova** (Xudat şəhər sakini): - Nizami Xudiyev Azərbaycanın hər yerində tanınan bir insandır. O, ölkəmizin istənilən bölgəsindən namizədliyini verib uğur qazana bilər. Bizim dairənin digər namizədləri inciməsinlər, onların hər birinə hörmətimiz var, ancaq müqayisə etdikdə görürük ki, onların heç biri Nizami müəllim yüksəkliyində deyildir. Nizami müəllimi deputat seçmək imkanı bizim qismətimizə düşüb və biz xudatlılar bundan olduqca böyük fərəh duyuruq.

**İsfəndiyar müəllim** (Pirquluoba kənd ağsaqqalı): - Azərbaycanımız sürətlə inkişaf edir. Dünyada ona inam, hörmət o qədər böyükdür ki, milyardlarla investisiya qoyulur, iqtisadi, siyasi, hərbi gücü gündən-günə artır. Ancaq bir şeyi yaddan çıxarmaq olmaz ki, xalqın ən böyük sərvəti onun intellektual-mənəvi sərvətidir. Ulu öndərimiz Heydər Əliyevin ən layiqli yetirmələrindən biri olan Nizami Xudiyev 67 kitabı ilə Azərbaycan xalqının mənəviyyatına qiyməti heç nə ilə ölçülməyən investisiya qo-

yub. Təkcə bu kifayətdir ki, biz onu bölgəmizin nümayəndəsi kimi parlamentə deputat seçək. Nizami müəllim xalqına məhəbbətini artıq sübut etmiş, həyatda özünə cığır açmış, iz qoymuş bir şəxsiyyətdir. Biz belə bir insana hörmət və ehtiramımızı seçimimizlə - ona səs verməklə təsdiq etməliyik.

**Mühyəddin Mahmudov** (Dədəli kənd sakini, YAP-ın üzvü): - Deputatlığa namizədi o vaxt müdafiə etmək asan olur ki, o namizədin hörməti, nüfuzu olsun. Biz çox məmnunuq ki, rayonumuzdan məhz Nizami müəllim kimi tanınan, seçilən, hörmətli, nüfuzlu bir şəxsiyyətin namizədliyi verilib. Biz öz seçimimizlə Milli Məclisdə bizim rayonu Nizami müəllim kimi görkəmli bir ziyalının təmsil etməsinə nail ola bilərik.

**Ş.Mövlanov** (Dədəli kənd sakini): - Nizami müəllim ona görə Milli Məclisin üzvü olmağa layiqdir ki, o, ötən 10 ildə bunu artıq sübut edib. Nizami Xudiyev dövlətə, dövlətçiliyimizə, Prezidentimizə sədaqətlə xidmət edir. Ona görə biz ona səs verməklə Heydər Əliyev məktəbinə, möhtərəm Prezidentimiz İlham Əliyevin siyasi kursuna səs vermiş olarıq.

**Ağalar Abuzorov** (Bostançı kənd ağsaqqalı): - Bizim dairədən 19 nəfər deputatlığa namizəd var. Ancaq Xaçmaz kənd seçki dairəsinə bir deputat lazımdır. O da Nizami Xudiyevdir. Heç bir namizəd onun yerini verə bilməz. Nizami müəllim öz intellekti ilə digər namizədlərdən xeyli üstündür.

**M.Cəlilov** (Dədəli kənd sakini): - Biz hər gün namizədlərin Xaçmaz televiziyası ilə çıxışlarını eşidirik.



Hər şeyi görürük. Biz xaçmazlılara Nizami müəllim kimi millət vəkili lazımdır. Mən inanıram ki, o, deputat seçilsə, bizim problemlərimizin həllinə yaxından kömək edəcək. Problemlərimiz isə çoxdur. YAP da elə ona görə bizim bölgədən Nizami müəllimin namizədliyini verib ki, buradakı problemlərin həllinə məhz onun köməklik göstərə biləcəyinə inanır.

**Ə.Aydəmirov** (Qusarçay kənd sakini, YAP-ın üzvü): - Hər bir seçici istəyir ki, onu ali qanunvericilik orqanında daha layiqli bir insan təmsil etsin. Mənə elə gəlir, bizim dairənin seçicilərinin bəxti gətirib ki, Nizami müəllimin namizədliyi məhz bizim dairədən verilib. Axı o, ölkəmizin sayılan, seçilən, xalqımızı yüksək kürsülərdə, məclislərdə ləyaqətlə təmsil edən bir insandır. Heydər Əliyev məktəbinin yetirməsidir. Dövlətçiliyimizə sədaqətlə, peşəkarlıqla xidmət edən bir adamdır. Elə ona görə də Nizami Xudiyevə səs verməliyik.

Mən Nizami Xudiyevin seçki təşviqatı mərhələsindəki fəaliyyətini yaxından izləmiş bir çox şəxslərlə də söhbət etmişəm. İndi də onların rəylərindən bəzi fraqmentləri oxuculara təqdim edirəm.

**Nazim Ağayev** (YAP Xaçmaz Rayon Təşkilatı İdarə Heyətinin üzvü): - Biz təşviqat kampaniyasına başlamazdan əvvəl nəzərdə tutmuşduq ki, seçicilərlə görüşlər icra nümayəndəliklərinin yerləşdiyi kəndlərdə keçirilsin. Lakin Nizami müəllim qətiyyətlə bildirdi ki, dairəyə daxil olan kəndlərin hamısında görüşlər keçirəcək. Həqiqətən də, Nizami müəllim avto qəzaya düşənə qədər artıq 98 kənddə seçicilərlə görüşmüşdü. Görüş qabağı Nizami Xudiyev bizdən gedəcəyi kənd haqqında ona çoxlu məlumat ver-

məyi xahiş edirdi. Ancaq biz ona məlumatları verəndə təəccüblənirdik: məlum olurdu ki, onun həmin kənd haqqında bilgiləri bizim verdiyimiz məlumatlardan daha zəngindir.

**Nəzakət Kərimova** (Xudat şəhər 2 saylı orta məktəbin müəllimi): - Nizami müəllim Xaçmazın yaşayış məntəqələrini gəzdikcə, bu yerlərin gözəlliklərini elə şövqlə dəyərləndirirdi ki, adamlar cənnət timsallı bir məkanda yaşadıqlarını sanki indi hiss edirdilər. Yerli adamlar etiraf edirdilər ki, Xaçmaz rayonunun keçmişi, bu günü, təbiəti, təsərrüfatı, gələcək inkişaf perspektivləri haqqında bilgiləri Nizami müəllimlə hər görüşdən sonra xeyli genişlənir.

Fitri zəka sahibi olan bu insan hansı kəndə gedirdisə, o ərazinin tarixi, əhalisi, iqtisadiyyatı, mədəniyyət abidələri haqqında elə ətraflı məlumat verirdi ki, yerli sakinlər yaşadıqları yeri onun kimi tanımadıqlarını etiraf edirdilər. Nə qədər paradoksal görünsə də, ancaq bu bir faktdır ki, Nizami müəllim Xaçmazı xaçmazlılara tanıdır və sevdirirdi.

Nizami müəllim görüşlərdə böyük məsələlərdən elə sadə şəkildə danışırdı ki, iştirakçılar 2-3 saatın necə keçdiyini hiss etmirdilər. O, hər bir vətəndaşın hüquq və azadlıqlarının qorunmasından, Vətənimizin ərazi bütövlüyünün bərpa olunacağından, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində nəzərdə tutulan tədbirlərdən, yerli resurslardan istifadənin vacibliyindən, yeni iş yerlərinin açılması zərurətindən, əhalinin maddi rifahının, sosial müdafiəsinin yaxşılaşdırılması üçün ölkə rəhbərinin gördüyü davamlı işlərdən olduqca sadə və inandırıcı şəkildə bəhs edirdi.



**Ramiz Məmmədov** (Nizami Xudiyevin vəkili): - Mən çox seçkilər, çox deputatlığa namizədlər görmüşəm, ancaq Nizami müəllim qədər bu işə məsuliyyətlə yanaşan, seçicilərə, onların istək, rəy, təklif və qeydlərinə Nizami müəllim qədər diqqət və göstərən namizəd görməmişəm. O, bütün kəndlərdə, məntəqələrdə seçicilərlə şəxsən görüşməyi qərara almışdı və heç bir çətinlik - pis hava şəraiti, bəzi kənd yollarının yararsızlığı, uzaqlığı onu fikrindən daşındırmırdı. Bəzən hətta seçicilərlə görüşə həyatını riskə qoyaraq gedirdi. Nizami müəllimlə görüşdən sonra mən hər dəfə adamların əhval-ruhiyyəsinin yaxşılaşdığını müşahidə edir, hətta ən qaraqabaq, dərdli, qayğılı insanların da onunla görüşdən sonra ovqatının duruldoğunu hiss edirdim.

Çox əlamətdar haldır ki, seçicilər Nizami müəllimi hələ o, deputat seçilməzdən əvvəl öz problemlərinin həllinə yardımçı sanır, onu arxa, ümid yeri bilirdilər. Təsadüfi deyil ki, Nizami müəllimin seçki qərargahının qarşısı həmişə adamla dolu olurdu.

Nizami Xudiyev rəqiblərinə hörmətlə yanaşır, onları açıq dialoqa, sivil mübarizəyə dəvət edirdi. Ümumiyyətlə, o, rəqiblərinə qarşı mübarizə aparmağa deyil, seçicilərlə fəal iş aparmağa qərar vermişdi.

Nizami Xudiyev seçki dairəsinin əhatə etdiyi yaşayış məntəqələrinin, demək olar ki, hamısında (onların sayı 103-dür) seçicilərlə görüşlər keçirmiş, əhalinin sosial durumunu dərindən öyrənmiş, bir sıra problemlərin həllinə əməli kömək göstərmişdir.

Xudat şəhərində fəaliyyət göstərən qərargahında Nizami müəllim hər gün 50-60 seçici ilə görüşür, gün ərzində müxtəlif kəndlərdə olur, bəzən 3-4 görüş keçirir, axşam

qərargaha qayıtdıqdan sonra isə onu gözləyən insanları qəbul edirdi.

Mən az vaxtda gördüm və inandım ki, Nizami müəllim vədinə sadiq, sözübütöv adamdır. İstər seçki təbliğatı mərhələsində, istərsə də seçkidən sonrakı vaxtda Nizami Xudiyevin köməyi, təşkilatçılığı, təşəbbüsü və aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırması sayəsində yerlərdə bir çox problemlərin həlli istiqamətində tədbirlər görülmüşdür. Belə tədbirlərdən bəzilərinin adını çəkmək kifayətdir ki, hər kəsdə bunlarla bağlı əyani təsəvvür yaransın:

Həsənqala, Ləcət kəndlərində və Xudat şəhərində su probleminin həlli üçün artezian quyuları vurulub və ya təmir olunub.

Xudat şəhər mədəniyyət evi yeni oturacaqlarla təmin edilib.

Xudat Mərkəzi Xəstəxanası yeni təcili yardım maşınları, USM aparatı, cərrahiyyə avadanlıqları, dərman preparatları ilə təmin olunub.

Hər həftənin şənbə və bazar günləri ehtiyacı olanlar Xudat Şəhər Xəstəxanasında müayinədən keçir, müalicə alırlar.

Bir neçə məktəbə yeni parta, yazı lövhələri və kompüter dəstləri verilib.

Xaçmaz Televiziya Verilişləri Mərkəzinin yayım vaxtı artırılıb.

Bağça uşaqları və I sinif şagirdlərinə 1000 ədəd yeni il hədiyyəsi verilib.

Xudat Şəhər Mədəniyyət Evinin ətrafındakı park abadlaşdırılıb.

Xeyli insanın, o cümlədən şəhid ailələrinin, əlillərin sosial-məişət problemlərinin həlli istiqamətində müəyyən iş aparılıb.



Bir çox kəndlərdə yol, torpaq, iaşə və sair məsələlərin həlli üçün əlaqədar təşkilatlar qarşısında məsələ qaldırılıb.

Mən köhnə xudatlı kimi deyə bilərəm ki, qısa müddətdə Nizami müəllim qədər əhali arasında dərin hörmət qazanan ikinci bir adam görməmişəm. O, az bir vaxtda hamı üçün doğma insana çevrilib. Mən buna xüsusilə Nizami müəllimin avtomobil qəzasına düşməsi xəbərindən camaatımızın necə sarsıldığını, necə kədərləndiyini görəndə əmin oldum. Həmin günlərdə uşaqlar, qadınlar, kişilər, ağsaqqallar ara vermədən qərargaha gəlir, səmimi, ürəkdən gələn bir canıyananlıqla Nizami müəllimin vəziyyəti və müalicəsi ilə maraqlanırdılar.

**N.Kərimova** (Xudat şəhər sakini, müəllimə): - Eşitdiyimiz avtoqəza xəbəri hamımızı sarsıtdı. Bunu sözlə ifadə etmək çətindir. Biz o dəhşətli xəbəri eşidəndən sonra televiziyanın önündən çəkilmir, onun vəziyyətindən xəbər tutmaq istəyirdik. Ulu yaradana dua edirdik ki, onun həyatını hifz etsin. Hətta kiçik nəvəm Asimanın da əlləri göydə idi və o, Allaha yalvarırdı ki, Nizami müəllimi tezliklə həyata qaytarsın.

**Ələsgər Babayev** (Xaçmaz Rayon Televiziya Verilişləri Şirkətinin sədri): - Bu ağır, gözlənilməz xəbər məktəb şagirdlərindən tutmuş rayon rəhbərliyinədək bütün xaçmazlıları dərindən kədərləndirdi. Mənə ardı-arası kəsilmədən zəng edib Nizami müəllimin vəziyyəti, müalicəsinin gedişi ilə maraqlanırdılar. Xudatda Nizami müəllimin seçki qərargahına gəlib nigarançılıqlarını bildirənlərin sayı hədsiz idi. Çoxları ona məktub və teleqram göndərir, köməkliklərini təklif edirdilər.

**N.Daşdəmirova** (Xudat sakini): - Nizami müəllimin avtoqəzaya düşməsi xəbəri məni şoka saldı, ağladım. Evdə əlil oğlum var, o, həmin iztirablı anları mənimlə bərabər yaşadı və tez-tez məndən soruşurdu: "Ana, o sağalacaq?" Mən onu ovunduraraq cavab verirdim: "Narahat olma, oğlum, mütləq sağalacaq. Bizim ulu tanrıya dualarımız onu yenidən bizə qaytaracaq." Biz hər gün onun müalicəsi ilə maraqlanırdıq. Hətta ona ailəmiz adından tez sağalmaq arzusu ilə teleqram da vurduq.

**Qurban Mərd** (Əbilyataq kənd orta məktəbinin riyaziyyat müəllimi) Nizami Xudiyevə ithaf etdiyi şeirində misralarının onun müalicəsinə iynə-dərman qədər kömək edəcəyinə inamını ifadə etmişdi.

### Halal deputatlıq mandatı

Nəhayət, 6 noyabr 2005-ci il seçkilər günü gəlib çatdı. İnsanlar axın-axın seçki məntəqələrinə gələrək istədikləri namizədlərə səs verdilər. Çox maraqlıdır ki, bu seçkilərdə seçicilərin əksəriyyəti seçimlərini gizlətmir, konkret deyirdilər: bizim bir namizədimiz var, o da Nizami müəllimdir. Bəli, Nizami Mənaf oğlu Xudiyev seçkidə qələbə qazandı, rəqiblərini xeyli arxada qoyaraq seçicilərin əksəriyyətinin səsini topladı. Nizami müəllim arzu etdiyi kimi, halal səs, halal mandat qazandı.

Həmin qələbə günü Nizami müəllim hələ müalicə olunurdu, ancaq ürəyi seçicilərinin yanında idi, onlarla tezliklə görüşmək arzusu ilə sağlamlığını bərpa edirdi. Mən Nizami müəllimin müalicə prosesini yaxından müşahidə edən bir adam kimi tam əminliklə deyə bilərəm ki, onun ağır avtomobil qəzasından sonra tezliklə sağalmasında bu



qələbənin çox böyük rolu oldu: həkimlərin müalicəsi nə qədər uğurlu gedirdisə, onun artıq doğmalaşdığı, ona halal deputat mandatı qazandırdığı seçicilərinin xeyir-duası və mənəvi dəstəyi (telefon zəngləri, teleqramları, məktubları) bu müalicənin sürətini bir o qədər artırırdı.

Ümumiyyətlə, qeyd edim ki, həmin günlərdə Nizami müəllimin səhhəti, müalicəsi, sağlamlığının bərpası ilə yalnız seçiciləri deyil, bütün yaxınları, dostları, iş yoldaşları, tanışları, dövlət rəsmiləri, geniş ictimai dairələr də yaxından maraqlanır, onun ziyarətinə gəlirdilər. Öz növbəsində Nizami müəllim də müalicə prosesinin ciddiliyinə baxmayaraq, bütün gəlib-gedən, soruşan və zəng edənlərin kimliyi ilə həssaslıqla maraqlanırdı. Açıq hiss olunurdu ki, adamların bu diqqəti onun əhval-ruhiyyəsinə və əlbəttə, sağlamlığının bərpasına çox müsbət təsir göstərir.

25 dekabr 2005-ci il. Nizami Xudiyevin seçkidən və müalicədən sonra xaçmazlılarla ilk görüşdüyü gün. Bu görüş barədə ən dolğun təsəvvürü onu səbirsizliklə gözləyən xaçmazlıların öz deyim və təəssüratları yaradır. Onlardan bəzilərinə diqqət yetirək:

**N.Ağayev** (Xaçmaz Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri): - Nizami müəllimin seçkidən sonra Xaçmaza ilk gəlişi böyük bir bayrama çevrildi.

**N.Kərimova** (Xudat şəhər 2 saylı orta məktəbin ali kateqoriyalı müəllimi): - Biz Nizami müəllimin ağır yol qəzasından sağ-salamat qurtarması üçün ulu Tanrıya dualar edirdik. Böyük yaradan bizim dualarımızı eşitdi və Nizami müəllim tezliklə sağalıb biz xudatlıların görüşünə gəldi. Onun ayağının altında qurbanlar kəsildi. Hamı ilə öz doğmaları kimi görüşdü. Dünya Azərbaycanlılarının

Həmrəylik Günü və Yeni il münasibətilə Mədəniyyət evində təntənəli bayram konserti oldu.

**N.Daşdəmirova** (Xudat şəhər sakini): - Allaha şükürlər olsun ki, Nizami müəllim tezliklə sağaldı və Xudata seçicilərlə görüşə gəldi. Həmin gün Mədəniyyət evinin qarşısına o qədər adam yığışmışdı ki, mən Nizami müəllimi yalnız uzaqdan görə bildim. Camaat onu əhatəyə almışdı. Hamı sevinirdi. Adamların üzündən şadlıq, təbəssüm yağırdı. Axı biz qısa bir müddətdə onunla çox doğmalaşmışdıq. Bu gəliş, bu görüş bizə bir dünya sevinc bəxş etdi.

**Ə.Babayev** (Xaçmaz Rayon Televiziya Verilişləri Şirkətinin sədri): - Xaçmazlıların Nizami Xudiyevə sayğı, sevgi və hörmətinin iki ən yüksək zirvəsi var: 6 noyabr və 25 dekabr. 6 noyabr onun seçicilərin böyük əksəriyyətinin inam, etibar və etimadının ifadəsi olan seçici səslərini qazandığı gündür ki, biz bu günün sevincini bilavasitə onunla birlikdə bölüşə bilməmişdik. Dekabrın 25-i isə onun reabilitasiyadan (müalicədən) sonra Xudata – seçicilərlə görüşə gəldiyi gündür. Həmin gün rayon mərkəzindən, yaxın və uzaq kəndlərdən bu görüşə minlərlə adam gəlmişdi. Xudat Mədəniyyət evi hələ belə bir büsat görməmişdi. Nizami müəllimin ayağının altında qurbanlar kəsildi, onu gül-çiçək dəstələrinə qərq etdilər.

Nizami müəllim özü də xaçmazlıların ona bu isti, doğma, səmimi münasibətindən əməlli-başlı təsirlənmişdi. Çıxış edib camaata minnətdarlığını bildirərkən o, kövrəldiyini istər-istəməz büruzə verirdi.

**Ramiz Məmmədov** (N.Xudiyevin vəkili): - Seçkidə əldə etdiyi qələbənin sevincini noyabrın 6-da Nizami



müəllimlə bölüşə bilməsək də (o, avtoqəzadan sonra hələ müalicə olunurdu), ancaq biz bu görüşü çox gözləməli olmadıq. Dekabrın 25-də onun rayona gəlişi bizim üçün sözün həqiqi mənasında toy-bayrama çevrildi. Onun qarşılanma mərasimi olduqca səmimi və təsirli idi. Adamlar onu ən əziz adamları kimi bağırlarına basaraq salamlayırdılar. Bəziləri hətta sevincdən kövrələrək doluxsunmuşdular.

**N.Seyidova** (Xudat Şəhər Mədəniyyət evinin müdiri): - Nizami müəllimin xaçmazlılara ən böyük hədiyyəsi, əlbəttə, onun sağalıb seçicilərin görüşünə gəlməsi oldu. Amma o, öz gəlişi ilə xaçmazlılara həm də musiqilinəğməli yeni il sovqatı gətirmişdi. Məktəblilərə, bağça uşaqlarına, bədii istedadı olan gənclərə çoxlu yeni il hədiyyələri bağışladı. Həmin gün Mədəniyyət evində Azərbaycanın görkəmli incəsənət ustalarının iştirakı ilə böyük bir konsert oldu. Ancaq mən burada bir məqamı xüsusi vurğulamaq istəyirəm. Təbii ki, Nizami müəllimin xaçmazlılara dəyərli hədiyyələrindən biri onun təşəbbüsü ilə Mədəniyyət evində keçirilən konsertlərdir. Adətən, seçkiqabağı təşviqatın bir növü olan belə konsertlər seçki kampaniyası bitdikdən sonra davam etdirilmir. Amma Nizami Xudiyev bu sahədə də yenilik etdi: onun təşəbbüsü ilə baş tutan maraqlı konsert proqramları seçkidən sonra da xaçmazlıları sevindirir. İndi bizim bütün camaatımız, hətta vaxtilə seçkiyə ən laqeyd olan adamlar da Nizami Xudiyevə güvənərək onun ünvanına fəxrlə "bizim deputatımız" ifadəsini işlədirlər.

Camaatımız Nizami müəllimə o qədər isinişib ki, o, Xaçmaza, Xudata bir-iki həftə gec gələndə qərargaha üz tutur, onun nə vaxt gələcəyi ilə maraqlanırlar. Nizami

müəllim də sağ olsun, bizi çox intizarda qoymur, hər ay ən azı bir-iki dəfə gəlib dairənin, adamların problemləri ilə yaxından maraqlanır, onların həlli üçün əlindən gələni əsirgəmir. Cəsarətlə deyə bilərəm ki, Nizami müəllimin bizim bölgədən millət vəkili seçilməsi onun şəxsi uğurundan çox biz xaçmazlıların uğurudur və biz bundan qürur hissi duyuruq.

* * *

Aradan bir neçə il keçib. Bu vaxt ərzində Xaçmazda, xaçmazlıların həyatında hansı dəyişikliklər baş verib?! Ölkəmizin hazırkı sosial-iqtisadi durumunda Xaçmaz rayonu necə, nə kimi yer tutur, hansı özəl xüsusiyyətləri ilə fərqlənir? Bir millət vəkili kimi bu bölgənin ictimai-siyasi həyatında yaxından iştirak edən Nizami Xudiyevlə bu suallar ətrafında söhbət edirik.

— Xaçmaz rayonu və ümumiyyətlə, şimal bölgəsi Azərbaycanın digər bölgələrindən hər şeydən öncə özünün təbii-coğrafi mövqeyi ilə seçilir. Ulu öndərimiz Heydər Əliyev 1998-ci ildə Xaçmaz rayonunda şimal bölgəsi seçiciləri ilə görüşü zamanı söyləyib: "Azərbaycanın paytaxtı Bakıdan şimal sərhədinə qədər Xəzər dənizi kənarında və eyni zamanda Qafqaz dağlarının qoynunda bizim gözəl bölgələrimiz, gözəl rayonlarımız yerləşir və bu yerlərdə gözəl insanlar yaşayırlar. Bu bölgədə bir tərəfdən dəniz sahili boyu gözəl meşələr, gözəl yerlər, o biri tərəfdən dağlar, çeşmələr, bulaqlar, çaylar, bağlar, bağçalar və gül-çiçəkliklərin içərisində, Allahın bəxş etdiyi bu gözəl təbiətin əhatəsində, Azərbaycanın bu gözəl bölgəsində siz yaşayırsınız və siz buranı daha da gözəlləşdirirsiniz, siz buranı qurub-yaradırsınız. Təbiət bu yerlərə çox böyük gözəllik bəxş edibdir. Ancaq Azərbaycanın bu gözəl hissəsi on illərdir sizin əməyinizlə, sizin zəhmətinizlə, sizin zəkanızla qurulub, yaradılıb, inkişaf edib. Buralarda qəhrəman, zəhmətkeş, fədakar insanlar yaşayırlar." Şimal bölgəsi haqqında, o cümlədən Xaçmaz və xaçmazlılar haqqında bundan tutarlı, bundan sərrast və dəyərli söz demək çətindir. Bu gün Xaçmaz rayonu möhtərəm Prezidentimiz İlham Əliyevin xüsusi diqqəti və qayğısı sayəsində özünün sürətli inkişaf dövrünü yaşayır. Respublikaya rəhbərlik etdiyi dövrdə İlham Əliyev cənabları dörd dəfə Xaçmaz bölgəsinə səfər edib. Bu səfərlərin hər biri rayonda bir sıra böyük həyati əhəmiyyətli obyektlərin açılışı ilə, eyni zamanda irimiqyaslı tikinti-quruculuq işlərinə təkan verilməsi ilə əlamətdar olub, xaçmazlıların yaddaşına olduqca xoş, səmimi xatirələr kimi həkk edilib.

Möhtərəm Prezidentimizin şəxsi təşəbbüsü və göstərişi ilə qısa bir müddətdə tikilən Xaçmaz modul tipli elektrik stansiyası istifadəyə verilib. Açılış mərasimində dövlət başçımızın iştirak etdiyi bu elektrik stansiyası şimal bölgəsi rayonlarının enerjiyə olan tələbatını ödəməklə yanaşı, həm də bölgədə iqtisadiyyatın inkişafına etibarlı təminat yaradıb. Ölkə başçısının xüsusi göstərişi ilə rayonun kənd və qəsəbələrinə müntəzəm qaz verilməsinin bərpası uğurla davam etdirilir. Son illərdə rayonda 13-dən çox məktəb binası tikilib. Bunlardan 4-ü "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində Heydər Əliyev Fondunun təşəbbüsü və vəsaiti hesabına inşa edilib. Rayonda 6 min nömrəlik yeni elektron tipli ATS quraşdırılıb, gözəl və yaraşıqlı mədəniyyət və istirahət parkı salınıb, Şəhidlər xiyabanı tikilib, əzəmətli "Qoşa qapı", Yeni Azərbaycan Partiyası Xaçmaz Rayon Təşkilatı üçün yeni inzibati bina inşa edilib, rayonun tarix-diyar-

şünaslıq muzeyi yenidən qurulub, Ulu öndərimiz Heydər Əliyevin adını daşıyan küçədə Şəxsiyyətlər muzeyi yaradılıb (yeri gəlmişkən bu, respublikada ilk belə muzeydir), Xalçaçılıq muzeyi təşkil edilib.

Quruculuq və abadlıq işləri yalnız rayon mərkəzində deyil, onun kənd və qəsəbələrində də gedir. Əhalinin həyat səviyyəsinin əsas göstəricilərindən biri olan yeni, müasir, yaraşıqlı yaşayış evləri tikilir, çoxlu minik və yük maşınları alınıb gətirilir.

Son illər yerli sahibkarlar tərəfindən onlarla müasir tipli ticarət, iaşə və xidmət obyektləri tikilib istifadəyə verilib. Bölgənin inkişafında önəmli yer tutan turizm sektorunun inkişafı istiqamətində çox əhəmiyyətli işlər görülüb. Nabran qəsəbəsində yerləşən "Malibu", "Palma", "Atlant" və digər istirahət mərkəzləri ölkəmizdə turizmin inkişafı səviyyəsinin ən yaxşı göstəriciləridir. Fərəhli haldır ki, ölkə başçısının diqqət və qayğısı sayəsində bölgədə turizm sektorunda işlərin miqyası getdikcə artmaqdadır.

Ən mühüm nailiyyətlərdən biri də dövlətimizin başçısının sərəncamına əsasən sərhədçilər üçün Xudat şəhərində tikilən yaşayış şəhərciyinin istifadəyə verilməsidir. Bu şəhərciyin, eləcə də inşası başa çatmış bir çox digər obyektlərin istifadəyə verilməsinə həsr olunmuş mərasimlərdə möhtərəm Prezidentimiz də iştirak etmiş, onların fəaliyyətinə xeyir-dua vermışdir.

Həyata keçirilən bütün bu quruculuq işləri nəticəsində rayonda son beş ildə 10823 yeni iş yeri açılmışdır.

Bütün bu obyektlərin ərsəyə gəlməsində dövlət tapşırıqlarını böyük məsuliyyətlə yerinə yetirən yerli icra orqanlarının, şəxsən icra başçısı Şəmsəddin Xanbabayevin, sahibkarların, fermerlərin, iş adamlarının, rayonun zəhmətkeşlərinin böyük zəhməti vardır.



Bütün bu işlər "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində görülən işlərin tərkib hissəsidir.

Dövlətimizin başçısı İlham Əliyev cənabları Xaçmaz rayonuna səfəri zamanı çıxışında "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ümummilli əhəmiyyət daşıdığını xüsusi vurğulayaraq demişdir: "Regionlarımızda uğurlarla bərabər problemlər də kifayət qədərdir. "Regionların sosial-iqtiadi inkişafı Dövlət Proqramı"nın uğurlu icrası məhz bu problemlərin aradan qaldırılmasına yönəlmişdir. Çünki əsas problemlər bölgələrdədir və bölgələrin inkişafı Azərbaycanın inkişafı deməkdir. Bölgələrdə iş yerlərinin yaradılması Azərbaycanın hərtərəfli inkişafı deməkdir".

Möhtərəm Prezidentimiz həmin çıxışında Dövlət Proqramının Xaçmaz rayonunda icrası istiqamətində əldə olunan təcrübəni müsbət nümunə kimi dəyərləndirərək qeyd etmişdir: "Mən prezidentlik dövründə Xaçmaza bir neçə dəfə gəlmişəm və hər dəfə də gələndə burada yeniliklər görürəm... Xaçmaz şəhəri gözəlləşir, abadlaşır... Bu, bizi çox sevindirir. Azərbaycanın gücü bölgələrin gücündədir. Buna nail olmaq üçün bütün aidiyyəti qurumlar səmərəli işləməlidirlər. Yerli icra orqanları, mərkəzi icra orqanları, nazirliklər, bütün qurumlar, hər bir məmur vicdanla işləməlidir və öz vəzifə borcunu yerinə yetirməlidir. Mənim tələbim budur, mənim siyasətim budur. Mən çox şadam ki, son illər ərzində Xaçmazda çox böyük quruculuq işləri aparılır. Bu, məni çox sevindirir. Bu, onu göstərir ki, əgər xoş niyyət, arzu varsa və doğma xalqına sevgi, məhəbbət varsa, istənilən məsələ öz həllini tapa bilər."

Xaçmazlıların əməyinə verilən bu yüksək qiymət, əlbəttə, onları daha böyük quruculuq əzmi ilə işləməyə və yaşamağa ruhlandırır. Bəli, hazırda Xaçmaz torpağı öz inkişafının çiçəklənmə dövrünü yaşayır, özünün quruculuq tempi ilə Azərbaycan rayonlarının ön sıralarında addımlayır. Olduqca zəhmətkeş, sadə, halal, qədirbilən və qonaqpərvər camaat olan xaçmazlılar özlərinin ənənəvi əmək fəaliyyətlərini davam etdirməklə yanaşı, yeni sahibkarlıq fəaliyyəti üsullarına və formalarına da cəsarətlə müraciət edir və böyük uğurlar qazanırlar.

**Rabil Novruzov**
*Jurnalist*
*mart, 2006-cı il*



## MÜBARİZƏLİ GÜNLƏRİN XOŞ SONLUĞU

XXI əsrə müstəqil dövlət kimi qədəm qoyan Azərbaycan Respublikası qazandığı istiqlalı qoruyub saxlamaq, demokratik dövlət qurmaq, fikir plüralizmi və azad bazar iqtisadiyyatına malik olan vətəndaş cəmiyyəti yaratmaq uğrunda mübarizə aparır.

2005-ci il 6 noyabr tarixində keçirilən Milli Məclisə III cağırış deputat seçkiləri demokratikliyi, şəffaflığı baxımından daha mühüm, uğurlu addım kimi Azərbaycanın dövlətçilik tarixinə daxil oldu. Bu seçki mənim həyatımda ona görə əlamətdardır ki, Milli Məclisə 56 saylı Xaçmaz kənd seçki dairəsi üzrə Yeni Azərbaycan Partiyasının namizədi, görkəmli dövlət və elm xadimi, filologiya elmləri doktoru, professor Nizami Xudiyevin səlahiyyətli nümayəndəsi, vəkili oldum. Etiraf edim ki, seçki dövründə baş verənlər, xüsusilə professor Nizami Mənaf oğlu Xudiyevlə daha yaxından təmasda olmaq imkanı qazanmağım, görkəmli alimin istər seçicilərlə, istərsə də seçki qərargahının üzvləri ilə davranış mədəniyyəti, yüksək əxlaqi dəyərlərə söykənən ünsiyyət qabiliyyəti, sadəliyi və tələbkarlığı həyatım üçün əsl örnək, heç vaxt unutmayacağım məktəb oldu. Qeyd edim ki, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin "Xəbərlər" redaksiyasının şimal bölgəsi rayonları üzrə xüsusi müxbiri kimi daim bu bölgənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatına yaxından bələd olmuşam. Milli Məclisə III çağırış deputat seçkilərinə hazırlıq, namizədlərin qeydiyyata alınması, təbliğat-təşviqat kampaniyası dövründə demokratik dəyərlərə, şəffaf, ədalətli seçkilərin tətbiqi prinsiplərinə cavab verən tədbirlərin

həyata keçirilməsinin fəal iştirakçısı, şahidi olmuşam. Çünki bu tələbi dövlət televiziyasının xüsusi müxbiri kimi digər əməkdaşlarla yanaşı mənim də qarşımda Azərbaycan Televiziya və Radio Verlişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri, millət vəkili, professor Nizami Xudiyev qəti və başlıca peşə borcu kimi qoyurdu. Yaxşı xatirimdədir, 56 saylı Xaçmaz kənd seçki dairəsi üzrə müxtəlif siyasi partiyaların təmsilçilərinin və fərdi namizədlərin adları məlum olsa da, hələ Yeni Azərbaycan Partiyası öz namizədlərini açıqlamamışdı. Bütün respublika ictimaiyyəti kimi xaçmazlılar da ölkəmizin ən qabaqcıl, ən mütəşəkkil partiyası olan Yeni Azərbaycan Partiyasından deputatlığa namizədlərin kimliyini öyrənməyə tələsirdi. 2005-ci il avqust ayının sonlarında adları açıqlanan deputatlığa namizədlərin sırasında professor Nizami Xudiyevin 56 saylı Xaçmaz kənd seçki dairəsi üzrə namizədliyinin irəli sürülməsi çox-ları kimi məni də sevindirdi. Heç vaxt unutmaram. Bu ərəfədə televiziyadan zəng edib bildirdilər ki, sədr təcili səni çağırtdırır. Qəbula girəndə həmişə tələbkar, ciddi olan Nizami müəllimi gülərüz gördüm. Öncə hər dəfə olduğu kimi "işlər necədir, rayonlarda hörmətli Prezidentimizin "Regionların sosial-iqtisadı inkişafının sürətləndirilməsi tədbirləri haqqında" imzaladığı sərəncamdan irəli gələn vəzifələrin icrası nə vəziyyətdədir?" - deyə soruşdu. Ətraflı məlumatı dinlədikdən sonra qəfildən sərtləşdi. Bildirdi ki, parlament seçkilərində deputatlığa namizəd kimi özünə səlahiyyətli nümayəndə, vəkil kimi məni məsləhət bilir. Tövsiyə və tapşırıqlarını söylədikdən sonra nəzərimə onu da çatdırdı ki, bir gənc kimi mənə etibar edir.



Qarşıma qoyulan vəzifənin nə dərəcədə məsuliyyətli olduğunu hiss etsəm də, qəlbim fərəh, sevinc duyğuları ilə dolmuşdu. Axı necə də sevinməyəydim ki, professor Nizami Xudiyevin adı Azərbaycan ictimaiyyətinə yaxşı tanışdır. Ədəbi dil tarixi sahəsində sanballı tədqiqatları ilə bütün türk dünyasında böyük nüfuz qazanmış və elmi dairələrdə adı ehtiramla çəkilən Nizami Xudiyev son illərdə millət vəkili kimi respublikamızın ictimai-siyasi həyatında da fəal iştirak edir, müstəqil Azərbaycanda yeni dövlət quruculuğu işində bir vətəndaş, ziyalı kimi səmərəli fəaliyyət göstərir. O, bütün gücünü, bilik və bacarığını Azərbaycan elminin, dilçiliyinin inkişafına, eləcə də müstəqil Azərbaycan dövlətinin qüdrətlənməsi işinə sərf edir. Buna görə də professor Nizami Xudiyevin həm elmi-pedaqoji, həm də ictimai-siyasi fəaliyyəti xalqımızda böyük rəğbət doğurur. O cümlədən də xaçmazlılarda...

Namizədliyinin qeydiyyata alınması üçün Xudat Şəhər Mədəniyyət evində yerləşən 56 saylı Xaçmaz kənd seçki dairəsinə gələn Nizami Xudiyevi ictimaiyyətin nümayəndələri, sadə zəhmət adamları böyük mehribanlıqla, ehtiramla qarşıladılar. Bizə yaxınlaşan hər kəs artıq seçimini müəyyənləşdirdiyini, 6 noyabr seçki günü deputatlığa namizəd Nizami Xudiyevə səs verəcəyini qəti şəkildə bildirirdi. Lakin ötən dövr ərzində qeydiyyata alınmış digər namizədlər də bacardıqları qədər iş görə bilmişdilər. Açığı professor Nizami Xudiyevin namizədliyinin Yeni Azərbaycan Partiyası tərəfindən məhz bu dairədən irəli sürülməsi digər namizədləri çıxılmaz vəziyyətə salmışdı. Opponentlərdən bəziləri elə ilk gündən məğlubiyyətləri ilə barışsa da, elələri də vardı ki, nəyin bahasına olursa-

olsun qalib gəlmək xatirinə hər cür əməllərdən, şər və böhtanla dolu təbliğat kampaniyasından belə çəkinmədilər. Nizami müəllimin səlahiyyətli nümayəndəsi və seçki qərargahının fəallarından biri kimi istər təbliğat-təşviqat kampaniyası dövründə, istərsə də seçki dairəsindəki müzakirələr zamanı baş vermiş hadisələr, bəzi digər namizədlərin qərəzli seçki metod və üsulları, millət vəkili seçilmək sevdası ilə törətdikləri əməllər seçicilərdə ikrah hissi oyadırdı.

Oxucuların nəzərinə onu da çatdırmaq istərdim ki, 56 saylı Xaçmaz kənd seçki dairəsinin əhatə etdiyi ərazi respublikamızın digər bölgələrindən bir çox cəhətləri ilə fərqlənir. Dairənin hüdudları Xaçmaz rayonunun 103 yaşayış məntəqəsini əhatə edir. Ölkəmizin şimal sərhəddində yerləşən bu kənd və qəsəbələrin özünün təbii-coğrafi və milli tərkibi çox rəngarəngdir. Qeyd etdiyim bu və digər amillər seçkilər dövründə mübarizənin nə dərəcədə gərgin keçəcəyindən soraq verirdi.

12 sentyabr 2005-ci il. Deputatlığa namizəd, professor Nizami Xudiyevin seçicilərlə ilk görüş günü. Xudat Şəhər Mədəniyyət Evi, saat 15-00. Təşkilatçılar, Yeni Azərbaycan Partiyası Xaçmaz Rayon Təşkilatı və Nizami Xudiyevin seçki qərargahı özünə arxayın şəkildə təntənəli bir görüşün keçiriləcəyini zənn etmişdik. Nizami müəllimi əmin etmişdik ki, heç bir problem yoxdur və təşkilatçılar, o cümlədən mən üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirmişik. Nəzərdə tutulan seçicilərin yarısından da azının iştirakı ilə keçirilən görüş elə təzəcə başlamışdı ki, Vaqif Canbaxışov adlı birisi ayağa qalxaraq “bizim öz namizədimiz var” - deyə qışqırdı. Sonradan öyrəndik ki, bu şəxs deputatlığsa namizəd Əbülfət Məmmədovun seçki



qərargahının fəallarından olsa da, Xudat şəhərində yaşayış qeydiyyatı yoxdur və o, heç seçki hüququna da malik deyil. Eyyubov soyadlı bir ağsaqqal Vaqif Canbaxışovun səsinə səs verib Nizami Xudiyevə “nə səbəbə doğulduğunuz Naxçıvan bölgəsindən yox, məhz Xaçmaz rayonundan namizədliyinizi irəli sürmüsünüz?”- soruşdu və əlavə etdi ki, “bizim deputat olmağa layiq olan xaçmazlılarımız dura-dura niyə sizə səs verməliyik?” Bu fikrə alqışları ilə dəstək verənlər də tapıldı. Tribunaya qalxan Nizami Xudiyev məntiqli çıxışı, müdrik fikirləri ilə hər kəsi heyrətləndirdi. Vaqif Canbaxışov zalı tərk etdisə də, bir neçə gündən sonra Köhnə Xudat kəndində seçicilərlə görüş keçirilən vaxt ağsaqqal Eyyubov Şıxvəli kişi çıxış edərək yanlış fikirdə olduğunu bildirdi və seçki gününədək Nizami Xudiyevin fəal təbliğatçılarından oldu.

Görüşdən sonra təşkilatçılar, o cümlədən mən mat-məəttəl donub qalmışdıq. Açığı bu görüşün nəticələri, baş verənlər, tədbirin pozulmasına cəhd edənlərin gizli əməlləri bizi şok vəziyyətinə salmışdı. Yeni Azərbaycan Partiyasının Xaçmazda, o cümlədən Xudat şəhərində minlərlə üzvi olsa da, bu partiyanın deputatlığa namizədi ilə görüşə, onu dəstəkləməyə böyük əksəriyyət gəlməmişdi.

Nizami müəllim məni yanına çağırıb heç nə olmayıbmış kimi tövsiyələrini bildirdi. İlk sözü bu oldu ki, Yeni Azərbaycan Partiyası Xaçmaz Rayon Təşkilatının mövcud vəziyyəti, partiya üzvlərinin siyasi fəallığının aşağı olması onu ciddi narahat edir. Əlavə etdi ki, “tez bir zamanda rayon təşkilatının fəaliyyətində əsaslı dönüşə nail olunmalıdır. Mövcud vəziyyət deputatlığa namizədlikdən daha çox Yeni Azərbaycan

Partiyası İdarə Heyətinin üzvü kimi məni daha çox narahat edir".

Səhəri gün partiyanın Xaçmaz Rayon Təşkilatının qərargahında partiya fəalları, o cümlədən kənd və qəsəbələr üzrə ərazi ilk təşkilatlarının rəhbərləri ilə toplantı keçirildi. Mövcud siyasi vəziyyət, əhalinin fəallığı, digər namizədlərin fəaliyyət istiqamətləri və sair məsələlər barədə ətraflı müzakirələr, fikir mübadiləsi aparıldı. Ayrılıqda hər bir ərazi ilk təşkilat rəhbərinin hesabatı dinlənildikdən sonra ümumi vəziyyətin düşünüləndən də ciddi olduğu müəyyənləşdi. Reallıq o idi ki, bəzi opponentlər tərəfindən Seçki Məcəlləsinin tələbləri kobud şəkildə pozulurdu. Bütün bunları nəzərə alaraq Nizami Xudiyev seçki qərargahı qarşısında tapşırıqlar qoydu: 1) Yeni Azərbaycan Partiyasının hər bir sıravi üzvünün siyasi fəallığının artırılmasına nail olmalı, 2) Yerlərdə seçicilərlə fərdi söhbətlərə xüsusi diqqət yetirilməli; 3) Opponentlərin fəaliyyət istiqamətləri ciddi nəzarətdə saxlanmalı; 4) Seçki qərargahının hər bir yaşayış məntəqəsi üzrə təhkimçiləri müəyyənləşdirilməli və onlarla əlaqə ciddi nəzarətdə saxlanmalı; 5) Seçki prosesi dövründə Dairə Seçki Komissiyası ilə əlaqələrə xüsusi diqqət yetirilməli.

Seçki prosesinin ilk günlərində Nabrandakı "Palma" istirahət mərkəzində seçki qərargahı yaratmışdıq. Etiraf edim ki, qərargahın yaşayış məntəqələrinin əksəriyyətindən uzaqda olması çoxlarının narazılığına səbəb olmuşdu. Bunu Nizami müəllimin diqqətinə çatdıranda o, bildirdi ki, hələlik belə yaxşıdır. Hər kəndə gedib görüş keçirəcəyik, hər bir seçicinin yanına özümüz gedəcəyik.



İlk günlər bu fikirlərin söz xatirinə söylədiyini düşünsəm də, Nizami Xudiyevin 103 kənddən 98-də seçicilərlə keçirilən görüşlərdə şəxsən iştirak etməsi yanıldığımı üzə çıxardı.

Seçki qərargahına kimlər gəlmirdi: ziyalılar, ağsaqqallar, şəhid ailələri, əlillər, veteranlar, aztəminatlı ailələrin nümayəndələri və s. Günün birinci yarısında kəndlərdə seçicilərlə keçirilən görüşlərin təşkilati işləri ilə məşğul olurdumsa, axşam saatlarında Nizami müəllimin görüşünə gələnlərin qarşılanması və yola salınması işlərini də yerinə yetirirdim. İşimiz həddindən artıq çox idi. Ancaq yorulmaq nədir bilmirdik. Necə yorğunluq hiss edəydik ki, hamımızdan qat-qat çox çalışan, günün 17-18 saatını müxtəlif görüşlər keçirən Nizami müəllimin üzündən sevinc, qamətindən gümrahlıq əskik olmurdu. Verdiyi tapşırığın icrasında cüzi çatışmamazlığa, səhlənkarlığa yol verilməsini xoşlamazdı. Tərifi sevmədiyi kimi, təriflənməyi də sevməyən Nizami müəllim konkret tapşırıq kimi icra edilən işlərin hesabatında dəqiqliyi tələb edirdi. Əvvəl "nə xəbər var" deyə soruşur, mən danışdıqca diqqətlə dinləyirdi. Sonda qəti qərarlar verirdi.

Yalama kəndində seçicilərlə keçirilən görüş sayca ikinci olsa da, əsl dönüş mərhələsi oldu. Kənddəki mədəniyyət kulubuna 600-dən artıq səsvermə hüququ olan kənd sakinləri toplaşmışdı. YAP Xaçmaz Rayon Təşkilatının qərargahında keçirilən toplantıda qarşıya qoyulan vəzifələrin həlli istiqamətində həyata keçirilmiş məqsədyönlü işlər öz müsbət təsirini göstərmişdi. Təşkilatçıların hamısı kimi mənim də üzüm gülürdü. Nizami müəllimin taşırığı ilə seçicilərlə keçiriləcək görüş yerlərində onun yazdığı kitablardan,

haqqında bəhs edilən məqalələrdən, seçki platformalarından ibarət sərgilər təşkil olunmuşdu ki, bu da seçicilər tərəfindən böyük maraqla qarşılanırdı. Yalamadakı görüşə Bakıdan Nizami müəllimin yaxınları, dostları da gəlmişdilər. Yalamalılar Nizami müəllimi sevinclə, gurultulu alqışlarla qarşıladılar. Görüş dörd saat davam etdi. Əvvəlcə Nizami Xudiyevin zəngin və şərəfli tərcümeyi-halı oxundu. İctimaiyyətin nümayəndələri, ziyalılar, Yeni Azərbaycan Partiyasının fəalları çıxış etdilər. Çıxışlarda digər namizədlərin Nizami Xudiyevə qarşı apardıqları qərəzli, sivil normalardan uzaq təbliğatları qətiyyətlə pisləndi. Sonda Nizami müəllimin çıxışı xüsusi maraqla qarşılandı. O, müasir Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Ümummilli lider Heydər Əliyevin dövlətçiliyimizin qorunması və qüdrətlənməsi, ölkəmizdə ictimai-siyasi sabitliyin, əmin-amanlığın bərqərar olunması, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması məqsədilə sosial-iqtisadi sahələrdə həyata keçirdiyi məqsədyönlü tədbirləri, erməni işğalında olan vətən torpaqlarımızın azadlığı, Azərbaycan Silahlı Qüvvələrinin hərbi qüdrətinin artırılması və sair istiqamətlərdəki əvəzsiz xidmətlərini və bu sahələrdə qazanılan nailiyyətləri minnətdarlıqla xatırladı. Ölkəmizin gələcək inkişafı üçün Heydər Əliyev siyasi kursunun davam etdirilməsinin zəruriliyini konkret faktlarla əsaslandırdı və bu yolda Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin uğurlu nəticələrini konkret faktlarla görüş iştirakçılarının diqqətinə çatdırdı. Ölkəmizdə radikal müxalifətin həyata keçirdiyi təxribatları, pozuculuq, qarçıdurmaya yönələn əməllərini qətiyyətlə pisləyən Nizami Xudiyev seçiciləri onların boş vədlərinə, utopik çıxışlarına uymamağa çağırdı. Nizami müəllimin seçki platformasını elan etməsi, bölgənin sosial-iqtisadi və mədəni həyatının inkişafına nail olmaq üçün irəli sürdüyü dəyərli proqram və təkliflər razılıqla qaşılandı. Bu yerdə görüşdə mənimlə yanaşı oturan bir ağsaqqalın söylədiklərini xatırlatmağı lazım bilirəm: “Əsl biz istəyəndir. O birilər də gəlmişdi, nə danışdılar ki, boş-boş şeylər. Bizə gün ağlasa, bu kişi ağlayacaq. Kişinin adı da var, andı da. Hörmətli adamdı. Eləsini seçməliyik ki, dərdimizi deyəndə bizə bir gün ağlamağı bacarsın. Nizami Xudiyev dərdlərimizi, problemlərimizi bizim özümüzdən yaxşı bilir. Allah bəd nəzərdən saxlasın. Mən ona səs verəcəyəm”.



Həmin gün Ləcət və Nabran kəndlərində də möhtəşəm görüşlərimiz oldu. Görüşlərdə ictimayyətin nümayəndələri, ziyalılar öz fəallıqları ilə seçilirdilər. Elə görüş olmazdı ki, yerdən söz alıb tribunaya qalxan seçicilərdən bir neçəsi söyləməsin ki, Nizami Xudiyev mənim sevimli müəllimim olub, mən bu kişinin tələbəsiyəm. Hamınızı Azərbaycanımızın görkəmli elm adamına, dövlət xadiminə səs verməyə çağırıram!

Nizami müəllimin dəyərli tövsiyələri nəticəsində seçki qərargahının öz işində əsaslı dönüş yarandı. Artıq kütləvi tədbirlərlə yanaşı fərdi söhbətlərə də xüsusi diqqət yetirilirdi. Hər bir kəndin ağsaqqalları, hörmətli adamları ilə təmaslara, onların qabiliyyətlərindən maksimum dərəcədə istifadə olunmasına ciddi əməl olunurdu. Kəndlərdən seçicilərlə görüşlərdən qayıtdıqdan sonra Nizami Xudiyev seçki qərargahının hər bir kənd və qəsəbəsi üzrə səlahiyyətli nümayəndələri, təhkimçiləri ilə görüşür, mövcud vəziyyətlə tanış olur,

tövsiyə və tapşırıqlarını verirdi. Beləcə onun səhər saatlarından başlayan görüşləri, fərdi söhbətləri gecə yarısına - saat 2-3 radələrinədək davam edirdi. Açığı Nizami müəllimin bu dərəcədə dözümlülüyü, fiziki qüvvəsi, davranışı məni çox heyrətləndirirdi. Heç kəsin bacarmadığını o bacarırdı. Gümrahlığı ilə hər kəsə, o cümlədən mənə də nümunə idi.

Nizami müəllimin mahir pedaqoji və psixoloji qabiliyyətinin seçkilər dövründə əyani şahidi oldum. Yüksək nitq mədəniyyətinə malik olan Nizami Xudiyev seçicilərlə görüşlərdə və fərdi söhbərlərdə auditoriyanı və həmsöhbət olduğu hər kəsi ələ almağı, fikirlərini diqtə etməyi bacarırdı. Artıq hər şey öz axarına düşmüşdü, gündəlik tədbirlər əvvəlcədən tərtib edilmiş qrafikə uyğun şəkildə davam etdirilirdi. Az müddət ərzində opponentlərimizi xeyli üstələmişdik. Təbliğatın genişləndirilməsi ilə yanaşı, təşviqat materiallarının yayılmasına da xüsusi diqqət yetirirdik. Nəfis şəkildə hazırlanmış seçki platformaları, şəkil və plakatlar, bukletlər çap edilmiş, baxımlı, məzmunlu qısametrajlı videoroliklər hazırlanmışdı. Yerli "Xaçmaz TV"-nin, Qubada fəaliyyət göstərən və 56 saylı Xaçmaz kənd seçki dairəsinin hüdudlarında yayımlanan "Qütb" və "Xəyal" televiziyalarının imkanlarından da maksimum dərəcədə istifadə olunurdu. Fərdi qaydada hər bir seçiciyə təqvim və bukletlərin, kitabçaların paylanması, Nizami Xudiyevin şəkil-plakatlarının, seçki platformalarının yayılması, ictimai yerlərdə yapışdırılması təmin olunmuşdu. Seçicilərlə görüşlərimiz mütəşəkkilliklə, uğurla davam edirdi. Sentyabrın sonlarınadək əksər iri yaşayış məntəqələrində Nizami Xudiyevin seçicilərlə görüşləri keçirilmişdi. Bu sıradan Yalama,



Ləcət, Nabran, Niyazabad, Qımılqışlaq, Alekseyevka, Pirquluoba, Yeni Həyat, Nərəcan, Əhmədoba, Palçıqoba, Uzunoba, Köhnə Xudat, Müqtədir, Qıraqlı, Maqsudkənd, Qusarçay və sair kəndlərdə keçirilən görüşləri qeyd etmək olar. Havadan asılı olmayaraq, gün ərzində 3, bəzən də 4 kənddə seçicilərlə görüşlər keçirilirdi. Hər bir görüş isə bir-birindən daha möhtəşəm, daha yaddaqalan idi. Nizami müəllimin kəndlərə gedib seçicilərlə görüşməsi, onların sosial problemləri ilə yaxından maraqlanması, seçki platforması barədə ətraflı məlumat verməsi, məntiqli olduğu qədər şirin, kəsərli olduğu qədər sadə çıxışları xaçmazlılar tərəfindən rəğbətlə qarşılanırdı. Kəndləri bir-bir gəzdikcə bu yerlərin füsünkar təbiəti hər birimizi ovsunlayırdı. Xüsusilə də Nizami Xudiyevi...

Nabran yaxınlığındakı Tel kəndinin də özünəməxsus təbii gözəlliyi var. Qədim, uca çinarlar, meyvə bağları, yaşıl ormanlar Tel kəndinə xüsusi gözəllik verir. 100-120 evdən ibarət olan bu kəndə seçicilərlə görüşə gedərkən hər birimiz ovsunlanmışdıq. Kəndin mərkəzində çay süfrəsi arxasında seçicilərlə keçirilən görüş də yaddaqalan oldu. Artıq xaçmazlılar kəndləri gəzən, hər bir seçici ilə özü təmasda olmağa çalışan Nizami Xudiyevi doğma adamları, ailə üzvü kimi qəbul edirdilər. Görüşlərdə məktəblilər Nizami müəllimi əllərində gül-çiçəklə qarşılayırdılar, onu yaxından tanıyanlar qurbanlar kəsirdilər. Hər kəs mehriban insan, görkəmli alim Nizami Xudiyevə qarşı sevgisini ifadə etməyə tələsir, onunla daha çox ünsiyyətdə olmağa çalışırdı.

Çoxmillətli Xaçmaz rayonunun kəndlərində keçirilən görüşlər sırasında Yeni Həyatdakı tədbiri xüsusi qeyd etməliyəm. Bu kəndin əhalisinin böyük əksəriyyətini mesxeti türkləri təşkil edir. Kənd məktəbinin idman za-

lında keçirilən görüşdə yüzlərlə kənd sakini toplaşmışdı. Hər kəs görkəmli türkoloq alimin görüşünə həvəslə gəlmişdi. Ağsaqqallar, ziyalılar çıxış edərək ən layiqli namizəd olan Nizami Xudiyevə səs verəcəklərini bildirirdilər. Artıq Xaçmazda hansı məclisdə söhbət parlament seçkilərindən düşürdüsə, hər kəs ağız dolusu Nizami Xudiyevin mütəşəkkil, düşünülmüş seçki kampaniyasından, kəndlərə gedib seçicilərlə görüşlərindən, sadə zəhmət adamları ilə mehriban, doğma ünsiyyətindən danışırdı. Hətta qonşu Dəvəçi, Quba və Qusar rayonlarında da bu barədə söhbət açırdılar. AzTV-nin müxbiri kimi bu rayonlara çəkilişlərə gedəndə Nizami müəllimi xaçmazlılara qısqandıqlarını ifadə edir, açıq şəkildə "Heyif, bəxtimiz olsaydı Nizami Xudiyev öz namizədliyini elə bizim rayondan verərdi" - söyləyirdilər.

Seçki günü yaxınlaşdıqca mübarizə daha da gərginləşirdi. Yaxşı xatirimdədir, oktyabrın 3-ü axşam Nizami müəllimlə "Palma" istirahət mərkəzində gəzişirdik. Artıq bu gəzişmə bir ənənə halını almışdı. Hər axşam gecə saatlarında Nizami müəllim istirahət mərkəzinin həyatində gəzişməyi çox sevirdi. Olanlardan, keçənlərdən ətraflı söhbət edirdik. Arabir Nizami müəllim gənclik illərini, əsgərlik dövrünü xatırlayırdı. Zarafatlarından da qalmırdı.

Nizami müəllim mənə seçki qərargahını Xudat şəhərinə köçürməyi və bunun üçün münasib yerin seçilməsini tapşırdı. Xudat şəhərinin mərkəzində Nizami Xudiyevin seçki qərargahının fəaliyyətə başlaması əhali tərəfindən razılıqla qarşılandı. Qərərgahın tərtibatına, seçki materialları ilə təminatına xüsusi diqqət yetirilmişdi. Nizami müəllim şəkil-plakatların hazırlanmasına və paylanmasına, ictimai yerlərdən asılmasına da xüsusi diqqətlə yanaşırdı. Məhz bu səbəbdən işləri özüm



yerinə yetirir, şəkil-plakatları özüm hazırlayırdım. Qərargahda seçicilərin qəbulu da yaxşı təşkil olunmuşdu. Bu işə vəkillər xüsusi diqqətlə yanaşırdılar. Kəndlərdən seçicilərlə görüşdən qayıtdıqdan sonra Nizami müəllim axşam saatlarından başlayaraq gecə yarıyadək vətəndaşları şəxsən özü qəbul edirdi. İstər seçicilərlə görüş-toplantılarda, istərsə də fərdi söhbətlərdə Nizami Xudiyev bir kəlmə də olsun digər namizədlərin əleyhinə fikir söyləmir, əksinə onların hər birinə hörmətlə yanaşdığını qeyd edirdi. Seçki qərargahının bütün fəallarından da başlıca tələbi bu idi. Mübarizənin gərginliyini ölkəmizdə demokratiyanın inkişafının təzahürü kimi xarekterizə edirdi. Lakin bəzi namizədlərdə sivil mübarizədən əsər-əlamət belə yox idi. Seçki günü yaxınlaşdıqca opponentlərin təbliğatında qərəzçilik, şər, böhtan kampaniyası daha da intensiv xarekter almışdı. Buna baxmayaraq, müxtəlif kəndlərdən ağsaqqallar, ziyalılar Nizami Xudiyevin seçki qərargahına gəlir, professoru kəndlərinə seçicilərlə görüşə dəvət edirdilər. Görüşlərin keçirilmə tarixini və zamanını mən dəqiqləşdirib Nizami Xudiyevi məlumatlandırırdım. Artıq 3-4 gün öncədən bilirdik ki, harada tədbir keçiriləcək. Bu işdə məndən inciyənlər də olurdu. Bir dəfə Telman adlı orta yaşlı bir kişi seçki qərargahına gəlib Qıraqlı kəndində Nizami Xudiyevlə əhalinin görüşmək istədiyini bildirdi. Ona görüşün 3 gündən sonra mümkünlüyünü bildirəndə incik şəkildə: "Qardaş, məni pis vəziyyətdə qoyma, camaata söz vermişəm ki, sabah Nizami müəllim bizim kəndə gələcək"- dedi.

Digər kəndlərdəki görüşlərin vaxtını qısaltmaq hesabına deyilən vaxtda Qıraqlı kəndində seçicilərlə görüşə nail olduq. Qeyd edim ki, o üç aylıq seçki

kampaniyası dövründə işlərin ağırlığına kimsənin fiziki sağlamlığı dözməzdi ki, Nizami Xudiyev dözürdü. Elə hey fikirləşirdim ki, bu kişi bu qədər gücü, enerjini haradan alır. 4 aydır bir yerdəyik. Bu müddət ərzində Nizami müəllimi həm də mehriban, qayğıkeş insan kimi tanıdım. O, hər kəsin sevincinə sevinir, dərdini özününki bilirdi. Xüsusilə yaşlı nəslə böyük hörmətlə, ehtiramla yanaşırdı. Böyüklə böyük, uşaqla uşaq olurdu. İnsanlara elə qaynayıb qarışırdı ki, elə bil uzun illər onlarla bir yerdə yaşayıb. Açığı Nizami Xudiyevin yüksək mənəvi-əxlaqi dəyərləri ilə fəxr edir, qürur duyurdum. Seçki günü böyük əksəriyyətin Nizami Xudiyevin lehinə səs verəcəyinə əmin idim.

Oktyabrın ikinci ongünlüyündə Xudat Şəhər Mədəniyyət Evinin qarşısında seçicilərlə keçirdiyimiz görüşün möhtəşəmliyi əminliyimi daha da artırdı. Nizami Xudiyevə dəstək olaraq Xaçmazın bütün kəndlərindən bu ünvana 20 minə yaxın seçici toplaşmışdı. Bakıdan qonaqlarımız da vardı. Respublikamızın ən populyar mədəniyyət və incəsənət ustaları - müğənnilər, aktyorlar, şair və yazıçılar da Xudata gəlmişdilər. Ağadadaş Ağayevin, Nazpəri Dostəliyevanın, Zaur Rzayevin, Faiq Ağayevin, Aygün Kazımovanın, Namiq Qaraçuxurlunun, Teymur Mustafayevin, Manananın, Tünzalə Ağayevanın, Elza Seyidcahanın, Elariz Məmmədovun, Mübariz Tağıyevin, Mətanət İskəndərlinin, Nüşabə Ələsgərovanın, Ruhəngiz Musəvinin, Cavanşir Quliyevin, Gülyaz və Gülyanaq Məmmədova bacılarının və başqalarının oxuduqları şən mahnılar, aktyor İlham Əsgərovun və Azər Mirzəyevin söylədikləri şeirlər hər kəsdə xoş duyğular oyadırdı.



Seçkilərə az qalmış namizədlərin bir neçəsi Nizami Xudiyevin seçicilər arasında böyük nüfuza malik olduğunu nəzərə alaraq professorun xeyrinə öz namizədliklərini geri götürdülər.

2005-ci ilin 30 oktyabr tarixini həyatım boyu unutmaram. Xaçmazda soyuq və çiskinli hava vardı. Bakıdan, Əbülfət Məmmədovun namizədliyinin ləğvi ilə əlaqədar keçirilən Appelasiya məhkəməsinin iclasından qayıdırdım. Xaçmazın girişində Nizami müəllimlə görüşdük. Ağcay kəndində seçicilərlə görüşə gedirdi. Qısa söhbətdən sonra ayrıldıq. Mən Xudata qərargaha gəldim. Qeyd edim ki, havaların nə qədər soyuq, yağmurlu keçməsinə baxmayaraq, Nizami müəllim seçicilərlə görüşləri təxirə salmırdı. Axşam saat 9 radələrində Ağçaydan görüşdən qayıtdılar. Əslində Nizami müəllim Ağçaydan birbaşa Bakıya getməli idi. Özünün dediyinə görə səhər rəsmi opponenti olduğu bir nəfərin doktorluq müdafiəsi keçirilməli idi. Fikirləşdim ki, yəqin gedəsi olmadı. Lakin az keçməmiş Nizami müəllim Bakıya gedəcəyini deyib, gələnədək görüləsi işlər barədə tapşırıqlarını verdi. Nəzərinə çatdırdım ki, hava duman və yağmurludur. Gecə qalıb səhər tezdən yola çıxsa yaxşı idi. Ancaq fikrindən dönmədi. Nizami müəllim gedəndən təxminən bir saat keçmişdi. Mobil telefonum zəng çaldı. Zəng edən Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev idi. Soruşdu ki, haradasan? Dedim Xudatda, qərargahda. Dedi: "Nizami müəllimdən nə xəbər var? Bir şey bilirsən?" Söylədim ki, bir saat öncə Bakıya çıxdı. Səmsəddin müəllim: "Bakıya getməsini bilirəm. Dedim bəlkə səndə bir məlumat var. Nə isə narahat olma, hər şey yaxşı olacaq"- deyib telefonu qapatdı. Açığı bu zəngdən çox narahat oldum.

Ürəyimə damdı ki, nə isə baş verib. Təcili Xaçmaz Rayon Polis Şöbəsinin rəisi Cavad müəllimə zəng etdim. Götürmədi. Sonra Xudat Şəhər Polis bölməsinin rəisi Azər müəllimə zəng çaldım. Azər müəllim telefonu açan kimi dedi ki, "Əlövsət, Nizami müəllim necədir? Deyirlər Siyəzəndə avtomobil qəzasına düşüb". Elə bil dünya baçıma fırlandı. Gözlərim qaraldı. Bir o yadımdadı ki, operator Rüstəm Rüstəmova dedim ki, təcili maşını sür! Siyəzənə necə çatdıq, bilmədim. Yol boyu beynimdən nələr keçmədi. Mərkəzi Neftçilər Xəstəxanasının Siyəzən şöbəsinə çatanda Nizami müəllimi qan içində huşsuz vəziyyətdə gördüm. Aldığı yaralar olduqca ciddi idi. Artıq baş vermiş avtomobil qəzası ilə əlaqədar ölkə rəhbərliyi də məlumatlandırılmışdı. Daxili işlər naziri, general polkovnik Ramil Usubov və digər rəhbər şəxslər təcili Siyəzənə gəlmişdi. Həkimlərin səyi nəticəsində Nizami müəllim komadan çıxarıldı. Özünə gələndə ilk soruşduğu sürücüsü Məcid oldu. Onu yanına çağırtdırıb səhhəti ilə maraqlandı. Həkimlərin qərarı ilə Nizami Xudiyev təcili olaraq Bakıdakı Mərkəzi Klinik Xəstəxanaya köçürüldü.

Pərişan halda gecədən xeyli keçmiş Xudata seçki qərargahına qayıtdım. Səhər necə açıldı bilmədim. Bütün respublika Nizami Xudiyevin avtomobil qəzasına düşməsindən danışırdı. Ölkənin aparıcı kütləvi informasiya vasitələri bu barədə məlumatlar yayırdılar. Dəhşətli o idi ki, Nizami müəllimin ölümü, beyninin fəaliyyətinin dayandığı, hətta onun təcili olaraq Amerikaya aparıldığı barədə şayiələr sürətlə yayılmaqda idi. Özü də bu işdə digər namizədlər və onların vəkilləri xüsusi canfəşanlıq göstərirdilər.



Nizami Xudiyevin seçki qərargahının önündə adam əlindən tərpənmək olmurdu. Hadisə barədə məlumat alan hər kəs qərargaha toplaşmışdı. Hamı kədər içində idi. Göz yaşlarına boğulmuşduq. YAP Xaçmaz Rayon Təşkilatının sədri Nadir Süleymanov məni təkliyə çəkib təmkinli, səbirli olmağımı tapşırdı. Təkidlə bildirdi ki, "əhali təlaş içindədir, şayiələr baş alıb gedir. Bütün bunlara son qoymalıyıq. Toparlanıb seçkini uğurla başa çatdırmalıyıq". Yayılan şayiələrin qarşısını almaq üçün yerli Xaçmaz televiziyasının və Qubadakı "Qütb" və "Xəyal" televiziyalarının çəkiliş qruplarını qərargaha dəvət etdim. Baş vermiş avtomobil qəzası və Nizami Xudiyevin səhhəti ilə əlaqədar müsahibələr verdim. Xahiş etdim ki, imkan daxilində çəkilişlər tez bir zamanda hazırlanıb gün ərzində bir neçə dəfə efirə verilsin. Yeri gəlmişkən,. həmin günlərdə bizə verdikləri dəstəyə görə həm Xaçmaz televiziyasının, həm də "Xəyal" televiziyasının bütün yaradıcı kollektivinə öz minnətdarlığımı bildirirəm. Bu televiziyaların əməkdaşları seçki qərargahı ilə mütəmadi əlaqə saxlayır, Nizami Xudiyevin səhhəti ilə bağlı son məlumatları tamaşaçılara çatdırırdılar. Məhz efirə gedən bu süjetlərin köməyi ilə bəzi qüvvələrin qəsdən yaydığı şayiələrin qarşısını qismən də olsa almağa nail olduq. Nadir Süleymanovla məsləhətləşdikdən sonra qərara gəldik ki, təcili olaraq seçki qərargahının üzvlərinin, vəkillərin və hər bir yaşayış məntəqəsi üzrə səlahiyyətli nümayəndələrin iştirakı ilə toplantı keçirək. Düşündüm ki, həmin toplantıda Nizami müəllimin sürücüsünün də iştirak etməsinin ümumi işimizə xeyri dəyə bilər. Qeyd edim ki, əhali arasında Nizami Xudiyevin sürücüsünün qəza vaxtı hadisə yerində keçindiyi barədə

söz-söhbətlər də dolaşırdı. Əslində isə Məcidin heç burnu belə qanamamışdı. Təcili Məcidə zəng edib Xudata çağırtdırdım. Toplantını saat 17-ə təyin etdik. Bu müddətdə mobil telefonum susmadı. Respublikanın müxtəlif bölgələrindən, Xaçmazdan və ətraf rayonlardan zəng edib Nizami müəllimin səhhəti ilə maraqlanırdılar. Kütləvi informasiya vasitələri, televiziyalar yeni nə kimi məlumat olduğunu soruşurdular. Təxminən günorta saat 3-4 arası olardı. Qərargahda Nizami Xudiyevin qəbul otağında təkcə oturub bir azdan başlayacaq iclas barədə fikirləşirdim. Bu vaxt mobil telefonum zəng çaldı. Fikirli-fikirli telefonu açdım: "Alo!" Qarşı tərəfdən doğma bir səs adımı çağırdı: "Əlövsət! Mənəm bala, Nizami müəllimdi, narahat olmayın, lap yaxşıyam. Hamıya salamımı çatdır! Söylə möhkəm olsunlar. Qəzadı da, qaçmaq olmur. Yaxşı, sağ ol. İmkan düşdükcə tez-tez zəng edib əlaqə saxlayacam. Möhkəm dur". Qulaqlarıma inanmırdım. Göz yaşları içində əlimdə tutduğum mobil telefonuma baxırdım. Sözün düzü bu zəngə qədər öz içimdə də Nizami müəllimin səhhəti ilə bağlı nigarançılıq, narahatlıq vardı. Nizami müəllımi xəstəxanada o vəziyyətdə ki, görmüşdüm ağır nəticədən möhkəm qorxurdum. Elə bil bu zəng mənə güc verdi. Yerimdən durub var gücümlə bağırdım. Qışqırtıma seçki qərargahının fəallarından olan vəkil Ramiz Məmmədov, Budaq Əliyev və Şimali kəndindən olan Elmira xanım gəldilər. Təntimiş halda "nə olub?" - deyə soruşdular. "Nizami müəllım yaxşıdı, indi özü ilə danışdım. Öz səsi idi". Bağırtıdan az qaldı qulaqlarım partlasın. Hamı qışqırır, göz yaşları içində bir-birini qucaqlayıb təbrik edirdi.

Axşama təyin olunan iclasda Nizami Xudiyevin yaxın qohumu Hüseyn müəllim və sürücü Məcid də



iştirak edirdi. Toplantıda nəzərdə tutulandan xeyli çox adam vardı. Öncə iştirakçılara baş vermiş avtomobil qəzası və Nizami müəllimin səhhəti ilə bağlı ətraflı məlumat verdim. Hüseyn müəllimin və Məcidin çıxışları iştirakçıların narahatçılığını xeyli yumşaltdı. Elə bu vaxt mobil telefonum zəng çaldı. Bu dəfə də zəng edən Nizami Xudiyev idi. Vəziyyətlə maraqlandı. Deyəndə ki, hazırda qərargahda iclasdı, bütün sizi sevənlər buradadır, hamıya salamını çatdırmağı tapşırdı. İştirakçılar Nizami müəllimin salamını gurultulu alqışlarla qarşıladılar. Səsindən hiss etdim ki, Nizami müəllim də kövrəldi.

İclasda çıxış edənlərin ilk sözü Nizami müəllimə Allahdan şəfa arzulamaq oldu. Yekdilliklə vurğulandı ki, indi hər birimiz öz üzərimizə düşən vəzifəni daha məsuliyyətlə yerinə yetirməliyik. İlk növbədə opponentlər tərəfindən məqsədli şəkildə əhali arasında yayılan şayiələrin qarşısının alınması məqsədilə qərara alındı ki, yerlərdə seçicilərlə görüşlər davam etdirilsin. Bu işə rəhbərlik YAP Xaçmaz Rayon Təşkilatının sədri Nadir Süleymanova tapşırıldı. İnzibati ərazi vahidliklərindəki mobil təbliğat qrupları ilə əlaqəyə cavabdehlik YAP Xaçmaz Rayon Təşkilatının sədr müavini Abasyar Heydərova tapşırıldı. Vətəndaşların qəbulu və onlara düzgün izahatların verilməsi, haqlı şikayətlərinin həllinə yardım etmək kimi məsul işə isə Nizami müəllimin yaxın dostu Bilal müəllim və vəkil Ramiz Məmmədov cavabdeh idi. Tədbir iştirakçılarının hər birinə tapşırıldı ki, yerlərdəki təbliğat-təşviqat materiallarına ciddi nəzarət olunmalı, cırılıb məhv edilmələrinin qarşısını almaq üçün lazımi tədbirlər həyata keçirilməlidir. Bu hal intensiv xarakter alarsa, təcili olaraq seçki qərargahını məlumatlandırsınlar. Yerli

televiziyalarla əlaqə saxlayıb təbliğat materiallarının, videoroliklərin efirdə yayımlanması işində nəzarəti bir az da gücləndirmələrini xahiş etdik. Nizami müəllimin adından on minlərlə müraciət - məktublar çap etdik və seçicilərə payladıq. Bu məktublarda o seçiciləri Ramazan bayramı münasibətilə təbrik edirdi. Burada Nizami müəllimin hər bir seçiciyə seçkilərin əhəmiyyəti ilə bağlı fikirləri ifadə olunurdu.

Nizami Xudiyevin Xaçmazda yoxluğu bütün sahələrdə hiss olunurdu. Bəzən işin çoxluğu məni lap təntidirdi. Belə hallarda Nizami müəllimin yaxın qohumu Hüseyn Əlixanov öz ağıllı tövsiyələri, məsləhətləri ilə mənə yol göstərirdi. Kəndlərdə seçicilərlə görüşlər nəzərdə tutduğumuzdan da yüksək səviyyədə keçirdi. Seçkinin son günlərində Nizami Xudiyevin oğlu Nazimin də sıralarımızda olması bizi daha da ruhlandırdı. Köhnə Xudat, Ləcət və Yalama inzibati ərazi vahidlərindəki kəndlərdə seçicilərlə keçirilən görüşlərdə Nazim Xudiyevin iştirak etməsi, gənc olmasına rəğmən təmkinli, savadlı çıxışları ümumi işimizin xeyrinə öz müsbət töhfələrini verdi. Eyni zamanda bu dövrdə Nizami Xudiyevin efirdə yayımlanan videoroliklərində xəstəxanadan seçicilərə müraciətləri yayılan şayiələrin aradan qalxmasında başlıca amil oldu. Artıq Nizami Xudiyevin seçkidə tam üstünlüklə qalib gələcəyi heç kimdə şübhə doğurmurdu.

Nəhayət ki, 6 noyabr seçki günü yetişdi. Seçkinin gedişatını izləmək üçün Xaçmaza yüzlərlə yerli və xarici müşahidəçilər, monitorinq qrupları, mətbuat işçiləri də gəlmişdi. İlk saatlardan seçki qərargahına xoş xəbərlər, Nizami Xudiyevi dəstəkləyən seçicilərin fəallığı barədə məlumatlar daxil olmağa başladı. Seçkidə seçicilərin fəallığından bütün müşahidəçilər razı qalmışdı. Seçki başa çatdıqdan sonra məğlubiyyəti ilə barışan əksər namizədlər nəticələri öyrənmək üçün heç dairəyə gəlməyə belə lüzum görməmişdilər. Seçki yekunlaşdıqdan sonra əksər tərəfdarlarımız qərargaha toplaşmışdı. Hamı səbirsizliklə nəticələr barədə rəsmi məlumatı gözləyirdi. Hamı diqqətini televiziyaya - Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun Az TV-də yayımlanan mətbuat konfransına yönəltmişdi. Bu da son! Məzahir Pənahov 56 saylı Xaçmaz kənd seçki dairəsi üzrə Nizami Mənaf oğlu Xudiyevin böyük səs çoxluğu ilə qalib gəldiyini elan etdi. Qərargahda hamı bir-birinə qarışmışdı. Hamı bir-birini qucaqlayır, öpüb təbrik edirdi. Sevincimin həddi-hüdudu yox idi. Təcili Bakıya çatmaq, bu sevinci xəstəxanada Nizami Xudiyevlə birgə yaşamağa tələsirdim.

**Əlövsət Sadıq**
*səlahiyyətli nümayəndə*
*dekabr 2005-ci il*

## ACILI , ŞİRİNLİ GÜNLƏR...

Bu xəbər çox dözülməz və sarsıdıcı oldu. Belə ki, 30 oktyabr 2005-ci il saat 21 radələrində dostlarım Elnur və bibim oğlu Rasimlə Xaçmaz rayonundan Dəvəçi-Siyəzən istiqamətində Bakı şəhərinə qayıdırdıq. Rasim sükan arxasında oturmuşdu, Elnur isə mənimlə arxa oturacaqda əyləşmişdi. Biz həmin gün Xaçmaz rayonunun bir neçə kəndində Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd olan atamın seçicilərlə keçirdiyi səmimi və mənalı görüşlərdən danışır, onların bizə bağışladığı xoş ovqatın təsiri altında fikirlərimizi bölüşürdük. Elə bu vaxt İlqar (o da bizdən təxminən 2 kilometr aralıda gələn atamın əyləşdiyi xidməti avtomaşını müşayiət edirdi) mənim telefonuma zəng vurub çox həyəcanla: «Nazim, tez qayıt, Kamazla toqquşdular!" - dedi.

Atamın Xaçmaz kəndlərindən birində seçicilərlə keçirdiyi sonuncu görüşdən biz hamılıqla saat 18.30 radələrində çıxdıq. Həmin gün Ramazan ayının günlərinə təsadüf edirdi. Mən Rasim və Elnurla Xudat yolunda yerləşən "Çoban" restoranında iftar açmaq istədiyimizi atama deyəndə o, razılığını bildirdi. Atam isə xidməti avtomaşınında Xudat şəhərində yerləşən seçki qərargahına yollandı. Onu öz yoldaşları ilə birlikdə Bakıdan gəlmiş Hüseyn müəllim və İlqar müşayiət edirdilər. Bu görüşdən bir gün əvvəl öz şəxsi avtomaşınında Xaçmaza gəlmiş əmim Azər bu vaxt mənə zəng vurub harda olduğumuzu xəbər aldı. Mən ona atamın Xudata qərargaha getdiyini, Elnur və Rasiminsə mənimlə olduğunu bildirdim. Daha sonra o, atamla əlaqə saxlayıb Xudata gəlmək istədiyini



deyəndə, atam razı olmayıb, əmimə deyib ki, orada çox işi yoxdu, tezliklə Bakıya qayıdacaq.

Mən dostlarımla yemək yeyərkən atama zəng edib tezliklə qərargaha onun yanına gəlmək istədiyimi bildirəndə, o, şəhərə qayıtmağımı məsləhət gördü. Dedi ki, özü də bir azdan işini yekunlaşdırıb yola çıxacaq. Bu ürəyimcə olmasa da, onun dediyi kimi etdim. Şəhər istiqamətində yola çıxdıq. Biz yolda ikən atam telefon açaraq, harada olmağımız barədə xəbər aldı. Mən Xaçmaz rayonunu keçdiyimizi bildirdim, atam da arxadan gəldikləri barədə mənə məlumat verdi.

Mən haradan biləydim ki, təxminən yarım saatdan sonra bu yol mənə nələri yaşadacaq?!

İlqarın verdiyi bu dəhşətli xəbəri eşitsəm də, inanmaq istəmirdim. Rasimə qeyri-ixtiyari qayıtmaq lazım olduğunu, atamın avtomaşınının qəzaya uğradığını dedim. Biz dərhal istiqaməti dəyişib geriyə yol aldıq. Salonda sakitlik idi. Mən atamın mobil telefonuna zəng vurdum. Zəngimə cavab gəlmədi. Hüseyn müəllimin telefonuna zəng vurub, ondan nə baş verdiyini soruşmaq istədim. O, atamın onlardan irəlidə olduğunu, hələ ki, avtomaşını görmədiyini söylədi. Daha sonra isə: "Hə, görürəm, yaxınlaşıram" - dedi. Elə bu vaxt Rasim də onları gördü. Avtomaşın Dəvəçi rayonuna tərəf dayanmış vəziyyətdə idi. Dözməyib Rasimə: "saxla, saxla" - dedim. Rasim maşını saxlayan kimi tez düşüb qaçdım. Həmin an yalnız atamı görmək istəyirdim. Atamsa aldığı zədələrdən huşunu itirmişdi. Yaralarından axan qan üst-başını islatmışdı. Dərhal onu İlqarın avtomaşınının arxa oturacağına uzadıb Siyəzənə doğru hərəkət etdik. İlqar avtomaşını idarə edir, mənsə arxaya çönüb atamı danışdırmağa çalışırdım: "Ata, qurban olum, döz, az qalıb, yaxınlıqda xəstəxana yerləşir,

çatırıq. Necəsən? Yaxşısanmı?”. Onu bu vəziyyətdə görmək mənim üçün dözülməz idi.

Tez əmimə telefon açaraq baş vermiş qəza barədə məlumat verdim. Siyəzən xəstəxanasına getdiyimizi dedim. O, çox məyus oldu, bu dəqiqə nə lazımdırsa edəcəyini dedi. Çox keçmədi yenidən zəng vuraraq, Siyəzəndə “Neftçilər” xəstəxanasına getməyimizi məsləhət gördü, özünün də yola çıxdığını bildirdi. Telefonla Rasimə “Neftçilər” xəstəxanasının yerini öyrənməyi tapşırdım. O, Elnurla birlikdə yolun kənarında dayanmış taksi sürücüsünü bələdçi kimi götürdü. Təxminən 10 dəqiqədən sonra xəstəxanaya çatdıq. Xəstəxananın həyətində atamı maşından düşürərkən Rasim onu bu vəziyyətdə görüb hönkür-hönkür ağladı. Atamı köməkləşib xərəyə qoyduq, xəstəxananın üçüncü mərtəbəsinə qaldırdıq. Tibb personalı lazım olan ilkin tibbi yardım işinə başladılar. Hüseyn müəllim, Elnur, Rasim, İlqar əllərindən gələni edirdilər. Az keçmədi tibb işçilərinin köməyi sayəsində atam ayıldı, harada olduğunu soruşdu. Çünki qəza baş verən an o, yatmış olduğundan heç nəyi xatırlamırdı. Mən atama yol qəzasına düşdüyünü, lakin hər şeyin qaydasında olduğunu dedim. Daha sonra Hüseyn müəllim, onunla gəlmiş yoldaşlarla birlikdə qərara gəldik ki, xəstəxanada işləyən digər həkimlərin də təcili gətirilməsi üçün onların arxasınca maşın göndərək. Elə bu vaxt əmim zəng vurdu, atamın vəziyyətini soruşdu. Dedi ki, həkim həmkarları ilə danışıb, təcrübəli həkimlərin, reanomobilin Siyəzənə gəlməsini təşkil edib.

Bir yerdə qərar tuta bilmirdim. Tez-tez atama yardım edən tibb işçilərindən onun vəziyyətini xəbər alırdım. Hadisə barədə eşidən qohumlarımız mənə zəng vururdular. Zənglərin ardı-arası kəsilmirdi. Bibim oğlanları



artıq yolda idilər. Təxminən bir saatdan sonra əmim, Gülgəz bibim, onun həyat yoldaşı Rabil əmi xəstəxanaya gəldilər. Bibim atamı bu vəziyyətdə görüb çox ağır sarsıntı keçirdi. Mən onu bacardığım qədər sakitləşdirməyə çalışırdım. Əmim çox kədərli olmasına baxmayaraq, bir həkim kimi atamda müşahidə etdiyi zədələrlə bağlı Bakıdakı həmkarları ilə telefonla danışırdı. Atamı rentgen müayinəsindən keçirmək üçün xəstəxananın birinci mərtəbəsinə endirdilər. Bu ərəfədə qohumlar iki-iki, üç-üç xəstəxanaya daxil olurdular. Qoşqar, Gülgəz bibimin oğlanları Anarla Elçin, Rəfiqə bibim, həyat yoldaşı Cavanşir əmi, oğlu Vüqar, bibim oğlu Araz, qayınatası Arzu müəllim, qaynı Zaur, əmimin həyat yoldaşı Gülnur, atası Zahid müəllim, çox keçmədi Xaçmaz rayonundan, Bakıdan atamın yaxınları, işlədiyi kollektivin əməkdaşları da gəldilər. Daha sonra Azərbaycan Respublikasının Daxili işlər naziri Ramil müəllim, Azərbaycan Respublikasının Dövlət Yol Polisi İdarəsinin rəisi Ramiz müəllim və bir çox səlahiyyətli dövlət məmurları xəstəxanaya daxil oldular. Ramil müəllim ölkə Prezidentinin baş vermiş hadisədən narahat olduğunu, lazımi köməklik göstərməsi üçün ona tapşırıq verdiyini bildirdi. Şəhərdən gələn həkimlər atamı müayinə edib onun Bakıya aparılmasını məsləhət gördülər. Onu təcili tibbi yardım maşınına yerləşdirdilər, saat 24 radələrində xəstəxananın həyətində olan çoxsaylı maşınlar təcili tibbi yardım maşınının ardınca düzülərək yola düşdülər. Mən və bibim oğlu Elçin Anarın idarə etdiyi maşına əyləşdik. Maşın karvanını Dövlət Yol Polisi işçiləri müşayiət edirdilər. Təcili tibbi yardım maşını çox zəif sürətlə hərəkət edirdi. Elə bu vaxt anam atamın məndə olan mobil telefonuna zəng vurdu: “Nazim, hardasız? Xaçmazdan

çıxanda atan telefon açaraq gəlməyinizi demişdi". Mən də sakit tərzdə rayonda işlərin çox olmasına görə gecikdiyimizi, narahat olmamasını dedim.

Çox dərin iztirab keçirir, qəlbimdə atama Allahdan kömək diləyirdim. Yolda: "Atamın vəziyyəti birdən ağırlaşar" deyə, narahatçılıq keçirir, bizdən irəlidə gedən təcili tibbi yardım maşınının həyəcan işıqlarına baxır, Allaha dua edirdim ki, maşın dayanmasın. Arada bir təcili yardım maşını yolun kənarına doğru çəkilib dayanırdı. Həmin an dərhal maşından düşüb təcili yardım maşınına tərəf qaçırdım. Bu, atamın özünü yaxşı hiss etməməsi ilə bağlı olurdu.

Biz yolda ikən yenə anam mənə telefon açaraq atamın gəldiyi avtomaşının evə qayıdarkən yüngül qəzaya uğradığını, onun səhhəti ilə bağlı heç bir problem olmadığını dedi. (Qəza hadisəsi ilə əlaqədar televiziya kanallarının birində - "Xəbərlər" proqramında məlumat verilmişdi.)

O vaxt Naxçıvanda olan nənəmi, şəhərdə bizi həyəcanla, nigarançılıqla gözləyən anamı, bacılarımı düşünürdüm…

Mən atamın seçki marafonu başlayan andan seçicilərinin qayğı və problemləri ilə maraqlanıb gələcəkdə bu taleyüklü məsələlərin həlli üçün çox gərgin işləməsini, camaatla aramsız görüşlər keçirməsini, söhbət etməsini, özünəməxsus tərzdə əsaslı, arqumentli şəkildə öz seçki platforması barədə dolğun məlumatlar verməsini bilirdim.

Bir neçə ay ərzində onun gərgin iş rejiminə baxmayaraq, vaxt tapıb mənim ailəmlə, işlərimlə də maraqlanırdı.

Həftənin əksər hissəsini Xaçmazda, həmvətənlərimizlə görüşlərdə olduğu vaxtlarda mən Bakıdan ona telefon açır,



səhhəti, işləri ilə maraqlanırdım. O da həmişəki kimi özünü çox yaxşı hiss etdiyini, işlərinin də qaydasında olduğunu deyirdi. Mən yalnız həftənin şənbə günü Xaçmaza, atamın yanına gedirdim. (Bu səfərlərdə Rasim, Elnur, Anar, Elçin və Rəhman məni tək qoymurdular. Ən azı ikisi mənimlə gedirdi.) Yol boyu uşaqlarla seçki prosesi ilə bağlı atamın mübarizə meydanında qətiyyəti, əzmkarlığı, camaat tərəfindən məhəbbətlə qarşılanması, həyatda qazandığı təcrübə, zəngin dünyagörüşü, səmimi nitqi haqqında danışırdıq. Biz yolda olarkən, o həmişə adəti üzrə mənə telefon açır, ehtiyatlı olmağımızı, maşını asta sürətlə sürməyimizi tapşırır, tez-tez harada olduğumuz barədə xəbər alırdı. Biz Xaçmaz ərazisinə daxil olanda atamın yol boyu divarlara vurulmuş portretlərini görüb fərəh hissi keçirirdim. Nabranda yerləşən, gecələməyimiz üçün şəraiti olan seçki qərargahına gedib çatdıqda çox vaxt şənbə günü səhər atamın yanına getmiş Hüseyn müəllim və vəkilləri ilə müzakirə apardığının şahidi olurduq. O, gəlişimizdən çox sevinirdi, dərhal bizə yemək hazırlamaq üçün tapşırıq verir, hər birimizin işləri ilə maraqlanırdı. Keçirdiyi görüşlərlə bağlı söhbət edir, səhər keçirilməsi nəzərdə tutulmuş görüşlər barədə danışırdı.

Səhər erkən yuxudan qalxıb Xaçmazın müxtəlif yerlərində toplaşmış seçicilərlə görüşə gedib, hər dəfə olduğu kimi bir-birindən gözəl, maraqlı keçən bu görüşlərdən mənəvi zövq alırdıq. Atam zəngin həyat təcrübəsinə malik bir insan, həm də səriştəli bir pedaqoq kimi auditoriyanı ələ almağı bacarırdı. Onun maraqlı söhbətlərinə qulaq asmamaq mümkün deyildi. Atamın bu insanların həyat tərzi, gündəlik qayğıları, məişət problemləri, əksər kənd camaatının məşğul olduğu təsərrüfat işləri ilə bağlı

məlumatlı olması onu bu zəhmətkeş xaçmazlılara daha çox sevdirirdi. Görüş iştirakçıları övladlarının maariflənməsində böyük rolu olan, 60-a yaxın dəyərli kitabların müəllifi, əməkdar elm xadimi, professor Nizami Xudiyevin namizədliyinin məhz Xaçmaz rayonundan irəli sürülməsindən iftixar hissi keçirdiklərini dilə gətirir, onun YAP-ın İdarə Heyətinin üzvü, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri kimi xaçmazlılar üçün böyük işlər görəcəyinə əmin olduqlarını, onu alternativsiz namizəd kimi dəyərləndirdiklərini bildirirdilər. Görüşlərdən sonra atam öz təəssüratlarını bizimlə bölüşərkən təbiətinə vurğun olduğu Xaçmaz torpağının yetirdiyi insanların saflığı və qonaqpərvərliyi barədə danışır, əgər millət vəkili seçilərsə, bu bölgənin inkişafı, sakinlərin rifah halının daha da yaxşılaşması üçün dövlət başçısının rayonların sosial-iqtisadi inkişaf proqramı üzrə bütün səylərini göstərəcəyini deyirdi.

...İndi isə seçki gününə bir həftə qalmış, qələbənin bir addımlığında onun qəzaya düşməsindən çox məyus olmuşdum. Lakin özümü ələ almağı da bacarırdım. Bitib tükənməyən, yorucu, əzablı olan bu yolu gələrkən atamın görüşlərdə xitabət kürsüsündə əzəmətli görünüşü, alicənablıq təlqin edən ifadəli siması, ziya saçan gözəl nitqi, daim məhəbbət və mehribanlıqla mənə baxan nurlu çöhrəsi gözlərim önündə canlanırdı. Onun məndən bir qədər öndə təcili yardım maşınında olması isə məni çox üzürdü, qəhər içində boğulurdum. Nəhayət, beş saata yaxın davam edən yolun axırına yaxınlaşır, Bakı şəhərindəki Mərkəzi Klinik Xəstəxananın həyətinə daxil olurduq.

Biz avtomaşından düşərkən anamın, yaxınlarımızın dəhşət bürüyən, nigaran baxışlarını görüb, onları sakitləşdirməyə çalışdıq. Atamı xəstəxananın müayinə otağına



apardıq. Taleyimizi müəyyən edəcək ən həlledici an gəlib çatmışdı. Görəsən atam ciddi daxili zədə almamışdı ki?! Həkimlər müayinə işləri ilə məşğul olarkən mən dəhlizdə var-gəl edir, Allahdan kömək diləyirdim. Onun çox ciddi xəsarət almaması xəbəri gələndə isə yaşadığım dərin kədər içində ümidverici sevinc hissi duydum.

Atamı xəstəxanının dördüncü mərtəbəsində yerləşən reanimasiya şöbəsinə qaldırdıq. O, qızlarını görmək istədiyini dedi. Bir azdan mən böyük nigarançılıq keçirən bacılarımı onun palatasına gətirdim.

Atam ciddi həkim nəzarəti altında idi. Biz bütün doğmalarımızla xəstəxananın birinci mərtəbəsində yerləşən gözləmə zalında bu inanılmaz günün acı xatirəsi barədə danışır, bir-birimizə təskinlik verirdik.

Atam sağalanadək yaxın qoyumlarım, dostlarımla birgə onun yanında olur, qayğısına qalır, baş çəkməyə gələnləri qarşılayırdıq. Atamı özlərinin böyüyü, arxası, əzizi bilən bu qohum-qardaş onları daim isitmiş bu çıraqdan ayrı qalmır, yanında olurdular.

Atamın səhhəti ilə bağlı nigarançılıq keçirən, bir-birinin ardınca xəstəxanaya, ona baş çəkməyə gələn dövlət məmurları, incəsənət xadimləri, millət vəkilləri, müəllimlər və başqa insanlar onu heç belə dar günə layiq bilmirdilər. Hadisənin səhərisi günündən etibarən qədirbilən Xaçmaz camaatı atamın qəza keçirməsi ilə bağlı təəssüf ifadə edən teleqramlar göndərir, bir hissəsi də xəstəxanaya gəlirdi.

Seçkiqabağı təbliğat prosesi getdiyi bu ərəfədə atam televiziya vasitəsilə seçicilərinə müraciət etdi, tezliklə sağalıb onların yanında olacağı haqda fikrini və yaxınlaşmaqda olan Ramazan bayramı münasibətilə təbriklərini onlara çatdırdı.

Mən əmimlə rayonda olan nənəmin hadisə barədə qəfil xəbər alacağını düşünüb ona telefon açmaq qərarına gəldik. Əmim atamın yüngül qəza keçirdiyini, narahat olmamasını desə də, nənəm elə həmin gün Bakıya gələcəyini bildirdi. Axşam saatlarında atamın Naxçıvanda yaşayan dostu Məhərrəm müəllimin nənəmlə birgə xəstəxananın həyətinə daxil olduqlarını gördüm. Mən nənəmin daim üzərimdə hiss etdiyim qayğısını, uşaqlıqdan çox mehriban və cəfakeşliklə mənə həsr etdiyi günləri xatırlayıb kövrəldim. Lakin toxtaq şəkildə nənəmə yaxınlaşıb öz təbirimcə: «Mama, narahat olma, şükür Allaha, hər şey yaxşı qutardı» - dedim. O, ağlamsınaraq mənə baxır, baxışları ilə sanki «bu nə işdir düşmüşük» deyirdi.

Mən qəzanın ilkin, ən ağrılı vaxtlarının şahidi kimi çox dərin sarsıntı keçirmişdim. Lakin Siyəzəndən Bakıya qayıdarkən mənimlə telefon əlaqəsi saxlayan həyat yoldaşım Fidana bu haqda heç nə deməmişdim. O, atamın Mərkəzi Klinik Xəstəxanada müalicə aldığı palataya daxil olub onu əli gipsdə, halsız görəndə çox məyus oldu. Atamsa qızım Aylanı da görmək istədiyini dedi. Sonra Ayla, bacılarımın uşaqları Leyla, Əhməd, Cavid də atamın yanına gəlib ona böyük sevinc bəxş etdilər.

Atam üç gündən sonra xəstəxananın üçüncü mərtəbəsində yerləşən VİP palataya keçirildi. Onun reabilitasiyası dövründə bütün qohumlarım atamı qayğı ilə əhatə edirdilər. Gecələr anamla birgə yanında qalıb ona qulluq edən Gülgəz bibim, İslam, Vüqar, Adəm, Qoşqar, Rasim, yanımızda olmuş Elçin, Erkin, Rahim, Anar, Araz, Rövşən, Seyfəddin, dostlarım Elnur, Seymur, Zaur, Elşad, Murad, İlqar və digərlərinin də dərin məhəbbətini duyurdum. Onların yanımda olmaları kədərimi bir az azaldırdı.



Azər əmim, Məşuqə, Gülgəz və Rəfiqə bibilərim, onların ailələri, Hüseyn müəllim və onun ailəsi, bizi sevən yüzlərlə qohum-əqrəba, dost-tanış bu hadisədən çox məyus olmuş, sarsılmışdılar. Atam xəstə olmasına baxmayaraq, ətrafında olan bu insanların işləri, vəziyyəti ilə maraqlanır, həmişə olduğu kimi heç kəsi diqqət və qayğıdan kənarda qoymurdu. Məni ən çox təsirləndirən ata yurdu Şahbuzdan ona baş çəkməyə gələn əmiləri ilə olan görüşü idi. Görüşdükdən sonra atam məni yanına çağırıb: "Nazim, onlara lazım olan diqqəti və köməyi göstər" - dedi. Mən onda atamın öz kökünə nə qədər bağlı, layiqli xələf olduğunu bir daha gördüm.

Bir neçə gündən sonra - 6 noyabr 2005-ci il tarixində Azərbaycan Respublikası Milli Məclisinə seçkilər günü gəlib çatdı. Mən seçkinin nəticəsinin atamın səhhətinə bağışlayacağı təsirin böyük olacağını bilir, həyəcan keçirirdim. Nəhayət, axşam qədirbilən xaçmazlıların etdiyi seçimin vətənin layiqli oğlu Nizami Xudiyev olduğunu eşitdikdə çox məmnun oldum. Mən və yaxınlarım atamın millət vəkili seçilməsi münasibəti ilə çoxsaylı təbriklər aldıq. Daha bir neçə gün keçdikdən sonra atamın vəziyyəti yaxşılaşmağa başladı. Yaradan Ulu tanrıya bütün varlığımla minnətdar olur, ona hədsiz şükran hissləri duyurdum. Bir müddətdən sonra atam tamam yaxşılaşdı. Mən həsrətlə onun danışığını, hərəkətlərini izləyərkən qəlbimdə: "Hər qaranlıq gecənin, bir aydın gündüzü olur" - dedim.

**Nazim Xudiyev**
Nizami Xudiyevin oğlu
Dekabr, 2005-ci il

## UNUDULMAZ GÜNLƏR

Nizami Xudiyevin 56 saylı Xaçmaz kənd seçki dairəsindən deputatlığa namizədliyinin irəli sürüldüyünü eşidəndə birbaşa onun iş otağına getməyi qərarlaşdırdım. Axı onu bu regionda tanıyan çox az adam var idi. Keçmiş tələbə yoldaşlarını, bizim universiteti (Azərbaycan Dövlət Pedaqoji Universitetini) bitirib o yerlərə müəllim kimi işləməyə gedən insanları yada saldım. Qohum olduğumuz insanları düşündüm. Bu insanlar o qədər az idi ki, seçkilərdə qalib gəlməyə ümid bəsləmək olmazdı. Üstəlik həmin dairədən 19 namizədin irəli sürüldüyünü eşidəndə, bu sevdanın baş tutacağına ümidim azaldı.

Nəhayət, AzTV sədrinin iş otağında üz-üzə əyləşdik.

- Sən hara, Xaçmaz hara ?- soruşdum.

Sualımı başa düşdü. Daha doğrusu, bu sual onun özünü də narahat edirdi.

- Bilirsənmi, - dedi - bizim hər birimiz siyasi savadımızı, insanları cəlb etmək qabiliyyətimizi göstərməliyik. Qoy hər kəsə qabiliyyətinə görə qiymət verilsin. Möhtərəm Prezidentimiz də bu fikirdədir.

- Axı sən bu regionu tanımırsan, adamlarına bələd deyilsən?

- Əksinə, deyəsən mən bu regionu Naxçıvandan daha yaxşı tanıyıram. Doğrusu, vaxt azdır, əgər təbliğat kampaniyasında iştirak etmək istəyirsənsə, sabah tezdən hazır ol. Birinci iclasımız Xudat mədəniyyət evində olacaq. İlk iclası sən apararsan.

- Mən? - deyə heyrətləndim.



Amma daha söhbəti davam etdirə bilmədik. Təcili harasa getməli oldu. Mənim isə sabahkı iclasa hazırlaşmaqdan başqa əlacım qalmadı.

56 saylı Xaçmaz kənd seçki dairəsinə daxil olan kimi əsas tanışlıq onların adlarından başladı. Yeni Sudur, Yataqoba, Xudat, Xanoba, Şollar, Qusarçay, Pirquluoba, Niyazabad, Mürşüdoba, Maqsudkənd, Bostançı, Yeni Həyat, Yalama, Seyidlər, ... mən bu kəndləri, onların gözəl insanlarını xatırlayanda yadıma Məmməd Arazın "Üç oğul anası" poeması düşdü. Oğullarının cəbhə yollarını əzbərləyən ana haqqında şair yazır:

*Dunay, Kerç boğazı , Moskvaaltı ...*
*Qəlbinə üç təzə kəlmə yazdı o.*
*Ana nə bilirdi Dunayı, zadı,*
*Arazdan özgə çay tanımazdı o.*

Mən də qəlbimə bu kəndlərin adlarını yazdım, insanların surətini köçürdüm.

İlk görüşümüz Xudat şəhərində oldu. Həyət-bacası küknar ağacları ilə bəzənən mədəniyyət sarayı adamla dolu idi. Amma bunlar, şair Zahid Xəlilin poeziya axşamına toplaşan və hər şeirdən sonra gurultulu alqışlar qoparacaq poeziya həvəskarları deyildi. Bu bir şairin və deputat seçilməyə gələn bir alimin siyasi savad nümayiş etdirməli olacaqları sınaq meydanı idi.

Salondakı insanların baxışlarında çaşqınlıq da vardı, tərəddüd də. İnsanlar seçkiqabağı doyunca vəd verib seçkidən sonra ilim-ilim itən deputatları çox görmüşdülər. Onların bir hissəsini qorxudan bu idi. "Görəsən Nizami Xudiyev də belələrindən deyil ki?! ..." Başqa bir qismi digər namizədlərin adamları idi. Sadəcə ara qarışdırmağa gəlmişdilər. Onların arasında dünyagörmüş, tükü-tükdən seçən ağsaqqallar, ziyalılar,

torpağının təəssübünü çəkən insanlar da var idi. İlk iclasımız belə bir mühitdə başladı. Mənim giriş nitqim on-on beş dəqiqə çəkdi. YAP-ın yerli nümayəndəsi, bir-iki müəllim bir neçə dəqiqə Nizami Xudiyevin tərcümeyi-halı haqqında məlumat verdilər. Özünü Vaqif kimi təqdim edən bir kişi və ağsaqqal Ş.Eyyubov Nizami Xudiyevə bir neçə sual verdilər:

"Siz nə üçün öz namizədliyinizi Naxçıvandan deyil, Xaçmazdan verirsiz? Siz Xaçmazı və xaçmazlıları tanıyırsız? Bu qədər namizədin içində seçiləcəyinizə inanırsız?"

Sonralar mənə məlum oldu ki, Vaqif adlı adam digər namizədlərdən biri tərəfindən öyrədilib göndərilibmiş. Yaxşı ki, həmin suallar verildi. Çünki Nizami Xudiyevin cavabları onun ilk görüşdən bütün qabiliyyətini üzə çıxardı. Əvvəla, məlum oldu ki, Nizami Xudiyev nəinki Xaçmazın ərazisini, bu regionun xüsusiyyətlərini, burada yaşayan insanların xarekterlərini, qabiliyyətlərini, dil xüsusiyyətlərini, bir sözlə, onların bütün həyat tərzini dərindən bilir.

Nizami Xudiyev çıxışında həmçinin Naxçıvanda rəhbər vəzifələr tutan xaçmazlı insanları da xatırlatdı: "O, insanların çoxunun bu gün xaçmazlı olduğunu naxçıvanlılar, demək olar ki, unutmuşlar. Balamet Balametov, Hacıağa İbrahimov və digər insanlar təkcə şimal regionunun deyil, həm də Naxçıvan torpağının oğullarıdır. Ulu öndərimiz Heydər Əliyev bizə tapşırırdı ki, harada işləsəniz, həmin torpağın övladı kimi fəaliyyət göstərin.

Hörmətli dostumuz məndən soruşur ki, bu qədər namizədin içində seçiləcəyimə inanırammı?! Əgər inanmasaydım, indi sizin qarşınızda dayanmazdım. Mən bütün namizədlərə uğur diləyirəm. Amma əsas uğuru sizə diləyirəm ki, seçiminizdə yanılmayasınız. Unutmayın ki, Milli Məclisə seçki beş ildən bir keçirilir. Bir dəfə səhv etmək beş il yanılmaq deməkdir".



Salondakı insanların əhval-ruhiyyəsi birdən-birə dəyişmişdi. Mən Vaqifdən cavabdan razı qalıb qalmadığını soruşmaq istəyəndə salondan dedilər ki, Vaqif birinci sualın cavabından sonra salonu tərk edib.

Nizami Xudiyevdən sonra salon birdən-birə dil açmışdı. Ağsaqqal bir kişi həyəcanla tribunaya qalxdı. Hiss olunurdu ki, Nizami müəllimin çıxışından möhkəm təsirlənib:

- Mən sənə səs verəcəyəm, oğul. Sənə inandım, sən də bizə inan, - dedi.

Bu lakonik çıxışdan sonra insanlar tribunada bir-birini əvəz etməyə başladılar. İclas qurtarandan sonra da heç kəs getmək istəmirdi. İlk günün müvəffəqiyyəti sonrakı günlər üçün əsas oldu. Axşam Nabranda gecələdik. "Palma" otelinin qızılgüllü həyətində gəzə-gəzə bu günün təəssüratını özüm-özümə müzakirə edirdim. Bu qələbənin sirrini axtarırdım. Bu qələbənin müəllifi Nizami Xudiyevin özü idi. Onun hazırlığı, biliyi, insanlarla söhbət etmək qabiliyyəti idi. Buna görə də qəti qərara gəldim: növbəti görüşlərdə sözü əvvəldən N.Xudiyevin özünə vermək lazımdır. Fikrimi YAP Xaçmaz Rayon Təşkilatının sədri Nadir müəllim də bəyəndi. Bundan sonrakı görüşlərimizdə giriş söhbətindən sonra sözü Nizami müəllimin özünə verirdik.

Görüşlərin ikinci günü Qubadan dostlarımız gəldi: sədaqətinə hələ tələbəlik illərindən inandığım Laçın müəllim və Məmməd müəllim. Onlar Nizami müəllimin tələbəlik illərinin dostları idi. Laçın müəllim

Quba Kənd Təsərrüfatı texnıkumunun, Məmməd müəllim isə Azərbaycan Müəllimlər İnstitutunun Quba filialının direktoru idi. Sonra şair Qərib Aşkari gəldi. Şair Kələntər Kələntərli, ADPU-nun dosentləri Rabil Novruzov, Yavər Əliyev, Qulu Qasımov, Şakir Məmmədov və başqaları Nizami müəllimin təbliğatına qoşuldular. "Palma" istirahət mərkəzinin təsisçisi Akif müəllim böyük bir ürək nümayiş etdirdi.

Görüşlərimiz Xaçmaz rayonunun bütün kəndlərində eyni hərarətlə qarşılanırdı. Bir dəfə kəndlərin birində dedilər ki, toy var. Nizami müəllim təklif etdi ki, toyda iştirak edək. Fındıq ağacları baş-başa gələrək təbii çadır düzəltdiyi bir həyətdə bizi mehribanlıqla qarşıladılar. Dana ətindən bişirilmiş bozbaşı dünyanın heç bir restoranında yeməmişəm. Xaçmazlıların mətbəxi də özləri kimi gözəldir. Nizami müəllimin həmin toyda gənclərə söylədiyi təbrik nitqi indi də qulağımdadır.

Biz elə həmin gün toydan çıxıb iki əlilin görüşünə də getdik. Onların heç biri yeriyə bilmirdi. Növbəti gün Nizami müəllim onlara əlil arabaları verilməsinə nail oldu. Yəqin ki, Pirquluoba kəndinin cavanları həmin görüşü unutmayacaqlar.

Nizami müəllim maşının arxa oturacağına əyləşəndə yorğunluğunu hiss etdi. Ayaqları gizildəyirdi. Bu gün dörd kənddə olmuşdu. Hər görüşdən də yadda neçə-neçə xoş təəssürat qalmışdı. Ona ümüd dolu nəzərlərlə baxan insanları xatırladı.

Bir ağbirçək qadın üzərrik yandırdı. Üzərriyin qatı tüstüsü və qəribə iyi ətrafa yayıldı. Qadın tüstünü Nizamiyə tərəf püfləyir, sanki ona gələcək bəlaları bu tüstüdə boğmaq istəyirdi:



-Allah Prezidentimizə uzun ömür versin ki, səni bu rayona deputat məsləhət bilib. İkiniz də cavansınız. Allah canınıza dəyməsin.

Nizami Xudiyevin seçicilərə deyiləcək sözü çox idi:

- Əziz seçicilər. Möhtərəm Prezidentimiz İlham Əliyev şimal bölgəsini, xüsusilə Xaçmaz rayonunu gülüstana çevirmək barədə düşünür. Az vaxtdan sonra bu bölgədə işıq, qaz, su problemi olmayacaq. Yetişdirdiyiniz meyvələr bağlarda çürüməyəcək, tərəvəzlər yüksək səviyyədə istehsal olunacaq. Bu saat möhtərəm Prezidentimiz bu məsələlər ətrafında düşünür, əməli fəaliyyət göstərir. Mən də, sizin icra nümayəndələri də möhtərəm Prezidentimizin bu istəklərini həyata keçirmək üçün var qüvvəmizlə çalışacağıq. Əsas məsələ odur ki, bu günün siyasətini siz dərk edəsiniz, hamınız möhtərəm Prezidentin, YAP-ın ətrafında birləşəsiniz. Ulu öndərimiz Heydər Əliyev deyirdi ki, xalqın birliyi olmasa, heç nəyə nail olmaq mümkün deyil.

Salonda tam sakitlik idi. Hamı onu dinləyir, bir sözünü belə diqqətdən qaçırmaq istəmirdi.

Həmin gün yığıncaq xeyli çəkdi. Hətta iclas qurtarandan sonra da ağsaqqallar onu dövrəyə aldılar.

Söhbət axşam saat 9 : 00-a qədər uzandı.

Adamları yara-yara bir qarı Nizami müəllimə tərəf irəliləyirdi. O, əlində müqəddəs "Quran" tutmuşdu. "Quran"ı hündürə qaldırıb dedi: - Keç bunun altından, oğul, qoy "Quran" sənə kömək olsun...

Bütün bunları düşünə-düşünə Nizami müəllim yuxuya getdi. Maşın onu yüngülcə yırğalayırdı. Yuxuda əvvəlcə üzərrik gördü, sonra "Quran"ı yuxarı qaldıran qadını... Birdən həmin qadının dəhşətlə açılan gözləri... təkərin tükürpədici səsi... Gurultu... Daha heç nə...

Nizami müəllim gözlərini açanda ətrafında ağ xalatlı insanların həyəcanlı sifətlərini gördü. Çöldə insanların həyəcanla "özünə gəldi" sözlərini eşitdi. Nə maşının çevrilməsi, nə onun arxa qapıdan çətinliklə çıxarılıb aparılması yadına gəlmədi. Ayaqlarında və başında yaranan ağrılar getdikcə güclənir, dözülməz olurdu. Nə yaxşı ki, Siyəzən xəstəxanası müasir ləvazimatlarla zəngin idi. Nə yaxşı ki, Prezidentin göstərişi ilə respublikanın ən tanınmış həkimləri özlərini xəstəxanaya çatdırmışdılar. Hüquq-mühafizə orqanlarının böyük bir dəstəsi də burada idi. İynələr və həblər ağrıları azaldanda Nizami müəllim gözlərini açıb dedi:

- Belə bir qəzadan salamat qurtarmaq ağılagəlməzdir. Ancaq məni "Quran"ın altından keçirən o qadını son anda yuxuda gördüm.

Nizami Xudiyev seçkiyə bir neçə gün qalmış qəzaya düşdü. Başqa namizədlər onun mübarizədən çıxdığını güman etdilər. Lakin belə deyilmiş...

Seçki prosesini izləmək üçün mən Xaçmaza getmişdim. Xudatın seçki məntəqələrinin birində müşahidəçi idim. İnsanların dəstə-dəstə məntəqələrə axışdığının və məhz Nizami Xudiyevə səs verdiklərinin şahidi oldum. Onların içərisində latın əlifbasını oxuya bilməyənlər məntəqə üzvlərinə yaxınlaşıb Nizami Xudiyevin adının hansı cərgədə olduğunu soruşur, ona səs verdiklərini ucadan deyirdilər.

Çox qəribə idi. Nizami Xudiyev Mərkəzi Klinik Xəstəxanada ölümlə çarpışır, insanlarsa Xaçmazda ona səs verirdilər. Bəlkə də bu səslər Nizami Xudiyevi təkcə deputat etmədi, onu yenidən həyata qaytardı. Axı dünyada insan sevgisindən böyük həb yoxdur.



Mən bu sətirləri yazdığım günlərdə Nizami müəllimlə görüşmək istədim. Amma uzun müddət onu tapa bilmədim. Nə vaxt soruşurdum, deyirdilər Xaçmaza gedib. Görünür, Xaçmazın gözəl insanları, təbiəti onu özünə möhkəm bağlayıb. Xaçmazlılar Nizamini, Nizami də xaçmazlıları sevir. Qoy bu sevgi qaim-qədim olsun.

**Zahid Xəlil**
şair, filologiya elmləri doktoru, professor
oktyabr, 2006-cı il

## MƏN DƏ NİZAMİ MÜƏLLİMLƏ FƏXR EDİRƏM

*"Arzular kamalla yetişər başa,*
*Xalqa hörmət elə, ədəblə yaşa..."*

Nədənsə sevimli millət vəkilimiz Nizami Mənaf oğlu Xudiyevi xatırlayanda Nizami Gəncəvinin bu misraları dilimə gəlir, XII yüzillikdən üzü bizlərə səmt addımlayan gəlimli-gedimli dünyanı xatırlayıram. Dünya sirli bir aləmdir. Onun ucu-bucağı görünmür. Dünya həm də öz sirrini insanlığa bəyan etmir. İnsan Allah tərəfindən ona bəxş olunmuş təfəkkür dünyası ilə kainatı dərk edir, onun iç dünyasına baş vurur.

Mənə hərdən elə gəlir ki, insan da kainat kimi sirli, müəmmalıdır. Bu baxımdan hər bir insanda görünən və görünməyən tərəflər var. İnsanın hamı fərəfindən görünən xarici görkəmi onun zahiri formasıdır.

Nadir və mütəmadi baş verən təbiət hadisələri - qasırğalar, püskürmələr, zəlzələlər, tornadalar, vulkanlar təbiətin iç dünyasının təlatümü, ləngəri, kainata sözüdür. Bu püskürmələr bəzən möcüzə, bəzən də faciələr gətirir. Hərdən mənə elə gəlir ki, insan da təbiət kimi bəzən püskürür, öz mənəvi dünyasının odunu, alovunu ətrafa yayır.

Belə püskürtülü, təlatümlü, xoş ovqatlı insanlardan biri də adını həmişə hörmət və məhəbbətlə xatırladığım, 56 saylı Xaçmaz kənd seçki dairəsindən Milli Məclisə deputat seçilmiş filologiya elmləri doktoru, professor Nizami Mənaf oğlu Xudiyevdir. Mən Nizami müəllimlə



bir neçə ildir ki, təmasdayam. Bu işıqlı insan haqqında mənim də xoş təəssüratım var.

İnsanlar dünyaya yalnız yaşamaq xatirinə gəlmir, həm də üstündə gəzdiyi torpağı zinətləndirmək üçün gəlir. Bu cəhətdən Nizami müəllimin dilimiz, milli-mənəvi dəyərlərimiz haqqında yazdığı çoxsaylı məqalələr, elmi və bədii əsərlər maraq doğurur. Mən bu kiçik yazımda alimin çoxsaylı elmi, bədii əsərləri haqqında söz açmaq, onları təhlil etmək fikrində deyiləm. Məqsədim hörmətli millət vəkilimizin vətəninə, xalqına olan hörmətinin, məhəbbətinin tərəfimdən sezilən görüntülərinə aydınlıq gətirməkdir.

Bayaq dediyim kimi, insan sirli, sehrli bir kainatdır. Kainatın ənginliyi onun əlçatmazlığı ilə, insanın dərinliyi isə onun xalqa, vətənə xidmətləri ilə ölçülür. Əslində bütün dərinliklər əlçatmazdır. Bu cəhətdən insan qəlbinin dərinlikləri də ünyetməzdir.

Mən N.Xudiyevin yazdığı III-V, X-XI siniflər üçün "Azərbaycan dili", II siniflər üçün "Oxu", ixtisaslaşdırılmış məktəblər üçün "Azərbaycan dili" (V sinif), "Ana dili" (IV sinif) dərsliklərini; "Azərbaycan ədəbi dilinin təşəkkülü", "Tərcümə ədəbiyyatı və ədəbi dilimiz", "Azərbaycan ədəbi dili tarixi", "Azərbaycan ədəbi dilinin sovet dövrü", "Heydər Əliyev və Azərbaycan dili", "Xalq və dövlət naminə", "Yazıçı dili və üslubu", "Radio , televiziya və ədəbi dil", "Xalqın tarixi haqqı: dilimiz, varlığımız", "Zamanın axarı ilə" (2 cild) və s. kitablarını mütaliə etdikdən sonra qürur hissi keçirdim. Nizami müəllim yetmişə yaxın elmi, bədii, publisistik kitabların müəllifidir. Bu yazıda kitabların hamısı haqqında danışmaq, onları təhlil

etmək imkanım yoxdur. Ancaq sadə bir insan kimi mən Nizami müəllimin əsərlərindən bu qənaətlərə gəldim:

1. Nizami müəllimin publisistikasında ötəri hisslər deyil, həyat həqiqətləri olduğu kimi bəyan edilir, hadisələr vətəndaş mövqeyindən işıqlandırılır. Mən bu publisistikada Qarabağ faciəsinin acılarını, parçalanmış Azərbaycanın odlu göz yaşlarını, müstəqil Azərbaycanın XXI əsrdəki tarixi nailiyyətlərinin vətənpərvər şərhini gördüm.

2. Elmi əsərlərini mütaliə edərkən Nizami Xudiyevin alim obyektivliyini, özündən əvvəlki ustad alimlərə - müəllimləri Əbdüləzəl Dəmirçizadəyə, Mirzə Cavada, Afat Qurbanova, Ağamusa Axundova, akademik Məmmədağa Şirəliyevə, Feyzulla Qasımzadəyə və başqa dilçi alimlərin fikir və mülahizələrinə söykənib cəsarətli fundamental fikirlər irəli sürdüyünün şahidi oldum.

3. Kitablarını oxuduqca Ulu öndərimiz Heydər Əliyev cənablarının bütün türk dünyasında gördüyü möhtəşəm işlərin təsvirini gördüm. “Fenomen”, “Tikdim ki, izim qala”, “Okean üzərində körpü”, “ Heydər Əliyev və Azərbaycan dili”, “Sənsiz”, “Əsrin müqaviləsi”(I, II filmlər) bədii ssenarilərini oxuduqdan, filmlərinə tamaşa etdikdən sonra Ulu öndərimizin həmişəyaşar obrazını daha aydın gördüm. Nəhayət, ən başlıcası bütün məqalə, çıxış və monoqrafiyalarında prinsipial, dönməz, cəsur bir insan obrazı - Nizami Mənaf oğlu Xudiyev obrazı gördüm.

Bütün bu sadaladığım faktlardan əlavə Nizami müəllim həm də rayonumuzdan Milli Məclisə millət vəkili seçilmiş vətəndaşdır. Mən onu hər ay rayonumuzun müxtəlif bölgələrində seçiciləri ilə bir yerdə görür,



insanlara olan xoş rəftarını hiss edir, rayon sakinlərinin şərəf və ləyaqətlərinin müdafiəçisi olduğunu duyub qürur hissi keçirirəm.

Xudat şəhər inzibati ərazi vahidliyinin nümayəndəsi kimi Nizami Xudiyevi Xudat şəhərinə seçicilərilə görüşə gəldiyi zaman tanımış, ona bir alim, müəllim, vətənpərvər insan kimi hörmət bəsləmişəm. Mən əhali ilə görüşdüyü zaman onun dövlətə, dövlətçiliyə, Ümummilli liderimiz Heydər Əliyev siyasətinə sonsuz bağlılığını, bu siyasətin xalqımızın inkişafındakı rolunun xalqa çatdırılmasında necə əzmkarlıq göstərdiyini gözlərimlə görmüşəm. Onun ağsaqqallarla görüşlərindən sonra həmin insanların həyata bağlılığının, həyatsevərliyinin artdığının şahidi olmuşam.

Nizami müəllim Alqoçalılar sülaləsinin cəsur qartalı, hamımızın fəxridir. Mən bu adla fəxr edirəm.

**Saleh Vəliməmmədov**
Xaçmaz rayonu, Pirquluoba İƏV-nin nümayəndəsi
noyabr, 2007-ci il

## UNUDULMAZ XATİRƏLƏR

Mən hörmətli millət vəkili, əməkdar elm xadimi, professor Nizami Xudiyevlə bağlı olan xatirələri heç vaxt unutmuram. 56 saylı Xaçmaz kənd seçki dairəsində seçkilər zamanı fəal iştirak etmişəm. Həmişə də o görüşlərdən xoş təəssüratlarla qayıtmışam.

Nizami müəllimi sadə, təvazökar, alicənab, mehriban, səmimi, zarafatcıl bir insan kimi tanıyıram. Seçicilərlə görüşlərində mən insanların onunla ünsiyyətə necə böyük həvəslə can atdığının dəfələrlə şahidi olmuşam. O, hər kəsi öz dilində dindirməyi, hər kəsin könlünü almağı bacarır. Ona görə də o, az müddət ərzində özünü hamıya sevdirə bilib.

Mən Nizami Xudiyevin çıxışlarını saatlarla dinləməkdən zövq alıram.

Görüşlərdən birində bəzi "ağzıgöyçək"lər deyirdilər: "Qoy deputatlığa namizəd öz yerimizdən olsun". Mən bu "yerlipərəst" insanları pisləyirəm. Ona görə ki, vəd verib, əməl etməyən «yerlilər» kimə lazımdır? Mən Nizami Xudiyevlə fəxr edirəm.

56 saylı Xaçmaz kənd seçki dairəsindən namizədlikləri irəli sürülən 19 nəfərdən heç biri Nizami müəllim kimi güclü intellektə malik deyil.

Nizami Mənaf oğlu Xudiyev Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvüdür. O, böyük bir məktəb - Heydər Əliyev məktəbi keçmişdir və fəaliyyətində sözü deyil, əməli işi üstün sayır. Məsələn, Həsənqalada (kənd) artezian quyusunu təmir etdirdi, Xudatda artezian quyuları vurdurdu, Xudat Mədəniyyət Evini yeni oturacaqlarla təmin etdirdi, Xudat Şəhər Xəstəxanasını 2 yeni təcili



yardım maşını ilə təmin etdirdi, hər həftənin şənbə-bazar günləri Xudat Şəhər Xəstəxanasında xəstələrə təmənnasız ultrasəs müayinəsi, müalicəsi və pulsuz dərmanlar verilməsini təmin etdirdi.

Hətta 1 nəfər ağsaqqal uzun illər idi ki, Məkkə ziyarətinə getmək istəyirdi, lakin imkanı yox idi. Nizami müəllim həmin ağsaqqalın arzusunu həyata keçirdi. O, adam sevincindən ağladı. 2 nəfərə əlil arabası verilməsində öz əməyini əsirgəmədi. Bu qədər xeyirxah işlərin öhdəsindən layiqincə gəlmək, 103 kəndin əhalisinin hörmətini qazanmaq hər adamın işi deyil.

Nizami müəllim bu az müddətdə bizə çox əziz, doğma bir insan olub. Bir gün səhər işə getməyə hazırlaşırdım. Televizordan eşitdim ki, seçicilərlə görüşdən qayıdarkən Nizami Xudiyev avtomobil qəzasına düşüb. Bu dəhşətli xəbər məni şoka saldı, gözlərim doldu, ağladım. Evdə əlil oğlum var. O, məndən soruşdu ki, ana, o sağalacaq? (Həmin iztirablı anları o uşaq da mənimlə bərabər yaşadı). Mən də dedim: "Sağalacaq! Narahat olma. Bizim Allaha yalvarışlarımız onu yenidən özümüzə qaytaracaq".

Hər gün bu hadisə ilə maraqlanırdım, hətta Nizami müəllimə teleqram da vurdum.

Bütün bunlar keçmiş olsun!

Allaha şükür ki, hər şey yaxşı qurtardı. Nizami Xudiyev sağaldı və günlərin bir günü Xudata qayıtdı. İstirahət günü idi. Nizami müəllimin gəlişindən xəbərim olmadığımdan həmin görüşdə iştirak etmək mənə qismət olmadı. Bu da məni çox məyus etdi. Ertəsi gün böyük bir konsert oldu. Onda da Nizami müəllimi uzaqdan gördüm və insanlar onu əhatəyə almışdılar. Hamı sevinirdi. Yeni il ərəfəsi olduğundan hədiyyə gətirməyi də unutmamışdı. Hamının üzündə təbəssüm var idi. Mən də sevinirdim ki,

həqiqətən doğmamız olan Nizami müəllimə bizim ehtiyacımız var. Bu qısa müddət ərzində çox doğmalaşmışdıq. Allah onun canını sağ, ömrünü uzun eləsin! Tanrı onu qorusun!

**Nazənin Daşdəmirova**
Xudat Şəhər İƏV-nin nümayəndəliyinin mühasibi
fevral, 2006-cı il



## ÇOXDAN GÖZLƏNİLƏN LAYİQLİ DEPUTAT

6 noyabr 2005-ci il tarixi yaddaşımıza müstəqil dövlətimizin qanunvericilik orqanı olan Milli Məclisə III çağırış seçkilər günü kimi daxil olmuşdur.

Yaşadığımız 56 saylı Xaçmaz kənd seçki dairəsindən kimlərin namizəd olacağını həsrətlə gözləyirdik. Əhali ərizələri qəbul edilmiş namizədləri soyuqqanlıqla qarşılayırdı. Lakin əsl canlanma ölkəmizin ən nüfuzlu partiyası olan Yeni Azərbaycan Partiyasının namizədləri açıqlanan zaman baş verdi. Qəlbimiz fərəh hissi ilə doldu. Uzun illərdən bəri gözlədiyimiz layiqli deputatı seçmək həvəsi seçkilərə marağımızı daha da yüksəltdi. Seçki dairəmizdən irəli sürülmüş namizəd Ümummilli liderimiz Heydər Əliyevin yetirməsi, onun ideyalarının layiqli davamçısı, Azərbaycan dövlətçiliyinin qorunub, inkişaf etməsində böyük xidmətləri olan, ümumdünya şöhrətli ziyalı, görkəmli dilçi - alim Nizami Mənaf oğlu Xudiyev idi.

Mən Nizami Xudiyevi şəxsən tanımasam da, onunla qiyabi tanışlığım vardı. Bilirdim ki, vaxtilə təhsil aldığım APİ-nin (indiki Azərbaycan Dövlət Pedoqoji Universitetinin) nümunəvi yetirməsi olmuş, orada müxtəlif vəzifələrdə işləmiş, qocaman təhsil ocağının rektoru vəzifəsinə qədər yüksəlmişdir. Ulu öndərimiz Heydər Əliyevin təyinatı ilə dövlətçiliyimizin dayaqlarından biri olan Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri təyin olunmuşdur.

Yaradanıma minnətdaram ki, mənə seçkilər zamanı Nizami müəllimlə daim bir yerdə olmaq imkanı verdi. Yeni Azərbaycan Partiyasının mərkəzi qərargahından ve-

rilən etirbarnaməyə əsasən Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizəd Nizami Xudiyevin səlahiyyətli nümayəndəsi kimi fəaliyyətə başladım. Açığını deyim ki, həyatda çox deputatlığa namizədlər görmüşəm, lakin Nizami müəllim kimi işə məsuliyyətlə yanaşan, hər bir seçiciyə diqqət və qayğısını əsirgəməyən zəhmətkeş namizəd görməmişdim. Daşıdığı yüksək vəzifəni, titullarını bir kənara qoyaraq seçiləcəyi şəhər, qəsəbə və kəndlərdə, hava şəraitinin pisliyini nəzərə almadan, bəzən həyatını risk altında qoyaraq seçicilərlə görüşürdü. Hər çıxışında bu bölgədən deputat seçiləcəyindən fəxr duyduğunu bildirirdi. Tarixçi kimi bölgənin keçmişindən, dövlət xadimi kimi bu günündən, gələcəyindən söz açırdı. "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində nəzərdə tutulan işlərin həyata keçirilməsində var qüvvəsini, fəal iştirakını əsirgəmirdi, seçki proqramını bəyan edirdi, üçüncü dəfə millət vəkili kimi məhz bu bölgədən, Azərbaycanın "Şimal qapısı" sayılan Xaçmazdan seçilmək istəyini açıqlayırdı.

Mən haşiyə olaraq 56 saylı Xaçmaz kənd seçki dairəsinin yerləşdiyi ərazinin tarixinə nəzər yetirmək istərdim. Xaçmaz zonasının tarixi haqqında geniş, dolğun məlumat "Xaçmaz 75" kitab-albomda verildiyi üçün əsas diqqəti Xudat zonasına yönəldirəm.

Xudat qərbdən Qafqaz dağları, şərqdən Xəzər dənizi ilə əhatə olunan, coğrafi mövqecə dar keçiddə yerləşmişdir. Əsrlər boyu şimaldan cənuba, cənubdan şimala yürüşlər, basqınlar bu ərazilərdən keçmiş, tarixi "İpək yolu" vasitəsilə ticarət əlaqələri qurulmuşdur. Xudat yaxınlığındakı Təpəyatağı adlı tarixi məskən ilk tunc dövrünə (e. ə. III minillik) aid edilmiş, Şimal-şərqi Azərbaycanda Kür-Araz mədəniyyətinin xarakterik arxeoloji



abidələrindən sayılır. Tapılan tikililər, məişət əşyaları, gildən hazırlanmış qəbir küpləri Xudatın qədim keçmişindən xəbər verir. XVIII əsrdə feodal dövlətlərindən biri olan Quba xanlığının mərkəzi olmuşdur. Xanlığın banisi Hüseynəli xan Xudatda qala tikdirmişdir. XIX-XX əsrlərdə Xudat şəhəri coğrafi mövqeyinə görə xüsusi əhəmiyyət kəsb etmişdir. XIX əsrin sonlarında inşa olunmuş dəmir yolu stansiyası tarixi abidə kimi qorunur. Azərbaycan xalqının böyük oğlu "el atası" H. Z. Tağıyevin təşəbbüsü ilə Xudat yaxınlığındakı Şollardan Bakı şəhərinə içməli su kəməri çəkilmiş, 1916-ci ildə istifadəyə verilmişdir.

Xudat şəhəri 1943-cü ilin oktyabrın 8-də yaranmış, 1959-cu il dekabrın 4-də ləğv edilmiş Xudat rayonunun mərkəzi olmuşdur. Şəhər 1963-cü ildə Qusar, 1965-ci ildə Xaçmaz rayonunun tərkibinə verilmişdir.

Təbiət Xudatdan öz nemətlərini əsirgəməmişdir. Alimlərin tədqiqatlarına görə Yalamadan Niyazabadadək yeraltı şirin sulu göl vardır. Torpağın dərinliyində təbiətin möcüzəsi isti su mənbələrinə rast gəlinir. Bəzi mənbələrə görə Nabran meşəsində və dənizə yaxın ərazilərdə perspektivli neft yataqları vardır.

Nadir meşələri, buz kimi bulaqları, qumlu, günəşli sahilləri, münbit torpağı bu zonada ümumdünya əhəmiyyətli kurortlar yaratmağa imkan verir.

Xudat şəhəri rayon tabeliyində olan şəhər olduğu üçün, uzun illər inkişafına lazımi diqqət verilməmişdir. Lakin sevindirici haldır ki, müstəqil dövlətimizin elə inkişaf mərhələsinə yetişmişik ki, böyük şəhərlərlə yanaşı regionların inkişafı yüksək səviyyədə, dövlət başçısı səviyyəsində həyata keçirilməkdədir.

Artıq Xudatda da inkişaf, yüksəliş göz qabağındadır.

Məhz belə tarixi keçmişli, təbii baxımdan bol sərvətli, inkişafı baxımından gələcəyi olan Xaçmaz-Xudat bölgəsindən Nizami Xudiyev kimi şəxsiyyətin deputat seçilməsi real zərurətdən doğmuşdur.

Seçkiqabağı kampaniya zamanı üzərimə böyük məsuliyyət düşürdü. N.Xudiyevin tərcümeyi-halını oxumaq mənə həvalə olunmuşdu. Şərəfli həyat yolunu hər dəfə oxuduqca arxada qalan 56 ildə nə qədər əziyyət, zəhmət, gərgin əməyin durduğunu hiss edirdim. Tələbə vaxtı "Nizami Gəncəvi" adına fərdi təqaüd alması, ali məktəbdə müxtəlif vəzifələrdə çalışması, I, II çağırış millət vəkili kimi fəaliyyəti, daha sonra Azərbaycan Dövlət Televiziya və Radio Verilişlərin Şirkətinə sədr təyin edilməsi, alim, dövlət xadimi kimi fəaliyyəti seçicilərdə bu insana olan rəğbəti daha da artırırdı. Tanınmış alimin Kembric Beynəlxalq Bioqrafiya İnstitutu tərəfindən "İlin beynəlxalq ziyalısı" elan olunması, adının dünyada "XXI əsrin ən görkəmli ziyalıları" kitabına daxil edilməsi seçicilərə dəqiq seçim etməyə əsas verirdi. Çıxışlardan sonra insanların qürur duyduqlarının şahidi olduqca, onların sürəkli alqışlarını gördükcə Nizami müəllimin millət vəkili seçiləcəyinə məndə şüdhə qalmırdı.

Lakin seçkiqabağı kampaniya düşündüyümüz qədər də asan keçmədi. Rəqiblər onlara verilən hüquqlardan sui-istifadə edərək, müxtəlif qeyri-qanuni yollara əl atırdılar. Nizami müəllimin böyüklüyü onda idi ki, öz rəqiblərinə hörmətlə yanaşır, onları açıq dialoqa, sivil mübarizəyə dəvət edirdi. Qəlbi geniş insan olduğu üçün ona qarşı mübarizə aparanları da səmimiyyətlə qəbul edib, hörmətlə yola salırdı.



Seçki kampaniyası o qədər mütəşəkkil, əhalinin birliyi, gələcəyə inamı şəraitində keçdi ki, əhalinin səmimi etirafına görə, belə deputat seçkisi heç vaxt keçirilməmişdi.

Görüşlər zamanı şahidi oldum və nəticə çıxardım ki, hörmətli Nizami müəllim həyatında üç şeyə arxalanır: Yaradana, xalqına və zəhmətinə.

Söylədiyi kimi dəfələrlə müqəddəs ziyarətgahları ziyarət edən N.Xudiyev daim Ulu Tanrıya şükr diləyirdi. Təsadüfi deyil ki, din adamları, sadə insanlar müəllim haqqında fikir deyərkən "Allah adamıdır" ifadəsini tez-tez işlədirdilər.

Nizami müəllim olduqca zəhmətkeş insandır. Qısa ömür yolunda 67 adda tədqiqat əsəri, dərslik və dərs vəsaiti yazmaq hər adama nəsib olmur. Nəzərə alsaq ki, bu əsərlərin bir hissəsi dövlət işlərində məsul vəzifələr daşımaqla eyni vaxtda yazılmışdır, alimə qibtə etməmək olmur.

Bəzən deyirlər ki, insanın sifət cizgiləri onun həyat yolunu, kimliyini biruzə verir. Nizami müəllimin sifətində çox ağsaqqalların qeyd etdiyi kimi nur var. Sifət cizgilərinə baxdıqca bu insanda zəhmətsevərlik, qayğıkeşlik, müdriklik, vüqarlılıq, təmkinlik, həyat sevgisi, mübarizlik görürəm. Nizami müəllimin həyat yolu gənclərə örnəkdir. Böyük müəllim, dünyaşöhrətli alim sanki yaşayacağı dövrdə nələrisə görə bilməyəcəyindən ehtiyat edərək gecə-gündüz çalışır, yazır, yaradır, araşdırır, tədqiq edir.

Nizami müəllim xalqa bağlı insandır. Xalq üçün yaşayır, yaradır. Seçiləcəyi 100-dən çox kənd və qəsəbənin hamısında olmaq, seçicilərin arzu və istəklərini eşitmək, imkanı daxilində onlara kömək etmək üçün bütün vasitələrdən istifadə etməyə çalışırdı. Xudat şəhərində çox böyük müvəffəqiyyətlə fəaliyyət göstərən seçki qərar-

gahında hər gün 50-60-dan çox adam qəbul edilirdi. Gün ərzində müxtəlif kəndlərdə 3-4 görüş keçirdikdən sonra qərargaha gəlir və onu gözləyən insanları qəbul edərək bir-bir dinləyirdi. O, enerjini xalqdan alırdı, xalqa da sərf edirdi.

Nizami müəllim uşaqları çox sevir. Həmişə deyirdi ki, uşaqlar mənim dostlarımdır. Yazılan ana dili dərslikləri, xüsusilə əlahiddə məktəblər üçün olan dərs vəsaitləri sevimli balalara müəllim töhfəsidir. Xudat Şəhər Mədəniyyət evində, uşaq bağçalarında uşaqların çıxışlarını diqqətlə dinləyərək xoş sözlərini, hədiyyələrini onlardan əsirgəmirdi.

Hörmətli ziyalımız çox səmimi insandır. Çıxışlarında haqlı olaraq yarızarafatla qeyd edirdi ki, "Mən sizin evinizin qiyabi qonağıyam. İstəsəniz də, istəməsəniz də, televizoru açanda məni görürsünüz, eşidirsiniz. Balalarınıza doğma dilimizi öyrədərkən yazdığım kitablardan mənim fikirlərimi oxuyursunuz. Deməli, mən sizin evinizin çağırılmamış qonağıyam. Əgər millət vəkili seçərsinizsə, sizin əyani, canlı qonağınız olacağam".

Xudatda yaradılmış qərargah çox ahəngdar, mütəşəkkil işləyirdi. Xüsusilə seçkiqabağı son həftəni qərargah üzvləri böyük təmkinlə, dözümlə keçirdi. Bütün kəndlərlə əlaqə saxlanılır, seçicilər arasında ciddi iş aparılırdı, təxribatların qarşısı alınırdı.

Həmin günlərdə hörmətli seçicilər də qərargaha gələrək öz arzu və istəklərini deyir, xidmətlərini təklif edir, Nizami müəllimə hörmət və ehtiramlarını bildirirdilər.

Nizami Xudiyev təbiət gözəlliklərinin vurğunudur. Xaçmazın irili-xırdalı kəndlərini gəzdikcə təbiəti elə ustalıqla vəsf edirdi ki, əhali cənnət məkanda yaşadığını sanki indi hiss edirdi. Bolqarıstanın Sofiya şəhərinin,



"Qızıl qum" istirahət zonasının gözəlliklərindən danışdıqca bizim istirahət ocaqlarımızın onlardan da gözəl, yüksək səviyyəli olduğunu, xüsusilə sərin bulaqlı, nadir ağaclara malik Yalama, Nabran meşələrinin, bol günəşli, təmiz havalı, qumlu dəniz sahillərinin qorunub, dünya standartları səviyyəsində inkişaf etdiriləcəyini qeyd edirdi.

Dilimizin, tariximizin böyük tədqiqatçısı Nizami Xudiyevi keçmişin ən məşhur alim və filosofları ilə müqayisə etsəm, səhv etmərəm. Onlar öz xalqlarının tarixini, mədəniyyətini əsərlərində yaşatmaqla xalqlarına, bəşəriyyətə böyük töhfələr vermiş, əsərləri yazmaqla özləri də əsrlərlə yaşamışlar. Xalqımızın ləyaqətli oğlu Nizami müəllim də elmi əsərləri yazmaqla tarix yaradır, yaşadır. Yazdıqları və yazacaqları nəinki 50-100 il, hətta min illərlə insanlıq durduqca yaşayacaqdır.

El arasında çox doğru deyilmiş bir fikir var: "İnsan öz ailəsinə, böyüklərinə hörmət etməsə, heç kəsə hörmət etməz". Nizami müəllim hamıya örnək olacaq bir övlad olduğunu yazdığı "Mənalı ömür yolu" kitabı ilə təsdiqləmişdir. Bu kitab Nizami müəllimin mənalı ömür yolu keçmiş atası Mənaf Xudiyevin həyatından bəhs edir. Kitab həqiqətən də oğulun ata qarşısında övladlıq borcunu yerinə yetirməsinin ən bariz nümunələrindəndir.

Mən Xudatda anadan olub böyüdüyüm üçün buranın yerli xüsusiyyətlərinə yaxşı bələdəm. Açığını deyim ki, Nizami müəllim kimi qısa müddətdə əhali arasında böyük hörmət qazanmış ikinci adam tanımıram. O, hamı üçün doğma insana çevrilmişdi. Seçki qabağı çox gərgin iş günündən sonra Bakıya qayıdan zaman avtomobil qəzasına düşərkən Xudat əhalisinin, seçicilərinin necə həyəcanla narahatlıq keçirdiklərinin şahidi olmuşam. Hər gün çoxlu sayda uşaq, qadın, ağsaqqal qərargaha gələrək doğ-

ma insan - Nizami müəllim haqqında dəqiq məlumat almağa çalışırdılar. Mən deyərdim ki, bax, budur el hörməti qazanmaq!

6 noyabr 2005-ci il Milli Məclisə seçkilər günü gəldi və əsl ümumxalq seçkisi kimi tarixə yazıldı. İnsanlar axın-axın seçki məntəqələrinə gələrək istədikləri namizədlərə səs verirdilər. Çox maraqladır ki, bu seçkilərdə seçicilərin əksəriyyəti seçimlərini gizlətmir, konkret deyirdilər: "Bizim bir namizədimiz vardır. O, da Nizami Xudiyevdir".

Nəticə sevindirici olmaya bilməzdi. Ömrünü xalqa, vətənə həsr etmiş insana - Nizami müəllimə qədirbilən seçicilər bundan da böyük hədiyyə verə bilməzdilər.

Həyəcanlı anlar və nəticə: səs verən 22690 seçicidən 12777 nəfəri Nizami Mənaf oğlu Xudiyevə səs vermişdi. Bu qələbədir, özü də böyük qələbə!

Çox təəssüf edirəm ki, həmin sevincli anlarda Nizami müəllim xəstəxanada idi. Lakin çox gözləməli olmadıq. Nizami müəllim həkimlərin qadağalarına baxmayaraq, həmin sevincli anları bizimlə bölüşmək üçün Xudata gəldi. O qədər mehriban, doğma qarşılanma oldu ki, bəziləri kövrəldiklərini gizlədə bilməyərək çox istəkli deputatlarını bağırlarına basırdı.

Nizami Xudiyev sözünə sadiq insandır. Seçkiqabağı platformasında qeyd etdiyi kimi, elmlə təcrübənin, sözlə işin vəhdətinə çalışır və buna nail olur.

Seçkidən sonrakı qısa müddət ərzində görülən işlər bunu deməyə əsas verir. Xudat, Həsənqala, Ləcət, İlxıçı, Niyazabad, Xuray, Tağaroba və başqa kəndlərdə su, bir çox kəndlərdə isə torpaq, yol, iaşə məsələləri qismən həll edilmişdir. Xudat şəhərində xəstəxananın bir neçə şöbəsi təmir edilmiş, oraya cərrahiyyə avadanlığı, USM aparatı, dərman preparatları verilmişdir. Bir neçə dəfə Bakıdan



gəlmiş yüksək ixtisaslı həkimlər əhalini təmənnasız müayinə edərək dərmanlarla təchiz etmişlər. Mədəniyyət evinin oturacaqları yeniləri ilə əvəz edilmiş, ətrafındakı park abadlaşdırılmışdır. Bir çox məktəblərə kompüter, parta və stullar verilmişdir. Çoxsaylı seçicilərin irili-xırdalı şəxsi problemləri həll edilmişdir. Görülmüş işlərin hamısını qeyd edə bilməsək də, əminliklə deyərdik: bu hələ işin başlanğıcıdır. Görüləcək işlər hələ qarşıdadır.

Artıq seçkilər arxada qalmışdır. Nizami müəllim qədirbilən Xaçmaz seçiciləri tərəfindən ən yüksək ada - millət vəkili adına layiq görülmüşdür.

Xaçmazlılar Ulu öndərimiz Heydər Əliyev məktəbini keçmiş və sadiqliyini əməlində sübut etmiş Nizami Xudiyevə inanır və ona güvənirlər.

**Ramiz Məmmədov**
deputatlığa namizədin vəkili
oktyabr, 2006-cı il

## YENİ AZƏRBAYCAN PARTİYASININ LAYİQLİ NAMİZƏDİ

Yeni Azərbaycan Partiyasının yaradılması prosesindən başlayaraq aktiv siyasətə qoşulan bir insan kimi mən dərk etmişəm ki, növbəti seçkiyə elə seçki gününün səhərindən hazırlaşmaq lazımdır. Eşidəndə ki, 56 saylı Xaçmaz kənd seçki dairəsindən Yeni Azərbaycan Partiyası professor Nizami Xudiyevin namizədliyini irəli sürüb, çox sevindim.

Eyni zamanda başa düşürdüm ki, ilk vaxtlar qarşıya müəyyən problemlər çıxacaq və bu seçki kampaniyasında daha ciddi işləmək lazım gələcəkdir. Çünki Heydər Əliyev məktəbinin ən layiqli nümayəndələrindən biri olan Nizami Xudiyev digər namizədləri çox təşvişə salmışdı. Onun nüfuzuna xələl gətirmək üçün heç bir bəhanə tapa bilmədiklərinə görə onlar, xüsusilə də "Azadlıq" bloku canfəşanlıqla rayonda yerli-gəlmə söhbəti salmağa çalışırdı. Onlar bayraqlarla bəzədilmiş bir neçə maşınla rayon ərazisini gəzərək səs gücləndirici ilə «azadlıq-azadlıq» - deyə qışqırırdılar. Xaçmazlılar onları hər yerdə çox soyuq qarşılayır və deyirdilər: "Çığırmaqla azadlıq əldə etmək olmaz. Azad olmaq, müstəqilliyi qorumaq üçün gərək vətəninə, xalqına, dövlətinə sədaqətlə xidmət etməyi bacaran əsl vətəndaş olasan". Bunu isə Ulu öndərimiz Heydər Əliyev öz mənalı həyatı ilə bütün dünyaya sübut etmişdir. Onun ən layiqli davamçısı hörmətli Prezidentimiz İlham Əliyev isə «hər bir sözün arxasında konkret əməl durmalıdır» tezisini ardıcıl surətdə həyata keçirməkdədir. Bütün bunlar bizə qol-qanad verir, seçicilərlə daha cəsarətlə, alnıaçıq danışmağa ürəkləndirirdi. Biz arxayın



idik ki, arxamızda sözün əsl mənasında xalqın partiyası olan Yeni Azərbaycan Partiyası, Ulu öndərimizin ideyaları, onun doğma Azərbaycanın gələcək inkişafına hesablanmış siyasi kursu, qarşıda isə ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirməli olduğumuz çox işlər durur. Biz seçicilərin görüşünə başqaları kimi boş, yalan vədlər ilə getmirdik. Ən əsası odur ki, biz dediyimiz sözə özümüz inanırdıq və insanlar bu həqiqəti hiss edərək bizə daha inamla yanaşırdılar. Ən maraqlısı budur ki, Xudat Mədəniyyət evində keçirilən ilk görüşdə öyrədilərək yerli-gəlmə söhbətini qaldıran bir ağsaqqal kişi sonradan bizim təbliğatçımıza çevrilmişdi.

Ümumiyyətlə, seçki qərargahına çoxsaylı insanlar müraciət edərək təbliğat kampaniyasında öz xidmətlərini təklif edirdilər. Bu insanların əksəriyyəti Ulu öndərimizin siyasi kursuna sadiq, Yeni Azərbaycan Partiyasına və onun sədri cənab İlham Əliyevə ürəkdən inanan, Nizami Xudiyevə böyük alim, görkəmli ictimai siyasi xadim kimi hörmət bəsləyən insanlar idi. Eyni zamanda öz şəxsi maraqlarından çıxış edərək yarınmaq istəyənlər də var idi. Biz belələrini görür, hiss edir, onlara mane olmamağa çalışırdıq. Lakin onlar bilərəkdən, ya bilməyərəkdən bizə çox ciddi maneçilik törədirdilər. Özlərinin Nizami müəllimə daha yaxın olduqlarını, təbliğat kampaniyasında daha çox lazım olduqlarını qabartmaq məqsədilə mənə, seçki qərargahının üzvlərinə, namizədin vəkili Əlövsət Sadıqova qara yaxmağa çalışırdılar. Əvəzində isə seçki kampaniyası dövründə istirahət etmədən, bəlkə də çox gecələri yuxusuz keçirən, hamıdan artıq iş görməyə alışan Nizami müəllimin üzündən təbəssüm əksik olmurdu və istəyirdi ki, onun yorğunluğunu hiss etməsinlər. Bir sözlə, öhdəsinə düşən vəzifəsinə məsuliyyətlə yanaşan və imi-

cinə sadiqlik nümayiş etdirən bu təvazökar insan məni heyran etdi. Əminliklə deyə bilərəm ki, 2005-ci il parlament seçkilərində 56 saylı Xaçmaz kənd seçki dairəsində aparılan təbliğat-təşviqat işi müasir seçki texnologiyasından məharətlə istifadə etməklə tam demokratik şəraitdə keçirilmişdir.

Xatirələr çoxdur. Lakin bunlardan üç kiçik epizodu oxucuların nəzərinə çatdırmaqla yazımı tamamlamaq istərdim.

*Yad kimi qarşılandıq,*
*doğma kimi ayrıldıq.*

Həsənqala kəndi Xaçmazın qədim, böyük kəndlərindən biridir. Deputatlığa namizədlərdən biri Əbülfəz Məmmədov həmin kəndin sakinidir. Məlumat var idi ki, onun muzdlu tərəfdarları bizi dırnaqarası "çox təntənə ilə" qarşılayacaqlar. Bəzi yoldaşlar ora getməyi məsləhət görmürdülər. Lakin Nizami müəllim bütün kəndlərə, xüsusən opponentləri olan məntəqələrə getməkdə israrlı idi. Bu, onun gücündən, siyasi təcrübəsindən, intellektual səviyyəsindən, xalqa inamından, daha çox isə seçici ilə görüşmək arzusundan irəli gəlirdi. Bu insan ömrü boyu vəzifələrdə olub kabinetdə oturmaq vərdişinə baxmayaraq, nə qədər zəhmətkeş imiş. Seçki qərargahı gündə iki-üç görüş planlaşdırmışdı. Lakin Nizami müəllim gündə beş-altı görüş təşkil etməyimizi xahiş edirdi. Beləliklə, payızın soyuğuna, sızağına baxmayaraq, bütün görüşlərdə şəxsən özü böyük həvəslə iştirak edirdi. Yuxarıda qeyd olunduğu kimi, Həsənqala kəndində görüş keçirəcəyimiz binanın qarşısında Əbülfəzin tərəfdarları bizi çox hay-küylə qarşıladılar. Elə təsəvvür yarandı ki, görüş baş tutmayacaq. Lakin zalda əyləşən insanlara Nizami müəllimin həyat və yaradıcılığını, onun necə insan olduğunu izah



etdikdən, xüsusən də Nizami müəllimin mənalı, məntiqli çıxışını dinlədikdən sonra bütün zal, o cümlədən Əbülfəzin tərəfdarları, qohumları ayağa qalxaraq bizi alqışlarla yola saldılar.

Beləliklə, yad kimi qarşılandıq, doğma kimi ayrıldıq.

**Uşaq qəlbli böyük alim**

67 kitabın müəllifi olan Nizami müəllim dünyada tanınmış alimdir. Böyük siyasi təcrübəsinə baxmayaraq, onun qəlbi körpə qəlbi kimi təmiz və incədir. O, həm də uşaqları çox sevir. Harda uşaqlarla rastlaşırdısa, "bunlar mənim adamlarımdır, uşaqlardan müğayət olun" deyirdi. Yadımdadır, Qarabağlı kəndinə görüşə getmişdik. Orada məlum oldu ki, orta məktəb başqa kənddə yerləşdiyindən uşaqlar təhsildən yayınırlar. Təsəvvür edin Nizami müəllim nə qədər hiddətləndi, necə əsəbiləşdi. Seçki platforması demək olar ki, unuduldu. Söhbətin mövzusu ancaq uşaqlar, təhsil və uşaqların xalqımızın, millətimizin gələcəyi olduğu haqqında oldu. Bununla da o, əsl müəllim, uşaqları, millətin gələcəyini sevən bir insan olduğunu sübut etdi.

**Ot kökü üstə bitər**

Nizami müəllimin avtomobil qəzasına düşməsi hamımızı şok vəziyyətinə salmışdı. Dərhal qərargah üzvləri toplaşdı. Seçki qərargahının qarşısında yüzlərlə seçici var idi. Bizə tez-tez zəng edib onun səhhəti ilə maraqlanırdılar. O vaxta kimi Nizami müəllimlə birlikdə 98 görüş keçirmişdik. Cəmi 5 görüşümüz qalmışdı. Görüşləri davam etdirməyi qərara aldıq. Növbəti görüşə Yalama

kəndinə getdik. Maraqlı burasıdır ki, bu dəfə görüşə hətta başqa kəndlərdən də gələn xeyli insanlar var idi. Görüşə yenicə başlamışdıq. Bu vaxt Nizami müəllimin oğlu Nazim mənə zəng etdi ki, bir neçə dəqiqədən sonra Yalamada olacaq və seçicilərə atasının səhhəti haqqında məlumat verəcək. Doğrusu mən bir balaca ürəyimdə narahatlıq keçirdim ki, görəsən seçicilər bunu necə qəbul edəcəklər. Nazim gəldi, çox gözəl, səlis və təmkinli nitq söylədi. Atasının seçki platformasını seçicilərə çatdırdı, onlara Nizami müəllimin sağlamlıq durumu haqqında məlumat verdi. Seçicilər onu çox maraqla, heyranlıqla dinlədilər, sürəkli alqışlarla yola saldılar. Bu ucaboylu gənc oğlanın davranışı, insanlarla münasibəti, gülümsər, mehriban çöhrəsi elə bil ədəb-ərkan, ləyaqət simvoludur. Ona görə də deyirəm ki, ot kökü üstə bitər.

**Nadir Süleymanov**
YAP Xaçmaz Rayon Təşkilatının sədri
mart, 2006-cı il



## SADƏ VƏ SƏMİMİ INSAN

Nizami Xudiyevin millət vəkili seçilməsi 56 saylı Xaçmaz kənd seçki dairəsinin seçicilərinin ən böyük uğurudur. 19 nəfər Milli Məclis üzvlüyünə namizədin içərisindən ən layiqlisinə səs verən xaçmazlılar öz seçimlərindən qürur duyurlar. Nizami müəllim millət vəkili seçiləndən sonra onların görüşünə gələndə xaçmazlıların onu ən əziz adamları kimi qarşılamaları, gül-çiçəklə pişvazına çıxıb ayağının altında qurban kəsmələri, ən gözəl, səmimi sözlərini ona həsr etmələri bu səhnənin şahidi olan hər bir kəsi riqqətə gətirir, beyinlərdə bir sual canlandırırdı: axı qısa bir zamanda bu qədər sevgi, bu qədər inam necə yarana bilər? Nizami Xudiyevə olan sevginin sirri nədədir?

Seçki dövründə dairə seçki komissiyasının üzvü olduğuma görə namizədlər haqqında fikirlərimi içimdə boğub neytral mövqe nümayiş etdirmişəm. Amma bir vətəndaş, bir seçici kimi o günlərin bəzi həqiqətlərini açıqlamaq mənim mənəvi borcumdur.

Belə bir anlam var: “Hər şey müqayisədə dərk olunur”. Nizami Xudiyevi dərk etmək üçün 19 namizədin seçkiqabağı təşviqatına nəzər salmaq kifayətdir. Namizədlərdən ilk dəfə təşviqat kampaniyasına başlayan Nizami müəllim oldu. Yadımdadır, Xudat Şəhər Mədəniyyət evinin zalında bütün hazırlıq işləri görülmüşdü, namizədin gəlişini gözləyirdilər. Foyedə vitrinlər zövqlə bəzədilmişdi. Məni heyrətləndirən vitrinlərdəki kitabların çoxluğu idi. Söyləyəndə ki, bu kitabların hamısı Nizami Xudiyevin qələminin məhsuludur, heyrətim ikiqat artdı. Ulu öndərə, Prezidentə, dövlətçiliyimizə, tariximizə, dilçiliyə, türkçülüyə, vətənə, elə, ataya, övlada məhəbbətini əks etdirən bu kitablar o

qədər gözəl, nəfis tərtibata malik idi ki, onları götürüb vərəqləməmək günah sayılardı. Yaxınlaşıb birini vərəqlədim. Bu Nizami müəllimin atasına həsr etdiyi "Mənalı ömür yolu" kitabı idi. Səhifələrin birində diqqətimi əldə yazılmış məktubların foto şəkli cəlb etdi. Həmin səhifəni oxumağa başladım. Atanın Moskvaya oxumağa getmiş oğluna yazdığı məktub – yaddaş haqqında müəllifin qeydləri elə canlı, elə təsirli idi ki, kitabdan ayrıla bilmirdim. Ani olaraq beynimdən belə bir fikir keçdi: "Bu namizəd qalib gəlməyə bilməz. Qələmi belə güclü olan bir insan görün canlı ünsiyyət zamanı nələrə qadirdir. Və əlbəttə ki, fikrimdə yanılmadım. Digər namizədlərdən tam fərqli olaraq Nizami Xudiyev dairə seçki komissiyasında qeydiyyata alındığı ilk gündən, təşviqata başladığı ilk andan işini elə düzüb qoşmuşdu ki, elə bil bu onun yeni, təkrarolunmaz əsəri idi. Nizami Xudiyev ürəkdən gələn sözləri ilə seçicilərinin qəlbinə yol tapmış, bütün potensialından istifadə edərək insanlarda özünə inam oyatmışdı. Çox qəribə hal idi ki, millət vəkili seçilməmişdən əvvəl artıq seçicilər Nizami müəllimi problemlərinin həllində yeganə çıxış yolu bilirdilər, onun seçki qərargahının qarşısı həmişə adamla dolu olurdu.

Nizami Xudiyevi digər namizədlərdən fərqləndirən cəhətlərdən biri də onun seçki kampaniyasını peşəkar səviyyədə, qanun çərçivəsində aparması, yüksək təşkilatçılıq və rəhbərlik bacarığı idi. Nizami müəllimin seçki qərargahı yeganə qərargah idi ki, onun işi bütün tələblərə tam cavab verirdi. Dairə seçki komissiyasının qərarlarına hörmətlə yanaşan, özünə və digər vəkillərə qarşı həddən artıq tələbkar olan seçki qərargahının rəhbəri Nizami Xudiyevin səlahiyyətli nümayəndəsinin dairə seçki komissiyasının iclaslarında davranışı, mübahisəli məsələlərdə



təmkinliyi, kritik vəziyyətlərdə qətiyyəti N.Xudiyev məktəbinin gücündən xəbər verirdi. Digər namizədlər və onların vəkilləri birlikdə bu gücün qarşısında aciz idilər.

Məhz bu təşkilatçılıq qabiliyyəti, qanunun aliliyini əlində rəhbər tutaraq, özünə və seçicilərinə böyük inam hissi Nizami Xudiyevə qələbə qazandırdı.

Nizami müəllimin digər namizədlərdən bir üstün cəhəti də o idi ki, o, rəqiblərinə cavab verərkən belə öz böyüklüyünü, səviyyəsini həmişə qoruyub saxlayırdı. Bu da insanların ona olan məhəbbətini daha da artırırdı. Nizami Xudiyev yalnız millət vəkili seçilmək istəmirdi, çünki onun kifayət qədər sanballı, nüfuzlu titulları var idi ki, bu hər bir insanın arzularının ən ali zirvəsi ola bilərdi. Nizami Xudiyev insanların ona ehtiyacı olduğunu duyur, millət vəkili seçilərsə, onlara daha çox kömək edə biləcəyini düşünürdü. Özünə qarşı olan kiçicik bir diqqəti belə nəzərdən qaçırmayan bu gözəl insan özünün digərlərinə göstərdiyi əvəzolunmaz xidmətləri unudur, bunu adi hal kimi qəbul edirdi.

Nizami Xudiyevin üstün cəhətlərindən biri də o idi ki, o, xalqın etimad göstərdiyi, siyasətindən bəhrələndiyi, alternativi olmayan Yeni Azərbaycan Partiyasının irəli sürdüyü namizəd idi. Heydər Əliyev məktəbinin yetirməsi olan Nizami Xudiyev sözü ilə işi arasında təzad olmayan, xalqa güvənib xalq üçün çalışan bir partiyanın Siyasi Şurasının İdarə Heyətinin üzvü idi. Bütün yuxarıda sadaladıqlarımın nəticəsidir ki, xaçmazlıların inamını, sevgisini qazanan Nizami Xudiyev nəinki onların səslərini aldı, həm də onların ürəklərini fəth etdi.

Mən Nizami müəllimi bu böyük qələbə münasibətilə təbrik edirəm, ona cansağlığı, yeni-yeni qələbələr arzulayıram.

Nizami müəllim də ona olan bu sevgini, bu etimadı layiqincə doğruldur. Xaçmazın və xaçmazlıların heç bir probleminə laqeyd qalmayan millət vəkili seçki dövründə onun qarşısında qaldırılan bütün məsələləri həll etməyə çalışır. Su sarıdan korluq çəkən neçə-neçə kənddə, Xudat şəhərində artezian quyuları qazdırıb, kəndarası yollara, şəhərin küçələrinə daş, asfalt döşətdirib, bir neçə məktəbə kompüter hədiyyə edib. İmkansız ailələrə pulsuz səhiyyə xidmətinin göstərilməsi mütəmadi hal alıb. Hər şənbə və bazar günləri yüzlərlə xaçmazlı təmənnasız olaraq Azərbaycanın ən sayılan professor və həkimlərinin qəbulunda olur, dəqiq diaqnostika aparatından keçir, lazımlı dərman preparatları ilə təmin olunurlar. Mən UNİSEF kimi böyük bir təşkilatın "İlkin səhiyyə xidmətinin islahatı" layihəsində icma üzvü qismində iştirak etmişəm və onların Xudatda səhiyyə sahəsində "açıq qapı günləri"nin planlaşdırmasının şahidi olmuşam. Dünya bankından maliyyələşən, Səhiyyə Nazirliyinin UNİSEF-lə birlikdə həyata keçirdiyi layihə çərçivəsində bu plan elə plan olaraq qaldı. Amma Nizami Xudiyev bu planı hər həftə və hər şənbə-bazar həyata keçirirdi. O, bunu necə edirdi, bu, mənim üçün hələ də bir sirdir. Diabet xəstəliyinə tutulan bir xaçmazlı balasının həyatı Nizami müəllimin köməyilə demək olar ki, xilas oldu. İndi o xəstə uşaq nə həkim müayinəsi, nə də dərman sarıdan korluq çəkir. Nizami müəllimin Xudat Şəhər Xəstəxanasına gətirdiyi dəqiq diaqnostika və ultrasəs aparatından isə təkcə xaçmazlılar yox, ətraf rayonların əhalisi də istifadə edirlər.

Nizami Xudiyevin mədəniyyətə qayğısını isə xüsusilə qeyd etmək istəyirəm. Rəhbərlik etdiyim Xudat Şəhər Mədəniyyət evinin əsaslı təmirini öz üzərinə götürən millət vəkili artıq 300 yerlik konsert zalının köhnə oturacaqlarını yeniləri ilə əvəz etdirib, iclas stollarını və iclas kürsüsünü dəyişdirib, öz adından mədəniyyət evinə bahalı xalça, 10 ədəd yumşaq stul, rəqs ansamblının solistinə CD-maqnitofon hədiyyə verib.



Nizami müəllimin xaçmazlılara ən böyük hədiyyəsi isə Mədəniyyət evində keçirilən konsertlərdir. Adətən seçkiqabağı təşviqatın bir növü olan konsertlər seçki bitdikdən sonra heç vaxt davam etdirilmir. Amma Nizami Xudiyev bu sahədə də yenilik etdi, minlərlə seçicinin iştirak etdiyi konsertlər seçkidən sonra da xaçmazlıları sevindirir. Azər Mirzəyevin, Ceyran Rəhimovanın, Telli Pənahqızının aparıcılıq etdikləri bu konsertlərdə Teymur Mustafayev, Ağadadaş Ağayev, Zaur Rzayev, Məmmədbağır Bağırzadə (allah ona rəhmət eləsin), Mübariz Tağıyev, Nazpəri Dostəliyeva, Manana, Faiq Ağayev, Ruhəngiz Allahverdiyeva, Mətanət İsgəndərli, Gülüstan Əliyeva, Elza Seyidcahan, Gülyanaq və Gülyaz Məmmədovalar, Nüşabə Ələsgərli, Cavanşir Məmmədov, Rəşad İlyasov, Firuzə İbadova, Ədalət Şükürov, Abbas, Qismət, "Rezonans" qrupu, Tünzalə Ağayeva, Azər Zeynalov, Bəsti Bəkirova, Könül Kərimova kimi tanınmış incəsənət xadimlərini bir araya gətirən Nizami Xudiyevin xaçmazlılara bəxş etdiyi sevinc isə heç nə ilə müqayisə oluna bilməz.

Xaçmaz televiziyasının yayım dairəsini genişləndirən ötürücünün qurulması millət vəkilinin mədəniyyətimizə olan qayğısının real sübutudur.

Bu hələ başlanğıcdır. Qarşıda Nizami Xudiyevi qayğılarla dolu vəkillik həyatı gözləyir. İnanıram ki, Nizami müəllim çətin və məsuliyyətli işin öhdəsindən layiqincə gələcək. Mən Nizami müəllimə uğurlar diləyirəm.

**Nərgiz Seyidova**

*Xudat şəhər sakini.aprel, 2007-ci il*

## EL ZİYALISI

Nizami müəllimi çoxdan tanısam da, onunla şəxsi tanışlığım 2005-ci ilin parlament seçkiləri ərəfəsində baş tutdu. Nizami müəllimin namizədliyi Yeni Azərbaycan Partiyasının vahid namizədi kimi 56 saylı Xaçmaz kənd seçki dairəsindən irəli sürülmüşdü. Qeyd etməliyəm ki, YAP öz namizədlərini açıqladığı zaman artıq bir çox partiya üzvləri və bitərəflər öz namizədliklərini çoxdan irəli sürmüşdülər. Nizami müəllimin Xaçmaz kənd seçki dairəsindən namizədliyinin irəli sürülməsi digər namizədlər tərəfindən heç də birmənalı qarşılanmadı. Çünki onlar yaxşı başa düşürdülər ki, Nizami müəllim kimi rəqiblə mübarizədə qalib gəlmək heç də asan olmayacaq.

YAP Xaçmaz Rayon Təşkilatının İdarə Heyətinin iclası çağrıldı. İdarə Heyətinin üzvi kimi mənə Nizami müəllimin seçki kampaniyasında iştirak etmək tapşırıldı. Mən ərizə yazaraq məzuniyyətə çıxdım və seçki kampaniyasına qoşuldum. Onun seçki qərargahı Xudat şəhərində yerləşirdi. Nizami müəllimin seçicilərlə birinci görüşü də elə Xudat şəhərində keçirildi. Açıq etiraf etməliyəm ki, görüş çox soyuq başladı. Görüşə öyrədilmiş adamlar qatılmışdı. Müxtəlif səpkili çıxışlar oldu. Nəhayət, Nizami müəllim çıxış etdi. Onun sadə, cəlbedici ifadələri zalda əyləşənləri heyran etməyə bilməzdi. Görüşün sonunda isə bütün iştirakçılar ayağa qalxaraq Nizami müəllimi alqışladılar, onu zaldan buraxmaq istəmirdilər. Nizami müəllim onlara söz verdi ki, xudatlılarla görüşü çox olacaq. Çalışacaq ki, onların problemlərinin həllinə yardım etsin. İlk görüş onu göstərdi ki, Nizami müəllim



insanların qəlbinə yol tapmağı bacarır və onlar da Nizami müəllimin sözlərinə inanırlar.

56 saylı Xaçmaz kənd seçki dairəsində 103 kənd yerləşir. Biz fikirləşirdik ki, görüşlər icra nümayəndəliklərinin yerləşdiyi kəndlərdə keçirilsin. Lakin Nizami müəllim hər bir kəndə gedəcəyini, seçicilərlə görüşəcəyini bildirdi. Həqiqətən də Nizami müəllim demək olar ki, bütün kəndlərdə oldu.

Mən bir məsələyə də toxunmaq istəyirəm. Görüşqabağı Nizami müəllim gedəcəyi kənd haqqında çoxlu məlumat öyrənməyi xoşlayırdı. Biz ona məlumatlar verəndə isə təəccüblənirdik. Çünki Nizami müəllimin həmin kənd haqqındakı məlumatları bizim məlumatlardan zəngin olurdu.

Xaçmaz rayonunun 56 saylı dairəsində çoxsaylı millətlərin və etnik qrupların nümayəndələri yaşayırlar. Nizami müəllim onlara münasibətdə o qədər səmimi idi ki, həmin insanlar onu əzizləri kimi qarşılayıb yola salırdılar. Hamı bir nəfər kimi ona səs verəcəklərini bildirirdilər. Sözlərinin üstündə durdular da.

Nizami müəllim Azərbaycan təbiətinin vurğunudur. O, hər bir görüşündə Azərbaycanın füsünkar gözəlliyindən, xüsusilə də Xaçmazın bənzərsiz təbiətindən söz açır, onu qorumağın vacibliyindən danışırdı. İnsanlar Nizami müəllimə o qədər isinişmişdilər ki, o, bir-iki gün Xaçmaza gəlməyən kimi qərargaha üz tutur, nə vaxt gələcəyini soruşurdular.

Nizami müəllim görüşə getdiyi hər bir kənddə məktəblərlə tanış olur, dərsin keyfiyyəti, müəllim və şagirdlərin vəziyyəti ilə maraqlanırdı. Onu da qeyd etməliyəm ki, Nizami müəllimi müəllimlər çox böyük sevinc və rəğbətlə qarşılayırdılar. Elə bir kənd olmurdu ki, orada

Nizami müəllimin tələbəsi və ya tələbə yoldaşı olmasın. Həmin insanlar isə Nizami müəllim haqqında o qədər xoş sözlər söyləyirdilər ki, bütün bunlar seçicilərə xoş təsir göstərirdi.

Mən bir görüş haqqında xüsusi danışmaq istəyirəm. Namizədlərdən birinin doğulduğu kənd olan Həsənqalada görüş planlaşdırılmışdı. Biz kəndə gələndə həmin namizədin bir qrup tərəfdaşları görüş keçiriləcək klubun yaxınlığında öz "qonaqpərvərlik"lərini nümayiş etdirdilər. Nizami müəllim isə heç onlara əhəmiyyət vermədən Qarabağ şəhidlərinin abidəsi önünə qərənfillər qoyaraq kluba daxil oldu. Nizami müəllim çox böyük ziyalılıq göstərərək seçiciləri qarşısında elə bir məntiqli çıxış etdi ki, görüşün sonunda hamı ayağa qalxaraq uzun sürən alqışlarla onu yola saldılar.

Nizami müəllimin hər bir görüşdə müstəqil Azərbaycanımızın memarı və qurucusu, Ümummilli liderimiz Heydər Əliyev ideyalarının, ölkəmizin Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin ölkəmizə gətirdiyi uğurlardan xüsusi ilhamla danışması onun seçicilər arasındakı nüfuzunu gündən-günə artırırdı, qələbəsini danılmaz edirdi. Nizami müəllimin rayonda görülən yüksək abadlıq və quruculuq işlərini möhtərəm Prezidentimizin uğurlu kadr siyasətinin nəticəsi kimi qiymətləndirməsi də onun reytinqinin artmasına çox böyük təsir göstərirdi. Bir sözlə, Nizami müəllim öz obyektivliyi, prinsipiallığı, qayğıkeşliyi ilə hamımızın böyük rəğbətini qazanmışdı.

Seçki kampaniyasının gedişində Nizami müəllim avtomobil qəzası nəticəsində xəsarət aldı. Həmin günlərdə minlərlə seçici qərargaha gəlib onun səhhəti ilə maraqlanırdı. Biz bir daha əmin olduq ki, Nizami müəllim



artıq seçicilərinin qəlbinə yol tapıb və onun qələbəsi qaçılmazdır.

Seçkilərdə Nizami müəllimin parlaq qələbəsi və qısa müddət ərzində seçicilərinin problem və tapşırıqlarını yerinə yetirməsi xaçmazlıların ona olan sevgisini qat-qat artırdı. Nizami müəllimin seçkilərdən sonra Xaçmaza ilk gəlişi böyük bir bayrama çevrildi.

Mən Nizami müəllimi böyük bir ziyalı, qayğıkeş, həssas insan, Ulu öndərimiz Heydər Əliyev ideyalarına, möhtərəm Prezidentimiz cənab İlham Əliyevə sədaqətli bir şəxs kimi tanıdım, ona hörmət və rəğbətim qat-qat artdı.

**Nazim Ağayev**
Xaçmaz Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri
fevral, 2006-cı il

## ELM FƏDAİSI

Nizami müəllim haqda yazmağı fikirləşəndə yadıma ötən günlər düşdü…

İxtisasca müəllim olsam da, jurnalistikaya marağım olduğundan əlavə ixtisasa da yiyələnə bilmişəm. Uzun müddət dövri mətbuatda elmi-metodiki, bədii-publisistik yazılarla çıxış etmişəm. Bununla yanaşı respublika televiziya və radiosunda da hərbi-vətənpərvərlik, uşaq verilişləri, məktəb proqramı, kənd həyatı, Cənubi Azərbaycan və s. redaksiyalarda gənc nəslin mənəvi, ictimai-siyasi, sosial həyatına həsr olunmuş silsilə verilişlərdə, oçerklərdə müntəzəm olaraq çıxış etdiyimdən Teleradio Şirkətini özümə doğma yer bilmişəm. Burada çalışan tanınmış telejurnalistlərlə, diktor və redaktorlarla olan hər bir işgüzar görüş məndə bu sahəyə böyük sevgi yaratmışdı. Və zaman keçdikcə bu sevgini şagirdlərimdə də yarada bilmişəm. İşlədiyim məktəbdə təşkil edib yaratdığım "N.Nərimanovun xatirə muzeyi"nin xətti ilə məktəblilərin arzu, istək və marağını nəzərə alaraq ildə bir dəfə Bakıya ekskursiya təşkil edirəm. İlk növbədə isə onları Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinə (QSC) gətirirəm. Uşaqlar şəhid jurnalistlərin xatirə lövhələri önünə tər qərənfillər qoyduqdan sonra burada son vaxtlar görülən böyük quruculuq və abadlıq işləri ilə tanış olurlar…

Nizami müəllim söhbətlərində televiziyaya sədr təyin olunduğunu eşidəndə həyəcan keçirdiyini deyir. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən ona göstərilən böyük etimad və inamı doğrultmaq üçün Nizami müəllim gecə-gündüz var qüvvəsi və bacarığı ilə çalışmağa başladı.



Nizami Xudiyevin sədr təyin olunması televiziya mühitinin ab-havasını əsaslı şəkildə dəyişdi. Mövzu aktuallığı, yeni düşüncə tərzi ilə fərqlənən yeni veriliş və proqramlar - "Oğuz", "Araz", "Turan", "Səngər", "Azərbaycan əsgəri", "Yazı", "Dastan", "Kinoklubda görüş", "Vətəndaş", "Körpü" və s. hazırlandı. Onun ssenariləri əsasında çəkilmiş "H. Əliyev və Azərbaycan dili", "Əsrin müqaviləsi", "Tikdim ki, izim qala", "Cavad Heyət varlığı", "Türklər", "Sabaha inamla" və s. filmlərinə təkrar-təkrar baxanda orada hər dəfə nə isə yeni bir ştrix nəzər diqqətimizi cəlb edir.

Nizami müəllimin təşəbbüsü və köməkliyi ilə şirkətdə "Teleradio tarixi muzeyi" yaradılmışdır. Muzeyin bələdçisi burada nümayiş etdirilən bir çox eksponatları – televizor, radio, maqnitafon, valçaldıran, vallar və s. – Nizami müəllimin şəxsən Şahbuzdan gətirdiyini dedi. Bu elə-belə gəlişi xoş sözlər deyil. Bu, Nizami müəllimin Azərbaycanın tarixi keçmişini, zəngin maddi və mənəvi sərvətlərini tamaşaçı beynində əbədi həkk etdirmək bacarığının, zəhmətkeşliyinin, işgüzar və təşkilatçılığının bariz nümunəsidir.

Ölkəmizdə gedən inkişaf və yüksəliş proseslərinin izlənməsində televiziyanın rolu əvəzolunmazdır.

Sevindirici haldır ki, xalqımızın zəngin tarixi keçmişinin, milli düşüncəsinin, mənəvi dəyərlərinin nəbzini tuta bilən görkəmli ictimai-siyasi xadim, beynəlxalq miqyasda tanınmış türkoloq-alim, alovlu vətənpərvər, respublikamızda sayılıb-seçilən və öz yolu, dəsti-xətti olan bir ziyalı – Nizami Xudiyev hal-hazırda Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nə rəhbərlik etməklə yanaşı millət vəkili kimi şimal bölgəsinin aktual problemlərinin həlli üçün var qüvvəsi ilə çalışır.

Mənə bu böyük insanın vəkili olmaq şərəfi nəsib olanda çox sevindim. 56 saylı Xaçmaz kənd seçki dairəsi böyük ərazini – Xudat şəhəri, Müqtədir qəsəbəsi, Nabran daxil olmaqla 103 kəndi əhatə edir.

Nizami müəllimlə yanaşı seçicilərin görüşlərində olarkən bu insanın böyüklüyü qədər sadəliyinin, təvazökarlığının şahidi oldum. Səlis, aydın nitqi ilə dinləyicilərini özünə elə cəlb edirdi ki, hamı onu doğma, yaxın adamı kimi qəbul edirdi. Maraqlı bir faktı qeyd etmək istərdim. Bu dairədən 19 nəfərin namizədliyi irəli sürülmüşdü. Şübhəsiz ki, digər 18 nəfər namizəddən hər hansı birinin bu namizəd üzərində qələbə çalması absurd idi. Odur ki, həmin namizədlərdən bəzisi Nizami müəllimə qarşı «güclü kampaniya» aparmağa, onun haqqında mənfi rəy yaratmağa ciddi-cəhd göstərirdilər. Belə bir hadisənin də şahidi olduq. Xudat Mədəniyyət evində seçicilərlə ilk dəfə keçirilən görüşdə «öyrədilmiş» bir nəfər söz alaraq camaatı yerli namizədlərə səs verməyə çağırdı. Tükü-tükdən seçməyi bacaran xudatlılar ona qəzəblə cavab verdilər. Onlar xalqın ən ləyaqətli elçisi, millət vəkili, xalqın sözünü ən yüksək tribunalarda təmsil etmək bacarığı olan Nizami Xudiyevə səs verəcəklərini əminlik və qətiyyətlə bildirdilər. Növbəti görüşlərin birində həmin şəxs səhv etdiyini, professoru yaxşı tanımadığını dönə-dönə seçicilər qarşısında etiraf etdi. Onu yalnız kövrək qəlbli, bağışlamağı bacaran, ahıllara hörmət hissi ilə yanaşan Nizami müəllim bağışlaya bilərdi. Bu, elə seçki kampaniyasının ilk addımlarından qələbəmizin başlanğıcı idi.

Bu zonada ilk dəfə olmasına baxmayaraq, hər bir kəndin, ünsiyyətdə olduğu hər kəsin adını yadda saxlamaq yalnız və yalnız iti yaddaş və dərin zəka sahibi olan



Nizami müəllimə xas xüsusiyyətlərdən biridir. Onu dinləyən böyük auditoriya sanki Nizami müəllimin sehrli aləminə düşürdü. Dinləyici 2-3 saatın necə keçdiyini nə hiss edir, nə də onu dinləməkdən yorulurdu. O, hər bir seçicini sadə sözlərlə böyük məsələlərin asan dərkinə inandırmağa nail olurdu.

Nizami müəllim hər bir vətəndaşın hüquq və azadlıqlarının qorunmasından, vətənimizin ərazi bütövlüyünün bərpa olunacağından, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında nəzərdə tutulan zəruri infrasturukturun yaradılmasından və inkişafından, yerli resurslardan istifadənin səmərəliliyindən söhbət açır, yeni iş yerlərinin açılması zərurətindən danışır, əhalinin maddi rifahının, sosial müdafiəsinin yaxşılaşdırılması üçün qarşıda duran vəzifələri izah edirdi. Regionda elm, təhsil, səhiyyə, mədəniyyət və idman sahəsində sosial təminatın yaxşılaşdırılması xəttinin müdafiəsində durduğunu dinləyiciyə inamla çatdırırdı. O, hər görüşündə təkrar edirdi ki, mən boş vəd verməyi xoşlamıram.

Məhəmməd Peyğəmbərin kəlamlarından birində deyilir: "İnsanların ən yaxşısı camaatın xeyrinə çalışandır". Bu mənada Nizami müəllim qısa müddətdə seçicilərinin ümidlərini doğrultdu.

Belə ki, kənd camaatı xəstəsi olanda ya rayon mərkəzinə gedir, ya da Bakıya üz tuturdu. Nizami müəllimin səyi nəticəsində Xudat poliklinikasında yüzlərlə xəstə şənbə və bazar günləri yeni USM aparatı ilə müayinə olundu. Bakıdan buraya gələn təcrübəli həkimlər – terapevt, oftalmoloq, pediatr və başqaları xəstələri təmənnasız müayinə edir, müalicələri üçün lazımı dərman preparatları ilə təmin edirdilər.

Biz burada Nizami müəllimin qardaşı, Bakıdakı Qarayev adına 2 saylı xəstəxananın baş həkimi Azər Xudiyevin də xidmətlərini xüsusi qeyd etmək istərdik. İstər burada, istərsə də Bakıda hər bir xəstəyə qayğı və diqqət göstərir.

Atalar çox gözəl deyib: "Qartal yuvasından qartal uçar". Nizami müəllim respublikamızın sayılıb-seçilən bir ziyalısının – Mənaf Xudiyevin oğludur. Mənaf müəllim ocağında gözəl əxlaqlı, yüksək mənəviyyatlı övladlar böyüyüb, onlara ali təhsil verilib. Ən ümdəsi isə onlara Vətənə sonsuz məhəbbət sevgisilə xidmət etmək aşılanıb.

Məhəmməd Peyğəmbərin kəlamlarından birində oxuyuruq, "Heç bir ata övladına gözəl tərbiyədən qiymətli hədiyyə verə bilməz". Məhz Nizami müəllim belə hədiyyənin sayəsində bütün varlığı ilə, fəaliyyəti ilə xalqımıza nəhəng quruculuq işlərində Azərbaycanımızın iqtisadi-siyasi inkişafında yüksələn xətlə xidmət edir. O, qısa müddətdə Xaçmazda yüzə yaxın problemi həll etmişdir. Belə ki, Xudatda, Həsənqala kəndində sakinlər sudan korluq çəkirdilər. Xudatda dərin su quyusu vuruldu. Həsənqalada isə artezian quyusu əsaslı təmir edildi, kənd su ilə təmin olundu. Xudat Mədəniyyət evinin oturacaqları yeniləri ilə əvəz olundu. Pirquluoba kəndindəki əlil bacı və qardaş üçün əlil arabaları gətirildi. Çoxdan Məkkəyə ziyarət etmək istəyən ağsaqqalın arzusu həyata keçirildi. Kənd məktəblərinin təmiri, lazımi məktəb ləvazimatları və müasir texniki avadanlıqların verilməsi təmin olundu və s.

Nizami Xudiyev çox həssas pedaqoq olduğu üçün görüşdüyü hər bir kollektivin potensial imkanlarını üzə çıxarmağa, insanları ətrafına cəm etməyə, onların peşə sevgisini artırmaqla işgüzarlıq qabiliyyətini doğru, düzgün səmtə yönəltməyə qadirdir. İllərlə həll olunmayan prob-



lemlər 3-4 ayda görüldü. Beləliklə, xalq, camaat artıq başa düşdü ki, Nizami müəllim əvvəlki deputatlardan fərqli olaraq vədlər vermir, konkret işlər görür.

Hər hansı bir xalqın tarixində və taleyində müdrik adamların rolu əvəzsizdir. Onların sayı az olur. Amma dünyanın dərk olunmasında müdriklərin önündə alimlər gedir. Alimlər milyonlarla qaranlıq sirlərin bir qismini açmaqla, yeni bir aləm - elm aləmi açırlar. Nizami müəllim belə elm fədailərindən biridir. Onun uzun illərin əziyyətli elmi axtarışlarının bəhrəsi olan kitablarını oxuyub qurtarmağa bir ömür çatarmı?!

Müəllim və şagirdlərin stolüstü kitabları olan dərslikləri, ssenarisi əsasında çəkilmiş filmləri, millət vəkili kimi fəaliyyətini də buraya əlavə etsək, hamı bu qənaətə gələr.

Məni fərəhləndirən budur ki, indi Xaçmazda hər kəs "bizim deputatımız" sözünü inam və fəxrlə söyləyir. O günü isə heç unuda bilmirəm. Havanın yağışlı olmasına baxmayaraq, Nizami müəllim Həbibkəndli seçicilərilə görüşə tələsirdi. Burada yaşayan müxtəlif millətlərin nümayəndələri, xüsusən mesxeti türkləri onun görüşünü intizarla gözləyirdilər. Ona görə yox ki, burada da çoxdan yığılıb qalmış problemlər vardı, xeyr! Həbibkəndlilər tanınmış bir alimlə, görkəmli ziyalı ilə, vətənpərvər bir Allah adamı ilə yaxından görüşüb söhbət etmək, onunla təmasda olmaq istəyilə toplaşmışdılar. Yeri gəlmişkən qeyd edim ki, fitri zəka sahibi olan Nizami müəllim hansı kəndə gedirdisə, o ərazinin tarixi, əhalisi, iqtisadiyyatı, mədəniyyət abidələri haqqında elə ətraflı məlumat verirdi ki, yerli sakinlər yaşadıqları yeri yaxşı tanımadıqlarını etiraf edirdilər.

Bu görüşdə də həbibkəndlilər türkoloq-alimin söhbətindən çox şey öyrəndilər. O, mesxeti türklərinin buraya sürgünü ilə bağlı elmi açıqlamalar verdi. Söhbətin maraqlı yerində kənddə yaşayan türklərdən biri Nizami müəllimə öz dərin təşəkkürünü birdirdi. Qeyd etdi ki, qardaşım APİ-yə (indiki ADPU) qəbul olunduqdan sonra oxumağa və şəhərdə qalmağa imkanı olmayıb. Bunun üçün institutu atmalı olub. Nizami müəllim bundan xəbər tutanda ona maddi - mənəvi yardımını əsirgəmədi. Həmin tələbə institutu bitirib. Bu gün isə uzun illərdən sonra Nizami müəllimi görmək üçün buraya gəlib. O, bu kənddə müəllimdir. Nizami müəllim həmin tələbəni – müəllimi tanıdı və onlar doğma adamlar kimi görüşdülər. Nizami müəllim həmin illəri bir də xatırladı.

Bu, səmimi, humanist, xeyirxah, mehriban bir insanın gördüyü minlərlə yaxşılıqlardan bir zərrə idi. Dedilər ki, kənddə seyid ocağı var. Nizami müəllim ziyarətgaha getmək istədi. Lakin yağış imkan vermədi. Qismət olsa, növbəti dəfə o kəndə gəlmək imkanı olarsa, mütləq oraya gedəcəyini bildirərək maşına mindi. Bu vaxt kəndin bir ağbirçəyi mənə yaxınlaşıb xahiş etdi ki, Nizami müəllim əlimdəki Quranın altından keçib getsin. Allah onu bəd nəzərdən qorusun. Yola düşməkdə olan maşını saxlayıb qadının xahişini Nizami müəllimə yetirdim. O, maşından düşdü və Quran kitabının altından keçib gülümsəyərək maşına mindi. Biz oradan qayıdıb Xudata gəldik. Nizami müəllim isə qonşu kəndə, oradan da Bakıya yola düşdü. Səhər eşitdiyim dəhşətli xəbər hamımızı çox sarsıtdı. Özümüzə gələ bilmirdik. Bunu sözlə ifadə etmək çox çətin və ağır idi - Nizami müəllim avtomobil qəzasına uğrayıb! Biz televiziyanın önündən çəkilmir, onun vəziyyətini hələlik buradan öyrənmək, bilmək istəyirdik.



Amma Ulu tanrının möcüzəsinə inanırdıq. Onu qəlbən sevənlərin xeyir-duaları içərisində kiçik nəvəm Asimanın da əlləri göydə idi. O da Allaha yalvarırdı. Bəli, Allah hamımızın dualarını eşitdi. Nizami müəllim sağaldı və yenidən xudatlıların görüşünə tələsdi. Onun ayağının altında qurbanlar kəsildi. Hamı ilə öz doğmaları kimi görüşdü. Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il bayramı münasibətilə Mədəniyyət evində böyük bayram konserti keçirildi. Buraya respublikamızın tanınmış müğənniləri və aktyorları gəlmişdi.

Az müddət ərzində xalqın böyük məhəbbətini qazanmış istedadlı pedaqoq, nüfuzlu elm xadimi, yüksək təfəkkürlü, son dərəcə ciddi görkəmli, qəlbi millət və Azərbaycan sevgisi ilə qürurlanan, millətin sözünü vaxtında və yerində deməyi bacaran Nizami Xudiyevlə fəxr edirik. O, öz sözünün ağasıdır. Onda ağsaqqallara xas olan bir ləyaqətlə öz sözünü müdafiə etmək bacarığı var. Onun əməlləri bir daha sübut edir ki, Nizami müəllim bu dairədən beş il müddətinə yox, daimi millət vəkili seçiləcək.

Fikrimi tamamlayıb yazıma başlıq vermək istəyəndə duruxdum. "İlin beynəlxalq ziyalısı", "XXI əsrin intellektualı", "İlin adamı" və bu kimi fəxri adlar almış, daim narahat, elmi axtarışlarda olan, min bir zəhməti sayəsində zirvələr fəth etməyə doğru addımlayan Nizami müəllimi elə «elm fədaisi» adlandırdım.

**Nəzakət Kərimova**
Xudat şəhər N.Nərimanov adına
2 saylı orta məktəbin müəllimi
fevral, 2006-cı il

## NİZAMİ XUDİYEV KİMDİR?

Bahar təzəcə gəlmiş, ağaclar oyanmış, budaqlar puçurlamışdı. Gilənar ağacının şah budağında bir bülbül oxuyurdu. Zavallı quş ruhumu yerindən oynadır, xəyalımı uzaqlara çəkib aparırdı. Mənsə ağacın dibində özümə yer eləyib bu nəcib quşun nəğməsinə məftun kəsilmişdim. Quş elə oxuyur, kəsik-kəsik "zəngulələr" vururdu. Quş ilə mənim aramdakı məsafə çox yaxın idi; bir ağac boyu. Ayağa durub quşu lap yaxından seyr eləmək istədim. Elə yerimdən qalxmışdım ki, quş uçdu. Onu nə dinləyə bildim, nə də seyr edə.

Yaxınlıqdakı xan çinarın başı üzərində bir qartal pərvəriş edirdi. Çinarda özünə yuva quran, sığınacaq tapan sərçələr, qarğalar, sığırçınlar, sarıköynəklər qorxuya düşüb yuvalarından qaçışır, lülədən yayılan barıt kimi ətrafa səpələnirdilər. Qartalsa qıy vurur, süzür, xan çinarın sahibi kimi ağacın başına fırlanır, qanadlarını gərir, ənginliklərə meydan oxuyurdu. Mən dayandığım yerdən bu cəsur quşa tamaşa edir, onun məğrur, azad uçuşundan ilham alırdım.

Əllərimi belimə çarpazlayıb ağaca səmt bir-iki addım atdım. Qartal sanki məni görürmüş kimi daha dərin ənginliklərə baş vurub gözdən itdi. Əlim qartaldan da üzüldü. Onu bir qədər yaxından seyr edə bilmədim.

Uzaqlardan, lap uzaqlardan Şahdağın, Babadağın ağ çalmalı zirvələrindən üstümə, başıma süzülən günəşin şəfəqləri ruhuma bir istilik, mehribanlıq çiləyirdi. Batmaqda olan günəş işığına bələnmiş meh ruhuma həlimlik gətirirdi. Ax müqəddəs günəş, müqəddəs atəş! Birdən günəşin dağlar arxasındakı yatışını izləmək istədim. Koldan-kosdan boy verib ona səmt qanrıldım. Günəş batadaydı. Onu görmək xatirinə bir təpəyə dırmaşdım... Dünya gözəli qızıl şəfəqlərini məndən gizlətdi. Günəş batdı; üfiq qızılı rəngə çaldı.



Nədənsə tələbəlik illərindən yaddaşımda qalan unudulmaz dostum, qardaşım, 56 saylı Xaçmaz kənd seçki dairəsindən Milli Məclisə deputat seçilmiş Nizami Mənaf oğlu Xudiyev haqqında ürək çırpıntılarımı qələmə almaq istərkən yuxarıdakı təbiət mənzərəsini xatırladım. Əslində bu mənzərəni hər gün görür, müşahidə edir, intəhasız xəyallara dalıram. Gördüyüm mənzərə qəhrəmanlarında - günəşin, bülbülün, qartalın obrazında - əziz dostum Nizami Mənaf oğlu Xudiyevin bu və ya başqa şəkildə heç kimin görə bilmədiyi portret cizgilərini görür, qələmimi dosta mərhəmləyib onun portretini çəkmək istəyirəm. Bütün yaranmışların əşrəfi insan əslində təbiətin bir hissəsi olmaqla Yaradanın möcüzəsidir. Ağıllı, yaradıcı, elcanlı insanlar isə bu möcüzələrin fövqündə duran qəhrəmanlardır. Nizami Mənaf oğlu Xudiyev də belə qəhrəmanlardandır ki, indi qələmim onun portret cizgilərini çəkir.

Nizami Xudiyev 1949-cu ilin aprel ayının 1-də Azərbaycanın ən dilbər güşələrindən biri olan Şahbuz rayonunda, Mənaf kişinin ailəsində dünyaya göz açıb. Mənaf kişi Naxçıvan torpağının sayılıb-seçilən şəxsiyyətlərindən biri olduğu üçün onun tərcümeyi-halından bəzi məqamları oxucuların nəzərinə çatdırmağı özümə borc bilirəm.

Mənaf Əsgər oğlu Xudiyev 1919-cu ildə Şahbuzun Badamlı kəndində anadan olub. Naxçıvan Pedoqoji məktəbini bitirib, 1938-ci ildən rayon-kənd Şahbuz kəndində müəllim kimi əmək fəaliyyətinə başlayıb. Mənaf Xudiyev uzun illər məsul vəzifələrdə çalışıb. Şahbuzda

çıxan rayon qəzetinin redaktoru, sonralar "Şərq qapısı" qəzetinin redaktoru, Şahbuz Rayon Partiya Komitəsinin ikinci katibi, sonra birinci katibi, Naxçıvan MSSR Ali Sovetinin sədri, Ali Sovetin Rəyasət Heyəti sədrinin müavini işləyib. Dəfələrlə Şahbuz Rayon Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə deputat seçilib, orden və medallarla təltif olunub.

Mənaf kişi Əli babanın kökləri üstündə pərvəriş tapan Alqocalılar sülaləsinin Əsgər ata budağında pöhrələnən ailə-nəsil şəcərəsinin bir qoludur ki, Nizami Xudiyev də bu qollardan biridir. Bu qolların da Aytən, Nazim və Günel kimi kövrək, tumurcuqlu budaqları var.

Naxçıvanda Alqocalılar sülaləsi çox qədim və dərin köklərə məxsusdur. Bu nəslin Xudu, İsmayıl və Allahverdi adlı babaların budaqlarında yüzlərlə övlad-uşaq öz ailə şəcərəsinin müqəddəs ulu köklərini layiqincə yaşatmaqdadır. Bu soykök nəsil şəcərəsinin budaqlarında Süsənbər, Bənövşə, Qönçə, Əfsun, Sara, Türkan, Aygün, Aysel, Zülfiyyə, Elnur, Səfa, Mərziyyə, Xudu, Sahibə, Elşən, Qızbəsti və başqa adlar da var ki, insan bu adların həmişəbahar ismi qarşısında sevinir, qürur hissi keçirir, necə ki, bahar fəslində bənövşəni, nərgizi, laləni görüb sevinirik. Xülaseyi-kəlam, belə bir ailədə - Mənaf kişinin ocağında dünyaya göz açan Nizami Xudiyev Şahbuz rayonunda orta məktəbi əla qiymətlərlə bitirib, 1966-cı ildə V.İ.Lenin adına APİ-nin (indiki ADPU-nun) dil-ədəbiyyat fakültəsinə daxil olur. İnstitutda tələbə ikən əvvəl qrup, sonra fakültə komsomol təşkilatının katibi seçilir. 1970-ci ildə həmin institutu fərqlənmə diplomu ilə bitirib, Elmi Şuranın qərarı ilə instituta müəllim təyin olunur. Sonrakı illərdə Nizami İnstitut Həmkarlar



Təşkilatının sədri, prorektor, rektor vəzifələrinə qədər yüksəlir.

1978-ci ildə professor Əbdüləzəl Dəmirçizadənin rəhbərliyi ilə "Abdulla Şaiqin nəsr dili" mövzusunda namizədlik, 1990-cı ildə "Azərbaycan ədəbi dilinin lüğət tərkibinin inkişaf qanunauyğunluqları" mövzusunda doktorluq dissertasiyası müdafiə edir, filologiya elmləri doktoru, sonralar professor elmi dərəcəsi alır.

Nizami sonrakı illərdə Türkiyə, İran, Çin, Fransa, Almaniya, İngiltərə, Rusiya, Qazaxıstan, Ukrayna, Moldova və sair ölkələrdə xidməti ezamiyyətdə olur.

1998-ci ildə Azərbaycan Jurnalistlər Birliyinin, 1999-cu ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2001-ci ildə Lütfizadə adına Amerika Beynəlxalq Müasir Elmlər Akademiyasının həqiqi üzvü, 2001-ci ildə Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, 2002-ci ildə İngiltərənin Kembric Beynəlxalq Bioqrafiya Mərkəzinə baş direktorun müavini seçilir.

2001-ci ildə İngiltərənin Kembric Beynəlxalq Bioqrafiya Mərkəzi tərəfindən "İlin beynəlxalq ziyalısı" adına və "Qızıl medal"a layiq görülür. 2002-ci ildə adı İngiltərənin Kembric Beynəlxalq Mərkəzi tərəfindən "XXI əsrin ən görkəmli ziyalısı" kitabına daxil olunur.

Amerika Birləşmiş Ştatları Bioqrafiya İnstituna üzv seçilir və adı "XXI əsrin böyük ziyalıları" kitabına daxil edilir. Müxtəlif vaxtlarda çoxsaylı fəxri adlara və mükafatlara layiq görülür.

Nizami Xudiyev 1995-2000 və 2000-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. 2005-ci ildən III çağırış parlament seçkilərində 56 saylı Xaçmaz kənd seçki dairəsindən YAP-ın deputatlığa namizədi kimi irəli sürülmüşdür. Doğrudur, bu

məntəqədən 19 namizəd deputatlıq kreslosu uğrunda mübarizə aparırdı. Bunların arasında respublika səviyyəsində tanınan şəxsiyyətlər də var idi, təsadüfi adamlar da. Nizami müəllim bu sınaqdan da üzüağ çıxdı.

Mən Nizami Xudiyevi tanıdığımdan onun seçicilərlə görüşlərində olur, yeri düşdükcə çıxış edir, bu böyük insanın xalq üçün etdiklərini xatırladırdım. Xalq çox böyük sevinclə 56 saylı Xaçmaz kənd seçki dairəsindən Nizami Xudiyevi deputat seçdi. O gün mənim də sevincimin həddi-hüdudu yox idi.

Bir məsələni qeyd edim ki, seçki müddətində Nizami müəllim Bakı-Xaçmaz yolunun Siyəzən şəhəri yaxınlığında avtomobil qəzasına məruz qaldı. Rayonumuzun seçiciləri bu hadisəni eşidib çox məyus oldu. Xalq Bakıya - Nizami müəllimin yatdığı xəstəxanaya yollanırdı. Müəyyən vaxt keçdi, Nizami müəllim doğma seçiciləri arasında göründü, hamı sevinirdi. Ağır yol qəzasından çıxıb sağ-salamat seçicilərinin görüşünə gələn Nizami Xudiyev tezliklə rayonun bir sıra yaşayış məntəqələrinə baş çəkir, əhalinin istək və arzularını yerinə yetirməyə çalışırdı.

Nizami Xudiyev bu gün də seçiciləri arasındadır. O, vaxtaşırı seçiciləri ilə görüşür, onları qəbul edir, problemlərinin həlli üçün lazımi tədbirlər görür.

Nizami Xudiyev Milli Məclisdə dövlət quruculuğu, iqtisadi islahatlar, mədəniyyət və təhsil sahəsində qanun lahiyələrinin müzakirəsi zamanı tutarlı təklif və mülahizələri, məzmunlu çıxışları ilə seçilir, fəal mövqeyi ilə həmişə diqqəti cəlb edir. Dövlət, hökumət və parlament nümayəndə heyətlərinin tərkibində xarici ölkələrdə respublikamızı layiqincə təmsil edir.



- Tələbəlik zamanı biz - filologiya fakültəsinin tələbələri həmişə verilən tapşırıq və göstərişləri layiqincə yerinə yetirərdik ki, sessiyanı müvəffəqiyyətlə başa vuraq, kəsirimiz olmasın. Nizami isə bizdən daha qabağa gedərək nəinki dərsləri oxuyur, institutun ictimai həyatında da yaxından iştirak edir, Tələbə Elmi Cəmiyyətində aktivlik göstərir, çoxlu elmi məqalələr yazırdı. Bu məqalələr institutun "Elmi məqalələr" məcmuəsində çap olunurdu. Filologiya fakültəsində təhsil alan yaradıcı tələbələrin qayğısına qalırdı. Belə ki, o illərdə Nizami Xudiyev Rafiq Yusifoğlu, Gülhüseyn Kazımov, Eldar Sadıq, Tahir Talıblı, Müslüm Munis, Xeyrəddin Qoca, Əli Rza Xələfli, mən və başqalarının şeir və hekayələrinin institutun "Gənc müəllim" qəzetində çap olunmasına kömək göstərir, özü də qəzet səhifələrində sanballı elmi məqalələrlə çıxışlar edirdi. Yuxarıda adlarını sadaladığım şair və yazıçılar indi respublika ədəbi mühitində tanınan ziyalılardır. Yetmişinci illər ədəbiyyatında ilk qələm təcrübəsi əldə etmiş bu gənclər Nizami Xudiyevin əzmkarlığı ilə institutun digər fakültələrinin (fizika, riyaziyyat, coğrafiya...) tələbələri qarşısında öz şeirlərini, hekayələrini oxuyur, institut mühitində kiçik yazıçılar dəstəsinin yaranmasına səbəb olurdular. Nizami yeni yaranmaqda olan ədəbi mühitimizin abı-havasını zənginləşdirmək üçün bizləri institut çərçivəsindən kənar məclislərə cəlb edir, özü də həmin yığıncaq və dərnəklərdə iştirak edirdi. Belə ki, Sabir adına kitabxanada (rəhbəri Ağacavad Əlizadə), Lenin adına kitabxanada (rəhbəri Söhrab Tahir) tələbələrimiz görüşlər keçirirdi. O illərdə adlarını sadaladığım dərnəklərə Hidayət Orucov, Nüsrət Kəsəmənli, Cabir Novruz, Zəlimxan Yaqub, Ramiz Rövşən, Ağasəfa, Tahir Tahiroğlu kimi şairlər də gəlirdilər. Xəlil Rza, Tofiq Bayram, Hüseyn

Arif, Fikrət Qoca, Kələntər Kələntərov kimi şairlər də bu yığıncaqlarda iştirak edirdilər. Nizami Xudiyev o illərdə bizlərin uğuruna sevinir, "Gənc müəllim" qəzetində bu haqda maraqlı məqalələr yazırdı.

Yaxşı xatırlayıram, indi institutun müəllimi olan Z.Xəlil o vaxt "Gənc müəllim" qəzetinin redaktoru idi. Onun köməyi ilə qəzetin 1971-ci ilin mart və aprel nömrələrində mənim M.Şəhriyarın "Heydərbabaya salam" əsərinə "Cavab" poemam çap olunmuşdu. Poema filologiya elmləri doktoru Qulamhüseyn Beqdelinin rəyi ilə verilmişdi. Sevincimin həddi-hüdudu yox idi. İnstitut müəllimləri, tələbələr qəzeti sevinclə alır, məni təbrik edirdilər. Sevinənlər arasında Nizami Xudiyev də var idi. O, qəzetə mənə avtoqraf da yazdırmışdı. Mən Nizaminin ədəbiyyatımıza, xüsusən, Cənubi Azərbaycan ədəbiyyatına olan marağını nəzərə alıb onun da adını poemaya daxil etmişdim. Lakin Nizami məndən cəld çıxıb o sətirləri poemadan Z.Xəlilin əliylə sildirmişdi. Səbəbini soruşanda demişdi: "Mən hələ o mərtəbəyə çatmamışam". Mən poemadan çıxarılmış o sətirləri indi bu yazıya daxil etməyi özümə borc bilirəm:

*"Nizami hamıdan birinci idi,*
*Nizami hamının sevinci idi,*
*Nizami ləl idi, bir inci idi,*
*Axırdı köksündən çay Heydər baba,*
*Sənə vurğun idi ay Heydər baba..."*

Bəli, Nizami Xudiyev öz sözünü deyib, bu gün də deyir. Filologiya elmləri doktoru, professor, türkoloq, ilin ziyalısı, millət vəkili və s. fəxri adlar, titullar bunu sübut edir. Mən sevimli dostum Nizami Xudiyevin tələbəlik illərindən sonrakı 35 illik fəaliyyətinə rəğmən "Mənim millət vəkilim" adlı poema yazmışam. Poemanı hörmətli millət vəkilimin anadan olmasının 60 illik yubileyinə hədiyyə edir və bundan qürur duyuram:

*Tanrıdan dayağım var, Tanrı payı bəsimdir,*
*Onu özüm seçmişəm, o, varlığım, səsimdir.*
*Xalqım üstə mürgülü, ətirli bir nəsimdir,*
*Mənim millət vəkilim.*

*Qaranlığı, zülməti söküb abad kənd edər,*
*O, natiqdi... dilimi kürsülərdə qəm edər.*
*Kainatı yurdumun ayağına bənd edər,*
*Mənim millət vəkilim.*

*Mayasında halallıq...şər işlərə qarışmaz,*
*Cəsur zümrüd quşudur, qaranlıqla barışmaz.*
*Haqqdan doğan haqqdır o! Öldür, aşır, vur, aşmaz,*
*Mənim millət vəkilim.*

*Qəlbimi sındırsalar, yerində tutmaz qərar,*
*Od-ocaqdı, vətəndi onunçun fərman, qərar,*
*Dünyalara pələng tək haqq səsini hayqırar,*
*Mənim millət vəkilim.*

*Yer üzündə müqəddəs novrağımdı, növrağım,*
*Dəryalarda çırpınan mayakımdı, mayakım.*
*İnciməsin bayrağım! Bayrağımdı, bayrağım*
*Mənim millət vəkilim.*

*Vəkil mənim gözümdə Əbdülrəhman Camidi,*
*Məhəmməd Füzulidi; əzabkeş bir hamidi.*
*Türkün sözü qoy deyim, Xudiyev Nizamidi,*
*Mənim millət vəkilim.*

Bu gün xalq üçün, müasir ədəbiyyatımız, dilimiz üçün gərəkli işlər görmüş, təmizliyin, vətənpərvərliyin, zəhmətsevərliyin, elcanlılığın simvoluna çevrilmiş bir insan haqqında söz demək, ona şeir həsr etmək, onu təbliğ etmək mənim aləmimdə xalqa xidmət etmək deməkdir. El yolunda şəhid olmaq nə qədər müqəddəsdirsə, xalq yolunda fədakarlıq göstərmək bir o qədər şərəflidir.

Bizim tələbəlik illərimiz XX əsrin 70-ci illərinə təsadüf edirdi. O illərdə XX əsr Azərbaycan ədəbiyyatının ən böyük simaları olan Süleyman Rüstəm, Osman Sarıvəlli, Bəxtiyar Vahabzadə, Söhrab Tahir, Nəbi Xəzri, Xəlil Rza, Süleyman Rəhimov, Mir Cəlal, Əli Vəliyev, Məmməd Rahim, Hüseyn Arif, Tofiq Bayram, Gülhüseyn Hüseynzadə, Fikrət Sadıq, Fikrət Qoca, Məmməd Araz, Qabil, Rəsul Rza, Musa Yaqub, Mirzə İbrahimov, Nəriman Həsənzadə və onlarla başqaları yazır, yaradır, fəaliyyət göstərirdi. Tələbə Nizami adlarını sadaladığım şair və yazıçıları vaxtaşırı instituta dəvət edir, ayrılıqda onların yaradıcılıq gecələrini təşkil edir, biz cavan qələm sahiblərini də onlarla görüşdürürdü. 70-ci illərdə həmin yazıçı və şairlərin dövlət səviyyəsində təntənəli yubileyləri keçirilir, onların yaradıcılığındakı vətənpərvərlik hissləri təbliğ olunurdu. Biz - o illərin tələbələri adlarını yuxarıda qeyd etdiyim görkəmli şəxsiyyətlərlə yaxından tanış olduğumuza görə Nizami Xudiyevə minnətdarıq.

Azərbaycan dilçilik elminin inkişafına böyük töhfələr vermiş professor Nizami Xudiyev 50-dən artıq monoqrafiya, dərslik və dərs vəsaitinin, 40-dan artıq sənədli televiziya filminin ssenari müəllifidir.

Nizami Xudiyev orta məktəblərin 3,4,5,10,11-ci sinifləri üçün "Azərbaycan dili", 2-ci sinifləri üçün "Oxu",



ixtisaslaşdırılmış məktəblər üçün "Azərbaycan dili" və "Ana dili" dərsliklərini yazmışdır.

"Azərbaycan ədəbi dilinin təşəkkülü", "Tərcümə ədəbiyyatı və ədəbi dilimiz", "Azərbaycan ədəbi dili tarixi", "Azərbaycan ədəbi dilinin sovet dövrü", "Heydər Əliyev və Azərbaycan dili", "Xalq və dövlət naminə", "Yazıçı dili və üslubu", "Radio, televiziya və ədəbi dil", "Xalqın tarixi haqqı; dilimiz, varlığımız", "Zamanın axarı ilə"(2 cildlik) və digər fundamental əsərləri Nizami Xudiyevin Azərbaycan elminə samballı, əvəzolunmaz töhfəsidir. Onun bir sıra kitab və məqalələri xarici ölkələrdə (İran, Türkiyə, Rusiya, Almaniya, İraq, İsveçirə, Qazaxıstan, Özbəkistan, Türkənistan, Qırğızıstan və s.) nəşr olunmuşdur.

Mən bu yazımda Nizami Xudiyevin həyata vəsiqə almış sanballı, fundamental elmi və bədii əsərlərini ayrı-ayrılıqda təhlil etmək fikrində deyiləm. Əslində bu əsərlərin xalq üçün dəyərini, qiymətini alimlərimiz çoxdan verib. Bəli, Nizami Xudiyevin yuxusuz gecələr, gərgin mücadilələr hesabına arayıb ərsəyə gətirdiyi elmi, tarixi əsərləri, monoqrafiyaları türk xalqlarının ortaq mədəniyyətlərini əks etdirən fundamental əsərlərdir.

Təkcə onu demək kifayətdir ki, "Mənalı ömür yolu" kitabı bir ailənin - Mənaf Xudiyevin yox, bəlkə də bir xalqın mənəvi dünyasından soraq verən romandır. Romanın səhifələrində bu və ya başqa şəkildə bizlərin də obrazı özünə yer tapıb. Əsərdə yüzdən artıq insan obrazı vardır ki, bu obrazlar özünəməxsusluqları, fərdi mənəvi cizgiləri ilə bir-birindən fərqlənir. Romanın baş qəhrəmanı - ata obrazı adı hər yerdə böyük hərflərlə qeyd olunan Mənaf kişidir. Müəllif əsərinin qəhrəmanını böyük mə-

həbbət və ilhamla təsvir etmiş, onun cizgilərini məharətlə əks etdirməyə müvəffəq olmuşdur.

Rəhmətlik Mənaf kişi (Nizaminin atası) ilə bağlı yadıma bir əhvalat düşdü. Ayda bir dəfə instituta gələr, Nizaminin təhsili ilə maraqlanar, Naxçıvandan zənbil dolu azuqə gətirərdi. Nizami də atasının gəlişinə bir neçə saat qalmış bizi - dostlarını xəbərdar edərdi. Biz qoçaqlar da Nizamidən qabaq kişinin qabağına çıxar, gətirdiyi ayın-oyunu ata malı kimi bölər, şənlənərdik. Zənbildəki kişmiş, qaysı quruşu, badam hamımızın xoşuna gələr, dadı damağımızdan getməzdi. Soruşanda ki, ay Mənaf əmi, bu kişmişi, badamı haradan gətirirsən? Cavabı qısa olardı: "Əmrəli qardaşım məxsusi sizlər üçün göndərib" deyərdi və Nizamiyə qoşulub ürəkdən gülərdi.

Bir gün ürəklənib gülüşün səbəbini Nizamidən soruşdum. Nizamini yenə gülmək tutdu və dedi:

- Əmrəli əmim ömrünün çoxunu manqa başçısı işləyən və yüksək məhsuldarlığa nail olan qabaqcıllardan biri idi. Deyirlər ki, o, ulağını elə öyrədibmiş ki, qaranlıq düşəndə onu badamla yükləyər, sahibsiz yola salarmış. Ağıllı ulaq yükü boşaldıb geri qayıdarmış. Bu iş hava işıqlanana qədər davam edərmiş...

İndi də kənddə bu söz zərbi-məsəl kimi qalıb: - Əmrəlinin ulağı qədər də olmadınız.

Sizin yediyiniz badamlar Əmrəli əminin sizlərə sovqatı idi.

İlk görüşümüzdən çox illər keçməsinə baxmayaraq, Əmrəli əminin badamının dadı bu gün də damağımızdadır. Rəhmətlik Mənaf kişinin gülüşü, ağıllı öyüd-nəsihətləri xəyalımdan çıxmır. Allah sənə rəhmət eləsin, Mənaf kişi!

Mən "Mənalı ömür yolu" kitabını L.N.Tolstoyun "Hərb və sülh" romanı ilə müqayisə edərdim. Tolstoyun



əsərində təsvir edilmiş minlərlə insan obrazı necə fərdidirsə, "Mənalı ömür yolu" kitabında da yüzlərlə insan fərdi dilə malikdir.

Kitabda el mərasimlərinin təsviri olduqca real və inandırıcı verilmiş, milli mentalitetimizin çalarları özünəməxsus əlvan boyalarla əks olunmuşdur. Müəllifin dili təmiz, kövrək və ürəyəyatımlıdır. Bu əsər son dövr Azərbaycan ədəbiyyatında xatirə-memuar janrında yazılmış ən gözəl əsərlərdən biridir.

Ömrünü dilimizin, mədəniyyətimizin, mənəviyyatımızın qorunmasına, işıqlandırılmasına, inkişafına həsr etmiş professor, əməkdar elm xadimi Nizami Xudiyev bu gün hər birimizdə qürur və iftixar hissi yaradır. Onun müəllimləri Əbdüləzəl Dəmirçizadə, Afat Qurbanov, Feyzulla Qasımzadə, Əbdül Əlizadə, İsmayıl Şıxlı, Əhəd Hüseynov, Qəzənfər Kazımov, Fərhad Fərhadov, Mirzə Cavad, Alməmməd Alməmmədov, Məmməd Məmmədov, Təhmasib, Xeyrulla Məmmədov və başqaları həm də mənim müəllimlərim idi. Mən onlarla daim fəxr edir, mühazirələrini heyranlıqla dinləyirdim. Ürəklərindən, dillərindən süzülüb gələn ziya və hikmət işığı mənəviyyatıma, həyatıma əbədi həkk olunmuşdur.

Mən institutu bitirib təyinatla Xaçmaz rayonunun Alekseyevka kənd orta məktəbinə dil-ədəbiyyat müəllimi təyin olundum. İndi də həmin məktəbin müəllimiyəm. Nizami Xudiyevin yazdığı dərsliklərdən doğma ana dilimizi şagirdlərimə öyrədirəm.

1980-1990-cı illərdə xalqımızın başına açılan faciələrdən sonra mən də bir vətəndaş kimi Qarabağ faciəsini bədii əsərlərimdə yaşatdım. Yaşadığım Alekseyevka kəndində yaratdığım bədii tərtibat əsərlərinə görə oranın "Milli yaradıcılıq muzeyi" statusu elan olunmasına nail

oldum və 1992-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə yaşadığım həyət-mənzil “Milli yaradıcılıq muzeyi” elan edildi. Muzey gərgin əməyimin, zəhmətimin hesabına ərsəyə gəldi. Muzeyin dövlət statusu almasında müəllimlərimin, dostum Nizami Xudiyevin əməyini yüksək qiymətləndirirəm.

Nizami müəllim işlərimdən xəbər tutub, 1995-ci ildə məni Naxçıvana, deputat seçiləcəyi Şərur rayonuna dəvət etdi. Onun məsləhəti və köməyi ilə Şərurda və Naxçıvanda “Heydər bulaqları” inşa etdim. Sonralar respublikanın daha yeddi rayonunda belə bulaq kompozisiyalar yaratdım. Hazırda respublikanın rayonlarından on dördündə “Heydər bulağı” abidəm var ki, bu bulaqların inşasına görə Nizami Xudiyevə minnətdaram.

Heydər Əliyev fonemeni hər bir azərbaycanlı üçün müqəddəslik simvoludur. Professor Nizami Xudiyev “Fonemen”, “Tikdim ki, izim qala”, “Okean üzərində körpü”, “Heydər Əliyev və Azərbaycan dili”, ”Sənsiz”, “Əsrin müqaviləsi (II film), “Xilaskar” filmlərinin ssenarisini yazdı, xalqımızın Ulu öndərini, türk dünyasının baş sərkərdəsini, onun mənalı həyatını bütün dünyaya bəyan etdi.

Adətim üzrə yenə çayımı dəmə qoyub, gilanar ağacının altında özümə yer eləyib hələ mürgüdə olan günəşin zühurunu gözləyirdim. Zavallı bülbül yenə ağacın şah budağında oturub ürəkləri fəth edən nəğməsini oxuyurdu. Qonşu həyətlərdən xoruzların banı bülbülün nəğməsinə qoşuldu. Quşcuğaz isə öz “şikəstəsini” oxuyur, heç bir əlavə səsə əhəmiyyət vermirdi. Mən daha ayağa durmaq, onu yaxından seyr etmək xülyasında deyildim. Quşun vaxtsız uçuşundan ehtiyatlanırdım. Bülbül oxuyur, məni uşaqlıq, gənclik illərimə sürükləyirdi. Günəş isə



uzaq üfüqlərdən gülümsəyir, öz zərrin qızıl tellərini üst-başıma çiləyirdi. Sərin səhər mehi ruhumu təzələyir, bülbül isə oxuyur, oxuyur, məni məndən alırdı.

...Ocağın üstündə çay qaynamış, çaylıqdan çıxmışdı.

Yaxınlıqdakı xan çinarda sığırçın, sərçə, qaratoyuq, bildirçin, sarıköynək, şanapipik yuvalarından körpə quşcuğazların şən və şaqraq səsləri bülbülün səsinə qarışmış, ətrafı musiqi çələnginə bələmişdi.

Xan çinarın başı üzərində bir qartal yenə pərvəriş edirdi, lakin ağacdakı bütün quşlar öz nəğmələri ilə qartalı “alqışlayır”, onun xeyirxah uçuşuna sanki xeyir-dua verirdilər. Qartal qanadlarını gərir, səmanı yarır, 500 yaşlı çinarın başına pərvanə kimi fırlanırdı.

Önümdəki xan çinara baxanda Alqoçalılar şəcərəsinin bizim xan çinara bənzər obrazı birdən-birə xəyalımda canlandı. Ağac üzərində dövrə vuran qartala baxanda Nizamini xatırladım. Və istər-istəməz içimdən bir nida qopdu: - Səman təmiz, qol-qanadın güclü, gözlərin işıqlı, yolun aydın olsun, qardaşım, - dedim.

**Qərib Aşkari**

Alekseyevka kənd orta məktəbinin müəllimi, şair

dekabr, 2005-ci il

## NİZAMİ XUDİYEV VƏ XAÇMAZLILAR

5 ildən bir Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçirilir. Keçən seçkilərdən fərqli olaraq 6 noyabr 2005-ci ildə keçirilən seçki özünün bir sıra yenilikləri ilə təqdim olunmuşdur. Seçki kampaniyasına başlamazdan əvvəl bir sıra Beynəlxalq Təşkilatların tövsiyə və təklifləri Milli Məclisdə qəbul olunaraq MSK-ya təqdim edilmiş və seçki qanununa riayət olunması hamıdan, xüsusən rəhbər işçilərdən tələb olunmuşdur. Buna görə də xalq öz seçimində səhvə yol verməməli idi.

Deputatlığa namizədlər irəli sürülən müddətdə Xaçmaz rayonundan 55 və 56 saylı seçki dairələri üzrə namizədlərin sayı çox idi. 55 saylı Xaçmaz şəhər seçki dairəsindən 13 nəfər, 56 saylı Xaçmaz kənd seçki dairəsindən isə 19 nəfər namizədin qeydə alınması onu göstərirdi ki, Milli Məclisə seçkilər çox çətin mübarizə şəratində keçəcək, namizədlərin aparacağı təbliğat üsulundan, təşviqat formasından asılı olacaqdır. Yeni Azərbaycan Partiyası xətti ilə dilçi alim, Milli Məclisin üzvü, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri QSC-nin sədri Nizami Mənaf oğlu Xudiyevin 56 saylı Xaçmaz kənd seçki dairəsindən namizədliyinin irəli sürülməsi bir ziyalı, müəllim və teleşirkət rəhbəri kimi məni də çox sevindirdi. Sevinməyimə səbəb o idi ki, Nizami müəllim ilə 1966-69-cu illərdə eyni institutda - keçmiş Lenin adına APİ-də (indiki N.Tusi adına ADPU-da) təhsil almışdıq. Hər ikimiz dil-ədəbiyyat fakültəsində oxuyur, eyni yataqxanada yaşayırdıq. Mən 1965-ci ildə, Nizami müəllim isə 1966-cı ildə ali məktəbə daxil olmuşdu. Eyni müəllimlərdən elmin sirlərini öyrənirdik. O dövrdə kino,



teatr, idman, şair və yazıçılarla görüşlər tələbə marağına sığmırdı. Ədəbiyyat fakültəsində oxuyanlar demək olar ki, yataqxanada texniki fakültələrdə oxuyan tələbələrdən gec yatardılar. Bədii ədəbiyyatın çoxluğu ilə bərabər, həmin fənləri tədris edən görkəmli müəllimlərin qarşısında suallara cavab verə bilməmək mənəvi cəhətdən ağır idi.

F.Qasımzadə, Ə.Dəmirçizadə, Z.Tağızadə, İ.Şıxlı, K. Qəhrəmanov, A.Hüseynov, Ş.Haqverdiyev, Mirzəcavad və başqaları yüksək bilik verməklə yanaşı, tələbələrə kişilik məktəbini, müəllim peşəsini, bu peşəyə sevgini də öyrədirdilər.

Bu illəri xatırlamaqda məqsədim həm bir daha tələbəlik dövrünü yaşamaq, həm də məhz Nizami Xudiyevin həmin müəllimlərdən elmin sirlərini öyrənməsini, sonralar özü də müəllimləri ilə çiyin-çiyinə çalışmasını yada salmaqdır.

Bir müddət sonra Nizami müəllim doğma APİ-də müəllim, prorektor və rektor vəzifələrində çalışdı və sonra da Dövlət Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinə rəhbərlik etməklə bərabər, müəllimliyini də davam etdirdi.

Məhz bu tanışlığa görə mənim seçkilər zamanı məsuliyyətim daha da artdı.

Təbii ki, onun 56 saylı Xaçmaz kənd seçki dairəsindən namizədliyinin irəli sürülməsi istər-istəməz gələcəkdə, yəni təbliğat-təşviqat dövrü, 6 noyabr seçki günü çətinlik yarada bilərdi. Buna baxmayaraq, Nizami müəllim artıq deputatlığa namizəd kimi həmin dairədən qeydiyyata alınmışdı. Yuxarıda qeyd etdiyim kimi, namizədlik dövründə 19 nəfər müxtəlif sahədə çalışan insanlar Milli Məclisin mandatını almaq arzusu ilə öz təbliğatlarını aparacaqdılar. Unutmaq lazım deyil ki, Nizami müəl-

limdən başqa yerdə qalan 18 nəfər Xaçmaz rayonunda yaşamış, hazırda Bakı şəhərində müxtəlif təşkilatlarda çalışan elm adamları, yaxud rayon ərazisində yaşayan ziyalılar idi.

Nizami müəllimi həmin dairədə tanıyanlar təbii ki, az idi. Nizami Xudiyev kimi, Milli Məclisin üzvü kimi tanınmaq isə hələ az idi. Təbii ki, qarşıdakı seçkiqabağı kampaniya dövründə hər bir namizəd öz platforması ilə çıxış etməklə yanaşı, özünü seçicilərinə sevdirəcəkdi. Hər bir namizədin qohumlarını, yaxınlarını, həmkəndlilərini, köməkçilərini nəzərə alsaq, demək olardı ki, Nizami müəllimin bir neçə tələbə dostlarını çıxmaq şərtilə namizəd Nizami Xudiyev tək idi. (Sonralar tələbələri də onu dəstəklədilər.)

6 sentyabr 2005-ci il tarixindən təbliğat kampaniyası öz işinə başladı. Nizami Xudiyevin seçicilərlə ilk görüşü Xudat Şəhər Mədəniyyət Evində Xudat seçiciləri ilə oldu.

Təsəvvür etmək çətin deyildi. Təbliğat dövründən qabaq artıq onun haqqında namizədlərdən bəziləri mənfi rəy yaratmış, özlərini çox humanist, bacarıqlı, işgüzar, savadlı, xeyirxah insan kimi tanıtmağa başlamışdılar.

Bu görüşdən sonra Nizami müəllim tələbə dostları ilə, dərs dediyi tələbələrlə, YAP-ın rayon təşkilatının üzvləri və bir sıra ziyalılarla görüşlər keçirdi və yerlərdə onlar da Nizami müəllim ilə birgə görüşlərdə iştirak etdilər.

Mən də təbliğat-təşviqat dövründə (sentyabr-oktyabr aylarında) Nizami müəllimlə görüşlərdə birgə oldum. Tələbə dost və həmkar kimi, onu yaxından tanıyan bir ziyalı kimi seçicilər arasında təbliğatımı apardım. Açıq etiraf etmək istərdim ki, bir neçə görüşdən sonra seçicilərin Nizami Xudiyevə olan soyuq münasibətləri tamamilə dəyişdi və bütün kəndlərdə o, öz inamlı çıxışları



ilə səs verəcək insanları ətrafında birləşdirməyi bacardı. Nizami Xudiyevin kəndlərdə qocalarla, gənclərlə, müharibə veteranları ilə, xüsusilə müəllimlərlə keçirdiyi görüşlər o qədər maraqlı, o qədər inandırıcı idi ki, mən bir anlığa bu böyük alimin, dövlət xadiminin, xeyirxah insanın, tələbə dostumun sadəliyinə, təmizliyinə, qayğıkeşliyinə vurğunluqla heyran qalır, qurur hissi keçirirdim. Hər bir görüşdə insanların ona sevgisini, inamını görəndə sevincdən gözlərim yaşarır, qəlbimdə: “Yaşa, Nizami Xudiyev” - deyirdim.

Nizami müəllim 103 kənddə öz seçiciləri ilə görüşməli idi. Hər bir kənddə keçirilən görüşdən sonra onda bu yurdun insanlarına inam və sevgi hissi oyanırdı. O, insanların dövlətə və dövlətçiliyə olan inamlarının, müstəqilliyimizi, dövlətin xarici və daxili siyasətini dəstəkləmələrinin şahidi olurdu.

Nizami Mənaf oğlu Xudiyev kəndlərdə seçiciləri ilə görüşdən sonra onlarla səmimi söhbətlər edir, hər kəndin tarixi kökü ilə, adət-ənənəsi ilə, məşğuliyyətləri ilə maraqlanırdı. Kənd əhalisi Nizami müəllimə bir ziyalı kimi qayğı göstərir, onu çay süfrəsinə dəvət edirdilər. Bu səmimi dəvətləri Nizami müəllim qəbul edir, ağsaqqallarla oturub maraqlı söhbətlər edirdi. Niyazabad kəndində seçicilərlə görüşdən sonra N.Xudiyev bir ağsaqqalın dəvəti ilə Əbilyataq kəndinə qonaq çağrıldı. Kənd mənzərəsi, insanların sadəliyi, mehribanlığı onu valeh edirdi. Əbilyataq kəndində böyük bir əncir ağacının altında açılmış süfrə Nizami müəllimə xüsusi ləzzət verdi. Çay süfrəsində kəndin ağsaqqalları Niyazabad kəndinin yaranması, kənd əhalisinin Quba rayonunun Afurca və digər kəndlərindən gəlmə olduqlarını danışdıqca Nizami müəl-

lim xəyalən bir anlığa o illərə dönür, insanların nə qədər çətinliklərlə üzləşməsini duyurdu.

Uzunoba kəndində seçicilərlə görüşdən sonra kənddə toy olduğunu biləndə ora getmək istədiyini dedi və fəallarla kənd toyunda iştirak etdi. Toy şənliyindəki qonaqlar Nizami müəllimin gəlişini gözləməsələr də, bu gəlişi böyük sevinclə qarşıladılar. Həmin məclisdə Nizami müəllimlə üzbəüz əyləşib söhbət edərkən hiss etdim ki, o, xalqın içərisində olmaqdan həzz alır, kənd həyatının gözəlliklərindən doymur, bir alim, təbiət vurğunu, ictimai xadim kimi bu anları xüsusi hisslərlə yaşayır.

Tel kəndində də seçicilərlə görüşdən sonra çay süfrəsi arxasında ağsaqqallarla xeyli söhbət etdi, gənclərin və ağsaqqalların ehtiyaclarının nədən ibarət olduğunu öyrəndi, kəndin mənzərəsinə valeh olduğunu dedi.

Açıq etiraf etmək istərdim ki, Nizami müəllimi bütün görüşlərdə xaçmazlılar gül-çiçəklə qarşılayır, hörmətlə yola salırdılar. Görüşlərdə ağsaqqallarla bərabər ağbirçək anaların Nizami müəllimə olan xeyir-duaları xüsusi səslənirdi. Bu xeyir-dualar Nizami müəllimə tək təbliğat dövründə deyil, sonralar da lazım oldu. (Yol qəzasından salamat qurtarmaqda bu duaların da köməyi olmamış deyildi.) Nizami Xudiyevin görüşlərdə şəhid ailələri ilə, onların yaşayış şəraitləri ilə maraqlanması, lazımi köməklik göstərməsi müsbət hal kimi qarşılanırdı. Şəhid anaları Nizami müəllimə inanır, onun Milli Məclisdə deputat kimi fəaliyyətinə yüksək qiymət verirdilər.

Bu görüşləri xatırlamaqda məqsədim Nizami müəllimin bir dilçi kimi, alim və televiziya rəhbəri kimi əhalinin arasında olması, onların dərdlərinə şərik çıxması, lazımi qayğı və köməklik göstərməsi məqamlarını açıq-



lamaq deyil, sadəcə bu böyük insanın təbiətində olan insani keyfiyyətlərin xoş təsir bağışlamasıdır.

Bir hadisəni də xatırlamağı özümə borc bilirəm. Dekabr (2005) ayının 25-də Nizami müəllim Xudat şəhərinə gəldi və yüzlərlə seçici ilə səmimi görüşdü. Xeyli söhbətdən sonra Xaçmaz RİH başçısı hörmətli Şəmsəddin Xanbabayev bildirdi ki, həmin günlərdə təyyarə qəzasında həlak olanlardan bir nəfəri Müqtədir qəsəbəsinin sakinidir. Nizami müəllim və digər şəxslər birbaşa yas yerinə gəldilər, mərhumun valideynlərinə, yaxınlarına və kənd əhalisinə başsağlığı verdilər. Bu xüsusiyyətlər Nizami müəllimin iki ay ərzində keçirmiş olduğu görüşlərdə öz əksini tapmışdı.

Mən Nizami Xudiyevin YAP xətti ilə III çağırış Milli Məclisə deputat seçilməsinin rayonumuzun ictimai-siyasi həyatına müsbət təsir göstərəcəyinə inanırdım. Nizami müəllim seçiciləri ilə görüşlərdə ilk öncə YAP Rayon Təşkilatı üzvlərini axtarır, onların yerlərdəki fəaliyyəti və nüfuzları ilə maraqlanırdı. Sentyabr-oktyabr aylarında YAP üzvləri yekdilliklə Nizami müəllimə kömək etmək üçün əllərindən gələni edir, yerlərdə lazımi təbliğat işləri aparırdılar. İki ay ərzində YAP üzvlərinin bir neçə toplantısını keçirən Nizami müəllim bu partiyanın rayonda nüfuzunu daha da qaldırmaq, onun sıralarını layiqli ziyalılarla artırmaq məqsədilə öz təklif və məsləhətlərini də verirdi. YAP üzvləri Nizami müəllimin deputat seçilməsi ilə qürur duyur, bunun məsuliyyətini də hiss edirdilər.

Nizami Xudiyev həqiqətən şimal bölgəsi ilə yaxından tanış deyildi. Hər görüşdə təbiətin bu gözəl güşəsində yaşayan zəhmətkeş, sadə insanlarla tanış olduqca çox sevinirdi.

Nizami müəllim 1998-ci ilin oktyabrında Ümummilli liderimiz Heydər Əliyevin prezident seçkiləri zamanı Xaçmaz şəhərində şimal bölgəsi seçiciləri ilə görüşündə xaçmazlıların dövlətə, dövlətçiliyə inamını, H. Əliyev siyasi kursunu yekdilliklə dəstəkləmələrini, xalqın rəhbərə olan böyük sevgisini görmüşdü.

Təbliğat kampaniyası zamanı yadına salmasam da, Xaçmaz və xaçmazlılar haqqında yazılacaq bu maraqlı kitabda o günləri yaşamağı, bir daha xalq ilə dövlətin birliyini yada salmağı özümə borc bildim.

Bəli, xaçmazlılar son 35 ildə Heydər Əliyev siyasətini bəyənməklə bərabər, bu siyasəti sevmiş, onu müdafiə etmiş, bu gün də bu siyasətin davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşdiklərini 6 noyabr seçkilərində nümayiş etdirdilər.

Mən Nizami Xudiyevin seçkiqabağı platforması ilə tanış olandan və ayrı-ayrı kəndlərdəki çıxışlarını dinləyəndən sonra fərəh hissi keçirməklə yanaşı, böyük bir inamla onun Milli Məclisə deputat seçiləcəyinə əmin oldum. Bu əminlik məhz rayonumuzun seçicilərinin Nizami Xudiyevə olan inamı, sevgisi idi.

Deputatlağa namizədlərin Xaçmaz televiziyası ilə pulsuz çıxışları seçki qanununa uyğun olaraq təşkil edildi və 55 saylı seçki dairəsi üzrə namizədlərə 10 dəqiqə, 56 saylı seçki dairəsi üzrə nəmizədlərə isə 6 dəqiqə efir vaxtı ayrılmışdı. 56 saylı dairədə namizədlərin sayı çox olduğundan onlara 6 dəqiqə vaxt verilmişdi. Namizədlər sərbəst çıxış edir, istədikləri tənqidi fikirləri söyləyirdilər. Çıxışlarda Nizami Xudiyevin əleyhinə fikirlər səslənir, seçicilərdə ona qarşı əks fikirlər yaratmağa səy göstərirdilər. Hörmətli alim və müəllim Nizami Xudiyev isə çıxışlarını əsasən müraciətlə başlayır, platforması haqqında məlumat verir, rəqiblərinə hötmətlə yanaşırdı.



Açıq etiraf etmək istərdim ki, Nizami müəllimin rəqibləri heç bir etik normalara sığmayan təbliğat formasından istifadə etməklə seçiciləri ələ almağa çalışırdılar. Elə ona görə də bəzilərini kəndlərdən “mədəni” şəkildə qovur, ona səs verməyəcəklərini etiraf edirdilər. Namizədlərdən biri elm adamı olsa da, platformasını və təbliğat şüarlarını kiril əlifbası ilə yazdırıb kəndlərdə lazımi yerlərə vurdurmuşdu. Özlərinin məğlub olacaqlarını hiss edən bəzi «üzdəniraq» namizədlər yaşlarını, fiziki sağlamlıqlarını, imkanlarını nəzərə almır, yerli olmaları ilə öyünür, yerli-yersiz çıxışları ilə seçicilərin nifrətini qazanırdılar.

Mən Nizami müəllimin təbliğat-təşviqat dövründə apardığı işlər haqda danışmaq istəmirəm. Lakin onu demək istyirəm ki, onun razılığı ilə həmin dairənin 19 və 20 saylı seçki məntəqələrini əhatə edən Niyazabad, İlxıçı, Əbilyataq, Ağçay, Qarğalıq və Qarabağı kənd fəalları ilə görüşərkən onlara bildirmişdim ki, N.Xudiyevə olan inamım onun haqqında xoş söz deməyə imkan verir. Nizami müəllimin kişi sözü, insanlığı, qayğıkeşliyi və xeyirxahlığı məndə əminlik yaratmışdı ki, bu kəndlərdə yaşayan zəhmətkeş insanlara N.Xudiyevi haqlı olaraq tərifləyim, seçicilərini onun gələcəkdə rayonumuz üçün ləyaqətli deputat olacağına inandırım. Niyazabad, Əbilyataq və İlxıçı kəndlərində ağsaqqallarla və gənclərlə söhbətlərimdə N.Xudiyevin mərd, sadə, xeyirxah insan olduğunu faktlarla sübut edir və camaatı inandarırdım. Təbii ki, həmin kəndlərin adamları məni də uzun illər idi ki, tanıyır, ziyalı kimi hörmətimi saxlayırdılar.

Niyazabad kəndindən ağsaqqallar Novruz Məmmədov və Həsən Nuriyev, Əbilyataq kənd sakini Fazil Fazilov, İlxıçı kənd ağsaqqalı Əziz Məmmədov, Ağçay kənd ağsaqqalı Saməddin Quliyev mənimlə görüşlərindən sonra (Nizami Xudiyev onlarla bir dəfə görüşmüşdü ) əminliklə etiraf etdilər ki, onlar yekdilliklə böyük alim, gözəl, sadə, qayğıkeş və xeyirxah insan Nizami Xudiyevə səs verəcəklər. Bu 6 noyabr Milli Məclisə seçki günü bir daha özünü doğrultdu.

Seçki günü səhər saat 9-da Niyazabad kənd orta məktəbinin həyatində seçicilərin dəstə-dəstə məntəqəyə gəlib səs verdiklərini görərkən sevinirdim. Əbilyataq kəndinin seçiciləri avtobus ilə məntəqəyə gəlir, öz layiqli namizədlərinə səs verirdilər. Həmin kənddən seçicilərin yekdil iştirak etmələrində məktəb rəhbəri Ələddin Məmmədovun, digər ziyalıların və kənd ağsaqqallarının xidmətləri böyükdür. Həmin insanlar seçki məntəqəsində səs verib çıxdıqdan sonra kimə səs verdiklərini gizlətmirdilər. Çünki bir neçə namizəd həmin kəndlərdə seçicilərə "yağlı" vədlər vermiş, inandırmağa çalışmışdı ki, onlara xüsusi xidmət göstərəcək. Lakin bu sadə insanlar "yalan" vədlərə inanmadılar və yekdilliklə müəllim, alim Nizami Mənaf oğlu Xudiyevə səs verdilər. Onlar sabaha, gələcəyə, xeyirxahlığa, inama, düzlüyə, demokratiyaya səs verdilər. Səs verdilər ki, arzuları həyata keçsin. Səs verdilər ki, inamları itməsin.

Nizami müəllimin seçiciləri demək olar ki, Xaçmaz rayonunun ən saf, təmiz, gözəl guşələrində yaşayan insanlardır. Niyazabad orta əsrlərdə liman şəhəri olmuş, Cənub-şərqi Avropa ilə Ön Asiyanı birləşdirən böyük karvan yolunun üstündə yerləşmişdir.



Bu gün də Xəzərin ən təmiz suları demək olar ki, Niyazabad ərazisindədir. İnsanları əkinçilik, balıqçılıq, tərəvəzçilik və heyvandarlıqla məşğul olurlar. Nizami müəllim ilə görüşlərində, bugünkü çətinlikləri haqqında fikirlərini etiraf etsələr də, ümidlə yaşayırlar. Əkin və içməli suya böyük ehtiyacları olan dənizkənarı kəndlərin insanları Nizami müəllimə böyük inam hissi ilə yanaşdılar, əmin olduqlarını bildirdilər ki, Nizami Xudiyev Milli Məclisdə onların hüquqlarını layiqincə qoruyacaq, onların yaxın, əziz övladları kimi imkan daxilində xaçmazlılara yaxından köməklik göstərəcək.

Oktyabrın 30-da Nizami müəllim rayonumuzun Ağçay kəndində seçicilər ilə görüşdən sonra Bakıya getdi. Elə həmin görüşdən təxminən 1 saat sonra avtomobil qəzası baş verdi. Bu ağır, gözlənilməz xəbər tək Nizami Xudiyevin seçicilərini deyil, rayon rəhbərindən tutmuş əksər xaçmazlılara kimi hamını kədərləndirdi. Mənə tez-tez zəng edən seçicilər Nizami müəllim haqqında məlumat istəyirdilər. Azərbaycan Dövlət Televiziyası və Xaçmaz televiziyası bu günlərdə vaxtaşırı məlumat verirdi. 4 noyabr 2006-cı il tarixə kimi Nizami müəllimin Xaçmaz televiziyası vasitəsilə çıxışları, ürək sözləri seçicilərə çatdırıldı.

Noyabr ayının 6-dək Xudat şəhərində Nizami müəllimin qərargahına gələn insanların sayı-hesabı yox idi. Ancaq etiraf etməliyəm ki, Nizami müəllimin müalicə olunduğu dövrdə vəkili Əlövsət Sadıqov ilə bərabər oğlu Nazim Xudiyev, YAP-ın Rayon Təşkilatının üzvləri, Nizami müəllimin yaxın dostları, ağsaqqallar, qadınlar, gənclər, ziyalılar narahatlıq keçirir, qərargaha gələrək öz köməkliklərini edirdilər.

Bu günlərdə Nizami müəllimin seçiciləri onun oğlu Nazim Xudiyevə dəstək oldular, vəkil Ə. Sadıqov Xaçmaz televiziyasında çıxış edərək hörmətli Nizami müəllimin salamlarını xalqa çatdırdı və əmin etdi ki, N.Xudiyev onlara inanır, seçki günü fəallıq göstərmələrini xahiş edir.

N.Xudiyev xaçmazlıların ona olan sevgisini, sayğısını 6 noyabrda seçkilər günü gördü. Dekabrın 25-də isə o, Xaçmaza və Xudat şəhərinə seçiciləri ilə görüşə gələrkən öz sevimli seçicilərinin ona olan sevgisinin ikinci dəfə şahidi oldu. Ayağı altında kəsilən qurbanlar Nizami müəllimə xalqın məhəbbəti idi.

Dekabrın 26-da Xudat Şəhər Mədəniyyət Evinə gələn saysız-hesabsız insanlar öz deputatını görmək, onunla görüşmək arzusunda olduqlarını bildirirdilər.

Xudat Mədəniyyət Evi heç vaxt belə busat görməmişdi. Nizami müəllim seçiciləri qarşısında çıxış edib onlara öz minnətdarlığını bildirdi, daim onlarla birgə olacağını vurğuladı. Nizami müəllim çıxışından sonra bağça uşaqlarına və birinci sinif şagirdlərinə 1000 ədəd yeni il hədiyyəsi, gənc, istedadlı rəqqasə Aytən Haqverdiyevaya maqnitafon, Xudat Mədəniyyət Evinə böyük bir xalça bağışladı.

Həmin görüşdə xudatlı seçicilərlə bərabər RİH başçısı Ş.Xanbabayev də çıxış edərək Nizami müəllimi deputat seçilməsi münasibətilə təbrik etdi, ona gələcək fəaliyyətində uğurlar arzuladı. Xaçmazlılar əmin olduqlarını bildirdilər ki, Nizami Xudiyev Milli Məclisdə onları layiqincə təmsil edəcək.

Həmin görüşdə və namizədlik dövründə keçirilmiş görüşlərdə (açıq havada) on minlərlə adam Nizami Xudiyev şəxsiyyətinə hörmət olaraq isti və soyuq havada belə onu eşitmək, onu görmək arzusu ilə müxtəlif kəndlərdən, habelə Xaçmaz şəhərindən görüşə gəlir, öz arzu və istəklərini bildirirdilər. Çıxışlarda vurğulanan əsas fikirlərdən biri o idi ki, Nizami Xudiyev seçkilərdən sonra hamıya - uşaqdan tutmuş böyüyədək lazım olacaqdır.



Namizədlik dövründə keçirilmiş görüşlərdə seçicilərin şəxsi xahişlərini belə yerinə yetirən Nizami müəllim rayon əhəmiyyətli xahişləri də yuxarı təşkilatlar qarşısında qaldırır, lazımi köməkliyini əsirgəmirdi. Qımılqışlaq kəndində seçicilərlə görüşdə kənd mollası Şıxkərim kişinin Məkkəyə ziyarətə getmək istəyi, arzusu elə o an yerinə yetirildi. Şeyxülislam Allahşükür Paşazadə ilə telefon danışıqlarından sonra Şıxkərim kişi ziyarətə getdi və arzusuna çatdı.

Xudat şəhərində, Həsənqala və Ləcət kəndlərində artezian quyularının qazılması, Xudat Mədəniyyət Evinə təzə oturacaqların verilməsi, bir neçə məktəbə parta və lövhələrin gətirilməsi, əlil üçün arabanın bağışlanması və s. işlər Nizami müəllimin şəxsiyyəti, insanlara olan qayğısı nəticəsində həyata keçirildi. Xaçmaz Televiziya Verilişləri Şirkətinin yayımının artırılması isə rayon əhalisinə böyük bir töhfə oldu. Təbii ki, bu siyahını artırmaq da olar.

Nizami müəllim seçicilərlə görüşlərində onların tələblərini cavabsız qoymur, hər bir insanın xahişinin yerinə yetirilməsinə çalışırdı. Ayrı-ayrı kəndlərdə torpaq sahələrinin kənd əhalisinə verilməsi, xəstələrin müayinə və müalicəsi üçün lazım olan tibbi ləvazimatların təşkili və s. xahişlər bu gün Nizami Xudiyevin təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirilmişdir.

Xaçmaz rayon əhalisi, xüsusən 56 saylı Xaçmaz kənd seçki dairəsindən olan saçicilər ona inandılar, onu dəs-

təklədilər, onu sevdilər və yekdilliklə ona səs verdilər. Özü də yüksək faizlə.

Ümumiyyətlə, seçki prosesi onu göstərdi ki, xalqın etimadını qazanan hər bir oğul və qız bu gün Milli Məclisdə onların elçisi kimi iştirak etməyə layiqdir.

Nizami müəllimin 35 minlik seçiciləri də ona inandı, ona səs verdi. Xaçmazlılar öz millət vəkilləri ilə fəxr edirlər. Fəxr edirlər ki, onların deputatı, onların parlamentdə elçisi məhz Nizami Mənaf oğlu Xudiyevdir.

**Ələsgər Babayev**
Xaçmaz Televiziya Verilişləri Şirkətinin sədri
may, 2007-ci il



## XALQIN DÜZGÜN SEÇİMİ

Dünyanın ən qədim və mədəni xalqlarından biri olan Azərbaycan xalqı özünün çoxminillik tarixi inkişafı ərzində yaratmış olduğu zəngin maddi və mənəvi mədəniyyətinə görə dünya xalqları sırasında ən layiqli yerlərdən birini tuta bilmişdir. Dünya sivilizasiyası mərkəzlərindən biri hesab edilən Azərbaycanın ərazisində tarixin bütün mərhələlərində iqtisadi və mədəni yüksəliş müşahidə edilmiş, dövlətçilik ənənələri yaranaraq möhkəmləndirilmiş və inkişaf etdirilmişdir. Ümumdünya mədəniyyət xəzinəsinə layiqli töhfələr bəxş etmiş Azərbaycan xalqı sınaqlara və çətinliklərə dözmüş, zəngin maddi və mənəvi mədəniyyət nümunələri yaratmış, qədim dövlətçilik ənənələrini qoruyaraq, onu daim zənginləşdirərək dövlət müstəqilliyinin əldə edilməsinə, bu müstəqilliyin dönməz, daimi və əbədi olmasına nail olmuşdur.

Bir qərinədən artıq dövr ərzində ölkəmizə ləyaqətlə rəhbərlik etmiş Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə Azərbaycan xalqının təkidli tələbi ilə yenidən respublika rəhbərliyinə qayıtdıqdan sonra Azərbaycanın dövlət müstəqilliyinin əbədi və dönməz olması, ölkənin demokratik inkişafı, dünyəvi dövlət quruculuğu, bazar münasibətlərinin bərqərar olması, həyatımızın bütün sahələrində ardıcıl demokratik islahatların aparılması təmin edildi.

Bu islahatların əsasını və əsas istiqamətlərini 1995-ci il noyabr ayının 12-də ümumxalq referendumu yolu ilə qəbul edilmiş və vətəndaş cəmiyyətinin bərqərar edilməsini əsas niyyət kimi bəyan edən müstəqil ölkəmizin ilk demokratik Konstitusiyası qoymuşdur. Ölkəmizin həya-

tında 2005-ci ilin ən mühüm siyasi hadisəsi noyabr ayının 6-da keçirilmiş Milli Məclisə seçkilər olmuşdur. Azərbaycan dövlətçiliyinin mühüm hakimiyyət qollarından biri kimi Azərbaycan Respublikası Milli Məclisinə seçkilərin keçirilməsi xalqımız üçün, onun gələcək iqtisadi və siyasi inkişafının təminatı üçün, idarəetmədə demokratik prinsiplərin daha da möhkəmləndirilməsi üçün mühüm əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənabları 2005-ci il noyabr ayının 6-da keçiriləcək parlament seçkilərinə hazırlıq dövründə dünya təcrübələrinə istinad edərək, əvvəlki seçkilərə nəzərən bu seçkinin daha demokratik, ədalətli və şəffaf keçirilməsinin təmin edilməsi məqsədilə çox əhəmiyyətli sərəncamlar imzalamışdır. Azərbaycanın şimali-şərqində yerləşən Xaçmaz rayonu respublikamızın ərazisi və əhalisinin sıxlığı baxımından əhəmiyyətli bir bölgəsi hesab edilir. Tarixən qədim karvan yollarının üstündə, Böyük Qafqaz sıra dağları ilə Xəzər dənizinin arasında yerləşdiyindən xalqımızın keçmiş və müasir tarixində çox əhəmiyyətli bir ərazi hesab edilən Xaçmaz rayonunda hələ kifayət qədər öyrənilməmiş qədim yaşayış məskənləri, tarixi yerlər öz tədqiqatçısını gözləməkdədir.

Əhalisinin 153 min nəfərdən artıq olduğu nəzərə alınaraq Xaçmaz rayonunda Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq 2 seçki dairəsi - 55 saylı Xaçmaz şəhər və 56 saylı Xaçmaz kənd seçki dairələri fəaliyyət göstərir. 56 saylı Xaçmaz kənd seçki dairəsi üzrə Milli Məclisə üzv seçilmək arzusunda olan 19 nəfərin namizədliyi qeydə alınmışdı.

2005-ci ilin avqust ayında YAP Siyasi Şurası tərəfindən respublikamızın tanınmış ziyalısı, görkəmli alim və



ictimai xadim Nizami Mənaf oğlu Xudiyevin 56 saylı Xaçmaz kənd seçki dairəsindən Milli Məclis üzvlüyünə namizədliyinin irəli sürməsi bütün xaçmazlıların, eləcə də müvafiq dairə ərazisində yaşayan əhalinin ürəyincə oldu.

Nizami Xudiyev xalqımızın elə ziyalılarındandır ki, onu bütün el və obalarımızda, tədris ocaqlarında, ümumtəhsil məktəblərində çox yaxşı tanıyırlar. O, müəllim kadrlarının hazırlanmasında, məktəb şagirdləri üçün dərsliklərin yazılmasında böyük zəhmət çəkmiş elm fədaisidir. Sadə və səmimi, özünə və ətrafında olan insanlara qarşı qayğıkeş və mehriban olan Nizami müəllimi hamı sevir.

Hörmətli Nizami müəllim 56 saylı Xaçmaz kənd seçki dairəsinin əhatə etdiyi bütün yaşayış məntəqələrini gəzmiş, orada yaşayan insanları narahat edən bir sıra sosial durumu öyrənmiş, həlli mümkün ola biləcək problemlərin qısa müddətə həll edilməsi üçün konkret işlər görmüşdür.

Dədəli İƏV nümayəndəliyi Xaçmaz rayonunun ən böyük yaşayış ərazilərindən biridir. Ərazidə 6 kənd yerləşir ki,burada əhalinin ümumi sayı 3300 nəfərdən artıqdır.Rayonumuzun hər yerində olduğu kimi Dədəli nümayəndəliyi ərazisində də 2005-ci il noyabr ayının 6-da keçirilmiş Milli Məclisə seçkilərə ciddi hazırlıq işləri görülmüşdü.

56 saylı Xaçmaz kənd seçki dairəsini əhatə edən bütün yaşayış məntəqələrində olduğu kimi Dədəli İƏV-nin hər bir kəndində əhali Nizami Xudiyevi böyük sevinclə, qonaqpərvərliklə qarşılamışdı. Ərazimizin Dədəli, Botançı, Sabiroba və Nağıoba kəndlərində Milli Məclis üzvlüyünə namizəd Nizami Xudiyevlə keçirilmiş görüşlər öz məzmunu etibarı ilə ən layiqli el oğlu ilə əhalinin mehriban və səmimi görüşünə çevrildi. Ərazidə keçirilmiş bütün görüşlərdə Nizami müəllimi ağsaqqallar, ziyalılar mehribanlıqla, duz-çörəklə qarşılayırdılar. Nizami Xudi-

yev respublikamızın elə şəxsiyyətlərindəndir ki, kənd və qəsəbələrimizdə onun xüsusi təqdimatına bir o qədər də ehtiyac yoxdur. Çünki ölkəmizin hər yerində, hətta kiçik obalarda belə yaşayanlar Nizami Mənaf oğlu Xudiyevi gözəl alim, görkəmli ziyalı, fəal ictimai xadim, sadə və təvazökar şəxs, Azərbaycan dövlətçiliyinə və dövlətinə bütün varlığı ilə sədaqətlə xidmət edən bir insan kimi tanıyırlar.

7 oktyabr 2005-ci il tarixində Bostançı kənd sakini, Dədəli İƏV üzrə Ərazi Ağsaqqallar Şurasının sədri, 50 ildən artıq bir dövr ərzində təhsil sahəsində çalışmış Ağalar müəllim Nizami Xudiyevi onunla görüşmək üçün öz evinə qonaq dəvət etmişdi. Həmin görüşdə Ağalar müəllimin bütün ailə üzvləri, Bostançı kəndinin ziyalıları, ağsaqqalları, gənclərimizin ləyaqli nümayəndələri də iştirak edirdilər. Görüş səmimi və mehribanlıq şəraitində keçdi. Görüş zamanı Nizami Xudiyev Bostançı kəndi haqqında, bu kəndin keçmişi və bu günü haqqında geniş məlumata sahib olmaq istəyini də gizlətmədi. Bu kənd haqqında ona ətraflı məlumat verildi.

Bostançı kəndi Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir.Bu kənd ərazisində ilkin insan məskənlərinin salınması orta əsrlərin ilk dövrlərinə təsadüf edir. Müxtəlif dövrlərdə kənd əhalisi tərəfindən tapılmış qədim dulusçuluq alətlərinin nümunələri,mis və gümüş pul sikkələri dediklərimizi təsdiq edir.Kənd çox gözəl coğrafi məkanda yerləşmişdir.Bostançı kəndində və onun ətrafında 100-dən artıq təmiz içməli axar su bulaqları mövcuddur.

1962-ci ildə Bostançı kəndinin mərkəzində köhnə dəyirman deyilən yerin yanında XII əsr Eldəgizlər dövlətinə aid gümüş və mis pul nümunələri tapılmışdır. Tapılmış nümunələr Milli Elmlər Akademiyasının Tarix



İnstitutunda çalışan, görkəmli tarixçi alim, həmkəndlimiz Şahpələng Quliyev tərəfindən Azərbaycan tarixi muzeyinə təhvil verilmişdir.

Bostançı kəndində xalqımızın mühüm tarixi dövrlərini və hadisələrini özündə yaşadan əfsanələrdən bəhs edən tarixi yerlər çoxdur. Kəndin qərb hissəsində meşə ərazisində "Yeddi bacı" deyilən tarixin yadigarı hesab olunan daş abidələr bu gün də qalmaqdadır.

"Yeddi bacı" adlı tarixi ərazinin bir kilometrliyində meşə ərazisində "Qızlar təpəsi" adlı tarixi yer də mövcuddur. Xalqımızın tarixində, xüsusilə orta əsrlərdə insanlar torpaqdan yüksəkliklər yaradardılar. Hər bir yüksəkliyin öz məqsədi olardı. "Qızlar təpəsi"nin hündürlüyü 30 metr, yüksəkliyinin üzərində olan meydançanın sahəsi 1,00 hektardır. Bostançı kəndinin əhalisi keçmişimizlə bağlı bütün tarixi yerləri qoruyur.

Görkəmli filoloq, dilçi alim Nizami Xudiyev Bostançı kəndində görüş keçirərkən kəndlərimizin adları barədə də alim və ziyalı kimi öz münasibətini bildirdi. Bostançı kəndinin adının yaranmasına öz münasibətini bildirərkən hörmətli professor dedi ski, Bostançı kəndinin adı əsil türk xalqlarına məxsus olan yer adıdır.

2005-ci il 6 noyabrda Milli Məclisə seçkilər günü fəal iştirak edən bütün xaçmazlılar kimi, Dədəli İƏV nümayəndəliyində yaşayan seçicilər də yüksək siyasi fəallıq göstərərək görkəmli alim, sadə və mehriban insan, ictimai xadim Nizami Xudiyevə səs verməklə Azərbaycan dövlətçiliyinə, möhtərəm Prezidentimiz İlham Əliyevin daxili və xarici siyasətinə səs vermiş oldular.

**Abdulla Didarov**
Xaçmaz RİHB-nın Dədəli İƏV-də nümayəndəsi
sentyabr, 2007-ci il.

## DEPUTATLIĞA LAYİQ İNSAN

Xalqa, vətənə ləyaqətlə xidmət edən görkəmli dilçi alim, filologiya elmləri doktoru, professor, tanınmış pedaqoq, əməkdar elm xadimi, ictimai xadim, millət vəkili Nizami Xudiyevin Azərbaycan Respublikasının Milli Məclisinə deputatlığa namizədliyini yaşadığım Xaçmaz rayonundan verdiyini eşidəndə çox sevindim. Yadıma onunla keçirdiyimiz tələbəlik illəri düşdü. Mən Nizami Xudiyevi tələbəlikdən tanıyıram. İlk dəfə onunla Pedoqoji İnsitutda buraxılan "Gənc müəllim" qəzetinin redaksiyasında tanış olmuşdum. O vaxt qəzetin redaktoru şair Zahid Xəlil idi. Zahid Xəlil də bizə öz məsləhətlərini verirdi. Nizami Xudiyevin qəzetdə tez-tez məqaləsi dərc olunurdu. O, əsasən dilçilikdən, azad, ədalətli vətəndaşın yetişdirilməsindən, vətənpərvərlikdən yazırdı. O, yorulmadan oxuyur, öz üzərində işləyirdi. Biz teatra, kinoya gedərdik, onun isə vaxtı olmazdı. Bir dəfə ona dedim ki, gəl teatra gedək, dedi ki, vaxtım yoxdur, mən dərs oxumalıyam, məqsədim var. Arzum gələcəkdə alim olmaqdır, bunun üçün də çox oxumaq, mütaliə etmək lazımdır. Elə buna görə də, o, yaxşı oxuyurdu, "Nizami Gəncəvi" adına fərdi təqaüd alırdı. O, yaşıdlarından nəinki oxuması ilə, hətta geyimi, davranışı ilə seçilirdi. Mübaliğəsiz deyirəm, onu ilk dəfə görəndə institutun gənc müəllimlərindən bilmişdim, çünki Nizami Xudiyev ictimaiyyətdə müsbət hərəkətləri ilə seçilməyi sevirdi, xasiyyəti mülayim, həm də ciddi idi, yersiz zarafat etməyi sevməzdi. Nizami Xudiyev ictimai işlərdə çox fəal idi. Fakültə komsomol komitəsinin katibi vəzifəsində çalışırdı. Bizi heyrətləndirən bu idi ki, o, öz



yuxusuna haram qatıb hər şeyə nail olurdu. Hiss edirdim ki, onda fitri istedad var. Mən onun həmişə yaradıcılığını izləyirdim. O, Elmi Şuranın qərarına əsasən "Azərbaycan dilçiliyi" kafedrasında müəllim vəzifəsində saxlanıldı. Zəngin müşahidə qabiliyyətinə, həssas qəlbə, analitik təfəkkürə malik olan Nizami Xudiyev həyatda öz dəsti-xətti ilə tanınmağa başladı.

Nizami Xudiyevi xarakterizə etmək, onun keçdiyi həyat yolunu sadalamaq istəmirəm.

Azərbaycan xalqı onu dilçi alim, siyasi xadim kimi yaxşı tanıyır. Tərcümeyi-halı ilə kimi az, kimi çox tanışdır.

Görkəmli türkoloq alim Nizami Xudiyevin rayonda seçiciləri ilə ilk görüşü Xudat şəhərində mədəniyyət evində təşkil olunmuşdu. Mən də böyük həvəslə görüşə getmişdim, qabaq cərgələrin birində oturmuşdum, diqqətlə görüşün gedişinə, xüsusilə tanıdığım professor Nizami Xudiyevə, Zahid Xəlilə baxırdım. Söz Nizami müəllimin səlahiyyətli vəkili Ramiz müəllimə verildi. Ramiz müəllim təfərrüatı ilə professorun tərcümeyi-halını oxudu. Tərcumeyi-hal çox geniş idi. Mən oturanlara, görüş iştirakçılarının üzünə baxırdım. Onlar sanki indi professoru daha dərindən tanımağa başlamışdılar, bəzi görüş iştirakçıları isə çox narahat idilər. Bunlar o görüş iştirakçıları idi ki, onları bura müxalifət partiyalarından göndərmişdilər. Görüşdə çaşqınlıq yaratmaq məqsədi ilə ilk sözü müsavatın nümayəndəsi aldı. O, çıxışında alim Nizami Xudiyevin həyat və yaradıcılığından nöqsan tapa bilmədiyi üçün onu gəlmə kimi qələmə verdi. Seçiciləri müxalifət partiyasından olanlara, yerli adamlara səs verməyə çağırdı və Nizami Xudiyevin regionumuz üçün heç bir iş görməyəcəyini söy-

lədi. Tribunadan düşərək öz tərəfdarlarını ardınca salaraq, hörmətsizcəsinə zalı tərk etdi.

Mənə bu səhnə çox pis təsir etdi. Çünki müxalifətçilər Nizami müəllimin xalq və dövlətimiz qarşısındakı xidmətlərinin, qazandığı nailiyyətlərinin üzərinə qara kölgə salmaq istəyirdilər.

Mən çıxış etdim, Nizami Xudiyevin cavanlıqından indiyə qədər keçdiyi həyat yolundan danışdım. Xaçmaz kənd 56 saylı seçki dairəsindən olan seçiciləri bu böyük ziyalıya, tükənməz enerjili təşkilatçıya sonsuz inam və ehtiramla səs verməyə səslədim. Deputatlığa namizədlə Bakıdan gələn silahdaşlar - alim, yazıçı və şairlərimiz çox layiqli çıxışlar etdilər.

Görüşə gələn ağsaqqallar və ağbirçəklərimiz də Nizami müəllimi kitablarından, televiziya ekranlarından gözəl insan, xalqın qeydinə qalan şəxsiyyət kimi tanıdıqlarını dedilər, seçiciləri Nizami Xudiyevə səs verməyə, müxalifətin irəli sürdüyü heç yerdə adı-sanı olmayan, dövlətçiliyə qara yaxanlara səs verməməyə çağırdılar. Sonda söz görkəmli pedoqoq, alim Nizami Xudiyevə verildi. Zalda sükut idi, hamı diqqətlə alimi dinləyirdi. Nizami müəllim dövlət quruculuğu və siyasətdən, iqtisadi, sosial, sahələrdən elə gözəl nitq söylədi ki, zalda oturan aldanmış müxalifət tərəftarları da özlərindən asılı olmayaraq, sürəkli alqışlarla əl çaldılar.

Zaldakı seçicilər hamını dövlətçiliyimizin keşiyində öz qələmi, sözü və işi ilə duran Nizami Xudiyevə səs verməyə çağırdılar.

Yığıncaq qurtardı və biz 34 illik ayrılıqdan sonra çox səmimi görüşdük, söhbət etdik.

Qarşıda bizi böyük seçki marafonu gözləyirdi. Mən də həmin gündən onunla seçki dairəsini əhatə edən



kəndlərdə və müəssisələrdə, görüşlərdə iştirak edirdim. Xudat şəhəri, Nərəcan, Uzun-oba, Ağtala, Sabiroba, Mürşüdoba, Çiləgir, Palçıqoba, Yeni Həyat qəsəbəsi, Kənd Xudat, Çinartala və s. kəndlərdə yorulmadan görüşlər keçirilirdi. Camaat görüşlərə könüllü, həvəslə gəlməyə başlamışdı. Xaçmazlılar onlara verilən hüquqlarından məharətlə istifadə edərək açıq-aşkar çıxış edirdilər. Əhali öz namizədinə təkliflərini verirdi. Nizami müəllim isə bu təklif və iradlara ciddi yanaşır, elə görüşlər ərəfəsində təklifləri həll edirdi. Həsənqala kəndində artezian quyusu ola-ola su gəlmirdi. Özünün respublikada olan şəxsi nüfuzundan istifadə edərək həmin quyunu təmir etdirdi, kəndə su çəkildi. Xudat şəhərində yeni su quyusu vuruldu, Qoçaqlı kəndində yarımçıq qalmış məktəb binası tikildi, parta, stol, stullarla təmin olundu.

Qımılqışlaq kəndində öz arzusunu bildirən ağsaqqal pulsuz olaraq hamımızın etiqad yeri olan Həcc ziyarətinə göndərildi. Xudat Mədəniyyət Evinə yeni rahat stullar gətirildi. Görülən işləri saymaqla qurtarmaq mümkün deyil. Camaat artıq Nizami Xudiyevə elə alışmışdı ki, bəziləri könüllü şəkildə bu kənddən o kəndə onun arxasınca gedirdi. Görüşlərdə Nizami müəllimin dövlətə və dövlətçiliyə olan münasibəti hamını heyran etmişdi. Mən həyatımda seçkilərdə çox iştirak etmişəm, həm siyasi işçi kimi, həm də adi seçici kimi. Möhtərəm Heydər Əliyevin, onun layiqli davamçısı İlham Əliyevin prezident seçkiləri və 2005-ci ildə Milli Məclisə parlament seçkiləri kimi xalqın fəal iştirakını görməmişəm.

Seçkinin nəticələrini seçicilərimiz çox həyəcanla gözlədi. Nizami müəllim seçilən günü Xudat əhalisi küçələrə çıxıb bir-birini təbrik edirdilər. Onlar elm və siyasətin təcəssümü olan gözəl bir insana səs vermişdilər.

Hal-hazırda rayonumuza çox bacarıqlı, sadə, təvazökar, işgüzar, xalqını sonsuz məhəbbətlə sevən cənab Şəmsəddin Xanbabayev rəhbərlik edir. Rayonumuz onun işgüzarlığı nəticəsində gündən-günə abadlaşır. Qısa müddətdə çox işlər görülmüşdür, xalqımız ona minnətdarlığını bildirir.

Biz inanırıq ki, Şəmsəddin Xanbabayev və Nizami Xudiyev kimi xalqını sevən şəxsiyyətlərin vəhdəti nəticəsində rayonumuzun əhalisi bundan sonra daha yaxşı yaşayacaq.

**Hacıyev Hacı Abuzər oğlu**
N.Xudiyevin tələbə yoldaşı, Xudat şəhəri.
20 oktyabr 2006-cı il



## QURUB-YARADAN İNSAN

Müstəqil dövlətimiz son illərdə iqtisadi sahədə qazandığı yüksək nailiyyətlərlə yanaşı sosial sahədə də nəzərəçarpan müvəffəqiyyətlər əldə etmişdir. Azad vətəndaş cəmiyyətinin yaradılması, inkişafı qazandığımız ən böyük uğurlardan sayılır.

Ölkəmizdə həyata keçirilən vətəndaşların yerli özünüidarəsində iştirakı, taleyüklü məsələlərin həllində onların rəyinin nəzərə alınması, azad seçki sisteminin təkmilləşdirilməsində islahatların aparılması əhali tərəfindən rəğbətlə qarşılanır.

Yerli özünüidarə sistemində çalışan insan kimi səmimi deyərdim ki, ölkəmiz bütün sahələrdə inkişafına görə MDB ölkələri arasında nümunə göstəriləcək bir ölkə imici qazanmışdır.

Ölkəmizdə keçirilən seçki sisteminin təkmilləşməsi özünü son seçkilərdə, xüsusilə 6 noyabr 2005-ci il tarixində keçirilən Milli Məclisə deputat seçkilərində daha parlaq şəkildə biruzə vermişdir.

Yaxşı xatırlayıram ki, seçkinin şəsffaflığı, asad mübarizənin təşkili, namizədlərə bərabər şəraitin yaradılması hələ əvvəlcədən seçki kampaniyasının son dərəcə gərgin, maraqlı, seçicilərin fəallığı şəraitində keçəcəyindən xəbər verirdi.

Həqiqətən də yanılmamışdıq. Yaşadığımız ərazini əhatə edən 56 saylı Xaçmaz kənd seçki dairəsindən bir deputat yerinə 19 nəfər namizəd ərizə vermişdi. Bu namizədlər əhalinin müxtəlif təbəqələrini təmsil etməklə sərbəst şəkildə öz seçki kampaniyalarını aparırdılar. Sevindirici hal idi ki, namizədlər içərisində

xalqımızın layiqli insanları, ziyalıları, dünya şöhrətli alimləri təmsil olunurdular.

Xudat bələdiyyəsinin sədri kimi məsuliyyətli vəzifəni daşıdığım üçün mən də layiqlilərin ən layiqlisinin seçilməsində maraqlı idim. Çünki "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın həyata keçməsində bölgənin, o cümlədən Xudatın sosial-iqtisadi inkişafında seçiləcək millət vəkilinin böyük rolu olacaqdı.

Namizədlər içərisində Ulu öndərimiz Heydər Əliyev cənablarının yaxın silahdaşı, Yeni Azərbaycan Partiyasını yaradanlardan biri, dünya şöhrətli alim, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsində uzun illər səmərəli çalışan Nizami Mənaf oğlu Xudiyevin olması məndə böyük fərəh hissi yaratdı. N.Xudiyev əvvəlki iki çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilər zamanı Şərur-Babək rayonundan millət vəkili seçilmiş və öz vəzifəsini layiqincə yerinə yetirmişdi. Fikrimcə, Şərur-Babək rayonunun seçicilərinin etmadını doğrultmuş şəxsin Xaçmazdan deputat seçilməsi bu bölgə üçün zərurətdən doğmuşdu. N.Xudiyev kimi səviyyəli, əzmkar, bacarıqlı, təşkilatçı deputata ehtiyacımız var idi.

Seçki marafonu zamanı N.Xudiyevin titullarına, tutduğu vəzifəyə baxmayaraq, nə qədər sadə, səmimi, işgüzar, təvazökar şəxsiyyət olmasının canlı şahidi oldum. Xudat seçiciləri qarşısında görüşündə hər bir vətəndaş-seçici ilə şəxsən salamlaşır, onların arzu və istəklərini dinləyir və əmin edirdi ki, seçiləcəyi təqdirdə bütün bilik və bacarığını xalqın xidmətinə sərf edəcəkdir. Xüsusilə fərəhli hal idi ki, Yeni Azərbaycan Partiyasının namizədi kimi irəli sürülən N.Xudiyevin



Xudat şəhərindəki seçki qərargahında hər gün onlarla seçici hörmətli alimimizlə görüşür, məmnun halda oranı tərk edirdi.

N.Xudiyev böyük şəxsiyyətdir. Görkəmli dilçi alim 67-dən artıq kitabın, dərslik və dərs vəsaitlərinin müəllifidir. Körpə balalarımız üçün "Ana dili" dərslikləri yazmışdır. Bir çox yüksək mükafatlara layiq görülmüşdür.

Təbii ki, bölgəmizin seçiciləri N.Xudiyevi özlərinə doğma sayaraq, onun namizədliyini müdafiə etmək qərarına gəldilər. İnsanlarla ünsiyyət nəticəsində onların arzu və istəklərinə qayğı ilə yanaşan N.Xudiyev bütün bacarıq və imkanlarından istifadə edəcəyinə, əhalinin rifah halının yüksəlməsinə çalışacağına söz verirdi. Seçicilərin əksəriyyəti N.Xudiyevə səs verəcəklərini söyləyirdilər. Həmin günlərdə bir hadisə heç yadımdan çıxmır. N.Xudiyev seçicilərlə görüşdən Bakıya qayıdarkən yol qəzasına uğrayan günün səhərisi xeyli adam dəqiq məlumat almaq üçün qərargaha üz tutmuşdu. Yaşlı bir qadın mənə yaxınlaşaraq Nizami müəllimin səhhəti ilə maraqlanaraq, bütün gecəni Allaha dua etdiyini, müəllimin tezliklə sağalıb gəlməsini arzuladığını bildirdi.

Əhali seçki günü çox aktiv idi. Axın-axın səsverməyə gələn insanlar seçkilərin təşkilindən, şəffaflığından razı qaldıqlarını, maniəsiz istədikləri namizədə səs verdiklərini bildirdilər.

Nəticə sevindirici oldu. Əhalinin böyük rəğbətini qazanan N.Xudiyev 56 saylı Xaçmaz kənd seçki dairəsindən millət vəkili kimi şərəfli ada layiq görüldü.

Son dərəcə həssas, səmimi insan olan Nizami müəllim sağalaraq, həkimlərin etirazlarına baxmayaraq,

özünün qədirbilən seçiciləri ilə görüşə gəldi. Görüş çox səmimilik, mehribanlıq şəraitində keçdi.

N.Xudiyev verdiyi vədi yerinə yetirən insandır. Seçildiyi müddətdə xeyli işlər görməyə imkan tapmışdır.

Xudat şəhərində Mədəniyyət evinin mebellə təminatı, Mədəniyyət evinin ətrafındakı parkın abadlaşdırılması, F.Axundov küçəsinin abadlaşdırılması, şəhərdə su quyusunun vurulması, əhalinin məişət qayğılarının həllində onlara köməyin göstərilməsi, Xudat xəstəxanasının təmirinə kömək etməsi buna əyani misaldır.

Mən xüsusilə seçicilərin sağlamlığının qorunması məqsədilə həkim briqadasının Bakıdan gətirilməsini, onların xəstələri müayinə etməsini, pulsuz dərmanla təminatını, əlamətdar günlərdə əhali qarşısında respublikanın tanınmış müğənni və aktyorlarının çıxışlarının təşkilini xüsusi qeyd edərdim.

Nizami Xudiyev gündəlik fəaliyyətində, Milli Məclisdəki çıxışlarında bölgənin problemlərinin həllinə çalışır və nail olur, xüsusilə də "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurla həyata keçirilməsində fəal iştirak edir. Nizami müəllimə inanır və ona gələcək uğurlu günlər naminə xoş arzularımı çatdırıram.

**Elman Allahyarov**
Xudat bələdiyyəsinin sədri
fevral, 2008-ci il



## XALQINA, DÖVLƏTİNƏ, PREZİDENTİNƏ SADİQ İNSAN

Milli Məclisə seçkilərlə əlaqədar olaraq, mən sentyabr ayının ortalarında Xudat şəhərinin Mədəniyyət evində keçirilən, YAP-dan namizəd Nizami Xudiyevlə görüşə gəldim. Görüşə gələrkən məni bir nəfər qarşıladı və dedi: "Siz gərək Nizami Xudiyevi yox, bizim yerli namizədi müdafiə edəsiniz". Mən onlara kəskin cavab verdim. Dedim ki, YAP Xaçmaz Rayon Təşkilatının sədr müaviniyəm. Partiyamdan namizədliyi verilmiş Nizami Xudiyevi müdafiə edəcəyəm.

Görüş başladı. Nizami müəllimə söz verildi. Onun ilk çıxışı sanki zalda oturanları silkələdi, mənim arxamda əyləşən yaşlı vətəndaş yerindən qalxaraq: "Bizə yerli adam lazımdır"- deyərək qışqırdı və onu müdafiə edən əvvəldən hazırlanmış şəxslər də replikalarla yerdən qışqırmağa başladılar. Mən zala göz gəzdirdim, hələ hamı susurdu. Əlbəttə, mən öz sözümü deməliydim. Çıxış üçün söz istədim. Çıxışımda Nizami Xudiyevin Heydər Əliyev məktəbinin yetirməsi və İlham Əliyevin yaxın silahdaşı olduğunu zalda oturanlara xatırlatdım.

Mən Nizami müəllimlə iclasdan sonra görüşərkən dedim: "YAP Xaçmaz Rayon Təşkilatının sədr müaviniyəm, daim sizinləyəm, axır günə kimi də sizin yanınızda olacağam".

Hər gün saat 8-dən axşam saat 22-yə kimi Nizami Xudiyevlə bir yerdə oldum. Bu insan yorulmaz, məqsədinə nail olmaq üçün çalışan, dövlətçiliyə və Prezidentinə sadiq, YAP ideyaları uğrunda canından keçməyə hazır olan, insanları öz canından artıq istəyən, hər bir təklifə, şikayətə, haqsızlığa qarşı barışmaz, ən nəhayət,

bütün seçicilərini öz varlığı qədər sevən bir insandır. Deyərdim ki, Nizami Xudiyev seçkilərdə qələbəni şəxsən öz bacarığı və təşkilatçılığı, ziyalılığı ilə qazandı.

Seçki kampaniyası çox gərgin keçirdi. Nizami müəllim digər namizədlərin ona qarşı atdığı böhtanlarını, sakit və səbirlə təhlil edir, rəqiblərini konstruktiv olmağa çağırırdı.

Nizami Xudiyev Xudat şəhəri 6-cı şöbədə görüşə gələrkən bərk yağış yağırdı. Seçicilər onun yolunu gözləyirdilər. İclas demək olar ki, açıq havada keçirilməli idi. İnsanları isə bu yağış qorxutmurdu. 80-ə yaxın seçici, yağışın altında Nizami müəllimdən iclasın keçirilməsini xahiş etdilər. Kənarda durmuş, əlində əsa olan bir nəfər xəstə kişi, bərkdən hönkür çəkib ağlayaraq, əllərini göyə qaldırdı. Onun nə istədiyini mən başa düşmədim. Nizami müəllim qocaya yaxınlaşdı, bağrına basdı. Bu insanın niyə ağladığını soruşdu. Həyat yoldaşı dedi ki, uzun illərdir xəstəliyə görə əlillik dərəcəsi ala bilmirdi, Nizami müəllimin işə qarışması sayəsində arzusuna çatıb. Onun göz yaşları sevinc göz yaşlarıdır.

Yaxşı yadımdadır. 26 oktyabr 2005-ci il tarixində saat 19-da Nağıoba kəndində 100 nəfər seçici toplaşmışdı. İclas açıq havada keçirilirdi, iclası mən aparırdım. Birdən işıqlar söndü, qaranlıqda bir nəfər də olsun yerindən tərpənmədi. İclas düz saat 22-də qurtardı. Nizami müəllim çıxış edərək, insanları dövlətçiliyimizə, Prezidentimizə sadiqliyə, müxalifətçilərin yalançı vədlərinə inanmamağa çağırdı. Çıxış qurtararkən seçicilər: "Yaşasın İlham Əliyev! Yaşasın Nizami Xudiyev!"- deyə şüarlar səsləndirdilər. Sanki qaranlıq zülmət yenidən işıqlandı.

İzdihamın içərisindən yaşı 80-ə yaxın olan bir qoca kişi əlləri əsə-əsə əlini cibinə salıb, bir şəkil çıxartdı. Qaranlıqda biz şəkli güc ilə görürdük. Bu Nizami



Xudiyevin şəkli idi. Qoca dedi: "Nizami müəllim, mən sənin şəklini yatağımın başına vurmuşam, mənə əlavə bir şəkil də ver". Nizami müəllim öz şəkillərindən bir neçəsini ona verdi, qoca sanki sevincindən ağlayırdı. O, çıxış edərək dedi: "Ey Nağıoba, Hacıabdurrəhimova və Baraxun kəndinin sakinləri, üzümü sizə tutaraq Nizami müəllimə səs verməyə dəvət edirəm!" Həmin gecə o insanlar and içdilər və andlarına da sadiq qaldılar. Nəticədə Dədəli seçki məntəqəsində azadlıq blokundan olan Azər Həsrət, baxmayaraq ki, Dədəli kəndində anadan olmuşdur, məntəqədə səs çoxluğu qazana bilmədi.

Nizami Xudiyev qısa müddətə insanların qəlbinə yol tapdı, dövlətimizin siyasətini onlara izah edə bildi. Mən nə deyim, nə qədər desəm, yazsam yenə azdır. O, dünya şöhrətli alimdir. Onu pensiyaçılar, gənclər, şagirdlər, ziyalılar, fermerlər, bir sözlə hamı çox sevir.

Nizami müəllim hətta xəstə olarkən də telefona cavab verirdi. Onun titrək səsi indi də qulaqlarımda cingildəyir: "Ay Abbasyar, mənim adımdan bütün seçicilərimə salamımı söylə, mən həmişə sizinləyəm." Düzdür, o, seçki günü bizim yanımızda olmasa da, millət vəkili seçildi. O, bu ada layiqdir. İnsanların inamını qazandı və qələbə çaldı.

Mən kiməm ki, ona qiymət verim. Mən özümü bu dahi insanın qarşısında cılız hesab edirəm. Həm də fəxr edirəm ki, düz təbliğat kampaniyası zamanı onunla bir yerdə olmuşam. Əgər bu qələbədə cüzi də olsa əməyim olubsa, bu mənim partiyaya, Prezidentə və Nizami müəllimə olan borcumun cüzi hissəsinin qaytarılmasıdır. Nizami müəllim, sağ ol, var ol, yaşa, yarat, yorulma, mübarizədən həmişə qalib çıx!

**Abbasyar Heydərov**
YAP Xaçmaz Rayon Təşkilatının sədr müavini
dekabr, 2007-ci il

## GÖZƏL TƏBİƏTİ GÖZƏLLƏŞDİRƏN İNSANLAR

1947-ci ildə Yalama və Nərəcan hökumət meşə bağlarının, həmçinin inqilabdan sonra Yalama meşə bağları kimi birləşdirilmiş ayrı-ayrı şəxsi istifadədə olmuş sahələrin bazasında Yalama Meşə Təsərrüfatı təşkil olunmuşdur. 2001-ci ilin dekabr ayının 12-dən isə Yalama Meşə Mühafizəsi və Bərpası Müəssisəsi adlandırılmışdır.

Xaçmaz rayonunun ümumi ərazisinin 20755 hektarı Yalama Meşə Mühafizəsi və Bərpası Müəssisəsinə aiddir. Həmin ərazinin 85%-i təbii meşələrlə örtülü sahədir. 7%-i mədəni meşə əkinlərindən, 4%-i meşəsiz sahələrdən, qalan hissəsi isə xüsusi təyinatlı və istifadəsiz sahələrdən ibarətdir. Mövcud meşələrin orta yaşı 120-dir. Meşələr flora və faunanın tərkibinə görə həm zəngin, həm də vacib əhəmiyyəti olan canlı bir varlıqdır.

Xaçmaz meşələrinin başqa meşələrdən əsas fərqi onun dənizlə birgə vəhdət yaratmasıdır. Belə ki, ölkəmizin dilbər guşələrindən hesab edilən Nabran meşələri biləvasitə Xəzər dənizinə bitişik bir ərazidir. Həmin sahə kurort zonalarının sanitar mühafizə dairəsinə aid olan meşələrdir. Xaçmaz meşələrində əsasən uzunsaplaq palıd, göyrüc, ağcaqayın, vələs, şabalıdyarpaq palıd, yunan qozu, qızılağac, akasiya, qovaq, at şabalıdı, iydə, söyüd, eldar şamı, sərv, yemişan, zoğal, əzgil, fındıq, qaratikan və s. ağac və kol cinsləri mövcuddur. Bu meşələrin qorunub mühafizə olunması ilə məşğul olan Yalama Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin



kollektivi həm də yeni meşələrin salınması (hər ildə 130 ha sahədə) və müxtəlif növ (milyonlarla ədəd) ting və toxumacarların yetişdirilməsi ilə məşğuldur. 2005-ci ildə ilk dəfə şimal bölgəsində, məhz Yalama meşələrində zeytun yetişdirilməsinə nail olunmuşdur. Ləcət və Yalama kəndlərinə yaxın meşə sahələrində yeməli şabalıd cinsindən ibarət bağ salınmışdır ki, bu da bu ərazilər üçün yenilikdir.

Xaçmaz meşələrində həmçinin müxtəlif növ çöl heyvanları məskunlaşmışdır. Bunlardan ceyran, dovşan, tülkü, porsuq, çöl pişiyi, canavar, çaqqal, çöl donuzu və s. misal göstərmək olar. Xaçmaz meşələri təkcə ekoloji cəhətdən yox, həm də iqtisadi cəhətdən böyük əhəmiyyətə malikdir. Belə ki, ölkə iqtisadiyyatının əsas gəlir gətirən sahələrindən hesab olunan turizm və rekreasiya xidməti məhz zəngin təbiətə malik olan Nabran meşələri ilə Xəzər dənizinin vəhdəti nəticəsində dünya ölkələrinin diqqətini cəlb etmişdir.

Xaçmaz meşələrinin içərisindən 11 çay axaraq, Xəzər dənizinə tökülür: Qusarçay, Qudyalçay, Məzarçay, Şollarsu, Asmaçay, Muruqqubu, Dəliqubu, Xəzrədok, Aqitacir, Cılıqçay, Cuetçay.

Xaçmaz rayonu təkcə təbiəti ilə deyil, həm də zəngin keyfiyyət və xüsusiyyətlərə malik əhalisi ilə də fərqlənir. Mən Xaçmaz əhalisi ilə 2001-ci ilin yayından, yəni müəssisəyə direktor təyin olunandan sonra, əsasən isə 2005-ci ilin deputat seçkiləri ərəfəsində keçirilən müxtəlif görüşlər zamanı yaxından tanış olmuşam. Belə ki, 56 saylı Xaçmaz kənd seçki dairəsindən YAP Siyasi Şurası tərəfindən namizədliyi irəli sürülmüş görkəmli ictimai-siyasi xadim professor Nizami Xudiyevin ayrı-ayrı kəndlərdə seçiciləri ilə

görüşü zamanı, Xaçmaz əhalisinin ölkə rəhbəri İlham Əliyev cənablarına, Ulu öndərimiz Heydər Əliyev və ümumilikdə Azərbaycan dövlətinə olan böyük hörmət və diqqətinin şahidi olmuşam.

56 saylı seçki dairəsindən 19 nəfərin namizədliyi qeydə alınmışdı. Həmin namizədlər seçicilərlə görüş keçirmək üçün, əksər hallarda platformaları ilə tanış etmək üçün heç kimi tapa bilmirdilər. Ona görə ki, əhali əsasən YAP-ın namizədi olan cənab Nizami Xudiyevi dəstəkləyir, yalnız onun görüşünə can atırdılar. İnanırdılar ki, onların adından Milli Məclisdə yalnız Nizami Xudiyev kimi böyük ziyalı danışa bilər. Bununla da əhali möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının siyasətini dəstəklədiklərini və Azərbaycan dövlətinə olan sədaqətlərini bildirirdilər. Müşahidə etdiyim maraqlı hal isə bir kəndin əhalisinin başqa kənddə keçirilən seçki öncəsi görüşlərə gələrək professor Nizami Xudiyevin çıxışlarına təkrarən qulaq asmaları idi. Çünki kəndlərdə keçirdiyi görüşlər zamanı Nizami Xudiyev həm insani, həm vətənpərvərlik, həm də xalq elçisinə xas olan xüsusiyyətləri ilə digər opponentlərindən çox ciddi fərqlənərək əhalinin böyük hörmətini qazanmışdı. Bu isə öz növbəsində hörmətli professorun xalqına və dövlətinə ürəkdən bağlılığını göstərirdi. Ona görə də ayrı-ayrı şəxslər Nizami müəllimin ayağı altında qurbanlar kəsərək ona olan hörmət və ehtiramlarını əyani sübut edirdilər. Ən maraqlı və ən yaddaqalan o oldu ki, cənab Nizami Xudiyev öz əməlləri və bacarığı ilə, xalqa dayaq durması ilə özünü xaçmazlılara sevdirə bildi. Nizami müəllim həm də böyük alim kimi xeyirxah işləri, insanlara, ən əsası isə aztəminatlı ailələrə



diqqət və qayğısı ilə yaddaşlara yazıldı. Ona görə də bütün gələcək işlərində hörmətli şəxsiyyət və böyük alim, layiqli deputatımız Nizami Xudiyevə uğurlar arzulayıram.

**Budaq Çaylar oğlu Əliyev**
Yalama Meşə Mühafizəsi və Bərpası
müəssisəsinin direktoru
mart, 2006-cı il

## YEL QANADLI MƏKTUB

Əzizimiz, şəxsiyyətinə hörmət etdiyimiz, elm aləminin cəfakeş qəvvası, gənc nəslin dolğun və hərtərəfli təhsil alması yolunda aramsız yanan şam, seçicilərinin qayğısı ilə nəfəs alan həssas millət vəkili Nizami müəllim! Sizin üçüncü dəfə dalbadal millət vəkili seçilməyiniz xəbərini biz xaçmazlılar böyük sevinc hissi ilə qarşıladıq. Bunu yəqin bilin ki, biz sizinlə həmrəyik, əl-ələ verib bir yerdə fəaliyyət göstərəcəyik. Mən bütün xaçmazlılar adından sizi səmimi qəlbdən təbrik edir, sizə çox nəhəng, sərhədsiz fəaliyyətinizdə müvəffəqiyyətlər arzu edirəm.

26 sentyabr 2005-ci ildə Xaçmaz rayonunun Niyazabad kəndində seçicilərlə olan görüşünüz zamanı mən sizi yazdığım "Millət vəkili" şeiri ilə salamladım. İndi yenicə yazdığım "Nizami yurdunun oğlu Nizami" şeiri ilə sizi millət vəkili kimi təbrik edirəm.

Ey dahi Nizami Gəncəvinin ruhunu, adını, zəngin nəzəri irsini özündə əks etdirən bu günün Nizamisi! Güman edirəm ki, mənim sizə ünvanlanmış bu şeirim çox böyük mənəvi qüvvə kəsb edəcək, hətta həkimin iynə-dərmanlarından 100 dəfə təsirli olacaq.

Ümid edirəm ki, şerimi oxuyan kimi bir anda sağalıb ayağa qalxacaq, hamını sevindirəcəksiniz. Yəqin ki, tezliklə mənə də mehman olacaq, qəribə taleli şairin yoxsul komasında onunla üzbəüz əyləşib şirin-şirin bir stəkan ətirli və pürrəngi çay içəcək, söhbət əsnasında onun heç də kasıb olmayan mənəvi aləmi ilə, yazdığı bu günün reallıqlarını əks etdirən digər şeirləri ilə tanış olacaqsınız.



### Nizami yurdunun oğlu Nizami

*Dahi Nizaminin ruhu cismində,*
*Çox ulu, müqəddəs adı ismində,*
*Görünür gözümə mələk qismində*
*Nizami yurdunun oğlu Nizami.*

*Oxucu mən sayım, sənsə qulaq as,*
*İnsanın fikrini oxuyan həssas,*
*Elmin dəryasında cəfakeş qəvvas,*
*Nizami yurdunun oğlu Nizami.*

*Yazmış neçə-neçə güclü əsəri,*
*Qılıncdan itidir, vardır kəsəri,*
*Elm adlı aləmə hey düzür zəri*
*Nizami yurdunun oğlu Nizami.*

*Durmadan təcili özün yetirir,*
*Bir baxın nə boyda sevinc gətirir,*
*Nisgilli qəlblərdən qəmi itirir,*
*Nizami yurdunun oğlu Nizami.*

*Üz tutur gah kəndə, gah da şəhərə,*
*Aparır xalqını nurlu səhərə,*
*İstəyir yetişək şanlı zəfərə*
*Nizami yurdunun oğlu Nizami.*

**Davud Qurban Mərd**
Xaçmaz rayonu, Əbilyataq kənd orta
məktəbinin müəllimi.
24 noyabr 2005-ci il

## PROFESSOR - MİLLƏT VƏKILI

Hər dəfə əlimə qələm alıb bu insan haqqında oxuduqlarımı, gördüklərimi və eşitdiklərimi yazmaq istəyərkən məsuliyyət hissi, ona olan dərin məhəbbət hissi, daxilimdən gələn hansısa bir hiss məni düşünməyə, haradan və necə başlayacağımı götür-qoy etməyə məcbur edir. Saatlarla, hətta günlərlə belə vaxtın ötdüyünə özüm də mat qalmışam.

Mütəfəkkir insanlar haqqında söz demək nə qədər çətin imiş! Lakin Nizami Xudiyev haqqında kiçık də olsa yazı yazmaq, ürəyimdən keçənləri demək fikri məni rahat buraxmırdı. Çünki şimal bölgəsində doğulmuşam və burada yaşayıram. Professor Nizami Xudiyevin millət vəkili seçildiyi kəndləri, bu kəndlərdə yaşayan ziyalıları, zəhmətkeş insanları yaxşı tanıyıram. Nizami Xudiyevin öz seçiciləri üçün nə qədər böyük işlər gördüyünü, insanlara necə qayğı göstərdiyini ağız dolusu danışan adamlardan nəinki eşitmişəm, hətta gözlərimlə görmüşəm. Ona görə də bu yazını yazmağı özümə borc bildim.

Haradansa oxumuşdum ki, dünyanı “Xəmsə”si ilə düşündürən Şeyx Nizami özünə bu təxəllüsü elə-belə seçməyibmiş. Nizami sözünün ərəb əlifbası ilə yazılışındakı hərfləri əbcəd hesabı (əbcəd hesabı ərəb əlifbasındakı hərflərin rəqəmlərlə ifadəsi deməkdir; burada hər bir hərf müəyyən bir rəqəmi bildirir) ilə hesabladıqda 1001 rəqəmi alınır.

İslam dünyasında belə bir həqiqi fikir mövcuddur ki, Allahın min bir gözəl, əsas isə 99 adı var. Bununla da böyük şair bəşəriyyətə çatdırıb ki, onun təxəllüsünün



üzərində Allahın nəzəri var və heç vaxt onun böyük fikirlərinə, sözlərinə xələl gəlməz.

Bu bir təsadüfmü, yoxsa Allahın həqiqi mənada professora - millət vəkili Nizami Xudiyevə bəxş etdiyi böyük istedad, elm, Vətən, xalq sevgisi, insanlıq xüsusiyyətləri, ən ümdəsi olan sadəliklə yanaşı Allahın özünün nəzəri olan Nizami adını da qismət etməsidir. Bəlkə də Allah böyük bir nəslin kökündən pöhrələnmiş mənəvi aləmlə dolu olan bir insana - Nizami müəllimə tək şəxsiyyətə həyan olmaqla özünə yaxın olan, dünyasını dəyişmiş, insanların ruhunu, həyatda yaşayanların isə qəlbini şad etmək istəmişdir. Mən bilmirəm, onu Allah bilir.

Allahın əmri ilə bildiklərim bunlardır ki, yaşı 60-a çatmış professor Nizami Xudiyevin zehnindən, düşüncələrindən süzülüb gələn gecəli-gündüzlü, ürəyini közköz edib gözlərinin nurunu qoyan 70-ə yaxın yazdığı kitabları vardır. Zaman keçdikcə bu kitablar insanlıq dünyasına, ziyalı dünyasına öz hədiyyəsini verəcəkdir. Çünki professorun bu kitablarda qəlbini qoyduğu iki sahə var. Birincisi, türk dünyası - türkçülük, ikincisi, Heydər Əliyevin dünyası, Heydər Əliyev dühası.

Professor Nizami Xudiyevin nəhəng siyasi xadim, bəşəri insan olan Heydər Əliyev haqqında yazmağının əsas səbəbi bu böyük şəxsiyyətin dərin məntiqli, hər fikrində tarixdə qalacaq ifadələrlə, aforizimlərlə dolu olan çıxışlarını aludəliklə izləyərək, onun Azərbaycan dilinin təsir gücünü, qüdrətini göstərən natiqlik təcrübəsini bütün dünyaya yaymaq olub. Eyni zamanda Azərbaycan dilinin tarixi ilə məşğul olanlara müxtəlif dövrlərdə yaşamış görkəmli alimlərin dilin inkişafındakı xidmətlərini düzgün qiymətləndirmək üçün, onlara kömək və istiqamət arzusu olub.

Nizami Xudiyev Heydər Əliyev haqqında deyir: "...O dahi idi və bütün dövrlərdə dahi olaraq qalacaq..."

Böyük bir məktəb - Heydər Əliyev məktəbi keçmiş Nizami Xudiyev bu məktəbə sadiq olduğunu dəfələrlə sözdə deyil, əməli işində də təsdiq etmişdir. Təsadüfi deyil ki, Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasında Nizami Xudiyevin üzvlük vəsiqəsinin sıra sayı 00027- dir.

Professorun türk dünyasına, Heydər Əliyev səxsiyyətinə bağlılığı, sevgisi böyük Xudiyevlər nəslindən professora miras qalmış bir halallıqdan, saflıq deyilən mənəviyyatla dolu bir aləmdən xəbər verir. Bunu unutmaq olmaz ki, insan amilində kök-nəsil əsas yer tutur.

"...Qaygı tələbdən artıq deyilsə müsbət işdən danışmağa dəyməz..." – deyir professor. Bu aforizmin özü Nizami Xudiyevin Allaha bağlılığı deyilmi? Çünki insanları sevən Allahını sevər, Allahını sevən isə Allahın yaratdıqlarının əşrəfi olan insana həmişə qayğı göstərər. Professorun insanlara qayğıkeş münasibəti, onlarla səmimi ünsiyyətdə olması onun həyatının iş meyarıdır. Hansı tərəfdən yanaşsaq, Nizami Xudiyevi xalqımızın milli dəyərlərinə bağlı olan müasir, bəşəri bir ziyalı kimi görürük.

Professor Nizami Xudiyev haqqında Ənvər Məşədiyev belə deyir: "...Nizami Xudiyevlə ünsiyyətdə olanların böyük əksəriyyətinin fikri eynidir. Nizami müəllimlə təmasda olmaq xoşdur. Çünki o dəqiqə hiss edirsən ki, qabiliyyətli, mədəniyyətli, yeniliyə böyük maraq göstərən xeyirxah insanla söhbət edirsən..."

Tanınmış elm xadimləri, yazıçılar, alimlər Nizami Xudiyev haqqında çox dəyərli, çox maraqlı fikirlər söyləyiblər. Onların biri də Həsənbəy Zərdabi mükafatına



layiq görülmüş şairə, jurnalist Telli Pənahqızıdır: "...Mən ömrüm boyu bu qənaətdə olmuşam ki, insan alim də ola bilər, vəzifə sahibi də. Varlı da ola bilər, kasıb da. Ancaq şəxsən mən Nizami müəllimin böyüklüyünü, insani keyfiyyətlərini ailəsinə, valideynlərinə münasibəti ilə qiymətləndirirəm. Mən anamı özümdən də çox sevirəm və bu xüsusiyyəti Nizami müəllimdə də görmüşəm. O da mənim qədər, bəlkə də məndən də çox anasını sevir..." Anasını sevən insanlar Vətən, torpaq, böyük-kiçik anlayışını bütün varlıqları ilə dərk edirlər.

"...Özünüzü idarə edərkən ağlınızı, başqalarına rəhbərlik edərkən qəlbinizi işlədin " - deyən professor Nizami Xudiyev insan mənəviyyatı üçün çox dəyərli olan bu fikirləri bu gün də yaşatmaqdadır.

Professor Nizami Xudiyev 70-dən artıq monoqrafiya, kitab, dərslik və dərs vəsaiti yazmış, 40-dan artıq sənədli televiziya filminin ssenari müəllifidir.

Hələ yaşı 60-ı keçməmiş, Azərbaycan Respublikasının əməkdar elm xadimi Nizami Xudiyevin vətən, xalq qarşısındakı xidmətlərini, səmərəli fəaliyyəti nəticəsində qazandığı mükafatlarını, titullarını saymaqla qurtarmaz.

Nizami Xudiyev cəmiyyətə verdiyi töhfələrə görə bir çox xarici ölkə universitetlərinin, akademiyalarının mükafatlarına, müxtəlif illərdə "İlin adamı" fəxri adlarına layiq görülmüşdür.

Bax, budur professor Nizami Xudiyevin həyat fəaliyyətinin həqiqətləri.

*Sən Şeyx Nizaminin adaşı kimi,*
*Həyatın mənasın elmdə gördün.*
*Bal çəkən arının sirdaşı kimi,*
*Sən də öz ömrünü qələmlə hördün.*

*Həyatın ən gözəl duyğularını,*
*Tanrı sənə verdi adınla bahəm.*
*Çəkməkçün insanın qayğılarını*
*Sənə rütbə verdi əlində qələm.*

*Çox olmuş əlinə qələm alanlar,*
*Allah rizasını yad edən azdı.*
*Vətən, xalq adını uca tutanlar,*
*Nə haqqı unutdu, nə yolun azdı.*

Nizami Xudiyevin millət vəkili kimi fəaliyyətinin dövlət üçün, xalq üçün nə qədər dəyərli olduğunu onun seçiciləri ilə görüşərkən bir daha müəyyən etdim.

**Elman Allahyarov (Xudat şəhər bələdiyyəsinin sədri)**: - "Professor Nizami Xudiyev deputatlığa namizədlik dövründə camaata verdiyi vədlərin seçildikdən sonra demək olar ki, çox qismini yerinə yetirib. O, qısa müddət ərzində Xudat şəhərində çox işlər görüb. Söz verdiyi kimi ilk növbədə Xudatda içməli su problemini aradan götürmək üçün 380 metr dərinlikdə artezian quyusu vurdurub. Burada 250 tonluq anbar da tikilib. Xudat camaatı artıq bu sudan istifadə edir və Nizami müəllimin canına dua edir. Daha sonra Nizami Xudiyevin Xudatda Heydər Əliyev parkındakı abadlıq işlərinin genişləndirilməsində böyük əməyi olub. Parkdakı fəvvarəli hovuzu şəxsən öz vəsaiti hesabına tikdirib.

Nizami Xudiyev insanlarla o qədər səmimi, mehribandır ki, hamı onu öz doğması kimi qəbul edir. O, yaşlı insanlarla çayxanada oturub çay içməyi, ağbirçəklərlə şirin söhbət etməyi çox xoşlayır. Belə olduqda, insanlar da onunla problemlərini bölüşə bilirlər. Bir məqamı da deyim ki, Nizami müəllim seçki - qabağı avtomobil qəzasına uğramışdı. Xudat camaatı bunu eşidib şoka düşmüşdü. Mənim heç vaxt yadımdan çıxmaz ki, səhər saat 9:00 olardı. Mən işə gələndə idarənin qapısının ağzında yaşlı bir qadın məni saxlayıb dedi: "Ay bala, bilirəm ki, sən bələdiyyənin sədrisən. Eşitmişəm ki, Nizami müəllim qəzaya düşüb. Mən namaz qılıram. Bu gecə səhərə kimi dua edib Allaha yalvarmışam ki, ona heç nə olmasın..." Mən o qadına təsəlli verib iş otağıma gəldim. Bir müddət onun dediyi sözlərin təsiri altından çıxa bilmədim. Düşündüm və belə qənaətə gəldim ki, professor Nizami Xudiyev insanlarla görüşlərində, söhbətlərində öz sadəliyi, səmimiliyi ilə özünə doğmalıq hissi qazana bilmişdir. Bu həqiqəti mən, professor Nizami Xudiyev müalicədən sonra yenidən Xudata gəldiyi gün bir daha gördüm. Xudat camaatı onun gəlişini bayram edirdi, ayağının altında qurbanlar kəsirdilər.

Professorun Xudat camaatına daha bir qayğısı da ondan ibarətdir ki, dəfələrlə Bakı şəhərindən yüksək ixtisaslı, peşəkar həkimləri Xudat xəstəxanasına dəvət edib, insanları pulsuz müayinə etdirib. Mən özüm də 2 dəfə müalicə olunmuşam. Əlbəttə, buna görə pofessora öz təşəkkürümü bildirirəm.

Nizami Xudiyev dövlətçiliyimizə, millətimizə, öz peşəsinə sadiq bir insandır. Mən ona bundan sonra da həyatında, fəaliyyətində uğurlar, cansağlığı arzulayıram".

**Nizaməddin Şeydayev (Xudat Şəhər Xəstəxanasının baş həkimi)**: - "Millət vəkili seçdiyimiz Nizami

Xudiyev xəstəxanamız üçün çox işlər görmüşdür. Xəstəxananın terapiya və uşaq şöbəsini əsaslı təmir etdirib. Xəstəxanaya xəstələrin müayinə məqsədi ilə USM aparatı hədiyyə edib. Bakı şəhərindən yüksək ixtisaslı həkimlər və pulsuz dərman preparatları gətirilməsini təşkil edib. Nizami Xudiyevin bizim xəstəxanaya etdiyi kömək həkimlərimiz və xəstələrimiz tərəfindən rəğbətlə qarşılanır. Bütün bu köməkliyə görə biz ona həmişə minnətdarıq və arzu edirik ki, bundan sonra da bizdən öz köməyini əsirgəməsin...”

Pirquluoba kəndindəyəm. Nizami Xudiyevin köməklik göstərdiyi iki nəfər əlil xəstə ilə görüşmək üçün buraya gəlmişəm. Mənə dedilər ki, xəstələr bacı-qardaşdırlar və heç biri danışa bilmir. Ona görə də xəstələrin qardaşı Tarıverdiyev Qeybulla ilə görüşdüm. Tarıverdiyev Qeybullanın dedikləri: “Xəstə bacım Raziyənin 46, qardaşım Məhsimin 33 yaşı var. Nizami Xudiyev bu kəndə gəlib seçicilərlə görüşərkən eşitdi ki, kənddə iki əlil yaşayır. Onlar nə gəzə, nə də danışa bilmirlər. O, xəstələrin harada yaşadığını öyrənib dərhal bizə gəldi. Xəstələrlə görüşdü. Söz verdi ki, onlar üçün əlil arabaları gətirdəcək. Söz verdi və verdiyi sözə əməl də etdi, iki əlil arabası göndərdi. Bacım və qardaşım həmin arabaları istifadə edən gündən dərdləri xeyli yüngülləşib, üzləri gülür, sevinirlər. Çünki araba vasitəsilə istədikləri yerə gedə bilirlər. Allah Nizami müəllimi həmişə sevindirsin! Allah ona uzun ömür versin. Balalarını xoşbəxt etsin. Anam həmişə Nizami müəllim üçün dua edir. Nizami müəllimin adı bizim evdə tez-tez çəkilir. Bizim ailə həmişə ona minnətdardır”.



Yeni Həyat qəsəbəsinin bələdiyyə sədri, el ağsaqqalı 78 yaşlı Əhməd kişi ilə tanışlıqdan sonra ilk sualım belə oldu:

- Nizami Xudiyevi tanıyırsınız? O sizin kənddə olub?

- Necə yəni, əlbəttə ki, olub, seçicilərlə görüşüb. Onu lap yaxından tanıyıram. Nizami müəllimlə rastlaşanda ondan soruşun ki, Əhməd kişi necə adamdır?

-Yaxşı soruşaram. Bəs siz onun haqqında nə deyə bilərsiniz, Əhməd kişi?

- Kişi əsl professordur, əsl vətənpərvərdir, əsl alimdir. Mən onun xətrini çox istəyirəm.

- Deyirlər, bütün seçicilər də onun xətrini çox istəyirlər.

- Bəli. Kiçik və yaxud böyük yığıncaq olsun, fərqi yoxdur. Nizami müəllim elə çıxış edən kimi dərhal insanlar onunla səmimi və isti münasibətdə olurlar. Çox layiqli kişidir, mənimlə çox yaxındır. Mənim ona salamımı çatdırın və deyin ki, ona uzun ömür, can-sağlığı arzulayıram. Qələmi iti olsun, həmişə yazıb yaratsın.

**Kamilov Şahlar (Qoçaqlı kənd orta məktəbinin dərs hissə müdiri):** -“Nizami Xudiyev bizim kəndin camaatı üçün çox dəyərli bir iş görüb. Xan arxından biz istifadə edə bilmirdik. İnsanların təsərrüfatları su qıtlığı ilə üz-üzə qalmışdı. Çünki Xan arxı bizim ərazidən elə səviyyədə keçirdi ki, su götürmək olmurdu. Nizami müəllim mütəxəssislər dəvət etdi. Xan arxından su ötürücü borularla 700 metr məsafədən yerin altı ilə su çəkdirərək təsərrüfatların suvarılmasını təmin etdi. Qoçaqlı kənd əhalisinin 90%-i o sudan istifadə edir. Nizami müəllim seçicilərə - bizim camaata seçkilərdən qabaq verdiyi

sözü yerinə yetirdiyi üçün Qoçaqlı kənd camaatının böyük məhəbbətini qazanıb. O, bizim məktəbə kompüter və bütün məktəb üçün parta və oturacaqlar da verib. Biz ondan çox razıyıq. Allah ona uzun ömür versin və fəaliyyətində həmişə uğurlar qazansın".

**Hacıyev Cəfər Əzizulla oğlu** (**Həsənqala kənd sakini**): - "Professor Nizami Xudiyevi mən həqiqi mənada ziyalı alim, öz xalqına, dövlətinə böyük məhəbbət bəsləyən bir insan kimi tanıyıram. Nizami müəllim Milli Məclisə deputat seçilərkən kəndimizdə seçicilər ilə görüşüb problemlərimizlə maraqlandı. İçməli sudan camaatın korluq çəkdiyini, transformatorun yararsızlığından işıqların zəif olduğunu, tez-tez söndüyünü öyrəndi. Qısa müddətdə iki yeni güclü transformator qoyuldu, artezian quyusunu yenidən bərpa etdirdi. Kənd camaatı həm içməlı su ilə, həm də normal elektriklə təmin edildi. Onun bu qayğısını heç vaxt unutmarıq. Əgər o, yenidən deputatlığa namizəd olsa, biz yenə ona səs verəcəyik".

Xudat şəhərində Heydər Əliyev adına parkda istirahət edən ağsaqqallar ilə görüşürəm. Cəlilov Rəhim Mirzə oğluna müraciət edirəm:

- Bilirsinizmi ki, Nizami Xudiyev sizin millət vəkilinizdir?

- Bəli, niyə bilmirəm.

- Onun haqqında nə deyə bilərsiniz?

- O, çox yaxşı adamdır. Bax, bu parkın, bu hovuzun düzəldilməsində o, çox iş görüb. Yenə də gəlib gedir, xəbər alır. Həmişə onunla görüşürük. Vəziyyətimizi soruşur, qayğımıza qalır.



- Deyirlər, Nizami müəllim ağsaqqallarla çay süfrəsində söhbət etməyi xoşlayır. Düzdür?

- Bir neçə dəfə onunla çay içmişəm. Yanımızda həmyaşıdlarım da olub. Nizami müəllim yaxşı insandır. Onunla söhbət etmək çox xoşdur.

**Ağsaqqal Əzizov Şəmsibala Əlibala oğlu söhbətimizə müdaxilə etdi:**

"Dəmir yolunun altında Nəsimi küçəsində 10 ildir ki, içməli su yox idi. Nizami Xudiyev artezian quyusu vurdurdu. İndi su çıxarılıb. Ətraf camaat sudan istifadə edir. Çox sağ olsun. O, bu yaxınlarda söz verib ki, dəmir yolunun altında ikinci artezian quyusu vurduracaq. Allah cansağlığı versin. Söz eşidən insandır..."

**Mustafayev Sənayib (Xudat şəhər sakini)**: - "Nizami Xudiyev bizim millət vəkilimizdir. Dəfələrlə Xudatda bizimlə görüşlərdə olub. Mən də bu görüşlərin ikisində iştirak etmişəm. Nizami müəllim Xudat camaatının hörmətini qazanmış bir insandır. Xudatda xeyli iş görüb. Camaat üçün su çəkdirib, Allah onun canını sağ eləsin".

**Muradov Çingiz Şamil oğlu (Yalama kənd sakini):** -"Nizami müəllimi bizim zonanın deputatı kimi tanıyıram. O, bizim görüşümüzə gəlmişdi. Nabranda sahibkarlarla, Nabran camaatı ilə görüşdü. Nizami Xudiyev Qusar - Yalama yolunun bir qədər hissəsini təmir etdirib. Yalama parkının salınmasında onun da əməyi olub. Mən bir seçici kimi Nizami Xudiyevdən razıyam. Mən istərəm ki, o, bir də bu dairədən deputat seçilsin..."

Hörmətli oxucu, ömrünü kitaba, elmə bağlamış professor Nizami Xudiyevin həyat və yaradıcılığının əsas məqamlarını, əlbəttə ki, sizə çatdıra bilmədim. Buna mənim qələmimin gücü də yetərli olmazdı. Lakin onu sevən, onu doğma hesab edən yüzlərlə seçicilərin timsalında bu insanların Nizami müəllim haqqındakı ürək sözlərini, ona olan məhəbbətlərini bəyan edə bildimmi? Bilmirəm.

**İbrahim Qədirov - Ağçaylı**
"YENİ LİDER" qəzetinin bölgə müxbiri,
Xaçmaz rayonu "Ədəbi ulduzlar",
Quba rayonu "Ay işığı" ədəbi məclislərinin üzvü,
oktyabr, 2008-ci il



## Öz dəsti-xəttin var elmin yolunda

*(Filologiya elmləri doktoru, professor, millət vəkili, tələbə dostum Nizami Mənaf oğlu Xudiyevə)*

Xoş gündə xəlq edib səni yaradan,
Halal süd əmmisən təmiz mayadan.
Ay xalqımın dil tarixin çözləyən,
Öz dəsti-xəttin var elmin yolunda.

Elmlər doktoru, türkoloq alim,
Səni sevir, əzizləyir ellərim,
Daha yüksəyə qalx, budur diləyim,
Öz dəsti-xəttin var elmin yolunda.

Oğuz-türk dilinin tarixi qədim,
Azəri türkcəsin sən inciləddin,
Öncül alimlərə çox dəstək verdin,.
Öz dəsti-xəttin var elmin yolunda.

Xalqın elçisisən illərdən bəri,
Səni düşündürür elin dərd-səri,
Oğul el tanıdar, zərgər də zəri,
Öz dəsti-xəttin var elin yolunda.

Xalq dilindən daha yüksək ad al sən,
Adın Nizamitək butə, ad al sən,.
Ucaldıqca daha yüksək ucal sən,
Günəş kimi nur çilə el yolunda.

Xeyrullanın sənə xoş diləyi var,
Qoy dostun çox olsın, düşmənlərin xar,
Sənin köməyinə Allah olsun yar,
Yüz şimşək parlasın sənin yolunda.

**Xeyrulla Qurbanov**
müəllim

# XATIRƏLƏR

## *ÖMÜRDƏN SƏHİFƏLƏR*

Bu bənzərsiz, təkrarsız gözəlliklərin qarşısında nə vaxtsa vətənimizi gəzib-dolaşmış, onun füsünkar təbiətindən vəcdə gəlmiş bir əcnəbi səyyahın sözlərini xatırlayıram: "Allah Azərbaycanı cənnət qədər gözəl yaradıb. Ancaq bütün millətlərin ora axışıb gələcəyindən qorxaraq hər kəsə öz vətənini şirin eləyib". Sözün düzü, bilmirəm əcnəbi səyyah Azərbaycanımızın hansı cənnət guşəsini gəzəndən sonra bu fikrə gəlib?! Lakin mən deyərdim ki, Azərbaycanın hər guşəsi cənnətdir.

Tale elə gətirib ki, dünyanın çox ölkələrində olmuşam. Ayrı-ayrı məmləkətlərin havasını udmaq, suyunu içmək imkanım olub. Lakin Azərbaycanımızın gözəlliklərinin bənzəri ola bilməz. Bunlar Ulu Tanrının Azərbaycan xalqına bəxş etdiyi ən böyük nemətdir.

Azərbaycanımızın dilbər guşələrindən olan Naxçıvan mənim üçün çox müqəddəs torpaqdır. Bura ta qədimdən müqəddəs insanların yaşayış məskəni olub. Əshabi-Kəhf ziyarətgahı, türbələr, Mömünə xatun məqbərəsi, baxdıqca uzanan Şərur düzləri, bol meyvəli Ordubad bağları, yamyaşıl Şahbuz yaylaqları, bu torpağın fəxri olan Əcəmi, Cavid, Ordubadi, Mirzə Cəlil yada düşür...

Naxçıvan gözəlliklər səltənətidir, Şahbuz isə onun gözüdür. Sahbuz mənim dədə-baba yurdumdur. Bu yurda məni çox möhkəm tellər bağlayır, uşaqlığımın daş yaddaşı bu yerlərlə bağlıdır...



Şahbuz gözəlliyi, əsrarəngiz təbiəti, zəngin flora və faunası ilə hər zaman dillərdə olub. Şahbuz qəsəbəsi dağlıq ərazidə olsa da, yenə aran sayılır. Qəsəbədən yuxarı yollar dağlara, dağların daş qəlbinə doğru istiqamətlənir. Yayda yaylaqlar, sərin, təmiz dağ havası, güllü-çiçəkli çöllər, yaşıl çəmən örtüyü, dağların şəffaf göz yaşı olan bulaqlar sərinliyi ilə insanı valeh edir.

Hər dəfə işdən-gücdən imkan tapıb doğma yurda gələndə xatirələr təzələnir, ötənlər bir-bir yada düşür, kövrəlirəm. Bu duyğuları təkrar-təkrar yaşamaq elə insanı o illərin özünə qaytarır. Mənim də böyük dünyaya yolum Şahbuzdan, Badamlıdan başlayıb...

Kəndimizdə onun tarixinə, maddi və mənəvi miraslarına ehtiramla yanaşırlar. Məsələn, kəndimizdə elə bir adam tapılmaz ki, ən azı yeddi arxa dönənini tanımasın. Ayrı-ayrı kişilərin adıyla çağrılan tayfalar zəncirvari halqa kimi yaddaşlardadır. Alqocalı, İsmayıllı, Gardalı, Lahıclı, Məmmədli, Qaraboyalı tayfalarının nümayəndələri indi də nəsil şəcərəsinin şərəfini qorumaqları ilə fəxr edirlər. Yaxşı bilirlər ki, əməlləri yaxşılığından, pisliyindən asılı olmayaraq, ən azı yaddaşımızın tarixində qalır.

Kəndimizin tarixində özünəməxsus yeri olan bizim tayfa Alqocalı adlanır. Bu, iki söz birləşməsinin (Alı, qocalı) ixtisar olunmuş formasıdır. Nəslimizin adı ulu babalarımdan birinin - Alı babanın adı ilə bağlıdır. "Alı" ərəb sözü olan "Əli" adının türkləşmiş formasıdır. "Qoca" sözü isə islamdan əvvələ aiddir və ağsaqqal, müdrik, bilici, hörmətli anlamını verir. Bizim tayfa adlı-sanlı, bütün mahalda tanınmış nəsil-şəcərə olub. Atamın ulu babalarının soyadı Əliyev imiş: ulu babası Əli Əliyev, babası Xudu Əliyev, atasının əmiləri İsmayıl Əliyev,

Allahverdi Əliyev. Amma sovet dövründə hər kəs öz babasının adını familiya götürüb. Xudu Əliyevin (atamın babası) oğul-uşaqları Xudiyev, İsmayıl Əliyevin oğul-uşaqları İsmayılov, Allahverdi Əliyevin oğul-uşaqları Allahverdiyev familiyasını götürüb və bu gün də həmin soyadı daşıyırlar.

Badamlının dörd bir yanı dağlarla əhatələnib. Təbiətin füsunkarlığının, əhalisinin zəhmətsevərliyinin nəticəsidir ki, kəndimiz uzunömürlülər diyarı kimi tanınıb: 130 yaşını qeyd etmiş Kərbalayı Mustafa, 120 il ömür sürmüş Alkərim baba, 115 ili geridə qoymuş Kərbalayı Abılı, 110 il yaşamış Almәmməd baba, 95 yaşında qəfil ölümü ilə kəndi heyrətləndirən Alı baba, 90-ı aşıran Əlipənah baba, Nəbi baba, Məhərrəm baba, Sara nənə, Narınc nənə, Nürəstə nənə, Lalə nənə, Gövhər nənə və onlarla başqaları bizə necə yaşamağı öyrətməklə, həm də insan ömrünün mənasını başa saldılar.

Uşaqlığımın böyük bir hissəsi Badamlıda keçib. Qəribədir ki, o illərin hər anını yaxşı xatırlayıram, heç nə, hətta adi məqamlar da yadımdan çıxmayıb. İndi bunlar mənim üçün əlçatmaz, şirin xatirədir...

...Hər dəfə yolum Şahbuz qəsəbə orta məktəbinin yanından düşəndə qürur hissi keçirirəm. Mən burada orta təhsilimi başa vurmuşam (Atamın işi ilə əlaqədar əvvəlcə Naxçıvan şəhərindəki 1 saylı, sonra 2 saylı məktəblərdə oxumuşam). Şahbuz qəsəbə orta məktəbi nüfuzu olan təhsil ocaqlarından olub. Məbəd saydığım bu məktəb Azərbaycan xalqına böyük şəxsiyyətlər, alimlər verib, tanınmış ziyalılar yetişdirib.

Oturub o anları düşündükcə nələri xatırlamırsan?..

Atam çox qonaqpərvər idi. Evimiz həmişə qonaq-qaralı olardı. Görkəmli alimlər, yazıçılar, söz adamları,



dövlət xadimləri tez-tez bu ocağın qonağı olurdu. Cəfər Xəndanı, Süleyman Rəhimovu, Əli Vəliyevi, Mehdi Hüseyni, Əbülhəsəni, Osman Sarıvəllini, M.Tahirlini, Fərhad Fərhadovu, Cavad Bağırovu ilk dəfə ata ocağında görmüşdüm. Onda mən uşaq idim, maraqlı söhbətlər olar, mənə suallar verər, şeir söylədər, hər çıxışıma "afərin" deyərdilər. Bax, mən belə bir mühitdə böyümüş, tərbiyə olunmuşam.

Xatirələr o qədərdir ki, sonu görünmür, hər biri yaddaşımdan boylanır, sanki "məni də qələmə al" deyir. Lakin təbii ki, buna insan ömrü kifayət etməz...

...Yazılan qalır demiş aqillərimiz. Bu günün hər bir hadisəsi sabahın tarixidr. Təbii ki, yazıram ki, keçmişimiz, dünənimiz, bu günümüz, sabahımız yaddan çıxmasın, yaşasın, yüzilliklər, minlliklər boyu xatırlansın.

Taleyimdən çox razıyam. Doğru deyirlər ki, hər kəsin seçmək hüququ var və kimsə bu haqqı ona çox görə bilməz, əlindən ala bilməz. Amma üç şey var ki, insan onları seçməkdən məhrumdur: birincisi, ata-anamızı, nəsil-kökümüzü, ikincisi, vətənimizi, üçüncüsü, ömrümüzü, yaşadığımız vaxtı. Allaha min şükürlər olsun ki, özümdən asılı olmayan bu seçimlərdə mənə yardım edib. Təmiz, namuslu, ləyaqətli, halal insanların övladı kimi dünyaya gəlmişəm. Azərbaycan kimi cənnət bir məmləkətin vətəndaşıyam. Qalır üçüncüsü, o da yenə Tanrının işidir, ya qismət...

Bunu nahaq yerə xatırlamadım.

Müqəddəs, halal bir ocaqdan başlayıb mənim ömür yolum. Sadə bir ziyalı aıləsində doğulmuşam: atam müəllim olub, anam isə ailəsinə, ocağına möhkəm tellərlə bağlı olan, ailə-ər-uşaq qayğısı çəkən əsl Şərq qadını. Gözümü açanda əziz valideynlərimi görmüşəm başımın

üstə. İlk duyduğum nəfəs də, ilk eşitdiyim səs də onlarınkı olub. Anamın ruhumu oxşayan laylaları, atamın xoş, nəvazişli pıçıltıları indi də yaddaşımdadır. Və bu səslər səs yaddaşımın ən əziz, ən məhrəm səsləridir. Atamın öyüdləri qalıb yadımda, anamın əlinin istisi bu gün də mənimlədir. Onların üz cizgiləri, çöhrələrindəki riyasız məsumluq, təmizlik indi də gözümün önündədir. O ailə, o od-ocaqla bağlı heç nə unudulan deyil. Sanki hər şey dünən olub. Beş övlad böyüyüb bu isti ocaqda. Və nə yaxşı ki, onların heç biri böyük bir nəsil şəcərəsinin davamı olan bu ailənin müqəddəsliyinə dönük çıxmayıb. Bu ümumilikdə elə bütöv bir nəslin xoşbəxtliyidir...

Atam bu dünyanın dəyirmanında mahir dəyirmançı kimi öz dənini "üyütdü", öz işlərini gördü və ömrünü ləyaqətlə başa vurdu.

"Atalar və uşaqlar" adlı qəribə bir hekayət var və bu hekayətdə, sadəcə, uşaqların ataları haqqında fikirlərindən danışılır. Bilirsinizmi, uşaqlar ataları haqqında nə düşünürlər? 5 yaşında "Atam hər şeyi bilir", 10 yaşında "Atam çox şey bilir" deyən uşaq yeniyetməliyində - 15 yaşında düşünür ki, o elə özü də atası qədər bilir. 20 yaşlı gənc isə daha irəli gedir, "Əgər düzünü desəm, atam heç nə bilmir" söyləyir. "Hər halda atam nə isə bilir..." – bu isə 30 yaşlı övladın fikridir. 40 yaşında "Atamın fikrini bilsəydim, pis olmazdı" deyən övlad 50 yaşa çatanda "Atam hər şeyi bilir" nəticəsinə gəlir. Nəhayət, 60 yaşın qənaəti belə olur: "Ah... atam sağ olsaydı..." Məncə, çox qısa və ibratamiz bu hekayəti şərh etməyə ehtiyac yoxdur. Çünki bu, ömrümüzün hər zamanında atalara olan ehtiyacımızı bizə xatırlada biləcək kiçik bir dərsdir.

Bu kiçik hekayəti xatırlamaqla istədim ki, bu hər kəsə ibrət dərsi olsun, vaxtında, bəli, məhz vaxtında öz



sələflərimizin, atalarımızın, böyüklərimizin öyüdlərindən, tövsiyələrindən, məsləhətlərindən nəticə çıxara bilək...

Ulu Tanrının mənə bəxş etdiyi tale, ömür yolu nə qədər acılı-şirinli, keşməkeşli, əziyyətli olsa da, ondan zövq almışam, onunla fəxr etmişəm. Həyatım boyu müxtəlif işlərdə, vəzifələrdə çalışmışam. Hər bir insanın arzuladığı layiqli ömür yaşayıram, xoşbəxtəm və həmişə demişəm, yenə də iftixar hissi ilə bildirirəm: harada işləməyimdən və hansı vəzifədə çalışmağımdan asılı olmayaraq, həmişə dahi şəxsiyyət, sözün əsl mənasında böyük müəllim, görkəmli dövlət və ictimai xadim Heydər Əliyevin təcrübəsindən bəhrələnmişəm və özümü onun ideyalarının ardıcıl davamçısı hesab edirəm.

O xalq, millət xoşbəxtdir ki, onun Ümummilli lideri, Ulu öndəri vardır. Bəli biz xoşbəxt millətik ki, bizim Ulu öndərimiz var.

Yaxşı yadımdadır. 1996-cı ilin sentyabrı idi. Azərbaycan Dövlət Pedaqoji Universitetində rektor vəzifəsində işləyirdim. Ulu öndər məni yanına çağırdı. Xalqımızın keçmişindən, tarixi ənənələrindən, millətimizin dünya xalqları içərisində tutduğu şərəfli mövqedən, həmin dövrdə respublikamızın düşdüyü çətin ictimai-siyasi vəziyyətdən, xarici münasibətlərin gərginliyindən, nankor qonşularımızın xəyanətkar əməllərindən, ən əsası isə xalqımızın parlaq gələcəyindən xeyli söhbət açdı. Təbii ki, mən çox həyəcan ilə onu dinləyirdim. O, sanki gərginliyimi hiss edərək söhbəti elə səmimi qururdu ki, mən özümü doğma insanın qayğısı əhatəsində hiss edim. Söhbət əsnasında mənə suallar verir, bütün məsələlər barədə fikirlərimi dinləyirdi. Özümü dahi şəxsiyyətin qəbul etdiyi məsul imtahandakı kimi hiss edirdim.

Nəhayət, söhbətin əsas məqamına gəlib çıxdıq. Dedi: “Səni dövlətimizin əsas dayaqlarından biri olan Dövlət Teleradio Verilişləri Şirkətinə rəhbərlik etməyə göndərirəm. Sənə inanıram, böyük ümidlər bəsləyirəm, bilirəm ki, orada xalqa layiqli xidmət edəcəksən”. Doğrusu bu təyinat mənim üçün böyük şərəf idi. Etimadın Heydər Əliyev kimi şəxsiyyət tərəfindən göstərilməsi mənə iki qat sevinc bəxş edirdi.

Tezliklə mənə göstərilən etimadı doğrultmalı idim. Başqa cür də ola bilməzdi. Heydər Əliyevin Azərbaycanı dünya ölkələri arasında şərəfli yerə çıxarması, dövlətçiliyimizin qorunmasında və möhkəmlənməsindəki əvəzsiz xidmətləri, respublikamızda yaratdığı sağlam mühit, elmə, təhsilə, mədəniyyətə yüksək qiymət verməsi hər kəsi səfərbər etməliydi. Elə teleşirkətdə aparılan struktur dəyişikliyi, yeni, müasir texnoloji avadanlıqlar hesabına dünyanın hər guşəsinə yayımlanan və az qala hər gün təkmilləşən, yeniləşən proqramlarımız bu məqsədə, bu amala xidmət edirdi.

Mən Teleradio Verilişləri Şirkətində televiziya və radio verilişlərinin keyfiyyətinin yüksəldilməsinə, forma cəhətdən zənginləşməsinə, ekran və efir dilinin zənginləşməsinə, saflaşmasına, verilişlərdə ədəbi dil normalarının gözlənilməsinə, yüksək nitq mədəniyyəti tələblərinə əməl olunmasına xüsusi fikir verirdim. Ekran və efirdən çoxmilyonlu auditoriyaya yönəldilən “Xəbərlər”, “Səhər”, “Dialoq”, “Ailələr, talelər”, “Molla Nəsrəddin”, “Türk abidələri”, “Turan”, “Axşamınız xeyir”, “Respublika”, “Şəbəkə”, “Xudafərin” və digər verilişlərin tamaşaçı və dinləyicilərin maraqla izlədikləri proqramlara çevrilməsinə nail oldum.



Mənim üçün xüsusilə sevindirici idi ki, bir alim kimi elmi araşdırmalarımı, sənədli-publisist yazar kimi əsərlərimi, ssenarilərim əsasında çəkilmiş sənədli filmləri geniş auditoriya qarşısında nümayiş etdirməklə Azərbaycanımıza, dövlətçiliyimizə daha səmərəli xidmət etmək üçün böyük imkanlar əldə etdim.

Tale elə gətirib ki, gözümü açandan həmişə elmi-yaradıcı mühitdə olmuşam. İnsana mənəvi cəhətdən çox şey verən bu mühitə doğru açılan cığırı, atılan ilk addımları adam heç vaxt yaddaşından çıxara bilmir. Tələbə elmi cəmiyyətindəki ilk araşdırma, geniş toplantıda ilk məruzə, qəzetdə çıxan ilk məqalə, görkəmli yazıçılarla keçirilən görüşdə ilk həyəcanlı çıxış məhz insanı elm və yaradıcılıq dünyasına aparan addımlardandır.

Tarix təkcə hadisələrin müəyyən xronologiya üzrə düzülməsi deyil, həm də bu hadisələrin ruhunun, mahiyyətinin açılması, insanların həmin dövrü öz duyğu və düşüncələrindən keçirərək yaşamasıdır. Bu yaşantılar isə təkcə bədii əsərlərdə yox, həm də publisistikada özünü göstərir. Bu mənada bizim hər birimiz tarixin adi günlərini yaşayır və dövrümüzün ruhunu, həyatımızın nəbzini həm də qəzetlərdən, publisistik materiallardan duymağa çalışırıq. Axı heç bir vətəndaş, ilk növbədə isə ziyalı cəmiyyətdə yaşayıb, onun qayğılarından, problemlərindən kənarda qala bilməz. O, mütləq bu problemlərə münasibətini bildirir. Vaxtaşırı dil, ədəbiyyat, incəsənət, mədəniyyət problemləri ilə bağlı mətbuatda dərc etdirdiyim çoxsaylı məqalə və müsahibələr də mənim öz axarı ilə gedən hadisələrə münasibətimdir. Uzun müddət çalışdığım təhsil ocaqlarında görkəmli yazıçılar və alimlərlə ünsiyyətdə olmuş, onların bəziləri haqqında xatirə-məqalələr çap etdirmişəm. Bundan başqa, Azərbaycanın

bir sira görkəmli elm adamları, Rusiyanın, İranın, Türkiyənin mədəniyyət xadimləri ilə görüşlərim, bir sıra qəzet, jurnal əməkdaşları ilə, alimlərlə müsahibələrim də olub. Bütün bunlar əksəriyyət etibarilə mətbuatda öz izini saxlayır. Çünki həqiqətən, bizim dövrümüzdə problemləri publisistik materialların vasitəsilə aşkarlamaq və xalqın ictimai şüuruna bu yolla nüfuz etməkdən təsirli vasitə yoxdur.

Azərbaycanımızın tarixində, mədəniyyətində, istiqlalçı təfəkkürün, azərbaycançılıq ideologiyasının yayılmasında böyük xidmətləri olmuş tarixi şəxsiyyətlərimizin həyat və yaradıcılığını əks etdirən əsərlərimdə, məqalə və müsahibələrimdə Ulu öndərimiz Heydər Əliyev fenomeninə, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Mahmud Kaşğari, Abulla Şaiq, Əbdüləzəl Dəmirçizadə, Şıxəli Qurbanov, Məmməd Araz, İsmayıl Şıxlı, Cavad Heyət kimi bir çox şəxsiyyətlərimizin həyat yoluna, əbədiyaşar ideyalarına dəfələrlə müraciət etdim, sevə-sevə onları geniş dinləyici, oxucu kütləsinə çatdırdım.

Müstəqillik tariximizin siyasi mübarizələrlə dolu çox gərgin və şərəfli bir dövründə dövlətimizin dayaqlarından biri olan Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinə rəhbərlik etdiyim on il həyatımın ən unudulmaz xatirələrilə zəngindir. Çox xoşbəxtəm ki, Ulu öndərin mənə göstərdiyi etimadı doğrulda bildim.

Fəaliyyətimin hər anında üzərimdə Ulu Tanrının nəzərini, Ulu öndərin qayğıkeş münasibətini, atamın valideyn nəzarətini hiss etmişəm.

Atam həmişə fəxr edirdi ki, Naxçıvan Pedaqoji Texnikumunda Ümummilli lider Heydər Əliyevlə oxumuşdu. O, Heydər Əliyevin hələ tələbəlik illərindən fövqəladə istedad və biliyə malik olduğunu söyləyirdi. Onun mərdliyindən, haqq, ədalət tərəfdarı olmasından ağızdolusu danışırdı. Sonralar isə tələbə yoldaşının böyük siyasi xadim olması, xalqımıza ləyaqətlə xidmət etməsi ilə öyünürdü.



Yaxşı yadımdadır. Atam Ümummilli liderimiz Heydər Əliyevin və atamın da müəllimi olmuş Lətif Hüseynzadəyə həmişə böyük diqqət və ehtiramla yanaşardı. Bakıya gələn kimi deyərdi: “Nizami, Lətif müəllim buradadır, bir gedək ona baş çəkək.” Gedərdik. Lətif müəllim bizi görən kimi sevincindən, fərəhindən bilməzdi ki neyləsin... O, tələbələri ilə həmişə fəxr edərdi.

2002-ci ildə Lətif müəllim “Naxçıvan teatr tarixindən” adlı kitabını mənə göndərmişdi. Onun yazdığı avtoqraf məni çox təsirləndirdi: “Xalqımızın milli-mənəvi dəyərlərinin tədqiq və təbliğində təqdirəlayiq xidmətləri olan, dil, yazı mədəniyyəti tariximizin, xüsusilə Orxon kitabələrinin gözəl tədqiqatçısı dilşünas alim və mənim sevimli tələbəm, əziz dostum, pedaqoji fikir tariximizdə tədqiqəlayiq bir şəxsiyyət olan Mənaf Xudiyevin əziz oğlu, hörmətli professor Nizami Xudiyevə xoş arzularımla”.

*Hörmətlə:*
Lətif Hüseynzadə.
12.VIII.2002.”

Əlbəttə, bu kiçik avtoqrafda müdrik bir müəllimin, dünyagörmüş bir ziyalının, el ağsaqqalının təkcə öz tələbəsinə, tələbəsinin övladına yox, bütövlükdə elmimizə, mədəniyyətimizə böyük diqqəti əks olunub...

Çox xoşbəxtəm ki, mənim ssenarim əsasında bu böyük Azərbaycan müəllimi - Lətif Hüseynzadə haqqında “Əsrin şahidi” adlı sənədli film də çəkildi. İndi yeni nəsil həm də

bu film vasitəsilə əsl müəllim və ziyalı ömrünün səhifələri ilə tanış ola bilir.

Bəli, o insan xoşbəxtdir ki, özündən sonra həyatda iz qoyur, xalqının gözəl, rahat yaşaması naminə çalışır, əlindən gələni əsirgəmir. Həyat və yaşamaq həvəsini də qurub yaratdıqlarından alır. Burada mən həyatımı, xüsusilə uşaqlığımı xatırladım.

Xəyal məni o illərə aparır.

...Atamla üzbəüz oturmuşuq. Atam bu dəfə sözü yaxşılıqdan, xeyirxahlıqdan salmışdı: "Bir gün mələklər Yerin, Göyün sahibi Tanrıdan soruşurlar: "Ey böyük Allah, sənin yaratdıqlarının içində sıldırım qayalardan möhkəm bir şey varmı?" Allah buyurur: "Dəmir qayalardan möhkəmdir, çünki onu qırır." Mələklər deyir: "Pərvərdigara, sənin yaratdıqlarından dəmirdən qüvvətlisi varmı?" Vahid Allah buyurur: "Bəli, od dəmirdən güclüdür, çünki onu əridir." Mələklər deyirlər: "Ey böyük Allah, yaratdıqlarının arasında oddan da güclüsü varmı?" Allah buyurur: "Bəli, var. Su oda qalib gəlir, çünki onu söndürür." Mələklər soruşurlar: "Sənin xilqətində sudan da qüvvətlisi varmı?" Qadiri-mütləq buyurur: "Bəli, yel suya qalib gəlir, onu coşdurur, hərəkət etməyə məcbur edir." Mələklər deyirlər: "Ey mehriban, bağışlayan Allah, sənin yaratdıqlarında yeldən də güclüsü varmı?" Xudavənd buyurur: "Bəli, sədəqə verən Adəm övladı, yəni o adamdır ki, sağ əli ilə bağışladığını sol əlindən gizlədir. Bax, bunlar hamıya qalib gələn ən güclülərdir". Bunu deyib sözünə ara verdi və birdən qayıtdı ki:

- Oğul, yaxşılığı özünə peşə elə, hər şey gəldi-gedərdi, amma yaxşılıq itmir, yaddan çıxmır. Bil ki, verdiyin sənindir, aldığın yox, yaxşılıq silinməz, pislik də unudulmaz. Kimə yaxşılıq etdinsə, həmin an unut, kim



sənə zərrə qədər yaxşılıq edibsə, bütün ömrün boyu xatırla...

Yaxşı yadımdadır. Ali məktəbi bitirdikdən sonra əsgərliyə getdim. Atam məni Biləcəridən yola salarkən dedi:

- Oğul, özün bilirsən ki, həmişə sənin əsgər getməyinin tərəfdarı olmuşam. Əsgərlik kişilik məktəbidir, bu məktəbi keçənlər daha güclü olurlar, mərd olurlar.

Mən əsgərlikdə olanda atamdan tez-tez məktub alırdım. Az keçməmiş özü də dalımca xidmət etdiyim hərbi hissəyə, əvvəl Tbilisiyə, sonra isə Xankəndinə gəldi. O gün əsgərliyimin ən bəxtəvər günüydü. Atam icazə aldı, birlikdə qədim Şuşaya getdik. 1750-ci ildə Qarabağ xanı Pənahəli Cavanşirin köhnə yurd yerində tikdirdiyi əzəmətli qalanı atamla birgə gəzib dolaşdıq. Təbiət baxımından burada hər şey ideal idi: təmiz hava, yamyaşıl meşə, buz bulaqlar, əla iqlim, cənnəti xatırladan gözəllik...

- Qarabağ ulu mədəniyyətimizin qədim mərkəzlərindəndir. Şuşa bütöv bir tarix kitabıdır, oğul, onu tez-tez vərəqləmək lazımdı. Şuşa Azərbaycan tarixinin qan yaddaşıdır.

O, xeyli susdu, sonra dərindən ah çəkib Şuşadan, o ucalıqdan üzünü Xankəndinə tutdu, ağır-ağır dilləndi:

- Oğul, mən həmişə bu ermənilərin qədim yurd yerlərimizdə at oynatmağını, meydan sulamağını, özlərinə vilayət düzəltməklərini dünyanın ən əyri işlərindən biri hesab etmişəm.

Bu əsgərlik həyatımın bir xatirəsi idi. Qeyri-ixtiyari düşünürəm: nə yaxşı ki, atam Qarabağın, Şuşanın erməni əsirliyini görmədi. Şuşanın bugünki sitəmli günlərini görmədi. Ermənistanın Vətənimizə elan olunmamış müharibəsinin dəhşətlərindən xəbərsiz oldu.

Bu gün Şuşa, Xocalı, Laçın, Ağdam, Cəbrayıl, Füzuli, Xocavənd, Kəlbəcər, Qubadlı, Zəngilan, Ağdərə, Xankəndi kimi cənnət guşələr düşmən caynağındadır, bir milyondan çox insan öz yurdundan-yuvasından didərgin düşüb. "Didərgin düşüb" demək çox sadə səslənir. Amma bu, o deməkdir ki, bir milyon insan ev-eşiyini, var-dövlətini, illər uzunu dişi-dırnağıyla özü üçün yaratdığı rahatlığı itirmişdir. Bu qanlı müharibədə 20 mindən çox şəhid vermişik, 50 mindən çox adam əlil olub, 20 mindən çox adam yaralanıb, 4 mindən çox adam girov götürülüb, əsir və itkin düşüb. Yüz minlərlə yaşayış binası, sosial və mədəni obyektlər, məktəb, məktəbəqədər müəssisələr, xəstəxana və poliklinikalar, kitabxanalar, muzeylər, teatrlar, abidələr... yerlə yeksan edilib. Minlərlə qoca, uşaq ağır köçürülmə şəraitinə, iqlim dəyişikliklərinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək dünyasını dəyişib. Bu sadaladıqlarım məruz qaldığımız dəhşətlərin çox cüzi bir hissəsidir, amma müharibənin hər birimizin həyatına vurduğu ağır zərbədir...

Belə düşünürəm və isti otaqdaca canımdan bir üşütmə keçir, qəlbim göynəyir. Əsgərlikdə olanda atamla birgə gəzmişdim o yerləri. İndi gör nə haldadır. Deyirlər ki, ermənilər xan qızı Gövhər ağanın ucaltdığı Allah evini - məscidi muzeyə çevirmək istəyirlər. Amma bu, belə qalmaz və qalmayacaq da. Ermənilər törətdiklərinin cavabını mütləq alacaqlar. Tezliklə haqq qılınc kimi sıyrılacaq. Bağlı qapıların tilsimi açılacaq...

Tarixi boyu Azərbaycan xalqı çox çətinliklərdən, imtahanlardan keçib. Əminəm ki, taleyin bizə bəxş etdiyi bu sınaqlardan da alnıaçıq çıxacağıq. Təbii ki, hər birimizdən öz iş fəaliyyətimizdə fədakarcasına çalışmaq,



vətənimizin, xalqımızın gələcəyi naminə mübarizə aparmaq tələb olunur.

Tanrı qisməti olan mübarizəli həyatımda taleyimdən razıyam. Belə ki, 1995-ci ildən hal-hazıradək millət vəkili kimi fəaliyyətimi məsuliyyətlə davam etdirirəm. Azərbaycan Respublikası Milli Məclisinə iki çağırış Naxçıvanın Şərur və Babək rayonlarından, üçüncü çağırış isə Xaçmaz rayonundan deputat seçilmişəm. Mübaliğəsiz deyərdim ki, bu, hər insana nəsib olmur.

Millət vəkili – xalq elçisi adı bütün rütbələrdən, vəzifələrdən, təltiflərdən yüksəkdə dayanan bir addır. Bu şərəfli adı tarix boyu millət sevgisi ilə yaşayan, ömrünün mənasını vətənə xidmətdə görən, dəyərli və mənalı əməlləri ilə xalqına başucalığı gətirən, onun danışan dili, yazan əli olan kamil şəxsiyyətlər, fədakar insanlar qazanıblar.

Deputatlıq statusu çox yüksəkdir. O, yalnız seçicilərini deyil, həm də bütün Azərbaycanı təmsil edir. Mən bu yüksək adı, qədirbilən seçicilərimin mənə göstərdikləri etimadı daim qoruyur, ona layiq olmağa çalışıram. Deputatlıq fəaliyyəti çoxsahəlidir. Deputat öz vəzifələrini icra edərkən vətəndaşların hüquqlarını və azadlıqlarını, Azərbaycan Respublikasının mənafelərini qorumalı, Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını rəhbər tutmalı, Azərbaycan Respublikası Milli Məclisinin iclaslarında və üzvü olduğu Milli Məclis komitələrinin iclaslarında iştirak etməklə qanunvericilik fəaliyyətində rəy və təkliflərlə çıxış etməli, seçicilərinin hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin təmin edilməsi məqsədilə ona verilmiş səlahiyyətlər çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanları, məhkəmə hakimiyyəti orqanları, prokurorluq orqanları, yerli özünüidarə or-

qanları qarşısında məsələlər qaldırmalıdır. Uzunmüddətli deputatlıq fəaliyyətim zamanı üzərimə düşən bu qədər çətin, lakin son dərəcə şərəfli vəzifənin öhdəsindən gəlməyə çalışmışam. Milli Məclisin iclaslarında etdiyim çoxsaylı çıxışların aktuallığını və oxucular üçün maraqlı olmasını nəzərə alaraq bildirirəm ki, onların bir hissəsi "Zamanın axarı ilə" kitabımın 2-ci cildində öz əksini tapmışdır.

Hal-hazirda Milli Məclisin Elm və təhsil komitəsinin üzvüyəm. "Təhsil haqqında qanun"un hazırlanmasında, müzakirələrində, komitənin səlahiyyətinə aid olan məsələlərin həllində iştirak edirəm.

Üzvü olduğum Milli Məclis yanında Toponimiya Komitəsinin iclaslarında şəhər və kəndlərimizin, qəsəbələrimizin adlarının dəyişdirilməsi, kənd, qəsəbə və şəhərlərə yeni adların verilməsi, adların dəyişdirilməsində tarixi haqsızlıqların aradan qaldırılması işində də yaxından iştirak edirəm.

Milli Məclisdə Azərbaycan-Amerika Birləşmiş Ştatları, Azərbaycan-Belarus, Azərbaycan-Böyük Britaniya, Azərbaycan-Hindistan, Azərbaycan-Pakistan, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvü kimi ölkəmizin həmin dövlətlər ilə münasibətlərinin inkişafına, müxtəlif sahələr üzrə əlaqələrin möhkəmlənməsi, genişlənməsi işində yaxından iştirak edirəm. Tez-tez xarici səfərlərdə oluram.

Səmimi deyirəm ki, bu işlərin əhatəsində darıxmağa vaxtım qalmır.

Mənim işlədiyim vəzifələr miqyasına görə Azərbaycanımızın bütün bölgələrini əhatə edib, onlarla sıx bağlı olub. Azərbaycan Dövlət Pedaqoji Universitetində



müxtəlif vəzifələr tutarkən daim ayrı-ayrı rayonlardan, şəhərlərdən olan tələbələrlə, valideynlərlə rastlaşırdım.

Hələ tələbə ikən səsli-küylü, darısqal tələbə yataqxanasında qalarkən dərslərimə səylə hazırlaşır, dostlarımla müxtəlif maraqlı tədbirlər həyata keçirirdik. Təhsil aldığım filologiya fakültəsinin əhəmiyyətli görüş, disput, müzakirələrində çıxış edir, öz sözümü deyirdim.

1970-ci ildə filologiya fakültəsini "Nizami Gəncəvi" təqaüdü ilə oxuyub, fərqlənmə diplomu ilə bitirərək mənə inanan görkəmli alimlərin tövsiyəsi və Elmi Şuranın qərarı ilə "Azərbaycan dilçiliyi" kafedrasında müəllim saxlanıldım. Professor Ə. Dəmirçizadə kimi sanballı dilçi alimlə eyni kafedrada çiyin-çiyinə işləməyim gələcək taleyimdə həledici rol oynadı. 1978-ci ildə namizədlik, 1990-cı ildə doktorluq dissertasiyalarını müvəffəqiyyətlə müdafiə etdim, professor elmi adı aldım. Elmi işimlə bərabər ali tədris ocağının ictimai-siyasi həyatında da yaxından iştirak edirdim. Bütün bu işlərin həyata keçirilməsində dostlarım, yaxınlarım çox fəallıq göstərirdi. İndi həmin anları xatırladıqca o günlərə bir daha qayıtmaq, yaşamaq istərdim.

Xoş duyğularla xatırlayıram ki, 1979-1991-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri, 1991-1994-cü illərdə birinci prorektor, 1994-1996-cı illərdə rektor vəzifələrində çalışmışam. Ölkəmizin qocaman ali məktəbinə rəhbərlik etmək nə qədər çətin olsa da, bir o qədər də şərəfli idi. Elm və təhsilimizdə misilsiz xidmətləri olan, qocaman müəllimlərimlə, universitetin çalışqan pedaqoji kolektivilə, ürəkləri qurub-yaratmaqla yanan tələbə gənclərlə birlikdə qısa müddətdə həm abadlıq, quruculuq,

həm də təhsilin keyfiyyətinin artırılması istiqamətində xeyli uğurlu işlər gördük.

Dostlarıma, iş yoldaşlarıma, mənimlə çiyin-çiyinə çalışan bütün insanlara minnətdarlıq edir, onlarla işləməyimdən qürur duyduğumu bildirirəm.

Ulu öndərimiz Heydər Əliyevin fərmanı (sərəncamı) ilə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinə sədr göndərildikdən sonra artıq bütün fəaliyyətim vahid Azərbaycanımızla bağlı olub. Bu məsul vəzifənin böyüklüyü onda idi ki, fəaliyyətimizi nəinki Azərbaycan, dünya miqyasında qururduq. Təbii ki, tutduğum vəzifənin qədrini bilir, ona layiq olmağa çalışırdım. Gündəlik fəaliyyətimdə, insanlarla münasibətdə mənə daim dayaq olmuş, məsləhət və nəsihətləri məni bəhrələndirmiş atamın bir kəlməsini heç vaxt unutmamışam. Deyirdi ki, "xalqın dəyərini bilsən, o səni ucaldacaq. Xalqın ucaltdığını isə fələk də yıxa bilməz. İnsanın ən gözəl xüsusiyyətlərini üzə çıxarmaq üçün ona sadəcə, inanmaq və güvənmək kifayətdir. Ümid olan yerdə insan güclü olur".

Elə bu ümid də məni yaxşı işlər görməyə doğru aparırdı.

Bəli, Ulu Tanrının bəxşişi, Ulu öndərimiz Heydər Əliyevin təcrübəsi, atamın nümunəsi həyatımın əsas istiqamətvericisi olub. Çox şükür edirəm ki, mən də vətənimə, xalqıma, ailəmə layiq övlad olmuşam.

Nəsrəddin Tusinin fikirləri də mənim həyat və fəaliyyətimdə uca tutduğum əsas xüsusiyyətlərdən olub: "İnsanı dörd şey hörmətli edər - doğruçuluq, ədəblilik, elmlilik və xoşxasiyyətlilik".



Taleyin hökmü ilə mənim üçüncü dəfə millət vəkili seçilməyim Azərbaycanımızın "Şimal qapısı"nda yerləşən Xaçmaza təsadüf etdi.

Xaçmaz və xaçmazlılar haqqında təəssüratlarım çox idi. İş və tələbə yoldaşlarımdan, qohumlarımdan, tələbələrimdən Xaçmazda yaşayanları, qohumluq əlaqələri olanları çox idi. Onlarla əlaqələrim sayəsində bu bölgə haqqında təəssüratlarım kifayət qədər idi.

Mən mavi dənizi, sıx meşəsi, təmiz havası, yamyaşıl ovalıqları ilə göz oxşayan, respublikamızın ən füsünkar guşələrindən biri olan Xaçmaz rayonu haqqında söz açmaq istəyirəm. Bu bölgənin təbiəti, coğrafi mövqeyi, qədim tarixi, insanlarının mənəviyyatca zənginliyi, intellektual səviyyəcə yüksəkliyi, ağsaqqal-ağbirçək hörmətini saxlamaları, millətlərin bu məkanda mehribancasına yaşamaları, rayonun ziyalılarının səmimiliyi, xalqa, dövlətə bağlılığı, sadiqliyi mənim Xaçmaza, xaçmazlılara olan sevgimi artırdı.

Maraqlı idi ki, deputat seçiləcəyim 56 saylı Xaçmaz kənd seçki dairəsinin ərazisi böyük sahəni - rayonun 103 yaşayış məntəqəsini əhatə edirdi. Mərkəz isə rayonun ikinci böyük şəhəri olan Xudatda yerləşirdi. Böyüklərin nəsihətlərinə əsasən mən insanlara yaxın olmağa, onlarla ünsiyyət qurmağa, yerlərdə həyat şəraiti ilə tanış olmağa, ağsaqqal-ağbirçəklərdən öyrənməyə, gəncləri, məktəblərdə şagirdləri dinləməyə çalışdım.

Təbii ki, mənim ən əsas maraq dairəm kənd ağsaqqalları, onların xoş xatirələri, fikirləri idi. Çünki onlar bizə həm yaşamağı öyrədirlər, həm də insan ömrünün mənasını başa salırlar. Onlar bizim üçün canlı nümunəyə dönüblər. Belə demək mümkünsə, keçdiyimiz həyat dərsinin əyani vasitələridirlər və mən düşünürəm ki, Vətənimiz ana

dediyimiz bu torpaqdan ruzilərini öz zəhmət və halallıqları ilə çıxaran bu cür insanların çiynində dayanır. Elə bu vətəni sevməyi də onlar öyrədirlər bizə. Ən əsası da o idi ki, onlar təkcə nəsihət vermirlər, onu bütün incəliklərinə qədər öz nümunələri ilə göstərirlər. Özü də bu insanlar adilikləri və qeyri-adilikləri ilə bir-birinə nə qədər bənzəsələr də, ayrı-ayrılıqda bir fərddirlər, hər biri özünəməxsusdur.

Seçki kampaniyası zamanı və sonrakı görüşlərdə ağsaqqal və ağbirçəklərimizin qayğısını, nəsihətlərini, xeyir-dualarını eşitmək məni çox kövrəldirdi. Xoş duyğularla xatırlanan Tel kəndindən Nuru kişinin, Yeni Həyat qəsəbəsindən Əhməd dayının, Müqtədirdən Hacı Abdullanın, Nəcmulla kişinin, Bostançıdan Ağalar müəllimin, Xudatdan Şıxvəli və Abgül kişinin, Xaçmazdan Həqiqət xanımın, Çarxıdan Fatma ananın, Cəmil müəllimin, Kənd Xudatdan Surxay müəllimin, Nərəcandan Camalağanın, Qımılqışlaqdan molla Şıxkərimin, Həmid müəllimin, Moruqobadan Cəlilbəyin, Maqsudkənddən Qurban kişinin və bir çox adını çəkə bilmədiyim yüzlərlə böyüklərimizin həyat təcrübəsindən bəhrələnmək mənim Xaçmazda səmərəli fəaliyyətimdə böyük rol oynamışdır. Onların xeyir-duaları, müqəddəs kitab – “Qurani-Kərim”in altından keçirmələri, üzərrik yandıraraq tüstüsü ilə azar-bezardan uzaqlaşdırmaları görünür ağır avtomobil qəzası keçirərkən məni ölümdən qurtardı. Böyüklərimizə, müdriklərimizə həyatım boyu minnətdaram.

Deyirlər ki, guya dünyanın bütün kəndləri iqlim və relyef fərqlərinə baxmayaraq, bir-birinə bənzəyirlər. Şəhər və kənd anlayışı yaranandan kəndin vəzifəsi torpağın nemətlərini şəhərə göndərmək olub. Amma kəndin vəzifəsi bununla bitmir, o, həm də şəhər üçün yeni



təfəkkürlü insanlar yetişdirir. Bütün bunlar, bəlkə də, balans üçün lazımdır.

Vətən dediyimiz mahalı, rayonu, kəndi, o kəndin hər bir kövşənini, kol-kosunu, dərəsini, yamacını, daşını, çəpərini, bulağını yaddan çıxarmamalıyıq. Onlar təkcə təbiətin deyil, babalarımızın bizə qoyub getdiyi əmanətdir. Bu əmanəti qorumaqsa hər kəsin borcudur. O borc bizi maddi və mənəvi keçmişimizlə deyil, həm də gələcəyimizlə bağlayan tellərdir.

Sevindirici haldır ki, Xaçmazın kəndlərində mən gənclərin doğma el-obasına, ata yurduna bağlılığının şahidi oldum. Ölkəmizdə baş verən möhtəşəm yüksəliş, inkişaf özünü hər yerdə göstərirdi. Gənclər fərdi evlər tikir, ailə qurur, kəndlərin yenidən qurulmasında böyük həvəslə çalışırdılar. Hər bir görüşdə yeni-yeni təkliflərini, arzularını bildirir, kəndlərin qayğılarının, problemlərinin həlli üçün mənə müraciət edirdilər. Çox yaxşı haldır ki, Azərbaycanımızın ləyaqətli, ağıllı, tərbiyəli gəncliyi var. Hər şeyi çox məsuliyyətlə dərk edən bu gənclərimizə irəli getmək, özlərini təsdiqləmək üçün kömək lazımdır. Xaçmazda bu sahədə işlər yaxşıdır, vəzifələrdə çoxlu gənclər təmsil olunurlar. Onlar da göstərilən etimadı ləyaqətlə doğruldurlar.

Kəndləri gəzərkən bir çox poblemlərin şahidi oldum. Bu da təbiidir ki, on illərlə yığılıb qalan, həllini gözləyən problemləri birdən-birə həll etmək mümkün deyil. Respublikamızda uğurla həyata keçirilən “Regionların inkişafının Dövlət Proqramı” çərçivəsində kəndlərimizin siması dəyişir. Qısa müddətdə kəndlər qazlaşdırılır, yeni-yeni ictimai iaşə obyektləri, həkim ambulator məntəqələri, poçt köşkləri, məsçidlər inşa edilir. Kənd əhalisinin əsas məşğuliyyəti olan heyvandarlıq və digər kənd təsərrüfatı

işlərinin çözülməsi məqsədilə dövlət səviyyəsində lazimi tədbirlər həyata keçirilir. Əhaliyə lizinq xidməti göstərilir. Həmin xidmət sahələri təsərrüfatları güzəştli şərtlərlə yanacaq, motor yağları və gübrələrlə təmin edirlər.

Haqlı olaraq deyirlər ki, kadrlar çox şeyi həll edir. Xaçmaz rayonunda bu deyimin doğruluğunun sahidi oldum. Rayonun İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayevin uğurlu rəhbərliyi sayəsində bütün strukturların, icra orqanlarının işi, ictimai təşkilatların fəaliyyəti düzgün məcrada qurulmuşdur. Bütün sahələrdə böyük uğurlar qazanılır.

Millət vəkili kimi vaxtaşırı insanlarla təmasda oluram. Əvvəlki illərlə müqayisədə mənə daxil olan muraciətlərin sayı xeyli azalıb. Bu, rayonda sosial məsələlərlə bağlı işlərin getdikcə həll olunması ilə bağlıdır.

Mən müəlliməm və hal-hazırda da əsas peşəmlə bağlı fəaliyyətimi davam etdirirəm. Həm müəllimlik fəaliyyətim zamanı, həm də məsul vəzifələri daşıyarkən daim gənclərlə, uşaqlarla görüşlərdən zövq almışam. Məktəblərdə görüşlərim zamanı yarızarafat-yarıciddi deyərdim ki, mənim dostlarım bu uşaqlardır. Sözün düzünü deyən, hədsiz səmimi, qəlbi təmiz uşaqlar bizim gələcəyimizdir. Həyatımız onların necə oxuyub, tərbiyə olunmasından çox asılıdır.

Müəllifi olduğum “Ana dili”, “Azərbaycan dili” dərsliklərini oxuyan uşaqların şən çöhrələrini görəndə fəxr edirəm, sevinirəm ki, onların gələcək talelərində, inkişaflarında, şəxsiyyət kimi formalaşmalarında mənim də əməyim var.

Xaçmaz rayonunun ərazisi çox böyükdür. Deputat seçildiyim 56 saylı Xaçmaz kənd seçki dairəsinin ərazisi rayonun təxminən 60 faizindən çox sahəsini



əhatə edir. Təbii ki, seçki ərəfəsində bu ərazini gəzmək, hər bir şəhər və kəndində olmaq, görüşlər keçirmək çox çətin idi. Odur ki, əsas qərargah yerini seçmək lazım idi. İki yerdə bu məqsədlə qərargahlar yaradıldı. Birincisi, Akif Nəbiyevin təsisçisi olduğu Nabrandakı “Palma” istirahət mərkəzində, ikincisi, Xudat şəhərinin mərkəzindəki xüsusi binada yerləşdi.

Qərargahların hər biri haqqında ayrıca danışmağa dəyər. Çünki seçkinin taleyində onlar həlledici rol oynayırdı.

“Palma” istirahət mərkəzinin respublikamızda fəaliyyət göstərən analoji mərkəzlər arasında xüsusi yeri var. Təbiətin gözəl guşəsində yerləşən “Palma”nı daha da gözəlləşdirən onun işçiləridir. 70 faizini yerli əhali təşkil edən personal o qədər səmimi, qonaqpərvərdir ki, insan orada qalmaqdan zövq alır. “Palma” digər özəl turist mərkəzlərindən fəaliyyətinin ilboyu fasiləsiz olması ilə fərqənir. Nabranda ilk turist bazası kimi fəaliyyətə başlayan və istirahət evlərinin memarlıq üslubu ilə seçilən, gözəllikləri, səliqə-səhmanı ilə göz oxşayan “Palma” ilbəil inkişaf edir, böyüyür. Hazırda bu turist bazası 5,5 hektar ərazini əhatə etməkdədir. Burada tikinti-abadlıq işləri aparılır. Turist bazasında bir növbədə 300 nəfərin istirahət etməsi üçün hər cür şərait yaradılmışdır. 300 nəfərlik yeməkxana, 3 dildə sinxron linqofonlarla təchiz olunmuş və internetə qoşulmuş kompüter sisteminə malik olan konfrans zalı istifadəyə verilmişdir. Böyüklər və uşaqlar üçün isə ayrıca idman qurğuları fəaliyyət göstərməkdədir. Hətta kiçik yaşlı uşaqlarla tərbiyəçilər məşğul olurlar. Akvapark asudə vaxtın səmərəli təşkilində mühüm yer tutur. Turizm mərkəzinin icraçı direktoru Qəndalı Məmmədov

çox səmimi, qabiliyyətli insandır. Q.Məmmədov mərkəz haqqında qürurla danışaraq söylədi ki, burada yeməklərin keyfiyyəti çox yüksək, çeşidi müxtəlifdir, qiymətlərə gəldikdə isə onlar münasibdir . “Palma” yeganə turist bazasıdır ki, burada Türkiyənin “BIO-MAK” firması tərəfindən quraşdırılmış təmizləyici qurğu fəaliyyət göstərir.

“Palma” turist mərkəzindəki gözəl şərait, yüksək keyfiyyət yalnız respublika daxili turistləri deyil, xarici ölkə vətəndaşlarını da cəlb edir. Yaradılan şəraitə, səmimiliyə görə “Palma” istirahət mərkəzinin bütün kollektivinə, xüsusən Akif müəllimə, İsmayıl müəllimə təşəkkürümü bildirməklə, turizmin inkişafında onlara böyük nailiyyətlər arzulayıram.

“Palma” kimi istirahət mərkəzində seçki qərargahı yerləşən deputatlığa namizəd yalnız qələbəyə ümid bağlaya bilər.

Xudat şəhərində yerləşən qərargah isə əsl fəaliyyət mərkəzi idi. Çevik qərarlar, görüşlər, seçicilərin qəbulları burada həyata keçirilirdi. Qərargah hər cür müasir texniki təchizatla təmin edilmişdi. Bütün məlumatlar bura daxil olur, araşdırılır və lazimi tədbirlər görülürdü. Burada vəkillərim və mənə seçki zamanı yaxından kömək göstərmiş insanlar səmərəli iş aparırdı. Onların hamısına ən xoş arzularımı çatdırmaqla, demək istəyirəm ki, hər birinin əməyini unutmur, yüksək qiymətləndirirəm.

2005-ci ildə keçirilən parlament seçkilərində 56 saylı Xaçmaz kənd seçki dairəsindən bir deputat mandatına 19 nəfər namizəd olduğu üçün işimizi tamamilə yeni formada qurmağı qərara aldıq. Çalışdım ki, xalqımızın layiqli oğul və qızları olan opponentlərimlə səmimi ünsiyyət qurum. Görüşlər zamanı isə seçicilərə obyektiv olmağı, səhvə yol verməməyi, namizədləri verdikləri vədlərə görə deyil, onların həyatda gördükləri işlərə, real güclərinə görə qiymətləndirməyi tövsiyə edirdim.



Ən şirin xatirələrim kimi yada düşən həmin günlər, anlar yaddaşımdan heç vaxt silinmir. Hər gün 3-4 kənddə seçicilərimlə görüşdən sonra qərargaha gəlir, qohumum, dostum Hüseyn müəllim, YAP-ın Xaçmaz Rayon Təşkilatının sədri Nadir müəllim, fəallar - Nazim müəllim, Abbsasyar müəllim, Bəhram həkim, Elman müəllim, Saleh müəllim, Ələskər müəllim, Nizaməddin həkim, Nəzakət xanım, dostlarım, tələbə yoldaşlarım - Zahid, Rabil, Yavər, Şakir, Kələntər, Bilal, Məmməd, Laçın, Hacı, Qərib, İsrafil müəllim və başqaları ilə nəticələri müzakirə edir, müvafiq qərarlar qəbul edirdik. Çox sevindirici idi ki, hörmətli seçicilərim mənə olan inamın nəticəsi kimi görüşümə gəlirdilər. Gün ərzində 30-50 nəfərədək seçicini qəbul edirdim, problemlərinin həllinə çalışırdım. Təmasda olduğumuz qısa zamanda mən xaçmazlıları, xaçmazlılar da məni sevdilər. Həmin sevgi, istək, inam, səmimiyyət məni yaşadır, işləməyə, çalışmağa sövq edirdi.

Görüşlər zamanı uşaqların, gənclərin, ana və bacılarımızın, ağsaqqal və ağbirçəklərimizin baxışlarını, çöhrələrini müşahidə etdikcə, bu inama, dəstəyə, qayğıya cavab olaraq məndə onlara sadiq olacağıma bir daha əminlik yaranırdı.

Təbii ki, seçki marafonu asan olmadı. Bəzi namizədlər seçki məcəlləsinə, qəbul olunmuş qanun və qərarlara məhəl qoymadan hər cür saxtakarlığa, etik normalara zidd hərəkətlərə yol verirdilər. Plakatlarımı cırmaqdan,

vəkillərimə, təəssübkeşlərimə qarşı təzyiq göstərməkdən belə çəkinmirdilər.

Çox maraqlı bir neçə məqamı qeyd etmək yerinə düşərdi. Qusarçay kəndində seçicilərim islahatlar zamanı onlara torpaq sahələri ayrılmadığından şikayətlərini bildirdilər. Kənd Təsərrüfatı Nazirliyi ilə əlaqə saxlayaraq bu müraciətin müsbət həll olunmasına təşəbbüs göstərdim. Atılan bu müsbət addımım alqışlanmaq əvəzinə nazirliyə saxta adlarla teleqramlar vuruldu. Məlumdur ki, millət vəkili ona görə seçilir ki, təmsil etdiyi əhalinin problemlərini həll etsin. Teleqramın mətni maraqlı oldugu üçün həmin teleqramlardan birinin surətini oxucuların nəzərinə çatdırıram.

Deputatlığa namizədlərin hamısına böyük hörmətim vardır. Təbii ki, onlar da deputat seçilmək istərdilər. Onların da müəyyən seçiciləri, güvəndikləri insanları var idi. Böyük minnətdarlıq hissi ilə qeyd edirəm ki, seçicilərin təşəbbüs qrupu tərəfindən namizədliyi irəli sürülmüş Aydın Əskərbəyli, fərdi olaraq namizədliyi irəli sürülmüş Fəxrəddin Ağayev, Hacıbala Məlikov, Rövşən Mirzəyev və Azərbaycan Naminə Alyans Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Təranə Əhmədovanın namizədliklərini mənim xeyrimə geri götürmələrini yüksək qiymətləndirirəm. Azərbaycan Naminə Alyans Partiyasının Ali Məclisinin qərarını mətnə əlavə edirəm.

Deputatlığa namizədlərin hamısına böyük hörmətim vardır. Təbii ki, onlar da deputat seçilmək istəyirdilər. Onların da müəyyən seçiciləri, güvəndikləri insanlar var idi. Böyük minnətdarlıq hissi ilə qeyd edirəm ki, seçicilərin təşəbbüs qrupu tərəfindən namizədliyi irəli sürülmüş Aydın Əskərbəyli, fərdi olaraq namizədliyi irəli sürülmüş Fəxrəddin Ağayev,



Hacıbala Məlikov, Rövşən Mirzəyev və Azərbaycan Naminə Alyans Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Təranə Əhmədovanın namizədliklərini mənim xeyrimə geri götürmələrini yüksək qiymətləndirirəm. Azərbaycan Naminə Alyans Partiyasının Ali Məclisinin qərarını mətnə əlavə edirəm.

Seçki kampaniyası nəzərdə tutulan plan əsasında getsə də, seçki günü yaxınlaşdıqca, gərginlik daha da artırdı. Mən yüksək dövlət vəzifəsini tutduğum və eyni zamanda bir çox məsul ictimai işləri daşıdığım üçün boş vaxtım qalmırdı. 30 oktyabr 2005-ci il tarixində opponenti olduğum bir nəfərin doktorluq elmi işinin müdafiəsi olduğuna görə çox yorğun olmağıma baxmayaraq, axşam yağmurlu havada Xudatdan Bakıya getməyə qərar verdim. Həmin gün, yəni 29 oktyabrda seçicilərlə son görüş Ağçay kəndində olmuşdu. Qərargaha gəlib məsləhətlərimi verdim. Bakıya yola düşdüm. Yorğun idim. Yolda məni yuxu tutdu. Qarışıq röyalardan ayılanda özümü qan içində xəstəxanada gördüm. Başımın üstündə Daxili işlər naziri Ramil Usubov, Dövlət Yol Polisi İdarəsinin rəsi Ramiz Zeynalov və digər rəsmi şəxslər vardı. Açığını deyim ki, elə bildim yuxudayam. Lakin hafizəm özümə gəldikcə anladım ki, yolda qəzaya uğramışıq. Ramil müəllim ölkə Prezidenti, hamımızın sevimlisi İlham Əliyevin baş vermiş hadisədən narahat olduğunu, lazımi kömək məqsədilə tapşırıq verdiyini bildirdi. Mən qəza baş verən Siyəzən rayonundan Bakıya gətirildim.

Mərkəzi Klinik Xəstəxanada müalicəmi davam etdirirdim. Həmin günlərdə möhtərəm Prezidentimiz tez-tez səhhətimlə maraqlanır, qayğısını əsirgəmirdi. Bu

qayğıdan çox təsirlənərək İlham Əliyevə minnətdarlıq məktubu göndərdim .

Seçki kampaniyası nəzərdə tutulan plan əsasında getsə də, seçki günü yaxınlaşdıqca gərginlik daha da artırdı. Mən yüksək dövlət vəzifəsini tutduğum və eyni zamanda bir çox məsul ictimai işləri daşıdığım üçün boş vaxtım qalmırdı. 31 oktyabr 2005-ci il tarixində opponenti olduğum bir nəfərin doktorluq elmi işinin müdafiəsi olduğuna görə çox yorğun olmağıma baxmayaraq, axşam yağmurlu havada Xudatdan Bakıya getməyə qərar verdim. Həmin gün, yəni 30 oktyabrda seçicilərlə son görüş Ağçay kəndində olmuşdu. Qərargaha gəlib məsləhətlərimi verdim. Bakıya yola düşdüm. Yorğun idim. Yolda məni yuxu tutdu. Qarışıq röyalardan ayılanda özümü qan içində xəstəxanada gördüm. Başımın üstündə Daxili işlər naziri Ramil Usubov, Dövlət Yol Polisi İdarəsinin rəsi Ramiz Zeynalov və digər rəsmi şəxslər vardı. Açığını deyim ki, elə bildim yuxudayam. Lakin hafizəm özümə gəldikcə anladım ki, yolda qəzaya uğramışıq. Ramil müəllim ölkə Prezidenti, hamımızın sevimlisi İlham Əliyevin baş vermiş hadisədən narahat olduğunu, lazımi kömək məqsədilə tapşırıq verdiyini bildirdi. Mən qəza baş verən Siyəzən rayonundan Bakıya gətirildim.

Mərkəzi Klinik Xəstəxanada müalicəmi davam etdirirdim. Həmin günlərdə möhtərəm Prezidentimiz tez-tez səhhətimlə maraqlanır, qayğısını əsirgəmirdi. Bu qayğıdan çox təsirlənərək İlham Əliyevə minnətdarlıq məktubu göndərdim .

Həmin ağrılı-acılı günlərdə mənə dəstək olan, qayğısını əsirgəməyən insanlara ömrüm boyu borcluyam, minnətdaram.



Bu xəbəri eşidən dostlarım, qohumlarım, mehriban insanlar səhhətimlə maraqlanır, lazimi köməkliklərini göstərirdilər. Xüsusilə insanlara mərhəməti, qayğısı, həssaslığı ilə tanınan, xalqımız üçün böyük işlər görən, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın mənə ünvanladığı məktubuna çox sevindim

Həmin ağrılı-acılı günlərdə mənə dəstək olan, qayğısını əsirgəməyən insanlara ömrüm boyu borcluyam, minnətdaram.

Bu xəbəri eşidən dostlarım, qohumlarım, mehriban insanlar səhhətimlə maraqlanır, lazimi köməkliklərini göstərirdilər. Xüsusilə insanlara mərhəməti, qayğısı, həssaslığı ilə tanınan, xalqımız üçün böyük işlər görən, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın mənə ünvanladığı məktubuna çox sevindim .

Mehriban xanıma səhhətimə həssas və mərhəmət hissi ilə yanaşdığına, müalicəmlə maraqlandığına görə dərin təşəkkürümü və minnətdarlığımı bildirdim.

Hər gün xəstəxanaya ünvanıma yüzlərlə zəng, teleqram gəlir, səhhətimlə maraqlanırdılar. Həmin anlarda mehriban xaçmazlılar mənimlə əlaqə saxlayaraq, sağalıb tezliklə rayona gəlməyimi arzulayırdılar.

Mərkəzi Klinik Xəstəxananın tibb personalının professional fəaliyyəti, əhatə olunduğum mühit tezliklə sağalaraq aktiv həyata qayıtmağımda mühüm rol oynadı.

Xəstə yatarkən bütün fikrim Xaçmazda idi. Səsverməyə bir neçə gün qalırdı.

...Budur, 6 noyabr 2005-ci il. Aylarla aparılan mübarizənin nəticəsi məlum olan gün. Gün ərzində Xaçmazla əlaqə saxlayır, seçkinin gedişi ilə maraqla-

nırdım. Xoş xəbərlər bir-birini əvəz edirdi. Qədirbilən xaçmazlılar seçimlərini gizlətmədən mənə səs verdiklərini söyləyirdilər.

Artıq səsvermə qurtarmışdı. Səslərin sayılması, protokollarda rəsmiləşdirilməsi prosesi gedirdi. Hamı seçki keçirilən 36 məntəqədən gələn nəticələri gözləyirdi. Hər məntəqədən gələn protokola əsasən qalibin Nizami Xudiyev olduğunu eşitdikcə seçicilər sevinirdilər.

Nəhayət, hamının həsrətlə gözlədiyi an gəlib çatdı. Seçkinin ilkin nəticələri televiziya vasitəsi ilə yayımlandı. Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov 56 saylı Xaçmaz kənd seçki dairəsi üzrə Nizami Mənaf oğlu Xudiyevin böyük səs çoxluğu ilə qalib gəldiyini elan etdi. Qəlbim fərəh hissi ilə doldu. Bu böyük qələbə idi. Uzun müddət çəkilən zəhmət, əziyyət öz bəhrəsini vermişdi. Dərhal təbriklər, zənglər məni ağuşuna aldı. Həyatda insanlara, vətənə lazım olduğunu hiss edəndə yaşamaq da şirin olur.

Seçkinin nəticələri rəsmən elan edildikdən sonra məlum oldu ki, seçicilərimin mənə səsvermə faizi respublika üzrə yüksək göstəricilərdən biridir. Mən fəxr etməyə bilməzdim. Dairə üzrə etibarlı hesab edilmiş 21690 səsin 12777-si, yəni 59 faizi mənə məxsus idi. Müqayisə üçün deyərdim ki, sonrakı yeri tutan namizəd cəmi 5 faiz səs toplaya bilmişdi. Ayrı-ayrı seçki məntəqələrində nəticələrin maraq doğuracağını nəzərə alaraq rəsmi məlumatları nəzərinizə çatdırıram.

Mən artıq üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatıyam. Bu fəxri ada layiq olmaq, onu daşımaq böyük bir məsuliyyətdir. Xaçmaz kimi çoxsaylı seçiciləri olan bir rayonu dövlətimizin ali orqanı olan Milli Məclisdə təmsil edirəm.



Respublika parlamentində xalqımız üçün taleyüklü məsələlər barədə ciddi müzakirələr aparılır, qanunlar qəbul edilir. Cari məsələlər, gündəlik problemlərlə əlaqədar məsələlər qaldırılır, deputat sorğuları göndəririk. Hər bir məsələnin həllində təbii ki, təmsil etdiyim seçicilərimin mənafeyini müdafiə edirəm.

Mən dilçi alim, türkoloq olduğuma görə tez-tez xaricdə keçirilən elmi konfrans, simpoziumlara dəvət alıram. Respublika parlament nümayəndə heyətinin tərkibində xarici ölkələrdə rəsmi səfərlərdə iştirak edirəm.

25 dekabr 2005-ci il tarixi isə həyatımın unudulmaz anları ilə bağlı bir gündür. Parlament seçkilərindən sonra ilk dəfə həmin gün rayona səfər etdim. Gözlədiyimdən də artıq izdiham məni qarşılamağa çıxmışdı. Xudat şəhərində bizi qarşılayan insanlar qurban kəsir, sevinclərini gizlədə bilmirdilər. Ürəyim dağa döndü. Düşünürdüm ki, həqiqətən də həyatda insan sevgisindən üstün heç nə ola bilməz.

Bəli, qədirbilən seçicilərim məni cox mehribanlıqla qarşıladılar. Maraqlı görüşlər, tədbirlər keçirildi. Hamıya dərin təşəkkürümü bildirdim. Minnətdarlıq əlaməti olaraq Azərbaycanın ən tanınmış müğənnilərinin iştirakı ilə maraqlı konsert proqramı təşkil etdim, birlikdə şənləndik, sevindik.

Artıq dörd ildir ki, Milli Məclisdə Xaçmaz rayonundan seçilmiş millət vəkili kimi fəaliyyət göstərirəm. Fəaliyyətimlə əlaqədar hörmətli seçicilərimdən çoxlu sayda məktub, ərizə, müraciətlər alıram. Onları diqqətlə araşdırır, müvafiq köməklik göstərirəm. Tez-tez Xaçmazda oluram, keçirilən rayon tədbirlərində iştirak edirəm, seçicilərimlə görüşürəm.

Rayonda olarkən kəndləri, şəhərləri gəzirəm. İnsanların mənə olan hörmətini, sevgisini əməyimə, xalq qarşısında xidmətlərimə verilən ən yüksək qiymət kimi qəbul edirəm.

Xaçmaza hər bir səfərimdə mənə artıq doğma olan insanlarla görüşür, onların qayğıları ilə yaşayıram. Mənim onlara, onların isə mənə ehtiyacları var. Bir-birimizlə gec görüşdükdə darıxırıq. Rayona hər səfərimdə Xudat şəhərinə gəlir, Heydər Əliyev parkında ağsaqqallarla, gənclərlə görüşür, çay süfrəsində səmimi söhbətlər edirik. Həyatın isti-soyuğunu görmüş ağsaqqallardan Məhərrəm dayının, Şıxvəli, Abgül, Qeybalı, Ağa, Əzizulla, Əziz, Mahmud kişinin və başqalarının dəyərli məsləhətlərini dinləyir, onlara görülmüş və görüləcək işlərdən danışıram. Söhbətlər o qədər səmimi, qarşılıqlı anlaşma şəraitində keçir ki, vaxtın necə ötdüyünü heç duymuruq.

Xaçmaz rayonunun Müqtədir qəsəbəsində, Pirquluoba, Ləcət, Seyidli, Aslanoba, Susay, Niyazabad, Yalama, Dədəli, Bostançı, Həsənqala, Nərəcan və başqa kəndlərində keçirdiyim çoxsaylı görüşlərim çox səmimi, yaddaqalan olub, məndə olduqca xoş təəssüratlar yaradıb. Bu görüşlər adi görüşlər deyil. Böyük məsuliyyətlə deyərdim ki, mənim cəmiyyətimizin əsas aparıcı qüvvəsi olan Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının və İdarə Heyətinin üzvi kimi, millət vəkili kimi hörmətli seçicilərim qarşısında hesabat görüşlərim idi. Həlli vacib məsələlərdən, mövcud problemlərdən, görülmüş və qarşıda görüləcək işlərdən söhbət açılır, icra və yerliözünüidarə orqanlarının işçilərinin iştirakı ilə operativ olaraq bəzi məsələlər yerində həll edilir. Təbii ki, görüşlərin əsas məqsədi Ulu öndərimiz Heydər Əliyevin vətənimiz və xalqımızın bu gününə, gələcəyinə istiqamətlənmiş uzaqgörən, müdrik siyasətinin möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən həyata keçirdiyi möhtəşəm işlərdə verdiyi bəhrələrini xalqa çatdırmaqdan ibarətdir. Sevindirici haldır ki, bütün əhali ölkə başçısının irəli sürdüyü və müvəffəqiyyətlə həyata keçirdiyi “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın verdiyi bəhrələrdən, real irəliləyişlərdən ruhlanaraq daha da həvəslə işlədiklərindən ürək dolusu danışırlar. Bu məni sevindirməyə bilməz. Çünki Ulu öndər Heydər Əliyev məktəbinin yetirməsi olmaqla, xalqımızın keçirdiyi ağır günləri xatırlayır, o anları bir-bir gözümün önünə gətirir, xalqımızın bu günü ilə müqayisə etməklə fərəh hissi keçirirəm.



Dövlətimizin bütün dünyada imicinin artması, iqtisadi inkişaf tempinə görə lider ölkəyə, regionun aparıcı qüvvəsinə çevrilməsi Ulu öndər Heydər Əliyev siyasətinin təntənəsi, Prezident İlham Əliyev siyasətinin qələbəsidir.

Məlumdur ki, hər bir müdrik dövlət başçısı gücü, qüvvəti xalqdan alır və onu qurub-yaratmağa, vətəninin çiçəklənməsinə, xalqının firəvan yaşamasına sərf edir. Bu baxımdan dahi şəxsiyyət Heydər Əliyevin siyası varisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev istisna deyil. Onun 2003-cü ildə dövlət başçısı seçildikdən sonra həyata keçirdiyi çoxşaxəli islahatlar proqramında iqtisadiyyatın yenidən qurulması, özəl sektora, sahibkarlığa, bölgələrdə fermerlərə qayğı, regionların sosial-iqtisadi inkişafı xətti xüsusi əhəmiyyət kəsb etmişdir. Ötən 5 il Azərbaycan tarixinə dövlət fəaliyyətinin bütün sferalarına - siyasi-hüquqi müstəvidən tutmuş sosial-iqtisadi həyatadək ən müxtəlif sahələrə dair proqramlı siyasətin həyata keçirilməsi mərhələsi kimi yazılmışdır. Qəbul edilmiş və gerçəkləşdirilmiş dövlət proqramlarının hər biri müasir dövlətimizin həyatında müstəsna əhə-

miyyətə malikdir. Ancaq özündə regionların sosial-iqtisadi inkişafını əks etdirən dövlət proqramını çox əhəmiyyətli sənəd kimi qiymətləndirmək lazımdır. Ən əsası ona görə ki, bu proqramın reallaşdırılması ilə ölkədə həyat yenidən qurulmuş, yeni iqtisadi münasibətlər formalaşmış, respublikanın bölgələri inkişaf etmiş, paytaxtla əyalət arasındakı iqtisadi, sosial mahiyyətli uyğunsuzluq demək olar ki, aradan qaldırılmış və ya vətəndaşların yaşayış, həyat səviyyəsi baxımından özünəməxsus harmoniyaya nail olunmuşdur.

"Bu gün qürur hissi ilə deyə bilərik ki, Azərbaycanda aparılan iqtisadi islahatlar nəticəsində istənilən sahədə - iqtisadi və sosial məsələlərin həllində gözəl nailiyyətlərimiz var. Bunu biz gündəlik həyatda görürük və eyni zamanda, statistik rəqəmlər də bunu əks etdirir. Bütövlükdə son illər ərzində Azərbaycanda iqtisadi inkişaf çox sürətlə getmişdir və 2003-2008-ci illərdə iqtisadiyyatımızın həcmi, ümumi daxili məhsul 2,7 dəfə artmışdır. Bu nadir bir göstəricidir və beş il ərzində iqtisadiyyatın həcmini təxminən 3 dəfə artırmaq doğrudan da böyük nailiyyətdir". Ölkə Prezidenti İlham Əliyevin söylədiyi bu fikirlər reallıqdan doğur və yüksək inkişaf tempi, müvəffəqiyyətlər, davamlı inkişaf və tərəqqi kursunun möhtəşəm qələbəsi kimi qiymətləndirilməlidir.

2008-ci il Azərbaycan tarixinə ölkə prezident seçkiləri ili kimi daxil oldu. Azərbaycan xalqı bu tarixi missiyanı layiqincə həyata keçirdi. Xoşbəxtəm ki, bu tarixi missiyanı həyata keçirən, reallaşdıran şəxslərdən biri də mənəm.

Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının və İdarə Heyətinin üzvi kimi mən və həmkarlarım - Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri, millət vəkili,



akademik Ziyad Səmədzadə, millət vəkili Yevda Abramov, seçkiqabağı təbliğat-təşviqat kampaniyasında YAP-dan prezidentliyə namizədin vəkilləri akademik Kamal Abdullayev və "İrəli" Gənclər Təşkilatının sədri Ceyhun Osmanlı ilə birlikdə respublikamızın şimal bölgəsində - Quba-Xaçmaz zonasında təbliğat-təşviqat kampaniyasında iştirak etdim. Kampaniya çərçivəsində Quba, Qusar və Xaçmaz rayonlarının bir çox yaşayış məntəqələrində əhali ilə görüşdük. Açığını deyim ki, bu bölgə haqqında çox məlumatım olmasına baxmayaraq, bu görüşlər, insanlarla təmasda olmağım mənim bu yerlər haqqındakı təsəvvürlərimi xeyli zənginləşdirdi.

Həmkarlarımla birlikdə Qubanın I Nügədi, II Nügədi, Qəçrəş, Alekseyevka, Timiryazev, Xınalıq kəndlərində, Quba Müəllimlər İnstitutunda, Qusar rayonunun mərkəzində, Yasab, Qələcuq, Samur, Köhnə-qazma Xudat, Hil, İmamqulukənd, Aşağı Ləgər, Balaqusar, Quxuroba, Urva kəndlərində, Xaçmaz rayonunun mərkəzində, Müqtədir qəsəbəsində, Ləcət, Həsənqala, Dədəli, Müşkür, Yergüc, Niyazoba, Yalama, Yeni Həyat, Nərəcan, Hülövlü kəndlərində çoxsaylı görüşlərdə iştirak etdik. Bütün görüşlər yüksək səviyyədə, əhalinin ruh yüksəkliyi, bayram əhvali-ruhiyyəli şəraitdə keçirdi. Məruzəçilər və çıxış edənlərin yekdil rəyi bu idi ki, son 5 ildə respublikada baş verən köklü dəyişikliklər, tikinti-quruculuq işləri, yoxsulluğun nəzərə çarpacaq dərəcədə aşağı düşməsi Prezidentliyə layiqli namizəd İlham Əliyevi alternativsiz namizəd edir. Üzlərdəki gülüş, gələcəyə inam hissi seçicilərin artıq seçimlərini etdiklərini, 15 oktyabr 2008-ci il tarixində xalqımızın layiqli oğlu, fəaliyyəti ilə xalqın məhəbbətini qazanmış İlham Əliyev cənablarına səs verəcəklərini bildirirdi.

Yerlərdə əhali ilə təmasda olarkən məni heyran edən cəhət insanların Prezidentə, dövlətə sədaqətləri, mehriban münasibətləri, qonaqpərvərlikləri, qurub-yaratmaq həvəsi ilə çalışmaqları idi. Haqlı olaraq deyilir ki, təbiəti gözəl yerin, insanları da yaxşı mənada gözəl olmalıdır.

Quba-Xaçmaz zonası təbiəti, iqlimi, coğrafi mövqeyi baxımından Azərbaycanın ən gözəl guşələrindəndir. Ulu öndərin təbirincə desək: "Burada təbiət də gözəldir, torpaq da münbitdir və bunların hamısından əhəmiyyətli odur ki, insanları qəhrəmandır, fədakardırlar".

Qubanın Xınalıq kəndi nəinki Azərbaycanın, hətta dünyanın unikal guşələrindəndir. Ölkə başçısı İlham Əliyevin şəxsi nəzarətində olan ucqar dağ kəndinə asvalt döşənmişdir. Kəndə qayğı və diqqətin nəticəsidir ki, əhali Prezidentdən, dövlətdən çox razıdır. Azərbaycan naminə hər cür qəhrəmanlığa hazır olduğunu bildirir. 21 sentyabr 2008-ci il tarixində kənddə olarkən ağsaqqal və ağbirçəklərimizin, cavanların və uşaqların xoş münasibətləri Azərbaycanımızın xoşbəxt gələcəyindən xəbər verirdi.

Qubanın, Qusarın dağ kəndlərini gəzdikcə, insanlarını dinlədikcə onlarda torpağa bağlılıq, tarixi keçmişimizə hörmət, dövlətçiliyimizə sadiqlik hisslərinin yüksək olduğunu gördüm. Kəndlərdəki abadlıq, təsərrüfatlarda işin düzgün qurulması diqqəti cəlb edirdi.

Qonşu rayonların yaxşı mənada rəqabət aparması gələcək yüksəlişin, irəliləyişin, xoş gələcəyin olacağından xəbər verir. Bölgəni əhatə edən rayonlar müxtəlif infrastruktur layihələri ilə elə əhatə olunmuşlar ki, onları bir-birində ayırmaq qeyri-mümkündür.

Quba-Xaçmaz zonası Azərbaycanın şimalında sərhəd bölgəsi olmaqla xüsusi əhəmiyyət kəsb edir. Rayonların



icra strukturlarının, yerliözünüidarə orqanlarının və əhalinin qarşılıqlı münasibəti nəticəsində bu gün bu bölgə Azərbaycanımızın ən stabil, ən yüksək sürətli inkişaf tempinə malik bölgələrindən birinə çevrilmişdir. Bu məni çox sevindirir, bölgəyə, onun insanlarına olan sevgi və məhəbbətimi artırır.

2008-ci ilin sentyabr-oktyabr aylarındakı görüşlərdə iştirak etdiyimiz Quba-Qusar-Xaçmaz rayonlarının seçiciləri Azərbaycana, dövlətə, Prezidentə sədaqətlərini bir daha nümayiş etdirərək 15 oktyabr 2008-ci il prezident seçkilərində xalqımızın layiqli oğlu İlham Əliyevə səs verərək, onu yenidən Azərbaycan Respublikasının Prezidenti seçdilər. Bu qələbə Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasi-iqtisadi strategiyasının və möhtərəm İlham Əliyev cənablarının gecəli-gündüzlü səyinin, əməyinin Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilməsinin təcəssümü idi.

Hər bir xalqın öz iradəsini ifadə etməsinin ən mühüm forması demokratik və azad səsvermə yolu ilə fikrini bildirməsidir. Bütün dünyada ümumxalq səsverməsi dövlətin və ictimai həyatın idarə olunmasında vətəndaşların ən kütləvi iştirak formasıdır. Təsadüfi deyil ki, müasir dövrdə səsvermə ilə bağlı demokratik institutların inkişafı hüquqi dövlətin əsas istiqamətlərindən birinə çevrilmişdir. Eyni zamanda, xalqın iradəsinin ifadəsinə çevrilən seçkilərin (referendum) demokratik, şəffaf, azad keçirilməsi ölkədəki ictimai-siyasi sabitlikdən, demokratik təsisatlara üstünlük verilməsindən, seçki sisteminin təkmilləşdirilməsindən, ilk növbədə normal seçki keçirilməsinə əsaslı şərait yaradılmasından asılıdır.

Yeni Azərbaycan Partiyasının siyasi kursunun, dövlətimizin məqsədyönlü fəaliyyətinin Azərbaycan xalqı

tərəfindən bəyənilməsi növbəti dəfə öz sözünü ümumxalq səsverməsi – referendum zamanı dedi. Martın 18-də keçirilmiş demokratik, azad və ədalətli ümumxalq səsverməsi – referendumdan sonra cəmiyyətimiz yeni demokratik inkişaf mərhələsinə qədəm qoydu.

Bütün dövrlərdə olduğu kimi, xalqın iradəsinə qarşı çıxan ifrat radikal müxalifətin aqressivliyi bu dəfə də onları iflasa apardı...

Demokratiya sahəsində böyük uğurlar əldə etmiş dövlətlərin seçki praktikası göstərir ki, hər bir mərhələdə demokratiyanı təmin edən şərtlər sırasında siyasi iradə amili ilə yanaşı, təkmil qanunvericiliyin mövcudluğu da olduqca vacibdir. Bu mənada tam əminliklə demək olar ki, 18 mart referendumu Azərbaycan Respublikası qanunvericiliyinin və Seçki Məcəlləsinin tələblərinə, beynəlxalq standartlara uyğun keçirilmiş, hakimiyyət orqanları referendumun beynəlxalq meyarlar əsasında, demokratik, şəffaf olması üçün bütün zəruri şəraiti təmin etmişlər. Referendumun yekunu ilə bağlı beynəlxalq qurumların və xarici dövlətlərin müşahidəçilərinin müsbət rəyləri isə ölkəmizdə seçki təcrübəsinin ildən-ilə yüksəldiyini və qarşıdakı dövrdə də bu müsbət tendensiyanın davam edəcəyini deməyə əsas verir. 18 mart referendumunun nəticələri birmənalı olaraq təsdiqləyir ki, demokratik dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycanda bütün sahələr üzrə həyata keçirilən islahatlar öz müsbət nəticələrini verməkdədir.

Etiraf edilməlidir ki, hakimiyyət orqanları ilk gündən referendumun keçirilməsinə ümummilli maraqlar kontekstindən yanaşmağa nail oldular. Referendum Aktının layihəsi rəsmi qəzetlərdə dərc edildi, layihə Milli Məclisin və MSK-nın internet səhifələrində yerləşdirildi. Həmçinin,



layihəyə uyğun olaraq Azərbaycan Respublikasının Konstitusiyasının ümumxalq səsverməsinə çıxarılmış hissələrinin MSK tərəfindən hazırlanmış müqayisəli təqdimatı seçicilərin sayı nəzərə alınmaqla çap edildi və 5 milyona yaxın vətəndaşa çatdırıldı. Referenduma çağırış, onun keçirilmə tarixi və səsvermə qaydaları barədə məlumatlar 28 növ plakat şəklində çap edilərək bütün yaşayış məntəqələrinin ərazilərində asıldı.

Ən əsası isə qeydə alınmış 9 təşviqat qrupuna respublikanın bütün ərazisində təbliğat və təşviqat kampaniyası aparmaq üçün hər cür imkanlar yaradıldı. Həmçinin, bu müddət ərzində televiziya və radiolarda onlarla çıxış oldu, mətbuatda yüzlərlə məqalə dərc edildi. Hakimiyyət orqanlarının bu ümumxalq səsverməsinə diqqətinin bariz nümunələrindən biri də referendumun gedişini 24 beynəlxalq təşkilatdan 172 beynəlxalq müşahidəçi, 20 xarici KİV nümayəndəsi, 47 min yerli müşahidəçi və yerli KİV təmsilçiləri izləmələrinə şərait yaratması hesab edilə bilər. Xarici KİV-lərdən “Röyter”, “Frans Press”, “Anadolu Ayans”, “Əl-Cəzirə”, “TRT”, “Le Fiqaro”, “BBC” kimi dünya miqyasında tanınmış və nüfuzlu media qurumlarının referendum prosesini izləməsi Azərbaycan hakimiyyətinin demokratiyaya sədaqətinin, aşkarlıq və şəffavlığının bariz nümunəsinə çevrildi. Həmçinin, Avropa Şurası Parlament Assambleyasının, MDB Parlament Assambleyasının və MDB Müşahidə Missiyasının nümayəndələri, habelə Fransa, Böyük Britaniya, Portuqaliya, Ukrayna, İspaniya, Bolqarıstan və digər ölkələrin parlament nümayəndələrinin də müşahidəçiliyi çox böyük önəm kəsb etdi. Həmçinin, bir sıra ölkələrin Azərbaycandakı səfirlikləri, o cümlədən ABŞ səfirliyi 19, Rusiya

səfirliyi 18, Böyük Britaniya səfirliyi 14 müşahidəçi ilə referendumun gedişini izlədilər.

Mühüm nüanslardan biri də odur ki, martın 18-də gün ərzində kütləvi informasiya vasitələrinin təmsilçiləri Mərkəzi Seçki Komissiyası, Seçki İnformasiya Mərkəzi, dairə və məntəqə seçki komissiyalarının fəaliyyətini izlədilər, onlara hər hansı maneçilik törədilməsi və fəaliyyətlərinin məhdudlaşdırılması ilə bağlı heç bir fakt müşahidə olunmadı. Beləliklə, hakimiyyət orqanları referendumun tam demokratikliyinin təmin edilməsi prosesində bütün tərəflərə bərabər imkanların yaradılması, ümumilikdə referendumun şəffaflığına xələl gətirə biləcək bütün neqativ halların aradan qaldırılması üçün ilk gündən ciddi siyasi iradə və qətiyyət nümayiş etdirdi.

"Yeni Azərbaycan" təşviqat qrupunun vəkili kimi şahidi oldum ki, səsvermə prosesinin gedişi sırf qanunvericiliyin tələblərinə əsaslandı. Seçicilərin adlarının yoxlanması Seçki Məcəlləsinin müddəalarına müvafiq olaraq həyata keçirildi, bütün seçki məntəqələri lazımi texniki avadanlıqla təchiz olundu, səsverməyə gələnlərin baş barmağının görünməyən mürəkkəblə işarələnməsi qaydasına riayət edildi. Həmçinin, məntəqə seçki komissiyalarının üzvləri öz funksiyalarına əməl olundu. Təqdirəlayiq haldır ki, səsvermə zamanı məntəqə seçki komissiyaları üzvlərinin və digər şəxslərin seçicilərin seçim hüquqlarına müdaxilə edilməsi hallarına rast gəlinmədi.

Xüsusilə, öz şəxsi müşahidələrimə əsaslanaraq deyə bilərəm ki, təbliğat-təşviqat prosesinin getdiyi 28 gün ərzində xalqın, geniş vətəndaş qruplarının "Yeni Azərbaycan" təşviqat qrupunun arxasında vahid güc mərkəzi kimi birləşdiyinin və bu münasibətlərin sarsılmaz



olduğunun şahidi oldum. Quba, Qusar, Xaçmaz, Dəvəçi, Siyəzən, Qaradağ, Xətai rayonlarında iştirak etdiyim çoxsaylı görüşlərdə seçicilərin "Yeni Azərbaycan" təşviqat qrupunun təşəbbüsü ilə referenduma çıxarılan əlavə və dəyişikliklərin tərəfdarı olduqları da günümüzün danılmaz reallığı idi. Ən əsası isə Suraxanı rayonu ərazisində referendum günü aparığım geniş müşahidələr xalqın yüksək siyasi fəallıqla referenduma çıxarılan məsələlərə müsbət münasibətinə inamımı daha da bərqarar etdi.

Bütün bunlara rəğmən, heç də təsadüfü deyil ki, martın 18-də keçirilmiş ümumxalq səsverməsini izləyən beynəlxalq müşahidəçilər də seçicilərin fəallığından və referendumun təşkilindən razılıq ifadə etdilər.

Heç bir fəaliyyət, əmək, zəhmət qiymətsiz qalmır. Yaradanıma minnətdaram ki, bu il mənim də 40 illik ictimai-siyasi fəaliyyətim, təhsil, elm sahəsindəki uğurlarım dövlətimiz, şəxsən möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirildi. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 30 mart 2009-cu il tarixli fərmanına əsasən mən vətənin yüksək mükafatına – "Şöhrət" ordeninə layiq görüldüm.

## N.M.XUDİYEVİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

## SƏRƏNCAMI

***Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında fəal iştirakına görə Nizami Mənaf oğlu Xudiyev "Şöhrət" ordeni ilə təltif edilsin.***

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 30 mart 2009-cu il**

Sevincimin həddi-hüdudu yoxdur. Əməyimə verilən yüksək mükafata görə Prezidentimiz İlham Əliyev cənablarına dərin təşəkkürümü, minnətdarlığımı bildirmək məqsədilə ona aşağıdakı məzmunda teleqram göndərdim.

### Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri İlham Əliyev cənablarına

***Möhtərəm Prezident!***

*Sizin ikinci dəfə dövlət başçısı seçilməyiniz xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılandı. Siz dövlətimizin başçısı seçildikdən sonra ilk bəyanatınızda bildirmişdiniz ki, Azərbaycan indiyədək getdiyi yolu davam etdirəcək, Heydər Əliyev kursu dönmədən həyata keçiriləcəkdir.*

*Ötən dövr ərzində Siz bunu məqsədyönlü, ardıcıl və sistemli fəaliyyətinizlə təsdiq etmiş, yüksək intellektiniz, möhkəm siyasi iradəniz, qətiyyətiniz, işgüzarlığınız və*



*mütərəqqi idarəçilik prinsiplərinizlə cəmiyyətdə böyük nüfuz qazanmısınız.*

*Əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf strategiyasının Sizin rəhbərliyiniz sayəsində yüksək dinamizmlə davam etdirilməsi, ictimai həyatın bütün sahələrində uğurlu islahatların aparılması ölkəmizi davamlı inkişaf yoluna çıxarıb, Cənubi Qafqaz bölgəsinin liderinə çevirib.*

*Sizin ölkəmizin qarşısında duran prioritet vəzifələri dəqiq müəyyənləşdirərək çevik və balanslaşdırılmış siyasət yeritməyiniz nəticəsində Azərbaycan tərəqqi və inkişaf yolu ilə inamla irəliləyir. Sizin siyasətiniz bütövlükdə Azərbaycan xalqının firavanlığına, hər bir vətəndaşın maraq və təlabatlarının ödənilməsinə xidmət edir. Sizin ardıcıl səyləriniz sayəsində Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqeyi durmadan möhkəmlənir, dünya dövlətlərinin Azərbaycana inamı, etimadı artır. Ölkəmizdə sosial-iqtisadi inkişafa paralel olaraq demokratikləşmə prosesləri uğurla davam edir və bir-birini tamamlayır. Neft strategiyasının gerçəkləşməsindən əldə olunan gəlirlər ölkənin sosial-iqtisadi və mədəni vəziyyətini köklü surətdə yaxşılaşdırır.*

*Bu gün Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biridir. Bütün bu quruculuq işlərinin təşəbbüskarı və memarı Sizsiniz. Siz Azərbaycan elminin və mədəniyyətinin inkişafında misilsiz xidmətlər göstərirsiniz, möhtərəm Prezident.*

*Məni Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında fəal iştirakıma görə "Şöhrət" ordeni ilə təltif etdiyinizə görə Sizə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.*

*Sizi əmin edirəm ki, ölkəmizin ən qüdrətli siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü kimi Heydər Əliyev ideyalarının təbliğ edilməsində, Ulu öndərin siyasi xəttinin Sizin rəhbərliyinizlə uğurla həyata keçirilməsində bundan sonra da var qüvvəmlə çalışacağam.*

*Sizə nəcib, möhtəşəm və şərəfli fəaliyyətinizdə bitib-tükənməyən uğurlar, möhkəm cansağlığı və böyük xoşbəxtlik arzulayıram.*

Təbii ki, ali dövlət mükafatına layiq görülməyim dostlarımı, məni sevənləri çox fərəhləndirdi. Telefonuma gələn zənglərin sayı-hesabı yox idi. Qədirbilən insanların təbrik teleqramlarını, məktublarını oxuyub çatdıra bilmirdim. Tanrının qisməti olan yaşadığım həyatıma, fəaliyyətimə verilən yüksək qiymətə, mənə göstərilən diqqətə görə bütün insanlara öz dərin təşəkkürümü bildirməklə, onları əmin edirəm ki, etimadlarını daim doğruldacağam.

Bu təbriklər məndə o qədər səmimi, xoş hisslər oyadıb ki, onların bəzilərini kitaba daxil etməyi özümə borc bildim:

*Hörmətli Nizami müəllim!*

*Sizi – Milli Məclisin deputatını, tanınmış dilçi alimi və ictimai-siyasi xadimi 60 illik yubileyiniz münasibəti ilə səmimi qəlbdən təbrik edirəm!*

*Ölkə ictimaiyyəti Sizi Vətənini, xalqını sevən, hadisələrə obyektiv baxışı, fəal vətəndaşlıq mövqeyi ilə fərqlənən bir şəxs kimi tanıyır. Azərbaycan Pedaqoji Universitetində təhsil aldığınız dövrdə elmə, ictimai işlərə böyük maraq göstərmiş, müəllim və tələbə kollektivinin dərin rəğbətini qazanmısınız. Bu qocaman elm ocağını*



*fərqlənmə diplomu ilə bitirdikdən sonra bir müddət universitetin Həmkarlar İttifaqı Komitəsinə rəhbərlik etmiş, prorektor, rektor vəzifələrində çalışmış, eyni zamanda pedaqoji fəaliyyətlə də məşğul olmusunuz. Universitetə rəhbərlik etdiyiniz dövrdə yetişdirdiyiniz yüksək ixtisaslı kadrlar bu gün ölkə həyatının müxtəlif sahələrində fəaliyyət göstərirlər. Bu illər ərzində elmi araşdırmalarınızı müvəffəqiyyətlə davam etdirmiş, filologiya elmləri doktoru alimlik dərəcəsi almış, professor elmi adına layiq görülmüşsünüz. Doğma Azərbaycan dilimizin tədqiqi sahəsində müəllifi olduğunuz monoqrafiyalar, dərsliklər və elmi məqalələr mütəxəssislər tərəfindən yüksək dəyərləndirilir.*

*"Heydər Əliyev və Azərbaycan dili", "Radio, televiziya və ədəbi dil", "Xalqın tarixi haqqı: dilimiz, varlığımız", "Zamanın axarı ilə", "Uğurlu yolun layiqli davamçısı" kimi əsərlərinizi geniş oxucu auditoriyası rəğbətlə qarşılamışdır.*

*Zəhmətsevərliyiniz, yüksək mənəvi keyfiyyətləriniz, gərgin elmi fəaliyyətiniz diqqətdən kənarda qalmamış, "Əməkdar elm xadimi" adına layiq görülmüş, dəfələrlə fəxri fərman və diplomlarla təltif olunmusunuz.*

*"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə rəhbərlik etdiyiniz illər ərzində yüzlərlə maraqlı veriliş işıq üzü görmüş, çoxlu mütəxəssislər yetişmiş, Sizin müəllifliyinizlə onlarla sənədli film hazırlanmışdır.*

*Heç də təsadüfi deyildir ki, Siz üç dəfə dalbadal parlament seçkilərində seçicilərin böyük dəstəyini qazanaraq müstəqil Azərbaycan parlamentinə deputat seçilmisiniz. Hazırda Milli Məclisin Elm və təhsil məsələləri daimi komitəsinin üzvü kimi ölkədə həyata*

*keçirilən islahatların hüququ bazasının təkmilləşdirilməsində yaxından iştirak edir, parlamentin beynəlxalq əlaqələrinin inkişafına öz layiqli töhfənizi verirsiniz.*

*Siz, eyni zamanda, Ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyasının ən fəal üzvlərindən biri kimi hazırda partiyanın İdarə Heyətinin üzvüsünüz.*

*Hörmətli Nizami müəllim!*

*Sizi 60 illik yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, sizə uzun ömür, can sağlığı, ailə səadəti və çoxşaxəli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram!*

**Dərin hörmətlə Oqtay Əsədov**
Azərbaycan Respublikası Milli Məclisinin sədri

* * *

*İnsanın həyatı onun fəaliyyətidir. Fərdin fəaliyyətində ictimai məzmun nə qədər çoxdursa, onun həyatının ictimai mənası da o qədər yüksək olur. Belə insanlar öz həyatının ali məqsədini xalqa xidmət etməkdə görürlər. Tam qətiyyətlə demək olar ki, aprel ayının 1-də 60 illik yubileyi qeyd olunan professor Nizami Xudiyevin bütün mənalı həyatı xalqına, millətinə, peşəsinə xidmət etməkdə keçib və elə buna görə də dərin ictimai məna kəsb etməkdədir.*

*Nizami Xudiyev el arasında hər şeydən əvvəl böyük ziyalı, görkəmli alim kimi tanınır. Mən bu sözləri təkcə ona görə demirəm ki, o, elmlər doktoru, professordur, yüzlərlə elmi məqaləsi, onlarla monoqrafiyası çap olunub. Əlbəttə, bunlar alim və ziyalı üçün vacib göstəricilərdir. Lakin Nizami Xudiyevin ziyalı mövqeyi daha dərin köklərə sahibdir və onun bütün fəaliyyəti cəmiyyətdə ziyalı mühitinin formalaşmasında özünəməxsus rol oynayır.*

*Nizami Xudiyev həm də ictimai xadimdir. Qeyd edim ki, gərgin elmi fəaliyyəti insandan böyük enerji və vaxt tələb edən ictimai fəaliyyətlə əlaqələndirmək heç də asan deyil. Professor N. Xudiyev bunu ustalıqla bacarır. Elmi tədqiqat sahəsində olduğu kimi, ictimai fəaliyyəti də yetərincə geniş və çoxşaxəli olması ilə diqqəti cəlb edir. Təkcə onu bilmək kifayətdir ki, 1995-ci ildən dalbadal üç çağırış ölkənin ali qanunverici orqanına seçilmişdir.*

*Nizami Xudiyevi hamı Milli Məclisin fəal üzvü kimi tanıyır. Onun ən aktual məsələlərlə əlaqədar çıxışları, təklifləri, deputat prinsipiallığı, heç şübhəsiz, rəğbətlə qarşılanır və bütünlükdə qanunvericilik fəaliyyətinin səmərəsini artırır.*

*Nizami Xudiyevin ölkəmizin ən qüdrətli siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü olaraq geniş siyasi fəaliyyətini xüsusi qeyd etməyi vacib sayıram. Heydər Əliyev ideyalarının təbliğ edilməsində, Ulu öndərin siyasi xəttinin cənab Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsində partiyamızın bütün üzvləri kimi, onun da xüsusi tövfəsinin olduğunu vurğulamaq mənim üçün çox xoşdur.*

*60 yaş ömrün yetkinlik çağıdır. İnanıram ki, dostumuz Nizami müəllim özünün böyük potensialından bundan sonra da xalqımız və dövlətimiz naminə səmərəli şəkildə istifadə edəcək. Ona möhkəm cansağlığı, uzun ömür, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.*

**Əli Əhmədov**
Yeni Azərbaycan Partiyası sədrinin müavini,
icra katibi

* * * * *

*Hörmətli Nizami müəllim!*

*Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında fəal iştirakınıza görə "Şöhrət" ordeni ilə təltif olunmanız xəbəri məni çox sevindirdi. Bu münasibətlə sizi səmimi qəlbdən təbrik edir, Sizə möhkəm can sağlığı, uzun ömür və fəaliyyətinizdə uğurlar arzulayıram.*

*Fürsətdən istifadə edərək iki qardaş ölkə arasındakı əməkdaşlığın inkişafına töhfələriniz üçün təşəkkür edirəm.*

*Hörmətlə*

**Hulusi Kılıç**
Türkiyə Respublikasının Azərbaycandakı
Fövqəladə və səlahiyyətli səfiri

* * * *

*Hörmətli Nizami müəllim!*

*Sizi, görkəmli dilçi alimimizi və ictimai xadimi yüksək dövlət mükafatı ilə təltif olunmağınız münasibətilə ürəkdən təbrik edirəm. Sizin elmi yaradıcılığınız Azərbaycan filologiyasının, türkologiyasının inkişafında əhəmiyyətli rol oynamışdır. Eyni zamanda siz publisistika ustası kimi də istedadlı qələminizlə daim xalqımızın və vətənimizin mənafeyi naminə çalışmısınız. Siz ictimai fəaliyyətinizlə də müstəqil respublikamızın inkişafı naminə əlinizdən gələni əsirgəməmiş, sadə və təvazökar, xeyirxah və etibarlı bir insan kimi də dərin hörmət qazanmısınız.*



*Əziz dostum! Sizi bir daha ürəkdən təbrik edir, sizə cansağlığı, uzun ömür, yaradıcılıqda və ictimai fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.*

**Xalq yazıçısı Elçin**
Azərbaycan Respublikası Baş nazirinin müavini

*****

*Hələ gənc yaşlarımdan tanıdığım gözəl insan, böyük maarifpərvər, bacarıqlı təşkilatçı, ziyalı el ağsaqqalı Mənaf Xudiyevin ailəsində böyüyüb tərbiyə almış Nizami Xudiyev ata ocağının müqəddəs ənənələrini layaqətlə davam etdirən bir oğuldur. O, həyatını elmi axtarışlara, maarifçiliyə, dövlətə və dövlətçiliyə xidmətə həsr etmiş yaradıcı ziyalılardandır. Hörmətli həmkarımın elmi-pedaqoji fəaliyyəti və yaradıcılıq uğurları bir sıra yüksək mükafatlara layiq görülmüşdür. Onun ictimai-siyasi və mədəni həyatda fəaliyyətinin hörmətli Prezidentimiz tərəfindən "Şöhrət" ordeni ilə təltif edilməsi isə bu mükafatların bir növ ən alisi, ən yüksəyidir. Bu münasibətlə hörmətli həmkarımı səmimi qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür və gələcək fəaliyyətində uğurlar arzulayıram.*

**Fəttah Heydərov**
Millət vəkili

*****

*Millət öz milli-mənəvi dəyərləri, mədəniyyəti, elmi, alimi, ziyalısı ilə tanınır. Qloballaşma, xarici amillərin təsirinin gücləndiyi bir şəraitdə əsrlər boyu tarixin*

*sınağından çıxmış milli-mənəvi dəyərlərimiz sırasında dilimizi, ədəbiyyatımızı qorumaq, inkişaf etdirmək isə həm böyük məsuliyyət, həm də böyük şərəfdir. Məhsuldar alim Nizami Xudiyevin Azərbaycanın ədəbi dili, problemləri, inkişaf və zənginləşmə yolları, ədəbi dilin tarixi, nitq mədəniyyəti və s. istiqamətlər üzrə apardığı elmi araşdırmaları, çoxsaylı monoqrafiyaları, əsərləri Azərbaycanın filologiya elmində yeni səhifələr açmışdır. İnanıram ki, ömrünün 60 illik yubileyini qeyd edən, öz işgüzarlığı, zəngin elmi təfəkkürü, səmərəli fəaliyyəti, filologiya sahəsində dəyərli tədqiqatları ilə diqqəti cəlb edən alim hələ uzun illər ana dilinin təbliğinə, pak niyyətli nəsillərin formalaşmasına öz töhfəsini verəcəkdir.*

*Qeyd edək ki, Nizami Xudiyevin yüksək vətəndaşlığı, vətənpərvərliyi, ana dilimizin yad ünsürlərdən qorunmasına, inkişafına xüsusi həssaslıqla yanaşması vətən torpağına bağlılıqdan qaynaqlanır.*

*Nizami müəllimi uzun illərdir ki, tanıyıram. Pedoqoji Universitetdə prorektor, rektor, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində, eləcə də «Azərbaycan Televiziya və Radio Verilişləri» QSC-də sədr kimi yüksək vəzifələrdə müvəffəqiyyətlə çalışmışdır. O, insanlara daim çox sadə, səmimi münasibəti ilə seçilib. Elə insanların da ona qarşı məhəbbəti, cəmiyyətdəki nüfuzu məhz bu münasibətin təzahürüdür.*

*Nizami Xudiyev çox sayda mükafatlara layiq görülüb. Ən dəyərlisi isə möhtərəm Prezidentimiz İlham Əliyevin sərəncamı ilə aldığı «Şöhrət» ordenidir.*

*Hörmətli yubilyar, sevinclə qeyd etdiyiniz 60 il Nizami Xudiyev ömrünün bir mərhələ bayramıdır. Bizim təbriklərimiz isə bu mübarək bayrama hədiyyədir.*



*Tanrı yaşadığınız həyat yolunuzu nurlu, 60 illik ömrünüzü mübarək etsin.*

**Akademik Ziyad Səmədzadə**
Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri

******

*Hələ tələbəlik illərindən tanıdığım professor Nizami Xudiyevin çoxşaxəli fəaliyyətində elmi yaradıcılıq aparıcı xətt təşkil etmişdir. Hansı vəzifədə çalışmasından asılı olmayaraq, o, ardıcıl olaraq elmi fəaliyyətini davam etdirir.*

*Filologiya elmləri doktoru, professor Nizami Xudiyev Azərbaycanda ədəbi dil üzrə görkəmli mütəxəssisdir. Böyük elmi axtarışların nəticəsində meydana çıxan "Azərbaycan ədəbi dil tarixi" monoqrafiyası milli ədəbi dilin çoxəsrlik inkişaf yolunun ümumiləşmiş salnaməsidir. Əməkdar elm xadimi, professor Nizami Xudiyevin ədəbi dil tarixinə həsr olunmuş əsərlərindən çoxcildlik bir külliyyat yaratmaq mümkündür.*

*Azərbaycan dilçiliyinin digər sahələrində də Nizami Xudiyevin əsərləri elmi ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanmışdır.*

*Nizami Xudiyev ictimai-siyasi fəaliyyətə də ciddi münasibət bəsləyir. Onun Azərbaycan Respublikası Milli Məclisindəki, Yeni Azərbaycan Partiyasının Siyasi Şurasındakı ardıcıl və səmərəli fəaliyyəti ölkəmizdə müstəqil dövlətçiliyin möhkəmlənməsinə və daha da inkişaf etdirilməsinə xidmətin bir nümunəsidir.*

*Həmkarım, professor Nizami Xudiyevi təbrik edir, ona bundan sonra da elmi, ictimai və siyasi fəaliyyətində böyük uğurlar arzulayıram.*

**Akademik İsa Həbibbəyli**
Milli Məclisin deputatı, Naxçıvan Dövlət Universitetinin rektoru

* * * *

*Hörmətli Nizami müəllim.*

*Sizi 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, elmi, ictimai və pedaqoji fəaliyyətinizdə yeni uğurlar arzulayıram.*

*Siz böyük bir alim ömrü yaşayırsınız. Azərbaycan dilçiliyinin tarixində dəyərli yerlərdən birini tutmusunuz. Bu gün elə bir ciddi dilçi-türkoloq təsəvvür etmək mümkün deyil ki, professor Nizami Xudiyevi tanımasın, onun əsərlərindən faydalanmasın. Sizin "Azərbaycan ədəbi dili tarixi" fundamental kitabınız, Cənubi Azərbaycanda gedən dil proseslərinə aid silsilə yazılarınız, türkoloji qurultaylardakı dərin məzmunlu çıxışlarınız yalnız özünüzə deyil, bütövlükdə Azərbaycan elminə böyük şöhrət qazandırmışdır.*

*Hörmətli Nizami müəllim.*

*Siz məhsuldar alim-tədqiqatçı olaraq qalmamış, uzun illər elmi-pedaqoji sahədə ardıcıl çalışmış, universitet auditoriyalarında mühazirələr oxumuş, proqramlar, dərsliklər yazmış, yüksək səviyyəli elmi kadrlar yetirmisiniz.*

*İctimai-siyasi fəaliyyətiniz isə ayrıca söhbətin mövzusudur. Ümummilli lider Heydər Əliyevin siyasi məktəbinin görkəmli nümayəndələrindən biri kimi siz böyük nüfuza maliksiniz və adınız müasir Azərbaycan tarixində həmişəlik qalacaqdır.*

*Əziz dostum. Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, ömrünüz uzun, canınız sağ olsun deyirəm.*

**Nizami Cəfərov**
Milli Məclisin Mədəniyyət məsələləri komitəsinin sədri

* * * *

*Professor Nizami Xudiyev görkəmli dilçi alim, türkoloqdur. Onun Azərbaycan ədəbi dilinin tədqiqinə, tarixinə, eləcə də tərcümə və bədii əsərlərin, kütləvi informasiya vasitələrinin dilinə həsr etdiyi fundamental əsərləri geniş oxucu kütləsinə çoxdan tanışdır. N.Xudiyev publisistik məqalələri ilə qayğıkeş bir vətəndaş kimi digər alimlərdən fərqlənir. Onun İranla bağlı yazdığı bir sıra kitab və məqalələri Cənubi Azərbaycanda yaşayan soydaşlarımıza olan dərin hörmət və ehtiramın parlaq təzahürüdür.*

*Professor Nizami Xudiyevlə dostluğum 1992-ci ildə Ankarada keçirilən Beynəlxalq Türkoloji Qurultaydan başlayıb və bu günə kimi davam edir. Mən əziz dostum N.Xudiyevi 60 illik yubileyi və yüksək dövlət mükafatı – "Şöhrət" ordeni ilə təltif olunması münasibətilə təbrik edir, ona uzun ömür, cansağlığı arzulayıram.*

**Doktor Cavad Heyət**

* * *

*Hörmətli Nizami müəllim!*

*Sizi, Azərbaycanın görkəmli ziyalı alimini, – millət vəkilini Respublika Prezidentinin sərəncamı ilə ölkəmizin ictimai-siyasi və mədəni həyatında fəal iştirakınıza görə "Şöhrət" ordeni ilə təltif edilməyiniz və 60 illik yubileyiniz münasibətilə ölkə energetikləri adından və şəxsən öz adımdan səmimi duyğularla təbrik edirəm.*

*Siz elmi-praktik potensialınız və dövlətçilik fəaliyyətinizlə Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş milli təhsil strategiyasını yüksək əzmlə davam etdirən, daim vətənin tərəqqisi, xalqımızın rifahı üçün çalışan möhtərəm Prezidentimiz cənab İlham Əliyevin məqsədyönlü siyasətinin həyata keçirilməsinə, Milli Məclisin Elm və təhsil məsələləri komitəsinin işinin təkmilləşdirilməsinə və Azərbaycan təhsilinin gələcək inkişafına öz töhfənizi verirsiniz.*

*Sizi bir daha ad gününüz münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı, xoş əhval-ruhiyyə, filologiya elminin inkişaf etdirilməsi naminə şərəfli alimlik fəaliyyətinizdə tükənməz qüvvə və yeni-yeni uğurlar arzulayıram.*

**Etibar Pirverdiyev**
"Azərenerji" ASC-nin prezidenti

* * *

*Hörmətli Nizami müəllim!*

*Sizin vətənin yüksək mükafatı - "Şöhrət" ordeni ilə təltif edilməyinizi iftixar hissi ilə qarşılayıram. Sizə işinizdə müvəffəqiyyətlər, həyatınızda cansağlığı arzu edirəm.*

**Hacı Səadət İsazadə**
Quba rayonu, 2-ci Nügədi, 3 saylı
orta məktəbin direktoru

* * *



*Hörmətli Nizami müəllim!*

*"Şöhrət" ordeni ilə təltif olunmağınız münasibəti ilə Sizi təbrik edir, uzun ömür, işlərinizdə yeni nailiyyətlər arzulayıram.*

**Əhməd Şadıyev**
Xaçmaz rayonu, Yeni Həyat bələdiyyəsinin sədri

* * *

*Hörmətli Nizami müəllim!*

*Sizi anadan olmağınızın 60 illiyi və xidmətlərinizə görə verilən yüksək dövlət mükafatı almağınız münasibətilə ürəkdən təbrik edir, Sizə cansağlığı, uzun ömür, şərəfli işinizdə uğurlar arzu edirəm.*

**Şıxvəli Eyyubov**
Xudat şəhər sakini, ağsaqqal s

* * *

*Hörmətli Nizami müəllim!*

*Sizi "Şöhrət" ordeni almağınız münasibətilə səmimi qəlbdən təbrik edir, yaradıcılıq fəaliyyətinizdə daha böyük uğurlar arzu edirəm.*

**Abdulbağı Həsənov**
Xaçmaz Su Kəmərləri İdarəsinin rəis müavini

Və s.

Mən bu qeydlərimi etməklə, fikrən həyatımın keçilmiş günlərinə qayıdır, mənə qayğı və diqqət göstərmiş bütün insanları yada salır, xoş arzularla onları anıram. Minnətdarlıq hissləri ilə onlara cansağlığı, uğurlar diləyirəm.

Burada bir məqamı xüsusi vurğulamaq istəyirəm. Yüksək dövlət mükafatına layiq görülməyim, Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı, dostum Şəmsəddin Xanba-

bayevin dövlət qulluğunda səmərəli fəaliyyətinə görə verilən yüksək dövlət mükafatı – "Şərəf" ordeninə layiq görülməyi ilə eyni vaxta düşmüşdür. Hörmətli Şəmsəddin müəllimi bu yüksək dövlət mükafatına layiq görülməsi münasibətilə ürəkdən təbrik edir, ona cansağlığı, səmərəli fəaliyyət arzu edirəm.

Bəli, həyatımın, fəaliyyətimin ayrılmaz hissəsi olan Xaçmaz və xaçmazlılarla bağlılığım mənə xüsusi zövq verir. Xoş xatirələrlə, görüşlərlə zəngin olan bu bağlılıq mənim həyatımdır. Xoşbəxtəm ki, bu həyatı yaşayıram və yazdığım kitabım vasitəsilə düşüncələrimi mənə əziz olan, doğmalaşmış insanlarla bölüşürəm.

**Nizami XUDİYEV**
***Millət vəkili***
***05.04.2010-cu il***



## İstifadə olunan ədəbiyyat


Azərbaycan Sovet Ensiklopediyası . I-X cildlər. 1976-1987.

Azərbaycan tarixi . I cild . Bakl. "Azərnəşr". 1994.

"Azərbaycan tarixi üzrə qaynaqlar" Bakı, 1989.

Ахундов Д.А. Архитектура дрэвнего и ранне-средневекового Азербайджана. Баку.1986.

Abbasova F.Ə. Şabran .Bakı, "Elm".2002.

Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, "Azərnəşr". 1997.

Azərbaycan .Regionların tarazlı inkişafı. Xaçmaz . Jurnal.2007

Azərbaycan. Regionların tarazlı inkişafı. 5 il. Xaçmaz. 2008.

Azərbaycan Milli Ensiklopediyası. Azərbaycan. "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Bakı, 2007s

АВПРТ- Архив Внешной Политики Российской Империи.ф 77,ст.7,дело 159.

Абдуллайев Г.Б."Азербайджан в XVlll в. и Взаимотношения его с Россией". Баку. 1965.

Bakıxanov A.A."Gülüstani-İrəm" Bakı.1951.

Bakıxanov A.A. "Gülüstani-İrəm". (Akad.Z.M.Bünyatovun redaktəsi, mülahizələri, qeydləri ilə. Bakı. 1991.

Azərbaycan maddi mədəniyyət tarixinə dair 1991-ci il çöl tədqiqatlarının yekunları. BDU-nun nəşri .1992.

Бутков П.Г. Выдержки из "Проекта отчота о персидской експедисии в виде писем». 1796. ("История, география и етнография Дагестана"). Москва.1958.

Биберштейн М.Описание провинсий расроложений на левом берегу Каспийского моря между ре-

ками Терек и Кура. Перевод с француз.С. Ашурбейли НАИИНАНА инв. N-581.

Cavadov Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları. Bakı, 2000.

Джафаров Р.Я. "Гунны в Азербайджане". Баку. 1985.

Чалаби Овлия. "Книга путешествия."вып.3. Москва .1983.

Fərzəlibəyli Ş.F. " Azərbaycan və Osmanlı imperiyası XV- XVI əsrlər" .Bakı .1995.

Чулков М.Д.Историческое описание Rоссийской kоммерсии при всех портах и границах от прежних времен до ныне настояших...Т..ll kн.2 СПБ 1785.

"H.Əliyev və Azərbaycanda kitabxana quruculuğu". "Respublika" qəzeti, 8.04.2008.

Həsənov X.N. Təbiət haqqında düşüncələr. Bakı. "Azərnəşr". 1992.

"Xalqlar dostluğu" qəzeti ,11.11.2002-ci il.

"Xaçmaz" qəzeti, yanvar- dekabr 2007-ci il.

"Xaçmaz-75" jurnalı.

Xudiyev N.M. Uğurlu yolun layiqli davamçısı. Bakı,"Nurlan".2007.

Xudiyev N.M. YAP - dünənin, bu günün, sabahın partiyasıdır. Bakı, "Nurlan" 2007.

Xudiyev N.M. Zamanın axarı ilə, I hissə, Bakı, "Azərnəşr". 2004.

Xudiyev N.M. Zamanın axarı ilə, II hissə, Bakı, "Azərnəşr". 2008.

Xudiyev N.M. Azərbaycan ədəbi dili tarixi. Ankara, 1997.



Xaçmaz rayonu –iqtisadi və sosial inkişafı. Yanvar-dekabr, 2007. Xaçmaz, 2008.(Xaçmaz rayon statistika idarəsinin məlumatı.)

İlin ziyalısı. Vektor Beynəlxalq Elm Mərkəzi. Bakı, "Vektor"2006

İsmayılov R. "Azərbaycan tarixi".Bakı.1993.

Ибрагимов М.Д. Предпринимательность Г.З.Тагиева. Баку.1990.

Kalankatuklu M."Alban tarixi".Bakı. 1993.

Qasımov Ə. Xəzərin canlı aləmi və onun qorunması. Bakı. "Azərnəşr". 1979.

Mustafayev T.T . Quba xanlığı, Bakı. "Elm". 2005.

«Mir Cəfər Bağırov xatirələrdə". Bakı. "Nurlan". 2006.

Минорски Б.Ф. История Ширвана, Дербенда. Москва.1963.

Metsorski "Teymurləngin tarixi". (Tərcümə edən H.Bakıxanov).Bakı.Az.SSR EA nəşri. 1957.

Nərimanoğlu F. Azərbaycanın şimal qapısı - Xaçmaz. Bakı, "Nurlan". 2006.

Обозрение российских владений за Kавkазом в статистическом, етнографичеком и финансовом отошениях.ч.ч l-lV.С.Р.Т 836.

"Politra" qəzeti.7 may 2008 –ci il.

Перушевски.С. "Очерки истории феодалъных отношений в Азербайджане и Восточной Армении. Москва.1948.

Süleymanov M. Eşitdiklərim,oxuduqlarım, gördüklərim. Bakı, 1987

## MÜNDƏRİCAT

**Xaçmaz** ........................................................ **3**
Bir neçə söz ........................................................ 5
Xaçmazın tarixinə bir nəzər ........................................ 9
Xaçmaz bu gün ........................................................ 95
Heydər Əliyev və Xaçmaz ........................................ 155
İlham Əliyev və Xaçmaz ........................................ 169

**Xaçmaz: Görüşlər, düşüncələr** ................................ **195**
*Bir neçə söz* ........................................................ *197*
*Görüşlər* ........................................................ *199*
*Düşüncələr* ........................................................ *249*
Gözəl bölgəni daha da gözəlləşdirən insanlar (*Rabil Növruzov*) ........................ 249
Mübarizəli günlərin xoş sonluğu (*Əlövsət Sadıq*) ........... 276
Acılı, şirinli günlər *(Nazim Xudiyev)* ........................... 297
Unudulmaz günlər (*Zahid Xəlil)* ................................. 307
Mən də Nizami müəllimlə fəxr edirəm *(Saleh Vəlimәmmədov*) ........................................ 315
Unudulmaz xatirələr (*Nazənin Daşdəmirova)* ................. 319
Çoxdan gözlənilən layiqli deputat *(Ramiz Məmmədov)* ........................................ 322
Yeni Azərbaycan partiyasının layiqli Namizədi (*Nadir Süleymanov)* ................................ 331
Sadə və səmimi insan (*Nərgiz Seyidova)* ...................... 336
El ziyalısı (*Nazim Ağayev)* ........................................ 341
Elm fədaisi *(Nəzakət Kərimova*) ................................. 345
Nizami Xudiyev kimdir? *(Qərib Aşkari)* ....................... 353
Nizami Xudiyev və xaçmazlılar *(Ələsgər Babayev)* ........................................ 367
Xalqın düzgün seçimi *(Abdulla Didarov*) ....................... 380
Deputatlığa layiq insan (*Hacıyev Hacı Abuzər oğlu)* ........................................ 385
Qurub-yaradan insan (*Elman Allahyarov)* ..................... 390
Xalqına, dövlətinə, prezidentinə sadiq insan (*Abbasyar Heydərov)* ........................................ 394
Gözəl təbiəti gözəlləşdirən insanlar *(Budaq Çaylar oğlu Əliyev)* ........................................ 397
Yel qanadlı məktub *(Davud Qurban Mərd)* ..................... 401
Professor – millət vəkili *(İbrahim Qədirov - Ağçaylı)* .... 403
Öz dəsti-xətti var elmin yolunda *(Xeyrulla Qurbanov)* ........................................ 414
Ömürdən səhifələr *(Nizami Xudiyev)* ........................... 415



**«Elm və təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

Dizayn: ***Zahid Məmmədov***
Texniki redaktor: ***Günay Məmmədova***

Çapa imzalanmış **21.07.2014**
Şərti çap vərəqi **29,6.** Sifariş № **108**
Kağız formatı **60x84 1/16.** Tiraj **500**

Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
**E-mail: *nurlan1959@gmail.com***

Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.